AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 19

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2018

Jurnalın təsisçiləri: Azərbaycan Milli Elmlər Akademiyası
Əlyazmalar İnstitutu və «Elm və təhsil» nəşriyyatı

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Vasim Məmmədəliyev, akademik Teymur Kərimli, akademik Möhsün Nağısoylu, akademik Nizami Cəfərov, AMEA-nın müxbir üzvü, f.ü.e.d., prof. Əbülfəz Quliyev, f.ü.e.d., prof. Vilayət Əliyev, f.ü.e.d., prof. Fəxrəddin Veysəlli, f.ü.e.d., prof. Qəzənfər Kazımov, f.ü.e.d., prof. Rüfət Rüstəmov, f.ü.e.d., prof. Nadir Məmmədli, f.ü.e.d., prof. Əbülfəz Rəcəbli, f.ü.e.d., prof. İsmayıl Məmmədli, f.ü.e.d., prof. Məsud Mahmudov, f.ü.e.d., prof. Nizami Xudiyev, f.ü.e.d., prof. Həbib Zərbəliyev, f.ü.e.d., prof. Tofiq Hacıyev, f.ü.e.d., prof. Sevil Mehdiyeva, f.ü.e.d., prof. Buludxan Xəlilov, f.ü.e.d., prof. İlham Tahirov, f.ü.e.d., f.ü.e.d., prof. Mübariz Yusifov, f.ü.e.d., prof. Qəzənfər Paşayev, f.ü.e.d., prof. Cəlil Nağıyev, f.ü.e d., prof. Kamilə Vəliyeva, f.ü.e.d., prof. Azadə Musayeva, f.ü.e.d. Paşa Kərimov, f.ü.f.d., dos. Nəzakət Məmmədli

Buraxılışa məsul: akademik Teymur Kərimli
Rəyçi: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2018, № 19

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2018

www. filologiyameseleleri.net

DİLÇİLİK

KƏMALƏ İSLAMZADƏ
Bakı Dövlət Universiteti
Filologiya üzrə fəlsəfə doktoru, dosent
kemale_67@mail.ru

MƏRASİMLƏRİN VƏ EPİK JANRLARIN TƏRKİBİNDƏ YASAQLAR

Açar sözlər: yasaqlar, norma, mərasim, nağıl, dastan, rəvayət, inanc, funksionallıq, kult
Keywords: bans, norm, rite, tale, dastan, legend, belief, functionality, cult
Ключевые слова: запреты, норма, обряд, сказка, дастан, предание, верование, функциональность, культ

Çox qədim zamanlarda sosiumun fəaliyyətinin nizamlanması və qaydaların gözlənilməsi formaları kimi yaranan yasaqlar zaman keçdikcə etnosun mənəvi-əxlaqi prinsiplərini ümumiləşdirməklə varlığın yazılmamış qanunları funksiyasını qazanmışdır. Müxtəlif türk xalqlarının, eləcə də rusların folklorşünasları bu nümunələrin öyrənilməsi istiqamətində çox iş görmüşlər (11; 12; 13; 14; 16; 17; 18; 19; 21).

Yasaqların kompleks şəkildə öyrənilməsi göstərir ki, bunlar həm də hələ islamaqədərki dövrdə formalaşmış mənəvi təfəkkür prinsipidir, etnosun ruhunun əsasına çevrilən nəsildən-nəslə ötürülən təcrübədir, instinktləri rasionaldan ayırmağa yönələn davranış modelidir.

Davranış normativlərinin böyük bir layını əxlaqi-mənəvi-etik istiqamətli yasaqlar təşkil edir. Onlar nəsihət, məsləhət, qadağa formasında qurulmuşdur. Məsələn: «Oynaya-oynaya danışma, düşünə-düşünə danış», «Düşünmədən danışma – qarşındakını təhqir edə bilərsən», «Özündən böyüyün yolunu keçmək olmaz» və s.

Mənəvi-əxlaqi yasaqlarda xalqın etnopsixoloji siması, milli xarakteri, idealları, həyat fəlsəfəsi və mentaliteti əks olunmuşdur. Bu səbəbdəndir ki, zamanın sınağından çıxmış yasaqlar uşaq və gənclərin tərbiyəsində geniş tətbiq olunur. Sadəlik, səbr, təmkin haqqında təsəvvürlər fərdin cəmiyyətdə ağıllı davranışını təmin etməyə yönəlmişdir. Onlar etiket, fəaliyyət və nitq normalarını öyrədir. Məsələn: «Düşünmədən danışmaq olmaz – dediyin həyata keçər». Belə yasaqlarda həm də sözün magik qüvvəsinə inam izlənilir.

Bütünlükdə əxlaqi-etik normalar nöqteyi-nəzərindən yasaqlar insanların münasibətlərini, cəmiyyətlə təbiət arasındakı əlaqələri nizamlayan qaydalar sistemi kimi meydana çıxmışdır. Məsələn: «Suya tüpürmək, zibil atmaq olmaz – günahdır». Qədim insanlar belə yasaqları qulaqardına vurmanın, onlara etinasız yanaşmanın fəlakətə yol açacağına inanmışlar. Belə etinasızlığın bir örnəyini də «Kitabi-Dədə Qorqud» dastanı verir. Sarı Çobanın suyun himayədarı olan sakral varlığı – pərini təhqir etməsi, onu zorlaması nəticəsində Təpəgöz kimi bir varlıq dünyaya gəlir. Həm zahirən, həm də daxilən eybəcər olan Təpəgöz Sarı Çobanın günahının maddi təzahürüdür. O, Oğuza cəza olaraq gəlmişdir. Sarı Çoban «təbiət qüvvələrini, əyələri narahat etmək, incitmək olmaz» yasağını unutmuş, onu pozmuşdu. Sarı Çoban Oğuzun bir nümayəndəsi olduğundan onun düşünülməmiş hərəkətinin faciəli nəticələrini bütün el öz üzərində hiss etdi (7, 98).

Yasaqlar və onlara əməl edilməsi insanın mənəvi təkamülünün əsas mexanizmlərindən biri kimi çıxış edir. «Astanada oturmaq olmaz»; «Kitabı açıq qoyub getmək olmaz – yaddaşın korlanar»; «Qapı ağzında görüşməzlər» (10, 221); «Boşqabı bulaşıq qoymaq olmaz – şərə düşərsən» (10, 220).

Hüquqi xarakterli yasaqlar ayrıca qeyd edilməlidir. Onlar hələ qəbilə-tayfa münasibətlərinin hökm sürdüyü ibtidai icma dövründə əmələ gəlmiş və ilkin qanunlar funksiyasını yerinə yetirmişdir.

Yasaqlar insan hüquqlarının dəyərliliyinin qəbul edilməsi prinsipləri haqqında ilkin biliklər toplusu kimi vacibdir. Ona görə də bu nümunələr inkişaf prosesində nəsihətlər formasını alır: «İnsanı nahaq yerə qarğışlama ─ qarğışın özünə qayıdar», «İnsanı nahaq yerə günahlandırma», «İnsana qarşı qəddar olma ─ könlünü qıra bilərsən», «Nahaq yerə insanı təhqir etmə, hamının qarşısında alçaltma ─ yoxsa özün alçalarsan». Beləliklə, ─ insaniyyətin, başqasının həyatına hörmətin dəyərliliyi haqqında ideyalar, ruhun qorunmasına, xilasına çağırışlar ümumiləşdirilmişdir. Onlar əxlaqı, şəxsiyyətin hüquqlarını müdafiə edən qanunlar, ciddi məhdudiyyətlər kimi təsəvvür olunur və müasir dövrümüzdə də aktualdır.

Mənəvi-əxlaqi, etik yasaqlar düzgün, dürüst münasibətlərin qurulmasında və nizamlanmasında əsas rol oynayır. Həyat və məişətdə baş verənlərin hamısı əxlaqi-etik nöqteyi-nəzərdən qiymətləndirilirdi: «İmansız adamla alver etmə», «Vicdansız adamla yol yoldaşı olma».

Bir çox yasaqlar mal-mülkə, yaxud şəxsi mülkiyyətə aiddir: «Yetimin malına toxunma», «Başqasının payını yemə».

Hüquqi təfəkkür, sosial, əxlaqi-mənəvi və etnik biliklərin məktəbi olaraq hüquqşünasların, sosioloq və psixoloqların, etika və estetika müəllimlərinin kompleks elmi tədqiqatlarının da mövzusudur.

Yasaqlar mərasimlərin tərkibində də mühüm rola malikdir. Toy mərasimi ilə bağlı yasaq evlənən cütlüyü şər qüvvələrdən qorumağa, gələcək ailənin rifahını təmin etməyə, qarşılıqlı məhəbbəti gücləndirməyə yönəlmişdir. «Ərinlə danışanda səsini qaldırma ─ xoşbəxtliyi söyürsən». Yasaqda çox zaman onun pozulacağı təqdirdə nə baş verəcəyi barədə məlumat da yer alır: «Gəlin qayınata və qayınanasının qarşısından keçməməlidir ─ yoxsa öz payını azaldar», «Bəy evinə daxil olan gəlinin qarşısından keçmək olmaz ─ ruzisi azalar», «Bəy evinin astanasından keçərkən gəlinə büdrəmək olmaz – həyatı çətin keçər».

Xəbərdarlıq formasında olan yasaqlar nəsihətverici, tərbiyəedici xarakter daşıyırlar. Onlar ər və arvad statusu alan bəylə gəlinin davranışını, böyüklərə və kiçiklərə münasibətini proqramlaşdırır, ailənin dağılmasına gətirib çıxaran səhvlər buraxmaqdan onları çəkindirir. Elçilik prosesi ilə əlaqədar müəyyən qadağa və normalar mövcuddur. Məsələn: «Hər iki tərəfdən valideynlərin razılığı olmasa, elçiliyə getmək olmaz», «Qızın heç olmasa üç qonşusundan onun haqqında soruşmadan elçi getmək olmaz».

Nikah və toyun vaxtı ilə əlaqədar da yasaqlar vardır: «Səfər ayında evlənmək olmaz».

Zaman simvolikalı yasaqların semantik sırasına hava ilə bağlı olan nümunələr də aiddir. «Qasırğalı havada gəlin gətirmək olmaz – həyasız olar», «Çox istidə gəlin gətirmək olmaz – uğursuz olar». Xalqın bu müşahidələrində quru, pis hava ilə qızın pis xasiyyəti arasında analogiya aparılır. Gəlin gətirən zaman yağış yağması isə uğurlu seçimdən xəbər verir «belə gəlin zəhmətsevər olar, cavanlar ruzi-bərəkət içində yaşayarlar».

Kəbin kəsdirmə prosesi ilə bağlı yasaqlar da maraq doğurur. Məsələn, molla tərəfindən oxunan kəbin duasının yarıda kəsilməsi bəd əlamət sayılır. Nikah mərasimi çağırılmamış qonaq və ya təsadüfi şəxs tərəfindən yarıda kəsilməsin deyə, qapıları kilidləyirdilər. Çünki nikah vaxtı sakral hesab olunurdu. Bu müqəddəs akt həyata keçirilən zaman həm yaxşı, həm də pis sayılanların dəfələrlə artdığını düşünürdülər. Odur ki, bütün neqativ olanlar qadağan idi. Məsələn: «Nikah zamanı səs salmaq olmaz ─ yoxsa cavanların həyatı narahat keçər».

Rəqəmlərin rəmzi mənası və cüt rəqəmlərin magiyası ilə bağlı yasaqlar mövcuddur: «Gəlinə ər evinə tək girmək olmaz», «Gənclərə cüt olmayan hədiyyə vermək olmaz», «Gəlinə cüt olmayan yataq dəsti bağışlamaq olmaz». Bütün bu yasaqlar gəncləri yalqızlıqdan, ayrılıqdan qorumaq məqsədi daşıyır, onların birlikdə uzun bir ömür yaşaması arzusu ilə deyilir. Nikah günü və toy zamanı müəyyən etiket normalarına riayət edilir: «Gəlinlə bəy evə daxil olanda onların arasından keçmək olmaz ─ yoxsa boşanarlar»; «Başmağı qayırtdırmağa cüt verərlər ─ tək versən, ərin (arvadın) ölər» (10, 220).

Gənclərin özlərinə ünvanlanan yasaqlar vardır. Məsələn, gəlinə müraciətlə deyilən yasaqlar: «Qazanı boş saxlama, ərinin üstünə çığırma, ərini yüksək səslə oyatma, qayınananla dalaşma» və s.

Toy yasaqlarına əməl olunması qızın gələcək xoşbəxtliyi üçündür.

Əşyaların simvolik mənası da yasaqlarda öz əksini tapmışdır: «Gəlin köçərkən ona qaz və ya toyuq bağışlamaq olmaz – həyatı bu quşlarınkı kimi narahat və qayğılı keçər»; «Gəlinə köçdüyü zaman dibçəkdə gül bağışlamaq olmaz – ömrü bu bitki kimi qısa olar».

Yasaqların formalaşmasında fəaliyyət və məkanlar da rol oynayır: «Ata evindən çıxanda gəlin dönüb arxaya baxmamalıdır, yoxsa geri qayıdar», «Gəlini bəy evinə qısa yolla aparmaq olmaz – ömrü qısa olar, dolayı yolla aparmaq lazımdır».

Əsasında kultun dayandığı arxaik yasaqlar vardır. «Gəlinə bulağa (su mənbəyinə) gedən yolu göstərmək ayini» zamanı onun üçün yeni olan bu yerlərin ruhlarını qəzəbləndirməməkdən ötrü qızın danışması qadağandır. «Dolu vedrələrlə geri qayıdarkən suyu çalxalayıb yerə tökmək olmaz – xoşbəxtliyin tam olmaz», «Büdrəmək olmaz – həyatı ağır keçər»; «Bəy evindəki ilk gün gəlinə boş qaba, süpürgəyə əl vurmaq yasaqdır – həyatı yoxsul və ağır olar». Bu yasaqların kompozisiya quruluşu elədir ki, nümunənin birinci hissəsində qadağanın mətni ifadə olunur, ikinci hissəsində isə onun məntiqi və pozulduğu təqdirdə baş verəcəklər diqqətə çatdırılır.

Bəzi yasaqlarda üçüncü hissə də olur. Burada insan təsadüfən yasağı pozarsa, səhvini düzəltməkdən ötrü onun nə etməli olduğu bildirilir. Məsələn:

«Gecə əvdən ələh, xəlbir, aşsüzən verməzdər başqasına, çünki onda mal-dövlətivi verirsən. Əyər məcbur olup versən, gərəh mütləq əvəzinə bir şey alasan» (6, 250); «Qavırı əlnən göstərməy olmaz. Onda ölü adamı çəkif yanına aparar. Gərəh göstərənnən sonra tişdiyif, əyəğiyin altına qoyasan» (6, 251).

Bir hissədən, yəni yalnız qadağan edən mətndən ibarət yasaqlarda, çox güman ki, səbəb unudulmuşdur. Lakin buna baxmayaraq, yasaq kor-koranə də olsa, yerinə yetirilir.

Müsəlman Şərqində, o cümlədən bizim ölkəmizdə gəlinin ərinin kişi cinsindən olan qohumları ilə danışmaması, onlara görünməməsi, örtünməsi adəti olmuşdur ki, bunlar da uyğun qadağalarla bağlıdır.

Yasaqların bəziləri dövrün, ictimai şəraitin dəyişməsi ilə əlaqədar sıradan çıxıb unudulsa da, digərləri bu gün də məişətdə yaşamaqdadır. Toyla bağlı yasaqlar ər-arvad münasibətlərini reqlamentləşdirən yüksək əhəmiyyətli normativlərdir.

Toy mərasimi ilə bağlı yasaqlarda islamaqədərki fikirlərlə müsəlman təsəvvürləri qovuşmuşdur. Onlar ideya-estetik, mənəvi, davranış normalarını

əks etdirir, tərbiyəvi əhəmiyyət daşıyır, yeni ailənin xoşbəxt və firavan yaşayışını nizamlayır.

Yasaqlar içərisində hamiləliyə, adqoyduya və uşaqların tərbiyəsinə dair olanları da az deyildir. Onlar hamilə qadının və dölün sağlamlığının qorunmasına, uşaqlara mənalı və uğur gətirən adlar verilməsinə və onların cəmiyyət üçün xeyirli vətəndaşlar kimi yetişdirilməsinə hesablanmışdır. Qədim zamanlardan hamilə qadına xüsusi ehtiram nümayiş etdirilmiş, onunla bağlı ciddi qaydalar və yasaqlar müəyyənləşdirilmişdir. Məsələn: «Hamilə qadına qəbiristanlığa girmək olmaz», «Hamilə qadına əgər çox yaxın adamı deyilsə, meyitə yaxın getmək olmaz», «Hamilə qadına ölünü yola salmaq, sonsuz qadınla görüşmək yasaqdır ─ yoxsa uşağı tələf olar». Bu yasaqlar bətnində gələcək canlı insan daşıyan qadını ölülər dünyasından təcrid etmək məqsədi ilə bağlıdır.

Çox zaman yasaqların məzmunu və mənası fəaliyyət və hadisələr arasındakı məntiqi qarşılıqlı əlaqə üzərində qurulur: «Hamilə qadına saçlarını kəsdirmək olmaz – ömrü və xoşbəxtliyi qısa olar». Qədim zamanlardan etibarən saçların magik qüvvəyə malik olduğuna inanmışlar. İnsanın gücü və enerjisi saçları ilə əlaqələndirilirdi. Saçların uzunluğu ömrün və xoşbəxtliyin uzunluğu ilə müqayisə edilirdi. «Uşağın ciftini çayın kənarında basdırmaq, axar suya atmaq olmaz. Əgər atsan, hal anası xəbər tutub gələr və anaya zərər yetirərdi». Əsas ideyanın verilməsində əlamətlərin, xarici aləmin xüsusiyyətlərinin qabarıq əlaqəsi yasaqların poetik məzmununu fərqləndirir: «Hamilə qadına yun əyirmək və toxumaq qadağandır, yoxsa göbək ciyəsi uşağın boynuna dolanar». Toxumaq, ip əyirmək dolaşıqlıqla, qarışıqlıqla assosiasiya doğurur. Yasaq məhz bu əlamətə əsaslanaraq hamilə qadını xəbərdar edir.

Həyat və məişətdəki situasiyalar saqındırmaların məqsəd və məzmununa tətbiq olunaraq folklorlaşır və yasaqların mətnində dərin məna və rəmzilik kəsb edir: «Hamilə qadına əl dəyirmanını fırlatmaq olmaz – uşaq göbək ciyəsi boynuna dolanmış vəziyyətdə doğular».

Müxtəlif qruplara aid yasaqların poetik özünəməxsusluğu quruluşuna görə universaldır: bu, səbəb və nəticələrin məntiqi əlaqəsi, amiranə ton və xəbərdarlığın olması şəklində təzahür edir. Belə ki, yasaq formulunun birinci hissəsində xəbərdarlıq verilir. («Yenicə doğulmuş körpəni tək qoyub getmək olmaz»), ikinci hissədə isə nəticə izah edilir («yoxsa onu şeytan oğurlayar» ─ yəni ruhunu oğurlayar, başqa sözlə, uşaq ölər).Yasaqların bir çoxu nəticələri göstərmədən davranışlarla bağlı təlimat kimi səslənir. Yasaqlarda ümumiləşdirmənin gücü və mahiyyətin lakonikliyi simvolik fikirdən, gizli mənadan, saylardan, rənglərdən, zaman, məkan kateqoriyalarından bacarıqla istifadə etməklə əlaqədardır.

Hamilə qadınlara heyvanları, pişik və itləri incitməyin yasaq edilməsi onları bu heyvanların lənətindən, qarğışından qorumaq məqsədini güdür. («bu zaman uşaq xəstə və ya şikəst doğular»).

Yasaqlarda çoxəsrlik mifoloji təsəvvürlər və kultlarla bağlı biliklər ümumiləşdirilmişdir. Belə ki, hamam bir məkan kimi şər qüvvələrin toplaşdığı yer hesab edilirdi. Odur ki, zahı (yenicə doğmuş) qadına hamama tək getmək olmazdı, onu əbəçi qadın müşayiət edirdi. Önləyici tədbirlər kimi aşağıdakıları göstərmək olar: «Uşağın adını bələhdə qulağına deməsən, uşaq yekələndə yalançı olar» (3, 62), «Hamamda uşağın adını tələffüz etmək olmaz», «Qırxı çıxanadək körpəni adı ilə çağırmaq olmaz ─ şeytan onu dəyişdirər». Təlimatlarda inanclar, Quranın müqəddəsliyinə əminlik də öz əksini tapmışdır: «Yeni doğulmuş körpəni yalqız qoymaq olmaz, yanında Quran, bıçaq saxlamaq lazımdır».

Yasaqlarda uşağın əşyalarının bədən hissələrinin sakrallaşdırıldığı izlənilir: «Göbəkbağını atmaq olmaz», «Köynəkdə doğulan uşaq xoşbəxt olar, ona görə də köynəyi (ana bətnində uşağı əhatə edən təbəqə – qabıq) tullamaq olmaz», «Körpənin ilk saçını, ilk dırnaqlarını atmaq olmaz, onları saxlayırlar ki, uşaq xoşbəxt olsun», «Uşağın avcını yumazdar. Deyəllər ki, avıcdakı kir uşağın yuxuluğudur. Yuxuluğu yusan, uşax yatammaz» (6, 254).

Yasaqlarda ruhun əksindən qorunmaq mənasında güzgü obrazı iştirak edir: «Körpəyə güzgüyə baxmaq olmaz ─ yoxsa qorxar, dili gec açılar, pəltək olar və ya lal qalar». Əşyaların tətbiqi sferalarına da yasaqlarda toxunulur: «Uşağı süpürgə ilə vurmaq olmaz – xəstələnər».

Boşluğun simvolikası ondan həyatda qorunmaq, uzaq olmaq arzusunu doğurur: «Boş beşiyi yelləmək olmaz ─ yoxsa uşaq ölər», «Boş beşiyi yellətmək olmaz, şeytanı yellədirsən».

Yasaqların bir çoxunda uşağın tərbiyəsi, onun əxlaqi-mənəvi simasının kamilləşməsi ideyası üstünlük təşkil edir. Belə yasaqlarda özünü cəmiyyətdə, evdə, masa arxasında, doğmalarla münasibətdə necə aparmaq lazım gəldiyi barədə biliklər saxlanılır: «Böyüklərdən qabaq masa arxasına oturmaq olmaz», «Çox gülmək olmaz, ruha zərərdir», «Böyüklərin söhbətinə qarışmaq olmaz», «Yaşlıların yolunu keçmək olmaz» və s.

Uşaqları kiçik yaşlarından əməyə, səliqə və gigiyenaya öyrətmək vacibdir. Əməyə hörmət məişət əşyalarına ehtiramı ehtiva edir: «İşlədikdən sonra süpürgəni ortada buraxmaq olmaz, səliqə ilə söykəsən, sevincli hadisə baş verər». «Yeri silərkən döşəmə taxtalarının eninə yumaq olmaz». Bu yasağın simvolik mənası fəaliyyətlərin qaydaları, əşyalar və onların yerləşməsi barədə bilikləri ehtiva edir.

Yasaqların bir qismi uşaqların ekoloji tərbiyəsinə hədəflənmişdir: «Lüzumsuz yerə otu qırmaq olmaz», «Bulağı zibilləmək olmaz». Yasaqların

poetik-məna aləmi anlayışların həmhüdudluğunu, ənənəviliyi, alleqoriyanı, simvolizmi nümayiş etdirir.

Dəfn mərasimi mifoloji təsəvvürlərin, inancların, təlimatların, yasaqların çarpazlaşdığı ən mürəkkəb komplekslərdən biridir. Mərasim bir neçə mərhələdən ibarətdir: mərhumun basdırılmağa hazırlanması, dəfn, yas (ölənin ruhuna dua və ayələrin oxunması).

Ölənin torpağa tapşırılmasının günümüzdə islam qayda-qanunlarına uyğun bir şəkildə həyata keçirilməsinə baxmayaraq, mərhumun son mənzilə yola salınması zamanı qədim xalq adətləri də müşahidə edilir. Dəfn mərasimində özünü göstərən inanclar, əlamətlər, yasaqlar təbiət kultu, həyat fəlsəfəsi və ruhun ölməzliyi barədə xalq təsəvvürlərinin dərin qaynaqlarını inikas etdirir. Yasaqlarda öz əksini tapmış davranış qaydaları həyatda qalan insanların mərhumun hüquqlarını müdafiə etmək, onun xatirəsinə ehtiram göstərmək kimi vəzifələrindən irəli gəlir: «Ölü haqqında pis danışmaq olmaz» (burada əcdad kultunun izləri görünməkdədir), «Qəbir daşının üstünə çıxmaq, yaxud üzərində oturmaq olmaz», «Mərhumun əşyalarını atmaq olmaz», «Ölənin qırxı çıxana qədər evdə işığı söndürmək olmaz – mərhumun ruhu inciyər».

Ölümlə bağlı saqındırmalar, müxtəlif məişət təlimatları həyat və o biri dünya haqqında təsəvvürlərə əsaslanır. Məsələn, ölünü yola salan zaman iş görməyin yasaq olunması ondan irəli gəlir ki, iş bitdikdən sonra ölüm mələyi (Əzrayıl) onun da canını alar. Ölüm günündə, yaxud mərhumun anıldığı günlərdə işə başlamağın qəti qadağan olunması bununla bağlıdır: «Bir şəxsin ölümündən xəbər tutduqda döşəməni silmək və ya paltar yumaq olmaz». Yasaqların bir çoxu ölümü böyük bir sirr kimi qəbul etməklə və ölünün ruhu haqq dünyasına köçərkən düzgün olmayan hərəkətlər nəticəsində ona zərər verməkdən ehtiyatlanmaqla bağlıdır: «Qəbiristanlığı barmaqla göstərmək olmaz», «Ölünü dəfn etməyə aparan dəstənin qarşısından keçmək olmaz», «Ölünün saçını kəsmək, saqqalını qırxmaq və ya qısaltmaq, dırnaqlarını tutmaq olmaz».

İnsanı ölümündən sonra belə qorumaq məqsədi daşıyan yasaqlar qəti xarakter daşıyır. Məsələn: «Qüsul almamış ölüyə yaxınlaşmaq olmaz. Bütün yasaqlar dualar kimi, həyatda və o biri dünyada ruhun ölümsüzlüyü barədə təsəvvürləri vurğulayır.

Dəfn mərasiminə islam qaydalarının nüfuz etməsi və cinslərə (qadın və kişilərə) münasibətin fərqləndirilməsi motivləri diqqəti cəlb edir: «Qadının cəsədini kişi, kişinin cəsədini isə qadın yuya bilməz». Yasaqlarda izləri dolaşdıran, şər qüvvələrdən qoruyan, dolayı yollarla həyata keçirilən magiya müəyyənləşir: «Ölünü basdırdıqdan sonra qəbiristanlıqdan onun çıxarıldığı evə qayıtmaq olmaz», «Qəbiristanlıqdan evə birbaşa düz yolla qayıtmaq olmaz, xəstəliyin ruhu adama ilişib gələr».

Qəbiristanlıq əskidən sakral məkan hesab edilmişdir. Oradakı bitkilərin, ağacların, əşyaların ölülər dünyasına məxsus olduğuna inanıldığından onlar toxunulmaz sayılırdı. Bu təsəvvürlərdən irəli gələn yasaqlara dəfnlə bağlı etiketlərdə ciddi şəkildə riayət olunur: «Qəbirləri tapdalamaq, üzərində oturmaq olmaz», «Qəbiristanlıqdan heç nə aparmaq olmaz», «Qəbiristanlıqdakı ağacları kəsmək olmaz» və s.

Beləliklə, dəfn mərasimi ilə bağlı yasaqlar əcdad ruhlarını rəhmə gətirmək, insanların darvanışlarını, etiketi reqlamentləşdirmək funksiyalarına malik idi. Bir çox təlimatların, davranış normalarının gözlənildiyini bu gün də müşahidə edirik. Bəzi yasaqlar öz aktuallığını itirərək unudulmuşdur. Digərləri isə zəmanəyə uyğun transformasiyaya uğramaqla indi də fəaliyyətdədir. İslam simvolikasına malik yasaqlar xalqın inancları, qədim etiqadları ilə bir arada, üzvi şəkildə mövcuddur.

Yasaqların bir qismi də təsərrüfat-məişət həyatına aiddir. Onları aşağıdakı kimi qruplaşdırmaq mümkündür: 1) ev tikintisi (yerin, ağac növünün seçimi və s.); 2) daxili tikinti (artırma, döşəmə və s.); 3) ev avadanlığı, məişət əşyaları (soba, masa, qab-qacaq, güzgü və s.); 4) yeməyin hazırlanması; 5) həyətin quruluşu (hamam, bağça, doqqaz, anbar, quyu və s.); 6) əmək alətlərinin hazırlanması (at üçün qoşqu ləvazimatı, balta, bel və s.); 7) ev heyvanlarına və həyətə qulluq; 8) sənət sahələri ilə bağlı qaydalar (arıçı, ovçu, balıqçı və s.); 9) xalq təbabəti vasitələri (ovsun, tilsim və s.).

Bu tip yasaqlara aşağıdakıları örnək gətirmək mümkündür: «Mal gələn vaxdı tavlanı süpürməh olmaz, yoxsa malın damazdığı kəsilər» (3, 58); «Əppəyi əyağ altına atmazdar – deyərlər əppəy qəhətə çıxar» (3, 59); «Duzu bı dünyada yerə töhsən, o dünyada kirpihlərinlə yığarsan» (3, 59); Atı satanda yüyən və noxtasını verməzlər» (10, 219).

Yasaqlar məişətdə müəyyən yer tutmaqla xalqın yaddaşında nisbətən sabitdir. Fərdin şüuraltısı onları instinktiv olaraq saxlayır və «adətə uyğundur» deyərək, «əcdadlarımız belə edirdilər» prinsipinə əsaslanaraq təkrarlayırlar. Lakin şüurun dəyişməsi ilə əlaqədar olaraq, həmçinin əsl mahiyyəti və mənası unudulduğundan vaxtilə sözsüz riayət olunan yasaqların bir hissəsi öz funksionallığını itirərək təcrübədə tətbiq edilmir. Bununla belə qədim dövrlərin əski şahidi olmaqdan da qalmır. Məsələn: «Köhnə evin bünövrəsini dağıtmaq olmaz – kimsə ölər və ya mal-qara qırılar», «Sobanı boş qoymaq olmaz – aclıq baş verər», «Başı masaya qoyub uzanmaq yasaqdır – yoxsa başdan bəla əskik olmaz» və s.

Vladimir Yakovleviç Propp sehrli nağıllardakı iştirakçıların funksiyalarından danışarkən ikinci yerdə yasağı, üçüncü yerdə isə onun pozulmasını qoymuşdur (Propp cəmi 31 funksiya göstərmişdir) (20, 36-37). O, qeyd edir ki, II və III funksiyalar cüt elementdir və bəzən sonrakı əvvəlki olmadan fəaliyyət göstərə bilər. Yəni bəzi nağıllarda yasaq səslənmədən onun

pozulduğunu görürük. Müəllif belə bir nümunə göstərir. Bağda gəzən şahzadə qızlar evə gec gəlirlər. Burada «Evə gec gəlmək olmaz» yasağı buraxılmışdır. Lakin onu təsəvvür etmək mümkündür (20, 37).

Propp rus nağıllarından aşağıdakı nümunələri gətirir: «Bu anbara girmək olmaz»; «Qardaşını qoru, həyətdən çıxma»; «Küpəgirən qarı gəlsə, ona heç nə demə, sus»; «Knyaz qızı çox dilə tutdu, yüksək köşkü tərk etməyi yasaqladı».Bəzən yasaq zəifləmiş formada, yəni xahiş və ya məsləhət şəklində verilir. Məsələn, «Ana oğlunu dilə tutur ki, balıq ovuna getməsin» (20, 36).Yasağın tərsinə forması isə əmr və ya təklif şəklində ola bilər. Məsələn, «Tarlaya yemək gətirmək», «Qardaşını özü ilə meşəyə aparmaq».

Əgər uşaqlara tarlaya çıxmaq və ya meşəyə yollanmaq təklif edilirsə, bu əmrin yerinə yetirilməsi «tarliya getmə» və «meşəyə çıxma» yasaqlarının pozulmasının nəticələrinə uyğun olacaqdır (20, 37).

Zaman keçdikcə təsərrüfat və məişətlə, ənənəvi avadanlıqla bağlı yasaqların bəziləri unudulmuş, istifadədən çıxmışdır, lakin bir çoxu da hətta irrasionallığına baxmayaraq, xüsusilə, kənd yerlərində indiyədək qorunub saxlanılmışdır.Yasaqlar ayrıca bir janr olmaqdan başqa, digər janrların tərkibində də iştirak edə bilər: ovsunların, atalar sözlərinin, eposların, nağılların, rəvayətlərin, əfsanələrin və s.Yasaqların poetikasının özünəməxsusluğu əsərin məzmun və xarakteri ilə bağlıdır. Məsələn, «Koroğlu» eposunda Alı kişi dərya cinsindən olan iki ayğırı oğluna tapşırarkən, onlara insan gözünün baxmasını, üzərlərinə günəş şüasının düşməsini yasaqlayır. Koroğlu bu yasağı pozduğundan atların qanadları əriyir (8, 8).«Zətulək və Xıu-lıu» başqırd eposunda «Geriyə dönüb baxmamaq yasağının pozulması nəticəsində Zətulək sualtı aləmin hökmdarının verdiyi hədiyyəni tam ala bilmir. Ona verilən at ilxısının yarısı gölün içinə qayıdır (15, 19). Bunlar yasağın pozulmasının mənfi nəticələrə gətirib çıxarmasına nümunədir. Lakin bəzən yasağın pozulması müsbət nəticə verir, qəhrəmana uğur gətirir. Məsələn, «Şah İsmayıl» dastanında qaranlıq zirzəmidə saxlanılan Şah İsmayıla sümüklü ət verilməməsi barədə yasaq təsadüfən pozulur və şahzadə sümüyü atıb divarı deşməklə işıqlı aləmin olduğundan xəbər tutur. Beləliklə, çoxillik zirzəmi həyatından qurtulur (2, 128).«Tahir və Zöhrə» dastanında Xanverdi sövdəgər səfərə gedərkən qırxıncı otağın açarını Tahirə verməyi yasaq etmişdi. Lakin yasaq pozulur, Tahir təsadüfən yerə düşmüş açarı tapıb kənizi sorğu-suala tutur. Onun «Bahar bağı»nın açarı olduğunu öyrənir. Bağa girib bülbülün sevdiyi gülün yolunda canını qurban verməsi səhnəsinə şahid olur. Sevgilisi Zöhrə yadına düşür və artıq heç kəs onu öz ölkəsinə qayıtmaq fikrindən döndərə bilmir (1, 142-145).

Nağıllarımız içərisində yasağı pozanın acınacaqlı sonluğa varması barədə nümunələr az deyil. Məsələn, «Ovçu Pirim» nağılında bütün heyvan

və quşların dilini bilən baş qəhrəman bu sirri açmamaqla bağlı yasağı pozduğundan canavarlar tərəfindən yeyilir (4, 239-242). «Üç qız» nağılında isə kiçik bacı öz ərinin sirrini açaraq bütün var-dövlətini və evini itirir (9, 275-281). «Şahzadə və qurbağa» nağılında padşahın kiçik oğlu qurbağa ilə evlənir. Qurbağa cildini çıxarıb gözəl bir qıza çevrilir. Qurbağa donunu yandırmağı ərinə yasaqlayır. Oğlan qızın yenidən qurbağaya dönəcəyindən ehtiyat edib donu yandırır. Qız qeybə çəkilir. Əri min bir əziyyət çəkib onu axtarıb tapmalı olur (5, 221-222).

Yasaqların poetik dünyasını müqayisələr, kateqoriyalar (zaman, məkan) və simvollar (rənglər, saylar, cütlük, təklik) təşkil edir. Yasağın pozulması folklor nümunəsinin süjet xəttini yaradır. Rəmzi dil yasaqlarda funksionallıq qazanır: «Oğlan uşağını cüt yaşında sünnət eləmək olmaz – 1, 3, 5 yaşı olmalıdır». Bu yasaqda say simvolikası tətbiq edilmişdir.

«Nə üçün pişiyi oyatmaq olmaz» adlı başqırd rəvayəti «Pişiyi incitmək olmaz – səni lənətləyər» yasağı üzərində qurulmuşdur (15, 20).

Başqırdlarda cümə günü iş görmək, çirkli su boşaltmaq yasaqdır. Rəvayətlərdən birində deyilir ki, bir qız bu yasağı pozaraq paltar yuduğundan Xızır İlyas onu inəyə çevirir (15, 20).

«Dərviş» adlanan başqırd nağılında isə dərviş tülküyə şahzadə qızın yanına getməyi yasaqlayır. Lakin tülkü ona qulaq asmır, şahzadə qızın yanına gedir. Nəticədə dərviş varlanaraq həmin qızla evlənir və xoşbəxt yaşayır. Burada yasağın pozulması şəxsiyyətin özünü reallaşdırmasına imkan yaradır (15, 21).Folklor nümunələrində yasaq insan mənəviyyatının əsas nüvəsi və özünü qorumanın bir vasitəsi kimi çıxış edir. Bu janrı ibtidai insanların düşüncəsinin məhsulu kimi köhnəlmiş hesab etmək düzgün deyildir. Onlar tərbiyəvi xarakter daşıyır, dürüst və yüksək mənəviyyatlı şəxsiyyət yetişdirməyə xidmət edir.

Ədəbiyyat

Azərbaycan dilində:

1. Azərbaycan dastanları. 5 cilddə, I c. Bakı: Lider, 2005, 392 s.
2. Azərbaycan dastanları. 5 cilddə, III c. Bakı: Lider, 2005, 328 s.
3. Azərbaycan folkloru antologiyası. I c. Naxçıvan folkloru. Bakı: Sabah, 1994, 388 s.
4. Azərbaycan folkloru antologiyası. XVI c. Ağdaş folkloru. Bakı: Səda, 2006,
496 s.
5. Azərbaycan nağılları. 5 cilddə, V c. Bakı: Şərq-Qərb, 2005, 304 s.

6. Əsatirlər, əfsanə və rəvayətlər. (Tərtib edənlər: Arif Acaloğlu, Cəlal Bəydili). Bakı: Şərq-Qərb, 2005, 304 s.
7. Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı, 1988, 265 s.
8. Koroğlu (Çapa hazırlayan M.H.Təhmasib) Bakı: Gənclik, 1982, 328 s.
9. Qarabağ: Folklor da bir tarixdir. II c. Bakı: Elm və təhsil, 2012, 484 s.
10. Mərasimlər, adətlər, alqışlar (Toplayanı A.Nəbiyev). Bakı: Gənclik, 1993,
352 s.

Rus dilində:

11. Бурцев А.Е. Обзор русского народного Северного края /А.Е.Бурцев. В 3 томах, т., 3. СПБ, 1902, с.236-332
12. Вильданов А. Древние религиозные мировоззрения тюркских народов// Башкирский аймак, 1926, с.27-38
13. Гайсина Ф.Ф. Запреты в башкирских свадебных обрядах//Вестник Чел.Г.У. Выпуск 49. 2010, №34 (215), с.35-39
14. Гайсина Ф.Ф. Запреты в похоронно-погребальных обрядах башкир// Вестник Чел.ГУ. Выпуск 70, 2012, №28 (282), с.49-54
15. Гайсина Ф.Ф. Запреты как фольклорный жанр в традиционной культуре башкир. Автореферат диссертации на соискание учёной степени кандидата филологических наук. Казань, 2013, 25 с.
16. Добровольская В.Е. «Всякая сосна своему бору шумит»: поверья, запреты и предписания, регламентирующие поведение «чужих» и «своих»//Традиционная культура. Научный альманах. М., 2012, №2, с.9-19
17. Добровольская В.Е. Запреты и предписания, связанные с исполнением похоронно-поминальных причитаний, в традиционной культуре центральной России (материалы Владимирской и Ярославской областей)// Славянская традиционная культура и современный мир. Вып. 12. Социальные и эстетические нормативы традиционной культуры: Сб научных статей. М., 2009, с.319-333
18. Добровольская В.Е. Опыт полевой фиксации запретов и предписаний: нормативы, связанные с голосом// Славянская традиционная культура и современный мир. Вып.15: Стратегия и практика полевых исследований: Сб. научных статей. М., 2012, с.242-259
19. Зеленин Д.К. Имущественные запреты как пережитки первобытного коммунизма/Д.К.Зеленин. Т.1, вып.1: Л., 1934, 75 с.
20. Пропп В.Я. Морфология сказки// Вопросы поэтики (непериодическая серия издаваемая отделом словесных искусств. Вып. XII., Ленинград, Академиа, 1928, 152 с.

21. Рассадин В.И. Табу слов и эвфемизмы //Фонетика и лексика тофаларского языка. Улан-Уде, 1971, с.140-145

K.Islamzadeh

The bans in the composition of rites and epic genres

Summary

The article deals with the bans both as a separate genre and as a motive that manifests itself within the epic genres.

The history of bans goes as far back as primitive communal system. Bans is a system of rules regulating human relationship and interaction between individuals and nature and society. These samples reflect the people's mythological notions, concepts of good and evil, good and bad, moral-ethical views. Bans related to both old religies and Islam occur in the rites connected with birth, naming, in wedding and burial rites. Bans can rightly be called life norms, spiritual criteria. The article specifies the poetic structure, formula of construction of bans. Bans are aslo parts of tales, dastans, legends. In this case it is the violation of ban that gives impetus to development of the plot.

К.Исламзаде

Запреты в составе обрядов и эпических жанров

Резюме

В статье запреты рассматриваются и как отдельный жанр, и как мотив, проявляющийся в составе эпических жанров. История запретов восходит к первобытно-общинному строю. Запреты - система правил, регулирующих взаимоотношения между людьми, природой и обществом.В этих образцах отражены мифологические представления народа, понятия о добре и зле, хорошем и плохом, нравственно-этические взгляды. В письменных образцах встречаются запреты, связанные как со старыми верованиями, так и с исламом. Их можно встретить в ритуалах, связанных с рождением и наречением имени, в свадебных и похоронных обрядах. Запреты можно по праву назвать жизненными нормами, духовными критериями. В статье уточняются поэтическая структура, формула построения запретов. Запреты входят и в состав сказок, дастанов, легенд, преданий. В этом случае именно нарушение запрета даёт толчок развитию сюжета.

Rəyçi: Muxtar İmanov
Akademik

SƏİDƏ RÜSTƏMOVA
ADU
Filologiya üzrə fəlsəfə doktoru, dosent
saida@mail.ru

M.MÜŞFİQİN ŞEİRLƏRİNDƏ MORFOLOJİ TƏKRARLAR

Açar sözlər: morfoloji obrazlılıq, dil, üslub, emosionallıq, şeir, söz, anafora, epifora, fonetik obrazlılıq.
Key Words: Intonation, morphological repetitions, figurativeness, language, style, emotiveness, poetry, word, rythm.
Ключевые слова: морфологическая фигуративность, язык, стиль, эмоциональность, стихотворение, слово, анафора, эпифора, фонетическая фигуративность.

Cəmiyyət həyatının elə bir sahəsi yoxdur ki, orada dildən istifadə olunmasın. Dil müxtəlif situasiyalarda fikri müxtəlif üsul və vasitələrlə ifadə edir. Dilin müxtəlif situasiyalarda fikirləri müxtəlif cür ifadə etməsi də onun funksional fəaliyyəti ilə bağlıdır ki, bu da üslubların yaranmasına səbəb olur. Dilçilikdə üslubiyyat dedikdə, əsasən, iki üslubiyyat növü nəzərdə tutulur. Bunlardan birincisi dil vahidlərinin üslubiyyatıdır ki, onların özləri də müxtəlif yarımqruplara bölünür: fonetik üslubiyyat, leksik üslubiyyat, morfoloji üslubiyyat və sintaktik üslubiyyat. Üslubiyyatın bu bölümləri modallıqla sıx əlaqədardır. Hətta cümlənin aktual üzvlənməsində iştirak edən prosodik vasitələr də üslubi fonetikaya aiddir. Üslubi morfologiyada müəyyən şəkilçilərin artırılması və ya ixtisarı üslubi xarakter daşıyır. Məsələn: “Xalqın düşmənləri xalq düşmənlərini məhv edir”. Burada “xalq” sözünün birincisində yiyəlik hal şəkilçisi vardır. Deməli, düşmənlər də, xalq da konkretdir. İkinci “xalq” sözündə isə müəyyənlik bildirən yiyəlik hal şəkilçisi yoxdur. Buna görə də həm xalq, həm də düşmən sözləri qeyri-müəyyəndir. Bədii üslubun ən əsas komponenti olan obrazlılıq-xarici aləmə məxsus əşya və hadisələr haqqında sözün əyani hissi obrazlar yaratma qabiliyyətidir. Bədii obrazlılıq bədii əsərə məxsusdur. Dilin bütün vasitələrindən bədii obrazlılıq yaratmaq üçün istifadə oluna bilər. Dilin qrammatik kateqoriyaları da, intonasiya vasitələri də, səs quruluşu da bədii obrazlılığa xidmət edə bilər. Bununla belə, bədii obrazlılıq əsərdə özünü göstərən obrazlı dil vasitələrindən ibarətdir. Nitqdə obrazlılıq məsələsi dilçilik üslubiyyatı kateqoriyasıdır.

Azərbaycan ədəbiyyatının bədii üslubunda obrazlılıq daha çox inkişaf etmışdir. Bu, birinci növbədə xalqımızın bədii təfəkkürünün inkişafı ilə bağlıdır.

Bədii üslubun obrazlılığı dilin müxtəlif səviyyələrində özünü göstərir: hər bir səviyyədə onun özünəməxsus xüsusiyyətləri olsa da, obrazlılıq bütöv bir hadisədir, bu və ya digər mətni ümumilikdə xarakterizə edir.

Emosionallıq, hər şeydən əvvəl, obrazlılıqdan irəli gəlir, obrazlı nitq eyni zamanda emosional (və ya ekspressiv) nitqdir.

Dilin müxtəlif səviyyələrində obrazlılığın, eləcə də emosionallığın göstəriciləri müxtəlifdir. Qrammatik səviyyədə obrazlılıq söz sırasının dəyişməsi, müxtəlif söz birləşməsi və cümlə tiplərinin təkrarı, ellipsis (müxtəlif nitq vahidlərinin-hecaların, şəkilçilərin, sözlərin buraxılması. Ancaq bu buraxılan üzvlər qavranır.) və sair vasitələrlə təzahür edir. Obrazlılığın fonetik səviyyədə təzahürü qrammatik səviyyədəki təzahürü ilə, leksik səviyyədə təzahürü isə həm fonetik, həm də qrammatik səviyyədəki təzahürləri ilə birbaşa bağlıdır. Lakin faktlar bir daha sübut edir ki, dildə qrammatik səviyyədə ekspressivlik və emosionallığın yaradılmasının imkan dairəsi daha genişdir. Dilçiliyin başqa sahələri kimi Qrammatikanın Morfologiya şöbəsi də nisbi müstəqilliyə malikdir. Morfologiya sözlərin qrammatik xüsusiyyətlərini öyrənir, o xüsusiyyətləri ki, onlar tək-tək sözləri deyil, bütöv söz qruplarına aid olur, onların dəyişməsini, təsrifi sistemini üzə çıxarır, fikrin ifadəsinə xidmət edir. Filosofların dediyi kimi: “Dildə yalnız ümumilər vardır”. Bədii ədəbiyyatda obrazlılığın və emosionallığın yaranmasında morfoloji təkrarlar böyük rola malikdir. Söz birləşmələrində, misra və bəndlərdə, nəsrdə və cümlələrdə ən azı iki-üç dəfə təkrar olunan morfoloji vahidlərə (kök və şəkilçilərə) morfoloji təkrar deyilir.

Anaforalar ancaq şeir misralarının, nəsrdə isə cümlələrin əvvəlində, epiforalar isə misra və cümlələrin sonunda təkrar olunan anaforik və epiforik təkrarlar işlənir. Məsələn:

Gözəl bahar, gözəl bahar,
Yurdumuza tez gəl, bahar.

Getmə tərsa balası, mən də sənə sayə gəlim
Damənindən yapışım mən də kəlisayə gəlim.

Arzum budur, boy atasız,
Ananıza tez çatasız!

Anaforik və epiforik morfoloji təkrarlar da morfoloji təkrara daxildir. Morfoloji təkrarların yeri sərbəstdir.

Hər səhər, hər axşam, hər səhər,
Çox zaman sərsəri, küləklər bixəbər

Bir yaxın dost kimi qapını döyərlər.
Küləklər, küləklər bəstəkar küləklər,
Dünyanı dolaşan bəxtiyar küləklər!

Adi praktik dil bədii ədəbiyyatın dilindən, şeir dilindən fərqlənir. Bədii sözün başlıca xüsusiyyəti məhz onun bədiiliyidir. Ona görə də bədii söz daha mənalı olur: şeirdə dilin məntiqi keyfiyyətləri bədii keyfiyyətlərə güzəştə getməli olur:

Sanki göylərdə uçan quş kimiyəm
Sanki yerdən uçurulmuş kimiyəm
Sanki bir sel kimi axmaqda şəhər...

Şair sirayətedici duyğularını doğru ifadə edir. Ümumiyyətlə, dilimizdə eyni mənanı ifadə edən ünsürlərin eyni tərkibdə, yanaşı işlədilməsi adi hallardandır. Danışıq dilindən fərqli olaraq bədii söz həm də şərti sözdür. Bədii ədəbiyyatda söz həm danışıq dilindəki funksiyaya, həm də bədiilik funksiyasına malikdir. M.Müşfiqin "Körpü" şeirindən aldığımız aşağıdakı parça bu cəhətdən diqqətəlayiqdir:

Mən bir dalğın zamanla bir xoş dövranın
Mən bir xarabalıqla, bir gülüstanın,
Mən ölümlə həyatın, qəmlə sevincin
Arasında qurulmuş böyük körpüyəm.

Buradakı təkrarlar danışıq dilində, nəsr dilində çətin ki, işlənə. Deməli, şeir dili nəsr dilindən bir də belə səciyyəvi təkrarları ilə fərqlənir. Şeirdə ritm, intonasiya xatirinə adi nitqdən fərqli ifadələr mümkündür.

Bizi fabrik, bizi zavod, bizi kolxoz
Bir yığnaya toplamış...

Şair çox dəqiq məfhumları şeirə "quru" şəkildə gətirmir. "Fabrik", "zavod" tipli sözlər çox dəqiqdir və hər hansı emosionallıqdan, obrazlılıqdan məhrumdur. Sənətkar bəzi sözləri təkrarlamaqla bu sözlərə yeni ahəng gətirir, yəni dolayısı ilə obrazlılıq yaratmağa çalışır. Adətən, belə ritm xətrinə işlənən təkrarlar şeir üslubunu dilin başqa üslublardan fərqləndirir. Müşfiq şeirlərində belə təkrarlar çoxdur. Müşfiq söz sənət vurğunu idi. Yeni söz, yeni ifadə üçün yorulmadan axtarışlar aparırdı.

"Şimşəklərdən qələm, sellərdən üslub" alan sənətkar dilin yalnız məntiqi qanunları ilə məhdudlaşıb qala bilmirdi. Qrammatik çərçivə şair ilhamı qarşısında aciz və sönük görünürdü.

Mən neçin bu zaman coşub-daşmayım,
Ürəkdən həyata yaxınlaşmayım.
Ki, bir gənc şairə lazım olan hər,
Hər dürlü mənzərə burda əks edər.

Bu parçada təkrarlanan "hər" sözünə fikir verək. Qrammatika belə təkrarı sevmir. Sözün belə təkrarı yalnız şeirdə ola bilər.

Gürcüstan dağları döşündə bir yol
Bir yol ki, upuzun, bir yol ki, qıvrıq
Ayrıcında yolun bir qarı durmuş,
Yetim baxışlarla boynunu burmuş?

Ulduzlar fikrimin çırağbanıdır,
Bulud xəyalımın karivanıdır,
Səma ki, hissinin aşiyanıdır,
Böylə bir səmadan necə əl çəkim?

Dilçilikdə "-dır" və "-mə" şəkilçiləri və "qaça-qaça", "gülə-gülə", "baxa-baxa" mürəkkəb feili bağlamalar, "şirin-şirin", "balaca-balaca", "çoxlu-çoxlu", "yavaş-yavaş", "inci-inci" və s. mürəkkəb sifətləri, say, zərflər də morfoloji təkrarlar hesab olunur.

Yağış yağır, rəqs eyləyir gur damlalar,
Sıra-sıra, inci-inci nur damlalar.
Gülə-gülə bir qız qaçır o səkidən,
Ürəkçiyi xali deyil səksəkidən.
Sırma-sırma, tel-tel ol, yağ!
Yağ, yağışım, yağ, sel ol, yağ!
Zümzümənlə şirin-şirin dillən yağış,
Küçələrdə uşaq kimi vellən yağış!

Bəzən həm ümumi, həm də xüsusi adlarda işlənən eyni morfoloji vahid şeirin emosionallığını və təsir gücünü artırır:

-Şahsuvar, Şahsuvar! - deyib ağladım,
İçimdə sızladı bir yanıq kaman.
-Leyla, Leyla – deyən ətrafa pəsdən.
-Bir çoban türküsü yayılmadaydı...

Görmüşəm xəzanları, ildırımları,
Bir üzüm qaradır, bir üzüm sarı.
Bu gün şadlığımı çalsın çağırsın.
Bülbülün mahnısı, Qurbanın tarı.

Bəzən də söz və adlarda bir yox, iki və daha çox şəkilçi eyni vaxtda təkrarlana bilir:

Sevgim mübarizə, sevgilim həyat,
Yəhərlənmiş mana qanadlı bir at.
Getsin iş əvəzinə mənə söz verən,

Gəlsin dəmir döyən, yeri becərək.
Mənimki onlarladır, onlar da ancaq bizə tərəfdir.
Əvət bu insanların şairi olmaq böyük şərəfdir.

Mürəkkəb sözlərin real həyatda və bədii ədəbiyyatda müəyyən əlaqəli adların, söz və ad birləşmələrinin, şeirdə misraların, nəsrdə cümlələrin sonunda təkrar olunan morfoloji vahidlərə (kök, morfem və şəkilçi morfemə) morfoloji epifora deyilir. Morfoloji epiforalar qafiyəli sözlərdən ibarətdir.

Azərbaycan dilində müxtəlif nitq hissələrinə aid çoxlu mürəkkəb ümumi sözlər vardır ki, onların komponentlərini təşkil edən sözlərin tərkibindəki şəkilçilər eyni formada olur. Çox maraqlıdır ki, bu mürəkkəb sözlərin bəzilərində mürəkkəb sözləri təşkil edən sözlərin kökləri də qafiyəli sözlərdən ibarət olur: çığırtı-bağırtı, təbliğat-təşviqat, azdan-çoxdan, daşlı-tikanlı, daşlı-qayalı, adlı-sanlı, orda-burda, arlı-abırlı, atalı-analı, axar-baxar, açıq-saçıq, yaylı-qışlı və s.

Aşağıdakı nümunələrdə çıxışlıq hal-yiyəlik hal və III şəxs mənsubiyyət şəkilçisi təkrar olunmuşdur:

Həyat dedikləri bu keşməkeşdən,
Qəlbimdə, qanımda yanan atəşdən,
Gecədən, gündüzdən, aydan, günəşdən
Bu zəngin fəzadan necə əl çəkim?

Varlığın rəngi sənsən, ahəngi sənsən,
Çiçəklərin, nurların çələngi sənsən!
Bülbülün qarşısında, açıl sərinləş qızılgül kimi!

Bədii dilin, bədii sözün başlıca fərqləndirici keyfiyyətlərindən biri obrazlılıqdır. Klassik poeziyamızda obrazlılıq məfhumla bağlıdır: məfhumlar obrazlı tərzdə ifadə edilir. Realist şeirdə isə predmetin, prosesin obrazlılığı əsasdır. Belə şeirdə obrazlılığın müstəqil, bilavasitə ifadəsi diqqəti cəlb edir. Buna görədir ki, realist poeziyamızda təqlidi sözlər, vurğular, intonasiya mühüm əhəmiyyət kəsb edir. Bütün başqa söz qruplarına nisbətən təqlidi sözlər əşyaya – "predmet"ə daha yaxındır. M.Ə.Sabirdən başlayaraq şeirimizdə təqlidi sözlərin xüsusi çəkisi artmaqda idi. M.Müşfiq belə sözlərə xüsusi meyl göstərmişdir.

Əsərlərində işlətdiyi "parıl-parıl", "pırıl-pırıl", "tarıl-tarıl" kimi küllü miqdarda təqlidi sözlər şeirin müstəqim obrazlılığa nail olmasına yardım edirdi. Xüsusilə real təbiət hadisələrini qələmə alarkən şair təqlidi sözlərin rol və əhəmiyyətini düzgün qiymətləndirirdi.

İldırımlar şaqqıldayır şaraq-şaraq,
Quşlar uçur yuvasına pırıl-pırıl,

Şırıldayır novalçalar şırıl-şırıl.
Bəzən qərib-qərib bir könül ağlar,
Bəzən şağır-şağır bir quş ötərdi.
Aşıq olan yerdə elin nə dərdi?!
Xəzan bağçasından bir dərdli rüzgar
Keçib inildərkən solğun bir budaq,
Yaxud çatır-çatır yanıb bir ocaq.

Bu nümunələrdə sözlər elə seçilmişdir ki, mənanı dərin etməklə yanaşı, şeiri oxuduqca real hadisəni əyani şəkildə qavramaq da mümkündür. İntonasiya, sözlərin düzülüşü və təkralanması da şeirin bədii dəyərinə müəyyən təsir göstərir. M.Müşfiqin şeirlərində təkrarlanan feillərin semantikasında da bir sanbal, hərəkət vardır. Sözlər ilə ifadə olunan məzmun ahəngdar şəkildə birləşmiş olur. Müşfiq poeziyasını səciyyələndirən bu ahəngdarlıq yaratmaq keyfiyyəti şeirlərinə də müəyyən təsir göstərmişdir. Şeir dilində səslərin ahəngdarlığına nail olmaq klassik ədəbiyyatımızdan, qüdrətli xalq sənətkarlarından qalma ənənədir. Füzuli şeiri bir musiqidir. Aşıq Ələsgər şeirini musiqisiz təsəvvür etmək mümkün deyil. Zəngin azəri şeirini dərindən öyrənmiş, sözün poetik sirlərinə mükəmməl sahib olan M.Müşfiq bu ənənədən novatorcasına istifadənin gözəl nümunələrini yarada bilmişdir. Müşfiq klassik şeirimizin, xalq şeirinin ənələrini davam və inkişaf etdirməklə yanaşı, özü də sonrakı poeziyamıza təsir göstərə bilmişdir. İstər ayrı-ayrı ifadələri, misraları, istərsə də sözdən istifadə üsulları özündən sonra gələn şairlərimizin yaradıcılığına təsirsiz qalmamışdır.

Ədəbiyyat siyahısı:

1.A.Babayev “Azərbaycan dili və nitq mədəniyyəti” Bakı-Nurlan-2016
2.A.Qurbanov “Müasir Azərbaycan ədəbi dili” II cild Bakı-2003
3.M.İ.Adilov “Klassik ədəbiyyatımızda dil və üslub” Maarif-Bakı-2003
4.M.Müşfiq “Həyat sevgisi” Bakı-Yazıçı-1988
5.S.Cəfərov “Müasir Azərbaycan dili” I cild Bakı-Maarif -1983

S.Rustamova

Morphological repetitions in the poems of M.Mushfiq

Summary

The poet accurately expresses the contagious feelings. In general use of the elements expressing the same meaning along with the same composition are ordinary in our language. Unlike the spoken language artistic expression is also conventional word. In artistic literature the word has both spoken language function and artistic function.

The article contains information about morphological repetitions which play an important role in the creation of figurativeness and emotiveness. The specific features of literary language are explained in artistic language. The kinds of morphological repetitions are given hereMain features of artistic word are clarified. Functions of word are displayed.

Analysis are done in creativity of Mushviq who is lover of word, art. Frequency of using morphological repetitions is given.

Poet's achievement of figurativeness in poetry who used repeitons of imitation word is shown here. The synonym sequence for poetry is encountered in Mushviq's poetry. The intensity, movement as semantic are shown in repeated verbs.

С.Рустамова

Морфологические повторения в стихах М. Мушфика

Поэт точно выражает заразные чувства. В общем случае использование элементов, выражающих одно и то же значение вместе с одним и тем же составом, является обычным на нашем языке. В отличие от разговорного языка художественное выражение также условное слово. В художественной литературе слово имеет как функцию разговорного языка, так и художественную функцию.

Статья содержит информацию о морфологических повторениях, которые играют важную роль в создании образности и эмоциональности. Специфика литературного языка объясняется в художественном языке. Приводятся виды морфологических повторений. Основные черты художественного слова уточняются. Отображаются функции слова. Анализ осуществляется в творчестве Мушвика, который является любовником слова, искусства. Дана частота использования морфологических повторений.Здесь показано достижение поэтом образности в поэзии, использующей репитоны имитационного слова. Синонимическая последовательность поэзии встречается в поэзии Мушвика. Интенсивность, движение как семантика проявляются в повторяющихся глаголах.

Rəyçi: Əqidə Axundova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

Doц. СЕВИНДЖ ГУСЕЙНОВА
доцент, доктор философии по педагогическим наукам
Азербайджанский Университет Языков
el99@mail.ru

ЛИНГВОСТРАНОВЕДЧЕСКИЙ ПОДХОД В ОБУЧЕНИИ ИНОСТРАННОМУ ЯЗЫКУ

Ключевые слова: межкультурной коммуникации, лингвострановедческий, реализации, коммуникативной компетенции, аудирование, интерпретация, общеобразовательных.
Açar sözlər: mədəniyyətlərarası ünsiyyət, linqvistik mədəniyyət, tətbiq, kommunikativ səlahiyyət, dinləmə, təfsir, ümumi təhsil.
Key words: intercultural communication, linguistic cultural, implementation, communicative competence, listening, interpretation, general educational.

В современной иноязычной аудитории постепенно преодолевается инертность традиционных методов обучения иностранному языку, ориентированных исключительно на формирование языковой деятельности. На смену развитию речи на базе по содержанию материала за счет тренировки определенных речевых моделей приходит углубленное знакомство с иноязычной культурой в ходе изучения иностранного языка и овладения. [9: 192] Необходимость обучать не только языковым структурам, но и тому, что лежит за языком, т.е. культуре стран изучаемого языка, и легла в основу лингвострановедческого подхода в обучении иностранному языку. Именно такое обучение сочетает в себе, с одной стороны, обучение языку, а с другой - определенные сведения о стране изучаемого языка. Такой подход к обучению иностранному языку обеспечивает не только более эффективное решение практических, общеобразовательных, развивающих и воспитательных задач, но и содержит огромные возможности для вызова и дальнейшего поддержания мотивации студентов. [1: 132-135].

Лингвострановедческий подход обеспечивает решение целого ряда проблем в обучении иностранному языку, но, прежде всего, достигает главной цели – обеспечения коммуникативной компетенции в актах межкультурной коммуникации, через адекватное восприятие речи собеседника и оригинальных текстов, рассчитанных на носителей языка. Мы получаем ее из теле- и радиопрограмм, из газет и журналов, печатающихся сразу и на азербайджанском, русском, и на иностранном языке, и из множества других источников. В связи с этим и педагог в

настоящее время имеет более широкие возможности пользоваться в своей работе аутентичными материалами из различных пособий, журналов, газет, переписки, видеофильмов Такие тексты, предназначенные для чтения и аудирования, воспринимаются с большим интересом и обеспечивают возможности для расширения знаний о стране изучаемого языка. Кроме того, такие тексты влияют на духовный мир и развитие личности студентов. Они всегда содержат в себе определенную часть новой информации, полезной для дальнейшей жизни учащихся. [4: 320]

На важность использования аутентичных материалов на уроках иностранного языка обращали внимание многие ученые. Они отмечали, что даже самые совершенные учебно-методические комплексы, самый познавательно насыщенный материал учебников не могут насытить познавательные потребности студентов, узнать как можно больше о быте, традициях, творчестве зарубежных сверстников.

Учебные тексты, должны широко дополняться аутентичными материалами, в которых целенаправленно представлены языковые явления и способы формирования и формулирования мысли, отражающей злободневные молодежные проблемы. [3: 20-26]

Аутентичность всегда предполагает связь с повседневной жизнью, с современной реальностью и является одним из основных критериев при отборе и организации учебных материалов. Однако, термин аутентичный, используемый в современной лингвистической и педагогической науке, пожалуй, наиболее точно и полно отражает содержание и форму предлагаемых для обучения иноязычной коммуникации материалов. Аутентичный текст всегда строится на реально функционирующем и при этом стилистически качественном языковом и речевом материале из коммуникативной практики. [3:20-26] Содержащаяся в нем информация всегда достоверна, актуальна, интересна.

Особенностью употребления текстов является их параллельное использование на занятиях. Получив текст-информацию о колледжах в Британии, студенты выбирают тот, который устроил бы их, после чего заполняют анкету о своих учебных и познавательных интересах и специальный бланк для получения визы.

Рассматривая методику работы с аутентичными текстами, нельзя не отметить ее тесную связь с коммуникативным методом обучения иноязычному обучению. [7: 192]

В ходе работы с лингвострановедческими текстами для чтения на предваряющем этапе студентам обязательно разъясняют правильность организации своей работы. Таким образом, на

этом этапе студенты готовятся к восприятию текстов различных жанров, разного языкового оформления иструктурно-композиционного построения.

Начало работы по разделу Britain and its people at a glance в аудитории вызвало у студентов большой интерес, т.к. национальная символика (флаг, герб, эмблема и т.д.) представляют собой

наиболее понятный любому человеку любого социального слоя, элемент национального менталитета. Уже на начальном этапе, ознакомившись с этими символами, студенты используют справочный материал из англо-английского толкового словаря Великобритания. Лингвострановедческий словарь и, таким образом, расширяют свои знания и расшифровывают для себя эти символы. Далее, исходя из того, что образная символика может заменять словесное выражение, при составлении обобщенного портрета Британии у студентов возникают такие ассоциативные образы как Британский парламент со знаменитой башней Биг Бен, английский двухэтажный автобус даблдэкер, английская национальная игра крикет, шотландец в национальной одежде с волынкой в руках, всемирно известные университеты Оксфорд и Кембридж, основатель английской поэзии У.Шекспир. [6: 47] Для того чтобы эти образы прочно укрепились в сознании у студентов, для расширения их лингвострановедческого кругозора, студентам предлагаются небольшие по объему, но содержательные тексты о некоторых из этих ассоциативных символов, служит опорой для дальнейшего обсуждения по проблеме «My image of Britain».

Для воздействия на слуховой канал восприятия информации эффективным средством является использование видеофильмов о стране изучаемого языка. Систематическое использование небольших отрывков из видеофильмов позволяет манипулировать познавательными интересами студентов. Студенты всегда получают задание перед просмотром и поэтому всегда небольшие по объему. [5: 52-67]

Задания могут формулироваться по-разному:

Запишите, какие географические названия прозвучали в фильме и расскажите об ассоциациях, связанных с ними (Britain and its people at a glance).

О ком из выдающихся людей Британии вы услышали во время просмотра фильма? Что вам известно об этом человеке? (Britain in the world).

Какие виды отдыха вам могут предложить в Британии? Что бы предпочли вы? Почему? (Would you like to go to Britain?). [8: 28-33]

Таким образом, все предлагаемые студентам видеофрагменты можно считать аутентичной иллюстрацией той темы, над которой

работают студенты, и отражением современной британской действительности.

Рассматривая методику работы с аутентичными текстами лингвострановедческого характера, необходимо выделить такую серию упражнений, которая учитывает специфику данного вида текстов и направлена на развитие навыков чтения аудирования с последующим выводом на

опосредованное общение. Такие упражнения позволяют читать и воспринимать на слух страноведческие аутентичные тексты разных жанров и видов, а затем на их основе формировать практические умения глубокого восприятия этих материалов. Эти упражнения представляют собой цельную систему и работа с данной системой позволяет достичь поэтапно:

понимания текста с извлечением из него личностно значимой информации (упражнения рецептивного характера);

воспроизведения усвоенного материала (упражнения репродуктивного характера);

интерпретация прочитанного или прослушанного текста с элементами анализа (упражнения репродуктивно-продуктивного характера);

использование полученной из текстов информации в ситуациях общения (упражнения продуктивного характера).

Такая типология упражнений соответствует требованиям коммуникативной технологии обучения иностранному языку в языковом вузе и имеет выраженную коммуникативную направленность в контексте межкультурной коммуникации. А студенты проявляют интерес к английскому языку вообще, и к содержанию усвоенных текстов, в частности. Кроме того, усвоенная ими лингвострановедческая информация может быть использована и в смоделированных ситуациях проблемной коммуникации, и в условиях свободного естественного общения. В комплексе такая система упражнений обеспечивает овладение коммуникативной компетенцией на основе чтения и аудирования в рамках предусмотренных вузовской программой. [9: 325]

Большой интерес у студентов вызывают заочные путешествия по Британии. Например, в ходе такого путешествия студентам предлагается посмотреть ряд фотографий с достопри мечательностями Британии и дать краткую информацию о каждом из изображенных на них мест (на основе имеющихся у учащихся страноведческих знаний). Следующим этапом является чтение или прослушивание небольших по

объему текстов об интересных местах Британии, которые служат для расширения высказываний студентов по теме.

И, наконец, последней ступенью работы с лингвострановедческими материалами являются упражнения продуктивного характера. Эти упражнения направлены на активное использование речевых структур и лингвострановедческой информации в различных коммуникативных ситуациях и на развитие умения общаться в целом, что само по себе является достижением результата поставленной цели обучения иностранному языку в в вузах. Ситуация может быть приближена к аутентичной (ролевая игра, урок-дискуссия, подготовка выступления на конференции, телемост), либо носить естественный характер (встреча с иностранной делегацией, поездка в англоговорящую страну, письмо зарубежному другу). Студенты свободны в выборе формы своего проекта. Это может быть и карта с культурными символами и знаками Британии, снабженная статьями комментариями, и статья для журнала или лингвострановедческого словаря, и рекламный проспект О Британии вкратце и т.д. [2: 70]

Используемые в комплексе, все описанные выше упражнения способствуют развитию коммуникативной компетенции студентов в контексте межкультурной коммуникации, обогащают их лингвострановедческий кругозор и развивают их творческо-познавательные способности. [8: 47]

СПИСОК ИСПОЛЬЗОВАННЫХ ИСТОЧНИКОВ

1. Ахмедова Л.Я. Двусторонняя связь культуры и языка. Проблемы современнойлингвистики. Баку: 2005,с.132-135.220с.
2. Китайгородская Г.А. (1992, с.70).Интенсивное обучение: теория и практика.-М.,Русский язык.1992
3. Шамов А.Н. Аутентичный текст как средство совершенствования лексического аспекта речи на немецком языке.Журн.Иностранные языки в школе.: 7*2010 сс.20-26
4. Верещагин Е.М., Костомаров В.Г., 1990 с.26. Язык и культура.-Лингвострановедение в преподавании русского языка как иностранного.-4е изд.перераб. М.Рус.яз.1990-246с
5. Kelly R**.** Video and language learning: An Approach to viewing comprehension. // RELC Journal, 1985, 16/2, p. 52-67
6. Savignon S. Communicative Competence. Theory and Classroom Practice. Reading. Mass: Addison – Wesley, 1983, 47 p.
7. Халеева (И.И.,1989). с.192.Основы теории обучения пониманию инозычной речи .-1089.-238с.

8. Luukas A,1991,pp.28-33). Approaches and methods. Language learning for European Citizenship Report. Workshop 6A-Tampere,Finland,1-991,p.28-33.
9. Астафурова Т.Н, (1977, с.141). Стратегии коммуникативного поведения и профессионально-значимых ситуациях межкультурного общения (лингвистический и дидактические аспекты -Дис…-доктора пед.наук.-М..1997,325с.

С.Гусейнова

Xarici dil tədrisində linqvistik yanaşma

Xülasə

Bu məqalə xarici dilin tədrisində linqvistik və mədəni yanaşmaya həsr olunub. Dil və mədəni yanaşma bir xarici dilin öyrədilməsində bir sıra problemlərin həllini təmin edir, əsas məqsəd - mədəniyyətlərarası ünsiyyət aktlarında kommunikativ bacarıqların olmasını təmin etməkdir. Yalnız dil strukturlarını deyil, həm də dilin arxasında olanı öyrətmək lazımdır, yəni dil öyrənən ölkələrin mədəniyyətini.

Xarici dili öyrənmək üçün bu cür yanaşma praktik, ümumi təhsil, inkişaf və təhsil vəzifələrinin daha effektiv həllini təmin edir. Praktiki və ümumi təhsil vəzifələrin həyata keçirilməsi xarici dilin öyrədilməsində linqvistik və mədəni yanaşma müvəffəqiyyətlə tələbələrin yeni bir reallıqla tanış olma yolları kimi fəaliyyət göstərən dil fenomeni ilə birləşdirir.

Düzgün seçilmiş mətnlər maraqlı formaları və iş üsulları ilə birlikdə həmişə tələbələrin dil fəaliyyətini və ünsiyyətə hazır olmasını stimullaşdırır. Təklif olunan bütün materiallar müasir və orijinaldır. Xarici dil biliklərinin tədrisi üçün materialların seçilməsi üçün əsas meyyarlara cavab verirlər. Onlar həmişə tələbələrin gələcək həyatında faydalı olan yeni məlumatların müəyyən bir hissəsini əhatə edirlər. Bir tərəfdən dil öyrənməsini və digər tərəfdən öyrənilən ölkənin dili ilə bağlı müəyyən məlumatları birləşdirən məhz bu cür təlimdir.

S.Guseynova

Linguistic-cultural approach in teaching a foreign language

Summary

This article is dedicated to linguistic and cultural approach of teaching a foreign language. Language and cultural approach provide a solution to a number of problems in teaching a foreign language, and the main purpose is to provide communication skills in intercultural communication. We need to teach not only the language structure, but also the language behind, the culture of language learning

countries.

This kind of approach to learning a foreign language provides a more effective solution for practical, general education, developmental and educational tasks. Implementation of practical and

general education linguistic and cultural approach in teaching foreign language combines with successful language phenomenon, which is a way of acquiring students' knowledge of a new reality.

Properly selected texts, along with interesting forms and methods of work, always stimulate students' language activities and readiness to communicate. All the available materials are modern and original. They meet the basic criteria for the selection of materials for teaching foreign language skills. They always cover a portion of the new information that is useful to students' future lives. It is such training that combines language learning on the one hand and the other hand the language of the country learned.

Rəyçi: Rafiq Şabanov
Filologiya üzrə fəlsəfə doktoru

MƏLAHƏT MUSTAFAYEVA
Bakı Slavyan Universiteti
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Mustafayeva1964@bk.ru

ŞİFAHİ TƏRCÜMƏNİN MÜASİR VƏ AKTUAL PROBLEMLƏRİ

Açar sözlər: sifahi tərcümə, tərcümə strategiyası, sinxron tərcüməçi.
Ключевые слова: устный перевод, переводческая стратегия, синхронный переводчик.
Keywords: oral translation, translation strategy, simultaneous translator.

Azərbaycan siyasi, iqtisadi və coğrafi mövqeyi elə qurulmuşdur ki, ölkəmiz daima dünya dövlətləri ilə beynəlxalq əlaqələr və sıx dostluq münasibətləri qurur. Bu baxımdan xarici informasiya xidmətinin genişləndirilməsi və müvafiq tərcüməçi kadrlarının yetişdirilməsi vacibdir.

Hal-hazırda Azərbaycanda fəaliyyət göstərən tərcüməçilərin və müvafiq ali məktəblərdə təhsil alan tələbələrin nəzəri və praktik peşəkarlığının artırılması – qarşıya qoyulan vacib vəzifələrdən biridir. Bu məsələlər Azərbaycan Respublikası Prezidenti yanında Tərcümə Mərkəzi Dövlət Komitəsi tərəfindən kəskin şəkildə qarşıya qoyulmuşdur. Azərbaycan Respublikası Prezidenti yanında Tərcümə mərkəzi yeni yaranmışdır və tərcümə fəaliyyətinin müasir vəziyyəti, inkişaf etdirilməsi kimi məsələlərin həlli yolunda bir çox dövlət əhəmiyyətli proqramların və qərarların verilməsində mühüm rol oynayır. Həmçinin, xarici dövlət nümayəndələri ilə ünsiyyətdə tərcüməçilərin ictimai-siyasi roluna böyük əhəmiyyət verilir. Hal-hazırda Azərbaycanın bir neçə ali məktəblərində tərcümə fakultələri fəaliyyət göstərir. Bu fakultələrdə ali təhsilli peşəkar tərcüməçilərin yetişdirilməsi həyata keçirilir. Bu mütəxəssislərin yetişdirilməsi metodikasının təkmilləşdirilməsinə, əlbəttə böyük ehtiyac vardır.

Ümumiyyətlə, dünya təcrübəsi ilə müqayisədə ölkəmizdə tərcümə fəaliyyəti və təhsili sahəsində bir çox fərqliliklər nəzərə çarpır. Dünyanın bir çox universitetlərində filologiya fakültəsi və kafedrası , fəlsəfə fakültəsi və kafedrasının tərkibində "Nəzəri və tətbiqi dilçilik" seksiyaları təşkil olunmuşdur və tərcümə təhsili və təlimi bu seksiyada bir şöbə olaraq fəaliyyət göstərir. Respublikamızda isə "Tərcümə nəzəriyyəsi və praktikası" fakültəsi və kafedrası universitetlərdə müstəqil şəkildə fəaliyyət göstərir.

Avropanın bir çox universitetlərində "Nəzəri və tətbiqi dilçilik" bölməsi tərcümə nəzəriyyəsinin linqvistik əsaslarının tətbiq edilməsi və işlənib hazırlanması, dilin və tərcümənin tədrisi və öyrədilməsi metodlarının

tətqiqi, orta və ali kvalifikasiyalı tərcüməçi kadrların hazırlanması kimi vəzifələri və səlahiyyəti öz üzərinə götürür və iki dili mükəmməl bilməklə , üç kvalifikasiyada tərcüməçi hazırlayır (2, 96):

– Ali təhsilli şifahi və yazılı tərcümə üzrə kadrlar

– Ali təhsilli ardıcıl və sinxron tərcümə etmək hüququ olan şifahi tərcüməçi.

– Ali təhsilli yazılı tərcümə üzrə kadrlar.

Ən geniş tələbat yazılı və şifahi tərcüməni yerinə yetirən kvalifikasiyalı tərcüməçilərdir. Bu kvalifikasiyalı tərcüməçi iki xarici dildən ana dilinə tərcümə etməyi bacarmalıdır, kənd təsərrüfatı, iqtisadiyyat, texnika sahələrinə yaxından bələd olmalıdır. İxtisasına uyğun xarici elmi ədəbiyyata rəy yazmağı, vərəqdən tərcüməni diktofona diktə etməyi bacarmalıdır. Tərcümə ixtisası üzrə diplomu olan yüksək kvalifikasiyalı tərcüməçi 30 dəqiqə ərzində əvəzedilmədən sinxron tərcümə prosesini həyata keçirməli, ardıcıl tərcümə zamanı isə dayanmadan 10 dəqiqə səsləndirilən materialı yadda saxlamalı və dəqiqliyi ilə ötürməlidir. Bu kvalifikasiyalı tərcüməçi ən azı iki xarici dili mükəmməl bilməli və sərbəst şəkildə işləməyi bacarmalıdır. Sinxron və ardıcıl tərcüməçi eyni zamanda yazılı mətnlərin ana dilindən xarici dilə və ya əksinə tərcüməsini bacarmalıdır.

Hal-hazırda ölkəmizdə tərcümə ixtisası üzrə təhsil proqramına uyğun olaraq 4 illik təhsil kursu həyata keçirilir. I – II kursda ana dili və xarici dillərin tədrisi, peşəkar tərcümənin əsasları, tərcümə nəzəriyyəsi, yazılı tərcümə kimi fənnlər tədris edilir. Növbəti iki ildə xarici dillərin və ana dilinin tədrisi dayandırılır və tərcümə nəzəriyyəsi və praktikası, şifahi tərcümə, tərcümə məharəti, ardıcıl tərcümə kimi fənnlərin tədrisi ilə əvəz olunur.

Belə tədris proqramı uyğun sayılsa da müəyyən çətinliklər özünü biruzə verir. Tədrisin ilkin mərhələsində tələbələrin böyük əksəriyyətinin xarici dil bilikləri yox dərəcəsində olduğundan, dilin öyrənilməsinə ayrılmış tədris müddətinin növbəti iki il ərzində davam etdirilməsi məqsədəuyğun olardı. Yuxarı kurslarda tərcümənin idiomatik səviyyədə qavranması, bilik və vərdişlərin sistemləşdirilməsi, qrammatik cəhətdən düzgün nitqin qurulması kimi məsələlərin həll edilməsi öz yerini tapmış olar.

Müasir dövrdə Azərbaycanda tərcümə sahəsi və tərcüməçilik fəaliyyəti bir çox cəhətdən yeni forma və məzmun almışdır. Azərbaycan təcüməşünaslığının müasir mərhələsi bir tərəfdən ötən əsrdən miras qalmış nöqsan və çatışmazlıqların dərk edilməsi, təhlil edilməsi və onların dəf edilməsi ilə müşaiyət olunur, digər tərəfdən Azərbaycan bügün uğurla dünya məkanına inteqrasiya edir və tərcüməçi peşəsi ən aktual peşələrdən birinə çevrilmişdir.

Dünya klassik irsi ilə yaxından tanış olmaq cəmiyyət qarşısında duran mədəniyyət əhəmiyyətli vəzifələrdən biridir. Bu məqsədlə Respublikada tərcümə işinin inkişaf etdirilməsinə və genişləndirilməsinə dövlət qayğısının göstərilməsi və genişmiqyaslı tədbirlər planının hazırlanması həyata keçirilir.

Bu sahədə atılan addımlar sırasında Bakı Slavyan Universitetinin geniş fəaliyyətini xüsusi ilə qeyd etmək lazımdır. Belə ki, Bakı Slavyan Universitetinin həyata keçirdiyi "Filoloqun kitabxanası. Dünya filologiyasının şedevr əsərlərinin tərcüməsi" layihəsi çərçivəsində yüz əsərin Azərbaycan dilinə tərcümə edilməsi məqsəd kimi qarşıya qoyulmuşdur. Artıq bir neçə əsərin tərcüməsi başa çatdırılmışdır. Bunların sırasına E.Y.Qolosovkerin "Mifin məntiqi", M.M. Baxtinin "Dostoyevskinin poetikası", N.Xomskinin "Dil və təfəkkür", E.Koseriunun "Ümumi dilçiliyə giriş" kimi fundamental əsərlərin tərcüməsi daxildir (3,93-105). Göründüyü kimi, əldə olunan uğurlar yazılı tərcümə sahəsini – bədii, elmi, nəzəri tərcüməni əhatə edir. Təəssüf ki, şifahi tərcümə sahəsində uğurlardan daha çox problemlər mövcüddur və öz həllini gözləməkdədir.

Şifahi tərcümə sahəsində mövcüd çətinliklər həm obyektiv , həmdə subyektiv səbəblərlə bağlıdır. XX əsrin 90 – cı illərinə qədər ölkəmizdə sinxron tərcüməçi hazırlığı təcrübəsi yox idi. Azərbaycanda beynəlxalq əhəmiyyətli görüşlər, tədbirlər çox nadir hallarda keçirilirdi və belə tədbirlərdə işçi dil rus dili idi. Q.Bayramovun qeyd etdiyi kimi, "peşəkar tərcüməçi hazırlığı Moskvada və Sovet İttifaqının digər şəhərlərində həyata keçirilirdi və Moskvanın rəsmi nümayəndələrini öz şəxsi tərcüməçiləri müşayiət edirdilər. Bu səbəbdən subyektiv olaraq Azərbaycanda şifahi tərcümə üzrə peşəkar mütəxəssislərin hazırlanması olduqca geridə qalmışdır. Digər tərəfdən şifahi tərcümənin mürəkkəb fəaliyyət sahəsi olması bu prosesin öz təbiətindən irəli gəlir və obyektiv səbəblərdən hesab olunur" (1, 58-66).

Bu gün Azərbaycan dünya miqyasında böyük nüfüza malik, müstəqil və demokratik siyasət yürüdən multikultural bir ölkədir. Bu gün tərcüməçi peşəsi təkcə şifahi və yazılı tərcüməçi anlayışına aid edilimir. Bir sıra yeni tərcüməçi ixtisasları yaranmışdır: tərcüməçi-bələdçi, tərcüməçi- referent, tərcüməçi-müxbir, texniki ədəbiyyat üzrə tərcüməçi və s. Tərcüməçi ordusunun sürətlə artması, bu peşənin qeyd etdiyimiz kimi, bir sıra tərcümə ixtisasları üzrə şaxələnməsi ölkəmizdə, xüsusilə, intensiv şəkildə həyata keçirilir. Azərbaycanın beynəlxalq miqyasda, dünya siyasətində, iqtisadiyyatında, mədəniyyət və elmində nüfuzunun və rolunun durmadan artması tərcümə sahəsinin inkişaf etdirilməsi, peşəkar tərcüməçilərin yetişdirilməsi kimi ciddi vəzifələrin qarşıya qoyulmasını, onların həlli yollarının müəyyənləşdirilməsini zəruri edir. Respublikada tərcümə

fəaliyyətinin perspektivləri bu sahədə milli maraqlara söykənən dəqiq strategiyaya əsaslanaraq müəyyən edilməlidir. Məlumdur ki, indiyə qədər şifahi tərcümə üzrə fənlərin tədrisində əsasən rus elmi ədəbiyyatlarından, rus dilində dərsliklərdən, tərcüməçi hazırlığında rus tərcümə məktəbinin təcrübəsindən istifadə etmə təlimin əsasını təşkil etmişdir. Şifahi tərcümənin öyrənilməsi strategiyası istənilən təlim taktikasında dillərarası şifahi ötürülmənin cəld yerinə yetirilməsi vərdişinə yiyələnməyə yönəlmişdir. Aydındır ki, bu məqsədlə şifahi tərcümənin öyrənilməsi metodikası hazırlanır, dərs planları tərtib olunur, sərbəst özünüməşq calışmalarından istifadə olunur. Bununla belə, tərcümə sahəsində problemlər qalır və onların həlli daha köklü şəkildə inkişaf strategiyasının işlənib hazırlanmasını zəruri edir. Qarşıda duran vəzifələrin həllində vacib addımlar atılmaqdadır. Bununla əlaqədər , statistik araşdırmaların aparılması bir çox məsələlərin həllinə aydınlıq gətirər. Bunların sırasında tərcüməçilərin peşəkarlıq səviyyəsinin müəyyən edilməsi, bu və ya digər sahədə xüsusi biliklərin olması, tərcüməçilərin dillər üzrə bölüşdürülməsi, tərcüməçilərin əmək haqqı ödənişin nizamlanması, tərcüməçilərin hüquq və vəzifələrinin müəyyən edilməsi və müvafiq qanunvericilik aktının qəbul edilməsi kimi məsələlərin araşdırılması tərcüməçi hazırlığına tələbatın proqnozlaşdırılmasını tənzimləyə bilər. Digər tərəfdən, ölkəmizdə tərcümə üzrə təhsil alan məzunların öz ixtisaslarından uzaqlaşaraq ixtisasdəyişmə nəticəsində digər peşələrdə müəllim, jurnalist peşələrində çalışması tendensiyası nəzərə çarpır.

Göründüyü kimi, tərcümə sahəsində həllini gözləyən bir çox problemlər qalmaqdadır. Lakin tərcümə problemlərinin həlli ilə məşğul olan səlahiyyətli orqanlar yaradılmışdır. Azərbaycan Prezidenti yanında Tərcümə mərkəzi, Azərbaycan Tərcüməçilər Assosiasiyası təsis edilmişdir. 29 yanvar 2016 – cı ildə Azərbaycan Respublikası Prezidenti yanında Tərcümə mərkəzi, Azərbaycan Dillər Universiteti və British Council ilə birgə keçirilən I Beynəlxalq Forumu məhz tərcümənin müasir problemlərinə həsr olunmuşdur. Düşünürük ki, tərcümənin müasir və aktual problemləri mütəxəssislərin diqqət mərkəzindədir və tezliklə həllini tapacaq məsələlər sırasındadır.

Ədəbiyyat

1. Bayramov Q.N. Azərbaycanda sinxron tərcümənin hazırki vəziyyəti: YUNESKO – nun himayəsi altında təşkil olumuş konfrans iştirakçılarının çıxışları, “Azərbaycan bədii tərcümə və ədəbi əlaqələr mərkəzi”, Bakı, 2001 , s.58-66.
2. Мещерякова Т.М. Подготовка кадров переводчиков в ГДР. Тетради переводчика. Вып. XIII. М., Междунар. Отношения, 1976, с.93-105

3. Мустафаева М.М. Современное состояние художественного перевода в Азербайджане. Filologiya məsələləri. Bakı, 2009, N5.

M.Mustafayeva

Modern and aktual problems of interpretation

Summary

The article is dedicated to translation issues in Azerbaijan. It covers oral translation problems related to preparation of simultaneous translators.

The article is about matter of translation which studies modern condition of oral translation and perspectives of interpreters performance. İt emphasizes that perspectives of interpreters performance must be determined by the exact strategy which directed onunderstanding national interests in this sphere and resolving problems of defining interpretors on language.It also describes and groups some specific challenges faced in training simultaneous interpreters taking into consideration both the nature of this form of Interpreting, and the past and present conditions in the Republic of Azerbaijan in this respect.Using her exprerience, as well as the suggestions by foreign professionals, the author of the article also provides some useful clues to overcome the stated challenges.Very important problems of translation are analised in the article. Different styles, ways and specific features of interpretation are observed in it. The best variant and appropriate forms of French are investigated in the process of interpretation into the target language. The article presents the analysis of the situation related to the process of Simultaneous Interpreting on the basis of new findings in the field of translation.

М.Мустафаева

Современные и актуальные проблемы устного перевода

Резюме

Статья посвящена одной из актуальных сфер переводческих деятельностей - устному переводу. В статье рассматриваются вопросы перевода, изучающие современное состояние устного перевода, перспективы переводческой деятельности. Указывается, что перспективы переводческой деятельности должны определятся четкой стратегией, направленной на понимание национальных интересов в этой области,

решения вопросов по распределению переводчиков по языкам. В ней озвучивается многие специфические трудности при подготовке устных переводчиков в условиях прошлых и нынешних обстоятельств в стране. Опираясь на опыт иностранных специалистов и личный опыт автора, в статье даётся некоторые нужные указания для решения этих задач. В статье также анализируются очень важные проблемы перевода. Здесь наблюдаются различные стили, направления и специфические особенности перевода. Исследуются адекватные соответствующие формы языков в процессе перевода на исходный язык. Таким образом, статья представляет анализ ситуации связанной с процессом устного перевода на основе современных условий в области перевода.

Rəyçi: Rafiq Novruzov,
filologiya elmləri doktoru, professor

АИДА СОБОР
доцент, доктор филологии по филологическим наукам
ADU
sobor.aida@gmail.com

ВЗАИМНОЕ ВЛИЯНИЕ ЯЗЫКОВ

Ключевые слова: естественный билингвизм и искусственный билингвизм, освоение языка, контактный билингвизм, неконтактный билингвизм, коммуникативная активность.
Açar sözlər: təbii bilingualizm və süni bilingualizm, dil əldə olunması, əlaqəli bilingualizm, təmasda olmayan bilingualizm, kommunikativ fəaliyyət.
Key words: natural bilingualism and artificial bilingualism, language acquisition, contact bilingualism, non-contact bilingualism, communicative activity.

Как уже давно известно, что ученые разных времен относились по-разному к сущности билингвизма, но кроме этого всегда есть сходства их мнений. И поэтому, в лингвистике до сих пор нет однозначного толкования термина «билингвизм». А также ализируются многочисленные работы ученых разных стран, посвященные билингвизму: по мнению Т. П. Ильяшенко «билингвизм»: «...явление социального плана, характеризующее языковую ситуацию», в отличие от языковых контактов, которые «характеризуют языковые отношения» [16, с. 23].

В. Н. Ярцева же даёт следующее определение понятия, билингвизм – это «способность отдельного индивидуума, или народа в целом, или его части общаться (добиваться взаимо- понимания) на двух языках» [25, с. 5]. Н. Б. Мечковская придерживается такой же точки зрения [18, с. 368]. Итак, некоторые ученые рассматривают билингвизм в тесной связи с другими явлениями или процессами. Так например, Г. Зограф неразрывно связывает этот термин с многоязычием [15, с. 303]. Е. М. Верещагиным разработана наиболее полная и емкая классификация билингвизма [10]. Критерии классификации билингвизма:

1. Возраст, в котором происходит усвоение второго языка:

– ранний и поздний билингвизм.

2. Число действий, выполняемых на основеданного умения:

– рецептивный билингвизм (когда билингв ограничивается только пониманием речевых произведений, принадлежащих вторичной языковой си-

стеме);

– репродуктивный билингвизм (когда билингв способен воспроизводить прочитанное и услышанное);

– продуктивный (производящий) билингвизм

(когда билингв понимает, воспроизводит и порождает речевые произведения, принадлежащие вторичной языковой системе).

3. Соотнесенность двух речевых механизмов между собой:

– чистый билингвизм (общение в семье осуществляется на родном языке, а в социуме – на другом);

– смешанный билингвизм, при котором языки свободно заменяют друг друга, взаимно влияющие языки;

– естественный билингвизм (с рождения ребенок слышит в семье речь на двух языках).

Координативный, субординативный билингвизм или билингвизм смешан- ного типа – это понятия, которые традиционно используют исследователи билингвального сознания. В современной лингводидактике принято считать, что «индивид с координативным двуязычием владеет двумя независимыми языковыми системами» [11, с. 9]. Это значит, что он имеет возможность реагировать на обращенное к нему на иностранном языке высказывание, не прибегая к своему родному. Субординативный билингвизм означает, что система второго языка постигается через призму первого;

– искусственный билингвизм (специально организованное семьей изучение другого языка).

4. С точки зрения коммуникативных источников

формирования билингвизма существует две модели:

– контактный билингвизм (возникает в процессе коммуникации, например в школе, в детском саду или на работе, где имеют больше общения на доминирующем языке);

– неконтактный билингвизм (формируется в условиях отсутствия возможности контакта на другом языке, под влиянием средств массовой информации (например, телевидения, радио)).

5. Коммуникативная активность:

– активный и пассивный билингв. Активными могут считаться люди, которые включаются в активное общение при изучении языка, ставшего до-

минирующим. Например, это люди, которые могут говорить, если даже делают ошибки и этим они не стесняются, а наоборот.

6. Способ связи речи на каждом из языков с мышлением:

– непосредственный билингвизм;

– опосредствованный билингвизм.

По мнению А. А. Леонтьева, быть билингвом –это значит «уметь осуществлять речевую деятельность (точнее, отдельные виды речевой деятельности или их комплекс), пользуясь в зависимости от ближайшей социальной среды, цели общения, информированности о собеседнике и того подобного языковыми средствами не одного, а двух языков, имея более или менее свободный выбор языка для общения» [17, с. 225].

Изучение вопросов, связанных с сосуществованием двух языков в сознании одного индивида,

вызвало необходимость изучения следующих проблем:

– как соотносятся лексические системы двух языков в рамках билингвизма;

– как происходит переключение с одного языкового кода на другой;

– схожи ли процессы освоения родного и неродного языков или же они имеют принципиальные различия.

Рассматривая все эти проблемы можно прийти к такому выводу что, совмещение двух языков в раннем детском возрасте наносит серьезный урон языковой компетенции. В родном языке же всегда сопровождается активное освоение нового языка заметными потерями. Особенно если в семье не поддерживается родной язык, то ребенок теряет навыки общения на родном языке. Иногда изменения столь необратимы, что при попытках восстановления родного языка его приходится учить заново как иностранный.

Самая главная проблема при определении понятия «билингвизм» состоит в том, что сложно установить, на каком этапе «начинается» билингвизм. Следует ли владеть иностранным языком в совершенстве, чтобы называть себя билингвом? Или достаточно уметь понимать и объясняться на минимальном уровне? В какой степени должен владеть обоими языками индивид, чтобы его можно было назвать билингвом? Должен ли он оперировать рецептивными механизмами или продуктивными механизмами? Или он должен уметь оперировать и теми, и другими? Какие компоненты или «области» языка учитываются при определении билингвизма: лексика, грамматика, произношение?

По всей видимости, В. А. Аврорин «обнулил» данную проблему, не использовав в своем определении сочетание «в совершенстве». Однако это не означает, что определение ученого является идеальным. Что делать, например, если и первый язык индивид знает не в достаточно высокой степени? Как быть, если исследователь изучает речь детей-билингвов, у которых речевой механизм еще не сформирован в полной мере?

Более того, имеются проблемы в самой терминологии. Как быть, если первый язык ребенка вовсе не является родным его языком, например, в ситуации иммиграции, когда первый язык сменяется вторым языком

в качестве родного? Относительно какого языка предлагать определение билингвизма? В отношении какого языка следует рассматривать данное явление? Как утверждает А. А. Залевская, необходимо различать знание языка и владение языком, т.к. знать можно грамматику, лексику, но не уметь ей пользоваться, а владеть, с другой стороны, означает иметь более низкие показатели знаний в области грамматики или лексики, например, но успешно осуществлять речевую деятельность [13, с. 6]. Таким образом, владение языком не есть знание языка, а умение использовать и внедрять это знание при решении определенных коммуникативных задач.

Иными словами, у этой «полярности» также имеются определенные серьезные недочеты. Можно ли говорить о билингвизме вообще, когда индивид не умеет ни объясняться, ни запрашивать информацию на втором

языке? Разве можно назвать билингвом индивида, который не в состоянии осуществлять коммуникацию без использования словаря, или индивида, который не может выполнять рецептивные задачи без перевода на свой

родной первый язык? Если «да», то билингвом можно назвать любого человека, изучающего иностранный язык, даже самостоятельно. Складывается следующая ситуация: индивид изучает язык самостоятельно, аутентичное использование языка он не видит и не слышит и поэтому не умеет ни правильно произносить слова, ни правильно их переводить. Согласно вышеуказанному определению, такого человека тоже можно назвать билингвом, т.к. все же он знает какие-либо отдельные слова и фразы на иностранном языке. Как видно, ни одна из указанных двух полярностей не предлагает идеальное решение данной проблемы.

Щерба указывал на причину подобных проявлений билингвизма:

«Говорящий заимствует из другого языка, прежде чем слова, те понятия или их оттенки, ту их окраску, наконец, которые кажутся ему необходимыми» [24: 69].

Интересным представляется тот факт, что, овладев какой-либо когнемой изучаемой культуры, учащийся начинает с недоумением и даже недоволь- ством относиться к тому, что носители этой культуры данную когнему не знают: [из письма аспиранта с Тайваня] Мне было не только интересно, но и приятно заниматься у Кати <...> в течение

этих двух недель... Она хорошенькая (ведья наслаждаюсь подшучивать над красавицей, особенно на занятиях), и приводила занятия вообще нормально. Но честно говоря, я обнаружил у неё две небольшие проблемы: во-первых, она не так

уж хорошо усвоила историю России. Сегодня я рассказал о Н. Н. Муравьёве-Амурском. Я был удивлён и немножко разочарован, что она о нём ничего

не знала. Он же представитель российского империализма в середине XIX века, о котором русским нужно узнать (пунктуация и стиль учащегося сохранены).

Французский ученый А. Буало разделял билингвизм на естественный (бессознательный) и искусственный (осознанный) [26]. Первый возникает и существует благодаря естественным регулярным контактам живущих на одной территории разноязычных народов и предполагает наличие у них одновременно двух вариантов выражения на соответствующих языках мыслей, чувств и пр. Естественное двуязычие можно обнаружить в любой нашей автономной и бывшей союзной республике.

Искусственный билингвизм возникает в результате специального обучения. Приступая к освоению иностранного языка, человек уже обладает навыками родной речи, которые стремится перенести на новый язык. Иностранные слова в этом случае воспроизводятся путем внутреннего перевода. Видя, например, в тексте немецкое слово «Haus», русский по рождению учащийся соотносит его не с предметом, а со словом «дом». Такого же рода интерференция, иногда даже в большей степени, происходит и на уровне предложения – как при переводе с иностранного на родной, так и при построении высказывания на иностранном языке [7, 14, 19, 20]. Различают три уровня владения чужим языком: начальный (второй язык выполняет только информативно-коммуникативную функцию), переходный (среди прочего проявляется экспрессивная функция) и адекватный (возникает мыслительный процесс на втором языке). Последний уровень наиболее близок к естественному билингвизму (примеры: английский и русский у В. В. Набокова; английский и французский у С. Моэма или О. Уайльда). Относительно изучения иностранного языка в вузе можно говорить лишь о начальном уровне. При обучении второму языку в условиях интеграции в новом языковом коллективе, т.е, в стране изучаемого языка, вероятно быстрое и эффективное достижение последующих двух уровней. Однако в этом случае возникает угроза потери собственной идентичности с родной культурой и обществом. Изменение языковой личности как серьезная проблема и угроза

самоидентификации рассматривается социолингвистами, этнолингвистами, лингвокультурологами [17].

Подводя итог, хотелось бы отметить следующие наиболее важные результаты: во-первых, на разных этапах развития лингвистической науки билингвизм изучался с разных точек зрения, отсюда наблюдается такое

изобилие разнообразных его толкований; во-вторых, все вышеперечисленные критерии определения билингвизма, наряду с самими определениями, имеют свои несомненные достоинства и недостатки, и лингвисты должны обращать на них пристальное внимание, подвергать критике и совершенствовать их в целях достижения более глубокого понимания явления двуязычия; в-третьих, из всех указанных толкований мы отдаем предпочтение определению Е. М. Верещагина, предложившего собственную терминосистему и собственное

толкование двуязычия на основе синтеза психологического и социологического критериев. На наш взгляд, только такой синтезированный подход может создать благоприятную почву для изучения данного явления.

Как видно, двуязычие – сложный, многоаспектный феномен современной лингвистики, который, несмотря на огромное количество проводимых исследований, все еще содержит немало нерешенных вопросов.

Список литературы

1. Аврорин В. А. Двуязычие и школа // Проблемы изучения двуязычия и многоязычия. М.: Наука, 1972. С. 49-62.
2. Appel R., Muysken P. Language Contact and Bilingualism. Amsterdam: Amsterdam University Press, 2005. 216 p.
3. Барышников Н. В. Профессиональная межкультурная коммуникация: Пятигорск: ПГЛУ, 2010. 264 с.
4. Блумфилд Л. Язык / пер. с англ. Е. С. Кубряковой и В. П. Мурат. М.: Издательство «Прогресс», 1968. 608 с.
5. Вайнрайх У. Языковые контакты. Состояние и проблемы исследования / пер. с англ. яз. и комм. проф., д. филол. н.
6. Ю. А. Жлутенко. Киев: Издательство при Киевском государственном университете издательского объединения «Вища
7. школа», 1979. 264 с.

8. Верещагин Е. М. Психологическая и методическая характеристика двуязычия (билингвизма). М. – Берлин: Директ-Медиа, 2014. 162 с.
9. Верещагин Е. М. Психологическая и метрическая характеристика двуязычия. М.: Изд-во МГУ, 1969. 322 с.
10. *Гулида В. Б.* Петербургская социолингвистика: пятнадцать лет развития // Вопр. языкознания. 2010. № 2. С.106–119.
11. Ю. А. Жлутенко. Киев: Издательство при Киевском государственном университете издательского объединения «Вища школа», 1979. 264 с.
12. Залевская А. А. Вопросы теории овладения вторым языком в психолингвистическом аспекте. Тверь: Тверской госу-
a. дарственный университет, 1996. 195 с.
13. Знаменская Т. А. Формирование двуязычной компетенции при изучении иностранного языка // Образование и наука. 2013. № 1. С.94–106.
14. Зограф Г. А. Многоязычие // Лингвистический энциклопедический словарь. М.: Сов. энциклопедия, 1990. 685 с.
15. Ильяшенко Т. П. Языковые контакты. М.: Наука, 1970. 204 с.
16. Леонтьев А. А. Психолингвистические единицы и порождение речевого высказывания. 3-е изд., стереотип. М.: КомКнига, 2005. 230 с.
17. Мечковская Н. В. Языковой контакт. Минск: Высш. школа, 1983. 456 с.
18. Миньяр-Белоручев Р. К. Как стать переводчиком? М.: Готика, 1999. 176 с.
19. Сиденко А. С. О проекте в условиях билингвального образования: «Развитие коммуникативной компетентности учителя средствами описания передовых практик» // Муниципальное образование: инновации и эксперимент. 2013. № 4. С.46–49.
20. Сиденко Е. А. VI Международный семинар по вопросам естественного билингвизма и межкультурной коммуникации //
21. Эксперимент и инновации в школе. 2012. № 4. С.41–43.
22. Сиденко Е. А. Обучение иностранному языку в условиях погружения в новую языковую среду: коммуникативная компетентность // Муниципальное образование: инновации и эксперимент. 2013. № 4. С.15–20.
23. Щерба Л. В. Языковая система и речевая деятельность. Л., 1974.
24. Ярцева В. Н. Развитие национального литературного английского языка. М.: Наука. 1969. 116 с.
25. Boileau A. Le probleme du bilinguisme et la theorie des substrats langues vivantes. Bruxelles, 1946.
26. Macnamara J. How Can One Measure the Extent of a Person's Bilingual Proficiency? // Description and Measurement

of Bilingualism: An International Seminar (University of Moncton. June 6-14, 1967) / L. Kelly (ed.). Toronto: University of Toronto Press, 1969. P. 80-a. 97.

Sobor A.B.

Xülasə

Dillərin qarşılıqlı təsiri.

Məqalədə ana dilində nəzərəçarpan itkilərlə müşayiət olunan yeni bir dilin fəal inkişafı müzakirə olunur. Bəzən dəyişikliklər belə dönməzdir ki, doğma dili bərpa etməyə çalışarkən onu xarici dil kimi yenidən öyrənilməli olursan. Bəzi hallarda (xüsusilə də ailə ana dilini dəstəklənmirsə), uşaq ana dilində ünsiyyət bacarıqlarını itirir.

"İki dillilik" anlayışını müəyyənləşdirməkdə əsas problem ikili dilliliyi hansı mərhələdə "başlanacağını" müəyyən etmək çətindir. Terminologiyanın əsas problemini, uşağın ilk dilinin təmamilə özünün ana dili olmaması hesab oluna bilər.

Aşağıdakı ən vacib nəticələrə diqqət yetirmək istərdim: hər hansı bir tədqiq edilmiş mədəniyyətin koqnomiyasını mənimsəməklə, oyrənci bu mədəniyyətin daşıyıcılarının bu mədəniyyəti bilməməsindən çaşqınlıqla və hətta narazılıqla münasıbət bildirir. Xüsusi təlim nəticəsində süni ikidiliçiliq yaranır.

Xarici dil öyrənməyə başlayan bir şəxs, artıq doğma dilin bacarıqlarına malik olduğunu, yeni bir dilə ötürməyə çalışır. Belə halda xarici sözlər daxili tərcümə ilə əks olunur.

Belə bir nətəcəyə gəlmək olur ki, birincisi, dil fənninin inkişafının müxtəlif mərhələlərində ikidillilik müxtəlif nöqteyi nəzərdən öyrənilmişdir; ikincisi, ikidilliliyi müəyyənləşdirmək üçün yuxarıda göstərilən bütün meyyarların, özlərinin də müəyyən edilmiş tərifləri və üstünlükləri ilə yanaşı, onların da şübhəsiz mənfi cəhətləri və çatışmamazdıqları var.

Sobor A.B.

The mutual influence of languages.
Summary

The article discusses the active development of a new language, which is accompanied by noticeable losses in their native language. Sometimes the changes are so irreversible that when trying to restore the kin language, it has to be re-learned as foreign. In some cases (especially if the family does not support the native language), the child loses the skills of communication in the native language.

The main problem in defining the concept of "bilingualism" is that it is difficult to establish at what stage bilingualism "begins". The problem of main terminology is considered, how to be if the first language of a child is not its native language at all.

Summing up, I would like to note the following most important results: having mastered any cognitive culture being studied, the student begins in perplexity and even discontent to the fact that the native speakers of this culture do not know this culture. Artificial bilingualism results from special training. Starting to master a foreign language, a person already possesses the skills of kindred speech, which he seeks to transfer to a new language. Foreign words in this case are reproduced by internal translation.

It is concluded that, firstly, at different stages of the development of linguistic science, bilingualism has been studied from different points of view; secondly, all the above criteria for determining bilingualism, along with the definitions themselves, have their undoubted advantages and disadvantages.

Rəyçi: **Qönçə Əbdürrəhimov**
Filologiya üzrə fəlsəfə doktoru, dosent

ELNARƏ MƏMMƏDOVA
Filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Tibb Universiteti
elnara.mammadova.69@mail.ru

M.KAŞĞARİNİN "DİVANÜ LÜĞAT-İT TÜRK" ƏSƏRİNDƏ FEİLİN TƏSİRLİLİK KATEQORİYASI

Açar sözlər: (Feillər, qrammatik xüsusiyyətlər, təsirli-təsirsiz feillər)
Ключевые слова: Глаголы, грамматические особенности, переходные и
Key Words: verbs, grammatical characteristics, effective-ineffective verbs

Qədim türklərin yaratdığı və əbədi yaşar abidələrdən biri və bəlkə də birincisi M.Kaşğarinin "Divanü lüğat it–türk" əsəridir. Dilçilik əsəri kimi yaradılan bu abidə əslində qədim türklərin həyat tərzi, etnoqrafiyası, tarixi, milli-mənəvi dəyərləri haqqında möhtəşəm ensiklopedik məxəzdir. Bu abidə müxtəlif türk tayfalarının dilləri arasında leksik-semantik ümumiliyi və fərqləri ən incə çalarlarına qədər əks etdirir.

Ərəblərə türk dilini öyrətmək, onun böyüklüyünü sübut etmək məqsədilə əsər yazmaq istəyən müəllif adi lüğət yox, fundamental bir abidə yaratdı. Min il əvvəlki türk dillərinin ümumi leksik sistemini özündə əks etdirən əsər bizim üçün çox dəyərlidir.

Əsəri Azərbaycan dilinə ilk dəfə tərcümə edən X.S.Xocayev yazır ki, kitabdakı məlumatlar yalnız XI əsrə yox, daha qədim dövrə aid türk tarixini özündə əks etdirir. Ona görə ki, türk həyatının bütün sahələrinə aid sözlər bu lüğətdə öz əksini tapmışdır. Sözsüz ki, müəllif çalışmışdır ki, lüğətə ən zəruri və ümumişlək olan, gündəlik ünsiyyətdə işlədilən, hamının başa düşdüyü sözləri salsın.

Müəllif qeyd edir: "Türk və ərəb dillərinin bərabər yürüdükləri bilinsin deyə Xəlilin "Kitab ül-əyn"də elədiyi kimi, mən də işlək sözlərlə arxaik kəlmələri bu kitabda birlikdə vermək niyyətində idim. Əlbəttə, bu, daha mükəmməl iş olardı. Lakin mənim tutduğum yol daha doğrudur. Çünki bu halda sözləri tapmaq daha asandır və hər kəs bu usula üstünlük verir. Buna görə də sözü qısa etmək məqsədilə işlədilməyən kəlmələri kitaba daxil etmədim" **[I, 57]**. Həmin dövr üçün işlək olan bu sözlər əksərən uzunömürlü sözlər idi və ona görə də təsadüfi deyil ki, lüğətdə verilmiş sözlərin çoxu müasir türk dillərində, o cümlədən Azərbaycan dilində də işlədilən sözlərdir. Buna baxmayaraq, əsər yarandığı dövrün dil mənzərəsini özündə əks etdirir və elə buna görə də burada arxaik sözlər də müəyyən yerə malikdir. Sözsüz ki, bunların tədqiq edilib öyrənilməsi türk dillərinin, o cümlədən Azərbaycan dilinin tarixi inkişaf problemlərini aşkarlamağa kömək edər.

"Divanü lüğat-it-türk" əsərindəki sözlər nitq hissələrinə mənsubluğu baxımından da rəngarəngdir. Bütün nitq hissələrinə aid sözləri özündə ehtiva edən bu lüğətdə feillər xüsusi çəkiyə malikdir. Feil hərəkət, proses bildirməsi etibarilə leksik layın içərisində daha geniş sferanı əks etdirir, qrammatik kateqoriyaların zənginliyi və rəngarəngliyi ilə seçilir, idarəetmə qabiliyyəti və cümlədə fikir özəyini bildirməsi baxımından əsas öncül yeri tutur. V.Humbolt feili "cümlənin canı" adlandırır **[73:199]**. V.Vinoqradov isə göstərir ki, feİl predikat olaraq bütünlükdə cümləyə həyat və ruh verir, belə ki, feil konstruksiyaları cümləyə həlledici təsir göstərir **[70:337]**.

Məqsədimiz qədim türk dilinin geniş mənzərəsini özündə əks etdirən, dilimizin tarixi inkişafına işıq salan M.Kaşğari "Divan"ındakı feilləri geniş təhlil etmək, qədim türk dilinin o vaxtkı sistemində feİllərin bir nitq hissəsi kimi mövqeyini müəyyənləşdirməkdir.

Düşündük ki, abidədəki feİlləri ayrıca olaraq öyrənmək, geniş təhlil aparmaq, feillərin tarixi inkişafına işıq salmaq bütünlükdə tarixi və müasir türkoloji araşdırmalar üçün çox dəyərli olar.

"Divan"ın leksik potensialının mühüm bir qismini feillər təşkil edir. Feillər həm leksik-semantik, həm morfoloji, həm də sintaksis söz yaradıcılıqlarında əsas material kimi iştirak edir.

Feilin ən əsas qrammatik xüsusiyyətlərindən biri təsirlilik bildirməsidir. Bu kateqoriya da ən qədim kateqoriyalardandır. "Divanü lüğat–it türk" əsərində müxtəlif zaman formalarında feillər mətn içərisində verildiyi kimi, təsirli və təsirsiz feillər haqqında nəzəri məlumatlar da verilmişdir. Bu əsər ərəblər üçün yazıldığından burada müəllif feilin qrammatik xüsusiyyətlərinin incəliklərindən bəhs edir.

Hərəkət obyektiv aləmin elə atributlarındandır ki, hər hansı əşyaya təsirsiz ötüşə bilmir. Lakin bu təsir bilavasitə olduğundan təsirli və təsirsiz feil kimi linqvistik anlayışlar meydana gəlmişdir. Bu kateqoriya qədim anlayışlardan olub daha qədimlərdən dilçilərin diqqətini cəlb etmiş və hətta M.Kaşğari də bundan yan keçməmiş, onların yaranma yollarından tam, ətraflı olmasa da, lazım olduğu qədər bəhs etmişdir.

Məlumdur ki, təsirlik hərəkətin obyektə təsiri ilə, növ isə obyekt və subyektin qarşılıqlı münasibəti ilə müəyyənləşir, deməli, bunlar müəyyən nöqtədə kəsişirlər və bu baxımdan təsirlik və növ kateqoriyaları bir-biri ilə əlaqəlidir. Belə ki, hər hansı feil növünün müəyyənləşməsində təsirlik həm əsas feil, həm də törəmə feil səviyyəsində rola malikdir. Digər tərəfdən isə "feildəki təsirlilik-təsirsizlik tarixi bir kateqoriyadır, feilin mənası dəyişdikcə onun obyektə təsiri də dəyişmişdir" (38; 98). Qeyd edək ki, təsirlilik leksik-qrammatik kateqoriyadır; belə ki, bu anlayış sözün öz daxili semantikasindan məlum olduğu kimi, şəkilçilər vasitəsilə də meydana çıxır. Bu münasibətlə Y.M.Seyidov yazır ki, təsirlilik və təsirsizlik feilin

semantikası ilə müəyyənləşən mütləq qrammatik keyfiyyətlərdir. Feilin cümlədə və ya birləşmədə rolu, konkret bir situasiyada hansı sözlərlə əlaqələnməsi burada həlledici əhəmiyyətə malik deyil. Təsirli feil konkret bir cümlədə müstəqim obyekt bildirən sözlə, deyək ki, ismin təsirlik halındakı sözlə işləndiyinə görə təsirli deyil, əksinə feil öz-özlüyündə mütləq mənada təsirli olduğuna görə həmin sözlə işlənə bilir. Yəni birinci hal ikincini deyil, ikinci birincini müəyyənləşdirir. Beləliklə, hansı cümlədə, hansı şəraitdə, hansı sözlərlə əlaqədə işlənməsindən asılı olmayaraq *yazmaq, bilmək, öyrənmək, almaq, satmaq, otarmaq, gətirmək, görmək, sevmək* kimi feillər təsirli, *gəlmək, getmək, yatmaq, durmaq, gülmək, ağlamaq, qaçmaq, oturmaq, yaşamaq, oturmaq* kimi feillər təsirsiz feillərdir (55, 316).

Y.M.Seyidovun gəldiyi bu nəticələr Azərbaycan dilinin, eləcə də digər türk dillərinin qrammatik quruluşu baxımından düzgündür. Lakin məsələyə türk dillərinin tarixi baxımından yanaşdıqda bəzi nüansları da qeyd eləmək mümkündür. M.D.Qıpçaq təsirlilik və təsirsizlik kateqoriyasının növ kateqoriyası ilə qarşılıqlı münasibətlərini nəzərdə tutaraq yazır: "Məlumdur ki, növ kateqoriyasının meydana çıxması üçün dildə təsirlilik və təsirsizlik kateqoriyasının olması əsas şərtdir. Yəni bu kateqoriyalardan birinin olması digərinin olmasını da şərtləndirir. Türk dillərində bu iki kateqoriya bir-birinə qaynayıb qarışmışdır. Növ kateqoriyası türk dillərinin sonrakı inkişafı zamanı meydana çıxdığı kimi, təsirlilik və təsirsizlik kateqoriyası da türk dillərində sonradan yaranmışdır. Məhz bunu nəzərə alaraq bəzi araşdırıcılar türk dillərinin inkişafının daha qədim dövrlərində feillərin təsirlilik və təsirsizlik deyil, aktiv-passiv qarşıdurması təşkil etdiyini göstərirlər" (38:86). Müəllif daha sonra E.V.Sevortyana istinad edərək yazır: "Biz türk dillərinin tarixinə nə qədər dərindən yaxınlaşırıqsa, təsirli və təsirsiz feillər arasındakı sərhəd bir o qədər dayanıqsız olur, bu kateqoriyanın özünün məzmunu bir o qədər qeyri-müəyyən və qaranlıq olur ki, bu da xüsusən hərəkət məzmunu bildirən feillərdə vasitəsiz tamamlığın istifadə olunma imkanlarının artmasında və digər əlamətlərdə ifadə olunur. İlkin feillər tarixən əksər hallarda (əgər bütün hallarda deyilsə) təsirlilik və təsirsizlik mənasına daim malik olmamışlar. Cümlənin tərkibindən asılı olaraq eyni bir feil həm təsirli, həm də təsirsiz olmuşdur. Semantik və qrammatik inkişaf baxımından uzun bir yol keçmiş indiki feil kökləri (əsasları) bu ikilikdən qurtarmışlar" (38:86-87). M.Kaşğarinin "Divan"ındakı feillərin təsirlilik və təsirsizlik semantikasını əks etdirmə baxımından müasir türk dillərinin materialları ilə müqayisəli şəkildə dərindən araşdırılması maraqlı və gözlənilməz nəticələr əldə etməyə imkan verər.

”Divanü –lüğat-it türk” əsərində olan sadə, düzəltmə və mürəkkəb feillərin bir qismi təsirli, digər qismi isə təsirsizdir. Bununla yanaşı, təsirsiz feillərdən təsirli feil yaradılması faktı da vardır və bu barədə müəllif özü bəzi

şəkilçilərdən danışarkən bəhs edir. Belə ki, əsərin ayrı-ayrı yerlərində, *-t, -dir*[4]*, -ir*[4]*, -gür*[4] şəkilçilərinin təsirsiz feildən təsirli feil yaratdığı göstərilir və hər birinə aid cümlə daxilində nümunə göstərilib izahı verilir. Burada bir maraqlı cəhətə diqqəti yönəltmək istəyirik. II cildin 187-ci səhifəsində belə bir fikirlə rastlaşırıq: ”Bir feil əslində *-t* olmadan təsirli olsa, ona bir *-t* də artırılır. Beləliklə, feil iki faildən bir məfula keçir. Failin biri buyurur, ikincisi yerinə yetirir. *suv içürdi* “su içirdi” *suv içtürdi* “su içirtdi” formasında və buna müvafik digər misallar gətirir. Müəllif bu fikirdədir ki, *içür-* feilində kök və şəkilçi arasına *-t* artırılır. Bizə belə gəlir ki, *içtür-* feilində *-t* və *-ır* şəkilçisindən ayrı-ayrılıqda danışmaq düzgün olmazdı. Düzdür, türk dillərində, o cümlədən Azərbaycan dilində istər tarixən, istərsə də müasir dövrdə həm *-t*, həm *–ir*, təsirlilik şəkilçiləri vardır. Amma bunlarla yanaşı, *-dır*[4] şəkilçisi də eyni funksiyanı həyata keçirir.

Lakin elə fakt da var ki, şəkilçi artırarkən feilin əsasında müəyyən dəyişiklik aparılır. Məsələn, *tiril-* "dirilmək" təsirsiz feilini təsirli feilə çevirmək üçün *-il*[4] şəkilçisi atılır, əvəzinə *-gür* və ya *kızıl-* “cəzalanmaq” təsirsiz feilini təsirliyə çevirmək üçün yenə də *-ıl* şəkilçisi atılır və *-gür* şəkilçisi artırılır: *tirgür-* “diriltmək”, *kızgür-* “cəzalandırmaq”. R.Əskər “Divan”dakı feillərdə təsirlilik yaradan aşağıdakı şəkilçiləri qeyd etmişdir: *-ır, -ir, -ur, -ür, -dur, dür, -tur, -tür, - ğur, -gür, -kur, -kür, -t, -ıt, -it, -ut, -üt, -uz, - üz, -duz, -düz* və s. (24:262). Bu şəkilçilərlə formalaşan feillərə aşağıdakıları nümunə göstərmək olar:

-dur[4]*, - tur*[4] şəkilçisi. Müq. et: *öltür-* “öldürmək” (I,264); *kaçtür-* “qaçırtmaq” (II,200).

-gur[4] şəkilçisi. Müq. et: *taşğur-* “daşdırmaq” (I,191); *turğur-* “durdurmaq” (I,191)

-t ;- ıt [4] şəkilçisi. Müq. et: *uğrat-* “silkələmək” (I,293) ; *kanat-* “qanatmaq” (I,290).

-iz[4] şəkilçisi. Müq. et: *əmiz-* "əmizdirmək"(I,229) ; *tutuz-* "tutuzdurmaq" (II,119).

Qeyd edək ki, şəkilçilər vasitəsilə təsirsiz feillərdən təsirli feillər yarandığı kimi, əks proses vardır. Yəni təsirli feillərdən şəkilçilərin köməyi ilə təsirsiz feillər də yaranır. Məlum olduğu kimi, təsirlilik kateqoriyası növ kateqoriyası ilə bilavasitə əlaqədardır. Təsirli feillərin yaranması zamanı bəzi formalar növ ilə ciddi əlaqələnmir, bu fikri yuxarıdakı şəkilçilər haqqında demək olar. Amma təsirsiz feil yaradan şəkilçilər bilavasitə növlərlə əlaqədardır: bunlar: *-ın*[4] *, -ıl*[4] *, -ış*[4] şəkilçiləridir. *-ın*[4] və *-ıl*[4] şəkilçiləri daha çox təsirli feillərdən,*-ış*[4] isə təsirsiz feillərdən təsirsiz feil yaradır. Məsələn: *-n, -ın*[4] : *toğran-* (I,212); *ögün-* (I,248);

- ıl[4] : *kərtil-* (II,238) ; *sancıl-* (II,234);

-ış[4] *türtüş-* (II,214) ; *sağış-* (II,131).

-ık [4] şəkilçisi də məchul və qayıdış semantikalı feillər yaratmaqla həm də təsirli feillərdən təsirsiz feil yaradır. Məsələn, *böl+ük-* "bölünmək", *sanc+ık-* "məğlub edilmək". Lakin demək lazımdır ki, bu şəkilçi adlardan da feil yaradır. Məsələn: *kir+ik-* "kirlənmək". Bu feil məlum növdədir və heç bir morfoloji əlamət iştirak etmədən təsirsiz feil kimi çıxış edir.

Bu sırada – *sık*[4] şəkilçisini də qeyd etmək olar. Məsələn, *alsık-* "alınmaq" (I,278); *utsuk-* "udulmaq" (II, 231); *tutsık-* "tutulmaq" (II:231).

Bunlar göstərir ki, ən qədim çağlardan təsirlilik xüsusi bir kateqoriya kimi fəaliyyət göstərmişdir.

Ədəbiyyat

1. Divanü-lüğat-it-türk tərcüməsi (çevirəni Besim Atalay) I – IV cild. Ankara: 1939, 1943.
2. Dəmirçizadə Ə.M. Azərbaycan ədəbi dil tarixi. Bakı. "Maarif" nəşriyyatı, 1979, 268 səh.
3. Əskər R. M.Kaşğari və onun "Divanü lüğat-it-türk" əsəri. Bakı, "MBM" nəşr., 2008. 432 səh.
4. Seyidov Y. Azərbaycan dilinin qrammatikası. Bakı Universiteti nəşr 2006, 368 səh.
5. Виноградов В.В. Русский язык. Москва – «Высщая школа», 1972, 614 стр.
6. Гумболт В. Язык и философия культуры. Москва: «Прогресс», 1985, 452 стр.
7. Севортян Е.В. Аффисы глаголоброзования в Азербайджанском языке, Москва:
Издательство восточной литературы, 1962, 643 стр.

Е.Маммадова

Категория переходности в произведении М.Кашгари "Дивану лугат-ит тюрк"

Резюме

Движение не может идти непрерывно ни на одном предмете. Поскольку этот переходимость является прямым, произошли переходные и непереходные явления. Категория переходности привлекала внимание аудитории с самых ранних времен. М. Кашгари говорил о своем произведении о способах его создании. Известно, что проходимость определяется действием объекта на объект. Проходимость выступила в качестве особой категории. Проходимость является категорией лексико-грамматической. Некоторые глаголы в

Диване переходные, а некоторые - непереходные. С помощью суффиксов переходные глаголы переходят в непереходные глаголы. Этот продолжается с обратным действием. Движение, на какой-либо предмет, не может происходить без действия. Непосредственно после этого действия образовались переходные глаголы. Переходность еще с древних времён привлекало внимание языковедов. М.Кашгарлы достаточно говорил о путях их образование. Известно, что переходность объясняется действием движения на предмет. Переходность представлялась как отдельная категория. В произведение М. Кашгари «Дивани-лугат-ит тюрк» глаголы образуются с помощью суффиксов. В тюркских языках, в том числе и в современном периоде используются эти суффиксы. Переходность образуются с помощью суффиксов –ыр^4, -т, -дыр^4, а непереходность –ын^4, -ыл^4, -ыш^4

E.Mammedova

Effectiveness category of verbs
In M.Kashghari's "Divanu lugat-it turk"
Summary

Movement can not go continuously on any subject. Since this transition is straightforward, transient and non-transient phenomena have occurred. The category of transitivity attracted the attention of the audience from the earliest times. M. Kashgari talked about his work about the ways of its creation. It is known that patency is determined by the action of an object on an object. Patency acted as a special category. Permeability is a lexical and grammatical category. Some verbs in Divan are transitive, and some are intransitive. Using suffixes, transitive verbs are transformed into intransitive verbs. This one continues with the opposite effect. Movement, on any subject, cannot occur without action. Immediately after this action transitive verbs were formed. Transitivity since ancient times attracted the attention of linguists. M. Kashgarly spoke enough about the ways of their education. It is known that transitivity is explained by the action of movement on an object. Transitivity was presented as a separate category. In the work of M. Kashgari “Divani-lugat-it Türk” verbs are formed with the help of suffixes. In the Turkic languages, including in the modern period, these suffixes are used. Transitivity is formed with the help of the suffixes –ır^4, -t, –dır^4, and the in transition –ın^4, -ı^4, -ış^4

Rəyçi: Dürdanə Nağıyeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent

ƏSMƏR VEYISOVA
Azərbaycan Dillər Universiteti
esmer.veyisova2013 @ gmail.com

MƏCAZ NÖVLƏRİ VƏ ONLARIN TƏSNİFATI
(İngilis dilinin materialları əsasında)

Açar sözlər: məcaz, bədii dil, metafora, parafraz, kinayə, alleqoriya
Ключевые слова: метафора, художественный язык, парафраз, ирония, аллегория
Key words: figurative language, metaphor, paraphrase, sarcasm, allegory

Giriş. Məcazlar **məfhumun xarakterik əlamətlərinin açılmasına xidmət edən əsas dil vasitələrindəndir. Məcaz məfhum adının birbaşa deyil, məcazi mənada işlənmiş söz və ya ifadə ilə əvəz olunmasıdır.**

Belə əvəzolunma məfhuma dəqiqlik, açıqlıqla yanaşı, ifadəlilik də gətirir. Məhz bu səbəbdən məcaz dil və nitqdə geniş yayılmışdır. Məcaz növləri məfhumun xüsusiyyətini və ya başlıca əlamətini qısa, lakin ifadəli şəkildə xarakterizə etmək imkanı verir: "Zal natiqə qulaq asır" - deməklə məkanda hamının natiqi dinlədiyini vurğulayırıq. Soyuqdan donmuş əllərdən danışarkən, biz onları "buz" adlandırırıq. Belə ifadə tərzi ətraflı və birbaşa təsvirə nisbətən predmetin müəyyən əlaməti barədə daha canlı təsəvvür oyadır. Bədii əsərlərdə məcaza müraciətin əsas səbəbi bu anlayışın dildə dəqiq adlandırılması deyil, məfhumu daha obrazlı şəkildə ifadə edilməsidir. Məhz bu səbəbdən, xüsusən V. Belinski, məcazları "obrazlı ifadə üçün vacib amil" kimi xarakterizə edir.

Məcazın növləri. Məcazlar təsəvvürə təsir edərək məfhuma ifadəli şəkildə açıqlıq gətirir. Sözün məcazi mənada işlənməsi predmetin xarakterik əlamətini canlandırır. Məcazların işlədilməsində əsas məqsəd həyat hadisələrini təsvir edərkən parlaq və emosional ifadəlilik yaratmaqdır. Predmetin bir əlamətinin başqa bir obyektə köçürülməsi üsulları müxtəlif ola bilər. Bu münasibətdən müxtəlif məcaz növləri fərqləndirilir.

Müqayisə - məcazın ən sadə növüdür. Bu məcaz növünün mahiyyəti bir əşyanın digərinə oxşarlığına işarə etməklə onun əsas əlamətini işıqlandırmaqdır. Müqayisə digər bir predmetin köməyilə əşyanı xarakterizə etmək üçün onların məna sahələrinin qarşılaşdırılmasıdır. Əgər bir əşyanın digərinə bənzərliyi yazıçıya qeyri - adi və fərqli gəlirsə, obrazı daha ətraflı təsvir etmək üçün o müqayisəyə müraciət edir.

"His mind was restless, but it worked perversely and thoughts jerked through his brain like the misfirings of a detective carburettor" (2, 165)

Müfəssəl müqayisə müxtəlif bədii funksiyaları həyata keçirir. Bu cür

məcaz təsviri xarakter daşıya bilər.

"I stared at the wall, bored. There in a wide golden frame hung the picture of the Most Devout and Most Mighty Ruler and Czar, life - sized, looking like a Byzantine ikon under the big double eagle" (6, 27 - 28).

Mükəmməl məcaz yaratma üsullarına toxunarkən L.N.Tolstoy yazırdı: "müqayisə təsvir üçün təbii və həqiqi vasitələrdəndir. Lakin bu məcaz düzgün və yerinə düşən olmalıdır ki, əks effekt yaratmasın. Müəllif yersiz təsvirdənsə, bir dolğun məcaz ifadə etsə daha məqsədəuyğun olar".

Dahi yazıçılar daim bu məcaz növünün sadə, aydın və dolğun olmasına çalışırlar. Bu mənada Lermontovun "Zəmanəmizin qəhrəmanları" əsərinin dili üzərində işləyərkən bir neçə müqayisədə düzəliş etməsi misal ola bilər. Yazıçı ilkin variantda təzəcə tikilmiş zabit geyimində peyda olan Z. Qruşnitskinin təsvirində belə bir müqayisəyə yol verir: "*Эполеты были загнуты кверху в виде крылышек Амура*".

Müqayisənin ilkin variantının dəyişdirilməsinin əsas səbəbi burada yazıçı şəxsin xarici görünüşünü təsvir etməsidir. Lakin II variantda yazıçı aşiq Qruşnitskinin daxili vəziyyətini təsvir etməklə şəraitin müsbət inkişafına ümid etdiyinə işarə edir.

Digər bir əvəzlənməyə nəzər salaq. Əzab içində Veranın dalınca qaçan tələşlı Reçorinin qayıdışını təsvir edərkən yazıçı onun haqqında yazır: "*Bahadır röyası ilə yuxuya getdi*". Lakin bu təsvir Lermontovun xoşuna gəlməmiş və onu əvəz edərək "*Vaterloo döyüşündən sonrakı Napoleon yuxusu ilə yatdı*". Burada yazıçı yalnızca qəhrəmanın dərin yuxuya getdiyini deyil, böyük məğlubiyyətə uğramış güclü bir insanın yuxuya getdiyini vurğulamaq istəmişdir. Həm bu, həm də yuxarıdakı məcazi əvəzlənmələr xarakterlərin və şəraitin qavranılması ilə birbaşa əlaqədədir.

Metafora - aktiv obrazlı - ifadəli təsvir vasitələrindən biridir. Metaforada müqayisəyə nisbətən iki məfhum və ya predmet arasında oxşarlıq daha çox hiss olunur: metaforada bir məfhum digərinin tam bənzəri kimi təqdim olunur. Lakin bu bənzərlik assosiativ xarakter daşıyır. Nümunə olaraq: "*the sun*" əvəzinə "*pancake*", *"ball", "volcano*" kimi bənzətmələri göstərmək olar. Təbiidir ki, iki həqiqi məfhum və anlayışlar arasındakı oxşarlıq öz əksini həmin məfhumların əks olunduğu sözlərin semantik strukturunda tapır; hər iki söz ən azı bir ortaq semantik komponentə malik olur. Yuxarıda göstərdiyimiz nümunədə bu ortaq semantik komponent "*hot*" (*volcano, pancake* isimləri də "*hot*" sifəti ilə səciyyələnir) və *"raund*" (*ball* və *pancake* isimləri də həmçinin) sifətləri ilə xarakterizə olunur.

Müqayisə kimi metafora da bədii əsərlərdə məfhumun mövcud əlamətinin dəqiqliklə ortaya çıxarılmasına xidmət edir. Lakin ondan fərqli olaraq metafora həyat hadisələrinin daha parlaq və obrazlı şəkildə ifadəsinə xidmət edən məcaz növüdür. Metafora bir sıra hallarda tam və bitkin

təsəvvür yaradır. "*Leaving Daniel to his fate, she was conscious of joy springing in her heart*" (1, 39).

Eyni zamanda nəzərə çatdırmaq lazımdır ki, ədəbiyyatda xüsusi seçilən metafora növləri vardır. Belə metaforalarda canlılara aid xüsusiyyətlər cansız məfhumlara, çox vaxt təbiət **varlıqlarına köçürülür. Bu proses ədəbiyyatda və dilçilikdə** təcəssüm **adını almışdır. Yazıçı aşkarladığı əlaməti xüsusi canlı formada təqdim edir ki, bu da həmin xüsusiyyətin parlaq və dəqiq ifadə olunmasına səbəb olur. "*She looked dawn on Gopher Prairie. The snow streching without break from street to devouring prairie beyond, wiped out the town's pretence of being a shelter. The houses were black specks on a white sheet*" (1, 39).**

Təcəssümün bir növü də personifikasiyadır**. Burada təbiət məfhumları insan şəklində təsvir olunur. Nümunə kimi "*face of London", "the pain of the Ocean"* metaforalarını göstərmək olar. Personifikasiyada bir məfhuma insan xüsusiyyətləri ayrılıqda deyil, fəaliyyət atributları ilə və insan zahiri ilə birlikdə köçürülür.**

Yuxarıda qeyd etdiklərimizdən belə bir qənaətə gəlmək olar ki, metaforanın fərqli növləri mövcuddur.

Alleqoriya metaforanın quruluş inkişafının son mərhələsi hesab olunur. Burada bütün təsvirlər birbaşa deyil, məcazi mənada işlədilir. Geniş mənada alleqoriya "istənilən məcazi ifadə" adlanır. Daha dar mənada bədii alleqoriya məcazı hamı üçün başa düşülən, anlaqlı etmək məqsədi daşıyan obrazlı məcazilikdir. İnsani xüsusiyyətlərin, satirik təsvirlərin cansız əşyalara, təbiət məfhumlarına köçürülməsi yolu ilə təmsillərdə alleqoriya yaranır.

Autumn comes
And trees are shedding their leaves,
And Mother Nature blushes
Before disrobing (1, 39).

Metonimiya - bir məfhum**un adı oxşarlıq <u>əsasında deyil,</u> qarşılıqlı şərtləndirmə** əsasın**da digərinə köçürülməsidir.** Metonimik xarakterli ad dəyişmə bədii ədəbiyyatda geniş yayılmışdır. Nümunə olaraq; A.P. Çexov yazır: "*Для того, чтобы подчеркнуть бедность просительницы, не нужно тратить много слов, не нужно говорить о ее жалком, несчастном виде, а следует только вскользь сказать, что она была в рыжей тальме*" **(5, 176). "**Рыжая тальма" **bu cümlədə kasıblığın ən ifadəli obrazlı əlamətidir. Elə ilk anda bu ifadə yazıq, maddi vəziyyəti çox pis olan dilənçi haqda parlaq təsəvvür yaradır; ətraflı təsvirin bir detalla əvəzlənməsi metonimik xarakter daşıyır. Metonimiyada bu cür əvəzlənmə daha aydın nəzərə çarpır.**

Metonimiyanın yaratdığı iki məfhum arasında qarşılıqlı şərtləndirmə

xarakter baxımından fərqlidir. Elə bu səbəbdən metonimiyanın növləri çox müxtəlifdir, ən geniş yayılmış növləri aşağıdakılardır:

a) bir predmet və ya məfhum əvəzinə bir vacib atributun adının çəkilməsi:

"*I'm sending you another thirty men. Prepare everything for the defense of the Gate." I put the receiver down. Nino was sitting up in bed staring at me. I took up my dagger and tried its sharp end* (6, 165).

b) materialın adını çəkməklə bu materialdan hazırlanmış əşya və ya predmetə işarə etmək.

"*Evelyn Clasgow, get up out of that chair this minute. The giri looked up from her book.*

What's the matter?"

Your satin. The skirt'll be a mass of wrinkles in the back" (1, 41).

Bir obyektin adını çəkməklə onu ehtiva edən kütləyə və ya atributa eyham vurmaq.

c) hadisənin baş verdiyi və ya insanların, əhalinin (xalqın) toplandığı məkanın adını çəkməklə:

Unceremoniously, I yanked her to her feet. She seemed surprised and inclined to protest, but yielded with a fairly good grace - partly, no doubt, because she wished to observe the reactions of the household.

ç) sənət əsərinin adı əvəzinə müəllifin adından istifadə olunması:

"Some remarkable pictures in this room, gentlemen, a Holbein, two Van Dycks and if I am not mistaken a Velasquez. I am interested in pictures" (1, 42).

d) hərəkətin icrası deyil, vasitə, istifadə olunmuş silah, məqsəd və ya nəticə barədə yazmaqla:

"*For several days he took an hour after his work to make inquiry taking with him some examples of his pen and inks*" (1, 42).

Metonimiyanın müxtəlifliyi yuxarıdakılarla məhdudlaşmır. Lakin metonimiya nə qədər müxtəlif və çoxsaylı olsa da, əsas məqsədi vacib, əsas xüsusiyyəti ortaya çıxartmaq və bu əsas elementləri parlaq, hiss ediləcək şəkildə göstərməkdir. Nümunə üçün Krılovun "Arı və Milçək" təmsilini göstərmək olar. Burada şöhrətpərəstlik, məğrurluq metonimiya vasitəsilə daha aydın şəkildə biruzə verir:

"И ем с фарфоровых богатых блюд и пью из хрусталей блестящих сладки вина" (5, 178). Bu halda metonimiya yalnız xarakterik olan əlaməti aşkarlamağa deyil, eyni zamanda müəyyən əhvali - ruhiyyə yaratmağa xidmət edir.

Sinekdoxa – metonimiyanın xüsusi bir növüdür. Z.V.Şepilova sinekdoxanı aşağıdakı kimi xarakterizə edir: "Sinekdoxa hal adının görüntü, cəm halının tək və ümumiləşdirilmiş adla əvəzlənməsidir." A.Kunin isə

sinekdoxanı hissənin tamı, tamın hissəni əvəz edə bildiyi məcaz növü kimi qələmə verir; məsələn: ABC - "alphabet" əvəzinə; bigwig - "a person of importance" əvəzinə, (adətən, böyük ölçülü pariklər yüksək çinli şəxslər tərəfindən **geyilərdi və hələ də Lordlar palatasının spikeri və hakimlər ondan istifadə edir); "a 11 hands abroad, a fleet a fifty sail, to save one's skin" kimi ifadələr metonimik xarakter daşıyır.**

Tamın hissəni əvəz etdiyi sinekdoxaya ilk öncə heyvan xəzlərini nəzərdə tutaraq müxtəlif heyvan adlarının çəkilməsini nümunə göstərmək olar: fox, otter, stoat, tiger və s. Aşağıdakı cümləyə **fikir verək:** ***Ona t****ülkü yaraşmır*.

Hiperbola və **l**itotani əsas məcaz növlərindən hesab etmək doğru olardı. Məcazın bu növləri bədii şişirtmə və bədii kiçiltmənin xüsusi sözlü ifadəsi kimi yazıçıya haqqında danışdığı məfhumun hərfi təyinatının qəsdən şişirdilməsi və ya kiçildilməsi yolu ilə yaranır ki, bu da konkret anlayışın mövcud əlamətini xüsusi emosionallıqla işıqlandırmaq imkanı verir.

Aşağıdakı nümunəyə fikir verək:

"And this maiden she lived with no other thought
Than to love and be loved by me" (3, 173).

Hiperbola və litota adətən **müqayisənin k**öməyilə yaranır. Bədii mübaliğə və ya kiçiltmə obyektinin bir əlamətinə görə oxşar olan digər məfhumla müqayisə olunur, əgər söhbət bir predmetdən gedirsə, bu zaman onun həcmi ya şişirdilir, ya da qəsdən kiçildilir. Lakin hiperbola və litota predmetə deyil, hərəkətə aid olarsa, çox zaman onun nəticəsi şişirdilir və ya kiçildilir. Hiperbola və litota təsviri olmaqla yanaşı, emosional - lirik xarakter daşıya bilir. Bu zaman predmetin və ya məfhumun bir əlaməti əvəzinə, yazıçının bu varlığa münasibəti qəsdən şişirdilir, ya da kiçildilir. Bu prosesə satirik əsərlərdə daha çox rast gəlinir.

Kinayə - məcazın xüsusi növlərindən biri olub, əks məna ifadə edən məna köçürməsidir. Burada məna dəyişməsi digər məcaz növlərindən fərqli olaraq başqa xarakter daşıyır. Kinayə sözün hərfi mənasına tam zidd olan məna ehtiva edir.

"*She turned with the sweet smile of an alligator*" (1, 47). Bu nümunədə "*sweet*" mikrokontekstdən aydın olduğu kimi, öz lüğəvi mənasından uzaqlaşaraq tam əks məna kəsb edir.

Üslub priyom kimi kinayədə kontekstual mənası lüğəvi mənası ilə tam ziddiyyət təşkil edən sözü göstərmək mümkündür. Kinayənin bu növü verbal ironiya, ya da verbal kinayə adlanır. Bir çox hallarda intuitiv olaraq məna dəyişikliyi hiss etsək də, konkret bir sözə işarə edə bilmirik. Bu halda kinayə effektini bütöv mətn, ya da bir neçə ifadə yaradır. Bu tip ironiya "geniş kinayə" adlanır və yazıçının düşüncələri ilə cəmiyyətdə qəbul olunmuş norma arasında mövcud olan ziddiyyət əsasında yaranır. D.Defo, C.Svift

yaradıcılığında geniş kinayəyə daha çox rast gəlmək mümkündür.

"[...] *I desired that the senate of Rome might appear before me in one large chamber, and a modern representative in countervie in another. The first seemed to be an assembly of heroes and demi - gods, the other a not of pedlars, pickpockets, highwaymen, and bullies* (4, 163).

Epitet ən geniş yayılmış məcaz növlərindən olub bir məfhum və ya predmet barədə obrazlı, parlaq təsəvvür yaradan bədii təyindir.

Epitet məntiqi təyindən obrazlı və emosional xarakter daşıması ilə fərqlənir. Lermontov iki ifadəni müqayisə edir: "dəmir çarpayı" və "dəmir şeir". Birinci halda söhbət yalnız əşyanın hazırlandığı materialdan gedirsə, ikinci ifadədə metala xas xasiyyətin şeirə köçürülməsi ilə bədii obrazlı, emosional qiymətləndirmə xarakterli təyini sezmək mümkündür (5, 181).

Bədii ədəbiyyatda ilkin inkişaf mərhələlərində "epitet" sözü ümumilikdə bir məfhuma xas olan ortaq, real əlaməti ifadə edən söz kimi qəbul olunmuşdur. Şifahi xalq ədəbiyyatı nümunələrində epitetlər məhz bu xarakterdə olmuşdur. Onların bu xüsusiyyəti bu tip epitetlərin tez - tez işlənməsinə zəmin yaratmış və daimi epitet kimi adlandırılmasına şərait yaratmışdır.

Xüsusi hallarda bu epitetlərdən adət üzrə istifadə konkret şəraitlə, məxsusi personajlarla və təsvir olunan şəraitlə ziddiyyət təşkil edir. Məsələn, I Karl haqqında fransız xalq eposunda cavan olmasına baxmayaraq onun barədə "ağsaqqal" təyini işlədilmişdir. O dövrün yaradıcılıq nümunələrində kəskin və ifadəli şəkildə bir şəxsin xarakterik əlamətini xalqa çatdırmaq məqsədi ilə daimi epitetlərdən istifadə olunmuşdur.

Daha sonrakı dövrlərdə konkret şəraitlə əlaqədar olmayan, bir məfhumu bütövlükdə ifadə edən bu tip daimi epitetlərə az rast gəlinir. Lakin bu o demək deyil ki, ayrı - ayrı nümunələrdə belə hallar müşahidə olunmur. Çernişevskinin "Nə etməli?" romanında məhbəsə salınmış inqilabçı rəfiqəsini təsvir edərkən, onu "matəm içində xanım" adlandırır. Burada yazıçı onun taleyinin əsas əlaməti - yaxın insanını itirməsini vurğulamaq məqsədilə bu epitetdən istifadə edir. "Matəm içində Xanım" onun daimi adına çevrilir.

Yeni dövrün ədəbiyyat nümunələri kəskin, individual epitetləri ilə xarakterizə oluna bilər.

"*The saintly soul of Elizabeth shone like a shrine - dedicated lamp in our peaceful home. Her sympathy was ours; her smile, her soft voice, the sweet glance of her celestial eyes, were ever there to bless and animate us*" (7, 40).

Epitetlərin yaranması eyni zamanda sözlü ifadə vasitələrindən istifadə zamanı əldə olunan nailiyyətlərə əsaslanır. Bu meyara görə epitet müqayisə və metaforaya yaxınlaşır. Yuxarıdakı nümunədə "*soft voice", "sweet*

glance" epitetləri metaforik xarakter daşıyır.

Parafraz - bir obyektin hər hansı bir əlamətini ortaya çıxarmaqla söz birləşməsi vasitəsilə yenidən adlandırılmasıdır. Bu məcazın mahiyyəti yalnız kontekst daxilində aydın olur. Əgər hər hansı bir ifadə və ya söz birləşməsi kontekstdən kənarda başa düşülürsə, bu zaman üslubi priyom deyil, sinonimik ifadə yaranır. Belə asanlıqla qavranılan parafrazlar ənənəvi, lüğəvi ya da dil parafrazları adlanır. Qalanları isə danışıq, ya da nitq parafrazları adlanır. Bir neçə məlum lüğəvi parafrazlara (parafraz sinonimlərə) diqqət yetirək:

"*The cap and gown" - student body; "a gentleman of the long robe" - a lawyer; "the fair sex" - women; "my better half" - my wife.*

Əksər parafraz sinonimlər işlənmə sahəsinə və zaman kəsiyinə görə fərqlənir. Məsələn, feodalizm dövründə "*king*" sözünü xarakterizə edən parafraz sinonimlər yaranmışdır: "*the leader of hosts; the giver of rings; the protector of earls; the victory lord*" **(2, 166).**

Söz birləşmələri ilə ifadə olunduqlarına görə ənənəvi, dil və lüğəvi parafrazlar mahiyyət etibarı ilə bir - birilərinə sinonimdirlər. Üslubi priyom kimi parafraz obyektin öz adını saxlamaqla onun əsas əlamətini ortaya çıxararaq daha kamil adlandırılma prosesidir.

Bəzi hallarda parafrazlar dil defekti kimi qəbul olunur və bədii ədəbiyyatda istifadəsi yersiz hesab olunur. Bu cür parafrazlar əvəzedici ifadələr adını alır. Bəzən adi məfhumlar barədə uzun, yersiz ifadələrin istifadəsi estetik dəyərlərə zidd olur. Aşağıdakı nümunəyə diqqət yetirək:

"The lamp lighter made his mightily failure in attempting to brighten up the street with gas" (= "lit the lamps")

Tam poetik parafrazlar bütöv məfhumu nəzərdə tutaraq xarakterik olanı, tamı təmsil edəcək vacib elementi, səbəbi göstərmədən təsvir effektini təsvir edir. Digər üslubi vasitələr kimi üslubi parafrazlar da bir obyektə, məfhuma verilən iki adın müxtəlif realizasiyasıdır. Əks halda, bu parafraz üslubi xarakter daşımır.

Müəyyən müddət orijinal olub, daha sonra banal xarakter kəsb edən parafrazlara daha çox qəzet məqalələrində rast gəlinir. İngilis dilində sözlərin düzgün istifadəsinə bir neçə məqalə və kitab həsr etmiş C.Donald Adams məqalələrinin birində bu mövzuya toxunmuş və Teodor Bernşteynin kitabında istifadə etdiyi "improved financial support and less onerous work loads" parafrazını banal adlandıraraq Klifton Denilin işlətdiyi "High pay and less work" variantını daha düzgün hesab etmişdir.

Üslubi parafrazlar məntiqi və məcazi olmaqla iki yerə bölünür. Məntiqi parafrazlar təsvir olunan obyektin müvəqqəti ya da daimi əlamətlərinə əsaslanır. Nümunə üçün: *instruments of destraction (Dickens) = pistols; the most pardonable of human weaknesses (Dickens) = love; the object of his*

admiration (Dickens); able to read words of more than one syllable, and to read them without perceptible movement of the lips (D. Adams) = half illiterate (2,169).

Məcazi parafrazlar isə metafora və metonimiyaya əsaslanır; burada əsas söz məcazi məna kəsb edən sözdür; məsələn: "*the punctual servant of all work" (Dickens) = the sun; "in disgrace with fortune and men's eyes" (Shakespeare) = misfortune; "to tie the knot" = to marry*. Metafora, metonimiya və məcazi parafraz arasında fərq yalnız struktur aspektdə özünü büruzə verir.

Antonomasiya - sözün məntiqi və hərfi mənalarının qarşılıqlı təsiridir. Leksik mənaların qarşılıqlı əlaqəsinə əsaslanan digər üslubi priyomlar kimi, bu məcazda da iki növ məna bir sözdə eyni anda reallaşmalıdır, əgər kontekst daxilində sözün yalnız bir mənası reallaşırsa, üslubi priyomdan söhbət gedən Bayronun "Don Juan" əsərində bunu müşahidə etmək olar:

"Society is now one polished horde,
Form'd of two mighty tribes, the Bores and Bored."

Yuxarıdakı nümunədə "*bores, bored*" sözlərinin məntiqi mənası çox güclü olduğundan hərfi mənanı başa düşmək çətin olur. Lakin daha bir şeyi qeyd etmək lazımdır. Əksər xüsusi isimlər bəzi analoji qanunlara əsasən formalaşır. Əksərinin sonu ya - *son* (Johnson), ya da – *er* (Fletcher) şəkilçiləri ilə bitir. Smith, White, Brown, Green, Fowler kimi xüsusi adları biz asanlıqla tanıya bilirik. Xüsusi adlar, bir çox hallarda, keyfiyyət, əlamət, insani xüsusiyyət və ya onun məşğuliyyətinə dəlalət edir. Lakin bu etimoloji məna unudula bilər və bu zaman ad yalnız xüsusi isim kimi qəbul olunur. Antonomasiya ilə bu belə deyil. Antonomasiyanın əsas məqsədi hadisə və ya şəxsin ən xarakterik əlamətini ortaya çıxarmaqla, bu başlıca xüsusiyyəti xüsusi isim kimi vurğulamaqdır. Faktiki olaraq, antonomasiya fərdləri adlandırma prosesində ilkin olanı dirçəltmək deməkdir.

Antonomasiyadan istifadə bədii üslubla məhdudlaşmır. Bu məcaz növünə publisistik üslubda, yəni qəzet və jurnal məqalələrində, esselərdə, həmçinin hərbi dildə rast gəlinir.

"I suspect that the Noes and Don't Knows would far out number the Yesses." (2, 162)

Nəticə. Beləliklə, biz əsas, ilkin mənasını itirməyən, məntiqi və hərfi mənaları tam aydın olan antonomasiya nümunələri ilə tanış olduq. Lakin bu məcaz - əsas hərfi mənası olan sözü məntiqi məna ilə təchiz etməklə ona ümumi xarakter verir.

Antonomasiyanın bu növü üslubi priyom kimi istifadə olunmur. Çünki, bu sözlərin nominal mənası ad daşıyıcısı barədə çox az, bəzən isə heç bir məlumat vermir.

ƏDƏBİYYAT

İngilis dilində:

1. Ginzburg R.S. A course in Modern English Lexicology. Moscow : Moscow University Press, 1979
2. Jespersen O. Grows and Structure of the English language. Chicago: The University of Chicago Press, 1998, 162, 165, 166, 169 p.
3. Koonin A. English lexicology. Moscow: Nook publishing house, 1940, 178 p.

Rus dilində:

4. Виниградов В.В. Стилистика. Теория поэтической речи. Поэтика. Москва: Издательство Академии Наук, 1963, 255 с.
5. Кузнец М.Д., Скребнев Ю.М. Стилистика английского языка. Ленинград: Государственное Учебно-педагогическое издательство, 1960, 181 с.
6. Звегинцев В.А. Внутренние законы развития языка. Москва: Издательство Московского Университета, 1954, 34 с.
7. Звегинцев В.А. Семасиология. Москва: Издательство Московского Университета, 1957, 322 с.

A.Vayisova

Types of metaphors and their classification
(based on materials of English)

Summary

The article explores the metaphor and its types. The author touches upon the classifications of metaphorical styles. While looking through the article we can observe that the author individually stops at metaphor, metonymy, allegory, irony, epithet, paraphrase, antonomy, etc. For a full restoration of the picture, the author refers to the material of the English language. Specially some examples are taken from English literature. As a subject of study, classical literary texts in English are chosen. The author considers that for many classical writers, metaphor and metaphorical units are chosen as an aesthetic goal in itself. In order to enrich the poetic meaning of the literary material metaphore and metanomy are the best choices for the author. We can say that in many cases the author supplies the original meaning. The author also refers to the theoretical literature on selected topics from Russian literary criticism.

А. Вейисова

Виды метафор и их классификация
(на основе материалов английского языка)

Резюме

В статье исследуется метафора и ее виды. Автор затрагивает классификации метафорических троп. Также и рассматривается, и по отдельности останавливается на самой метафоре, метонимии, аллегории, иронии, эпитете, парафразе, антономации и др. Для полного восстановления картины автор ссылается на материал английского языка. Как предмет исследования автор выбирает классические литературные тексты. Эти тексты должны быть на английском языке. Одновременно некоторые примери изяты из Англиской литературы. Выясняется, что у многих классических писателей метафора выбирается как эстетическая самоцель. А метафорические тропы во многих случаях вытесняют первоначальное значение. Также автор ссылается на теоретическую литературу по выбранной тематике из русского литературоведения.

Rəyçi: Sevinc Hüseynova
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent

СЕВИНДЖ ДЖАБРАИЛОВА
АУЯ
sevinc1918@mail.ru

РАЗВИТИЕ ГРАММАТИЧЕСКИХ НАВЫКОВ ИНОЯЗЫЧНОГО ОБЩЕНИЯ

Açar sözlər: sahib olma, nəzəri fon, linqvistik, assimilyasiya, qrammatik qabiliyyət, inkişaf, formalaşma.
Ключевые слова: владения, теоретические предпосылки, лингвистические, усваивается, грамматической компетенции, разрабатывались, формирования.
Key words: possession, theoretical background, linguistic, assimilated, grammatical competence, developed, formation

В последнее время, когда политические, экономические и социальные условия жизни диктуют приоритеты использования иностранного языка как средства общения, становится все более актуальным вопрос об изменении методики преподавания иностранного языках в вузах. Развитие грамматических навыков иноязычного общения может привести к высокому уровню обучения студентов, что обеспечит им в дальнейшем возможность грамотного участия в деловых встречах, презентациях, поддержания контакта во время беседы, ведения, телефонных переговоров и т.д.[2,26-34] Наблюдение за процессом обучения английскому язык студентов на начальном этапе показало, что они заинтересованы в приобретении не только навыков общения, но и грамматических навыков, поскольку способствуют эффективному использованию изучаемого языка. [7,243] С целью соответствия государственным требованиям, выдвигаемым к содержанию и уровню подготовки выпускников высших учебных заведений, в частности студентов вузов в национальных аудиториях, возникает необходимость практически свободного владения устной и письменной иноязычной речью. Однако ограниченное количество учебных часов, выделяемых на изучение английского языка, как второго иностранного, представляет собой серьезную проблему. Изучение английского языка как второго иностранного в вузе ставит своей целью практическое овладение языком. В современной методике проблеме обучения английскому языку как второму иностранному в целях общения, уделяется достаточно много внимания. Многие исследования посвящены вопросам обучения устно- речевой коммуника-

тивной деятельности. [1,201] Между тем в проблеме обучения грамматике английского языка как второго иностранного в вузе уделяется недостаточное внимание.

Предпосылки для формирования методических основ обучения коммуникативной грамматике разрабатывались зарубежными и отечественными методистами в рамках коммуникативного подхода. [3,269-293] Коммуникативный подход предполагает погружение студента в языковой процесс, что обеспечивает более естественную среду для восприятия иностранного языка, чем занятия с доминирующей ролью формальной грамматики. [3,269-293]

Тем не менее существует опасность, что такой подход к обучению английскому языку как второму иностранному может привести к развитию грамматики неправильной формы речи. Мы предполагаем, что формирование грамматической компетенции является неотъемлемой частью формирования языковой компетенции в целом. [6, 2004] Однако, в отечественной методической литературе коммуникативный подход применяется в основном для развития навыков устной речи, грамматический же аспект этого подхода разработан, недостаточно четко. [5,208]

Работа со студентами при обучении английскому языку как второму иностранному показала, что:

1. студенты испытывают затруднения при ситуативном использовании грамматических явлений;

2. студенты не обладают достаточно развитыми навыками употребления грамматических форм;

3. многие студенты научились использовать в речи только очень простые грамматические структуры, затрудняясь использовать элементы языка, делающие иноязычные высказывания естественным.

Возникающие проблемы можно разрешить, изучив теоретические предпосылки, связанные с механизмом формирования грамматических навыков и умений в учебном процессе. На практике необходима разработка комплекса эффективных дидактических приемов обучения коммуникативной грамматике.[4,168]

Обучение грамматике в рамках коммуникативного подхода опирается на учет профессиональных потребностей студентов, психологическую установку сотрудничества преподавателя и студентов, осознанный характер учебной деятельности. Оптимизация обучения коммуникативной грамматике достигается благодаря поэтапному закреплению функций грамматических категорий в ситуации общения на иностранном языке. Более высокие результаты в обучении грамматике обеспечиваются комплексом грамматических

заданий, направленных на формирование коммуникативной грамматической компетенции. [2,26-34] Требования к обучению грамматике в свете коммуникативно-функционального подхода сводится к следующему: 1. материал для обучения английскому языку как второму иностранному должен отражать естественное использование языка в общении без искусственных примеров; 2. грамматический материал целесообразно предъявлять в доступном объеме с целью возможности его закрепления в новых контекстах; 3. введению нового материала необходимо предпосылать повторение ранее усвоенного и широко использовать в качестве опоры иллюстративную наглядность, схемы, таблицы и др.; 4. пояснения и правила должны быть краткими, точными и простыми, адекватно отражающими специфику грамматического материала; 5. для закрепления грамматических явлений следует использовать различные виды

общения, в том числе парную и групповую работу. Функциональный подход к обучению требует соблюдения следующих принципов:

1. Речевая направленность.Обучение английскому языку через общение. Прежде всего, это касается речевых упражнений, в них происходит накопление большого объема лексики и грамматики с немедленной реализацией в условиях реального общения.

2.Функциональность.Функциональность предполагает, чтобы грамматические формы усваивались сразу в реальной деятельности.

3.Ситуативность.Необходимость обучения грамматическим явлениям на основе ситуаций.

4. Личностная ориентация общения. Коммуникативное общение предполагает учет всех личностных характеристик, вызвана коммуникативная мотивация, обеспечена целенаправленность говорения, мотивированы взаимоотношения и т.д.

5. Коллективное взаимодействие- такой способ организации процесса, при котором студенты активно общаются друг с другом, и условием успеха каждого являются успехи остальных.

Восприятие модели происходит в процессе презентации, которую можно определить как показ модели в действии, показ ее функционирования в речи.[1,201]

Например, презентации темы “Second Conditional” может выглядеть следующим образом:

Дается установка на урок: “We already know Englishmen usually say, when they want to express a real condition. Today we’ll learn to express unreal condition in a way Englishmen do”. И далее:“I am a teacher and I work at school. But if I were a doctor I would work in a hospital. If I were a

taxi-driver I would spend the whole day driving around the city.”(при этом форма сослагательного наклонения выделяется голосом). Заканчивается презентация фразой: “But that was only my dreams. Unfortunately, I am not a doctor and I am not a taxi-driver.”

Таким образом, презентация нового грамматического материала начинается с предваряющего слушания. Если предваряющее слушание организованно правильно и студент воспринимает однотипные фразы, понимая какую функцию эти фразы реализуют, то это способствует зарождению речевого стереотипа как основы грамматического навыка. Слушание, к тому же, сопровождается внутренним проговариванием, что играет решающую роль в укреплении стереотипа.

За восприятием грамматического явления на слух, следует зрительное подкрепление, в виде речевых образцов:

If I were a queen I would live in a palace.

If I had 1000$ I would buy a coat for myself.

Подобные речевые образцы в полной мере отражают функцию изучаемого грамматического явления. Но также дают возможность обратить внимание студентов на форму, которую перед этим они воспринимали на слух.

Другой вариант предъявления материала может выглядеть таким образом: для предваряющего слушания предлагается более сложный и объемный текст, который в полной мере отражает функции предъявляемого грамматического явления. Но наряду с тем, что текст "усваивается" студентами на слух, они также имеют перед собой письменный вариант данного текста. Таким образом, процесс слушания протекает одновременно с проговариванием и прочтением материала.

Для предъявления грамматической 'структуры Present Perfect в сравнении с Present Perfect Continuous может быть предложен следующий диалог:

Betty Tudor’s life-long passion is driving, but there is one problem, as our interviewer found out.

Interviewer: How long have you been trying to pass your driving test, Betty?

Betty: Seventeen years.

Interviewer: How many times have you taken it?

Betty: Thirty-eight, and I’m afraid I’ve failed it every time. I’ve always wanted to be able to drive, and I’m determined to pass.

Interviewer:I suppose you’ve been taking lessons all the time?

Betty: That’s right.

Interviewer: How many have you had?

Betty: Over two hundred and seventy. It’s cost me about two thousand

pounds already. I'm taking the test again next week.

Interviewer: I hear you are saving up to buy your own car now. How long have you been saving?

Betty: Since 1982.

Interviewer: And how much have you saved?

Betty: Over 4000 pounds, and that's enough to buy a nice little second-hand car.

Interviewer: Well, all the very best with your next test.

Betty: Thank you.

После предъявления диалога, задается серия вопросов, уточняющих как форму, так и функции предъявляемого грамматического явления:

Underline with a solid line_____ the examples of the *Present Perfect.*

Underline with a broken line _____ the examples of the *Present*

Perfect Continuous.

Why does the interviewer ask: How long have you been saving?

but: How much have you saved?

Таким образом, можно сказать, что процесс предъявления грамматического материала осуществляется практическим путем и опирается на основные положения, связанные с обучением грамматической стороной речи, а именно:

- Деятельностный характер овладения грамматической стороной и коммуникативная направленность обучения ей.
- Учет первичности слухо-моторных связей
- Опора на образе

Практика показывает, что широкие возможности для активизации учебного процесса и формирования грамматических навыков и умений у студентов дает использование ролевых игр. Известно, что ролевая игра представляет собой условное воспроизведение ее студентами реальной практической деятельности, создает условия реального общения. [5,208]

Ролевая игра учит быть чувствительным к социальному употреблению иностранного языка. Хорошим собеседником часто является не тот, кто лучше пользуется грамматическими структурами, а тот, кто может наиболее четко распознать ситуацию, в которой находятся партнеры, учесть ту информацию, которая уже известна (из ситуации) и выбрать те лингвистические (грамматические) средства, которые будут наиболее эффективны для общения. [3,269-293]

Литература

1. Алексеева Л.Е. Оптимизация процесса обучения иноязычному профессионально-ориентированному общению студентов факультета международных отношений (на материале английского языка):Дис....к.п.н. Санкт-Петербург, 2002.201с.
2. Мильруд Р.П. Навыки и умения в обучении иноязычному говорению. Иностранные языки в школе. М.,1999. 1.26-34.
3.Hymes D.H. On Communicative Competence. Sociolinguistics. Ed. M. By J.B.Prideand J.Holmes. Penquin,1972. p.269-293.
4. Widdowson H.G. Teaching Language as Communication.Oxford: Oxford University Press,1990.168p.
5. Пассов Е.И. Коммуникативный метод обучения иностранному говорению.- М. Просвещение 1985.208с.
6. Halliday M.A.K. An Introduction to Functional Grammar. (3rd ed.) London. 2004
7. Edward Arnold. Words in Ads by Greg Myers. 1994. 243p.London

S.Cəbrayılova

Xarici dil ünsiyyətində qrammatik bacarıqların inkişafı

Xülasə

Bu məqalədə xarici dil kommunikasiyasında qrammatik bacarıqların inkişafının tələbələrin yüksək səviyyədə öyrənilməsindən bəhs olunur. Kommunikativ yanaşma tələbəni dil prosesinə yükləməyi ehtiva edir. Qrammatikanın öyrədilməsində ən yüksək nəticələr, kommunikativ qrammatik kompetensiyanın formalaşmasına yönəlmiş qrammatik tapşırıqların kompleksi ilə təmin edilir. Kommunikativ qrammatikaya öyrətmənin optimallığı ingilis dilində ünsiyyət qurarkən, qrammatik kateqoriyaların funksiyalarının mərhələlərlə möhkəmlənməsi sayəsində nail olur. Qrammatikanın tədrisində yüksək nəticələrin əldə olunması kommunikativ qrammatik bacarıqların formalaşmasına yönəlmiş bir sıra qrammatik vəzifələrlin təmin olunmasıdır. Kommunikativ yanaşma çərçivəsində qrammatikanın tədrisi tələbələrin peşə ehtiyaclarını nəzərə alaraq əsaslanır. Grammartik bacarıqların inkişafı eyni zamanda, eşitmə stereotipini gücləndirməkdə mühüm rol oynayan daxili danışma ilə müşayiət olunur. Qrammatik şərhlər və qaydalar qrammatik materialın spesifikliyini kifayət qədər əks etdirən qısa, dəqiq və sadə olmalıdır. Qrammatik materialı möhkəmləndirmək üçün müxtəlif növ texniki vasitələrdən də istifadə edilə bilər. Texniki vasitələrin həm köhnə qrammatik materialın, həm də

yenisinin təqdimatında istifadə edilməsi xarici dil öyrənənlərin vizual olaraq materialı daha rahat və daha aydın qavramağa şərait yaradır.

S. Jabrayilova

Development of grammar skills in foreign language communication.

Summary

This article discusses the development of grammar skills in foreign language communication with students at a high level. The communicative approach involves loading the student into the language process. The highest results in grammar teaching are provided by the complex of grammatical tasks aimed at the formation of communicative grammatical competence. The optimization of communicative grammar teaching is achieved through stereo strengthening of grammar categories while communicating in English. The achievement of high results in the teaching of grammar is the provision of a number of grammatical tasks aimed at the formation of communicative grammar skills. Within the context of a communicative approach, grammar teaching is based on students' professional needs. Grammar skills are also accompanied by in-house counseling, which plays an important role in strengthening hearing stereotypes. Grammar descriptions and guidelines should be short, accurate and straightforward enough to reflect the specificity of the grammatical material. Various types of technical means can also be used to strengthen the grammatical material. The use of technical means both in the use of old grammatical material and in the new ones will enable foreign language learners to visualize the material more conveniently and more clearly.

Rəyçi: Dilarə Ismailova
Filologiya elmləri doktoru, professor

ŞƏKƏR MƏMMƏDOVA
AMEA Naxçıvanbölməsi
E-mail: shakar-mamedova@rambler.ru

FRAZEOLOJİ VAHİDLƏR ƏDƏBİ DİL VƏ NAXÇIVAN DİALEKT VƏ ŞİVƏLƏRİNDƏ

Açar sözlər: dialekt, şivə, feil, frazeoloji vahidlər, söz.
Keywords: dialect, accent, verb, phraseological units, word.
Ключевые слова: диалект, акцент, глагол, фразеологические единицы, слово.

Azərbaycan xalqının tükənməz mədəniyyət xəzinələrindən biri və ən böyük neməti onun dili olan Azərbaycan dilidir. Öz qədimliyi,zənginliyi ilə seçilən dilimizin bu günkü inkişaf səviyyəsinə gəlib çatmasında bir çox amillər özünü göstərir: xalq tərəqqi etdikcə,tarixin süzgəcindən süzüldücə, dünyagörüş artdıqca, ictimai həyat təkmilləşdikcə, elm və texnika inkişaf etdikcə və s. bu kimi cəhətlər dilimizə bu və ya digər dərəcədə təsir göstərmişdir. Bu dil bizə ulu babalarımızın min bir əziyyətlə qoruyub çatdırdığı dildir.

Dilçilik elminin ən böyük şəxsiyyətlərindən biri olan Vilhelm fon Humboldt dili xalq ruhunun ifadəsi adlandırır, hər bir xalqın dünyagörüşünün, mədəniyyətinin onun dilində əks olunduğunu söyləyir: "Xalqın dilinin mənəvi özünəməxsusluğu və onun quruluşu bir-birinə o qədər sirayət edir ki, əgər biri mövcuddursa, digərini ondan almaq olar. Zehni fəaliyyət və dil yalnız onların hər ikisinin istədiyini ödəyən formaların yaranmasına kömək edir. Dil xalq ruhunun sanki xarici təzahürüdür; xalqın dili onun ruhudur və xalqın ruhu onun dilidir – bundan da güclü olan eynilik təsəvvür etmək çətindir"(1,səh.71)

"Bir xalqın ictimai inkişafın hansı pilləsində durduğundan, keçdiyi ümumi tarixi inkişaf yolunun xüsusiyyətlərindən asılı olaraq,onun dili ya güclü və ya zəif, ya zəngin və ya kasıb olur." (2, səh. 37)

Müasir ədəbi dilimiz Azərbaycan dilinin keçdiyi tarixi proseslə əlaqədar olaraq inkişaf etmiş, zənginləşmişdir. Dilimiz ən sadə fikirləri ifadə etməklə yanaşı, çox dərin mənanı da ifadə etmək qüdrətinə malik gözəl bir dildir. Bunu ən azından dilimizdə olan atalar sözləri və məsəllər deməyə əsas verir. Hər bir xalqın olduğu kimi Azərbaycan xalqının dili onun fikri deməkdir. Dil canlı tarixi varlıqdır və aid olduğu xalqın tarixi, həyat tərzi, dünyagörüşü ilə əlaqədardır. Vilhelm fon Humboldt yazır: "...dillərin fərqliliyi səs və işarələrin fərqliliyi deyil, dünyagörüşünün özünün müxtəlifliyidir. Çünki dünya bir dil vasitəsilə və bir dildə düzəlirsə və bu da

müxtəlif dillərdə verilirsə, onda bir dünya yox, hər bir dilin açdığı prespektivlərin çoxluğuna uyğun dünyaların müxtəlifliyi vardır.” (3, səh. 12)

Azərbaycan dili Azərbaycan xalqının mənəvi xəzinəsi, tükənməz təbii sərvətidir. Bu sərvətin əsasında isə söz durur. Söz dilin nüvəsini təşkil edir. Həyat qədər geniş bir sahəni əhatə edən söz tarixi çox böyük olan bir varlıqdır. Dili sözsüz təsəvvür etmək qeyri-mümkün olduğu üçün söz dilin əsas vahidi kimi çıxış edir. Müəyyən bir səs kompleksindən ibarət olan söz dilin əsas funksional–struktur vahidi olub mürəkkəb semantik tərkibə malikdir. Sözsüz cümlə qura bilmərik, cümlə qurmasaq öz fikrimizi çatdıra bilmərik və ya ünsiyyət qura bilmərik.

“Söz ünsiyyət məqsədlərinə xidmət etmək üçün işlədilən, gerçəkliyin hər hansı bir faktını, onun təbiət materiyası kimi fonetik tərkib vasitəsilə ifadə edən dil vahididir.”(4, səh. 11, 12)

R. A. Budaqov yazır: “sözün çoxmənalılığını inkar etmək olmaz, çünki o, insan təfəkkürünün varlıqdakı hadisələri ümumiləşdirməyi bacarması ilə əlaqədar irəli gəlir ki, bunun nəticəsində bir sözlə bir neçə anlayış ifadə edilir.”(5, səh.15) Deməliyik ki, çoxmənalılıq insan təfəkkürünün hadisələrə və sözə yanaşmasından meydana gəlir, bununla da bir – birinə uzaqdan yaxından əlaqəsi olan anlayışlar bir sözlə ifadə oluna bilir.

Tarixi hadisə olan çoxmənalılıqla frazeologiya arasında incə bir bağ vardır. Belə ki dilimizdə artıq daşlaşmış frazeoloji vahidlər sözlərin birləşməsindən və ya onların həqiqi mənadan tamamilə uzaqlaşmasından əmələ gəlir. Frazeoloji vahidlərin əksəriyyəti söz birləşməsi şəklində olur ki, bu birləşmələri təşkil edən sözlər öz ilkin mənasından uzaqlaşaraq məcazi məna kəsb edir və sabit söz birləşmələrinə çevrilir. Dildə frazeoloji vahidləri və onların mövqeyini müəyyənləşdirmək, müvafiq prinsiplərə əsasən təsnifini vermək, əmələgəlmə və inkişaf yollarını aşkar etmək, üslubi xüsusiyyətlərini üzə çıxarmaq, bir sözlə dilin frazeoloji sistemini öyrənmək frazeologiyanın əsas tədqiqat obyektidir. Bir çox dilçilər dilçiliyin gənc şöbələrindən olan frazeologiya ilə maraqlanmış,onun tədqiqat obyektinə hər biri öz fikrini bildirmişdir. Dilçilik tarixində öz nəzəriyyəsi ilə frazeologiyanın inkişafına böyük təsir göstərmiş Şarl Balli frazeologiya məsələləri ilə ilk dəfə ətraflı şəkildə məşğul olmuşdur. Frazeologiyanı leksikologiyanın müstəqil şöbəsi kimi müəyyənləşdirən Ş. Balli yazır: “...Bir sıra sözlər başqa sözlərə nisbətən bir-biri ilə daha sıx bağlılığa meyl edir... . Dildə sabitləşən birləşmə “frazeoloji ifadə” adlanır. Biz bunlardan nisbi müstəqilliyini saxlayan sözlərin iştirakı ilə düzülənləri “frazeoloji qrup”; elementləri tamamilə bir-biri ilə əlaqədar olanları “frazeoloji bitişmə” adlandırırıq”. Həmçinin Ş. Balli frazeoloji bitişmənin, xüsusilə frazeoloji

qrupun komponentlərinin qismən başqa sözlə əvəz edilməsi hallarına yol verildiyini də göstərir.(6, səh. 80, 89, 90).

Azərbaycan dilində sabitləşən frazeoloji vahidlərin komponentlərinin başqa sözlə əvəz edilməsi halları ilə qarşılaşırıq. Fikrimizi daha dəqiqləşdirərək deyə bilərik ki, dildə olan hər hansı bir frazeoloji vahidin komponentlərində biri başqa sözlə əvəz edilməklə yeni frazeoloji vahid əmələ gəlir. Hansının birinci yarandığının əhəmiyyətinin olmadığını düşünürük. Bu hal dilin lüğət tərkibinə daxil olan sözlərin öz işlənmə dairəsinin nə qədər geniş olduğunu göstərir. Məsələn: Çoxmənalılığı ilə seçilən *vurmaq* feili dilimizin lüğət tərkibində bir – birinə yaxın və uzaq 30 mənada verilmişdir. (7, səh. 491, 492, 493) Y. V. Çəmənzəminlinin 34 hekayəsində 63 – ə yaxın *vurmaq* feili işlənmişdir və bu feillər 16 mənada özünü göstərir:

Kəsmək, təsir etmək: Soyuq kişini elə vurmuşdu ki, heç oğlu Şaqqulunun evdə olmadığını anlamırdı. (8, səh. 21)

Zərbə vurmaq: *Sülü təklikdə Əliqulu ilə bacarmadı; Əliqulu yerdən qalxıb, Sülüyə bir ağac vurdu. Kazım qulaq verməyib, Kərbəlayını təpikləyirdi: o da cavabında ona bir neçə qapaz vururdu...* (8, səh. 36)

Sürətlə, təzyiqlə fışqırmaq; saçılmaq: *İmarətlərin önündə çaylar axır, hovuzlar fəvvarə vururdu;* (8. səh. 56)

Qəflətən, gözlənilmədən*: Aradan bir az keçdi, Allah vurdu mənə bir oğlan verdi.*(8*,* səh. 64)

Döyəcləmək: *Sağ olsun aşıqlar – zurnalar düzəlmişdi, dəf vurulurdu.* (8, səh. 72)

Almaq, dürtmək: *Həkim əbasının qolunu geydi və iki əli ilə uzun börkünü başına basıb, tirbaşının birini bir çiyninə aldı, o birisini qoltuğuna vurdu və xoruzun da ayaqlarından tutub, sallaya – sallaya otaqdan çıxdı.*(8, səh. 103)

Şıdırığı, fasiləsiz (oynamaq): *Yığılırsınız gecədə ürədnik Həsənin evinə qumarı vurursunuz; uduzanda da durub düşürsünüz qapı qonşunun evinin canına* (8, səh. 116)

Səsli xəbər vermək (saat): *Xoruzlar banlaşdılar. Gecə saat üçü vurdu.* (8, səh. 127)

Ciddi hal dəyişməsi: *Hövsələlərinin təng vaxtı idi – aclıq bir tərəfdən, tütün və tənbəki nəşəsi də başa vurmuşdu*. (8, səh. 142); *Lida xanımın üzünə qan vurdu, iztirabla başını qaldırıb, Osmana zənlə baxdı.* (8, səh. 203)

Sancmaq: *Həsən ikinci iynəni bir az geridən vurdu və deşiyi yavaş – yavaş büzüb daraltdı.* (8, səh. 152)

Əlavə etmək, qoymaq: *Bir qax vurdummu, qələmin ucundan axır.* (8, səh. 171)

Saldı, dəyişdirməklə digər hal almaq: Uzun düşüncələr nəticəsində plan hazır oldu: qayınana xəstələndi, özünü "tülkü ölümünə" vurdu; təsvir etmək,

etkiləmək: *Körpənin məsum yatışı, əlciyəzinin qoyuşu, bütün ədası ildırım qüvvəsinə dönərək Mərdanı vurdu.* (8, səh. 275)
Cahangir əvvəl özünü itirdi, qan başına vurdu. (8, səh. 340) və s.

Fikrimizcə bir dilin mükəmməl öyrənilməsi üçün frazeoloji vahidlər böyük rol oynayır. Frazeoloji vahidlərin çoxluğu dilin zənginliyinə dəlalət edir.Hər hansı bir dilin frazeolji vahidlərinin öyrənilməsi, tədqiqi yalnız həmin dili deyil, həmçinin o dilin daşıyıcısı olan xalqın tarixini, adət-ənənəsini, dünyagörüşünü – düşüncə tərzinin öyrənilməsidir. Bu haqda Mirzəliyeva. M yazır: "Hər hansı milli dilin frazeologiyasının dərindən öyrənilməsi həmin dilin tam mənimsənilməsində əsas halqadır və eləcə də dilin daşıyıcılarının zəngin, rəngarəng və bir qədər də sirli aləmlərinə açılan pəncərədir" (9, səh 10)

Dilimizdəki frazeoloji vahidlərin uzun və tarixi bir inkişaf yolu keçməsi onun komponentlərinin ilkin mənalarını tam və ya qismən itməsinə səbəb olmuşdur. Bununla da onlar müstəqil məna qazanıb sabitləşmişlər. Ümumiyyətlə,frazeoloji vahidlər özündə xalqın keçmişini hifz etməklə yanaşı, müasirliyi də əks etdirir. Fikrimizi daha dəqiqləşdirərək deməliyik ki, elə frazeoloji vahidlər var ki, onlar özündə dilimizin həm keçmişini, həm də müasirliyini əks etdirir. Tarixi Orxon – Yenisey abidələrinə kimi gedib çıxan frazeoloji vahidlər tarixin keşməkeşli dövrlərindən süzülərək müəyyən fonetik dəyişikliklərlə uğrayaraq eyni mənda günümüzə qədər gəlib çıxa bilmişlər. H. Bayramov yazır: "Eləcə də müasir dilimizdəki öc almaq, öyüd almaq, öyüd vermək, ad vermək, dan atmaq, könül bağlamaq, başa çıxmaq, ağır ayaq, söz qaytarmaq, üzünə söz gəlmək, gözü yolda olmaq kimi bir neçə frazeoloji vahidin XI əsr dilçisi Mahmud Kaşğarinin məşhur "Divani-lüğət-it-türk" əsərində eyni mənada, lakin müəyyən fonetik fərqlərlə təsbit edilməsi bu qəbildən olan söz birləşmələrinin həmin dövr türk tayfa və qəbilə dillərində çox olmasını göstərir və bunların Divanın yazılmasından daha əvvəlki dövrlərdə dildə işlədilməsini düşünməyə tamamilə haqq verir " (10, səh. 28) Deməliyik ki, dilin müəyyən qatını təşkil edən frazeoloji vahidlər birdən – birə dilimizdə mövcud olmamışdır. Xalqımızın ölməz abidələrindən olan "Kitabi Dədə Qorqud" dastanlarında olan frazeoloji vahidlərin bir qismi məna dəyişkənliyinə uğramadan müasir dilimizə qədər gəlib çıxması fikrimizi daha aydın əks etdirir: "Qazan geri döndü, gəldiyi yolu əlinə alıb yortdu. Dün qatdı,anası duymadan əl altından buyurdu:..."Bu nümunədə işlənmiş "əl altından" frazeoloji vahidi gizli mənasında bu gün də dilimizdə tez-tez işlənir.(11, səh 72; 12 səh.76)

Hər bir dildə olduğu kimi bizim də dilimizin özəlliyini özündə əks etdirən frazeoloji vahidlər dilimizin müəyyən tarixi inkişaf prosesində əmələ gəlmiş, inkişaf etmiş və bu günümüzə qədər gəlib çıxmışdır. Dilin leksik sistemində özünəməxsus yeri olan frazeoloji vahidlərdən söz açdıqda ilk

növbədə söz birləşməsi şəklində olan frazeoloji vahidlər yada düşür. Bu da ondan irəli gəlir ki, leksik birləşmə şəklində olan frazeoloji vahidlər (sabit söz birləşmələri) dilimizdə çoxluq təşkil edir və nəticədə bu çoxluq frazeologiyanın əsas tədqiqat obyektinə çevrilmişdir. M.Mirzəliyeva, Q.Mahmudova və s.kimi dilçilər frazeoloji vahidlər üzərində tədqiqat apararkən frazeologiyanın əsasının yalnız söz biləşməsi yox, həmçinin söz və cümlədən də ibarət olduğunu qənaətinə gəlmişlər, söz və cümlə şəklində olan olan frazeoloji vahidlərin də olduğunu söyləmişlər. M.Mirzəliyeva yazır: "Söz səviyyəsində olan frazeoloji vahidlər sadə,düzəltmə və mürəkkəb sözlərin məcazlaşmaya məruz qalma prosesi nəticəsində meydana gəlmişdir...
O yaman düşüb(sadə); O bu gün nədənsə dolmuşdu(düzəltmə)" (9, səh. 48)
Q. Mahmudova qeyd edir: "Məcazlaşma isə bütün səviyyəli frazeoloji vahidlərin əsas kateqorial əlamətidir. Bu əlamət söz səviyyəli frazeoloji vahidlərdə özünü daha bariz şəkildə əks etdirir.

Uzun illər boyu dilçilikdə belə bir fikir hökm sürmüşdür ki, frazeoloji vahidlər yalnız birləşmə tipində olmalıdır. Türk dillərinin zəngin faktlarına söykənən tədqiqatımızın nəticəsi göstərir ki,türk dillərində frazeoloji vahidlər söz, birləşmə, cümlə səviyyələrində mövcuddur. Əsərdə ilk dəfə olaraq frazeoloji vahidin mətn səviyyəsində də mövcudluğuna da toxunulmuşdur."(12, səh. 58, 272, 273)

Frazeologiyadan bəhs edərkən atalar sözü və məsələri yaddan çıxarmaq olmaz. Şifahi xalq ədəbiyyatının qədim janrlarından olan atalar sözü və məsəllər frazeologiyanın əsas mənbələrindən biridir. Bir çox dilçilərimiz də öz əsərlərində bunu qeyd etmişlər: "Frazeologiya bəhsində öyrənilən sabit söz birləşmələrinin aşağıdakı növləri vardır: idiomlar; ibarələr; hikmətli sözlər; atalar sözləri; zərbi-məsəllər və tapmacalar". (13, səh. 89) Səlim Cəfərov atalar sözü və məsəlləri sabit söz birləşmələrinin növü kimi qeyd edir. Fikrimizcə atalar sözü və məsəllər cümlə şəklində olan frazeoloji vahidlərə daxil edilməsi daha məqsədəuyğun sayılar.

H. Bayramov isə atalar sözü və məsəllərin hamısını deyil, müəyyən bir hissəsini frazeologiyanın mənbələrindən biri kimi götürmüşdür: "Azərbaycan dili atalar sözü və məsəllərinin az bir qismi məna və quruluşca dəyişdirilərək nitq və ya dil vahidi səciyyəsinə salınmışdır. Məhz belə xüsusiyyətə malik olanlar dilimizin frazeoloji sisteminin zənginləşməsi mənbələrindən biri hesab edilməlidir" (10, səh. 44)

Azərbaycan dilində frazeoloji vahidlərin əsas yaranma mənbələrini yazılı və şifahi ədəbi abidələr təşkil edir. Bunlardan biri də dialekt və şivələrdir. Şifahi nitqin qədimliyini nəzərə alaraq deməliyik ki, frazeoloji vahidlər yazılı nitqdə birdən-birə əmələ gəlməmişdir. Frazeoloji vahidlər şifahi nitqdə əmələ gəlib yazılı nitqə keçərək inkişaf etmiş və sabitləşmişdir.

Bunu nəzərə alaraq dialekt və şivələrdə frazeoloji vahidlərin tədqiq olunması dilçiliyin həm dialektologiya, həm də frazeologiya şöbələrinə əvəzolunmaz töhfədir. Azərbaycan dilçiliyində frazeoloji vahidlər dialekt və şivələrdə geniş şəklidə araşdırılmamış,tədqiq olunmamışdır. Məhz buna görə də dialekt və şivələrdə, xüsusilə Naxçıvan dialekt və şivələrində frazeoloji vahidlərin tədqiqat mərkəzimizdə olmuşdur.

Azərbaycanın qədim yaşayış məskənlərindən, onun ayrılmaz parçası olan Naxçıvan Muxtar Respublikası özündə yalnız xalqımızın tarixini, onun yaşayış tərzini, adət-ənənsini, keçdiyi inkişaf yollarını deyil, həm də dilini əks etdirmişdir.

Dialekt və şivələr fonetik və orfoepik, leksik və frazeoloji, morfoloji və sintaktik əlamətlərinə əsasən ədəbi dildən fərqlənir. Eyni zamanda, ədəbi dilin lüğət tərkibinin zənginləşməsində dialekt və şivələrin lüğət tərkibi də mühüm rol oynayır. Dialekt və şivələrin yaranma tarixinin ədəbi dilə nisbətən daha qədim olduğunu nəzərə alsaq, dilimizin milli orijinallığını, qədimliyini mühafizə edib saxlayan Naxçıvan qrupu dialekt və şivələri frazeoloji vahidlərin öyrənilməsi, tədqiq edilməsi üçün qiymətli material verir.

Ədəbi dildə olduğu kimi, Naxçıvan qrupu dialekt və şivələrində də frazeoloji vahidlər aktiv şəkildə işlənir. Burada da frazeoloji vahidlər söz, söz birləşməsi və cümlə şəklində olur. Söz şəklində işlənən frazeoloji vahidlər müxtəlif nitq hissələrinə, xüsusilə feilə aid olur: “Borazannamax” (Naxç.) – “yersiz danışmaq”, Burmax`” I – (Ordubad) “axtalamaq”, “Filitdəmək”(Şərur) – qızışdırmaq, aranı qarışdırmaq və s.

Naxçıvan qrupu dialekt və şivələrində söz birləşməsi şəklində olan frazeoloji vahidlər daha çox feili və ismi birləşmə şəklində olur. Ədəbi dildə olduğu kimi Naxçıvan qrupu dialekt və şivələrində də feili birləşmələr aparıcı rola malikdir. “*Kəsmək*” feili Azərbaycan dilinin izahlı lüğətində 25 mənada verilib. (7, səh 694, 695, 696). Bu feilin ədəbi dildəki məna rəngarəngliyi bədii ədəbiyyatda və Naxçıvan qrupu dialekt və şivələrinin lüğət tərkibində də görmək mümkündür. Fikrimizi daha dəqiq ifadə etmək üçün deməliyik ki, Bu feil Y. V. Çəmənzəminlinin 80 – nə yaxın hekayələrində 15 müxtəlif mənada, Cəlil Məmmədquluzadənin 15 - ə yaxın hekayəsində isə 7 müxtəlif mənada işləndiyini qeyd edə bilərik.

...Bunları düşünərkən cənnət-cəhənnəm gəlib ustanın qabağını kəsdi. (8, səh. 54)

Məktubların bir müddət arası kəsildi. Altı ay işsizlikdən sonra Müqbil, nəhayət, özünə iş tapmış, dedilər. (8, səh. 306)

Yoxsa sənə bir üsul kəsərəm ki, qiyamətə kimi dadı damağından getməz! (8, səh. 119)

– Ay balam, məni iki manatdan ötəri soyuqdan kəsməyəcəksən ki? (8, səh. 71).

Ay yarımdan sonra Novruzəlini divana gətirdib "qulluqçunu bihörmət eləmək barəsində" üç ay navaxt kəsdilər; amma Novruzəli günahını boynuna almadı. (14, səh. 129) Danışanlar bizi görcək səslərini kəsdilər və cümləsi birdən ayağa durub, bizə kəmali – ehtiram ilə yuxarı başda yer göstərdilər. (14, səh. 129)

Əgər bizə mərhəmət eləsən və izn versən, bu saat atları minib, silahlanıb, karvanın qabağını kəsərik və kişmişdən beş – on tay gətirib, burada gecələr söhbət edə - edə yeməyə məşğul olarıq;.. (14, səh. 132)

Xan hirslənib Məmmədhüseynin sözünü kəsdi: (14, səh. 199)

Muğdusi əvvəl istədi ki, işi yarımçıq qoyub, ustaların hesabını kəsib, rədd etsin; amma övrəti razı olmadı və dedi ki:... (14, səh. 148)

Əbdürrəhim bəy Haqverdiyevin hekayələrində isə *kəsmək* feli aşağıdakı mənalarda işlənmişdir:

Rüstəm bir – iki dəfə onun yanına gəlib sonra tərəddüdü kəsdi. (15, səh. 22)

Əbdürrəhim bəy Haqverdiyev . Seçilmiş əsərləri, II cilddə; II cild, Bakı, 2005.

Dərənin ortasında bir müsəlləh şəxs Səlmanın qabağını kəsib buyurdu atdan düşsün. (15, səh. 22, 23)

Bu binəvayə neçə il katorqa kəsildi (15, səh. 24)

Bu yerlərdə bayramqabağı, dürüst, ilin axır çərşənbəsində uşaqların çilləsini kəsdirirlər. (15, səh. 55)

Bir ildən sonra nəzirləri qəbul olanlar, haman ağacın dibində qurban kəsirlər, Yoldaşlarından birisi təskinlik verənin sözünü kəsdi: (15, səh. 56)

Verilmiş misallarda da "kəsmək" felinin məna rəngarəgliyini görmək mümkündür.

Naxçıvan qrupu dialekt və şivələrində də*kəsmək* feilinin frazeoloji vahidin tərkib hissəsi kimi görmək mümkündür: əhədini kəsmək – döymək,döyüb əldən salmaq (Şərur); veyran kəsmək – ana arxdan kiçik arx ayırmaq (Ordubad); kəsəmət kəsmək – təhdid etmək (Naxçıvan) və s.

Ədəbi dildə feli birləşmələrlə yanaşı ismi birləşmələr də frazeoloji vahid kimi özünü göstərir. Məsələn: "yağlı tikə" – birinci növ təyini söz birləşməsi Müasir Azərbaycan dilində birləşmə səviyyəli frazeoloji vahid kimi formalaşmış, sabitləşmiş və möhkəmlənmişdir.

Ədəbi dilimizdə olduğu kimi, Naxçıvan dialekt və şivələrində də ismi birləşmələrin əsas tərəfi isimlərlə və ya substantivləşmiş hər hansı bir sözlə ifadə olunur.

alaquş adam(Şərur) - xəbərçi, söz gəzdirən,çalası adam(Şərur) – aravuran, araqarışdıran, dəmşalax adam(Ordubad) – yüngül xasiyyət,

əlləm-qəlləm iş(Şərur) – qatma-qarışıq iş, gəvəz adam(Naxç.)- boşboğaz, çox danışan, lax iş(Naxç., Ordubad) – mənasız iş, beytin iş(Naxç.) – mənasız, dəyərsiz iş, doğal adam(Ordubad) – inadkar, sözə baxmayan adam,işığ gözü (Şərur) – qaranlıq düşməmiş, yaz ağzı(Şahbuz) – mart ayının sonu, naxır əyağı(Şahbuz) – axşam çağı,bədsuyumun gözü(Culfa) – bədnəzər, xam yerin beldarı(Ordubad) - müftə yeyən, başqasının hesabına yaşayan və s.

Cümlə şəklində olan frazeoloji vahidlər Naxçıvan qrupu dialekt və şivələrində ədəbi dildə olduğu kimi atalar sözü və məsəllərdə öz əksini tapmışdır:

Ağzı isti yerdədir.(16, səh. 127), Bir ayağı burda, bir ayağı gorda,(16, səh. 134) və s.

Dilimizin ayrılmaz hissəsi olan frazeoloji vahidlər, onların işlənmə tezliyi Naxçıvan qrupu dialekt və şivələrində də özünü göstərir. Gündəlik həyatda, məişətdə işlənən frazeoloji vahidlər yalnız ədəbi dilin deyil, Azərbycanın bütün dialekt və şivələrində özünü göstərir. Bunlar qarşılıqlı şəkildə, yəni ədəbi dildə olan frazeoloji vahidlər dialekt və şivələrdə olan frazeoloji vahidlərə, həmçinin əksinə dialekt və şivələrdə olanlar ədəbi dildə olanlara təsir edir, mənimsəyir və işlənmə tezliyi artır.

İstifadə olunmuş ədəbiyyat

1. А. М. Мухин. Лингвистический анализ. Теоретические и методолоческие проблемы. Ленинград, 1976
2. Mirzə İbrahimov. Azərbaycan dili(məqalələr). Bakı, 1957
3. V.fon Humboldt. Dillərin milli xarakteri haqqında. Bakı, 2014
4. Müasir Azərbaycan dili. Leksika, II hissə, Şərq-Qərb, Bakı – 2007
5. Р. А. Будагов. Многозначность слова, “Научные доклады высшей школы”. Филологические науки. М., 1958
6. Ş. Balli. Fransız üslubiyyatı.1961.
7. Azərbaycan dilinin izahlı lüğəti. IV cilddə; I cild, Şərq – Qərb, Bakı, 2006
8. Çəmənzəminli Yusif Vəzir. Əsərləri, III cilddə, I cild, Bakı, 2005
9. Mirzəliyeva M.M. Türk dilləri frazeologiyasının nəzəri problemləri.Bakı: Azərbaycan Ensiklopediyası, 1995
10. H. Bayramov. Azərbaycan dili frazeologiyasının əsasları. Maarif, Bakı, 1978
11. Ergin.M. Dede Korkut kitabı, I (Giriş – Metin – Faksim e), Ankara, 1958
12. “Kitabi Dədə Qorqud” (Tərtib edəni Həmid Araslı). Bakı, 1962
13. Q.Mahmudova. Qıpçaq qrupu türk dillərinin frazeologiyası.Bakı, 2009

14. S. Cəfərov.MüasirAzərbaycan dili. Leksika.II hissə. Şərq-Qərb, Bakı, 2007
15. Məmmədquluzadə Cəlil. Əsərləri, IV cilddə; I cild. Öndər Nəşriyyat, Bakı, 2004.
16. Əbdürrəhim bəy Haqverdiyev . Seçilmiş əsərləri, II cilddə; II cild, Bakı, 2005
17. M. Əhmədov. Naxçıvan qrupu şivələrinin lüğəti.Atalar sözləri. Bakı, Gənclik, 1997

Ш.Маммадова

Фразеология предупреждения область языка и нахчыванский диалект и больницы

Резюме

В статье говорится о частоте употребления, о широте сферы влияния фразеологических единиц в литературном языке и в диалектах и наречиях Нахичевани.

Фразеологические единицы, Нахчыван, являющийся неотъемлемой частью их группа диалектов и şivələrində проявляется и частота использования языка. В повседневной жизни, в быту, разрабатываемый фразеологические единицы, а Azərbycanın всех диалектов и şivələrində проявляет себя только литературного языка. Фразеологические единицы, то есть из диалектов и говорах диалектной говорах наоборот, те, кто осваивает и разработки увеличивается частота, тем, кто влияет на литературном языке и фразеологические единицам, а также в литературном языке это взаимно.

Рассматриваются пути создания фразеологических единиц, их источников, дается их сопоставительный анализ влитературно-художественном языке, а также в диалектах и наречиях нахичеванской группы.Кроме того, в статье изучаются фразеологические единицы в виде слов, словосочетаний и предложений.Это исследование также нашло свое отражениекак в литературном языке, так ив диалектах и наречиях Нахичевани.

SH.Mammadova

Frazeoloji warnings area language and nakhchivan dialect and hospitals

Summary

The article deals with frequency of use, breadth of sphere of influence of phraseological units in literary language and in dialects and accents of Nakhchivan.Ways of creating phraseological units, their sources are considered, their comparative analysis is given in literary and artistic language, as well as in dialects and accents of Nakhchivangroup.In addition, the article examines phraseological units in the form of words, phrases and sentences.This study is also reflected in the literary language and in the dialects and accents of Nakhichevan.

Phraseological Units, Nakhchivan, which are indefinable in their own dialects and dialects, are used and used in the frequency domain. In the longevity of life, in the whole, the fragmentary phraseological units, and in all the dialects of the Azarbayjan language develops only in the literary language. There is a phraseology that exists in dialects and expressions in dialectic terms, and who breaks down and expands the frequency, template, who is in the literary language and phraseology, and also in literary language it is intermediate.

Rəyçi: Əbülfəz Quliyev
Filologiya elmləri doktoru, professor

TÜRKAN ABBASOVA
Azərbaycan Dillər Universiteti
turkuabba@yahoo.com

TƏNQİDİ DÜŞÜNMƏ BACARIĞININ TƏRİFİNƏ DAİR MÜLAHİZƏLƏR

Açar sözlər: tənqidi düşünmə, təhlil, mühakimə, sual vermə, tətbiq
Key words: critical thinking, analyzing, reasoning, questioning, application
Ключевые слова: критического мышления, анализирование, обоснование, допрос, применение

İngilis dilinin tədrisi zamanı tələbələrin tənqidi düşünmə bacarığının inkişafına yönəlmiş tapşırıqların tətbiqindən əvvəl hər bir müəllim bu bacarığa (Critical Thinking) tarix boyu verilmiş təriflərdən məlumatlı olmalıdır. 1981-ci ildə Amerika Birləşmiş Ştatlarında təhsilin keyfiyyətinin yoxlanılması üzrə Milli Komissiya yaradılır. 1983-cü ildə komissiyanın məruzəsində təhsildə reformasiyaların aparılması ilə bağlı təkliflər qeyd olunur. Məruzədə xüsusi bir bölmədə bacarıq və qabiliyyətlərin inkişaf etdirilməsinə dair tövsiyələr irəli sürülür. Bu bacarıqların içində tənqidi düşünmə də qeyd olunmuşdur.



Fiqur 1. 4C

Buna baxmayaraq, 21-ci əsrə qədər təhsilin mərkəzində oxuyub-yazma bacarığı və riyazi biliklərin inkişafı üstünlük təşkil etmişdir. Texnologiya və telekommunikasiyada müşahidə edilən inkişaf nəticəsində ehtiyac duyulan məlumat əlçatan olmuş, istənilən məkandan internet vasitəsilə bu məlumat asanlıqla şəxsin ixtiyarında olmuşdur. Oxuyub – yazma qabiliyyəti və riyazi biliklər nə qədər vacib olsa da, təhsilin inkişafı üçün kifayət etmirdi. Bu baxımdan, demoqrafik, texnoloji, sosial-iqtisadi inkişafa cavab vermək üçün təhsilin əsas istiqaməti müəyyən bacarıqların inkişafına yönəldi. ABŞ-da başlayan bu reformasiyaya daha sonra Kanada, Birləşmiş Krallıq, Yeni Zenlandiya və digər ölkələrin də təhsil müəssisələri qoşuldu. Beləliklə, 21-ci əsrin akademik bacarıqlarından hesab olunan (4C) bacarıqları təhsil prosesinin əsas istiqaməti oldu *(Fiqur 1)*.

21-ci əsrin tədqiqat mövzularında biri olsa da, tənqidi düşünmə üzrə mülahizələr Qədim Yunan filosoflarının da daim müzakirə obyektinə çevrilmişdir. Belə ki, yunan filosofu Sokratın əxlaq fəlsəfəsinə nəzər salsaq, onun tədqiqat suallarında tənqidi düşünmənin köklərini müşahidə edə bilərik. Bu gün də şagirdlərdə müstəqil təfəkkürün inkişaf etdirilməsi üçün istifadə olunan bu tədqiqat və təlim sualları pedaqogikada Sokrat üsulu adlanır. Sokratın tənqidi düşünmə ilə bağlı görüşlərinin sonrakı tərəfdarı Platon olmuşdur. Daha sonra fransız filosof R.Descartes tərəfindən tətbiq olunmuş, Monteskiyö və Con Lok tərəfindən yazılmış esselərin əsas mövzusuna çevrilmişdir (9, səh. 28-36).

Tənqidi düşünmə özünü idarə etmə prosesi olub hər hansı bir etiqadın və hərəkətin göstəricisi kimi müşahidə, təcrübə, təfəkkür, mühakimə, yaxud ünsiyyət nəticəsində əldə olunan məlumatın məharətlə tətbiqi, təhlili, sintezi, yaxud dəyərləndirilməsidir.

Tanınmış amerikalı filosof ve pedaqoq Con Dyui qeyd edir ki, tənqidi düşünmə zehni fəaliyyət və tərəddüd tələb edən reflektiv düşüncə tərzidir; o, eyni zamanda bildirir ki, tənqidi düşünmə bacarığı təhsilin bütün səviyyələrinin əsas məqsədi olmalıdır (Natthanan, 2009). Amerikada fəaliyyət göstərən Tənqidi Düşünmə Mərkəzi nəzdində Tədqiqat və Professional İnkişaf kafedrasının müdiri Riçard Paul tənqidi düşünməni "düşünmə haqda düşüncə" kimi qiymətləndirmişdir. Critical Thinking adlı kitabın müəllifi Robert.H.Ennis tənqidi düşünmənin fərziyyəni düsturlaşdırmaq, mövcud problemi müxtəlif bucaqlardan görə bilmək, problemi həll etmək üçün suallar formalaşdırmaq və həll yolları təklif etmək kimi zehni bacarıqlardan ibarət olduğunu bildirmişdir. Tənqidi düşünmə təfsir, təhlil, əqli nəticə, eləcə də dəlilə əsaslanan, konseptual, metodoloji və kontekstual nəzəriyyələrlə nəticələnən məqsədli özünü tənzimləmə prosesidir (American Psychological Association, 1990).

Təqdim olunan tərifləri nəzərə alaraq koqnitiv bacarıqlardan da bəhs etmək lazımdır. Mütəxəssislərin tənqidi düşünmə bacarıqlarından hesab etdikləri koqnitiv bacarıqlara şərh etmə, təhlil, dəyərləndirmə, nəticə çıxarma, izah etmə və özünü tənzimləmə daxildir. Özünü tənzimləmə bir

şəxsin koqnitiv fəaliyyətlərini şüurlu şəkildə nəzarətdə saxlamasıdır (3, səh.10). Tənqidi düşünməyə genişçeşidli təriflər verilsə də, bu təriflərin əksəriyyəti koqnitiv bacarıq və strategiyaların inkişaf etdirilməsi prinsiplərinə yönəlib (10, səh. 389-402).

Tənqidi düşünmə bacarıqları təhsilin əsas hissəsidir. Öyrənmə prosesinin baş tutması üçün, tələbələr təhsilin hər bir səviyyəsində tənqidi düşünməyi öyrənməlidirilər (2, səh. 38-39). Bugün qloballaşmış cəmiyyətdə inormasiyanın asanlıqla əldə olunmasına görə, bu informasiyanın ağıllı şəkildə istifadəsi təhsilin əsas vəzifələrindən biridir. Bu baxımdan, düşünmə bacarıqları indiki təhsil paradiqması ilə əlaqəlidir (Jacobs, G. M., & Farrell, T. S. C. 2001). Məsələn, düşünmə bir prosesdir və bu cür prosesin keyfiyyəti alınan nəticənin keyfiyyətinin dəyərləndirilməsindən daha çox vurğulanır. Buna əlavə olaraq, müəyyən bir problemi müxtəlif düşünmə yolları ilə nəzərdən keçirmək mümkündür. Deyilənlər bir daha indiki paradiqmanın məktəbdə tədris olunanın cəmiyyətlə əlaqələndirilməsi istiqamətində addım atdığını deyə bilərik. Öyrənmə yalnız verilən biliyi əzbərləmək deyil; öyrənmə verilən biliyin cəmiyyətdə tətbiq edilməsidir (Jacobs, G. M., & Farrell, T. S. C. 2001). Ona görə də bugün təhsilin tələbi sadəcə biliyin mənimsənilməsi deyil, daha dərin səciyyə daşıyır. İstənilən məzmunun mənimsənilməsi məqsədilə, analitik və dəyərləndirmə istiqamətli düşünmə vacibdir (2, səh. 38-39).

Eyni zamanda, universitet səviyyəsində əqli vasitələrdən istifadə etməklə bir şəxsin düşünmə bacarığının müvafiq şəkildə qiymətləndirilməsi baxımından tənqidi düşünmə bacarıqları zəruri qabiliyyətlərdən hesab olunur. Bu zaman tələbələr tənqidi düşünmənin "təklif etdiyi" əqli vasitələrdən istifadə edə bilər – onların təhlil, qiymətləndirməsinə imkan verən anlayış və prinsiplər və düşünmənin inkişafı. Öyrənənlər mühakimə yürüdərkən nəzərə alınan intellektual düzlük, intellektual təvazökarlıq, intellektual ədəblilik, intellektual rəğbət, intellektual ədalət hissi və özünə inam kimi üstünlüklərin inkişafı üzərində işləyə bilər. Buna əsasən, demək olar ki, tənqidi düşünmə bacarıqları düşünməni qiymətləndirən əqli vasitələrin köməyi ilə özünü inkişaf prosesidir (The Critical Thinking Community. 2009). Tənqidi düşünmə bacarıqları təkcə öyrənənlərin akademik nəaliyyətlərində deyil, məzun olduqdan sonra dinamik həyatlarında və iş fəaliyyəti zamanı böyük rol oynayır. Hiros (1992) qeyd edir ki, bir çox böyük korporasiyalar yaxın zamanlarda məzun olmuş və onların şirkətində fəaliyyətə başlamış işçilərin düşünmə bacarıqlarının az olması ilə qarşılaşırlar. O yazır, " Bugün iş həyatına atılan gənclərdə səmərəli iş fəaliyyəti üçün lazım olan bacarıqlar müşahidə olunmur. Əsas şikayət isə iformasiyanın emalının əsaslandığı mühakimə və tənqidi düşünmə bacarıqlarının olmaması ilə əlaqədardır" (Hirose, S., 1992).

Blum Taksonomiyası

Müxtəlif tədqiqatçıların tənqidi düşünmə ilə bağlı bir sıra təriflər qeyd etmələrinə baxmayaraq, bu bacarıqların strukturlarının özəlliklərini qeyd edən Blum Taksonomiyası (1956) bu sahə üzrə ən çox istinad edilən mənbə hesab olunur (4, səh.707). 1956-cı ildə Çikaqo Universitetinin professoru Benjamen Blum tərəfindən "Təhsil Məqsədlərinin Taksonomiyası" nəzəriyyəsi təklif edilmişdir.

Cədvəldən göründüyü kimi, Blum Taksonomiyasına əsasən təhsildə koqnitiv bacarıqlar 6 müxtəlif səviyyədən ibarətdir və bu səviyyələr öz növbəsində iyerarxiya formalaşdırır. Səviyyələr bilik, qavrama, tətbiq (istifadə), təhlil, sintez və qiymətləndirmə adlanır (Blum, 1956). Fiqurda göstərilən son 3 bacarıq (bilik, qavrama, tətbiq) aşağı səviyyəli düşünmə bacarıqları, digər 3 bacarıq isə yüksək səviyyəli düşünmə bacarıqları (təhlil, sintez, qiymətləndirmə) adlanır. Buna əsasən demək olar ki, əgər bir öyrənən iyerarxiyada verilmiş tətbiq bacarığını nümayiş etdirə bilirsə, bu, onun bilik və qavrama bacarıqlarına artıq yiyələndiyini göstərir. Blum Taksonomiyası öyrənənlər və qiymətləndirmə materialları üçün lazım olan məqsəd və hədəflərin müəyyənləşməsində, eləcə də tapşırıqların hazırlanması (7, səh.212-219) və öyrənənlərin fəaliyyətlərinin qiymətləndirilməsi (1, sıh.45-53) zamanı istifadə olunur. Hal-hazırda Blum Taksonomiyası müxtəlif təhsil müəssisələrində geniş şəkildə istifadə olunur.

Taksonomiyanın ən aşağı səviyyəlı düşünmə prosesi *bilikdir.* Blumun (1956) fikrincə, düşünmənin bu mərhələsi iyerarxiyadakı digər mərhələlər üçün ilkin şərt hesab olunur. Bilik mərhələsi lazım olan məlumatın yaddaşdan qaytarılması olduğu üçün tələbələrdən faktlar daxil olan məlumatı əzbərləmək tələb olunur. Taksonomiyanın digər mərhələsi *qavrama* adlanır. Bu mərhələ ilkindən fərqli olaraq, bir qədər koqnitiv baxımdan daha tələbkardır. Belə ki, biliyin sadəcə öyrənilməsindən əlavə olaraq, öyrənənlərdən həmin biliyi başa düşmək və həmin biliyi şərh edə bilmək, canlandırmaq tələb olunur.

Üçüncü səviyyə *tətbiq* yaxud bilikdən istifadə edə bilmə adlanır. Bilik və qavrama mərhələsində tələb olunan bacarıqlarla birlikdə, tələbələrdən həmin biliyi müxtəlif yeni situasiyalarda tətbiq edə bilmək gözlənilir. Ona görə də, tətbiq daha təkmil koqnitiv bacarıq adlanır. Buna baxmayaraq, əvvəlki iki mərhələ ilə birlikdə aşağı səviyyəli düşünmə bacarıq adlanır, çünki bu üç mərhələ yüksək dərəcəli düşünmə bacarıqları ilə müqayisədə, koqnitiv baxımdan daha az tələbkar bacarıqlardır.

Digər üç mərhələ yüksək səviyyəli düşünmə bacarıqları kimi tanınır və əsasən tənqidi düşünmə bacarıqlarının tədrisi müzakirəsi zamanı qeyd olunur. Bu bacarıqlara təhlil, sintez və qiymətləndirmə daxildir.

Təhlil mərhələsində öyrənənlər məlumatı hissələrə ayıra bilmək və həmin elementləri müxtəlif situasiyalarda tətbiq edə bilmək bacarıqlarına sahib olmalıdır.

Növbəti mərhələ bütövün element və hissələrini bir araya gətirməklə yeni vahid əmələ gətirmək bacarığı tələb olunur.

Blum Taksonomiyasının ən yüksək səviyyəsi *qiymətləndirmə* adlanır. Bu mərhələdə öyrənənlərdən kriteriyalara əsaslanaraq ideyaları, fikirləri, dəyərləri mühakimə edə bilmək bacarığı tələb olunur.

Blum Taksonomiyasının ilkin versiyası Anderson və Krasol tərəfindən yenidən işlənmişdir. Yeni taksonomiyada bütün mərhələlərin adları onların fel forması ilə əvəz olunmuşdur. Məsələn, *evaluation* (qiymətləndirmə) *evaluating* (qiymətləndirmək) ilə əvəz olunmuşdur. Başqa dəyişikliklər də görmək mümükündür. Taksonomiyanın bilik *(knowledge)* səviyyəsi xatırlamaq *(remembering)* sözü ilə, qavrama *(comprehension)* sözü isə başa dümək *(understanding)* sözü ilə əvəz olunmuşdur. Buna əlavə olaraq, qiymətləndirmə *(evaluation)* sözü yaratmaq *(create)* sözü ilə əvəz olunaraq, taksonomiyanın zirvəsində yerləşmişdir. *Cədvəl 1*-də bu dəyişiklikləri görmək olar.

Blum Taksonomiyasının ilkin versiyası	**Blum Taksonomiyasının yenidən işlənmiş versiyası**
Qiymətləndirmə	Yaratmaq
Təhlil	Qiymətləndirmək
Analiz	Analiz etmək
Tətbiq	Tətbiq etmək
Qavrama	Başa düşmək
Bilik	Xatırlamaq

Cədvəl 1.

Ədəbiyyat:

1. Eber, P. A., & Parker, T. (2007). Assessing student learning: applying Bloom's Taxonomy. *Human Service Education, 27*(1), pg. 45-53.
2. Elder, L., & Paul, R. (2010). Critical thinking: Competency standards essential for the cultivation of intellectual skills. *Journal of Developmental Education, 34*(2), pg. 38-39.

3. Facione, P. (2013). Critical thinking: What it is and why is counts. Retrieved from http://www.insightassessment.com/pdf_files/what&why2006.pdf pg.10
4. Gall, M. D. (1970). The use of questions in teaching. *Review of Educational Research, 40*(5), 707-720.
5. Hirose, S., 1992. Critical Thinking in Community Colleges. *ASHE-ERIC Higher Education Reports*, The George Washington University, ED348128.
6. Jacobs, G. M., & Farrell, T. S. C. (2001, April). Paradigm shift: Understanding and implementing change in second language education. *The Electronic Journal for English as a Second Language,5*(1).Retrieved from http://www.tesl-ej.org/wordpress/issues/volume5/ej17/ej17a1/
7. Krathwohl, D. R. (2002). A revision of Bloom's taxonomy: An overview. *Theory in Practice, 41*(4), 212-219.
8. Natthanan, D. (2009). *Teachers' questioning techniques and students' critical thinking skills: English language classroom*. Unpublished doctoral dissertation, Oklahoma State University, The United States.
9. Rfaner, S. 2006. Enhancing Thinking Skills in the Classroom. Humanity & Social Sciences *Journal*, 1(1):28-36.
10. Seker, H., &Komur, S. (2008). The relationship between thinking skills and in-class questioning behavior of English language teaching students. *European Journal and Teacher Education, 31*(4), 389-402. doi: 10.1080/02619760802420784
11. (American Psychological Association, 1990, as cited in Seker&Komur, 2008).
12. The Critical Thinking Community. 2009. *Defining Critical Thinking*, (Online), (http://www.critical thinking.org/University/cthistory.htm), retrieved 15 June 2011.

T.Abbasova

Remarks on Critical Thinking Skill

Summary

The paper deals with different period scholars' remarks regarding critical thinking and its application in education. It gives a brief overview of critical thinking and its importance in teaching process. It focuses on characteristic features of critical thinking in relation to questioning, analyzing, and applying any kind of information. Linguists' various opinions of critical thinking skills are given in the paper. Among these linguists we can mention L.Elder, P.Facione , D.Natthanan, S.Hirose and some others. The paper also provides information about Bloom's Taxonomy and its connection in terms

of critical thinking and its application in all levels of education. It pays careful attention to the six categories of cognitive levels in Bloom's Taxonomy. High order and low order thinking skills are compared and explained throughout the paper. Each level in the Taxonomy is explained and compared with the previous one. The analysis also highlights how critical thinking can help graduates in their workplaces.

Туркан Аббасова

Требование требуемого чтения отходов
Резюме

В статье рассматриваются высказывания ученых разных периодов относительно критического мышления и его применения в образовании. В нем дается краткий обзор критического мышления и его важности в процессе обучения. Он фокусируется на характерных особенностях критического мышления в отношении опроса, анализа и применения любой информации. В статье приводятся различные мнения лингвистов о навыках критического мышления. Среди этих лингвистов можно упомянуть Л. Элдера, П. Фасионе, Д.Наттханана, С. Хиросе и некоторых других. В документе также содержится информация о таксономии Блума и ее связи с точки зрения критического мышления и его применения на всех уровнях образования. Он уделяет пристальное внимание шести категориям когнитивных уровней в таксономии Блума. В течение всей статьи сравниваются и объясняются навыки мышления высокого порядка и низкого порядка. Каждый уровень в таксономии объясняется и сравнивается с предыдущим. Анализ также показывает, как критическое мышление может помочь выпускникам на своих рабочих местах.

Rəyçi: Aytən Bayramova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

OFELİYA ŞÜKÜROVA
ZÜMRÜD MAHMUDOVA
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
mahmudova.zumrud@sport.edu.az
shukurova.ofelya@sport.edu.az

MULTİCULTURALISM AND LANGUAGE

Açar sözlər: multikulturalizm, qlonallaşma, mədəniyyət, müxtəliflik, cəmiyyət
Key words: multiculturalism, globalization, culture, diversity, society
Ключевые слова: мультикультурализм, глобализация, культура, разнообразие, общество

Globalization is an important event of our regular life with its increasing immigration from developing countries to developed countries, resulting in the phenomenal growth of the culturally diverse L2 learners. Globalization also brings destabilization and recreation of identities for L2 learners. These days, multiculturalism turns into the trendy expression in political and educational fields. A basic examination of multiculturalism is expected to value its importance to English language teaching. The comprehension of multiculturalism needs to begin with culture, talk, personality and power. Culture alludes to implications installed in social collaborations, which includes two perspectives—talk and character, both are social developments. Character is epitomized in talk that talks through individuals. Talks are methods for building learning and its related social practices. Characters are made out of different subjectivities getting from heterogeneous talks accessible in the general public. Talk is the site of "creation of information through dialect". Above we mentioned the term “multiculturalism”. For understanding this word we need to look up its meaning. What is multiculturalism? Multiculturalism is a term with a scope of implications with regards to human science, political reasoning, and in informal utilize. In human science and regular use, it is an equivalent word for "ethnic pluralism" with the two terms frequently utilized conversely, for instance, a social pluralism in which different ethnic gatherings team up and go into an exchange with each other without sacrificing their specific personalities. It can portray a blended ethnic network zone where various social conventions exist or a solitary nation inside which they do. Gatherings related with a native ethnic gathering and nonnative ethnic gatherings are frequently the core interest.

The world is developing day by day and the countries are getting to know each other closer. People are traveling, they need to know each other and though they are from different countries, different cultures and different languages they don't stand and they're getting to mix very fast. They main increasing part is language. Multiculturalism needs language as well. Language learning begins from schools, universities.

Immigrations makes the educational centers more colorful with different cultures, different languages of students. So as a teacher great responsibility is on the shoulders. Finding common point is not as easy as looks. Big cities with many different multi cultures have more experiences than others. Developed countries, such as America, United Kingdom, today have a higher social multi cultures than any time in recent memory, specifically, is perceived as a standout amongst the most multicultural urban communities on the world. This implies numerous teachers today end up confronting an undeniably multicultural classroom which can once in a while demonstrate testing when keeping an air of fairness and regard inside the classroom.In spite of these difficulties, it is awesome to have such different variety of culture inside a class, as this variety of experience and foundation makes resistance and shared regard inside the classroom that is interpreted into later life, and can even enhance scholastic outcomes.

To completely grasp multiculturalism, there should be all inclusive tries and an actualized arrangement for all classrooms to take after. In any case, there are a lot of activities special teachers can take to help their classes particularly. There are some tips shown below:

✓*Celebrate different cultural festivals*

A simple and pleasant approach to cultural difference societies, and furthermore one that understudies will have the best time. Perceiving critical celebrations over the world are vital for teaching a class in new societies, and giving the open door for some creativity on the off chance that you appoint exercises identifying with the celebration. It will help assemble a comprehensive environment too, influencing new generations to feel better.

✓*Attempt to learn a bit more about the different backgrounds of pupils in your class*

This is especially useful for first era settlers. You can take in a little foundation to their way of life or even venture to take in a touch of their dialect to show understanding. It might even be worth addressing the guardians of specific kids who are attempting to coordinate more to best see how to encourage them.

✓*Include a variety of books in your classroom book collection*

Counting difference of books from various societies and foundations is an awesome method for bringing multiculturalism into the classroom. For

offspring of various societies, it can give a touch of recognition, and it permits different students the decision to peruse something other than what's expected to what they would maybe typically pick. It additionally shows that distinctive writings have a place in western culture and instruction.

✓*Hold a food fair to celebrate different dishes from around the world*

This thought could be an entire day occasion or a periodic month to month event. Every understudy could get a dish that is ordinarily eaten in their way of life for others to attempt. They could speak somewhat about the historical backdrop of the dish, or in the event that it is made for a unique occasion or celebration. This thought may be especially useful for a sustenance innovation class.

✓*Set presentation projects for students on a culture or nation*

For this, you could either get a student to expound on their own way of life and present to the class or you could motivate understudies to take a gander at a culture other than their own to exhibit on. It may regard do this in sets so they can be more certain exhibiting. This kind of task can add to your educational programs by tying in points the students are as of now considering.

✓*Host a culture day*

This could be multi day for understudies to impart their social characters to others, while additionally finding out about different understudies. There could be an assortment of things to incorporate into this day, possibly get certain sustenance, and make publications with visual data for every understudy to discuss. Urge students to make inquiries and allow everyone to examine their social legacy.

✓*Hold events with guests and motivational speakers from different backgrounds*

It is very basic for schools to enlist speakers and visitors from different ventures and work environments to rouse understudies or offer a vital message. While doing this it could be a plan to have a decent assortment of visitors that speak to various parts of the general public, as it can be more motivational for understudies to have good examples at that point can identify with. It will demonstrate that regardless of what you sexual orientation, physical capacity or social legacy, you can prevail throughout everyday life.The tips above are only a couple of the measures you can take to embracing every single social foundation in a class, there are as yet a huge number of routes for you to praise multiculturalism in the classroom. The endeavors are absolutely justified, despite all the trouble, as supporting multicultural comprehension between understudies makes shared regard, a positive workplace and it gets ready understudies for a functioning part in this different world we live in.

While teaching multiculturalism teacher can face some difficulties. I would like to mention some of them which are taken from some teachers' experiences. Challenges teachers encountered in teaching students from other cultures - this data was collected by Annie Lopez for her dissertation on teaching strategies used by teachers in multicultural settings. The open-ended question asked "What are the challenges in teaching in multi-cultural settings?"

- A black student making fun of a Chinese student's heritage when she didn't get her way.

- Although the same language is used, the differences in terminology are evident.

- An American Indian child had very limited vocabulary because his parents didn't talk very much at home.

- Being called a racist when disciplining other students.

- Been labeled prejudiced by people before, when it was far from the truth. I was the only Caucasian in my class.

- Body language differences.

- Conflict between culture and behavior.

- Dialect Differences.

- Acceptance of strange customs. Dealing with superiority complex

- Holidays important to cultures

We can enlarge this list, but there have been worked their solutions too. There are tons of ways that teachers can approach multiculturalism in their classrooms but the first step is recognizing its importance.

Literature

- Olga,B., Anna,G, 2010 "Innovative methods in Multicultural Education"
- Siti,S., 2013 "Multicultural-based English language teaching"
- https://medium.com/age-of-awareness/seven-ways-to-embrace-multiculturalism-in-the-classroom-c784f4d6df20
- https://en.wikipedia.org/wiki/Multiculturalism

O Şükürova
Z. Mahmudova

Multikulturalizm və dil

Xülasə

Multikulturalizm ifadəsi son zamanların ən məhsuldar ifadəsinə çevrilmişdir. Daima inkişafda olan dünyada dövlətlər bir-birinə inteqrasiya

edir, insanlar müxtəlif yerlərə səyahət edir, dilini, dinini mədəniyyətlərini bölüşürlər. Multikulturalizm nədir?

Multikulturalizm — Çox mədənilik, bir çox fərqli mədəniyyətin bir arada yaşadığı cəmiyyəti təyin edən sözdür. Multikulturalizmin dilə ehtiyacı var. Insanlar bir -birlərini ünsiyyət vasitəsilə başa düşür, əlaqə saxlayırlar. Bu ifadəni və onun mahiyyətini anlamaq üçün təhsilə ehtiyac var. Təhsil zamanı multikultural siniflərdə tədrisi necə təşkil etməli, qarşıya çıxan çətinlikləri necə həll etməli kimi məsələləri bilmək əsasdır. Qarışıq mədəniyyətli siniflərdə tədris yüksək məsuliyyət tələb edir. Bu zaman əsas fikir çətinliklərin həllinə yönəlməlidi. Bu məqalədə multikulturalizm və onun tələbələrə tədrisi onların gələcək həyatlarında əlaqələrin inkişafına yönəlmiş tərəflərinə toxunulmuşdur. Multikulturalizmin təhsil ocaqlarında nece tədris edilməsi meyyarları göstərilmişdir.

О.Шукурова
З.Махмудова

Мультикультурализм и язык
Резюме

Выражение мультикультурализма стало наиболее продуктивным выражением последних времен. В постоянно развивающемся мире государства объединяются вместе, люди путешествуют в разные места, и они разделяют культуру своей религии и религии. Что такое мультикультурализм?Мультикультурализм. Мультикультурализм - это слово, в котором сообщается сообщество, в котором живут разные культуры. Мультикультурализм требует языка. Люди общаются друг с другом через язык, они общаются. В этой статье мультикультурализм и его учение адресованы тем, кто ориентируется на развитие отношений в своей будущей жизни. Показана степень преподавания мультикультурализма в учебных заведениях. Существует потребность в этом заявлении для образования и в понимании его сущности. Важно знать, как организовать обучение в мультикультурных классах во время обучения, как справляться с возникающими проблемами. Обучение в смешанных культурных классах требует высокой ответственности. В это время основная идея должна быть сосредоточена на трудностях.

Rəyçi: Sevda İmanova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

GÖVHƏR BAĞIROVA
ADBTİA
govhar.bagirova@sport.edu.az

KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN DİLİ

Açar sözlər: informasiya, kütləvi, media, texnologiya, ünsiyyət, xarici dil
Key words: information, mass, media, technology, communication, foreign language
Ключевые слова: информация, масса, медиа, технология, связь, иностранный язык

Kütləvi informasiya vasitələri ünsiyyət vasitəsi kimi geniş kütləni əhatə edir. Kütləvi informasiya vasitələrilə məlumat dünyanın hər bir nöqtəsinə çatdırılır. KİV ünsiyyətin əsas yayıcısı olmaqla müxtəlif texnalogiyalar vasitəsilə həyata keçirilir. KİV texnologiyası daima dəyişir. KİV elektron və çap şəklində olmaqla iki yerə bölünür. Radio, televiziya və internet kimi yayımlanan media məlumatlarını elektron şəkildə, qəzet, kitab, broşura və ya jurnal isə çap şəklində ötürür.

Xarici mətbuat kütləvi informasiya vasitələrindən bir kommersiya vasitəsi kimi istifadə edir. Istər xarici, istərsədə daxili şirkətlər, təşkilatlar, firmalar və s. KİV daha çox müraciət edir. Beləki, binalarının içərisində və xaricində yerləşdirilən billboardlar, plakatlardan, idman meydançalarında asılmış plakatlar, dükanlarda və avtobuslarda rast gəldiyimiz elanlar belə KİVdir.

Kütləvi informasiya vasitələri texnalogiya və ya əşyavi şəkildə olmaqla məhdudlaşmır. Eləcədə istənilən tədbirlərdə insanlar qarşısında nitq söyləmək, hər hansisa bir tədbirin təşkili belə KİV hesab edilə bilər.

İnternet, mobil vasitələr rəqəmsal kütləvi informasiya vasitəsidir. İnternet, elektron poçt, veb-saytlar, bloglar və internet- radio və televiziya kütləvi informasiya xidmətlərini təmin edir. KİV vasitəsi ilə verilən məlumatlar böyük və kiçik həcmli olmaqla qruplaşa bilər. Böyük həcmli yayımlar daha böyük auditoriya, oxucu heyyəti üçün nəzərdə tutulur. Beləliklə, bu məlumatlar internet vasitəsilə asanlıqla dünyanın bir çox regionlarına eyni vaxtda və səmərəli şəkildə yayımlana bilər.

Internet müasir dövrün ən çox müraciət edilən informasiya vasitəsidi. İnternet kütləvi informasiya vasitələrinin daha interaktiv vasitəsidir və qısa "şəbəkələrin şəbəkəsi" kimi təsvir edilə bilər. Xüsusilə, kompüterdən istifadə edərək ötürülən məlumatlar İnternet vasitəsi ilə dünyaya, ictimaiyyətə çatdırılır. E-poçt, onlayn çat, fayl ötürülməsi kimi digər

sənədləri, müxtəlif informasiya və xidmətlərini birləşdirən milyonlarla kiçik yerli, akademik, biznes və hökumət şəbəkələrindən ibarətdir.

Dil tədrisində İnternetdən istifadə etmək üçün bir neçə mümkün səbəb var. Məsələn, elektronik söhbət dil öyrənmə üçün faydalı olan geniş bir dil funksiyasına malik olmalıdır. Bu səbəbdən interneti daha dərin bilib, onun bütün finksiyalarında istifadə edib, dünyaya açılmaq üçün ingilis dilini öyrənmək əsasdır.

Blog kütləvi informasiya vasitəsinin bir növüdür. Blog, adətən bir fərd tərəfindən interaktiv media ilə saxlanılan bir veb saytdır, hansıki müntəzəm şərhlər, hadisələrin təsviri və ya şəkillər və ya videoları əks etdirir. Girişlər əksər hallarda xronoloji qaydada göstərilir. Bir çox blog xüsusi bir mövzuda şərh və ya xəbər verir; digərləri daha çox şəxsi onlayn gündəliklər kimi fəaliyyət göstərir. Tipik bir blog, mətnləri, şəkilləri və digər qrafikləri birləşdirir və digər bloglara, veb səhifələrə və əlaqədar media ilə əlaqə saxlayır. Oxuculara interaktiv formatda şərhlər yazma imkanı bir çox blogun üçün vacib hissəsidir. Bəzi bloglar əsasən mətndir, baxmayaraq ki incəsənət (artlog), fotoşəkillər (fotoblog), sketchblog, videolar (vlog), musiqi (MP3 bloq), audio (podcasting) geniş sosial media şəbəkəsinin bir hissəsidir.

Müəllimlər bloglarını oxumaq üçün materiallar öyrənirlər, tələbələr üçün sinif blog yaradır və ya özləri blog edirlər. Bir çox blog xüsusi bir mövzuda şərh və ya xəbər verir; digərləri daha çox şəxsi onlayn gündəliklər kimi fəaliyyət göstərir. Tipik bir blog, mətn, şəkillər və digər bloglara, veb səhifələrə və mövzu ilə əlaqədar digər media ilə əlaqə qurur. Blogların əksəriyyəti interaktivdir, belə ki, qonaqlar bloglarda gadget'lar vasitəsilə şərhlər göndərir və hətta bir-birinə mesaj verirlər və onlar tədris və təlimdə xüsusilə cəlbedici edir.

Podkastlar bir çox formada olur, lakin əsasən danışanın hər hansı bir mövzuda danışmaq istədiyi mövzuya əsasən audio parçalarıdır. Podkastlar tələbələrin istənilən vaxt yükləyə və dinləyə biləcəyini göstərir. Tələbələr üçün ən yaxşı podcastlardan bəziləri müsahibə tərzidir. Şagirdlər real dialoqları eşitmək və tətbiq edə bildikləri üçün istifadə etmək çox yaxşıdır. Podkastlar tələbələrə lazım olan qrammatika və sözcüklərin öyrənilməsinə kömək edirlər.

1979-cu ildə Yaponiyada tətbiq olunan cib telefonları yalnız 1998-ci ildə Finlandiyada ilk yüklənə bilən zənglər tətbiq edildikdə kütləvi informasiya vasitəsinə çevrildi. Tezliklə çoxlu media məzmunu mobil telefonlara, tabletlərə və digər portativ qurğulara tətbiq olundu və bu gün mobil cihazlarda istehlak edilən kütləvi informasiya vasitələrinin ümumi dəyəri İnternet məzmunundan çoxdur. Mobil media kontentində mobil musiqi (zəng melodiyaları, rinqton səsləri, truetonlar, MP3 faylları, karaoke, musiqi videoları, musiqi axınları və s.); mobil oyun; müxtəlif xəbərlər,

əyləncə və reklam xidmətləri daxildir. İnternette olduğu kimi, mobil də interaktiv bir vasitədir.

Mobil əl cihazları şəxsi istifadə üçün müəllimlər və tələbələr tərəfindən istifadə edilən miniatür kompüterlər kimi fəaliyyət göstərmək üçün təkmilləşdirilmişdir. Son illərdə, mobil qurğulardakı texniki irəliləyişlər, sinif quruluşunda təqdim edə biləcək nadir dostluqlar üçün müəllimlərin diqqətini çəkdi. Bu texnologiya masa üstü kompüterlər kimi digər tipik sinif texnologiyalarından fərqli olaraq onlayn resurslarla rahatlıq, əlçatanlıq və interaktivlik birləşməsini təmin edir. Mobil texnologiyanın sürətlə inkişafı və artan populyarlıq, eləcə də öyrənmə üçün mobil qurğunun potensial faydaları ilə onun empirik tədqiqatı çox vacibdir. İnternetə qoşulmaq üçün daha çox tələbə mobil cihazlardan istifadə edir. Mobil öyrənmə hər hansı bir yerdən və hər hansı bir zamanda portativ elektron cihazdan istifadə etmək imkanıdır.

Texnologiya, bəzi məktəblərdə İngilis dilinin öyrənmə vasitələrinə imkan yaradıb, müəllimlər üçün mövcud olan resurslardan, o cümlədən yeni media formasında yayılmış kütləvi informasiya vasitələrindən istifadə etmək olduqca vacibdir. İnternetdən istifadə edərək bir dərs planlaşdırarkən müəllim məqalə, paraqraf, video, dilin mürəkkəbliyi, məlumatların sıxlığı, mövzu və məzmunu, mövcud vaxt və tələbə səviyyəsini nəzərə almalıdır.

Yüksək texnologiyaların inkişafı ilə əlaqədar təhsil sistemində innovasiyalar, yenilik və innovativ təcrübələr üçün pedaqoji bir sahədə təhsilin müəyyənləşdirilməsini öyrənmək üçün yeni bir yol göstərir. Bu mənada müəllim daha çevik və səmərəli təlim prosesini təşkil etmək və idarə etməkdən çəkinir. Müəllimlər media əlaqələrində müvəffəqiyyətlə iştirak etdikləri üçün tələbələrdə sosial, psixoloji, ümumi mədəni, mənəvi və etik şərtlərin yaradılmasında əsas rol oynayır. Bu mənada, media təhsilində təhsil və peşə vəzifələrini həll etmək üçün müəllimin informasiya bacarığı peşəkar bacarıqların bir hissəsi kimi görülür. Müəllimin informasiya mədəniyyəti onun tələbə və inkişafı üçün informasiya qaynaqlarını, müasir informatika və informasiya texnologiyalarını yaratmaq və istifadə etmək qabiliyyəti ilə xarakterizə olunur. Müəllimin ən vacib rollərindən biri, gənclərin fəaliyyətində köməklik göstərmək və inkişaf etdirmək üçün media məlumatlarının dənizində müvəffəqiyyətlə gəzmək üçün köməklik göstərməkdir.

İngilis dilini dil kimi yaxşılaşdırmaq üçün, effektiv bir vasitə kimi istifadə etmək üçün, yeni bir tədris modelinin inkişaf etdirilməsi üçün alimlərin bir strategiyanı işləmələri lazımdır. Beləliklə, tələbələrin İngilis dili dərslərində mütəşəkkil bir şəkildə istifadə edə bilməsi üçün, ingilis dilinin biliklərini inkişaf etdirmək üçün, ən optimal kilometrdən istifadə edə bilməsi üçün KİV-dən istifadəyə daha çox üstünlük verilməlidir

Beləliklə, kütləvi informasiya vasitələri dünyaya açılan bir qapıdır və bu qapının açarlarından biridə dildir. Mediyanın dili mesajların ötürülməsi üçün bir vasitə kimi istifadə olunur. Alınan məlumat zamanı heç bir qarşılıqlı əlaqə olmur, buna görə alıcının məlumatsız qalması təhlükəsi olmur. Buna görə də, media dil dəyişikliyinə təsir edə bilir.

RP-nin öyrənilməsi yalnız tələffüzlə bağlıdır, standart dil öyrənilməsi də qrammatika, söz və tərz kimi məsələlərlə bağlıdır.

Qeyri-standart Ingilis dili başqa İngilis dilidir. İngilis dilinin qeyri-standart dialektləri əsasən qrammatik səviyyədə Standart İngilis dilindən fərqlənir. İngilis dilində geniş yayılmış qeyri-standart qrammatik forma nümunələri bir çoxu səbəbsizdir.

Televiziya, radio xəbərləri və şoularda danışılan dil Standart İngilis dilidir. Ancaq şüarlarında, regional və ya etnik lehçələr və ya reklam dünyasında simvollar qeyri-standart İngilis dilidi. Media bir və ya digər bir şəkildə dilin dəyişməsinə səbəb olur. Hələ də bir çox dialekt və dil çeşidi mövcuddur. Bu sahədə normallaşma yoxdur. Buna görə də, buna görə mübahisə etmək mediaya heç vaxt təsir göstərə bilməyəcəkdir.

Ədəbiyyat

- Krishna P., 2007 " Language of Mass Media"
- Max K., Marsha F., 2006 " Integrating Multimedia Technology in school program"
- https://prezi.com/tiuqohzjiojq/influence-of-the-mass-media-on-the-english-language-media-and-pronunciation/
- https://az.wikipedia.org/wiki/K%C3%BCtl%C9%99vi_informasiya_vasit%C9%99l%C9%99ri

G.Bagirova

Language of multiple information tools

Summary

Mass media broadcasts majority as a part of communication. The mass media spreads information to every corner of the world. Mass media is the main tool of communication, which is implemented through various technologies. Media technology is constantly changing.

Mass media is a door to the world and one of the keys to this door is a language. Media language is used as a tool for transmitting messages. Media can influence language change.

It shows a new way to study the definition of education in a pedagogical area for innovation. Innovation and innovative experiences in the education system related to the development of high technology.

Teachers play a key role in creating social, psychological, general cultural, moral and ethical conditions for students to participate successfully in media relations. In this case, the ability of a teacher to communicate his / her educational and professional responsibilities in media education is part of his / her professional skills.

Г.Багирова

Язык нескольких информационных вопросов

Резюме

Средства массовой информации передают большинство в качестве части сообщения. Средства массовой информации распространяют информацию в каждом уголке мира. Средства массовой информации являются основным инструментом коммуникации, который реализуется с помощью различных технологий. Медиа-технология постоянно меняется.

Средства массовой информации - это дверь в мир, и одним из ключей к этой двери является язык. Язык мультимедиа используется как инструмент для передачи сообщений. Средства массовой информации могут влиять на изменение языка.

Это показывает новый способ изучения определения образования в педагогической области инноваций. Инновации и инновационный опыт в системе образования, связанный с развитием высоких технологий. Учителя играют ключевую роль в создании социальных, психологических, общекультурных, моральных и этических условий для успешного участия студентов в медиа-отношениях. В этом случае способность преподавателя передавать свои образовательные и профессиональные обязанности в медиаобразовании является частью его / ее профессиональных навыков.

Rəyçi: Sevda İmanova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

HƏLİMƏ AĞAYEVA
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
halima.agayeva@sport.edu.az

NİTQ MƏDƏNİYYƏTİ VƏ ÜNSİYYƏT BACARIĞI

Açar sözlər: mədəniyyət, ünsiyyət, etiket, nitq keyfiyyətləri, dil qanunları, nitq normaları
Ключевые слова: культура, коммуникация, речевые качества, речевые нормы, этикет
Key words: culture, communication, speech tags, speech qualities, language laws, speech norms

Nitq mədəniyyətindən bəhs edərkən, sözlər arasında qrammatik-məntiqi əlaqələr yaradılaraq məna kəsb edən cümlələr toplusu nəzərdə tutulur. Ünsiyyət zamanı siz və sizin həmsöhbətiniz tərəfindən asanlıqla və sərbəst danışa biləcəyi və eyni zamanda tezliklə sizin duyğu və düşüncələrinizi dəqiq ifadə edən sözlər seçilir.Əslində bir insanın ümumi mədəniyyəti, nitqindən təyin edilə bilər. Artıq təxminən 100 il bundan əvvəl aristokrat və sadə adamı mədəni bir şəkildə fərqləndirmək mümkün idi - fərq çox böyük idi. Sosial vəziyyət asanlıqla müəyyən edilirdi. Lakin yaşadığımız əsirdə universal savadlılığın inkişafı, texnalogiyanın sürətlə inkişafı ilə əlaqədar çox sayda insan kitablara qoşulub və sosial təbəqə fərqindən çıxmağı bacardı. Bu inkişaf təhsil sayəsində, oxumaq və yazma bacarıqlarının inkişafı sayəsində mümkün oldu.Ancaq dəyişim, inkişaf nə qədər davam etsədə nitq keyfiyyətinə olan tələblər dəyişməyib. Cəmiyyətdə nitq normalarına olan bəzi tələblərin səviyyəsi bir qədər azalıb, amma heç bir şəkildə etiket normaları köhnəlməmişdir. Bu tərifi başqa bir şəkildə ifadə etmiş olsaq, deyə bilərik ki, nitq mədəniyyəti danışıq və yazı zamanı orfoqrafik və orfoepik qaydalara, qrammatik qayda-qanunlara, üslub normalarına əməl etmək, zəngin söz ehtiyatına malik olmaq, nitqin etik normalarını gözləməkdir. Nitq mədəniyyəti dedikdə hər şeydən əvvəl filologiyanın dildən ünsiyyət vasitəsi kimi istifadə qaydalarını, elmin əsasında öyrənilən sahəsi nəzərdə tutulur. (4)Nitq mədəniyyətinə yiyələnmək üçün dilin lüğət tərkibinə dərindən bələdlik, onun fonetik, leksik-semantik və qrammatik normalarına yiyələnmək, dil qanunlarını nitqdə düzgün tətbiq edə bilmək zəruridir. Söz ehtiyatı zəngin olan, sözlərin məna çalarlarını nitqində düzgün əlaqələndirməyi bacaran, geniş erudisiyalı insan öz fikrini çətinlik çəkmədən məntiqi cəhətdən ifadə edə bilmək qabiliyyətində olur.Nitqin özəyi dildir. Nitq dilin ifadəçisidir.Yadda saxlamaq lazımdır ki,dil əsasdır, nitq ondan törəmədir. Nitq dəyişkəndir. Nitqin yaranması həm mürəkkəb,

mürəkkəb olduğu qədər də sürətli prosesdir. İnsan zəkasının yaratdığı heç bir texnika bu sürətə malik ola bilməz. Dil və nitqi bir-birindən ayırmaq mümkün deyildir.

Dil nitqin əsas ünsüru olsada amma dil və nitq arasında aşağıdakı fərqlər vardır:

- ✓ Dil həcmcə nitqdən genişdir.
- ✓ Dil ümumxalq nitq fərdi səciyyə daşıyır.
- ✓ Dil ünsiyyət vasitəsi, nitq ünsiyyət prosesidir.
- ✓ Nitq fikrin ifadəçisidir, təfəkkürün formasıdır.
- ✓ Dilin əsas mahiyyəti ünsiyyət vasitəsi olmasıdır. Nitqin əsas cəhəti məzmunluluq, aydınlıq, mənalılıq, təsirlilik və dəqiqlikdir.
- ✓ Dil nitqin silahıdır, məhsuludur, nitq dilin hər dəfə ünsiyyət vasitəsi kimi işlədilməsidir.
- ✓ Dil dilçiliyin, nitq psixologiyanın tədqiqat obyektidir.(2)

Nitq mədəniyyəti dilin inkişafının ən yüksək mərhələsidir. Nitq mədəniyyəti daha geniş mənada fikir, düşüncə mədəniyyətidir. Nitq mədəniyyəti dedikdə dilin normalarının və kateqoriyalarının tələbələrinə ciddi əməl edilməsi nəzərdə tutulur. Yüksək nitq mədəniyyəti təfəkkür mədəniyyəti ilə sıx bağlıdır.

Nitq mədəniyyətinin əsas şərtləri bunlardır: nitqin düzgünlüyü, nitqin dəqiqliyi və nitqin ifadəliliyi.

1. **Nitqin düzgünlüyü** dedikdə dilin fonetik, leksik və qrammatik qayda-qanunlarına əməl etmək nəzərdə tutulur
2. **Nitqin dəqiqliyi** dedikdə fikrin ifadəsi üçün birbaşa tələb olunan söz və ya ifadənin seçilməsi nəzərdə tutulur.
3. **Nitqin ifadəliliyi** isə üslub baxımından ən uğurlu və bədii dil vahidinin işlədilməsi deməkdir.

Kütlə qarşısında, auditoriyada çıxış edən nitqinin aydın olması üçün aşağıdakılara əməl etməlidir:

1) Danışılacaq mövzu ətrafında əvvəlcə düşünmək, lazımi material və faktlar toplamaq;

2) Həmin materialı sistemləşdirmək;

3) Mətn yazılıdırsa, dönədönə oxumaq, oradakı əsas fikri ifadə edən sözləri (məntiqi vurğulusözləri) aydın və nəzərəçarpacaq dərəcədə tələffüz etməyə nail olmaq;

4) Söz və qrammatik formaları düzgün və aydın tələffüz etmək;

5) Məzmuna uyğun intonasiya seçə bilmək;

6) Mətndə qarşıya çıxa biləcək mənası çətin sözləri (alınma sözləri, terminləri, neologizmləri, köhnəlmiş sözləri və s.) izah etmək;

7) İstinad olunan mənbəni (əsər, məqalə, radio və televiziya verilişləri və s.) göstərmək;

8) Fikri, çıxarılan nəticəni misallarla əsaslandırmaq;

9) Auditoriya ilə (eləcə də müsahiblə) əks əlaqəni yaratmaq – sual vermək, cavab almaqla deyilənlərin başa düşüldüyünü, mənimsənildiyini müəyyənləşdirmək, lazım gələrsə əlavə şərh vermək;

10) Dinləyicilərin mənafe uyğunluğu, şəxsi maraqlarını nəzərə almaq.

Nitqin yığcamlığı, lakonikliyi natiqlik praktikasında xüsusi rol oynayır. Natiq "sözə sıxlıq, fikirlərə genişlik" prinsipini əsas götürərək geniş mətləbləri yığcam şəkildə, həyati faktlar, nümunələr əsasında ən zəruri söz və ifadələr işlətməklə dinləyicilərə çatdırmağı bacarmalıdır.

Dilin təmizliyini qoruyub saxlamaq üçün aşağıdakılara əməl olunmalıdır:

1) Nitqdə məhəlli dialektlərə, yerli şivələrə məxsus danışıq tərzinə yol verilməməlidir

2) Əcnəbi sözlər lüzumsuz işlədilməməlidir. Yeri gəlmişkən qeyd edək ki, əhalinin elita deyilən təbəqəsi rus dilində danışmağa üstünlük verir. Məmurların bəzisi öz dilində sərbəst danışmaqda çətinlik çəkir. Televiziya verilişlərində yarı Azərbaycan, yarı rusca danışanlara tez-tez təsadüf olunur. Restoranların, şadlıq evlərinin, mağazaların adları, reklamlar əcnəbi dildə yazılır.

"Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası prezidentinin 2 yanvar 2003-cü il tarixli fərmanında göstərilir ki, zəruri hallarda reklam və elanlarda (lövhələrdə, tablolarda, plakatlarda və s.) dövlət dili ilə yanaşı, digər dillər də istifadə oluna bilər. Lakin onların tutduğu sahə Azərbaycan dilindəki qarşılığının tutduğu sahədən böyük olmamalı və Azərbaycan dilindəki yazıdan sonra gəlməlidir Şəhərimizin reklam örtüyündə qanunun bu tələbinə lazımı dərəcədə əməl olunmaması millətin ən böyük sərvətinə göstərilən bu sayğısızlıq, biganəlik hər bir kəsi ciddi şəkildə düşündürməlidir.

3) Tüfeyli sözlərlə bağlı qüsurlar aradan qaldırılmalıdır. Bəziləri danışıq zamanı qurmaq istədikləri cümlələri tamamlaya bilmir zəruri sözləri tapmaqda çətinlik çəkirlər. Bu səbəbdən danışan yersiz fasilələr etmək məcburiyyətində qalır, mətnlə əlaqəsi olmayan sözlər, ifadələr işlətməli olur: əsas etibarilə, deməli, məsələn, türkün məsəli, zaddı, ən azı, ona görə ki, şeydi, beləliklə, adı nədir, adını sən de, hansı ki, haradasa, canım sənə desin, baxanda baxıb görürük ki və s. 4) Jarqon sözlərin və ifadələrin işlədilməsi (məsələn; znaçit, voobşe, tem bolli, mejdu proçim, niçeqo sebe, kakraz, toçno və s. kimi) nitqin təmizliyinə xələl gətirir, onun keyfiyyətini aşağı salır. (1)Söhbət üçün mövzu seçmək və yaxud söhbətə başlamaq asan deyil. Bu mövzunun, ilk növbədə, sizin həmsöhbətiniz üçün maraqlı, xoşagələn və

eyni zamanda sizin üçün maraqlı olmalıdır. Söhbət üçün ortaq bir mövzu tapmaq çətindir, lakin ümumi dil tapmaq çətin deyil.

Təcrübələr göstərir ki, ünsiyyət zamanı nitq etikası ümumi dəyərlər, prinsiplər və ünsiyyət normaları ilə sıx bağlıdır. Bu səbəbdən söhbət əsnasında daha çox zaman və bəzən "mən" kimi bir əvəzilik istifadə etmək məsləhət görülmür - bu söhbətin ümumi atmosferinə mənfi təsir edir.

Əsl ünsiyyət insanın müraciəti ilə başlanır. Ünsiyyət zamanı müraciət, görüşmə, ayrılma, təbrik və s. formalarına və ya ifadələrinə nitq etiketləri deyilir. Nitq etiketləri xalqın milli mədəniyyətinə uyğun olur və nitq mədəniyyətinin mühüm bir göstəricisi sayılır.

Ünsiyyət mədəniyyəti nitq mədəniyyətinin tərkib hissəsidir. Nitq etiketi və ünsiyyəti mədəniyyəti bir – biri ilə sıx əlaqədədir. Bunlar bir – birindən ayrılmaz və bir – birini tamamlayan anlayışlardır. Ünsiyyət prosesində şəxs özünü aşağıdakı formada təqdim edə və ya tanıtdıra bilər:

1. Öz hərəkəti, rəftarı ilə
2. Elmi və mədəni səviyyəsilə
3. Kimlə və necə, kimə nədən danışmağıyla.

Ünsiyyət zamanı yaranan dialoqda nitq etikasının aşağıdakı növləri yaranır:

1. Müraciət qaydaları, Şad və qəmli xəbərləri çatdırma qaydaları
2. Dinləmə qaydaları, Söhbətə qoşulma qaydaları,Verilən suallara mədəni cavab qaydaları,Mimika və jestlərdən məqamında düzgün istifadə etmə qaydaları (4) Müasir Azərbaycan ədəbi dili dünyanın inkişaf etmiş dillərindən biri kimi mükəmməl, sabit normalara malikdir. Həmin normalar müəyyən tarixi təkamülün məhsuludur. Dilin daxili quruluşunu onun səs tərkibi (fonetikası), leksikası (lüğət tərkibi) və qrammatikası təşkil edir. Ədəbi dilin normaları da bunlara uyğundur:

1) Fonetik norma;2) Leksik norma;3) Qrammatik norma.

Nitq mədəniyyətinin normalarına, şərtlərinə əməl edərək ünsiyyət qurmaq nitqin səlisliyini, onun dəqiq və başadüşülən edir. Əgər ünsiyyət zamanı nitq etiketlərinə düzgün müraciət edilərsə bu nitqin daha zəngin və dinləyici tərəfdən yorucu olmaması ilə nəticələnir.

Ədəbiyyat

1. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı, 2013, s.30-31
2. Quluqızı G., Nitq mədəniyyəti. Nitqin yığcamlığı üzərində iş. Bakı: “Təhsil problemləri”, 2014.
3. Nağısoylu M. Z, Ali təhsilə hazırlıq kurslarının dinləyiciləri üçün dərs vəsaiti. Bakı: 2014
4. Головин Б.Н. Основы культуры речи. – М. 1980.

H.Aghayeva

Speech culture and communication skills

Summary

This article deals with the main criteria of speech culture and communication skills. Speech culture can often be considered the most important indicator of culture. Clarity, accuracy and expression of speech are important in communication. If these conditions are met, the topic for the listener will be more interesting and interactive. For clearer communication it is necessary to follow the rules correctly. Modern Azerbaijani literary language has perfect, stable norms as one of the developed languages of the world. These norms are the result of evolutionary history. The internal structure of the language is its sound composition (phonetics), vocabulary (dictionary composition) and grammar. Experience shows that communication ethics are closely related to common values, principles and communication norms. If speech improvisations are used correctly, speech can lead to a richer and softer listener. When it comes to speech culture, it must strictly adhere to the norms and categories of students. High culture of speech is closely connected with the culture of thinking.

Х. Агаева

Культура речи и коммуникативные навыки

Резюме

В этой статье рассматриваются основные критерии речевой культуры и навыков общения. Культуру речи часто можно считать самым важным показателем культуры. Ясность, точность и выражение речи важны в общении. Если эти условия будут выполнены, тема для слушателя будет более интересной и диалоговой. Для более четкого общения необходимо правильно следовать нормам. Современный азербайджанский литературный язык имеет совершенные, стабильные нормы как один из развитых языков мира. Эти нормы являются результатом эволюционной истории. Внутренняя структура языка - его звуковая композиция (фонетика), лексика (композиция словаря) и грамматика. Опыт показывает, что коммуникационная этика тесно связана с общими ценностями, принципами и коммуникационными нормами. Если речевые импровизации используются правильно, речь может привести к более богатому и более мягкому слушателю.

Rəyçi: Validə Ağayeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent

SƏFA ABADOVA
GDU
safa@mail.ru

MÜASİR AZƏRBAYCAN DİLİNİN SİNTAKSİSİNİN BƏZİ PROBLEMLƏRİ HAQQINDA

Açar sözlər: Sintaksis, problemlər, cümlə üzvü, cümlə, qoşa söz
Key words: syntax, problems, parts of a sentence, sentence, double word
Ключевые слова: Синтаксис, проблемы, член предложения, предложения, парное слово

Müasir və ənənəvi dilçiliyi müqayisə etdikdə məlum olur ki, sintaksislə bağlı söylənmiş bir çox fikirlər müasir dilçilik- müasir sintaksis problemlərinin həlli istiqamətində hələ də yetərli deyil. Buraya "... normativ quruluşdan predikativ quruluşa doğru inkişaf, feili tərkiblərin transformasiyası, tabesiz mürəkkəb cümlənin komponentlərinin müstəqil-liyini itirməsi və flektiv dillərin təsiri ilə türk dillərində mürəkkəb cümlə quruluşlarının formalaşması kimi" məsələlər daxildir [M.Musaoğlu].

Azərbaycan dilçiliyində, ümumiyyətlə, sintaksislə bağlı tədqiqatlar, o cümlədən nitqin sintaktik xüsusiyyətlərinin, mətn sintaksisinin öyrənilməsi istiqamətində tədqiqatlar, araşdırmalar bir o qədər qənaətbəxş deyil. Qeyd etmək lazımdır ki, sintaktik vahidlərə sintaqmalar, söyləmlər, sintaksemalar və digərləri daxildir.

Müasir dilçilik problemlərini araşdırdıqda məlum olur ki? digər sahələrdə olduğu kimi, sintaksis sahəsində də problemlər, dilçilər tərəfindən fərqli şəkildə izah edilən qarışıq məsələlər kifayət qədərdir. Belə problemlərə aşağıdakıları nümunə göstərmək mümkündür:

1) Cümlə üzvlərinin strukturu ilə əlaqədar problemlər:

a)Söz birləşmələri ilə ifadə olunmuş cümlə üzvləri

b)Frazeoloji birləşmələrlə ilə ifadə olunmuş cümlə üzvləri

c)Terminoloji birləşmələrlə ifadə olunmuş cümlə üzvləri

d) Mürəkkəb adlarla ifadə olunmuş cümlə üzvləri- onların quruluşca növü məsələsi haqqında dəqiqləşmələr aparılmalıdır.

e) qoşa sözlərlə ifadə olunmuş cümlə üzvləri və s

2)Sadə cümlənin növləri, təsnifatı ilə əlaqədar problemlər:

a)Həmcins üzvlü cümlə və həmcins cümlənin fərqi nədir?

3) mürəkkəb adlarla söz birləşmələrinin fərqi nədir? Onlardan hansı nitqin, hansı dilin vahidləridir?

4) Leksikləşmiş birləşmələr və sərbəst söz birləşmələrinin münasibəti məsələsi. Onların cümlə üzvlərinə münasibəti məsələsi.

5) cümlə üzvlərinin struktur təsnifi məsələsi

6) Mürəkkəb sözlərin və söz birləşmələrinin sərhədlərinin müəyyən edilməsi məsələsi (Q.Kazımov).

Bu və digər problemlər struktur sintaksis sahəsində qarşıda duran və həllini gözləyən vacib problemlərdəndir.

Normativ sintaksis məsələlərinin həlli istiqamətində bir çox dilçi alimlərimiz, o cümlədən M.Şirəliyev, Ə.Abdullayev, K. Abdullayev, Q.Kazımov, Y.Seyidov, N.Cəfərov, K.V.Nərimanoğlu, F.Cəlilov, M.Musaoğlu, T.Müzəffəroğlu, N.Novruzova və başqalarının dəyərli tədqiqatları olmuşdur. Professor Q.Kazımovun "Müasir Azərbaycan dili. Sintaksis" (Bakı, 2008) kitabı sintaksis sahəsində son çalışmalardan biridir.

Eyni zamanda diqqətimizi cəlb edən və aydınlaşdırılması vacib sayılan məsələlərdən biri də sozlərin-nitq hissələrinin transformasiyası məsələsidir. Dilçilər tərəfindən nitq hissələrində keçid prosesi kimi dəyərləndirilən bu proses zamanı isim sifətləşə// atributivləşə, sifət isimləşə//substantivləşə bilir və s. Məsələn;

1)***Gənclər*** əllərində Azərbaycanın üçrəngli bayrağı mətin addımlarla irəliləyirdilər.

2) Nənə qışın bu il soyuq keçəcəyini düşünüb nəvəsinə ***yun*** corab toxuyurdu.

Verilmiş cümlələrdən birincisində sifət isimləşmiş, ikincisində isə isim sifətləşmişdir. Lakin məsələnin təhlilinə keçəndə, tədqiqat zamanı məlum olur ki, burada heç bir halda bir nitq hissəsi başqa bir nitq hissəsinə çevrilməmişdir. Sadəcə, sifət təyin etdiyi ismi lakoniklik, yığcamlıq naminə itirmiş, onun xüsusiyyətlərini daşımışdır. Birinci cümlədə olduğu kimi, sifət ismin cəm şəkilçisini qəbul etmiş, cümlədə baş üzv-mübtəda vəzifəsində çıxış etmiş, kim? sualına cavab vermişdir:

<u>Gənclər (kim?)</u> əllərində Azərbaycanın üçrəngli bayrağı mətin addımlarla irəliləyirdilər.

İkinci cümlədə də həmçinin göstərdiyimiz prosesin əksi baş vermiş, isim - əşya bildirən bir söz digər əşya bildirən bir sözün qarşısında işlənərək onun hazırlandığı materialın adını bildirmiş, yəni bir növ, sifətləşmişdir. Sifətin sualına (necə?) cavab vermiş, cümlədə təyin funksiyasında çıxış etmişdir:

Nənə qışın bu il soyuq keçəcəyini düşünüb nəvəsinə yun corab toxuyurdu.

- tipli nümunələr istər müasir Azərbaycan dilində, istərsə də klassik ədəbiyyatda və ya folklor nümunələrində kifayət qədərdir. Dilimizin əsas, mühüm dil qanunauyğunluqlarından biridir. Lakin belə bir prosesin baş

verməsi bizə heç bir əsas vermir deyək ki, bir nitq hissəsi digər bir nitq hissəsinə çevrilmişdir. Bu zaman həmin sözlərin mətn daxilində sintaktik funksiyası dəyişmiş olur. Çünki lazım gəldikdə, biz həmin cümlələrin morfoloji xüsusiyyətlərindən danışarkən qeyd etdiyimiz sözləri, birinci cümlədəki gənclər sözünü sifətə, ikinci cümlədəki yun sözünü isə isim kimi təqdim edirik.

Bu cəhətdən də bu tipli sözlərdə bir nitq hissəsinin digərinə çevrilməsindən, transplantasiyasından, keçidindən deyil, yalnız sintaktik funksiyasını dəyişməsindən danışmaq mümkündür. Belə bir cəhət isə yalnız kontekstual vəziyyətdən, sözün-nitq hissəsinin düşdüyü mühitdən asılıdır. Mətn sintaksisi məsələsi kimi aydınlaşdırılmalıdır.

Konversiya prosesində söz yeni mühitə düşür, yeni sintaktik funksiya daşıyır, sözün morfoloji dəyişməsi ilə yeni paradiqmalar yaranır [9.s.41]. Konvesiya yolu ilə yeni dil vahidlərini yaranması problemi ilə bağlı dilçilərin fikirləri çox vaxt üst- üstə düşməmişdir. Ilk növbədə, bəzi dilçilər, ümumiyyətlə, bu prosesin olmasına, yəni bir nitq hissəsinin digərinə keçməsi məsələsini qəbul etmirlər.

M. Quliyevanın "Azərbaycan dilində sintaktik transformasiya" (Naxçıvan. 2008) mövzusunda namizədlik dissertasiyası da, təxminən, eyni mövzuya həsr edilmiş, dünya və Azərbaycan dilçilərinin fikirlərinə istinad edilərək transformasi- yanın növləri; fonetik, leksik, morfoloji və leksik növləri haqqında fikir yürüdülür. Tabeli mürəkkəb cümlələrin budaq cümlələrini araşdıran tədqiqatçı budaq cümlələri transforma adlandıraraq belə qənaətə gəlir ki, həmin transformalar feili sifət və feili bağlamaların əvəzediciləri, ekvivalentləridir.

Qeyd: Azərbaycan dilçilərindən Q.Kazımov da bu məsələnin absurd olması qənaətindədir.

"Gecə, gündüz, axşam, səhər, tipli sözlər yerinə görə həm isim, həm zərf sayılır. Onların ismə və ya zərfə aid edilməsi onların aid olduğu sözlə bağlı deyil, mənasına görədir. Bu sözlər kəmiyyət, mənsubiyyət, hal şəkilçiləri qəbul edərək dəyişdikcə isim hesab olunur" [4. s.314].

Nümunələr:

1) ***Axşam*** Rüstəm kişi həyətdə təkbaşına oturub başına gələnləri götür-qoy edirdi.

Axşam sözü zaman anlayışı bildirir. Burada adyektivləşmə baş vermiş, həmin söz zərfin xüsusiyyətlərini qəbul etmiş, hal və hərəkəti izah edərək, cümlədə zərflk olmuşdur.

Bundan başqa sifətin feillərdən əvvəl işlənib hərəkəti təyin etməsi adverbiallaşma adlanır. Mətnlərdə adverbial sifətlərin seçilməsi çətinlik yaradır. Buna səbəb "...zərflərin zəif formalaşması və ona aid əlamətlərin zəifliyidir" [3.s.111].

"Adverbiallaşmada sifət feilin qarşısına düşür, lakin struktur cəhətdən dəyişmir, əvvəlki formasında- isimlərə yanaşdığı kimi, feilə yanaşmış olur: 1. Qız gözəl danışır" [4. s.116].

Q. Kazımov bəzən feli bağlamaların inkişaf edərək zərfə çevrildiyini də söyləmişdir: "... bəzi feli bağlamalar zərfə doğru inkişaf edərək zərfə çevrilmişdir: istər- istəməz, getdikcə, dönə- dönə sözləri artıq feli bağlama deyil, zərf hesab olunur" [4. s. 295]. Məsələn; 1.Mən bu sözləri sənə ***dönə-dönə*** demişəm.Verilmiş cümlədə olduğu kimi, dönə-dönə sözü kontektdən asılı olaraq zərfə çevrilmişdir.

Bizim fikrimizcə, burada *dönə-dönə* sözü zərfə çevrilməmiş, kontekstdən asılı olaraq sintaktik funksiyası dəyişmiş, zərflik olmuşdur.

Nümunələrin sayını istənilən qədər artırmaq olar. Eyni zamanda qeyd etmək lazımdır ki, belə bir cəhəti yalnız isim və sifətdə deyil, digər nitq hissələrində də müşahidə etmək mümkündür.

Ədəbiyyat:

1)Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası. Bakı. 2000(I-II). 280 səh.
2) Cəfərov C. Az.d-n morfologiyası.Bakı. 2004
3) Kazımov Q. Müasir Azərbaycan dili. Sintaksis. Bakı, 2008
4) Kazımov Q. Morfologiya. Bakı. 2010. 398 səh.
5) Quliyeva M. Azərbaycan dilində sintaktik transformasiya. Naxçıvan. 2008
6)Abdullayev R. "Türk dillərində leksik- semantik konversiya (oğuz qrupu türk dillərinin materialları əsasında. Bakı. 2008
7) Cəfərov C. Nitq hissələrində keçid prosesləri. Bakı. 1983
8) Арбекова Т.И. Лексикология английского языка. Москва. 1977. с. 240

S. Abadova

Some of the problems in the modern Azerbaijani language syntax

Summary

The article deals with syntax problems of modern Azerbaijani language. Such problems are shown in the following example:

The issue of the structures of the sentence (parts of sentence expressed in word combinations, parts of sentence expressed in phraseological formulations, parts of sentence expressed in terminological combinations, parts of sentence with complex names - their constructive type should be clarified, sentences expressed in pairs) simple sentences,

difference between compound names and word combinations, what kind of the speech, units of the language, the attitude of the lexical units and the free word combinations.

Their attitude towards their sentences, and so on. In these speeches, they expressed their attitude towards the transition.

Сафа Абадова

Некоторые проблемы синтаксиса современного азербайджанского языка

В статье рассматриваются проблемы синтаксиса современного азербайджанского языка. Ниже приведены примеры таких вопросов: проблема структуры членов предложения (члены предложения, выраженные во фразах, члены предложения выраженные в фразеологических формулах, члены предложения выраженные в терминологических комбинациях, члены предложения со сложными именами - должен быть разъяснен их конструктивный тип; разъяснение конструктивного типа парных слов и т.д.), типы предложений.

Проблема различии простых предложений с однозначными членами и однозначных предложений; различие между сложными именами и словосочетаниями; какой из них единица речи, а какой единица языка; а также отношение между лексических единиц и свободных словасочетаний. Их отношение к другим членам предложениям и так далее. В этих выступлениях они выразили свое отношение к переходу. Выражена отношения о процесе трансплантации частей речи.

Rəyçi: Həcər Hüseynova
Filologiya elmləri doktoru

KÖNÜL QOCAYEVA
ADİU
könül.@.mail.ru.

İNGİLİS DİLİNDƏN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏ PROSESİNDƏ ANTROPONİM VƏ TOPONİMLƏRİN TRANSLİTERASİYASİ

Açar sözlər:transliterasiya, antroponim, toponomiya,İngilis dili,tərcümə
Ключевые слова: транслитерации, антрооним, топонимов, Английский язык
Key words: transliteration,anthroponyms, toponyms,English language,translatetion.

Tərcumə tarixi göstərir ki, insan adlarının və familiyaların, coğrafi adların, o cümlədən müxtəlif təşkilat, müəssisə, gəmi, kinoteatr və bir çox digər kateqoriyadan olan xüsusi adların bir dildən digərinə tərcümə edilməsi, daha dəqiq desək, verilməsi zərurəti mütəxəssislərin diqqətini çoxdan cəlb etmişdir. Müasir dünyada informasiya axınının günbəgün artması belə bir işə tələbatı da durmadan artırır. Şəxs adlarının və familiyaların, başqa sözlə, antroponimlərin bir dildən digərinə çevrilməsi bir sıra obyektiv və subyektiv səbəblərə görə çətinliklər törədir. Səbəblərdən biri insan amili ola bilər ki, bu da informasiyanın bir sənəddən digərinə natamam, qeyri-dürüst, yazılması, köçürülməsi və s. ola bilər. Digər səbəblərdən biri olaraq onu göstərmək olar ki, şəxs adlarının və familiyanın müxtəlif yazılış ənənəsi mövcud ola bilər. Bütün bunların nəticəsi olaraq, ilkin mənbədə olan informasiya, tanınmaz dərəcədə dəyişdirilərək və ya dəyişərək digər mənbələrə keçə bilər. Nəticə etibarilə, bir dildəki şəxs adları və familiyalar, yəni antroponimlər digər bir dildə tanınmaz dərəcədə təhrif edilə bilər. Bütün bunlar adların bir dildən digərinə tərcüməsi məsələsinin mühüm dərəcədə əhəmiyyətli olduğunu göstərir.Antroponimlərin ingilis dilindən Azərbaycan dilinə keçirilməsi məsələsində müəyyən cəhətlər nəzərə alınmalıdır. Nəzərə alınmalı cəhətlər, məlum olduğu kimi, qarşılaşdırılan ingilis və Azərbaycan dillərinin strukturu ilə bağlıdır. Tərcümə prosesində şəxs adlarının başqa dildə verilməsi üçün istifadə edilən metodların heç biri ayrı-ayrılıqda həmin adların dilin daşıyıcıları tərəfindən onların səslənməsinə maksimal şəkildə yaxın tələffüzünə imkan yaratmır. Buna görə də həmin metodlar ayrı-ayrılıqda xüsusi adların başqa dildə keyfiyyətli şəkildə verilməsində yararlı deyildir. Bir sıra ölkələrdə transkripsiya və ya transliterasiya sistemi ya tamamilə

işlənməmiş, ya da işlənmiş olsa da, mübahisəli məsələləri hələ çoxdur. Belə ki, həmin dillərin istifadə etdiyi transkripsiya sistemlərində yalnız əsas uyöunluqlar göstərilmiş, lakin bir çox hərf və ya hərf birləşmələrinin düzgün verilməsi hələ də aydınlaşdırılmamış qalmışdır. Misal olaraq türk dillərindən saqmi dillərinə və ya əksinə sami dillərindən türk dillərinə, o cümlədən Azərbaycan dilinə transkripsiya və transliterasiya məsələlərini göstərmək olar. Hətta dillərarası ünsiyyətdə ən çox istifadə olunan dillərdən biri kimi, ingilis dilindən digər dillərə praktik transkripsiya qaydaları fonetik trankripsiyaya əsaslanır.

Xüsusi adların başqa dildə verilməsi zamanı, hər bir dildə olduğu kimi, Azərbaycan dilində də ümumi qaydalardan kənara çıxan müəyyən istisna hallar vardır. Ona görə də ingilis antroponimlərinin Azərbaycan dilində verilməsi məsələsində Azərbaycan dilinin fonetik və fenomatik imkanlarını nəzərdən keçirmək lazımdır. Baxmayaraq ki, ingilis və Azərbaycan dillərində səslərin əksəriyyəti aydın şəkildə müqayisəyə gələndir, o aşkardır ki, qarşilaşdırılan dillərin fonetik sistemlərində xeyli dərəcədə fərqlər də vardır. Omlar saitlər və samitlər əsəsında nəzərdən keçirək. Aşağıdakı ingilis antroponim və toponimlərinin Azərbaycan dilindəki bədii tərcümə əsərlərində verilmiş variantlarında qarşılaşdırılan dillərdə sait hərflərin və onların əmələ gətirdikləri hərf birləşmələrinin verilməsi imkanları araşdırılır, bunun əsasında fərqlərin meydana çıxarılmasına fikir verilir. İngilis antroponimlərinin və toponimlərinin tərkibində mövqeyindən asılı olaraq “a” (eı) hərfinin Azərbaycan dilində verilməsində müxtəliflik müşahidə olunur. İngilis dilinin oxu qaydalarına əsasən bu hərf qapalı hecada (ae) oxunur. Bu qaydaya antroponim və toponimlərdə də riayət olunur. Amma tərkibində həmin fonemin olduğu antroponim Azərbaycan dilinə tərcüməsində müxtəliflik özünü göstərir. Aşağıdakı ingilis antroponim və toponimlərə diqqət yetirək:

Yuxarıda antroponim və toponimlərdə vurğulu hecalarda olan “a” hərfi qaydaya uyğun olaraq (ae) oxunur. Belə adalrın transliterasiyasında iki hal müşahidə olunur.

1. Onların bir çoxu Azərbaycan dilinə “a” ilə translitersiya olunur. Nümunələrdə bunu görmək olar:

Old Candy, the swamper, came in and went to his bunk, and behind him struggled his old dog (J.Steinbeck). – Qoca Kandi içəri girdi və çarpayısında oturdu, onun qoca köpəyi də yanında hərlənirdi (tərc. M.Cəfərov). this morning, about three o’clock, the inhabitants of the Quartier St.Roch were aroused from sleep by a succession of terrific shrieks, issuing, apparently, from the forth story of a house in the Rue Morgue, known to be in the sole occupancy og one Madame L’Espanaye, and her daughter Mademoiselle Camille L’Espanaye (E.A.Poe). – Bu gecə saat üç radələrində Sen Rok

məhəlləsinin sakinlərini aramsız dəhşətli qışqırtılar yuxudan oyatdı. Qışqırtılar Morq küçəsindəki madam L'Espanye və onun qızı madmazel Kamillanın yaşadığı binanın dördüncü mərtəbəsindən gəlirdi (Tərc. S.İskəndərov). Adolphe Le Bon, clerk to Mignaud et Fils, depous that on the day in question, about noon, he accompained Madame L'Espanaye to her resindence with the 4000 francs put up in two bags (E.A.Poe). – "Mino və Oğulları" firmasının qulluqçusu Adlof Le Von şahidlik edir ki, tıyin edilmiş vaxtda, təxminən günorta zamanı, xanım L'Espanyenin iki hissıyı qoyulmuş dörd min frank pulunu onun evinə aparmışdır (Tərc. S.İskəndərov). "But there was Axel Gunderson," Prince spoke up. (J.London) – Ancaq Aksel Handerson kimiləri də var,- Prins dilləndi. (Tərc. S.Abuzərli). Sounucu cümlə ilə bağlı olaraq aşaöıdakıları qeyd etmək olar:

Tərcümədə Axel antroponimində söz önündəki "a" Azərbaycan dilində "a" ilə transliterasiya edilsə də, Sevda Abuzərlinin tərcüməsində bu troponimin digər komponetləri ənənəyə uyğun transliterasiya olunmamış, müasir dövrdə xüsusi adalrın tərcüməsində daha çox üstünlük verilən praktik transkripsiya qaydalarına görə trankripsiya olunmuşdur. Axel şəxs adı ingilis dilində (aeksəl) şəklində tələffüz olunur və Azərbaycan dilinə tələffüz edildiyi şəkildə çevrilmişdir. Orijinaldakı Gunderson familiyasının Azərbaycan dilinə edilmiş "Handerson" formasının haradan meydana çıxması izah oluna bilmir. Fikrimizcə, burada da tərcüməçi fikirləşmiş ola bilər ki, Gundersen rus dili variantı ola bilər, ona görə də sözün əvvəlindəki "g" hərfini "h" hərfi ilə əvəz etmişdir.

2.Bir sıra hallarda ingilis dilində tərkibində (ae) fonemi olan antroponim və troponimlər Azərbaycan dilində tələffüzdə olduğu kimi verilir, yəni "ə" ilə yazılır. Məsələn: The girl, whose name war Patsy Smith, wiped reddened eyes with a large linen handkerchief which Tanya had given her (A.Hayley) – Adı Pətsi Smit olan bu qız ağlamaqdan qızarmış gözlərini Tanyanın verdiyi böyük miləmil dəsmalla silirdi (Tərc.Z.Ağayev).

İngilis antroponimlərində və toponimlərində (ae) foneminin Azərbaycan dilində verilməsində müxtəlifliyin olmasının müəyyən səbəbləri vardır. İngilis dilində (ae) və Azərbaycan dilində (ə) fonemlərinin mövcud olması hələ o demək deyildir ki, onlar bir-biri ilə uyğunluq təşkil edir. Vaxtilə rus dili vasitəsilə edilən tərcümələrdə ingilis dilində tərkibində (ae) fonemi olan antroponimlərin və topinimlərin əksəriyyəti Azərbaycan dilinə "a" və "e" ilə transliterasiya edilmişdir. "Səmt küləkləri sürətlə irəliyə getməyimizə kömək etdiyindən, tezliklə Şərqi Hindistana istiqamət aldıq. Elə bu vaxt dəhşətli bir fırtına başladı. Tufan bizi Vandimen Torpağından şimal-qərbə apardı. ...".

Bu nümunə məşhur ingilis yazıçısı Conatan Sviftin "Quliverin səyahəti" əsərinin M.Rzaquluzadə tərəfinfən edilmiş tərcüməsidir. Nümunədə bizi maraqlandıran məqam "Vandimen Torpağı" birləşməsidir. Tərcüməçi əsərin

sonunda həmin birləşməyə belə izah verir: Şübhəsiz ki, belə izah oxucuda Tasmaniya adası barədə müəyyən qədər fikir formalaşdırır, amma bu məlumat da tam deyil, "Vandimen" sözünün mahiyyətini açmır. Məlumdur ki, M.Rzaquluzadə əsəri rus dilindən tərcümə etmişdir. Rus dilindəki mətn belədir: ... при перехода в Ост-Индию мы были отесены страшной бурей к северо-западу от Вандименовой Земли (Д.Свифт. Путешествия Гуллийера).

Burada oxucu daha geniş məlumat əldə edir. Amma mövzumuzla bağlı olaraq bizi maraqlandıran cəhət "Vandimen Torpağı" birləşməsindəki Vandimen sözüdür. İzahatdan görünür ki, Azərbaycan dilinə edilmiş tərcümədəki "Vandimen Torpağı" söz birləşməsinin qarşılığı olan "Вандименова Земля" birləşməsində Вандименова sözü xüsusi ad olan "Ван-Димен"in rus dilində obyektiv (sifət) formasıdır. Azərbaycan dilinə edilmiş tərcümədə bu cəhət nəzərə alınmamışdır. Beləliklə, mənbədəki "Ван-Димен" antroponimi Azərbaycan dilinə "Vandimen" şəklində verilərək, ilkin formasından ceyli dərəcədə uzaqlaşmışdır. "Qulliverin səyahəti" əsərinin ingilis dilindəki orijinalına müraciət etməklə, rus dili vasitəsilə Azərbaycan dilinə edilmiş tərcümədə Vandimen adının doğru olan variantını bərpa etmək olur

ƏDƏBİYYAT:

1.Бокмельдер Д.А. О способах передачи английских собственных имён на рус.языке
2.Бугулов И.Н., Шевченко О.Ф. Особенности передачи слов-реалий в переводах англоязычной литературы развивающихся стран // Теория и практика перевода .
3.Введенская Л., Колесников Н. От собственных имён к нарицательным.М.1981.

К.Годжаева

The Tranliteration of Anthroponym and Toponyms in artistic translation (on the material of the English an Azerbaijani languages)

Summary

The present tranlation is dedicated to the problem of transliteration of proper names, specially anthroponyms an toponyms in tranlations of fiction. The article has been carried out on the materials of the English and Azerbaijani languages. "The ways of the translation of proper names" deals with the ways of rendering of the proper names into foreign languages.

Here it is stated that one of the main issues among the various and complex problems thar are investigated in modern linguistics is to study the

linguistic aspects of translation. The translation is one of complex and versatile activity of a man. The role of translation cannot be deined in the cultural development of makind. Through the translation, the people of one country get acquainted with the way of life, history, literature and scientific achievements of the other one.

This article deals with the difficulties of scientific-technical literature in Azerbaijani and English has got some ways of training. The article gives the whole analyse of their learning. Problem arising during the translation and elimination methods of these matters have been reflected in this article, too. Important terms of the translation are those that the text should be rich in content; idea should be fully clear and laconic and should keep the norms of the literary language.

К.Годжаева

Транслитерация антропонимов и топонимов в художественном переводе (На материале английского и азербайджанского языков)

Резюме

Перевод посвящена проблеме трансляции имён собственных ,в особенности антропонимов и топонимов в переводе хуожественной литературы. Статья проводилось на материале английского и азербайджанского языков.«Способы перевода имён собственных» рассматриваеться пути перевода имён собственных на иностранные языки.Здесь говорится, чо одним из основных вопросов, среди разнообразных и сложных проблем, которые изучается в современной лингвистике является изучение лингвистических аспектов перевода. Перевод является одной из сложных и многогранной деятельности человека. Роль перевода не может быть отрицано в культурном развитии человечества.В этой статье рассматриваются трудности научно-технического перевода и техническое развитие, проблемы. Трудности, возникающие при переводе и методы их устранения также нашли за свое отражение. Основными условиями при переводе является то, что текст должен быть содержательны, идея – ясной и лаконической, обязательное сохранение норм литературного языка. Научно-техническая литература в азербайджанском и английском языках имеет некоторые способы изучения. В статье дается полным анализ их присвоение.

Rəyçi: Yusif Süleymanov
Filologiya üzrə fəlsəfə doktoru,dosent

ARİFƏ YUSİFOVA
Azərbaycan Tibb Universiteti
arifə.@.mail.ru.

CƏLİL MƏMMƏDQULUZADƏNİN YARADICILIĞINDA ARXAİK SÖZLƏR VƏ TARİXİZMLƏR

Açar sözlər:arxaik sözlər,tarixizmlər,neologizmlər,lüğət,passiv sözlər
Ключевые слова:архаизм,тарихизм,неологизм,словарь,пас.слова
Key words:archaism,historism,neologism,lexicon,passive words.

Dilin lüğət tərkibi heç bir zaman sabit qalmayır, daim dəyişikliyə uğrayır. Azərbaycan dilinin lüğət tərkibi də həyt.t və məişətlə bağlı yaranıb formalaşmışdır. Belə olan halda, bu dəyişiklik nəticəsində ya dilin lüğət tərkibinə yeni-yeni sözlər daxil olur, ümumişlək sözlərə çevrilir, ya da bəzi sözlər dilin lüğət tərkibindən çıxır, dili tərk edir və işlənmə gücünü itirir. Elə buna görə də, Azərbaycan dilindəki sözlərişlənmə dərəcəsinə görə aktiv və passiv söz qruplarına ayrılır. Bu bölgü daim dilçilər arasında fikir ayrılığına səbəb olmuşdur. Səlim Cəfərov,Buludxan Xəlilov, Həsrət Həsənov kimi dilçilərin aktiv və passiv sözlər barəsində özünəməxsus fikirləri mövcuddur.B.Xəlilov Azərbaycan dilindəki aktiv sözləri iki qrupa bölmüşdür

(4, 23):a)Geniş dairədə işlənən aktiv sözlər;b)Məhdud dairədə işlənən aktiv sözlər.

Müəllif geniş dairədə işlənən aktiv sözlər dedikdə, ümumxalq sözlərini, məhdud dairədə işlənən aktiv sözlər dedikdə isə dialektizmləri,peşə-sənət sözlərini, ictimai-siyasi leksikam, idman və hərbi leksikanı,terminləri, jarqon və arqo sözləri nəzərdə tutur. S.Cəfərov B.Xəlilovdan fərqli olaraq, terminləri aktiv sözlər, dialektizmləri, peşə-sənət sözlərini,ictimai-siyasi leksikanı, idman və hərbi leksikanı, terminləri, jarqon və arqo sözləri isə passiv sözlər qrupuna daxil etmiş, bu bölgünü aparma səbəblərini isə özünəməxsus şəkildə əsaslandırmışdır (1, 65).Aktiv sözlərdən fərqli olaraq passiv sözlər dedikdə, hal-lıazırda işlənmə gücünü itirmiş, çox məhdud sayda insanlara tanış olan, bədii əsərlərdə, lüğətlərdə işlənən, hər hansı tarixi bir dövrlə, ictimai quruluşla,yaşam tərzi ilə əlaqədar lüğət tərkibində özünə müvəqqəti yer almış sözlər nəzərdə tutulur.Dilin passiv söz ehtiyatını işlənmə gücünü itirən, gündəlikdə işlədilməyən və ya yeni yaranmış sözlər yaradır. H.Həsənov da bu *məsələyə*

ərqli şəkildə yanaşmışdır. Onun fikrincə, aktiv və passiv leksika arasında tam hüdud qoymaq mümkün deyil. Belə ki, sözlər dinamik və

dəyişkəndir. Bu səbəbdən də müəllif bu bölgünü nisbi hesab edir.Passiv sözlər dedikdə, əsasən neologizmlər və köhnəlmiş sözlərdən bəhs olunur.Elm və texnikada, ictimai həyatda siyasətdə, ümumiyyətlə həyatın bütün sahələrində inkişaf getdikcə tələbata uyğun olaraq yeni sözlər yaranır. Bu yaranan yeni sözlər isə neologizmlər adlanır. Neologizmlərin bir qismi yarandıqdan sonra dildə özünə konkret, sabit bir mövqe tutur.Lakin bir qismi isə dildə yeni yarandıqda geniş bir dairədə işlənməyə başlayır, lakin bir müddət keçdikdən sonra işlənmə dairəsi zəifləyir və ən nəhayət isə dili tərk edir.

Əksər dillər kimi müasir Azərbaycan dilinin leksikasını da nəzərdən keçirib, onu əvvəlki dövrlərlə müqayisə etdikdə, həqiqətən də, fərqlimənzərə ilə qarşılaşırıq. Bu dəyişiklik təbii bir haldır. Müşahidə olunan dəyişiklik, əlbəttə ki, tədriclə baş vermiş bir prosesdir. Dildə dəyişikliyin bir qütbünü dildə yeni sözlərin yaranması təşkil edirsə, digər bir əks qütbünü isə dildəki sözlərin istifadə dairəsinin daralması, yavaş-yavaş köhnəlməsi, daha sonra sıradan çıxması təşkil edir. Bunlara köhnəlmiş sözlər deyilir və onlar müxtəlif cür səciyyələnir. Dilçi alimlər işlənmə dairəsinə görə köhnəlmiş sözləri bəzən aşağıdakı kimi qruplaşdırırlar:

a)işlənmə gücünü tamamilə itirmiş, mənası məı'um olmayan *və yeni* sözlərin əmələ gəl nəsində iştirak etməyən sözlər;b)müasir dildə mıistuqil söz kimi işlənmək gücünü itinniş və izlərini sözlərin tərkibində saxlamış olan köhnə sözlər;vaxtilə ədəbi diliımzdə işlənmiş və müasir dildən çıxmış bir çox ərəb-fars sözləri;

Köhnəlmiş sözlər fərqli xüsusiyyətlərə malikdir. Onlar köhnəlib dili tərk etmə üsullarına görə seçilirlər. Bu baxımdan köhnəlmiş sözlər özünəməxsus əlamətlərə görə iki yerə ayrılır:a) tarixizmlər;b) arxaizmlər.- Arxaizm sözü yunanca “archaios” sözündən götürülmüşdür,mənası- “qədim”deməkdir.

Arxaizmlərin ifadə etdiyi əşyalar hal-hazırda da mövcuddur və formaca dəyişsələr də məzmunca dəyişməmişlər. Sadəcə olaraq, bu əşyaların adlanmasmda müxtəliflik özünü göstərir. Arxaizmlər də dilin lüğət trəkibinin passiv fonduna daxildir. Deməli, əşya və hadisənin adını başqa söz əvəz edirsə, passiv fonda keçmiş əvvəlki söz özköhnə mənasını itirərək, yeni məna ifadə etdikdə, onun köhnə mənasını ifadə edən sözlər arxaizmlər adlanır.Arxaizmlərdən fərqli olaraq, tarixizmlər isə hər hansı bir hadisənin və əşyanın həyatdan çıxması ilə əlaqədar olaraq vaxtı ilə onları ifadə edən sözlərdir. Tarixizmlər öz ifadə etdiyi əşyalarla birgə köhnəlmiş hesab edilir. Həmin bu sözlər indiki nəsil üçün yad bir məfhum, anlayış kimi müəyyənləşmişdir. Yəni, tarixizmlər adından da göründüyü kimi tarix olaraq qalmışdır. Tarixizmlər nominativ funksiya daşıdığı üçün onun nə sinonimi, nə antonimi, nə də omonimi vardır. Ən əsası isə tarixizmlərin adlandırdığı

əşyalar hal-hazırda mövcud deyil, a. tıq tamamilə sıradan çıxmışdır.Ümumiyyətlə, tarixizmlərlə arxaizmləri fərqləndirmək vacibdir. Belə ki, sözlərin tarixizmə çevrilməsi, dili tərk etməsi sırf ictimai quruluş və mühitin, insanların yaşayış, həyat tərzinin, tarixi bir dönəmin dəyişməsi ilə bağlıdır. Köməkçi nitq hissələrinə aid olan tarixizmlər mövcud deyil,yəni tarixizmlər yalnız əsas nitq hissələrinə aid olur.Arxaizmlərdən fərqli olaraq, tarixizmlər *dilin qanunauyğunluğu* deyil, sadəcə olaraq tarixi bir tələbdir. Tarixizmlərin hal-hazırda müasir dilimizdə olan sözlərlə adlandırılması qeyri-mümkündür. Çünki, bu əşyalar artıq mövcud *deyil. Tarixizmlərdən ancaq həmin əşyalann adını* çəkmək, *onlardan bəhs* etmək lazımi olanda, o sözlərə tələbat olduqda *istifadə olunur.*Tarixizmlərdən ancaq tarixi əşyalann adını çəkməyə *ehtiyac olduqda* istifadə olunmur. Tarixizmlərdən həm *də tarixi hadisələri təsvir etmək, o* dövr haqqında *müfəssəl* təsəvvür *yaratmaq üçün istifadə olunur.*Tarixizmlərə həmçinin, köhnə dövlət quruluşunun, çar üsuli-idarəsimn
ləğvi ilə əlaqədar olaraq bu quruluşa aid olan bir sıra idarə, rütbə, vəzifə adları da daxildir. Bəzi tarixizmlər isə tarixin hansısa bir dövründən başlayaraq son vaxtlara qədər işlənmiş, nəhayət dili tərk edərək passiv fonda keçmişdir. *Sözlər* passiv fonda *keçərək tarixizm hesab olunduqda* artıq həm məzmun, həm də formaca köhnəlmiş hesab olunur.

Arxaizmlərdən fərqli olaraq, tarixizmləri həm formaca, həm də məzmunca köhnəlmiş söz adlandmrlar.Vaxtilə dildə zamanın tələbinə uyğun olaraq, aktiv işlənən lakin, indi passiv fonda keçərək tarixizm adlanan sözlərə həyatın bütün sahələrində rast gəlmək mümkündür. Bu isə o deməkdir ki, həyatın bütün sahələrində tarixizmlər mövcuddur. Dilçi alimlərin bu sahədə apardıqları bölgü bir-birindən müəyyən dəıəcədə fərqlənir.

Bu bölgü şərtidir. Onun bölmələrinin sayını artırmaq və ya azaltmaq mümkündür. Bu isə araşdırılan əsərlərin tərkibində işlənən tarixizmlərdən asılıdır.Tarixizmlərə əsasən bədii əsərlərin dilində rast gəlinir. Yazıçılar tarixizmlərdən müəyyən məqsədlərlə istifadə edirlər. Əgər yazıçı keçmişhəyatın hər hansı bir tarix: dövrünü təsvir etmək və o dövrlə bağlı az da olsa təsəvvür oyatmaq istəyirsə tarixizmlərdən istifadə edir. Bundan əlavə, bədii əsərlərdə işlənən surətlərin psixologiyası, yaşam tərzi haqqında məlumat vermək, ümumiyyətlə onları oxucuya tanıtmaq istədiyi tarixizmlərdən istifadəni zəruri edir. Həmçinin, tarixizmlərdən istifadə etməklə həmin dövrün dil xüsusiyyətlərini nəzərə çatdırmaq olar.Yazıçıların tarixizmlərdən istifadə etməsində daha bir məqsədi yüksək təntənəli üslub, təntənə çalarlığı, rəngarəngliyi yaratmaqdır. Nəhayət,bədii əsərlərdə tarixizmlərdən obrazların xarakterini, mənşəyini oxucuyaçatdırmaq üçün istifadə olunur. Cəlil Məmmədquluzadə də XIX-XX əsrlərdə yaşamış digər yazıçılar kimi öz

xalqına qarşı fədakar, ayıq-sayıq davranan, uzaq görən bir insan olmuşdur. C.Məmmədquluzadənin əsərlərində çoxlu sayda tarixizmlərin işlənməsi bir daha göstərir ki, ki, yazıçı xalqın ruhundan xəbərverən,cəmiyyətdəki problemləri bacardığı qədər realistcəsinə qələmə alan bir şəxsiyyətdir. Yazıçının əsərlərini araşdırarkən bunun şahidi olmaq olar.C.Məmmədquluzadə kiçik hekayə janrının yaradıcısı kimi tanınmışdır. «Usta Zeynal», «Dəllək», «İranda hürriyyət», «Fatma xala»,«Qurbanəli bəy», «Quzu», «Nigarançılıq», «Konsulun arvadı» və s. hekayələr onu hekayə janrının ustadı kimi məşhurlaşdırmışdır. Cəlil Məmmədquluzadənin yaradıcılığında hekayə janrına mühüm bir yer ayırması Azərbaycan ədəbiyyatında tamamilə yeni bir hadisə idi. O, real həyat hadisələrini tipik bədii vasitələrlə təqdim edir, zəhmətkeş insanların qəribə, acınacaqlı taleyini rəngli boyalarla qələmə alırdı. «Dəllək»,«Qurbanəli bəy», «Pirverdinin xoruzu», «Saqqallı uşaq», «Quzu»,«Nigarançılıq», «Konsulun arvadı» adlı hekayələrində isə Azərbaycan cəmiyyətinin ictimai-sosial problemləri, haqsızlıqları realistcəsinə əks etdirmişdir.«Bəlkə də qaytardılar», «Taxıl həkimi», «Şeir bülbülləri», «Proletar şairi», «Zırrama», «Oğru inək», «Şəhər və kənd», «Şərq fakültəsi» hekayələrində yazıçı Sovet cəmiyyətində olan çaşqınlığı, ictimai ədalətsizlikləri üstüörtülü şəkildə bədii vasitələrlə əks etdirmişdir.C. Məmmədquluzadə tək nəsr sahəsində deyil, dramaturgiyasahəsində də xeyli şöhrət qazanmışdır. O, Ölülər» tragikomediyasının, «Kamança», «Anamın kitabı» kimi pyeslərin müəllifidir. O, sovet dövründə isə «Danabaş kəndinin məktəbi» pyesini, «Lənət»,«Oyunbazlar» səhnəciklərini, «Dəli yığıncağı», «Yığıncaq», «Ər»tragikomediyalarını qələmə almışdır. «Şərq fakültəsi», «Taxıl həkimi»,«Hamballar», «Şeir bülbülləri», «İki ər», «Zırrama», «Şəhər və kənd»,«Qoşa balmc», «Bəlkə də qaytardılar» kimi hekayələri də bu dövrün məhsuludur.Dram və nəsr əsərləri ilə Cəlil Məmmədquluzadənin yaradıcılığı məhdudlaşmır. C.Məmmədquluzadə Azərbaycan satirik publisistikasının da yaradıcısıdır. O, öz məqalələrində haqsızlığı, ədalətsizliyi, nadanlığı,cahilliyi, avamlığı, bərabərsizliyi, əxlaqsız, fırıldaqçı ruhaniləri, din xadimlərini, ağaların, bəylərin əməllərini, ümumiyyətlə cəmiyyətdəki,həyatdakı bütün mənfilikləri tənqid atəşinə tutmuşdur. «Sizi deyib gəlmişəm», «Lisan bəlası», «Niyə məni döyürsünüz», «Hansı elmlər lazımdır», «İran konsulları», «Müsəlman içində gördüklərim», «Axund :lə keşişin vəzi», «İfratın mənfəəti», «Yuxu», «Məzhəb azadlığı»,«Gəncə

mollalarına», «Ölülər», «Lay-lay», «Filosoflar» və s. məqalələr yazıçının realist qələminin məhsuludur.C.Məmmədquluzadənin bütün əsərlərində tarixizmlər işlənmişdir. Bu tarixizmlər də əksər sahələri əhatə edir və buna görə də, əsərlərdə işlənən tarixizmləri müxtəlif sahələr üzrə qruplaşdırmaq mümkündür.B.Xəlilovun tarixizmləri sahələr üzrə qruplaşdırdığı bölgünü Məmmədquluzadənin əsərlərinə də tətbiq etmək olar.

Bir sözlə, Cəlil Məmmədquluzadənin əsərlərindəki tarixizmləri yekun olaraq bu şəkildə qruplaşdırmaq olar:vəzifə adı bildirənlər: nəçəmik, qazı, qaradovoy, miravoy, qlava,divanbəyi, pristav, çavuş, yasovul, çarvadar, müdərris, mərsiyəxan,konsul, qarovul, silistçi, vəzir, sultan, qubernator, dilmanc, yüzbaşı, mirzə, müdərris, mürəbbi, sazəndə, nəvazəndə, spextor, padşah,inspektor, çinovnik, mirab, istraxovoy, knyaz, müfti, imperator, vəliəhd,canişin və s.;Nümunələrə nəzər yetirək: Birdən qaçaqaç düşdü; dedilər "naçalnikgəlir" (6, 176); Xudayar bəy qazının sözünün cavabına bir qədər dikəlib və sağ əlinin şəhadət barmağım yuxan qalxızıb dedi (6, 56); Sabah yox,biri gün miravay pasrednik xana qonaq gələcək və urus həkiminin arvadı da gələcək və bunlardan savayı Dəmirtəpə pristavı da gələcək, Qulam xan da gələcək, Səfi xan da gələcək (6, 197); Əvvəl, yəni iki il bundan əvvəl Xudayar bəy qlava yanında çavuş idi (6, 51); Xan bu fikirdə idi -polis yasovulu dayandı qapıya və xam görcək dedi (6, 125); Tappıltı,şaqqıltı və çığır-bağır, qoyma, dinmə, çəkil, gəl, get, axırda bir yoğun çinovnik girdi həyətə, yeridi xanıma tərəf, sol əli ilə börkünü çıxardıb sağəlini uzatdı xanıma və xanımın əlini öpüb qonaqlarla bir-bir əl-ələ veribqalxdı balkona və girdi otağa (6, 176); Doğrudu, kəndə naçalnik də gəlib,silistçi də gəlib, lider də gəlib, qazı da gəlib, bəlkə qobumat da gəlibdi:amma nəinki hamısı birdən (6, 215); Qulluğumun adı dilmanclıq idi: yəni şikayətə gələn kəndlilərin sözünü naçalnikə rusca tərcümə elərdim,naçalnikin də sözünü türkcə yetirərdim kəndlilərə (6, 253); Yoldaşlarımın çoxu ruslar idi; ancaq bir-iki nəfər müsəlman mirzələri hərə öz işinə məşğul idi; Bu təbiidir: yaraşar ki, qəza naçalniki divanxanasında həmişə kəndli olsun; Mən bu fikrimi camaata dedikdə qabaqda duran kəndlilər belə bəyan etdilər ki, guya naçalnik divanxanasmdan hökm göndərilibGərmə-çataq yüzbaşısma ki, bu gün yəni iyun ayının ikisində, İrəvandakı kazak qoşunundan ötrü əlli dörd dənə yan tütəyi camaatdan yığıb göndərsin (6, 254); Mehriban padşahımızın yolunda oğlumu njaiukı saldatlığa verərəm, mən onu qurban da kəsərəm (6, 491); Cənab Molla Mövlam verdi, cənab inspektor məni vəkil edib sizə təklif edəm ki, həmin uşqolda həftədə iki saat şəriət dərsi deyib, ayda on iki manat yanm hüquq alasınız (6, 503); Axın lap naəlac qalıb, getdim bir qaradovoy çağırdım,oğlanı döyə-döyə çıxartdı eşiyə; Məhəmmədhəsən əmi kağızı çavuşa verib, dübarə düşdü atın döşünə və başladı ayaqlannı öpməyə; Ola ki, karvanın yanında gözətçi və çarvadar olmasın; Musiqi bəstəkarları da haman şeirləri notaya düzüb musiqiyə salıblar və hər ziyafət məclisində və hər bir toyda və qonaqlıqda sazəndə və sazəndələr çalırlar və xanəndələr də oxuyurlar (6, 287); Bir də qardaş bağışla sözün açığı, sən hara konsul hara; On-on iki il bundan irəli Məşədi İrəvanda başına yeddi-səkkiz müsəlman uşağı yığıb müdərrislik elərdi ve hemin Nəzərəli xanın ətrafındakı vəzirlər ibarət idilər bir dəstə ferraşdar ki,

əllərində şallaq küçə-bacanı gəzib, xanın əmrini rəiyyətə yemirdi (6, 233).Yuxarıda verilən nümunələr C.Məmmədquluzadənin «Danabaş kendinin əhvalatları», «Poçt qutusu», «Qurbanəli bəy», «Quzu»,Konsulun arvadı», «Danabaş kəndinin məktəbi» və "Xanın təsbehi" adlı əsərlərindən götürülmüşdür. Müəllif bu tarixizmlərdən həmin tarixi dövrdəki ictimai-quruluşun mənzərəsini yaratmaq və dövrün əşyalarıni adlandirmaq üçün istifadə etmişdir. ölçü, çəki adı bildirənlər: girvənkə, arşm, xalVar, desyatin və s.;Nümunələrə diqqət edək: Tez yarım girvənkə zəfəran tap (6, 175);Yoxsa, vallah, insaf və mürüvvətdən kənardır ki, Ağa bəyin, ya Cahangir*xanın* on min desyatindən özünə ban min desyatin də verməyələr (6,*287);* Kərbəlayi İsmayıl vəfat edib, doqquz ulaq, 23 qoyun, 7 keçi, iki talvar zəmi qoyub *getdi.*Ölçü, çəki adı bildirənlər tarixizmlərdən isə yazıçı «Qurbanəli bəy»,-Bəlkə də qaytardılar» və digər hekayələrində istifadə etmişdir.pul vahidi bildirənlər: şahı, abbası və s.;

Nümunələrə nəzər yetirək: Otuz girvənkəsi otuz abbası, bu altı manat,çıxaq doqquz şahısını, qalar beş manat on *bir şahısı (6, 61); Cibimdə* ancaq bir abbası gümüş pul var idi.Hər hansı bir tarixi dövrü canlandıran zaman yazıçıda yuxandaişlənən tarixizmləri işlətmək zərurəti yaranmışdır. Bu da əsərlərə canlılıq gətirmişdir.geyim adı bildirənlər: çanq, çarğat, duvaq, börk, çuxa və s.;Nümunələrə nəzər yetirək: İzdrasti! - və börkünü götürüb sağ əlilə calxızdı yuxan və qışqırdı (6, 176); Vəliqulu kənardan çömbəlib, başladı çarıqları çıxarmağa; Köhnə çarğat, köhnə ağ çit arxalıq - övrətin libası ancaq budur; Evin bir tərəfində təndir üstə duvaq, bir tərəfdə kürsü, üstə bir qədər də çörək qalanıb; Qoçaq kitabı gətirdi və çuxanı da məndən aldı.Bu tarixizmlərin adlanna isə müasir zamanda rast gəlmək mümkün deyil. Belə ki, bu geyimlər artıq mövcud deyil və tarixin müəyyən bir dönəminin yadigan olan mirasdır. Bu adlara isə yazıçının «Danabaş kəndinin əhvalatları», «Poçt qutusu», «Qurbanəli bəy» və s. əsərlərində rast gəlmək mümkündür: alət adı bilirənlər: çölmək, fərş, xərmən, şana, küləş, şallac.qəcəmədaş, çotka, aflab və s.;

Nümunələrə diqqət edək: Otaqların bir qüsuru yox idi, çünk:divarların kağızı təzə və təmiz idi, taxta fərşlər təzə şirlənmişdilər (6.139); On-on iki yaşında bir oğlan sol əlində bir çölmək sallaya-sallay-girdi içəri; Hətta burası da yadımdadır ki, xərmənlər təzə döyülürdü.Şənəm götürdü və başladı küləşi çevirməyə.dini anlayış bildirənlər: axund, əfəndi, dərviş, vaiz, mərsiyəxan.kərbəlayi, məşədi və s.; .Nümunələrə nəzər yetirək: Baş üstə! - və geyinib çıxdım həyətə və axundla bahəm getdik qonşuluqdakı hacı Cəfər hamamına (6, 203); Bu_iki pedaqoq bir neçə dəqiqə pıçıldaşandan sonra Ədülhəsənzadə Xəlili çağırdılar və müdərris Zəki əfəndi ona belə ded (6, 260).müəssisə adı bildirənlər: divanxana, karvansaray,

suc.sahibxana, darülfünun, seminariya, konsulxana, qəzavat, hərəmxana komissiya, dustaqxana və s.

Ədəbiyyat

1.Cəfərov S.Ə. Müasir Azərbaycan dili. Leksika. Bakı, «Şərq-Qərb», 2007, 192 s.
2.Həsənov H.Ə. Müasir Azərbaycan dilinin leksikası.Bakı,ADU, 1978, 62s.
3.Həsənov H.Ə. Müasir Azərbaycan dilinin leksikası.Bakı,«Maarif», 1987, 308 s.
4.Xəlilov B.Ə. Müasir Azərbaycan dilinin lcksikologiyası. Bakı,«Nurlan», 2008, 44s.

A.Yussifova

Grouping of archaisms used in works of jalil mammadguluzadeh over different fields

Summary

Vocabulary does not remain stable any time and is exposed to permanent changes. Like other languages we are faced with different riew in fact while compared with previous periods looking through lexicon of contemporary Azerbaijani language. As formation of new words in the language makes a pole of language change, the other pole comprises contraction of usage circle of words in the language; gradual

out-of-date and later leaving the language by words. These are called obsolete words and characterized differently. In ME appeared first instances of a continuous aspect, consisting of the verb be (n) and the first participle. A special future form, which started in OE, becomes in ME a regulars par of the tense system. Perfect forms are widely used in ME. The Subjunctive mood preserved in ME many features it had in OE. It was often used in temporal and concessional clauses. The passive voice was very widely developed in ME. As the verb weorfan disappeared the only auxiliary for the passive was the verb ben. Ben Participle II could express both a state and Azerbaijan language/

А.**Юсифова**

Группировка архаизмов использовала в работах джалила мамедкулизаде по различным областям

Резюме

Словарь не остается устойчивым любое время и выставлен постоянным изменениям. Как другие языки мы сталкиваемся с другим представлением фактически в то время как по сравнению с предыдущими периодами, просматривающими словарь современного азербайджанского языка. Поскольку формирование новых слов на языке делает полюс языкового изменения, другой полюс включает сокращение круга использования слов на языке; постепенный устарелый и более поздний отъезд языка словами. Их называют устаревшими словами и характеризованы по-другому.

В этой статье также рассматривается в некоторых произведениях Джалил Мамедкулузаде архаические слова,исторические слова,неологизмы,

и слова которые употребляются в обшенародном лексиконе.Некоторые слова

которые употебляется в словарном запасе Азербайджанском народном лексиконе,арабо-персидского происхождение обясняется отдельно,выражается ниже статье

Rəyçi: Nuriyə Rzayeva
Filologiya üzrə fəlsəfə doktoru ,dosent

İRADƏ ABDULLAYEVA
ADİU
İradə.@.mail.ru.

ƏKSMƏNALI SÖZLƏRİN İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ LEKSSİK-SEMANTİK VƏ MORFOLOJİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər:antonim , konsersivantonimlər, mütləq və ya kök antonimlər ,
Key words: antonym , condrodictory, contrary antonyms , absoluteorroot
Ключовые слова: антонимы, вопреки антонимы , абсалютные или корневые антонимы.

Həm ingilis , həm də Azərbaycan dilində antonimlərin təsnifi meyarlarını nəzərdən keçirdikdə görürük ki, ingilis dilində antonomlər əsasən onlarda olan daxili ziddiyətlərə əsasən təsnif olunur və çox vaxt onların quruluşu , mənşəyi ,hansı nitq hissəsinə aidliyi haqqında heç bir söz deyilmir. Misal üçün "Websters New Dictionary of Snonyms" lüğətinin giriş hissəsini götürek .Burada antonim adı altında götürülən sözlər altı qrupa bölünüb. Bölgü zamanı sözlərin nə dərəcədə bir-birinə zidd olması əsas götürülüb .Bu qruplar arasında iki qrupa daha çox yer ayrılıb ki, bunlardan birincisi "contradictory terms" digəri isə "contrary term" adlanır.Dilə daxil olan alınma terminlər terminoloji sistemli zənginləşdirir dildə Leksik alınmaların sayı artır. Dilə yeni gələn sözün dilin normalarına uyğunlaşması mürəkkəb linqvistik proses olduğuna görə sözlərin mənimsənilmə dərəcələri də müxtəlif səviyyədə özünü göstərir.Belə sözlər dilə yeni gəldiyinə yaxud müəyyən dildaxili səbəblərlə bağlı məhdud dairədə işləndiyinə görə yarım mənimsənilmiş alınmalar hesab olunur .Azərbaycan dilindəki ingilis mənşəli **absentizm, aqnostizm,bukletdoker, drenaj, dissident, klan,** və s.alınmalar belə sözlərdəndir.Bu tipleksik vahidlər semantik cəhətdən birmənalı olur, daha çox özgə reallığı əks etdiri və yeni anlayışların , əşyaların hadisələrin dilimizdə ifadəsində xidmət edir.Linqvistik təhlil göstərir ki , əsasən terminoloji leksikaya aidolan həmin alınmalar semantik cəhətdən sabitdir müəyyən funksional sahələrdə işlənir.Onlarda semantik dəyişmələr nadir hallarda baş verir.Azərbaycan dilində geniş dairədə istifadə olunan, hətta ümumişləklik qazanaraq dil daxil olan kifayət qədər ingilis mənşəli sözlər vardır.Belə alınmalar sözün leksik sistemində özünə möhkəm yer tutmuşdur.Büdcə, vaqon, vazelin, boks, yumor, ekspert, finiş, park, mağaza və s. alınma terminlər dilimizdə geniş işlənməkdədir.Bu sözlərin çoxu həm fonetik, həm də qrammatik cəhətdən assimilyasiyaya uğramışdır.Bu tip

alınmalar tam mənimsənilmiş leksik vahidlərdən sayılır.Dil əlaqələrinin linqvistik problemləri dəfələrlə diqqət mərkəzində olsa da,alınmaların semantik mənimsənilməsi hələ də kifayət qədər tədqiq olunmasıdır..Alınma sözlərin yeni keyfiyyət qazanması cəmiyyətdə baş vermiş dəyişikliklərlə millətlerarası əlaqələrin, o cümlədən dil əlaqələrinin genişlənməsi ilə bağlıdır. Müasir dövrdə sözlərin semantik sturukturunun genişlənməsi, onalrın yeni mənalarının yaranması müşahidə olunur.İngilis dilində alınmaların semantik cəhətdən genişlənməsi onların həyatımızın müxtəlif sahələrinə nüfuz etməsi prosesində baş verir.Termin alınan dildə ictimai-tarixi şəraitlə əlaqədar ilkin təbiətindən uzaqlaşmış, yeni məna kəsbetmişdir.Məsələn ‘’server’’ və ‘’servis’’ terminləri ;90-cı illərdə həm servis həm də server sözlərinin semantikasında dəyişmə baş vermişdir.Terminlər indi sosial-iqtisadi və başqa sahələrə aid anlayışları ifadə edir.*Server* - kiçik və orta biznesdə istifadə olunan, əsas məlumatları saxlayan və ötürən kompyüter mənasındadır.**Servis** sözünün daha iki mənası yaranmışdır;1.Məhsulun istehlakı və satışı sisteminin təkmilləşdirilməsinə yönəlmiş kompleks xidməti təmin marketinq fəaliyyətinin alt sistemi;
2.Sosioloji sorğu.Eyni hadisə özünü **server** termininə münasibətdədə göstərir.Bu termin də yeni məna qazanmış, müxtəlif sözlərlə yeni terminoloji birləşmələr əmələ gətirmişdir.İndi **server** internet şəbəkəsinə qoşucu kompyüter mənasında işlənir.İnternetə girmək üçün əvvəlcə serverə qoşulmaq lazımdır.Bunun üçün serverin telefon nömrəsi yığılmalıdır.Alınma leksika, o cümlədən ingilis dilindən alınma sözlər dilin leksik sistemində gedən proseslərdə fəal iştirak edir.Ümumişlək leksik vahid kimi alınmış söz terminləşə bildiyi kimi, alınma terminin xüsusi leksik vahid səciyyəsini qazanması da mümkündür.Müasir dövrdə terminoloji mənanın itirilməsinin tez-tez baş verməsi tədqiqatlarda qeyd olunur.İngilis dilində alınma sözlərdən publisistik mətnlərdə, mətbuatda tez-tez istifadə olunması olalrın semantikasına əsaslı təsir göstərir.Mətbuatda işlənən alınma sözlərin semantik sturukturunda dəyişmə baş verir.Sözün məna həcminin-genişlənməsi yeni semlərlə zənginləşməsi özünü göstərir.Belə hallarda determinləşmə semantik genişlənmənin təzahür amilidir.Bir çox innovasiyaməcazi mənada istifadə olunur, yeni mənalı söz müxtəlif semantik qrupun sözləri və söz birləşməsi tərkibində işlənir.Semantik derivasiya prosesində mənanın genişlənməsi əsas yer tutur.Alınma sözlərdə mənanın genişlənməsində ilkin leksik semantik variantın arxiseminin mumiləşməsi bəzi sözlərdə leksik semantik paradiqmasının hüdudlarından kənara çıxmasda mühüm rol oynayır.Məsələn;**Treninq** yarış dövür üçün orqanizmin maksimal hazırlığını təmin etmək üçün edilən məşqlər nəzərdə tutulur.Arxisema *idman meşqidir.*Müasir dövrdə sözün mənası genişlənmiş vəmüxtəlif fəaliyyət sahələrində işə hazır olmaq üçün məşqləri, formanı

saxlamağı əhatə etməyə başlamışdır. Beləliklə də,alınma sözlər dilin öz sözləri kimi dəqiqləşir, aydınlaşır.Dil daşıyıcıları arasında yayılır.Alınma söz yeni dilin leksik-semantik və qrammatik sisteminə uyğunlaşır.Söz müxtəlif leksik, frazeoloji sintaktik birləşmələrdə istifadə olunur, sözdüzəldici morfemlərlə işlənmə imkanları artır, determinləşmə və terminləşmə prosesində iştirak edir. Azərbaycan dilinə keçən belə terminlərin çoxu ümumişək leksik vahidlər cərgəsində yer almış, mənimsənilmiş, dilimizin müxtəlif sözdüzəldici şəkilçilərini qəbul edərək, yeni sözləryaratmışdır.- N.Məmmədli yazır ki, alınmaterminin nöz yaradıcılıq məhsuldarlığı , müntəzəm işlənməsi , məna anlamının genişlənməsi və s. əlavə əlamətləri törəmə kimi qəbul edilməlidir.A.R.Mayorovun fikrincə , "alınma söz təkcə yeni mənalarını vəya söz yaradıcılığı məhsuldarlığını genişləndirilməsi ilə deyil,dil sisteminə daxil olduğu üçün bu keyfiyyətləri qazanması yaxudqazana bilməsi ilə dildə möhkəmlənir.Y.R.Krısin isə qeyd edir ki ,sözün funksional aktivliyini semantik müstəqillik təyin edir. Azərbaycan dilindədə alınmaların müstəqillik qazanması ,dildə sabitləşməsinin ən mühüm səbəbləri dubletlik yaratmaması, mənaca differensiallaşmasıdır. Sondövrlərdə kompyuterin insan məişətinə daxil olması hesablama texnikasını sürətlə inkişafı bu sahədə alınmaların sayının günbəgün artmasına zəmin yaradır.Kompyuterin məişət texnikasına çevrilməsi alınma sözlərin də hesablama texnikası terminləri olmasına baxmayaraq ümumişlək leksikqatda yer alması ilə şərtlənir.Məsələn, drayver, monitor, sayt, klaviatur, bord, fotoşop, veb-sayt, veb-dizayn, internet, internet-klub, intert-klas, vs.

Müasir Azərbaycan dilində İngilis dilindən ardıcıl və artan sayda sözalma terminologiya sahəsində getdikcə artır.Müxtəlif elm sahələrinin imkişafı onlarda terminoloji bazanın zənginləşməsinə səbəb olur.Dilin terminoloji sisteminə, yeni terminlərin gətirilməsinə müxtəlif aspektlərdən yanaşmaq mümkündür.Yeni terminə yaranan tələbatın ödənilməsi üçün istifadə olunan termin yaradıcılığı yollardan biri də termin almadır.Terminalma terminin başqa dildən hazır alınmasıdır.Azərbaycan dilinə son illərdə yeni terminlər hazır şəkildə ingilis dilindən alınır.Siyasi, iqtisadi sosial sahələrə aid terminlərin dilimizə keçməsi artmışdır.Bunun əsas səbəbi ölkənin yeni demokratik inkişaf yolunu seçməsi,yeni iqtisadi siyasəti qəbul etməsi ilə əlaqədardır.Lakin, Azərbaycan dilinə ingilis dilindən gələn terminlər yalnız bu sahələrlə məhdudlaşmır.Müxtəlif elm sahələrinə aid terminoloji lüğətlərin araşdırılması zamanı son dövrdə ingilis dilində alınmaların sürətlə artması özünü göstərir.Ancaq dilin quruluş baxımından fərqliliyi ingilis dilindən alınma terminlərin unifikasiyasına xüsusi diqqət tələb edir.Beləliklə də, alınma sözlər dilin öz sözləri kimi dəqiqləşir, aydınlaşır.

Ədəbiyyat

1.Арнолд И.В. Лексикология современного английского языка. М..1973
2.Комиссавар В.Н. Словар антонимов современного английского языка Введение.М... 1964.
3.Уримцева А.А.<<Слововлексико – семантической системе языка>>Мюю1968.
4.Webstersdictionaryofsynoyms.USA.

I.Abdullaeva

The opposite words which are using in English and Azerbaijan languages and their characteristic feature

Summary

Antonyms (Greek “anti”-opposite, “onyma”- name) are words belonging to the same part of speech, identical in style and having opposite denotative meanings.For example: “light”- Antonyms are usually believed to appear in pairs.Yet, this is not true in reality.For instance, the adjective “cold” may be said to have “warm” fro its second antonym, and the noun “sorrow” may be very well contrasted with “gaiety”.We can base on the definition antonyms as two or more words belonging to the same pat at some contexts.However, polysemantic word may have an antonym or several antonyms for each of its meanings. Morphological classification of antonyms includes two types of antonyms: absolute or root antonyms (with root polarity), and derivational antonyms (which has morphems with polar meanings).As for the same antonymic pair, they reveal nearly identical spheres of collocation. Almost every word can have one or more synonyms. Comparatively few have antonyms.Antonymic pairs, also irrespective of part of speech, concern direction and position in space and time.The main criterion of antonyms is steady using their pairs in contexts.Antonym pairs thread Modern English.There is the describing of different types of oppositeness, and subdivides them into three types: complementary, antonyms and converseness. Complementares (like other natonyms) are regularly contrasted in speech and the elements of a complementary pair heve similar distribution. Conversives (or relational opposites0 denote one and the same referent or situation as viewed from different points of view, with a reversal of the order of participants and their roles.In English and Azerbaijani languages Arnolds and a number of other scholars opinions and classification of antonyms, members of the human body, as well concerning the names of dishes and drinks, including words that express the concept of time and space ass well as some abstract

nouns and ete.Have been taken into acount.The article montioned correction of antonyms,noted the correction of the correction of the words with the addition of prefixes-un -int -il -im -ir -dis.There were given a value of antonyms.The opposite words which are using in English and Azerbaijan languages and their characteristic feature

И.Абдуллаева

Антонимные слова в английском и Азербайджанском языке, и их лексические и семантические особенности

Резюме

Антонимы-это слова одной части речи, различные по звучанию и написанию, имеющие прямо противоположные лексические значения. Лексические единицы словарного состава языка оказываютса тесно связнными не только на основании их ассоциативной связи по сходству или смежности как лексико- семантичиские варианты многозначного слова.Большинство слов языка не содержит признака, способного к противопостаблению, следовательно, антонимические отношения для них невозможны, однако, в переносном значении они могут обрести антоним.

Таким образом, в котекстуальной антонимии антонимические отношения слов с прямым значением возможны, и тогдо эти пары слов несут эмфатическую нагрузку и выполняют особую стилистическую функцию. В статье также исследуется факты антонимных дублетов, сыгравших немаловажную роль в возникновении внутрисистемных лексических параллелей.

Антонимные дублеты проходят процесс своего становления на почве фонетических, фономорфологических вариаций одного и того же слово, которые позже переливаются в семантически дифференцированных параллелей. На раннем этапе данного рода антонимные дублеты отождествляют собой особую группу внутрисистемных параллелей. Затем, по пришествию времени они могут переходить в ранг межсистемных параллелей.

Rəyçi: Adilə Zeynalova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

MÜZƏFFƏR İBRAHIMOV
Gəncə Dövlət Universiteti
gunay-ismayilova-gdu@rambler.ru

TYPOLOGICAL DIFFERENCE BETWEEN THE CONCEPTIONS "TEXT AS THE OBJECT OF GENERAL TRANSLATION THEORY" AND "THE TEXT OF THE ARTISTIC WORK AS THE OBJECT OF ARTISTIC TRANSLATION THEORY"

Açar sözlər: tipoloji, nəzəriyyə, funksional, üslub, ədəbi dil.
Ключевые слова: типология, теория, функциональный, стиль, литературный, язык.
Key words: typological, theory, functional, styles, literary language.

General translation theory is formed on the basis of investigations of the translation activities keeping all functional styles as its object. Its some theses can be prepared on the basis of translation of the art works, but these are discussed out of the area of the functional - stylistic typology of the texts being in the modern literary language, because they are referred to in an area of the art - art of the word, or artistic literature. Problems of the artistic texts are investigated with artistic translation theory being a special linguistic science. Differentiation of this science from the general translation theory is therefore possible that, at least, an artistic text will be able to be compared with all the rest and carries not artistic character (look, functional - their stylistic typology is marked below). But, then what contains the opportunity of this kind of typological comparing ?

It is certainly, possible to refer the definition of any text shown above, to the artistic texts. They are no doubt, unity of a carried out idea - subject character, or super sentence unity of the author characterized with the community of subject and intention unit. But essential feature of these texts is not information connecting all functional-stylistic kinds of the literary language; it is the aesthetic influence to the readers (or to the listeners). For artistic texts namely, being known how is important, not being known what for. Functional-stylistic kinds (publicistic, popular-scientific and negotiation) being in some modern literary languages are close to artistic texts in some degree, but despite of it, they do not lose features. But, in what does the aesthetic influence of the artistic texts show itself ? It is very necessary for theory of (the) artistic translation to be elucidated of this problem, because artistic text being in the SL and variant in the TL must influence their recipients' aesthetics in the same degree. After a little while, we will speak about the adequacy factor of the original considered one of the basic criteria

in the valuing of the artistic translation and aesthetic influences of the translation variant.

When answering to the question mentioned before, we must not forget that aesthetics is the science about the meaning and the form of the beauty being “in the artistic creative activities, nature and life”. Artistic literature being one kind of the art- art of the word, is close to its other kind (music, a painter, architecture etc), in this meaning - Any work about artistic literature resembles works about another kind of the art in certain means. Some analogies existing among them also will be able to help us to understand the essence of the aesthetic influence of the works of artistic literature. Panoramas of 1.1.Levitan and A.I.Kuinc awake beautiful senses in us, that is, these works influence aesthetics not only for the beauty of the panorama of nature described, but also for being brought this beauty to us with the help of the expressive means by the painter. The work of "Ivan Qrozni and his son Ivan" influences hard and exhausting firstly for connection with the real events happened far back in the past. The son agonizing with innocence in the murder father's embrace, Ivan Grozny’s complete insensitive look, soils of blood in his face. All of these incite us to wander from the same panorama, but we try to perceive beautiful art forms found for becoming true for the creative imagination of the art painter and ideas expressed with their help and namely take aesthetic pleasure in results of this kind of perception. For years the reason of the strong aesthetic influence of this drawing to spectators demonstrated in the Tretyakov gallery is namely this. We come across the similar process in the perceiving the artistic texts (this kind of texts will be represented only with the fragments in our analysis, for the purpose of general abbreviation of the expressed material).That is to say, as connected with any artistic work, basic function of the artistic text also consists of aesthetic influence to the reader (or to the listener). No doubt, an artistic text is completely multi-functional: that conveys both the communicative function between the author and the reader (listener), and also cognitive function reflecting the reality better than special investigations, helped us perceiving life. Despite of it, specification of the artistic work first of all consists of the aesthetic influence to the recipient. While giving the definition of conception **"Artistic text",** we generally can use the method of adding namely specific signs of artistic texts to the definition of the text: text - the aesthetic influence on the reader (listener) being main function is called artistic text (text of the artistic work). Artistic function of the text is realized on the basis of being become aesthetics of the reality with the help of a more adequate expressive mean for forming any emotional effect by the author (poet or writer). Becoming aesthetics of the reality described in the examples mentioned above is achieved by the way of using hyperbola in the description of poetic styles - becoming poetical part of the reality (winter view of the city in the A.

Bloch's poem) and the negative signs of the spiritual decay of the personality. Now, let us come back to the theory of the artistic translation and mention once more that, in defining the valuable criteria of the quality of the artistic text, namely its aesthetic function assumes decisive importance.

MAJOR CRITERIA IN EVALUATING ARTISTIC TRANSLATION

The major criterion in evaluating artistic translation is the adequacy of the aesthetic impact between the original (the text in the SL) and the translation (the text in the TL). So artistic translation can be adequate, partially adequate, non- adequate in a reasonable degree and consequently totally non-adequate. It goes without saying that any form of translation is the result of the translator's intellectual and creative activity. And the opinions told about the translation being whether lucky or unlucky, good or bad, are considered to be subjective and nonexpressing meaning of the goal which was put forward by the translator. In order to get high adequacy in aesthetic influence for a reader or a listener, firstly the author's intensions and the thematic aspect of the original have to be cleared up. The great Russian translator V.A.Juckovsky wrote while evaluating the creative means of translation: 'In poetry a translator is a slave while an opponent in prose.' But evaluating a translator's role in such an abstract way doesn't seem convincing. Perhaps a translator should always be on the author's side and endeavour to understand his/her feelings and way of life. But in this case the translation may have the same aesthetic impact as the original one. It's impossible to consider such a complex problem as the confrontation of the original and the translation within a chapter. Simultaneously the major points and consequences of such a research have to be mentioned here.

A translator should find adequate methods for preserving the characteristics of the author's idiolect or the work which he/she translates and for delivering them to a reader besides realizing idea-thematic aspect of the original (the text in the SL). Apart from that it's necessary to preserve its rhythmic structure and rhyme system while translating any work in verse. But not always it's possible to do that. A typological problem of any artistic system can only be solved on the basis of the typology of its artistic images. Some artistic/literary images related to various forms of national culture are often based on lexical combinations denoting indirect connections, especially associative-referential relations with reality. On the basis of initial associative-referential relations with reality, we can have concrete visualization of the words used in artistic works and the realizations which are suitable in assisting to get the deep psychological state referring to the author or the leading roles/heroes. We can call such an artistic form *initial* with assurance.

In order to achieve a TL text which is adequate to the original from the aesthetical point of view, the translator should choose word-methods of both primary and secondary artistic form attentively. It requires attention to the author's idiolect. 'On the basis of the term *idiolect* a complex of formal and stylistic features referring to the separate conveyer of the language is understood.' For a translator 'the separate conveyer of the language' is the author of the work from which he/she translates. It goes without saying that the formal and stylistic features of a writer or a poet can be expressed in phonetical, wordforming, morphological, lexical, phraseological and syntactic levels. So here from the aesthetical point of view, we can count the factors necessary for the creation of the translation adequate to the original in the process of interconnection:realizing the idea-thematic content of the original and penetrating into the world of intensions belonging to the author (if the translator is the author's opponent or enemy)

1) careful attitude towards the artistic system and the primary and secondary means of the original

2) such accuracy towards the author's idiolect

It should be noted that dealing with artistic translation requires general high- level awareness on the part of the translator; he/she should know all the major works by the poets or the writer whose works he/she is going to translate, and be aware of the place or rate of the author's creative activity in the general cultural context of the period which he/she lives in.

Bibliographical references

1. Tawsett, Peter (1997) Translation and language, Manchester, St.Jerome Publishing.
2. Catford, J.C.(1965) A Linquistic Theory of Translation, Oxford, O.U.P.
3. Robinson, Douglas (1997) Western Translation Theory, Manchester, St.Jerome Publishing

M.İ.İbrahimov

"Mətn ümumi tərcümə nəzəriyyəsinin obyekti kimi" və " bədii işin mətni bədii tərcümə nəzəriyyəsinin obyekti kimi" anlayışları arasında tipoloji müxtəliflik

Xülasə

Milli mədəniyyət formaları yalnız onların öz mənbələri deyil, başqa millətlərin məxsus olduğu mədəni sərvəti, fayalı etməklə öz növbəsində onların zənginləşməsinə müsbət təsir edir. Bədii tərcümə mədəniyyəti

millətlərin mənsub olduğu gözəl, mədəni yanaşmanın böyük bir hissəsidir. Bu təsadüfi deyildir ki, tərcüməçilər insanlar arasında körpüsalanlar adlandırılır.Tərcümə və tərcüməçi nəzəriyyəçisi Y. Ryaşentsev tərcümə nədir? sualına aşağıdakı kimi cavab vermişdir: "əgər iş məqsədli yaranmışdırsa, dil orijinal dil etdiyi qədər maksimum dərəcədə təsirə nail olarsa, onda o real tərcümə hesab oluna bilər".Tərcümə mexaniki deyil, yaradıcı işdir. Tərcüməçinin bədii gözəllikdə dərin duyğusu olmalı, yaxşı tərcümə üçün gücünü, aydın düşüncəsini bu işə həsr etməlidir.

Əlbəttə, yuxarıda göstərilən hər hansı bir mətnin tərifini bədii mətnlərə istinad etmək mümkündür. Şübhəsiz ki, həyata keçirilmiş bir fikir birliyi - mövzunun və niyyət vahidinin cəmiyyəti ilə xarakterizə olunan müəllifin mövzu xarakterini əks etdirirdi.

М..Ибрагимов

Типологические разнообразия между понятиями «текст как предмет общей теории перевода» и « текст литературной работы как объект теории литературного перевода»

Резюме

Национальные культурные формы оказывают положительное влияние на их обогащение не только своими источниками, но и культурными богатствами самих наций. Культура художественного перевода - большая часть прекрасного культурного подхода, к которому принадлежат народы. Не случайно переводчики называются мостами.

На вопрос «Что такое перевод?» теоретика перевода и переводчик Я. Ряшенцева ответил следующим образом: «Если в коммерческих целях, есть язык, на языке оригинала дел для достижения максимального эффекта, то его можно считать реальным переводом.»

Перевод является механическим, но не творческим. У переводчика должно быть глубокое чувство художественной красоты, посвятить свою власть хорошему переводу и его ясное мышление к этой работе.

Конечно, определение любого текста, упомянутого выше, можно отнести к литературным текстам. Несомненно, консенсус был отражен в теме автора, характеризующейся предметом и единицей намерения.

Rəyçi: Sevda Kazımova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

ƏFSANƏ HƏZİYEVA
AZMİU
efasaneheziyeva@mail.ru

"SİYASİ KORREKTƏLIK" – KALKA ÜSULU İLƏ YARANAN "YENI NƏSİL" TERMİNLƏRIN ANLAYIŞ MƏNİMSƏNİLMƏSİNİ ŞƏRTLƏNDİRƏN ƏSAS FAKTORLARDAN BİRİ KİMİ (PROBLEMİN NƏZƏRİ ASPEKTLƏRİNƏ DAİR)

Açar sözlər: kalka üsulu, terminologiya, "siyasi korrektəlik", postmodernizm, multikulturalizmlizm, liberallıq, tolerantlıq.
Ключевые слова: способ кальки, терминология, «политическая корректность», постмодернизм, мультикультурализм, либеральность, толерантность.
Key words: method of calquing, terminology, "political correctness", postmodernism, multiculturalism, liberality, tolerance

Məlumdur ki, terminoloji sistem cəmiyyət həyatında baş verən dəyişikiklərə, elmi-texniki tərəqqi və mədəniyyət və incəsənət yeniliklərinə qarşı, bir növ həssas "barometr" rolunu oynayır.Bu və ya digər dildə müəyyən zaman kəsiyində baş verən terminoloji zənginləşmənin məna qrupları üzrə təhlili həmin dilin daşıyıcısı olan toplumun inkişaf səviyyəsini, istiqamətlərini təxmin etməyə imkan verir. Bu mənada, əsas etibarilə XX əsrin sonlarından günümüzədək dilimizə kalka üsulu ilə daxil olmuş siyasi korrektəlik terminoloji inventarının təhlili ölkəmizdə yürüdülən daxili və xarici siyasətin yeni sosial prioritetlərini və eləcə də ideoloji platformunun konturlarını müəyyənləşdirməyə imkan verir. S.Sadıqovanın da qeyd etdiyi kimi, "ictimai həyatda, elm və texnikada baş verən bütün dəyişikliklər, yenilikər dildə, xüsusən onun terminoloji leksikasında öz əksini tapır" və elə bu səsəbdən də, kalka üsulu ilə terminlərin yaranması intensiv xarakter kəsb edir.[1; 85]

Müasir terminoloji mənimsəmə faktları sırasında kalka üsulu ilə zənginləşməni təşviq edən əsas tendensiyalardan biri "siyasi korrektəlik" tendensiyasıdır. Məlumdur ki, postmodern epoxa kimi dəyərləndirilən müasir Dünya sivilizasiyasının əsas əxlaqi-etik və ideoloji-sosial doktrinası dözümlülük və fikir plüralizminə istinad edir. Müasir Dünya əxlaqı-etik doktrinası hər bir şəxsə, dərisinin rəngindən, aid olduğu etnik qrupdan və ya dini konfessiyadan asılı olmayaraq, eləcə də çalışdığı məsləklə bağlı öngörüşlərdən tamamilə kənar olan münasibət standartını ortaya atmışdır. Bu doktrinaya görə, hər bir insan övladına onun insani layaqətini ön plana alan yanaşmanın sərgilənməsini tələbi qoyulur.

"İngilis dilindəki yeni söz və anlayışlar lüğəti"ndə qeyd edildiyi kimi, "siyasi korrektəlik" anlayışının formalaşması "mədəni plyuralizm ideyalarının meydana gəlməsi ilə bağlıdır". Lüğətdə daha sonra bildirlir ki, siyasi korrektəlik özlüyündə "bütün etnik və seksual azlıqların sosial və siyasi həyatdakı nailiyyətlərinin etirafı, habelə mədəniyyət və incəsənətdə onalrın proporsional şəkildə təmsil olunma hüquqlarını" ehtiva edən yeni ideologiyaya istinad edir [2]. Nəticədə daha öncələr işlək olan bir çox anlayış və terminlər öz evfemistik alternativi ilə əvəzlənir. Məsələn, ***physically challenged, mentally challenged, financially challenged , children with learning difficulties // children with learning disabilities,developmentally inconvenienced, cerebrally challenged, increasingly distracted, housekeeper, hairstylist, beautician***

Nümunələrə diqqət edək:

For the ***physically disabled****, barriers can range from blocked wheelchair ramps, to buildings without lifts, to inaccessible toilets, to shops without step-free access*. (The Guardian, 14 February, 2018) [16]

Almost two-thirds of parents of ***children with a learning disability*** *say that they have missed a social engagement because of fear about what the public reaction to their child will be, a survey has found.* (The Guardian, 30 Novenber, 2016) [17].

Zamanla həmin yeni nəsil terminlər kalka üsulu vasitəsilə Azərbaycan terminoloji inventarına daxil olaraq ölkəmizdə tolerantlıq siyasətinin yürüdülməsi və multikulturalizm ideyalarının təbliğ etdirilməsilə öz mövqeyini daha da möhkəmləndirmişdir. Kalka üsulunun yeni nəsil siyasi korrektəlik terminlərinin mənimsənilməsindəki oynadığı rol bu üsulun ən çevik və mobil terminoloji zənginləşmə yollarından biri fikrini əyani şəkildə təsdiqləmiş olur.

*Elmi Şuranın qərarı ilə İnstitutda "****Fiziki imkanlari məhd****ud olan şəxslərin hüquqları" adlı kafedranın açılması bu qəbil tədbirlərdəndir* [18]

Müstəqilliyin əldə edilməsindən sonrakı dövrdə ***sağlamlıq imkanları məhdud*** *insanlar üçün dövlət tərəfindən verilən müavinət və yardımların növü və miqdarı artmışdır ki, bunun da nəticəsində bu qrupun sosial rifahı yaxşılaşmışdır*. [19]

Uşaqlarınızı "başqa uşaqlarla" müqayisə etməyin və ***öyrənmə çətinliyi olan uşaqların*** *bu mövzuda çox daha həssas ola biləcəyini unutmayın*. [20].

XX əsrin ən görkəmli filolosoflarından olmuş və bilavasitə dil fəlsəfəsi, dil və ünsiyyət sahələri üzrə önəmli araşdırmalara imza atmış H.P.Qrays (H.P.Grice) özünün əsasını qoyduğu "İmplikaturlar nəzəriyyəsi"ndə "Nəzakətli ol" – kimi göstərişləri (yönləndirmələri) konvensional implikaturlar statusunda dəyərləndirmişdir. Alimə görə, nəzakətlilik,

xüsusilə də nitq prosesində, verbal ünsiyyətdə təzahür tapan nəzakətlilik cəmiyyətdaxili etik-əxlaqi normalarla tənzimlənir və onun əsasında qarşı tərəfin şəxsiyyətinə hörmət və müsbət dəyərləndirmə durur [3]. Məhz, nəzakətlilik prinsipi qarşı tərəfin fiziki, mental qüsusrunu, maddi çatışmamazlığını və ya sosial iyerarxiyadakı aşağı mövqeyinin səciyyələndirilməsi əsnasında, heç vəchlə onun (qarşı tərəfinin) ləyaqət hissinin alçaldılmasına yol vermir. Əksinə, hətta həmin durumu optimistik aspektdən dəyərləndirməklə evfemistik terminologiyanı formalaşdırır ki, bu da son nəticədə qarşı tərəfin özgüvən hissinin, özünə inanmının artmasına və bir cəmiyyət fərdi əlaraq, özünün imkan məhdudluğunu bir o qədər də hiss etməməsinə şərait yaradır.

Heç şübhəsiz ki, müasir tərəqqipərvər Dünya üçün artıq yeni nəsil "siyasi korrektəlik" terminləri bir norma statusu əldə etmişdir. Norma və siyasi korrektəlik qarşılıqlı əlaqəsi ilə bağlı məsələdə bir qədər haşiyəyə çıxaraq qeyd edək ki, bəzi dilçilər, o cümlədən, A.P.Minyar-Beloruçova və M.Y.Pokrovskaya siyasi korrektəliyi ədəbi dil normaları üçün bir növ təhlükə hesab edir. Belə ki, dilçilər siyasi korrektəliyin ədəbi dil normaları üçün labüd olan variantlılıq imkanlarını məhdudlaşdırdığını əsas gətirərək bunun ədəbi dilin ifadəliliyi və zənginliyini şübhə altına ala biləcəyindən ehtiyat edirlər [4 ; 29]. İlk baxışdan paradoksal görünsə də, məhz direktivlik məqamı, yəni siyasi korrektəliyin tələbləri ilə müəyyən terminlərdən imtina tələbi və onların digər terminlərlə əvəzlənməsi şərti, özlüyündə terminologiya və elmi üslub üçün yetərincə əlverişli şərait yaradır. Belə ki, məlum olduğu kimi, terminlər alternativlilik və çoxmənalılıq kimi xüsusiyyətlərdən, habelə ekspressiv-üslubi konnotasiyadan məhrum olmalıdırlar.

Dərin anlamda "siyasi korrektəlik" tendensiyası postmodern fəlsəfəsinin real həyatdakı təzahüründən başqa bir şey deyil. Bu mənada qaçınılmazdır ki, cəmiyyətdə baş verən dəyişiklikləri bu və ya digər şəkildə özündə əks etdirən dil sistemi, xüsusilə də onun ən mütəhərrik səviyyəsi olan leksik yarus bu tendensiyadan təsirlənməsin. Məhz dil sistemindəki təsirlərindən çıxş edən A.Q Stixin dilçilik aspektində bu kimi tendensiyaların "siyasi korrektəlik" termini ilə deyil, "kommunikativ korrektəlik" istilahı ilə adlandırılmasının daha məqsədəuyğun ola biləcəyini önə sürmüşdür. [5 ;138-142].

Bu dəyişimlər özlüyündə koqnitiv-praqmatik planda dəyişimlərin labüd nəticəsi kimi ortaya çıxmaqla bərabər, daha sonrakı mərhələdə yeni koqnitiv-praqmatik dəyişimləri də sanksiyalaşdırmış oldu. Liberal terminologiya dil – təfəkkür əlaqəsi və qarşılıqlı şərtlənməsi zəminində düşüncələrdə müəyyən "ideoloji inqilaba" da yol açdı. Görkəmli rus siyasi texnologiyalar mütəxəssisi Q.Pavlovski "Yeni siyasi korrektəlik – münaqişə

dilinə qarşı" adlı məqalısində cəmiyyət daxilindəki qarşıdurmanın ilk islah "pultunun", başlanğıc nöqtəsinin məhz dildən qaynaqlandığını xüsusilə vurğulamışdır. O, dildə ideoloji, dini, etnik, sosial konfrontasiyalara yol açan zərərli leksikanın siyasi korrektəliklə seçilən terminologiya əvəzlənməyəcəyi təqdirdə düşüncələrdə inqilabın mümkünsüzlüyü qeyd etmişdir [6]. Göründüyü kimi, müəllif xoşgörüş leksikasının məhz "siyasi korrektəlik terminologiyası" olduğunu, insanların dini, irqi, etnik, sosial kimliyinə görə aşağılayıcı leksikanın isə "münaqişə dili" olması qənaətindən çıxış edir. Bu məqamda Q.Harmanın fikirlərini xatırlatmaq kifayətdir. Alimə görə, "dil koqnitiv elmin əsas tədqiqat predmetini təşkil edir. Belə ki, məhz dil vasitəsilə idrak firkin ifadəsinin başlıca vasitəsinə çevrilir. Beləliklə də, dilin tədqiqini əslində idrak prosesinin tədqiqi işinin müəyyən mərhələsi kimi də nəzərdən keçirmək olar" [7 ;259]. Siyasi korrektəliyin və siyasi korrektəlik əsasında meydana gələn yeni nəsil terminoloji sistemin tədqiqi də, əslində təxminən son iki əsrdə insan təfəkkürünün uğradığı dəyişimlərin xronologiya və "xəritəsi"ni izləməyə imkan verir. İzləyəcəyimiz kimi, "siyasi korrektəlik" əsasında terminlərin meydana gəlmə və digər dillər tərəfindən mənimsənilmə tarixi, əslində postmodern dünyanın yeni liberal ideyalarının, siyasi tolerantlıq, dini dözümlülük prinsiplərinin yayılması tempinə parallellik təşkil edir. Əgər xatırlasaq ki, bu ideyaların nəşət tapması XX əsrin təxminən 20-30-cu illərindən öz kövrək addımlarını atmaqla və daha sonrakı onilliklərdə artan templə vüsət qazanmaqla yayılıb, bu zaman əminliklə demək olar ki, əsl mənada "siyasi korrektəlik" idealogiyası yayılması və müvafiq terminoloji inventarın formalaşması yalnız XX əsrin II yarısından etibarən ciddi məcraya yönəlmişdir.

Məlumdur ki, ilk dəfə "siyasi korrektəlik" temini 1793-cü ildə Ceyms Vilyams tərəfindən Ali Məhkəmədə səsləndirilmiş və müasir semantik tutumundan bir qədər fərqli, ilkin nominasiya intensiyasına uyğun anlam kəsb etişdir: "**Is a toast asked? 'The United States,' instead of the 'People of the United States,' is the toast given. This is not politically correct**." [8]

Coşua Florensin (Joshua Florence) "siyasi korrektəlik" anlayışının tarixi ilə məşğul olmuş ABŞ alimi Rut Perriyə (Ruth Perry) istinadən qeyd etdiyi kimi, "siyasi korrektəlik" ritorikasında əhəmiyyətli dəyişiklik (yəni, o cümlədən, yeni nəsil "korrekt" terminlərin leksik dövriyyəyə salınması – Ə.H.) yalnız XX əsrin 60-cı illərdən etibarən mümkün olmuşdur [9]. Xatırladaq ki, XX əsrin 60-cı illəri ABŞ-da pasifist çıxışların aktivləşdiyi, müharibə əleyhinə kütləvi nümayişlərin səngimək bilmədiyi və eləcə də "seksual inqilab" kimi adı tarixə keçmiş yeni gender stereotiplərinin formalaşması mərhələsi kimi səciyyələndirilə bilər. Həmin onillik təkcə ABŞ tarixində deyil, eləcə də sonrakı tarixi gedişatın əyani şəkildə nümayiş etdirdiyi kimi, bütövlükdə

Dünya tarixində yeni epoxanın başlanğıcının əsasını qoymuşdur. Bu epoxa isə özü ilə yeni terminoloji inventar gətirmişdir.

A.Y.Seqedanın da qeyd etdiyi kimi, siyasi korrektəlik yanaşmasının tərəfdarları dünya tarixinin "ağdərili kişi əksriyyəti" tərəfindən yazıldığını və bu səbəbdən də müvafiq terminoloji inventarın ciddi korrektələrə ehtiyac duyduğunu vurğulayırlar. Həmin korrektələr fərqlilikləri ilə seçilən (istər etnik, irqi, seksual, fiziki, əqli-mental və s.fərqlilikləri ilə seçilən) insan qruplarının arzu və istəklərinə və ümumilikdə layaqətinə daha həssaslı yanaşmanın və bu yanaşmanın əks olunduğu terminoloji bazanın formalaşmasını labüd edir [10;164-166]

Təsadüfi deyil ki, siyasi korrektəlik ideologiyasının başlıca şüarı "**Watch What You Say**" ("Nə danışdığına fikir ver") yanaşmasıdır və bu yanaşma özlüyündə siyasi və sosial həyatdakı "kəskin bucaq"ların hamarlaşdırılması məqsədini güdür [11;150-155]. Başqa sözlə desək, siyasi korrektəlik və onun terminoloji inventarı təkcə insan layaqətinin keşiyində durmayıb eləcə də, kökündə ziddiyyət nüvələri olan qruplar arasında konsensusun əldə edilməsinə ciddi yardımçı olur. Məsələn, ingilis dilinin ABŞ variantında XX əsr ərzində müçahidə edilən **Negro → black→ African-American** terminoloji keçidi təkcə afroamerikalıların heysiyyatının qorunması məramına xidmət etmir. Bu keçidlər eləcə də XX əsrin ortalarında xüsusilə kəskinləşmiş irqi qarşıdurma vəziyyətinin "hərarəti"nin aşağı salınması məqsədini də güdürdü.

Özlərinin "Are You Politically Correct?" kitabında F.Bekvit və M.Bauman siyasi korrektəlik anlayışının mahiyyətininə aydınlıq gətirərək onun ("siyasi korrektəliyin" – Ə.H.) "universitet təhsilinin əsaslarını şübhə altına alan" yeni ideoloji görüşlər toplusu olduğunu önə sürürlər. Belə ki, həmin yeni görüşlər ənənəvi cins, sinif, irqi, mədəni və fərqlilikləri" əldə edilmiş obyektiv biliklər sistemindən kənar və daha fərqli dəyərləndirir [12;9]. Məsələn, obyektiv gerçəklik və ənənəvi biliklər vaxtilə əqli və fiziki qüsusru olan şəxsləri müvafiq şəkildə adlandırmağı məqbul hesab etdiyi halda, siyasi korrektəlik doktrinası yeni terminoloji inventar irəli sürmüşdür.

Məsələnin bir maraqlı məqamı siyasi korrektəliyin bir qədər ifrata varması hallarının doğurduğu əks təsirlə bağlıdır. Belə ki, izlənilməsi zamanı dilin dolayı ibarələrlə, tərkibi terminlərlə yüklənməsi bu tendensiyanın əleyhidarlarının əlinə tənqid arqumenti vermişdir.

Con MakManus Britaniyadakı 'Things We Won't Say About Race That Are True' ("İqlər haqqında heç vəchlə deməyəcəyimiz həqiqət") sənədli film formatlı araşdırmaya əsasən qeyd edir ki, müasir Britaniya toplumunun böyük əksəriyyəti siyasi korrektəlik ideologiyasının güclü təyziqi nəticəsində, terminoloji inventarda yanlışlığa yol verməkdən çəkinərək, ümumiyyətlə dini, irqi, etnik məsələlərlə bağlı mövzuların

müzakirəsindən yayınır. Müasir dünyanın ən önəmli media maqnatlarından olan Rupert Merdok isə məsələni daha da kəskin qoyaraq yazır: "***Siyasi korrektəlik söz azadlığını məhv edir***" (kursiv bizimdir. – Ə.H.) [13].

"Demoktratik "yeni dil" və evfemizlərin izahlı lüğəti"nin müəllifi A.Beloyar öz araşdırmasında "siyasi korrektəliyin" yeni terminoloji inventarını və bu inventarın tətbiqinə riayət etmək tələblərini şərh edir. Dilçi yazır: "O ("siyasi korrektəlik" – Ə.H.), əslində, əsasən ABŞ-da tətbiq edilən, eləcə də digər Qərb ölkələrində izlənilən … ***elan edilməmiş senzuranın bir növüdür***. Siyasi korrektəlik "yaxşı ton"a uyğun maskalanır və rəsmən, o, heç bir kimsənin hissələrinin alçaldılmamasını və ləyaqətinə toxunulmamasını hədəf alır" [14; 349].

Yeni siyasi korrektə leksikanın, demək olar ki, insan fəaliyyətinin bütün sahələrini əhatə etdiyini vurğulayan N.O.Ordenova siyasi korrektəlikə əsaslı termninlərə bələd olmanın dillərarası, mədəniyyətlərarası ünsiyyəti anında asanlaşdıracaq, "fikir mübadiləsində harmonik uyum yarada biləcəyinin təminatçısı olamadığını" da qeyd etməyi unutmur. Dilçiyə görə, belə harmonik balansın əldə edilməsi üçün təmasda olan hər iki dilin həmin siyasi korrektə termin inventarı ilə eyni səviyyədə tanışlığı şərtdir [15]. Bu mənada deyə bilərik ki, qloballaşma tendensiyalarına ən doğru formatda ayaq uydurmağa çalışan, yəni milli mentallığın və milli maraqların imkan verdiyi çərçivədə Qərb Dünyasının siyasi-iqtisadi doktrinalarına inteqrasiya edən Azərbaycanda aparılan islahatlar həmin terminoloji inventarın mənimsənilməsinə imkan vermişdir. Bu isə öz növbəsində Azərbaycan və Qərb dialoqunda heç bir "sivilizasiya toqquşmaları"nın yaşanmamasının təminatçısı olmuşdur. İngilis dilinin qlobal Dünya dilin ranqında təzahür tapması, əslində həmin yeni nəsil terminlərin əksər inkişaf etmiş dünya dövlətlərinin dilində bərqərar olmasına yol açmışdır. Bu isə öz növbəsində, Azərbaycan dili daşıyıcısının artıq təkcə ingilisdilli daşıyıcısı ilə deyil, Dünya Vətəndaşı ola biləcək istənilən orta statistik erudisiyalı yad dil daşıyıcı ilə ünsiyyətinin rəvanlaşmasına imkan vermişdir.

Ədəbiyyat:

1. Sadıqova S. Müasir Azərbaycan ədəbi dilində termin yaradıcılığı prosesi, Bakı: Elm, 2010, 244 s.
2. Остроух А. В. Политическая корректность" в США, автореферат диссер.канд.культ., 1998, http://cheloveknauka.com/politicheskaya-korrektnost-v-ssha
3. Грайс Г.П. Логика и речевое общение // Новое в зарубежной лингвистике. Выпуск 16: Лингвистическая прагматика. М., 1985 http://kant.narod.ru/grice.htm

4. Миньяр-Белоручева А. П., Покровская М.Е. Политическая корректность и языковая норма // Вестник Южно-Уральского государственного университета. Серия: Лингвистика, 2007, №1, с. 26-30, https://cyberleninka.ru/article/n/politicheskaya-korrektnost-i-yazykovaya-norma
5. Стихин А. Г. Лингвистические аспекты коммуникативной корректности. Язык и этнический менталитет. Петрозаводск, 1995. С. 138-142
6. Глеб Павловский. Новая политкорректность – против языка вражды Спор о политкорректности http://www.russ.ru/Mirovaya-povestka/Novaya-politkorrektnost-protiv-yazyka-vrazhdy
7. Harman G. Cognitive science? // The making of cognitive science: essays in honour of George Miller. – Cambridge(Mass.), 1988. – P. 259.
8. Why 'Politically Correct' Still Has Its Uses; Goes Back to 1793 // The New York Times, Deceber, 1993, https://www.nytimes.com/1993/12/15/opinion/l-why-politically-correct-still-has-its-uses-goes-back-to-1793-838093.html
9. Joshua Florence. A Phrase in Flux: The History of Political Correctness , // Harvard Political Review. October 30, 2015 http://harvardpolitics.com/united-states/phrase-flux-history-political-correctness/
10. Сегеда А. Е. Появление и становление понятия ″политическая корректность". // Филологические науки. Вопросы теории и практики Тамбов: Грамота, 2013. № 7 (25): в 2-х ч. Ч. II. С. 164-166. http://scjournal.ru/articles/issn_1997-2911_2013_7-2_42.pdf
11. Урманова Л. Э. Политическая корректность в англо-русском и русско-английском переводе // Филология и лингвистика в современном обществе: материалы III Междунар. науч. конф. (г. Москва, ноябрь 2014 г.). М.: Буки-Веди, 2014, С. 150-155. URL https://moluch.ru/conf/phil/archive/136/6598/
12. Beckwith F. B., Bauman M. E. Are You Politically Correct? Debating America's Cultural Standards. Buffalo, N. Y.: Prometeus Book, 1995. 266 p.
13. Почему британцы боятся расовых вопросов? // BBC News, https://www.bbc.com/russian/uk/2015/03/150319_britain_race_correctness
14. Белояр А. Толковый словарь демократического новояза и эвфемизмов. — М.: Наука. 2012 http://politike.ru/slovari/tolkovyi-slovar-demokraticheskogo-novojaza-i-evfemizmov.html
15. Орденова Н. О. Феномен политической корректности и его выражение в языковой деятельности людей (на материале

английского языка), диссер... канд. филол. наук,Москва, 2003, 141 с. http://www.dissercat.com/content/fenomen-politicheskoi-korrektnosti-i-ego-vyrazhenie-v-yazykovoi-deyatelnosti-lyudei-na-mater

MƏNBƏLƏR:

16. The Guardian, 14 February, 2018, https://www.theguardian.com/cities/2018/feb/14/what-disability-accessible-city-look-like
17. The Guardian, 30 Novenber, 2016, https://www.theguardian.com/society/2016/nov/30/many-parents-of-children-with-learning-disability-fear-public-reaction-poll-finds
18. http://azpress.az/index.php?lang=az&sectionid=news&id=77226
19. Sağlamlıq imkanları məhdud insanlar üçün sosial müavinətlər, tibbi xidmət və maddi yardım http://cesd.az/new/wp-content/uploads/2016/05/CESD_Policy_Paper_Social_Protection.pdf
20. Uşaqlarda disleksiya problemihttps://nuhcixan.az/usaqlarda-disleksiya-problemi/

А.Газиева

«Политическая корректность» – как один из основных факторов заимствования, способом калькирования терминов «нового поколения» (к теоретическим аспектам проблемы)

Резюме

В статье исследуется идеологическая доктрина, давшая толчок к заимствованию целого ряда терминов. Различные понятие некоторых лингвистов относительно данной проблемы были здесь анализированы. Различные способы калькирование показаны здесь. Автор рассмотрел данную проблему на основе материалов Азербайджанского и Английского языков. А известно, что начиная с конца XX века до наших дней азербайджанский язык, а также многие другие языки постсоветского пространства продолжают обогащаться новыми единицыми международной терминологической системы. Эти термины в большинстве своем являются терминами «политической корректности».

А также известно, что данного рода термины со временем вытесняют из языковой системы своих более «возрастных» и менее корректных аналогов. На основе исследований становится известно, что идеологическую базу данного рода терминов составляют доктрины постмодернистской эпохи. Как следствия этого в английском и азербайджанском языке появляются такого рода «полит корректные термины»: (в английском языке) ***physically challenged, mentally***

challenged, financially challenged , children with learning difficulties // children with learning disabilities, developmentally inconvenienced, cerebrally challenged, increasingly distracted, housekeeper, hairstylist, beautician.; (в азербайджанском языке): ***fiziki imkanları məhdud, əqli imkanları məhdud, öyrənmə çəkinliyi çəkən (uşaqlar), sağlamlıq imkanları məhdud*** и т.д.

A. Haziyeva

"Political Correctness"- as one of the main factors of borrowing, a method of calquing the terms of the "new generation"(to the theoretical aspects of the problem)

Summary

The article explores the ideological doctrine, which impact to the formation of a new of terms. The different concepts of some linguists on this problem have been analyzed here. Keys in the formation of the method word formation with calque are searched. On the basis of the materials of the Azerbaijan and English languages the author studied this problem. It is known that from the end of the 20th century to the present time, Azerbaijan language, as well as many other languages of the post-Soviet areas, continues enrich with new units of the international terminological system. These terms are mostly terms of "political correctness."

İt is also known that this kind of terms over time displaces its more “age-related” and less correct counterparts from the language system. On the basis of research it becomes known that the ideological basis of these terms are consist of the doctrines of the postmodern era. As a consequence of this, such “politically correct terms” appear in the English and Azerbaijani languages: (in English) ***physically challenged, mentally challenged, financially challenged , children with learning difficulties // children with learning disabilities, developmentally inconvenienced, cerebrally challenged, increasingly distracted, housekeeper, hairstylist, beautician.***;(in Azerbaijan) ***fiziki imkanları məhdud, əqli imkanları məhdud, öyrənmə çəkinliyi çəkən (uşaqlar), sağlamlıq imkanları məhdud etc.***

Rəyçi: Məhəbbət Əsədova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

YEGANE MƏMMƏDOVA
Azərbaycan Dovlət Neft ve Sənayə Universitet
yenana@mail.ru

ОБУЧЕНИЕ РАЗГОВОРНОЙ РУССКОЙ РЕЧИ СТУДЕНТОВ-ИНОСТРАНЦЕВ

Açar sözlər: metodik cəhətlər, dinləmə, danışma, təhsil materialları, monoloji birliyi.
Key words: methodical aspects, audition, informal conversation, training material, monological unities.
Ключевые слова: методические аспекты, аудирование, разговорная речь, учебный материал, монологические единства.

В последнее время развивается сотрудничество народов-соседей, интенсификация туристических, торговых, научных и культурных связей детерминируют выработку оптимальных способов речевого общения. Все это приводит к тому, что появляется необходимость овладения иностранцами русским языком, в особенности навыками разговорной речи. Нужно отметить, что неформальное общение (в бытовых ситуациях) доставляет им множество затруднений. Сами студенты при общении со своими сверстниками, носителями русского языка, отмечают, что они посмеиваются над «книжным» характером их русской речи. Кроме этого, некоторые говорят, что в бытовых ситуациях им порой даже приходилось рисовать на бумаге, чтобы быть понятым. Вышеприведенные примеры подтверждают необходимость введения курса разговорной русской речи отработки речевых ситуаций знакомства, застольного общения, посещения общественных мест, пользования общественным транспортом и т.п.

Цель курса должны быть направлена прежде всего на преодоление у иностранцев чувства внутреннего дискомфорта в русской речевой среде. Студентов следует научить пользоваться русским языком как средством выражения своих мыслей, сделать иностранный язык натуральным средством коммуникации использовать его в реальных жизненных ситуациях.

Конечно же, разговорная речь лучше всего усваивается при непосредственном постоянном общении с носителями языка. В условиях же оторванности от языковой среды необходимо создавать на занятиях ситуации, максимально приближенные к натуральному общению. Следует разработать учебные пособия с текстами и упражнениями, которые смогут послужить для студента – иностранца

тренировочной базой. Базовыми при изучении русского языка как иностранного представляются следующие лексико-тематические группы разговорной речи: семья, школа, питание, бытовое обслуживание, работа; внешность и характер человека; его душевное состояние, вкусы и предпочтения; речь и мышление человека; здоровье; отношения между людьми (сотрудничество, конфликты, любовь, дружба); транспорт и компьютер.

Большинство стран мира пришли к выводу относительно необходимости формирования личности, обладающей не только родным языком, но и многими другими, что, в свою очередь, будет свидетельствовать о ее поликультурной направленности. Интерес иностранцев к русскому языку, желание и потребность его изучать в России и за ее пределами - это реалии сегодняшнего дня. Русский язык становится средством деловых отношений, языком диалога культур, языком специальности. Все это обусловливает необходимость развития современных методов и приемов обучения русскому языку как иностранному, детальной проработки теоретических аспектов преподавания и их воплощение в практику обучения русского языка как иностранного. Язык должен стать инструментом общения, позволяющий проникнуть в другую культуру, определить для себя ее характерные черты и усвоить тип поведения, адекватного восприятия представителями другой культуры. Только таким образом будущие студенты могут стать полноценными участниками межкультурного диалога.

Обучение многочисленных групп студентов, различающихся по психическим характеристикам, религиозным верованиями, разницей в возрасте и среде воспитания, требует поиска таких методов обучения, которые позволили бы наиболее полно реализовать природные способности студентов, развивать их, давать им знания в области лингвистики. Главным принципом в достижении такой педагогической задачи становится проблема выбора методов обучения русскому языку как иностранному и проверка их эффективности.

Преподавателей волнует вопрос, как быстрее, эффективнее, разнообразнее и интереснее подать иностранным студентам учебный материал. Преподавание русского языка является не легкой задачей. Именно поэтому постоянно разрабатываются новые методы, приемы, формы обучения русского языка как иностранного, создаются новые концепции. Над решением этих проблем активно работают ученые, преподаватели-практики учебных заведений различного профиля у нас и за рубежом. Важной предпосылкой успешного учебного процесса является выработка правильных методических основ, принципов

преподавания русского языка как иностранного. Преподавание русского языка как иностранного невозможно без учета перспективных достижений современной лингводидактики, а также потребностей времени. Овладения любым языком как чужим эффективно при условии учета национально-специфических черт той или иной языковой системы на разных уровнях. Особенно ярко эти черты проявляются на уровне лексики и фразеологии.

Русский язык как иностранный является одним из разделов научно-практической сферы педагогической деятельности, что занимается обучением естественным языкам – лингводидактика. Его целью есть изучение русского языка для разработки методик, методов и технологий его описания для возможности преподавания русского языка носителям иностранных языков. В целом же, овладение языком является длительным, трудоемким, а главное, индивидуальным процессом. В программу обучения русскому языку, как и другим иностранным, входит углубленное изучение фонетики, грамматики, а также лексического состава языка, но все же выработке практических навыков уступает свое место теоретическое изучение. Основным становится функциональный принцип изучения русского как иностранного. Следует научить иностранных студентов не просто владеть основами иностранного языка, но также научить их общаться на изучаемом языке с энтузиазмом и интересом, как в рамках их профессиональной тематики, так и в различных бытовых ситуациях. Студенты должны не только понимать изучаемый язык, но и правильно построить свое сообщение в ответ, которое будет отвечать культуре собеседника . Поэтому наряду с изучением явлений языка, необходимо изучать особенности культур участников диалога, их характерные черты, сходства и различия.

Изучение культурных традиций составной частью входит в процесс обучения иностранному языку, который одновременно является обучением межличностному общению. В процессе работы на занятиях иностранные студенты должны подтверждать и отстаивать свою точку зрения, пользоваться аргументацией, научиться анализировать содержание и находить пути взаимопонимания в процессе диалога на изучаемом языке.

Во время обучения иностранному языку индивидуализация учебного процесса должна осуществляться на всех ступенях в том смысле, что его глубина и формы должны быть приспособлены к возможностям каждого иностранного студента. Стремление воплотить в практике принцип дифференцированного подхода к личности студента, стремление преподавателей выйти за рамки устаревшей

системы образования привели к появлению новых методов обучения русскому языку с нетрадиционным содержанием.

По нашему мнению, методы обучения качественно изменят уровень знаний и повысят интерес к предмету. Существует множество исследований как отечественных, так и зарубежных лингвистов относительно основных методов обучения иностранным языкам. Целью общения является установление контакта, убеждения собеседника, осуществляемой в форме беседы или диалога. Именно поэтому наиболее приоритетным направлением подачи учебного материала является лексический, а уже потом - грамматический и фонетический [4, с. 102]. Несомненно, что основой такого занятия должна быть устная речь. Оно наблюдается, начиная с самых первых минут урока. По нашему мнению, изучение грамматических правил, заучивание слов является лишь средством для овладения устной речью, так как оно - лучший способ усвоения и закрепления любого материала.

Итак, первый метод обучения русскому языку как иностранному – это метод обсуждения (диалог, беседа). Иностранные студенты могут задавать и отвечать на вопросы страноведчес кие, общественные, бытовые темы, интересоваться грамматическими правилами русского языка. Постоянно должно быть обсуждение какого-либо понятия, проблемы, темы и т. д. Таким образом, произойдет лучше усвоения учебного материала. Как видно, не имеет смысла постоянно проверять письменные задания (это целесообразно делать только во время итогового контроля уровня знаний иностранных студентов). Большинство студентов не будут разбираться в ошибках. А комментирования и объяснения как преподавателя, так и самих студентов сможет сразу же выявить слабые и сильные стороны в их знаниях.

Итак, второй метод – метод проектирования.

С его помощью можно выполнять множество задач и эффективнее достигать успеха в изучении русского языка как иностранного.

С иностранными студентами можно работать над такими проектами:

· экскурсия по городу (создание сценария, запись экскурсии на видео, самостоятельное озвучивание видеофильма);

· интервью и анкетирование на различные темы, которые оформляются в виде презентаций в PowerPoint;

· проектные работы, касающиеся непосредственно профессиональной сферы деятельности студентов.

Традиционная схема: объяснение преподавателя - заметки студентов - воспроизведение студентами поданного преподавателем

материала традиционными методами (написание грамматических моделей, «прямое» запоминание слов и конструкций, а то и целых текстов, выполнение значительного количества письменных упражнений и т. д.) - все это не даст такой эффективности для понимания и использования русского языка как простое обсуждение. Все они имеют как положительные, так и отрицательные стороны. Нам близка мысль американского лингвиста Леонарда Блумфельда: «В процессе развития теории и практики обучения иностранным языкам осуществлялись многочисленные попытки, направленные на создание наиболее рациональных методов овладения иностранными языками. Наряду с развитием основных методических направлений обучения иностранным языкам развивались и их модификации. Модификациями одного методического направления считаются методы, которые характеризуются общими или близкими чертами основного методического направления». Необходимо отметить, что только в результате сочетания нескольких методов мы сможем добиться успеха.

Список литературы

1. Беглова Е.И. Семантико-прагматический потенциал некодифицированного слова в публицистике постсоветской эпохи: автореферат, М. 2007. № 4 С. 102.
2. Падучева Е.В. Язык русской культуры» Школа. М., № 7, 1996 г.
3. Падучева Е.В. Высказывание его соотнесенность с действительностью. Статья, М..УРСС, № 3, 2002.
4. Русская разговорная речь. Фонетика. Морфология, Журналистика. 2008 № 2.
5. Левонтина И.Б. Понятие цели и семантика целевых слов русского языка. М.: «Языки славянских культур», №1 2006. С. 163- 238.
6. Химик В.В. Большой словарь русской разговорной экспрессивной речи. СПБ. 2004. С. 178-201.

Y.Mammadova

Training of informal Russian conversation of students foreigners.

SUMMARY

In article methodical aspects of teaching the Russian grammar in foreign audience at the initial stage of training including elementary and basic levels of studying of Russian as foreign are analyzed; the theoretical data on the grammatical system of Russian caused by practical orientation of

training prezentirutsya. Audition as special type of exercises that is as special program. It is about hearing of the speech of the teacher or announcer, dialogues of different persons, and monological unities (stories, the reading stories, etc.) including both. All this leads to the fact that need of mastering foreigners Russian, in particular skills of informal conversation appears. It should be noted that informal communication (in everyday situations) delivers them a set of difficulties. So, the first method of training in Russian as foreign is a method of discussion (dialogue, a conversation). Foreign students can set and answer questions regional geographic, public, household subjects, be interested in grammar rules of Russian. Constantly there has to be a discussion of any concept, problem, subject, etc. Thus, will occur better than assimilation of a training material.

Y.Məmmədova

Xarici tələbələrə danışıq rus dilinin oyrədilməsi.

XULASƏ

Məqalədə rus dilinin öyrənilməsinin başlanğıc mərhələsində, o cümlədən rus dilinin xarici dil kimi öyrənilməsinin ibtidai və əsas səviyyələrində xarici auditoriyada tədris metodik aspektləri təhlil olunur. Rus dilinin qrammatik sistemi ilə bağlı nəzəri məlumatlar, təlimlərin praktiki istiqamətləndirilməsi sayəsində təqdim olunur. Şəxsi bir proqram kimi, xüsusi bir proqram kimi dinləmək. Bu, müxtəlif insanların dialoqları və monoloq birliyinin (hekayələr, oxuyan hekayələr və s.) Daxil olduğu bir müəllimin və ya spikerin çıxışını dinləməkdir. Bütün bunlar əcnəbilərin rus dilini, xüsusən danışma bacarıqlarını inkişaf etdirməyə ehtiyacı var. Qeyd etmək lazımdır ki, qeyri-rəsmi ünsiyyət (gündəlik vəziyyətlərdə) onlara çox çətinliklər verir. Beləliklə, rus dilinin xarici dil kimi tədrisinin ilk üsulu müzakirə üsuludur (dialoq, söhbət). Xarici tələbələr rus dilinin qrammatik qaydalarına maraq göstərən regional coğrafi, sosial, gündəlik məsələləri soruşa və cavab verə bilərlər. Beləliklə, hər hansı bir konsepsiya, problem, mövzu və s. müzakirə olunmalıdır. Beləliklə, təhsil materialının daha yaxşı öyrənilməsi olacaqdır.

Rəyçi: Sevil Əliyeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent

İLHAMƏ MƏMMƏD
Sumqayıt Dövlət Universiteti
ilhame_memmed@mail.ru

İNGİLİS DİLİNİN İNKİŞAF MƏRHƏLƏLƏRİDƏ ALINMA SÖZLƏRİN ÖZÜNƏMƏXSUSLUĞU

Açar sözlər: ingilis dili, inkişaf mərhələsi, alınma söz, dil sistemi, məna, özünəməxsusluq
Ключевые слова: английский язык, этап развития, заимствованное слово, языковая система, значение, особенность
Key words: the English language, development stage, borrowed word, language system, meaning, peculiarity

Yer üzündə mövcud olan dillər haqqında müxtəlif mənbələrdə fərqli məlumatlar verilməkdədir. YUNESKO-nun Statistika İnstitutunun hazırladığı hesabatda "dünyada on min dilin olduğu müəyyən edilmişdir. Araşdırmada bu dillərdən təxminən iki minə qədərinin yazılı formasının olduğu göstərilmişdir. Bütövlükdə 60 ölkədə 1,8 milyard insanın ingilis dilində danışdığı məlumdur" (4, 4). Bu rəqəm ingilis dilinin dünya dilləri arasında öncül mövqeyini nümayiş etdirir.

Dünya əhalisinin 1,4 milyardı bu dildən ikinci dil kimi, sadəcə 375 milyona qədəri isə birinci dil kimi istifadə edir. İngilis dilindən xarici dil kimi istifadə edənləri də nəzərə alsaq, dünya əhalisinin təxminən yarısının ingilis dilində danışdığını görərik. "Güman edilir ki, 2020-ci ildə ingilis dilində danışan və ya bu dili öyrənən insanların sayı dörd milyardı ötəcək və bunların yalnız yeddidə bir hissəsini ana dili ingilis dili olanlar təşkil edəcəkdir" (1, 13). Bu ehtimal artıq özünü doğrultmaqdadır.

Dünyanın bütün dilləri kimi ingilis dili də daim inkişaf etdiyindən onu müəyyən tarixi dövrlərə ayırmaq olduqca çətindir. Bununla belə, dil tarixçiləri ingilis dilinin Qədim, Orta və Müasir İngilis dili olaraq üç əsas dövrdə inkişaf mərhələsi keçdiyini göstərirlər (6, 203). *Qədim ingilis dili dövrü* (700-1100)- Britaniya torpaqları German qəbilələri tərəfindən işğal edilənə qədər britaniyalılar kelt dilində (qədim irland, island və qal dillərinin qarışığı olan dil-İ.M.) danışırdılar. "Əslində ingilis dilinin tarixi V əsrin ortalarında german dialektində danışan üç alman qəbiləsinin-anql, saks və yutların Britaniyanı işğal etməsilə başladı." (5, 30). Bu dialekt *angleish* olaraq müasir ingilis dilinin təməlini təşkil etdi. İşğalçıların özləri ilə gətirdiyi run əlifbası (dini-kəhanət məqsədləri üçün istifadə olunan, e.ə. 200-cü ildə yaradılmış qədim skandinaviya əlifbası (8)) yazı məqsədi ilə istifadə olunmadığından, qədim ingilis dili ilə bağlı mühüm məlumatları yalnız

anqlosaks dövrünün sonlarında din xadimlərinin əlyazmalarından əldə etmək mümkün oldu. Bu zaman qədim german və run əlifbasının yerini artıq latın əlifbası tutmuşdu. Roma imperiyası dövründə Britaniya adalarına göndərilən rahiblər özləri ilə "İncil"in tərcümə olunduğu əsas dillərdən biri olan latın dilini gətirmişdilər. Anqlosakslar xristianlığı qəbul etdikdən sonra latın dilindən ingilis dilinə külli miqdarda söz keçdi. Qədim ingilis dilinin inkişafına təsir göstərən digər dil isə İngiltərənin qərbində yerləşən danimarkalı işğalçıların danışdığı qədim norsk dili (əski skandinaviya dillərindən biri-İ.M.) oldu. Qərbi İngiltərədə -*by* sonluğu ilə bitən təxminən 600 kənd və şəhər adı məhz qədim norsk dilində şəhər mənasını verən *byr* sözündən götürülmüşdür. VIII əsrdə vikinqlərin (əsasən skandinav mənşəli müxtəlif tayfalardan ibarət sosial təbəqə - İ.M.) İngiltərəyə hücumundan sonra çox sayda qədim Norveç sözü ingilis dilinə keçdi. Dövrün səciyyəvi cəhətlərindən biri də qədim ingilis mədəniyyətində şifahi ənənənin güclü olması, epik şeirlərin xalq arasında geniş yayılması idi.

Orta ingilis dili dövründə (1100-1500) mühüm dəyişikliklər baş verdi və beş fərqli dialektdən – Şimali, Şərqi Midlands, Qərbi Midlands, Cənubi və Kent dialektlərindən ibarət olan ingilis dili *orta ingilis dili* adı ilə Britaniyanın rəsmi dili statusunu qazandı. Məhz bu dövrdə ingilis dili fərqli sosial təbəqələrə aid olan insanların ünsiyyət qurması üçün getdikcə asan başa düşülən ortaq dilə çevrildi. Həmçinin ingilis dili 1350-1380-ci illərdə fransız dilini sıxışdıraraq təhsil və hüquq sisteminin dili oldu. "1362-ci ildə ilk dəfə olaraq Parlament ingilis dilində söylənən nitqlə açıldı" (3, 106). 1399-cu ildə taxta çıxan IV Henri Norman fəthindən həmin dövrə qədər ana dili ingilis dili olan ilk İngiltərə kralı kimi tarixə keçdi. XIV əsrin sonlarına yaxın London dialekti standart ədəbi dil olaraq işləklik qazandı. Həmin dövrdə Cefri Çoser ingiliscə ilk əsər olan "Canterbury Tales" ("Kenterberi əfsanələri") əsərini məhz London dialektində yazmışdır. Qədim ingilis dilindən fərqli olaraq, orta ingilis dilində flektiv sonluqlar xeyli zəiflədi ki, bu da orta ingilis dilini müasir ingilis dilinə yaxınlaşdırdı. *The day* isminin həm qədim, həm də orta ingilis dilində bəzi hallarını müqayisə edib belə nəticəyə gəlmək olar ki, orta ingilis dövründə dil sistemi olduqca sadələşmişdir:

Qədim İngilis dili	Orta İngilis dili	
adlıq hal/ nominative	se <u>dæġ</u>	the day
yiyəlik hal/ genitive	thæs <u>dæġ</u>es	the days
təsirlik hal/ accusative	thone <u>dæġ</u>	the day (2, 75)

Dil sisteminin sadəliyə doğru dəyişməsi 1066-cı ildə Norman fəthindən əvvəl başlamış və növbəti yüzillikdə tamamlanmışdır. Normandiyalılar İngiltərəyə fransız dilini gətirdilər və artıq orta ingilis dili dövrünün sonunda ingilis dilinə təxminən on min söz daxil oldu. Beləliklə də,

fransız dili hakim dairələrin, ingilis dili isə sadə xalqın dili oldu. Hər iki dildə olan, eyni və ya yaxın mənanı ifadə edən bəzi sözlər birgə işlədilərək paralel sözlərin yaranmasına gətirdi. Bu da dillərin mədəni, ictimai və siyasi inteqrasiyasını labüdləşdirdi. Məsələn, *qəsəbə, şəhər* mənasını ifadə edən fransız dilinin *city* sözü ilə ingilis dilinin *borough* sözü bərabər işlədilirdi. Lüğət fonduna fransız dilinin güclü təsirinin qarşısını almaq üçün dövrün mütəfəkkirləri, din xadimləri anqlosaks dövründə olduğu kimi latın dilindən ingilis dilinə söz almağa davam etdilər. Təxminən beş minə qədər anqlosaks mənşəli qədim ingilis sözləri dəyişmədən günümüzə qədər gəlib çıxmışdır. Orta ingilis dili dövrünün səciyyəvi cəhətlərindən biri də standart ədəbi dilin yazıda tətbiq olunması idi. Şifahi nitqdəki fərqliliklər tamamilə aradan qalxmasa da, tədricən yazılı kontekstdən silindi. *Müasir ingilis dili dövründə* (1500-cü ildən müasir dövrümüzədək) Avropada elm, təhsil və mədəniyyət sahələrində intibah hadisəsi baş verdi. Bu dövrdə istifadə olunan ingilis dili bugünkü ingiliscədən elə də fərqlənmirdi. Bəzi elmi ədəbiyyatlarda bu dövrü erkən müasir (1500-1800-ci illər) və ən müasir ingilis dili dövrü (1800-cü ildən müasir dövrümüzədək) olaraq iki yarımdövrə ayırırlar. *Erkən müasir ingilis dili dövründə* dilin fonetika və leksikologiyasında əhəmiyyətli dəyişikliklər baş verdi. Bu dövrdə sait səslər fərqli tələffüz edilməyə başladı (a[eɪ], i [aɪ]), bəzi sözlərin sonundan "e" hərfi və səsi düşdü. Yeni ifadələr yaradan, unudulmuş sözlərin yenidən işləklik qazanmasında rol oynayan V.Şekspir bu dövrü zənginləşdirdi (bu dövr bəzən Şekspir ingiliscəsi adlanır). Fransız dilindən alınan sözlər qruplaşdırılmağa başlandı və yunan, latın dillərindən bir sıra klassik alınmalar dilə daxil oldu. Bu sözlər *çətin sözlər / hard words* kimi tanınırdı və bu qəbildən olan sözlərin ingilis dilində istifadəyə uyğun gəlib-gəlməməsi barədə olan müzakirələr də *müdrik mübahisələr / inkhorn conroversy* adlanırdı. Bu sözlərin izahı ingilis dilində lüğətlərin yaranmasına təkan verdi. İngilislərin Amerika müstəmləkəçiliyi də məhz bu dövrdən başlayır. Bu, ingilis dilinin mövcud variativlərinin Amerikaya ixracı demək idi. Amerikaya yol tapan ingilis dialektlərinin mühafizəkar təbiəti onların öz xarakterik xüsusiyyətlərini qoruyub saxlamasına səbəb oldu. Qloballaşan dünyada ingilis dilinin müxtəlif variantları məhz erkən müasir dövrün dilinə əsaslanır. *Ən müasir ingilis dövrünün* əvvəllərində bir çox müstəmləkəsi olan güclü Britaniya İmperiyası sənaye və ticarət sahəsində dünyanın qabaqcıl ölkəsinə çevrildi və bu inkişafın təsiri dildən də yan keçmədi. Texnologiyanın yüksəlişi, fizika, kimya, biologiya, riyaziyyat kimi elmlərin inkişafı lüğət fonduna yeni sözlər qazandırdı. İngilis dili müstəmləkələrdən, xüsusilə Avstraliya, Yeni Zenlandiya və Hindistandan aldığı yeni sözləri, bitki və heyvan adlarını da lüğət tərkibinə qataraq gələcəkdə dünyanın aparıcı dillərindən biri olacağının işarələrini ortaya qoydu. Birinci və İkinci dünya müharibələri cəmiyyətin

fərqli təbəqələrindən olan insanları eyni sosial mühitdə birləşdirdi. Daha sonra sosial sferada baş verən aktivlik artdıqca ingilis dilinin variativləri və dialektləri arasındakı fərqlər də tədricən azaldı. XX əsrin əvvəllərində radioyayımın inkişafı əhalini yerləşdiyi ərazinin xaricindəki bölgələrdən gələn lüğət tərkibi ilə tanış etdi. Qlobal ticarətin sürətli yüksəlişi təkcə ingilis dilini dünyaya tanıtmadı. O, həm də dünyanı ingilis dilinə "təqdim etdi".

Dil təkamülünün ən son mərhələsində ingilis dilini *ən müasir ingilis dili* adlandıran alimlər hesab edir ki, əslində 1945-ci ildən bugünümüzə qədər olan dövr "Dünyanın İngilis dili" (World English) kimi fərqləndirilməlidir. Zənnimizcə, bu, beynəlxalq bir *lingua franca* kimi ingilis dilinin qloballaşmasını əks etdirir. "Hər hansı bir dilin qlobal dil səviyyəsinə çatması heç də o dildə danışan insanların sayı ilə bağlı deyil" (1, 7). Bir dilin dünyada qlobal dil hesab olunmasının iki əsas səbəbi var ki, bunlardan biri həmin dilin mənsub olduğu millətin və ya xalqın siyasi qüvvəsi (eləcə də, təməlində siyasi güc dayanan hərbi qüvvəsi), digəri isə iqtisadi qüvvəsidir. İngilis dilinin dünyanın aparıcı dili olması da məhz qeyd etdiyimiz bu iki faktorla izah oluna bilər.

Hələ XIX əsrdə intellektual elitanın "Qloballaşan dünyanın əsas dili niyə məhz ingilis dilidir?" sualına Böyük Britaniya İmperiyasının getdikcə güclənməsi faktoru ilə asanlıqla cavab vermək mümkün idi. Birinci və ikinci dünya müharibələrindən sonra gücünü tamamilə itirmiş Britaniya İmperiyasının önünə keçməyi bacaran ABŞ ingilis dilinin daha geniş coğrafi arealda istifadəsinə təkan verdi. İngilis dilinin sürətlə yayılmasına səbəb olan digər tarixi hadisə isə sənaye inqilabı oldu. Qeyd edək ki, sənaye inqilabının bir çox ixtiraları məhz ingilis mənşəlidir. XVII əsrdə Britaniya əhalisinin sayı 5 milyon olduğu halda, XVIII əsrdə bu say iki dəfə artdı və həmin yüzyillikdə heç bir ölkə Britaniyanın iqtisadi inkişafı ilə rəqabət apara bilmədi. Toxuculuq və mədən sənayelərində dünya lideri olan ingilis firmaları tədricən xarici ölkələrə ayaq açdı. Bununla da Britaniya "dünyanın atelyesi" (workshop of the world) statusunu qazandı. Bu iqtisadi uğurların təsiri çox keçmədən dil məsələsində də özünü büruzə verdi. Elm və texnologiyanın inkişafı ilə əlaqədar olaraq yeni terminlər yarandı və nəticədə ingilis dilinin lüğət fonduna minlərlə yeni söz daxil oldu. Ən önəmlisi də odur ki, bu yeniliklər digər ölkələrə yol tapdıqdan sonra əcnəbilərin ingilis dilini öyrənmək istəyi təbii bir istəyə çevrildi. İngiltərədəki sürətli inkişaf xeyli sayda elm adamının buraya axın etməsinə və elmi araşdırmaların davamına səbəb oldu ki, bu da ingilis dilinin "elmin dili"nə çevrilməsi ilə nəticələndi. İngilis dilinin qlobal dil səviyyəsinə çatmasında medianın da rolu danılmazdır. Dörd yüz ildən çoxdur ki, ingilis dili informasiya əldə etməyin ən sürətli vasitəçisi kimi mətbuatda hakim mövqe tutur. Ən önəmli faktorlardan biridə NATO, YUNESKO, YUNİSEF, BMT kimi qurumların mövcudluğunun ortaq bir ünsiyyət dilinə-

"lingua franca" ya olan ehtiyacdır. Dünyanın ən zəngin söz ehtiyatına malik dillərindən biri olan ingilis dili bu ehtiyacı qeydsiz-şərtsiz ödəməkdədir. Etibarlı dil araşdırma qurumlarından sayılan "Qlobal Dil Nəzarətçisi"nin (Global Language Monitor) "1 yanvar 2017-ci il tarixli hesablamasına görə ingilis dilində 1,041,257.5 söz var" (7). Qeyd edək ki, yenə həmin mənbəyə görə 1 yanvar 2016-cı il tarixində ingilis dilinin leksik fonduna 1,035,877.3 söz daxil idi.

Son dövrlərdə ingilis dili özünün yerliləşmə və milliləşmə dövrünü yaşayır. Belə ki, ingilis dili istifadə olunduğu bölgənin və o bölgəyə xas olan mədəniyyətin təsiri ilə yeni variativlər qazanır. Qloballaşan dünyada ingilis dilinin həm dünya dilləri, həm də özünün Britaniya, Amerika, Kanada, Avstraliya, Yeni Zelandiya və digər çox saylı variantları arasındakı əlaqələr ilk növbədə ingilis dilinin lüğət tərkibinə daxil olan leksik vahidlərdə özünü göstərir. Əlaqələr prosesində ingilis dili başqa dildən söz alır və yaxud ona söz verir. Bildiyimiz kimi , sözalma və sözvermə bir dil üçün eyni ölçülü dil hadisəsi deyil. İngilis dilinin öz leksik fonduna söz alması digər dillərə söz verməsindən qat-qat üstündür. Heç təsadüfi deyil ki, ingilis dilinin lüğət tərkibinin üçdə birindən də az hissəsini ingilis dilinin öz sözləri təşkil etdiyi halda, böyük bir qismini Roman dillərindən (latın, fransız, ispan və italyan dillərindən) alınan sözlər təşkil edir. Bu da maraqlı bir faktdır ki, "ingilis dilinə orta hesabla hər 98 dəqiqədən bir yeni söz daxil olur" (7). Leksik fonda daxil olan bu sözlərin bir qismi ingilis dilinin öz daxili imkanları, özünəməxsus vahidləri hesabına yaranmış yeni sözlər, digər qismi isə xarici amillərin təsiri ilə digər dillərdən alınmış sözlərdir.

Hansı dövrdə hansı dildən alınmasından asılı olmayaraq müasir ingilis dilində alınma sözlərin dərin kök salması, dilin doğma sözlərindən seçilməməsi bu sözlərin ortaq xüsusiyyətlər daşıması ilə əlaqədardır. Bu səciyyəvi cəhətləri aşağıdakı kimi qruplaşdıra bilərik:

1) alınma sözlərin zənginliyi- İngilis və Amerikan mədəniyyəti multikulturallıq elementlərinə görə tanınır. Xüsusilə Amerikan mədəniyyətini "əridici qazan" (melting pot) adlandıranlar da var. Onlar immiqrantların özləri ilə gətirdikləri müxtəlif xarici dilləri assimilyasiya edib ingilis dilinin bütün yaruslarına hopdururlar. Təsadüfi deyildir ki, ingilis dilinin lüğət tərkibinin 70%-dən də artığı alınma sözlərdir. Mədəniyyət, iqtisadiyyat, incəsənət, idman, tibb, elm və texnologiya ilə bağlı olan bu sözlərin dili daha canlı və rəngarəng etməsi mübahisəsizdir.

2) alınma sözlərin söz yaradıcılığında uyuşqanlıq göstərməsi- Bildiyimiz kimi, alınma sözlər ingilis dilinə sıfır əvəzləmə/əvəzləmə olmadan (zero substitution), qismən əvəzləmə (partial substitution) və tam əvəzləmə (substution) yolu ilə daxil olur. İngilis dilində söz yaratma üsulları dili daha lakonik etmək baxımından çevik və müxtəlifdir. *Feng shui* 'Çin

fəlsəfəsində enerji axını ilə əlaqədar məkan oriyentasiyasını tənzimləyən qanunlar sistemi' Çin dilindən, *otaku* 'komputerə aludə olub sosial bacarıqlarına zərər verən gənc şəxs' yapon dilindən, *fajitas* 'tərəvəz və ətlə qarışıq ədviyyatlı xörək' ispan dilindən birbaşa, heç bir dəyişiklik olmadan ingilis dilinə keçmişdir. *Lunik* latın mənşəli *luna* 'Aya ilk eniş edən sovet kosmik zondlarından biri', *parkour* fransız mənşəli *parcour* 'insanın fiziki gücündən ən məhsuldar şəkildə istifadə edib sürətli hərəkət etməsini tənzimləyən fiziki tərbiyə növü və ya həyat tərzi' (9) sözlərinin alınmasını isə yazılışında və tələffüzündə dəyişiklik edilərək qismən əvəzlənməyə aid edə bilərik. Bir sıra alınma sözlər isə ingilis dilinə daxil olarkən fərqli mənalar qazanır. Məsələn Çin sözü *wok* 'böyük kasa şəklində tava' ingilis dilində özünün yeni mənasında – qarışdırma-qızartma üçün tava 'stir-fry pan' işlənməkdədir; bu, tam əvəzlənmədir. Nümunələrdən də gördüyümüz kimi dünyanın istənilən dilindən ingilis dilinə keçən sözlər dilə uyğunlaşır.

3) alınma sözlərin yüksək yaradıcılıq qabiliyyəti- İngilis dilinin hər cür innovasiyaya açıq olması alınma sözlərin yayılmasını sürətləndirməklə yanaşı, yeni sözlərin yaranmasına və assimilyasiyasına müsbət təsir göstərir. Müasir ingilis dilinin alınma sözləri ilkin leksik alınmaları doğma affikslərlə əvəzləyib yeni alınma sözlər yaradır. Bəzi alınma sözlər də orfoqrafik və orfoepik dəyişikliyə uğrayır. *Taikonaut* 'çin kosmonavtı', *kylin* 'əfsanəvi mistik heyvan', *lassi* 'südlü hind içkisi', *kosher* 'yəhudi qida qanunlarını müşahidə edən şəxs', *juku* 'Yaponiyada özəl məktəb, kollec', *jihad* 'islam düşmənlərinə qarşı mübarizə' (10) kimi sözlər göstərir ki, ingilis dilinin daşıyıcıları xarici mədəniyyətlərin elementlərini özününküləşdirərkən təkcə aldıqları sözləri köçürtmür, həm də bu sözləri millli mədəniyyətə uyğunlaşdırır, müvafiq dəyişikliklər edir və yayır. İngilis dilinin daşıyıcıları orta əsrlər və intibah dövründəki kimi söz almasa da, yer üzündə danışılan dillərin demək olar ki, hər birindən söz almağa davam edir. Hətta ingilis dili artıq sözalan dil deyil, donor dil mövqeyində dayanır.

Ədəbiyyat:

1. Crystal D. English as a global language. 2nd ed. New York: Cambridge University Press, 2003, 212 p.
2. McCormick P. Adventures in English Literature. New York: Hartcourt Brace & World, 1979, 140 p.
3. Palmer A.W., Palmer V. The Chronology of British History. London: Century Ltd., 1992, 569 p.
4. Paolillo J. Evaluating Language Statistics: The Ethnologue and Beyond. A report prepared for the UNESCO Institute for Statistics. Indiana University, 2006, 57 p.

5. Pyles Th., Algeo J. Origins and Development of the English Language. 5th edition. New York: Heinle Thomson International, 2004, 347 p.
6. Yule G. The Study of Language. 5th edition. Cambridge: CUP, 2010, 322 p.
7. http://www.languagemonitor.com/category/number-of-words/
8. https://az.wikipedia.org/wiki/Run_əlifbası
9. https://www.collinsdictionary.com/
10. https://en.oxforddictionaries.com/

I.Mammad

The peculiarity of the words borrowed in the development stages of the English language

Summary

In the article the development stages of the English language, the specific features of the borrowed words have been involved in scientific research. The investigation is based on rich facts and language materials. The author substantiated the English language's three-stage development process and explained the specific features of each stage. The main historical-cultural, socio-political factors that have played a role in the development of ancient, middle and modern English have been examined. The place and function of the words borrowed as a result of the interaction with other languages in the English vocabulary has been clarified. The article is based on sources reflecting recent achievements in linguistics. The explanation of phonetic, lexical-semantic and syntactic features of borrowed words in English at certain historical stages has been given in the article. The article also shows the common features of the borrowed words. These features have been clarified on concrete examples. The investigation has been carried out on the basis of scientific requirements.

И.Маммед

Особенность слов, заимствованных на этапах развития английского языка

Резюме

В статье были разработаны этапы развития английского языка, особенности заимствованных слов в научном исследовании. Исследование основано на богатых фактах и языковых материалах. Автор обосновал трехэтапный процесс развития английского языка и объяснил особенности каждого этапа. Изучены основные историко-культурные, социально-политические факторы, которые сыграли определенную роль в развитии древнего, среднего и современного английского языка. А также было разъяснено место и функция слов, заимствованных в результате взаимодействия с другими языками в английской лексике. Статья основана на источниках, отражающих последние достижения в лингвистике. В статье дано объяснение фонетических, лексико-семантических и синтаксических особенностей заимствованных слов на английском языке на определенных исторических этапах. В статье также показаны общие черты заимствованных слов. Эти особенности были уточнены на конкретных примерах. Исследование проводилось на основе научных требований.

Rəyçi: Aslan Bayramov
Filologiya elmləri doktoru, professor

MURAD ƏMƏNOV
Bakı Dövlət Universitetini
murad962019@mail.ru

MƏHƏMMƏDHÜSEYN ŞƏHRİYARIN DİLİNDƏ ONOMASTİK VAHİDLƏR

Açar sözlər: Şəhriyar, lüğət tərkibi, onomastika, hidronimlər, toponimlər
Key words: Shahriyar, lexicon, onomastics, hydronyms, toponyms
Ключевые слова: Шахрияр, лексикон, онмастика, гидронимы, топонимы

Dilçiliyin xüsusi adları öyrənən şöbəsi onomastika adlanır. Dildə onomastik vahidlərin mühüm üslubi və tarixi əhəmiyyəti var. T.Hacıyev və K.Vəliyev "Azərbaycan ədəbi dilinin tarixi" monoqrafiyasında onomastikanın xalqın tarixini əks etdirən faktorlardan biri olduğunu əsaslandıraraq yazmışlar: "insan adlarının yaratdığı təbəqələr xalqın tarixi inkişafının mərhələlərinə uyğundur" [103, 3].

Azərbaycan dilinin lüğət tərkibində onomastik materiallar öz zənginliyi və rəngarəngliyi ilə diqqəti cəlb edir. Onomastik leksikanı təşkil edən vahidlər xarakterik xüsusiyyətlərinə görə müxtəlif qruplara bölünür. Onomastik vahidləri aşağıdakı qruplarda cəmləşdirə bilərik: antroponimlər, toponimlər, hidronimlər, etnonimlər, zoonimlər, kosmonimlər, ktematonimlər. Məhəmmədhüseyn Şəhriyarın dilində yuxarıdakı bölgüyə daxil olan digər qruplarla müqayisədə antroponimlər və toponimlərdən daha geniş, digər onomastik vahidlərdən isə məhdud miqyasda istifadə olunmuşdur. Ümumilikdə isə şairin dilində yuxarıda təsnifatda verilən bütün növlərə aid nümunələr işlənmişdir.

Onomastik vahidləri formalaşdıran kateqoriyalardan biri də hidronimlərdir. Hidronimlər dilin lüğət tərkibində və onomastikada xüsusi qat təşkil edir. Su anlayışı ilə bağlı bütün obyektlərin adları hidronimlərə daxildir. Hidronim adı altında həm təbii (dəniz, göl, çay, okean), həm də suni su obyektlərinin (arx, kanal, su anbarları, süni göllər) adları nəzərdə tutulur. Hidronimlər onomastik sistemə daxil olan digər kateqoriyalarla müqayisədə daha qədim tarixə malikdir. Qədim zamanlarda insanlar suya olan böyük ehtiyaclarını ödəmək üçün su obyektlərin yaxınlığında məskən salmışlar, buna görə də təbii su obyektlərinin adlarının formalaşması daha qədim tarixə gedib çıxır.

Tarixən onomalogiyada hidronimlərin öyrənilməsi müxtəlif istiqamətlərdə getmişdir: 1. Hidronimlər onomastik sistemin bir hissəsi olaraq toponimlərin bir növü kimi öyrənilir; 2. Hidronimlər toponimlərin

növləri kimi deyil, müstəqil onomastik vahid kimi öyrənilir. Bu A.Qurbanova aid onomastik bölgüdə öz əksini tapmışdır. Məlumdur ki, toponimlərdən fərqli olaraq hidronimlər su obyektlərinin adlarını bildirir, buna görə də hidronimlər həm semantik, həm də etimoloji cəhətdən toponimlərdən tamamilə fərqli xüsusiyyətlərə malikdir. Toponimlərin əsas xüsusiyyətlərindən biri odur ki, tarixi, ictimai-siyasi hadisələrlə bağlı olaraq toponimlərin dəyişməsinə rast gəlirik, lakin hidronimlərdə belə bir proses demək olar ki, müşahidə olunmur. Ümumiyyətlə daha az dəyişmə prosesi getdiyi üçün hidronimlər dildə olan ən sabit söz qruplarından biri hesab olunur.

Hidronimlər əsasında yarandığı vahidlərin müxtəlifliyinə əsasən beş qrupa ayrılır: 1) antrohidronimlər; 2) zoohidronimlər; 3) topohidronimlər; 4) etnohidronimlər; 5) digər qrup hidronimlər.

Qeyd edək ki, müəllifin dilində işlənən hidronimlər kəmiyyət baxımından o qədər də çox deyil. Şəhriyarın şeirlərində işlənən hidronimləri ərazi mənsubiyyəti baxımdan üç qrupa bölə bilərik: Türkiyə (Mərmərə dənizi), Cənubi Azərbaycan (Quru göl, Qara göl) və Şimali Azərbaycanla (Xəzər dənizi) bağlı su obyektlərinin adları. Hidronimlərin müəyyən bir hissəsi ayri-ayrı etnosların adlarına uyğun olaraq adlandırılmışdır. Azərbaycanda yaşayan etnosların adları toponimlərdə əks olunduğu kimi, bir sıra hidronimlərdə də öz izlərini qoruyub saxlamışdır. Qeyd etmək lazımdır ki, etnohidronimlər əsasən dəniz və çay adlarından ibarətdir. Şəhriyarın dilində etnohidronimlərə aid iki nümunə işlənmişdir: Xəzər, Araz və s. Məsələn: Bax *Xəzərə*, hənuz qəmi dərin gör // Qış çıxmayıb, ruzigarı sərin gör // İlk baharın ancaq sözün şirin gör // Ümidplov bişsə gözəl bir şeydir // Ümid var ki, demək, yeməkdən yeydir [4, 76]; *Arazın* suyundan bir içək, Nəbi // Qeyrətün qurbanı, ay qoçaq Nəbi [4, 91]. Ə.Dəmirçizadəyə istinadən Q.Kazımov Xəzər adının "Xaz" tayfa adının və ada cəmlik anlayışı bildirən "ar" şəkilçisinin birləşməsindən yarandığını qeyd edir [1, 163].

Xəzər dənizi müxtəlif vaxtlarda Salyan dənizi, Muğan dənizi, Abşeron dənizi, Bakı dənizi və Şirvan dənizi adları ilə tanınmışdır. Q. Qeybullayev Xəzər etnonimin mənasını belə izah etmişdir: Xəzər sözü qədim türk dilində kas etnonimindən və "ər", "igid", "kişi" mənasını verən qədim türk şəkilçilərindən ibarətdir. Deməli bu günə qədər bütün təqdiqatçıların son nəticəsi budur ki, xəzər hidronimi tayfa adı ilə bağlıdır. Kas//xəz tayfanın adı ar//ər isə "igid", yəni "igid kaslar" deməkdir [3, 23].

Araz çayının adı Azərbaycan xalqının ikiyə parçalanmasından sonra ədəbiyyatımızda daha çox işlədilmiş və onun obrazı yaradılmışdır. A. Bağırov "Naxçıvan hidronimləri" kitabında Arazla bağlı mülahizələrini belə ümumiləşdirir: "Demək, belə bir ehtimal inandırıcı göürünür ki, çay, su mənalarını bildirən ar//ər ifadəsi "Az" qəbilə adı ilə işlənərək, Az+ar//ər

ifadəsini yaratmış və bu söz inversiya nəticəsində ar//ər+az şəklinə düşmüş, beləliklə Ər+az-Ar+az-Araz sözü yaranmışdır. Araz-yəni, "Az qəbiləsinə məxsus su" deməkdir" [3, 115].

İnsan adları əsasında yarana su obyektlərinin adlarını antropohidronim, tayfa və qəbilə adları əsasında yarananları etnohidronimlər, yer adları əsasında yarananları topohidronim, heyvan adları əsasında yarananları isə zoohodronimlər adı altında qruplaşdırırıq. Lakin bu qruplar bütün hidronimləri əhatə etmir, hidronimlərin böyük bir hissəsi bu qruplardan kənarda qalır. Bunlar da tərkibcə müxtəlif qrup hidronimlərdən ibarətdir. Sonuncu qrupda digər qrup hidronimlər adı altında ilk dörd qrupa daxil olmayan hidronim nümunələri daxildir. Bu qrupda cəmləşən hidronimlərin tərəfləri müxtəlif mənalar ifadə edir. Bu tip hidronimlər onomastik sistemin genişlənməsində mühüm rol oynayır. Bu qrupdakı hidronimlər özləri də müəyyən qruplara ayrılır:

1. Bu qrup hidronimlər suyun rənginə, görünüşünə və tərkibində olan hər hansı mineral maddələrin az və ya çoxluğuna əsasən adlandırılmış su obyektlərinin adlarını əhatə edir: Qara göl və s. Məsələn: Heydərbaba, *Qara gölün* dərəsi // Xoşginabın yolu, bəndi, bərəsi // Orda düşər çil kəhliyin fərəsi // Ordan keçər yurdumuzun özünə // Biz də keçək yurdumuzun sözünə [4, 45].

2. Su səviyyəsinin azlığına və çoxluğuna görə adlandırılan su obyektləri; Quru göl və s. Məsələn: Heydərbaba, *Quru gölün* qazları // Gədiklərin sazax çalan sazları // Kənd-kövşənin payızları, yazları // Bir sinema pərdəsidir gözümdə // Tək oturub seyr edirəm özümdə. "Quru göl" Tehrana gedən yolda Şibli dağının yaxınlığında yerləşən böyük bir gölməçədir. Yayda suyu azaldığı üçün əhali tərəfindən Quru göl adı ilə adlandırılmışdır.

Qeyd edək ki, Şəhriyarın dilində ilk üç hidronim qruplarına (antropohidronim, zoohidronim, topohidronimlər) aid heç bir nümunə işlənməmişdir. Hidronim adı altında müxtəlif genişliyə malik su obyektlərinin adları cəmləşir, buna görə də onları aşağıdakı qruplar bölünür: 1. Okeanonimlər; 2. Pelaqonimlər; 3. Limnonimlər; 4. Potamonimlər; 5. Helonimlər.

Pelaqonimlər hidronimlərin növlərindən biridir, bu ad altında dəniz adları nəzərdə tutulur. "Pelaqonim" yunan mənşəli termindir, dəniz mənası ifadə edir. Məlumdur ki, respublikamızın hüdudlarında yalnız bir dəniz yerləşir, bu da Xəzər dənizidir. Buna görə də Azərbaycan dilində işlətdiyimiz digər dəniz adları dilimizə məxsus deyil, onlar başqa dillərdən kalka edilərək dilimizə gətirilmişdir. Şəhriyarın dilində pelaqonimlərə aid iki nümunə işlənmişdir; Xəzər dənizi, Mərmərə dənizi və s. Məsələn: Bax *Xəzərə*, hənuz qəmi dərin gör // Qış çıxmayıb, ruzigarı sərin gör // İlk baharın ancaq sözün şirin gör // Ümidplov bişsə gözəl bir şeydir // Ümid var ki, demək, yeməkdən yeydir; Türkiyəyə getdin unutdun məni // İstanbulun

ovçusu səpdi dəni // Qapdı demək mirvari görcək səni // İstambulun *Marmarası* Ancela // Gözlərimin ağı-qarası Ancela [4, 108].

Hidronimlərindən biri də limnonimlərdir, bura axmaz su obyektlərinin adları daxildir. Azərbaycan respublikasının ərazisində təxminən 250-yə yaxın süni və təbii göl yerləşir. Şəhriyarın dilində aşağıdakı limnonim nümunələri işlənmişdir: Quru göl, Qara göl və s. Məsələn: Heydərbaba *Qara gölün* dərəsi // Xoşginabın yolu, bəndi, bərəsi // Orda düşər çil kəhliyin fərəsi // Ordan keçər yurdumuzun özünə // Biz də keçək yurdumuzun sözünə [4, 45]; Heydərbaba, *Quru gölün* qazları // Gədiklərin sazax çalan sazları // Kənd-kövşənin payızları, yazları // Bir sinema pərdəsidir gözümdə // Tək oturub seyr edirəm özümdə [4, 38].

Hidronimlərin bir hissəsini də potamonimlər təşkil edir. Potamonimlərə çay adları daxildir. Potamonim termini də yunan dilindən götürülmüşdür, "potamos"-çay və "onoma"-ad hissələrindən ibarətdir. Şəhriyarın dilində potamonimlərə aid yalnız bir nümunə işlənmişdir; Araz çayı və s. Məsələn: Sinə bir-dəşti Muğandır, quzu yan-yanə yatıb // Mənim ağlar gözümü orda Araz eyləmisən [4, 73]; Qanlı dırnaqlarılan ingilis əl qatdı bizə, Baxırsan rus da Arazdan keçir İran apara [4, 58]. Şəhriyarın dilində helonim və okeanimlərə aid heç bir nümunə işlənməmişdir.

Onomastik sistemin bir hissəsi də ktematonimlərdən ibarətdir. "Dilimizdə maddi maddi mədəniyyət abidələrinin, elm və texnika ilə,mənəvi mədəniyyətlə bağlı əsərlərin, xüsusi əşyaların, inzibati idarə, təşkilat və sairənin adını bildirən onomastik vahidlər ktematonimlərdir"[6, 128]. Onomastik sistemin bir hissəsi olaraq ktematonimlər zəngin və rəngarəng tərkibə malikdir. Ktematonimləri təşkil edən xüsusi adlar bu günə kimi demək olar ki, sistemli bir araşdırmaya cəlb olunmamışdır. Ktematonimləri onomastik sistemin digər kateqoriyalarından fərqləndirən xüsusiyyətlərdən biri odur ki, onlar əsasən müasir adlardan ibarətdir. Ktematonimlərin aşağıdakı növləri var; 1) xrematonimlər; 2) xrononimlər; 3) ideonimlər; 4) erqonimlər.

Şəhriyarın dilini təqdiq edərkən yuxarıda verilən ktematonim növlərindən yalnız ideonimlərlə rastlaşırıq. İdeonimlərə aşağıdakı adlar qrupu daxildir; 1) nəşriyyat adları; 2) qəzet və jurnal adları; 3) bədii əsər adları; 4) musiqi əsərlərinin adları; 5) musiqi kollektivlərinin adları; 6) teatr tamaşalarının adları; 7) televiziya verilişlərinin adları. Şəhriyar şeirində ideonimlərin tərkib hissəsi olaraq bədii əsər, dini kitab, opera və balet adlarına rast gəlirik.

Dini kitab adları: Quran. Məsələn: Mənim ilhamım ilə burda qonuşub dil-dodağım // *Qurana*, Hafizə burda açılıb göz-qulağım [4, 69]; Xəttü xalından alıb məşqimi *"Quran"* yazaram, Bu həqiqətdə məni əhli-məcaz eyləmisən [4, 73].

Bədii əsər adları: Səhəndiyyə poeması. Məsələn: Həm Səhəndiyyə Səhəndin dağın etdi başıuca // Həm mən öz qardaşımın haqqını ifa elədim [4, 128].

Opera və balet əsərləri adları: Arşın malçı, Məşədi ibad. Məsələn: Orda hünər mədənlərtək qazılıb // **"***Məşədi İbad*" ,"*Arşın malçı*" yazılıb [4, 82].

Muğam və təsnif adları: Dəramənd, Rast, Şuri, Segah, Bayati-kürd, Şikəstə, Mahur, Şahnaz, Zabil, Hüseyni, və s. Məsələn: Sızıldar sinəmin sazı "*Dəramənd***"** eylərəm **"**Şuri**"** // "Çobanım" sən də "Səlməklə" sızıldat tari-tənburi // "*Hüseyni"* kəkilin "Üzari" getdi, nəzmi olmuş kəsr // Çağır "*Şahnaz*" ını mənzum edək bu şeri-mənsuri [4, 136]; "Mərkəb xan" edir məhdur, qoy İsrafil çal suri //"Qarabağım" çıxıb əldən "Segahım" qoy "Yetim" olsun [4, 136]; Çal "Cargah" də "*Zabil*" // "Müxalif varsa "Məğlub" et, "Hasar" içrə darıxdım , qoy dara çəksinlə "Mənsur"i [4, 136].

Bədii ədəbiyyatda muğam adlarının yer tutması qədim ənənəyə malikdir. Musiqi əsərlərinin adları ilə bağlı ideonimlərə Şəhriyarın "Sazlı şairimiz Safi ruhuna təqvim" şeirində rast gəlirik. Müəllifin bu şeiri başdan-başa muğam və təsnif adlarından ibarətdir. Belə ki, bu şeir vasitəsilə ustad şairin musiqi biliyindən də xəbərdar oluruq.

Ədəbiyyat

1. Qəzənfər Kazımov. Dil, tarix, poeziya. Bakı: "Nurlan", 2005, 600 s.
2. Mehdiyeva G. Musa Kalankatlunun "Alban Tarixi" əsərinin onomastik leksikası. fil. ü. f. dok. ...diss. Bakı, 2017, 189 s.
3. Mikayılova Ə. Onomastik vahidlərin üslubi imkanları, "Memar Nəşriyyat-Poliqrafiya" Bakı. 2008, 302 s.
4. Şəhriyar M. Seçilmiş əsərləri. Bakı: "Avrasiya press", 2005, 480 s.
5. Hüseynova H. Bədii əsərlərdə onomastik vahidlərin rolu. Bakı, "ADPU-nun nəşri", 2017, 190 s.

M.Amanov

The onomastic names in the language of Mahhammadhouseyn Shahriar

Summary

Onomastics or onomatology is the study of the origin, history, and use of proper names. A hydronym (from Greek, hydor, "water" and onoma, "name) is a proper name of a body of water. Hydronymy, a subset of toponymy, the taxonomic study of place-names, is the study of the names of bodies of water, the origins of those names, and how they are transmitted through history. Hydronyms may include the names of rivers, lakes, and even oceanic elements. Compared to most other toponyms, hydronyms are very conservative linguistically, and people who move to an area often retain

the existing name of a body of water rather than rename it in their own language. Therefore, hydronomy may be a tool used to reconstruct past cultural interactions, population movements, religious conversions, or older languages.

M.Amanov

Ономатические имена в языке Махаммадхусейн Шахриара

Резюме

Ономастика или онматология - это изучение происхождения, истории и использования собственных имен. Гидроним (из греческого языка, гидра, «вода» и онма, «имя») является правильным названием водоема. Гидронимия, подмножество топонимии, таксономическое исследование географических названий, - это изучение названий тел воды, истоки этих имен и то, как они передаются по истории. Гидронимы могут включать названия рек, озер и даже океанических элементов. По сравнению с большинством других топонимов гидронимы очень консервативны лингвистически, а люди, которые переходят на область часто сохраняет существующее название водного пространства, а не переименовывает его на свой родной язык. Поэтому гидрономия может быть инструментом, используемым для восстановления прошлых культурных взаимодействий, движений населения, религиозных преобразований или более старых языков.

Rəyçi: Sənubər Abdullayeva
Filologiya üzrə fəlsəfə doktoru, professor

FİRUZƏ SADIQOVA
Bakı Dövlət Universiteti
firuzeesgerova@icloud.com

"QUTADĞU BİLİG" ƏSƏRİNDƏ FEİLLƏRİN QRAMMATİK VƏ SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: feil, zamanlar, leksik-semantik, morfologiya, türk dilləri, qrammatika, dilçilik
Key words: verb, tense, lexical-semantic, morphology, turkish languages, grammer, linguistics
Ключевые слова: глагол, время, лексико-семантического, морфология, турецкие языки, грамматика, лингвистика

Dahi türk şairi, mütəfəkkiri və dövlət adamı Yusif Xas Hacib Balasağunlunun "Qutadğu bilig" əsəri orta türk dövrünün şah əsərlərindən biridir. O, yalnız türk dili və ədəbiyyatı tarixində deyil, ictimai-siyasi və fəlsəfi fikir tarixində mühüm yer tutur. "Qutadğu bilig" iki əsrə yaxındır ki, müxtəlif ölkələrdəki türkoloqların və şərqşünasların diqqət mərkəzindədir. Bugünə qədər əsər, onun müəllifi və Qaraxanilər dövrü haqqında saysız-hesabsız kitab, monoqrafiya, məqalə və dissertasiya qələmə alınmışdır. "Qutadğu bilig" haqqında ilk məqalə ünlü fransız şərqşünası Pierre Amadee Jaubert (Jober) tərəfindən 1825-ci ildə "Journal Asiatigue"in 6-cı sayında işıq üzü görmüşdür. O tarixdən keçən vaxt ərzində Yusif Xas Hacib Balasağunlu və "Qutadğu Bilig"lə ilgili qaynaqları əks etdirən 22 biblioqrafiya hazırlanmışdır. Bunlardan sonuncusunda bu mövzuda 21 dildə 3 min məxəz toplanmışdır.

Qut-türkcə səadət, xoşbəxtlik, uğurlu tale deməkdir. "Qutadğu bilig" isə xoşbəxtliyə, səadətə aparan elm, bilik deməkdir (*qut*-xoşbəxt, *ad*-etmək mənalı adlardan feil düzəldən şəkilçi, *ğu*-feildən ad düzəldən şəkilçidir; *bil*(mək) feili kökü, *ig*-feidən ad düzəldən şəkilçidir.

Y.Balasağunlunun "Qutadğu bilig" əsəri qədim türklərin həyat tərzi, etnoqrafiyası, tarixi, milli-mənəvi dəyərləri haqqında möhtəşəm ensiklopedik mənbədir.

Bu möhtəşəm abidədə türk mədəniyyətinin bir sıra problemləri ilə yanaşı türk dilinin də bəzi aktual məsələlərinin öyrənilməsi XI əsr türk ədəbi dilinin qrammatik sistemi haqqında dolğun bilgilər əldə etməyə təkan verəcək. "Qutadğu bilig" əsərində ayrı-ayrı nitq hissələrinin, o cümlədən feillərin semantik, morfoloji və söz yaradıcılığı baxımından dərindən araşdırılması eyni zamanda Azərbaycan dili tarixində bir sıra problemlərin də həllinə kömək edəcək. Bunlar mövzunun aktuallığını şərtləndirən əsas cəhətlərdir.

Daha çox leksik-qrammatik xüsusiyyətlərin sabitliyi ilə seçilən feilin bu xüsusiyyəti qədim türk ədəbi dili normalarının orta əsrlər türk ədəbi dilinə ötrülməsində də özünü göstərir. Feilin əksər şəkil, növ əlamətləri orta əsrlər yazılı abidələrində də qədim türk dövründə olduğu kimi qalır. Run yazılarında müşahidə olunan qrammatik variantlılıq isə orta əsrlərdə bu və ya digər türk formalarının lokal dil xüsusiyyəti kimi üzə çıxır. Feilin əmr şəklinin ikinci şəxsin cəminə aid morfoloji əlaməti türk runik yazılarında əsasən –ın şəklində ifadə olunur. Qədim dövürdə tam diferensiallaşmamış bu iki dil xüsusiyyəti orta əsrlərdə ayrı-ayrılıqda lokallaşır, -ın əlaməti oğuz və qıpçaq türkilərində, -ınlar isə ehtimal ki, Xaqaniyyə türkcəsində işlənir.

İkinci şəxsin təkində də hər iki dövürdə variantlılıq müşahidə olunur: həm şəkilçisiz forma-söz kökü fəaliyyət göstərir, həm də -ğıl, -gil morfemləri işlənir. Run yazılarında bunlar üslubiliyə xidmət etdiyi halda (orator nitqlərində daha çox şəkilçili forma, üslubdankənar vəziyyətlərdə daha çox feil köküşəkilçisiz forma işləkdir), orta əsrlərdə belə situasiya müşahidə olunmur və müvafiq dil faktları qrammatik variantlılıq səviyyəsində qalır. (2,88)

Feil nitqin dinamik məzmunlu hissəsidir. Feildən başqa nitqin heç bir hissəsi feil kimi zəngin və mürəkkəb qrammatik formaya malik deyil. Feil hərəkət, proses, bildirməsi etibarilə leksik layın içərisində daha geniş sferanı əks etdirir, qrammatik kateqoriyanın zənginliyi və rəngarəngliyi ilə seçilir, idarəetmə qabiliyyəti və cümlədə fikir bildirməyi baxımından söyləmdə əsas yer tutur. V.Humbolt feili "cümlənin canı" adlandırır. V.Vinoqradov isə göstərir ki, feil predikat olaraq bütünlükdə cümləyə həyat və ruh verir, belə ki, feil konstruksiyaları cümləyə həlledici təsir göstərir.

Türk dillərində feilin araşdırılması sahəsində müəyyən təcrübə vardır. M.A.Kazım-bəydən başlayaraq müxtəlif dilçilər tərəfindən ayrı-ayrı türk dillərində feil haqqında çoxlu sayda araşdırmalar aparılmışdır.

Türkoloji dilçiliyin tarixi yazılarkən, metalinqivistik səviyyədə sözügedən fənnin əsasları, mənbələri və əsas fikri inkişaf istiqamətləri müəyyənləşdirilərkən XII əsrdən etibarən türk dillərinə aid öncə ərəb dilçiliyi, sonra isə Hind-Avropa dilçilik məktəbi ənənələrinə görə yazılmış müxtəlif linqivistik səciyyəli əsərlərdən, lüğət-qlossarilərdən, eyni zamanda yer alan bölmələrdən yaralanılmaqdadır.

Feil digər qrammatik xüsusiyyətləri ilə yanaşı, müxtəlif leksik-semantik anlam özəlliklərinə, məna sahələrinə və konnotativ çalarlıqlara malikdir. Və belə bir anlam, məna və çalar müxtəlifliyi də zəngin söz yaradıcılığı imkanlarının aqqilütinativ üsulla gərçəkləşməsinə yol açmaqdadır. Feil əsasında gərçəkləşən söz yaradıcılığı imkanlarını iki istiqamətdə müəyyənləşdirmək olar: 1) Feildən yaranan adlar; 2) Feildən yaranan feillər.

Dilçilikdə belə bir sistem mövcuddur ki, dil bütövlükdə böyük bir sistemdir, o dəyişir və inkişaf edir. Şəkilçilər isə onun kiçik və əhəmiyyətli bir

hissəsidir. Ancaq dilin quruluşundan aslı olaraq şəkilçilərin törəməsi və inkişafı, onun polifunksionallığı hər bir dilin morfoloji xüsusiyyətlərini özündə əks etdirir. "Morfoloji səviyyəsi olan bütün dillər üçün universal xarakter daşıyan leksik vahidlərdən şəkilçilərin törəməsi, onların inteqrasiyası və diferensiallaşması dilin yeni qrammatik elementlərinin yaranması ilə müşayiət olunur. Leksik vahidlərə qoşulmaqla onlar insanın şüurunda mövcud olan fikirlərin kamil, bitkin ifadəsi üçün əvəzsiz xidmət göstərirlər".

Hər bir morfoloji vahidin öz məna tutumu var və həmin morfemin atributu da odur. Polifunkional vahidlərdən isə bu baxımdan maraqlı məsələlər özünü göstərir. Deyək ki, -ış[4] şəkilçisi feilin həm növ, həm də isim düzəldən şəkilçisidir. Çünki polifunksionallıq sinkretizm əlaməti olmaqla əksərən morfoloji baxımdan əks qütblərdən dayanan vahidlərdə özünü göstərir. Eyni zamanda hər bir polofunksional vahiddə müstəqil olaraq potensial mərkəz vardır. Potensial mərkəzlərin xüsusiyyətləri diferensiallaşma istiqamətlərindən aslıdır. Türk dillərində isimlərin böyük bir qismi feil köklərinə müəyyən söz düzəldici şəkilçilərin artırılması ilə əmələ gəlir. Bu şəkilçilər müxtəlif semantikalı isimlərin düzəldilməsinə xidmət edir. Türk dillərində feil əsasəndan müxtəlif sözdüzəldici şəkilçilərin vasitəsilə, əsasən, isim və sifətlərin düzəldilməsində istifadə edilir. Türk dillərinin qrammatik quruluşunun qədim dövrlərində uzun müddət sadə sözlərdən mürəkkəb sözlərin yaranması aparıcı istiqamət olmuşdur. Sonralar mürəkkəb sözün tərkibində olan bir sözün şəkilçiyə çevrilməsi yolu yeni morfoloji proses meydana gəlmişdir. Bununla belə bir nəticəyə gəlmək olar ki, kökü mürəkkəb sözə bağlanan və müasir dilimizdə düzətmə adlandırdığımız vahidlərin də mənşəyi sintaktik birləşmələrə gəlib çıxır. Sözdüzəldici şəkilçilərin sözdən törəməsi və düzətmə sözlərin böyük bir qisminin semantik cəhətdən cümlələrə ekvivalentliy yaradır.

-aq, -ək, -ıq, -ik, -uq, -ük, -q, -k, -ğ. Azərbaycan dilində bu şəkilçilərlə həm hərəkət və təfəkkür, həm də nitq feillərindən əmələ gələn isimlər yaranır. Bu şəkilçilərin mənşəyi haqqında dilçilikdə müxtəlif fikirlər mövcuddur. Bəzi dilçilər qeyd edilən şəkilçidən "az məhsuldar şəkilçilər" adı altında danışır və onları funksional-genetik cəhətdən eyni tipli göstərici hesab edir və həmin formaların aşağıdakı kimi tarixi inkişaf prosesi keçdiyini göstərir: *-qak//-qık, -aq//-ık, -q, -k.* H.Quliyev feilin semantikasına xüsusi tədqiqat həsr edilmişdir. O, yalnız Azərbaycan dilində deyil, ümumiyyətlə, türk dillərində feillərin semantik qrupları müəyyənləşdirilir. Müəllif öz bölgüsündə rus dilçisi Z.M.Vasilyeviçin bölgüsünə əsaslansa da, öz mövqeyini də müəyyənləşdirir və belə bir bölgü aparır: 1) hərəkət feilləri; 2) iş feilləri; 3) hal-vəziyyət feilləri; 4) təbiət hadisələrini bildirən feillər; 5) psixi fəaliyyətlə bağlı feillər; 6) səslənmə feilləri.

*"Qutadğu bilig"*də iş feilləri bilavasitə insanın əməli fəaliyyəti ilə bağlıdır. İnsan fəaliyyəti isə son dərəcədə rəngarəngdir. İnsan həyatının

müxtəlif sahələri ilə bağlı olan bu sözlərdə daha çox subyektin obyektə təsiri özünü göstərir. Ona görə də bəzi dilçilər bu sözləri "təsirli feillər" kimi təqdim edirlər. V.F.Veşilova isə onları hətta "subyektin obyektə təsirini göstərən feillər" adlandırır. Elə feillər var ki, onlar müxtəlif səpkili iş proseslərini yox, bütünlükdə, ümumilikdə işləmək anlayışını ifadə edir.

*"Qutadğu bilig"*də hərəkət feilləri leksik-semantik təsnifatında hərəkət feillərinin də mühüm yeri vardır. Türkologiyada hərəkət feilləri əsas etibarilə iki qrupa ayrılır: 1) hərəkətin istiqamətini bildirən feillər; 2) hərəkətin üsulunu bildirən feillər. Bir neçə feildə vardır ki, qruplar arasında orta mövqey tutur.*"Qutadğu bilig"* əsərində hərəkətin istiqamətini bildirən feillər də mühüm yer tutur. Həmin feillər daxili semantik çalarına görə də müxtəlif səciyyəlidir. Feillərin ifadə etdiyi hərəkətlər məzmun etibarilə müxtəlif səpkili olduğu kimi, üsul cəhətdən də bir-birindən əsaslı şəkildə fərqlənir, zəngin xarakterə malik olur. *"Qutadğu bilig"*də nitq feilləri bəziləri birbaşa bu anlayışın özü ilə bağlıdır. Qədim zamanlarda türk dillərində işlənən -ay "demək" feili işlənir ki, onun da müxtəlif qrammatik formaları vardır. *"Qutadğu bilig"*də də bu feil "demək, söyləmək" anlamında verilmişdir. Qədim türklər hər hansı danışıq forması üçün ayrıca sözdən istifadə etmişdir ki, müasir dilimizdə bunların söz birləşməsi və ya frazeologizmlər kimi işlənir.*"Qutadğu bilig"*də hal-vəziyyət feilləri istər canlı, istərsə də cansız varlıqların müxtəlif vəziyyətlərini, onların dəyişmə xüsusiyyətlərini özündə əks etdirir. Hal-vəziyyət feilləri bəzən hərəkət feilləri ilə, daha dəqiq desək, üsul, tərz anlayışı bildirən hərəkət feilləri ilə qarışıq salınır. Bu növ feillərin bir qismində əşyanın zahiri görkəmində yaxşılığa doğru dəyişmə anlayışı ifadə olunur.*"Qutadğu bilig"*də psixi fəaliyyət bildirən feillər dilçilik ədəbiyyatında bu feil növü bir neçə yarımqrupa bölünür. Bu yarımqrupa aid sözlər Yusif Balasaqunlunun *"Qutadğu bilig"*ində də əksini tapmışdır.

Türkoloji ədəbiyyatda -ar, -ər şəkilçilərinin etmalogiyasına və bu şəkilçilər vasitəsilə yaranan feillərin semantikasına aid bir sıra fikirlər söylənilmişdir. Morfoloji yarusun təhlili göstərir ki, dil faktlarında funksional baxımından qeyri-sabitlik var. Bu o şəraitdə baş verir ki, variantlılıq güclü genealoji kökə dayanır. Odur ki, birinin normativ plandan kənara düşməsi və digərinin əsasında norma sisteminin təşkili prinsip etibarilə mümkün olmur. Digər tərəfdən, dilin funksional coğrafiyası qarışıq təbiətə malikdir. Ancaq qarşılıqlı xaotik yox, sistemli xarakterdə üzə çıxır. Belə olan halda dialektüstlülük keyfiyyəti bu sistemlilikdə, variantlılığın özünün növbələşmə ardıcılığında, üslubilik meyillərində təzahür edir. Götürək feilin şəkil kateqoriyasını. Əmir şəkli ikinci şəxsin təki üzrə iki variantda təmsil olunur. Rəsmi üsluba aid nitq kəsiklərində hər ikisi həm *–qil* şəkilçili, həm də şəkilçisiz forma işlək olduğu halda, rəsmi-əməli sahəyə aid üslubdankənar vəziyyətlərdə sadəcə feil kökü fəaliyyət göstərir. (1, 92)

-qil şəkilçisi rəsmi üsluba aid standart ifadələr kontekstində iştirak edir. Yəni rəsmi üslub və ədəbi nitq materialı kimi sabitləşmək tendensiyasını doğurur. Təsadüfi deyil ki, Azərbaycan ədəbi dilinin əsasında danışıq dili normaları dayanana qədər *–ğıl, -gil* şəkilçisinin funksionallığı qorunub saxlanır. Və elə ki, XVII-XVIII yüzillərdə Azərbaycan ədəbi dilinin qrammatik norması ümumxalq dili əsasında yenidən təşkil olunur, onda *–ğıl, -gil* normativliyini itirir, əsasən şəkilçisiz norma aktivləşir. Düzdür, N.Cəfərov bu prosesə bu cür ad verir: ümumən türki normativliyinin milli-demokrativ normativliklə əvəz olunması. Ancaq hər halda qəbul etməliyik ki, *-ğıl, -gil* forması tarixən Azərbaycan ədəbi nitqində məhz ədəbilik göstəricisi olub. İndiki zaman ümumiyyətlə, işin icra zamanı ilə haqqında xəbər verilmə zamanın eyni olduğunu bildirir. Lakin indiki zaman şəkilçisi söz söylənilmədən əvvəl başlanmış işi də, söylənmə zamanı başlayıb ondan sonra davam edən işi də ifadə edə bilir. *-ır*[4] indiki zaman şəkilçisi üslub sahələrinə görə müxtəlif məqam və məna çalarlığında işlənir.

Feilin zaman kateqoriyasını tədqiq edən dilçilərimizdən A.Axundov, Z.Budaqova, G.Fəxrəddin qızı indiki zamanın üç üslubi xüsusiyyətini, B.Xəlilov bir üslubi xüsusiyyətini, Q.Mustafayeva altı üslubi xüsusiyyətini, Ə.Bağırov üç üslubi xüsusiyyətini, Ç.Hüseynzadə dörd üslubi xüsusiyyəti olduğunu qeyd etmişdir.

İndiki zamanın üslubi xüsusiyyətlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

1) -r formatı vasitəsilə ifadə olunur. E.Əzizov -r formatının həm indiki, həm də gələcək zaman məzmunu ifadə edə bildiyini qeyd etmişdir.

2) Qeyri-qəti gələcək zamanın indiki zaman məzmunu ifadə edir.

İşin indiki zaman şəkilçisi ilə ifadəsində şahidlik çalarlığı və danışan şəxsin işdə, hökümdə, hadisədə bu və ya digər şəkildə iştirakı ifadə olunur. Qeyri-qəti gələcək zaman şəkilçisində isə bu çalarlıqlar, demək olar ki, yoxdur.

3)-a, -ə şəkilçisi vasitəsi ilə indiki zaman məzmunu ifadə olunur.

-a, -ə şəkilçisini -ır, -ir, -ur, -ür indiki zaman şəkilçisi ilə əvəz etmək olur. E.Əzizov da -a, -ə şəkilçisini indiki zaman şəkilçilərinin işərisində göstərmişdir.

4) -maqda, -məkdə şəkilçisi vasitəsi ilə ifadə olunur və hərəkətin hələ davam etdiyini göstərir.

Azərbaycan dilində bir sıra vasitələr də vardır ki, bunlar, əsasən, başqa məna və vəzifə üçün işlənilməklə bərabər, indiki zaman mənası da ifadədir və beləliklə, indiki zaman şəkilçisi işlənilmədən də indiki zaman ifadə oluna bilir. Belə vasitələr başlıca olaraq aşağıdakılardan ibarətdir.

1. Xəbər şəkilçisi
2. Şəxs sonluqları

3. var, yox, deyil kimi xüsusi tipli sözlər.

Run yazılarında şühudi keçmiş zaman, nəqli keçmiş zaman və şərt şəklinin əlamətləriylə er- bağlaması habelə spesifik *erinç* bağlaması müşahidə olunur.

Üçüncü şəxs üzrə qəti gələcək zamanın inkarı zaman şəkilçisinin bütöv işlənməsini nəzərdə tutmur. Gələcək zamanın digər variantı köhnə uyğur, özbək və poloves dillərində təsadüf edilən *–ğay, -qey* şəkilçisidir. Morfemlər bir məqamda qətilik, başqa məqamda qeyri-qətilik çalarını ifadə edir. Qəti gələcək zamanın uyğur, karluk tipli ifadə variantında qeyri-qəti hökmün ifadəsinə doğru inkişaf prosesi var.

Run yazılarında arzu formasının xüsusi şəkil əlaməti yoxdur. Ancaq tədqiqatçılara görə əmr forması başqa şəkillər, o cümlədən arzu formasının ifadəsində mənbə rolunu oynaya bilər. Müasir qumuq dillərində əmr və arzu şəkillərinin formaları adətən kəsişir, eyni konteksdə eyni forma həm əmr, həm arzu mənasına malik olur. Diferensiallaşmamış əmr-arzu mənası qumıq dilində birinci şəxsin cəmində *-ayık* əlaməti ilə çıxış edir. Yaxud ikinci şəxsin təki və cəminə aid xüsusi əmr formaları müəyyən intonasiyada, yaxud xüsusi indikatorların (məsələn, ədatların) iştirakıyla arzu mənasını qazanmış olur.

Ədəbiyyat siyahısı

1. Yadigar Əliyev. “Qədim türk (runik) yazılı abidələrinin dili. Bakı-Nurlan, 2004, 182 səh.
2. Yadigar Əliyev. “Qədim türk (runik) yazılı abidələrindən orta əsrlər türk yazılı abidələrinə keçid: ədəbi dil normalarının inkişafı. Bakı-Nurlan, 2004, 190 səh.

Sadigova Firuza Ashur

Grammatical and semantic features of verbs in the "Gutadkan bilig"

Summary

The "Gutaduk bilig" by Turkish poet, thinker and statesman Yusuf Has Hacib Balasagunlu is one of the masterpieces of the Middle Turkic era. Y. Balasagunlu's "Gutad Bilig" is a great encyclopedic source about the lifestyle, ethnography, history, national-moral values of ancient Turks. In this magnificent monument, along with a number of problems of the Turkish culture, studying some of the actual issues of the Turkish language will give impetus to the full knowledge of the literary system of the 11th century Turkish literary language. There is some experience in the investigation of

feud in Turkish language. Starting with M.A.Kazım-bey, various linguists have conducted numerous investigations on feud in different Turkic languages. The elephant, along with other grammatical features, has a variety of lexical-semantic meaning, peculiarities, and connotative images. And the diversity of meaning, meaning, and color can lead to the creation of rich vocabulary possibilities in a clever way. In the Gutaduk bilig, the verbs describing the direction of movement also play an important role. These trunks are different in their semantic shades. The actions expressed by Feller differ substantially from the point of view of the content, as well as the different styles, as well as the rich character.

Садыгова Фируза Ашур

Грамматические и семантические особенности глаголов в «Гутадкан билиге»

Резюме

«Гутадук билиг» турецкого поэта, мыслителя и государственного деятеля Юсуфа Хасиба Баласагунлу является одним из шедевров среднеюркской эпохи. «Гутад Билиг» Ю. Баласагунлу - отличный энциклопедический источник жизни, этнографии, истории, национально-нравственных ценностей древних турок. В этом великолепном памятнике наряду с рядом проблем турецкой культуры изучение некоторых актуальных вопросов турецкого языка даст толчок полному знанию литературной системы турецкого литературного языка 11-го века. Существует некоторый опыт в расследовании вражды на турецком языке. Начиная с М.А.Казым-бей, различные лингвисты провели многочисленные расследования по поводу вражды на разных тюркских языках. Слон, наряду с другими грамматическими особенностями, имеет множество лексико-смысловых значений, особенностей и коннотативных образов. И разнообразие смысла, значения и цвета может привести к созданию богатых возможностей словарного запаса умным способом. В Гутадукском билиге важную роль играют глаголы, описывающие направление движения. Эти сундуки отличаются в семантических оттенках. Действия, выраженные Феллером, существенно различаются с точки зрения контента, а также разных стилей, а также богатого характера.

Rəyçi: Ramiz Əskər
Filologiya elmləri doktoru

HÜSEYN SADIQOV
BDU
huseyn@mail.ru

ATATÜRKÜN SAĞLIĞINDA KEÇİRİLƏN TÜRK DİLİ QURULTAYLARI
(İkinci məqalə)

Açar sözlər: Türk dili, leksika, alınma sözlər
Ключевые слова: Турецкий язык, лексика, заимствованные слова
Key words: Turkish language, lexicology, loans

Birinci dil qurultayından sonrakı 1932-1934-cü illər ərzində, yəni ikinci qurultaya qədər olan zaman çərçivəsində dil inqilabının nəzərdə tutduğu məqsədlərini həyata keçirmək üçün bütün ölkə miqyasında dil səfərbərliyi elan edilərək əcnəbi sözlərin yerinə yeni sözlər qoymaq üçün türkçə sözlər seçilərək toplanmağa başladı. Məlumdur ki, Türk dili Tədqiq Cəmiyyətinin yaradıldığı zaman dil işi ilə məşğul ola biləcək elmi kadr heyəti yox idi. Buna görə də bu işə Türkiyənin hər yerindən könüllülər qoşulmuşdu. Bu, bütün ölkə miqyasında davam edirdi. Atatürk Türk dilinin az bir müddət ərzində təmizliyinə nail olmaqla dilin milli mənbəyini, tarixi zənginliyini özünə qaytarmaq istəyirdi. Buna görə də əsas diqqəti dili xarici sözlərdən təmizləyərək və çıxarılan hər xarici sözün yerinə türkcələrinin qoyulmasına yönəldilmişdi.

Atatürk zamanında İkinci Türk Dil Qurultayı 1934-cü ilin 18-23 Avqust tarixində keçirilmişdir. Birinci qurultayda qurumun sədri vəzifəsinə seçilən Samih Rıfat qurultaydan az sonra vəfat etdiyi üçün bu vəzifə ikinci qurultaya qədər boş qalmış, lakin Maarif Naziri Abidin Özmen qurumun fəxri sədri olaraq fəaliyyət göstərmişdir. Qurumun katibi vəzifəsinə seçilən Ruşen Eşref başqa vəzifəyə təyin olunduğuna görə onun tutduğu vəzifəyə gətirilən İbrahim Nəcmi bəy qurumun iki illik fəaliyyəti haqqında məruzə ilə çıxış etmişdir.

Qurultayda təqdim edilən tezislərin bir hissəsi ümumi iclaslarda oxunmuş, digər bir hissəsi isə qurultayın təşkil etdiyi bölmələrdə müzakirə edilmişdir.

İkinci qurultayda xarici qonaqların da iştirak etdiyini qeyd etmək lazımdır. Sovet İttifaqından Elmlər Akademiyasının üzvlərindən Prof. İ.İ.Meşşanilov (Dilin inkişaf tarixi), prof. A.N.Samoyloviç (İki millətin ədəbi dili) hər biri bir tezis təqdim etmişdir.

Bundan başqa Bratislav Universitetinin professoru, doktor GieSe də Almaniyanın elm aləminin nümayəndəsi kimi qurultayda iştirak etmişdir.

Qurultayda «Türk dili Tədqiq Cəmiyyəti» adının dəyişdirilərək «Türk Dili Araştırma Kurumu» adlandırılması haqqında da qərar qəbul edilmişdir. Qurultayın son iclasında bölmələrin hazırladığı məruzələr oxunmuş, təqdim edilən tezislərin isə bir hissəsi müzakirə olunsa da, digər bir hissəsinin müzakirəsi Qurumun Mərkəzi Heyətinə tapşırılmışdır.

Bölmələrin hazırladığı məruzələrdə çox böyük çətinlik olmadığı təqdirdə bütün terminlərin öz Türkçə kök və şəkilçilərin köməyi ilə yaradılması qərarlaşdırılmışdır. Lakin çox ehtiyac olduğu halda isə Qərb ölkələrində işlədilən bəzi elmi və texniki ifadələrin mövcud dillərdən deyil, bu dillərin mənbəyi hesab edilən dildən (məsələn latın dilindən) götürülərək Türk dilinin fonetik və qrammatik qaydalarına görə yaradılması məqsədəuyğun hesab edilmişdir. Bu təklif Qurumun termin bölməsinin hazırladığı məruzədə irəli sürülmüşdür. Eyni zamanda öz Türkçə terminləri gecikdirilmədən xalqın istifadəsinə vermək üçün onların (terminlərin) dərs kitablarına salınması məsələsinin təmin edilməsi də Mərkəzi Heyətə həvalə edilir. Rəsmi dövlət nəşrlərini və dövlət elanlarının öz türkçə olaraq yazılması üçün Cəmiyyət içində xüsusi büro yaradılması da faydalı hesab edilmişdir.

Qeyd etmək lazımdır ki, A.N.Samoyloviçin–Türk dili və ədəbiyyatının araşdırılmasının Sovet İttifaqı və Türkiyə Respublikası alimlərinin birlikdə həyata keçirmək haqqındakı təklifi–qurultay iştirakçıları tərəfindən məmnuniyyətlə qarşılanmışdır. Bununla bağlı mükəmməl proqram hazırlayaraq Dil Kurumunun Mərkəzi Heyətinə təqdim olunması qərara alınmışdır.

Qurultay yenilədiyi İdarə Heyətinə aşağıdakıları seçmişdir: Sədr-Saffet Arıkan, Baş katib–İbrahim Necmi Dilmen, mühasibatlıq–Besim Atalay, üzvlər–Ahmet Cevat Emre, Ali Canib Yöntem, Celal Sahir Erozan, Hasan Reşid Tankut, İzzet Ülvi Aykut, Naim Nazım Onat, Refet Ülgen, Yakup Kadri Karaosmanoğlu.

Qurultaydan sonra fəaliyyət göstərəcək bölmələr yenidən təşkil olunmuşdur. Linqvistika bölməsi sədri vəzifəsinə–Ahmet Cevat Emre, filologiya bölməsinin sədri vəzifəsinə–Ali Canib Yöntem, lüğət işləri bölməsinə–Celal Sahir Erozan, etimologiya bölməsinə-Hasan Reşid Tankut, nəşriyyat bölməsinə–Naim Nazım Onat, istilahlar bölməsinə–Refet Ülgen, qrammatika–sintaksis bölməsinə isə Yakup Kadri Karaosmanoğlu seçilmişdir.

İkinci qurultaydan sonra əsas diqqət söz dərləmə işinə yönldilməklə yanaşı Türk dilinin qrammatikasının hazırlanması fəaliyyəti də davam etdirilmişdir. Eyni zamanda folklor və kitab araşdırma işləri də diqqət mərkəzində saxlanılmışdır. Qurumun fəaliyyətinin əsas nəticəsi olaraq Osmanlıca-Türkçə və Türkçə-Osmanlıca lüğətlərinin hazırlanmasıdır.

Müxtəlif mənbələrdən toplanaraq müəyyən edilən sözlərin, dil materiallarının, Osmanlıcadan Türkçeye söz karşılıkları "Tarama Dergisi" adı ilə 2 cild halında nəşr olundu ki, bu di dil inqilabının təməl kitabı mahiyyətində idi. Lüğət hazırlanması üçün «Tarama Dergisi»ndəki dərc edilən sözlər seçilərək səhv olanları düzəldilmişdir, bəzi sözlər əlavə edilmiş, qarşılıqları arasında ən uyğun olanları seçilmişdir.

Prof. dr. Zeynep Korkmaz Türk Dil Kurumunun İkinci qurultayından sonra keçən müddət ərzində DTK-nın fəaliyyətini belə qiymətləndirmşidir: «Bu dönemde, Kurultayın verdiği kararla, daha önceki dönemin derleme ve taramaları bir ayıklamadan geçirilmiştir. Yürütülen çalışmaların akışı şöyledir:–İkinci Türk Dil Kurultayı'ndan sonra, daha önce yayımlanan karşılıklar kılavuzu üzerinde çalışacak bir komisyon kurulmuştur. Bu komisyon yabancı sözlerin «Tarama Dergisi»ndeki karşılıklarını inceleyip her yabancı söze bir tek karşılık gelecek biçiminde de eklemeden geçirilmiştir. Karşılığı bulunmayan arapça, farsça sözler olduğu gibi bırakılmıştır. Komisyon Tarama Dergisindeki sözler üzerinde yaptığı ayıklamadan sonra bunları gazeteler aracılığı ile bir de soruşturmaya sunmuştur. Çalışma sonuçları 1935 yılında Osmanlıcadan Türkçeye Cep Kılavuzu ve Türkçeden Osmanlıcaya Cep Kılavuzu adlarıyla iki küçük kılavuz halinde yayınlamıştır. Bir yandan da söz türetme yollarına başvurularak Türkçe köklerden yeni sözler türetilmeye başlanmıştır: Bu dönem, Birinci dönemdeki aşırılık ve karışıklığın «bir dereceye kadar dizgine alınabildiği gibi» «ılımlı» bir özleştirme dönemi» diye kabul edilmiştir. (Prof. dr. Zeynep Korkmaz «Cumhuriyet döneminde Türk dilinde ve Türk Dil Alanında Yaşanan Gelişmeler» Türk Dili Sayı 622.)

Bu müddət ərzində görülən işlərin nəticəsini incələsək çox da sevindirici olmayan bir mənzərə ilə qarşılaşırıq. Belə ki, lüğətdə Türkçə olmadığı halda Türkçə kimi göstərilən ya da xarici dillərdən heç bir qayda-qanuna sığmayacaq şəkildə alınmış sözlər yer alırdı. Əvvəlcə bu işlə lüğət üzrə yaradılmış komissiya məşğul olurdusa da, sonra bu fəaliyyətdə Dil Cəmiyyətinin Mərkəzi İdarə Heyətinin üzvləri də iştirak edirdilər. Birgə fəaliyyət zamanı yenə mübahisələr, fikir ayrılıqları meydana çıxırdı. Ən çox mübahisə mövzusu yüzlərcə ərəb və fars kəliməsinin –hansı ki, xalqın gündəlik işlətdiyi sözlər idi, Türkçə qarşılıqlarını xalqın hələ istifadə etmədiyi halda dildən çıxarılması idi. Bu çox böyük çətinliklər və anlaşılmazlıqlar yaradırdı. Xalqın malı olmuş, onun işlətdiyi sözləri–devir, devlet, hatır, hükumet, kalem, kanun, kitap, kuvvet, millet, sabah, akşam dildən necə çıxarmaq olardı? Bəzən də bütün bunlar katib, müdür, nazariye, timsal sözlərinin əvəzinə-sekreter, direktör, teori, sembol gətirməklə qərb mədəniyyətini qəbul edərək avropalılaşmaq arzusundan irəli gəlirdi. Mətbuatda hər kəs bildiyi və ya yaratdığı sözü işlədirdi. Hətta bəzi yazıçılar

öz əsərlərini əvvəlki dillə yazsalar da sonra əsərdə keçən xarici sözləri Tarama Dergisindən götürdükləri sözlərlə əvəz edirdilər. (Fatih Rıfkı Atay. «Atatürk ve Özleştirme», «Dünya gazetesi», 17 Temmuz 1966).

Bütün bu mübahisələri, fikir ayrılıqlarını və bunların ictimaiyyətə təsirini yaxından izləyən Atatürk artıq çox ifratçılığa meydan verildiyini və dilin ağır bir vəziyyətə gətirildiyi qənaətinə gəlir və bu barədəki düşüncələrini Lüğət Komissiyasının sədri olan Fatih Rıfkıya belə demişdir: «Memleketimizin en büyük bilginlerini, yazarlarını bir Komisyon halinde aylarca çalıştırdık. Elde edilen netice şu bir küçük Lugattan ibaret. Bu Tarama dergileri cep kılavuzları ile bu dil işi yürümez. Fatih bey biz Osmanlıcadan ve batı dillerinden istifadeye mecburuz.» (F.R.Atay, Çankaya-Atatürkün döğumundan öülümüne kadar, İstanbul 1969, s.447)

Yuxarıda qeyd olunanlardan məlum olur ki, dildə vətəndaşlıq hüququ qazanmış sözlər xarici dillərdən olmasına baxmayaraq dildən çıxarılmamalıdır. Dilin təmizlənməsi üçün tələsikliyə yol vermək olmazdı. Bu sahədə əvvəlcə elmi hazırlığın olmasına ehtiyac yaranmışdı. Dildən çıxarılması lazım olan sözlər öz qaydaları ilə dilə daxil olaraq, xalq tərəfindən başa düşülməyən, mənimsənilməyən sözlər olmalı idi. Bütün bunları görən Atatürk Dil bayramı münasibəti ilə Qurumun Baş Katibliyinə göndərdiyi təbrik teleqramında birinci dəfə göndərdiyi teleqramdan fərqli olaraq əvvəl işlənən xarici sözləri işlətməkdən çəkinməmişdir. İkinci teleqramın mətni belədir: «Dil bayramını mesai arkadaşlarınızla birlikte kutladığınızı bildiren telgrafınızı teşekkürle aldım. Ben de sizi tebrik eder ve Türk Dil Kurumuna bundan sonrakı çalışmalarında müvaffakkiyetler dilerim». K.Atatürk (Nail Tan, Kuruluşunun 70. Yıldönümünde Türk Dil Kurumu, TDK yay. Ankara, 2001, s. 47).

Prof. dr. Zeynep Korkmazın «Cumhuriyet döneminde Türk dilinde ve Türk dili Alanında Yaşanan Gelişmeler» məqaləsində qeyd etdiyi kimi Atatürk 1936-cı ildən başlayaraq–«tasviyecilik» yolunda həyata keçirilənlərə o qədər də rəğbət bəsləməmişdir. Üçüncü Türk Dil Qurultayında gündəliyə çıxarılan Güneş-Dil nəzəriyyəsi ilə dildən bütün xarici sözlərin türk sözləri ilə əvəz edilməsi məsələsi dayandırılmışdır. Atatürk Türk dilinin özləşdirilməsinə duyulan ehtiyaca ürəkdən inanan bir şəxsiyyət kimi öz nitqlərində (Millət Məclisindəki çıxışlarında) türkçə sözlərin işlədilməsinin uğurlu nümunələrini vermişdir. Onun çıxışlarında işlətdiyi sözlər–albay, yarbay, basım, yayın, belirtmek, berkitmek, Danıştay, Yargıtay, dilekçe, durum, gerekmek, gündem, güvenç, önemli, ulus, yöntem-bu gün də işlədilir.

Qeyd etmək lazımdır ki, birinci qurultayla ikinci qurultay arasındakı dövrdə ifrat dərəcədə özləşdirməçilik və tasfiyecilik davam etdirilirdi. 1934-1936-cı illər arasında Atatürk Türk dili ilə digər xarici dillərin mənşəyi istiqamətində çalışmalara maraq göstərirdi. Onda bu dillər arasındakı

qohumluq əlaqələrinin olmasını, Türk dilinin bütün dillərin qanyağı olduğunu elmi cəhətdən sübut etmək düşüncəsi yaranmışdı. Bütün bunların nəticəsi olaraq – Güneş-Dil Teorisi meydana çıxmışdır. Günəş-Dil nəzəriyyəsi Türk tarixi və dili ilə əlaqədar olan bir çox məsələləri əhatə edirdi. Atatürk bu nəzəriyyəyə Türk dilinin sadələşdirilməsi məsələsindəki yaranmış anlaşmazlığı, yazı dilindəki qarışıqlığı aradan qaldırmaq üçün bir vasitə baxırdı. Dil inqilabının həyata keçirilməsində Atatürkün bel bağladığı bir çox silahdaşlarından biri də Yakup Kadri Karaosmanoğlu idi. Görkəmli yazıçı Atatürk haqqında yazır: «Atatürkün ən əlamətdar xüsusiyyətlərindən biri cəsurluqla təcrübələrə başlamaqdan çəkinməməsiydi... Kvergiçin görüşlərinə əsaslanan Günəş-Dil nəzəriyyəsi ilə də dil məsələsində yeni bir təcrübəyə başlayırdı. Bu mövzuda çox şey yazılmış, söylənmişdi. Atatürkün bu nəzəriyyəni tam olaraq mənimsədiyini söyləyənlər ilə yanaşı tam bir özləşdirmənin mümkün olmayacağını anlayan kimi qəti qərara gəlmək üçün bu yola müraciət etdiyini söyləyənlər də olmuşdur. Atatürk ən qatı osmanlıcanı–illər boyu bu mürəkkəb, təmtəraqlı dili işlətmişdi. Bundan sonra da Türk dilindəki bütün xarici sözləri çıxarmaq istəyən «təsfiyəçilərin» tərəfini saxlamış, onları müdafiə etmişdir. Günəş-Dil nəzəriyyəsi məsələsində isə dil sahəsində öz fəaliyyətini yeni formada davam etdirməklə yol axtarma qayğısı özünü göstərirdi.

24-31 Avqust 1936-cı ildə Üçüncü Türk Dil Qurultayı İstanbulun Dolmabahçe Sarayında keçirilmşidir. Bu qurultayda o dövrün məşhur alim və türkoloqlarından –Dr. Kiverqıtç, D.Ross, J.Deny, F.Giese, A.Bombaci, SSRİ EA üzvlərindən A.N.Samoyloviç, Meşşaninov, Macarıstanlı karay türklərindən A.Zajaçkovski iştirak etmişdir. Türk Dil Kurumunun baş katibi İbrahim Necmi Dilmenin Qurumun fəaliyyəti haqqındakı məruzəsində gəlinən nəticə belə ifadə edilmşidir: «Türk Dil Devriminin ameli, dileği, yazı dilimizle konuşma dili arasındakı uçurumu ortadan kaldırmak, böylece Cumhuriyet Türkiyesi'nde herkesin kolaylıkla okuma, yazma öğrenmesine, okuduğunu anlamasına, düşündüğünü yazmasına meydan açmaktır (48)

Qurultaya təqdim edilən məsələlərlə yanaşı Atatürkün şəxsən təklif etdiyi Günəş-Dil nəzəriyyəsi də müzakirə mövzusu olmuşdur. Belə bir nəzəriyyə o illərin Avropa ölkələrində ortaya atılan düşüncələrdən bəhrələnərək meydana çıxmışdır. Burada dillərin meydana gəlməsi, psiko-sosiologiyaya aid olan düşüncələr əsas rol oynamışdır.

Papaz olan Sümeroluq –«Dillərin, Dinlerin ve Halkların kökeni» adlı əsərində (Pazis 1932-33) Sümer dilini ana dili hesab etmişdir. Barenton Parisdəki Türkiyə Səfirliyindən Atatürkün dil məsələlərinə çox əhəmiyyət verdiyini öyrənən kimi xüsusi məktub yazaraq kitabını göndərmişdir. Alimin bu incələməsi Atatürkü çox maraqlandırmışdır. Eyni zamanda Almaniyada Ernest Böklen də 1922-ci ildə çap etdirdiyi kitabında dillərin köklərinə aid

olaraq bir Ay-Dil nəzəriyyəsini təklif etmidir. Vyana Universitetində Şərq dilləri ilə bağlı dissertasiya müdafiə edən Hermann F.Kvergiç isə 1935-ci ilin yanvarında hazırladığı «Türk dilinduki bazı öğelerin psikolojisi» adlı incelemesini Atatürkə təqdim etmişdir. Bəzi alimlərin söylədiklərinə görə Günəş-Dil nəzəriyyəsi, Avropadakı başqa görüşlər də nəzərə alınmaqla meydana çıxmışdı. Günəş-Dil nəzəriyyəsinə görə ilk sözcüklərin və ümumi ifadələrin günəşdən əmələ gəldiyi güman edilirdi. Bu əsərin yazılmasında Atatürkün əsas məqsədi Türk dilinin Türk sivilizasiyası və mədəniyyəti qədər qədim və əsas dil olduğunu gözlər önünə sərmək idi. Eyni zamanda bu dil, daş və tunc dövrlərində işlədilən sözlərin köçlər vasitəsilə yer kürəsindəki bütün dillərə yayan qədim və böyük mədəniyyət diliydi.

Atatürk belə bir nəzəriyyəni irəli sürərkən hər şeydən əvvəl qarşı tərəfin fikirlərini bilmək istəyirdi. Onun üçün yalnız Türk alimlərinin deyil, eyni zamanda Avropa alimlərinin düşüncələri də çox əhəmiyyətli idi. Buna görə də o zaman Cenevrədə olan Afet İnandan (Afet İnan-Atatürkün mənəvi qızı, tam adı Ayşe Afet İnandır, 29 Noyabr 1908-ci ildə Selanikdə anadan olmuş, 1995-ci ildə Ankarala vəfat etmişdir. Respublikanın ilk tarix professorlarından olmuşdur.) Günəş –Dil nəzəriyyəsi haqqında Avropa alimlərinin də fikirlərini öyrənmək istəmişdi. A.İnan adını demədiyi bir dil professorunun fikirlərini Atatürkə belə çatdırmışdı.

«Dil orijini hakkında yalnız farziyeler olduğunu, fakat umumi bir kanaatin mevcut olmadığını söylüyor. Sizin teori hakkında sordum. Ben bu metodla yetişmedim, bu başka görüş. Size bunun hakkında bir şey söyleyemem dedi». (Prof. dr. Şerafettin Turan, Sevgi Özel-Türkçe'nin ve Dil Devriminin öyküsü).

"Günəş –Dil nəzəriyyəsi" III Dil qurultayında bir qədər tənqid olunsa da, ümumiyyətlə müsbət qarşılandı. Qurultayda dillə əlaqədar çoxlu məsələlər müzakirə edilmişdir. Onun (qurultayın) fəaliyyətini aşağıdakı kimi xarakterizə etmək mümkündür.

«Bu kurultayın mihveri, Türk dehasını lingvistik dünya önüne koyduğu yepyeni bir dilçilik ekolü, yani Güneş-Dil teorisi» olmuştur. Bu açıdan kurultayın önemi, yalnız bir dil ve ülke sınırlarıyla çevrilmiş değil, bütün yüreyen (dünya) bilgisine yaygın olarak düşünülebilir. Türk Dil Kurumu'nun davetiyle on bir memleketten on beş ecnebi dil bilgininin kurultayda bulunması da önemi artırmış ve toplantıya ulusal bir renk katmıştır. Bu memleketler Almanya, Avusturya, Bulgaristan, Fransa, İngiltere, İtalya, Japonya, Macaristan, Polonya, Sovyet Rusyası ve Yunanistan'dır».

Günəş–Dil nəzəriyyəsinin (Prof. Dr. Şerafettin Turan; Sevgi Özel "Türkçe'nin ve Dil Devriminin öyküsü") həmin il tədrisə başlayan Dil və Tarix-Coğrafiya fakültəsinin Türkoloji şöbəsində fənn kimi keçilməsi da

qərara alınmışdı. Lakin bunların tədrisi zamanı nəzəriyyədə təklif edilən sözlərin mənşəyi biliməyən ərəb və ya başqa dillərə mənsub sözlərin Türkçə hesab edilməsində bir səhvə yol verildiyi meydana çıxmışdır. Bütün bunların isə səhv şərhlərə səbəb olabiləcəyi nəzərə alınaraq, bu nəzəriyyənin tədrisi dayandırılmışdır.

Bu nəzəriyyənin müxtəlif şərhlərə məruz qalacağı da məlum idi. Çünki Günəş–Dil nəzəriyyəsi qanun yaxud sübut olunmuş nəzəriyyə olmayıb, fərziyyə, təklif xarakteri daşıyırdı. Dillərin mənşəyinə aid digər nəzəriyyələr kimi bu nəzəriyyə də müəyyən bir zamanda meydana atılmış, lakin heç bir elmi əsası olmadığı üçün tarix səhifələrində qalmışdır.

Üçüncü dil qurultayından sonra da dil sahəsindəki fəaliyyətini əvvəlki kimi davam etdirən Atatürk 26 Sentyabr 1936-cı il dil bayramında Türk Dil Kurumu əməkdaşlarının bayramını təbrik edərək uğurlar arzulamışdır. Bu təbriki nəzərdə tutaraq inamla söyləmək olar ki, bəzilərinin dediyi –Atatürk üçüncü dil qurultayından sonra dil inqilabından əl çəkmişdir–fikirləri heç bir məntiqə sığdırmaq olmaz.

1936-cı ilin noyabr ayında TBMM-də etdiyi çıxışında dil və tarix qurumlarına toxunan Atatürk bunları demişdir:

«Başlarında kıymetli Maarif Bakanımız bulunan Türk Tarih Kurumu ile Türk Dil Kurumu'nun, her gün yeni hakikat ufukları açan ciddi ve davamlı mesaisini (çalışmasını) takdirle yadetmek isterim. Bu iki ulusal kurumun tarihimizin ve dilimizin karanlıklar içinde unutulmuş derinliklerini, dünya kültüründeki analıklarını ret olunamaz ilmi belgelerle ortaya koydukça yalnız Türk milleti için değil ve fakat bütün bilim alemi için dikkat ve intibahi (uyanıklığı) çeken kutsal bir vazife yapmakta oludklarını emniyetle söyleyebilirim.

Bir çok Avrupalı alimlerin iştirakıyle toplanan son dil kurultayının ışıklı neticelerini bizzat görmüş olmakla çok mutluyum. Bu ulusal kurumları az zaman içinde, ulusal akademiler halini almasını temenni ederim. Bunun için çalışkan tarih ve dil alimlerimizin, dünya ilim alemince tanınacak orijinal eserlerini görmekle bahtiyar olmamızı dilerim (53).

Atatürk bu çıxışı ilə tarix və dil kurumlarını tənqid etmir, əksinə onları tərifləyir və etimadının devam edəcəyini bildirir. Onları akademiyaya çevirməklə dünya səviyyəsində qəbul ediləcək əsərlər hazırlanmasının çox vacib olduğunu qeyd edir.

Türk Dil Kurumunun 1936-1938-ci illərdəki fəaliyyəti Günəş-Dil nəzəriyyəsini əldə rəhbər tutaraq araşdırmaları davam etmələri ilə xarakterizə edilir. Bu nəzəriyyə Türk dilinin qədimliyi məsələsini gündəmə gətirdi, bununla da ifrat özləşdirməçilik hərəkətinin qarşısını alaraq onun sürətini yavaşlatdı. Eyni zamanda dildəki bütün xarici sözlərə qarşılıq axtarmaq işi də dayandı, bu sahədəki özbaşınalığa son qoyuldu. Atatürk

ortaya atdığı bu nəzəriyyə ilə dili sadələşdirmək uğrunda həddən artıq çılğınlığı, dilə qarşı göstərilən zorakılığın qarşısını almaq üçün bir vasitə kimi baxırdı. O əslində Türk dilinin təmizlənməsi işinin gedişində ortaya çıxmış çətinlikləri, yol verilən özbaşınalıqları ortadan qaldırmaq üçün adı çəkilən nəzəriyyəni «əlverişli bir bəhanə» hesab edirdi. Atatürk heç bir zaman başladığı işi yarımçıq qoymamışdı. Buna görə də dili özləşdirmə prinsipindən heç vaxt imtina etməmişdi. Türk Tarix Qurumunun sədri olmuş professor Abdulkadir İnan öz xatirələrində bu nəzəriyyənin izahını belə qeyd edir: –«Atatürk Günəş-Dil nəzəriyyəsi ilə Osmanlı ədəbiyyatında işlədilən bir çox sözün türkçə olduğunu və bu sözlərin dildə qalmasının dil inqilabına zidd olduğunu bildirmək istəyirdi. O dil inqilabından əl çəkməmişdi. Lakin dilin mənasız zorlamalardan, gəlişi gözəl uydurmalardan xilas etmək üçün səy göstərirdi (Atatürk və Türk dili. Belgeler, Ankara 1992, s. 346).

Atatürk Türk dilinin söz yaratma qaydalarına uyğun olaraq bir çox sözlər– arıtmak, er, erdem, esenlik, evrensel, genel, ısı, kıvanç, konuk, kutsal, önemli, özel, subay, tüm kimi –düzəltmişdir. Bu sahədə Atatürkun Türk dilinə göstərdiyi ən əhəmiyyətli xidmətlərdən biri də elmi terminlərin türkçələşdirmiş olmasıdır. 1936-1937-ci illərdə Türk və xarici dillərdəki kitablar üzərində işlədiyi vaxt Geometri (həndəsə) adlı kitab yazmışdır. Bu kitabda ərəbcə terminlər əvəzinə Türkçə terminləri işlətməyi üstün tutmuşdur. Bu kitabda murabba-kare; zaviye-açı, kutur-köşeğen, mütesaviyül adla–eşkenar dörtgen kimi sözlər (terminlər) işlətmişdir. Özünü dərslik müəllifi kimi göstərmək istəməyən Atatürk bu kitabı Milli Maarif Nazirliyi adından çap etdirmişdir.

Atatürk 1938-ci ilin noyabr ayında TBMM-nin adına yazdığı son yazısında (özü xəsə olduğu üçün Atatürkun yazdığı bu çıxışın mətni o zamanın baş naziri Celal Bayar tərəfindən məclisdə oxunmuşdur) TDQ-nin termin yaratma sahəsindəki fəaliyyətini və Türkçə terminlərlə yazılan dərs kitablarının istifadə edilməyə başlamasını çox tərifləmişdir. Əldə edilən nəticələrlə «Türkçenin yabancı dillerin boyunduruğundan kurtarılması yolunda önemli bir aşamaya varıldığını» xatırlatmışdır.

"Türk Tarih ve Dil Kurumları'nın çalışmaları takdire layik kıymet ve mahiyet (içerik) arz etmektedir. Dil Kurumu en güzel ve feyizli (verimli) bir iş olarak türlü ilimlere ait terimleri tesbit etmiş ve bu suretle dilimiz yabancı dillerin tesirinden kurtulma yolunda esaslı addımını atmıştır. Bu yıl okullarımızın tedrisatın (öğretimin) Türkçe terimlerle yazılmış kitaplarla başlamış olmasını kültür hayatımız için mühim bir hadise olarak kaydetmek isterim" (56).

Ədəbiyyat

1. Leyla Karahan. Atatürk dönemi Türk Kurultaylarında. Türk Dünyası. 29.06.2009
2. Zeynep Korkmaz. Atatürk ve Dil Devrimi. (1963)
3. Afet İnan. Atatürk haqqında hatıralar ve belgeler. Ankara, 1959, s. 261
4. Zeynep Korkmaz. Cumhuriyet döneminde Türk dili.
5. Y.K.Karaosmanoğlu. Atatürk, 1946.
6. Zülfikar Hamza. Mustafa Kemal Atatürk ve Türk dili. Türk dili, 2001, sayı 592
7. Levent Agah Sırrı. Türk dilinde Gelşme ve Sedeleşme Evreleri. Ankara, 1972
8. Atatürk ve Türk dili, Belgeler, Ankara 1992, s. 346

Г.Садыхов

Конгрессы турецкого лингвистического общества, проведенные при жизни м.к.ататюрка (1932, 1934, 1936)

резюме

В статье исследуются конгрессы, проводимые Турецким Лингвистическим Обществом при жизни Ататюрка. Важно отметить, что эти конгрессы впоследствии сыграли исключительную роль в формировании национально-духовных ценностей и научно-культурной интеграции, сохранении и развитии историко-культурных связей между тюркоязычными странами. На этих конгрессах были затронуты актуальные вопросы тюркологической научно-культурной среды начала XX века. В докладах, были выдвинуты конкретные предложения Турецкому Лингвистическому Обществу принадлежит ряд преобразований в развитии турецкого языка за последние 78 лет. Эта организация очистила турецкий язык от иностраннных заимствований, предложив использовать в языке исконно турецкие эквиваленты, тем самым внесла огромный вклад, развивая и обогащая язык. Целью Лингвистического Общества являлось выявление самобытности и богатсва турецкого языка и придание ему международного статуса среди языков мира.

Huseyn Sadigov

Congresses of turkish linguistic society, held during m.k.ataturk's lifetime (1932, 1934, 1936)

Summary

The article investigates the congresses held by the Turkish Linguistic Society during the life of Ataturk. It is important to note that these congresses were to play a cruical role in the formation of national and spiritul values, scientific and cultural integration, preservation and development of historical and cultural ties between the Turkish-speaking countries. These congresses were raised topical issues of Turkological scientific and cultural environment of the early twentieth century. The reports reflected the urgent problems of the humanities and social sciences, Turkic studies and put forward specific proposals. The Turkish Linguistic Society led massive changes in the development of the Turkish language from foreign borrowings and offered to use native language Turkish equivalents thus contributed greatly to developing and enriching the language. The aim of the Linguistic Society was to identify the uniquines and richness of Turkish language and giving it international status among the world's languages.

Rəyçi: Güləhməd İmanov
Filologiya üzrə fəlsəfə doktoru

XƏYALƏ RZAYEVA
BAU
xayala@mail.ru

DİLÇİLİKDƏ RƏNG ADLARININ TƏDQIQININ BƏZİ MƏSƏLƏLƏRİ HAQQINDA

Açar sözlər: rəngadlandırma, rəng çalarları, rəng simvolizmi, semantik və semiotik aspekt,
Ключевые слова: цветообозначения, оттенки цвета, цветовой символизм, семантический и семиотический аспекты.
Keywords: colour terms, shades of colour, colour symbolism, semantic and semiotic aspects.

Dilin lüğət fondunun leksik-semantik qrup təşkil edən sözlərinin tədqiqata cəlb olunması həmişə diqqəti cəlb etmişdir. Bu baxımdan rəng adları da ayrıca leksik-semantik qrup əmələ gətirdiyinə görə onlar ayrı-ayrı dillərin materialları üzrə müxtəlif aspektlərdən öyrənilmişdir. Dilçiliyə dair elmi ədəbiyyatda rəng adları sistemi, rəng bildirən sözlərin etimologiyası, rəng adlarının inkişaf xüsusiyyətləri, rənglərin rəmzi mənaları, sabit söz birləşmələri tərkibində rəng adları, rəng adlaraının psixolinqvistik xüsusiyyətləri, müxtəlif mənbələrdə, eləcə də şair və yazıçıların dilində rəng adlarının işlənməsi, rəng adlarının üslubi xüsusiyyətləri və bir çox digər məsələlərə aid tədqiqatlar aparılmışdır. Bu cür tədqiqatlar, şübhəsiz ki, ilk növbədə, konkret dilin materialları əsasında aparılmış, sonralar rəng adları ilə əlaqədar müqayisəli araşdırmalar da yerinə yetirilmişdir.

A.Vejbitckaya rəngi və rəng adlarını universal anlayış hesab etməyərək yazmışdır: "Rəng universalilərinin axtarışının düzgün olmayan istiqamətdə getdiyini söyləmək bu axtarışların qeyri-məhsuldar olduğunu demək deyildir. Berlin və Kayın klassik işindən sonra "rəng" haqqında tədqiqatları sürətlə artmasına səbəb olmuş, görmə qavrayışının universallığı barədə əhəmiyyətli nəticələrin əldə olunmasını gerçəkləşdirmişdir. Bu tədqiqatlar bir daha göstərdi ki, "rəng" anlayışı nəinki universal deyildir, hətta insanlararası ünsiyyətdə onun rolu çox məhduddur. Həqiqətdə nə universaldır və ya universallığa yaxındır sualına cavab vermək istəsək, insanın gördüyü vaxtla (gündüz, işıqlı vaxt) ilə onun görmədiyi vaxt (gecə) arasındakı fərqdir" [1, s.231]. Görmə qavramı real gerçəkliyin predmet və hadisələrini ayırmağa, onların mövcudluğunu təsdiqləməyə, həmçinin onlar barədə fikir yürütməyə səbəb olur. İnsan rəngin özünü görə bilmir. O, bu və ya digər predmetin həm də müəyyən rənglə fərqləndiyini hiss edir. Lakin yazda yaşıl olan otlar, yarpaqlar payızda saralır. Qaranlıq düşdükcə otların

yaşıl rəngi də qaranlığa bürünməyə başlayır və son nəticədə qaranlığın işində itir. Həhayət, görünməyən dəniz mavi rəngə bürünürsə, kiçik bir qabın içindəki suda mavidən əsər əlamət qalmır. Bütün bu cəhətlər insanın rəng haqqındakı təsəvvürlərinə əhəmiyyətli dərəcədə təsir göstərmişdir. İlkin dövrdə rəng əşya və predmetlərin fərqləndirilməsinin mühüm, birinci dərəcəli əlaməti ola bilməmişdir və indi də ola bilmir. Aydındır ki, rəng anlayışının universallığı məsələsi dilçilikdə sonradan diqqət mərkəzinə çəkilmişdir. Buna qədər isə dil vahidləri müxtəlif aspektlərdən tədqiqata cəlb olunmuşdur. Azərbaycan dilçilik tədqiqatları varislik baxımından rus dilçiliyi ilə bilavasitə əlaqədar olmuşdur ki, bu da elmlərin formalaşıb inkişaf etdiyi dövrdə Azərbaycanın Rusiya tərkibində olmasından qaynaqlanmışdır. Ona görə də bu gün də linqvistikanın müəyyən sahəsindəki tədqiqatları tarixini aspektdə öyrənərkən rus dilçiliyində müvafiq məsələlərin qoyuluşu və həlli istiqamətlərində işləri saf-çürük etmək lazım gəlir.

Rus dilçiliyində rəng anlayışının müxtəlif məsələləri kifayət qədər geniş planda öyrənilmişdir. Rəng adlarının tərkibi və semantikası (A.A.Braqina, N.Q.Qureviç və b.), rəng adlarının üslubi funksiyaları (L.A.Kaçeyeva, A.C.Pankratova, C.M.Solovyev və b), rəng adlarının müqayisəli tədqiqatı (V.A.Moskviç, V.A.Yurik və b.) kimi linqvistik məsələlər ətrafında bir çox tədqiqat işləri yerinə yetirilmişdir. Təbii ki, rəngin linqvistikası problemi böyük əhatə dairəsinə malik olduğu üçün tədqiqatlarda qoyulan məsələlər də rəngarəng və çoxaspektlidir. Bu baxımdan onların hamısını sadalamaq mümkünsüzdür. Yuxarıda adları çəkilmiş istiqamətlərdəki işlər psixolinqvistik bazaya malikdir. Ümumiyyətlə, rəng anlayışının görmə qavramı və yaranan assosiasiyalarla bağlılığı ona psixolinqvistik mövqedən yanaşmanı aktuallaşdırır. Bu sahədə R.M.Frumkinanın "Rəng, məna, oxşarlıq" adlanan işi xüsusi ilə diqqəti cəlb edir. Müəllif rəng bildirən sözlərin semantik münasibətində psixoloji korrelyatları müəyyənləşdirməyə çalışmışdır. O, rəngadlandırmada məxsusi linqvistik olub həm də psixoloji, mədəni-antropoloji səciyyə daşıyan müəyyən ənənənin hökm sürdüyünü qeyd etmişdir. Onun təhlili linqvistik leksik semantika istiqamətinə söykənir, mənanın dərinlik münasibətlərinin təsvirini əhatə etməklə, semantik təsvirin metadilini işləyib hazırlamağı nəzərdə tutmuşdur. Qeyd etmək lazımdır ki, bu tədqiqat eksperiment nəticələrinə əsaslanır.

R.M.Frumkina "rəng adları" və "rəng dünyası" anlayışlarını daxil etmiş, onların dildə necə strukturlaşdığını, nominasiyada psixi proseslərin necə qərarlaşdığını aydınlaşdırmağa çalışmışdır. O, etimoloji törəmə olmayan rəng adları probleminə də toxunaraq göstərmişdir ki, bu cür adlar həmin rəngə malikliklə əlaqədardır. Aydın olur ki, müəllif, bir tərəfdən,

rəng adının denotativ, digər tərəfdən, nominativ qeyr-müəyyənliyi nəzərə alır [2].

Rəng adlarının mənalarını filosoflar, psixoloqlar, linqvistlər öyrənməyə çalışmışlar. Bu məsələ ilə bağlı C.Lokk, Karnap, Vitqenşteyn və başqaları öz fikirlərini söyləmişlər.

A.Vejbitskaya prototip referentlərin danışanın şüurunda yer tutduğunu və hansısa rəngi adlandırarkən "gecə", "gündüz", "günəş", torpaq, "od" və s. prototiplərin aktivləşməsi hadisəsinin baş verdiyini diqqət mərkəzinə çəkmişdir[1, s.235].

B.Berlin və M.Key rəngadlandırmanın və dünya dillərində rəng kateqoriyasının əmələ gəlməsinin əksər dillər üçün ümumi ola biləcək ardıcıllığının müəyyənləşdirilməsi üçün universal prototiplərini təyin etmək istiqamətində araşdırma aparmışlar [3, s. 89].

T.V.Qamkrelidze və V.İvanovun qənaətinə görə hind-Avropa dilləri üçün rəngadlandırmada metal və digər predmetlərin adlarında istifadə etmək səciyyəvidir. Onlar belə bir nəticəyə metal adları ilə bu metal üçün xarakterik olan rəng adlarını qarşılaşdırmaqla gəlmişlər. Məlum olmuşdur ki, adlar arasında xüsusi yaxınlıq vardır. Burada hər bir rəngin bu rəngi daşıyan metalın adı ilə əlaqəsini müəyyənləşdirmişlər. Şübhəsiz ki, bunun əksi olan fikri, yəni metalın adının rəngin adından götürülməsi müddəasını da irəli sürmək mümkündür. Bir sıra metalların insan təcrübəsinə sonradan daxil olması faktını sübut etməyə ehtiyac yoxdur və məntiqi baxımdan metalı bildirən sözün müvafiq rəng adından törəməsi, yaxud onunla motivləşməsi qəbul olunandır. Təbii ki. Bu bütün metallara şamil oluna bilməz. T.V.Qamkrelidze və V.İvanov hind-Avropa dillərində metal adlarını təhlil edərkən qarşılaşdırmada sıx əlaqənin mövcudluğunu müşahidə etmişlər. Məsələn, "reud" "qırmızı, tünd qırmızı" misi bildirir. Müasir ingilis dilində "red" qırmızı rəngini bildirir. "Parıldayan, ağ" mənasında olan "hark" sözü ilə müasir ingilis dilində "argent" –gümüş arasında bağlılıq müşahidə olunur. "Gel - sarı, sarı-yaşıl" müasir ingiliscədəki "gold" qızıl sözü ilə paralelə malikdir [4, s. 124].

Belə bir fikir də mövcuddur ki, ingilis dilində rəngadlandırmanın əsasında yalnız konkret predmet deyil, əşya və obyektlərin vizual xüsusiyyətləri durur. Məsələn, parıldamaq, sayrışmaq, işıq saçmaq və s. Rəng adı bildirən "blue" sifətinin qədim ingilis dilində "bel" "akovu göyə qalxan tonqal" mənalı sözdən əmələ gəlməsi ehtimal edilir.

Rəng adlarına aid tədqiqatlarda onların əmələ gəlməsində hadisənin rəng çalarları ilə əlaqənin mövcudluğu şübhə altında qoyulmur. Rəng adlandıran söz insan təcrübəsi ilə əlaqədar əmələ gəlmişdir. Bu təcrübə perseptiv-koqnitiv və affektiv xarakter daşıyır [5, s.73]. Rənglərin adlandırılması, daha doğrusu, bu gün bizə məlum olan rəng bildirən sözlərin

dildə işlənməsi mərhələli getmişdir. İnsan, ilk növbədə, adlandırılmasına ehtiyac duyulan rənglərə ad vermişdir. Elə rənglər vardır ki, onlar insan təcrübəsinin sonrakı dövrü üçün səciyyəvidir.

Rəng konseptləri daxili strukturu ilə seçilir. Qırmızı rəngdə fokus, yaxud mərkəzi rəng elə qırmızıdır ki, o, əsəb sistemininin maksimal həssaslığına, yaxud reaksiyasına cavab verir. Eyni zamanda bu rəngin periferiya çalarları da vardır, müxtəlif dillərdə fokus rəngindən aralı yerləşən çalarların adlandırılması üçün müxtəlif dil vasitələrindən istifadə olunur. Bu, əsas rənglə onun çalarlarını fərqləndirmə vasitəsinin seçilməsi ilə əlaqədar linqvistik hadisədir. Dünya dillərinin əksəriyyətində aşağı və yuxarı pereferiya çalarlarını fərqləndirmək üçün "açıq" və "tünd" sözlərindən istifadə edilir. "Rəng ətraf aləmlə insan biologiyasının qarşılıqlı təsiri ilə inikasını tapır. Burada mədəni təsirlərin heç bir rolu yoxdur. Kulturoloji amillər rənglərin rəmzləşdirilməsində öz rolunu oynayır [5, s.72]. Aydın olur ki, rəng maddi aləmin obyektlərinin xassələrindən biri kimi mövcuddur və müəyyən diapazonlu elektromaqnit dalğalarının insan gözünə təsiri prosesinin nəticəsi olaraq təzahür edir.

Rəng adlarının funksional-semantik sahəsini qurmaq vacib və xüsusi əhəmiyyət kəsb edən linqvistik problemlərdən biridir. Azərbaycan dilçiliyində bununla bağlı bir tədqiqat işi vardır. K.Mustafayeva göstərir ki, "rəng spektrinin müxtəlifliyi sahənin vahid dominant ətrafında qruplaşmasını qeyri-mümkün edir. Əsas rəng effektləri isə semantik mikrosahələr strukturunu əmələ gətirir. Beləliklə, mikrosahələr rəng sahəsinin üfiqi strukturunu əmələ gətirir və hər bir konkret invariant-semantik məna ətrafında müəyyən ifadə vasitələri toplanır. Buna görə də, rəng bildirən sözlər sahəsini əsas ənənəvi rəng nomenklaturasına uyğun olaraq aşağıdakı mikroblokların vəhdəti kimi nəzərdən keçirilməsi elmi və praktik baxımdan daha məqsədəuyğundur: ağ rəng mikrobloku, qara rəng mikrobloku, boz rəng mikrobloku, qırmızı rəng mikrobloku, göy rəng mikrobloku, yaşıl rəng mikrobloku, sarı rəng mikrobloku"[6]. Qeyd etmək lazımdır ki, mikrosahələrin bu şəkildə təyini həm də tədqiqat ardıcıllığını müəyyənləşdirir. Mövcud ədəbiyyat tədqiqatların belə rəng ardıcıllığı ilə araşdırılmasının üstünlük təşkil etdiyini təsdiq edir [7; 8; 9].

Ton, parlaqlıq, yalnız xromatik rəngləri səciyyələndirir, axromatik rənglər (ağ və boz, bu rənglərin çalarları) yalnız bir psixoloji xassəyə - işıqlıq xassəsinə malikdir. Psixofiziki xassə isə parlaqlıqdır[10, s. 58].

Rəngin fokusdan periferiyaya doğru dəyişməsini linqvistik ifadə etmək üçün istifadə olunan "açıq", "tünd" sözləri (tünd yaşıl, açıq yaşıl; tünd göy – açıq göy və s.) rəngin adını konkretləşdirmir, subyektiv səciyyə daşıyır, dildə yalnız fokus rəngdən fərqləndirməyə xidmət edir. Qeyd olunanlar bir daha təsdiq edir ki, mövcud olan bütün rəngləri adlandırmaq üçün dilin söz

ehtiyatları kifayət etmir. Lakin bu o demək deyildir ki, əksər rəngləri adlandırmağa cəhd göstərilmir. Bu sahə daxilində terminlərin yaradılması səviyyəsində getsə də, dil daşıyıcıları ünsiyyət prosesində məhdud sayda rəng adlarından istifadə edirlər.

Rəngin spektral analizi, onun tonunun dəyişməsi olduqca hamar şəkildə gedir. Rəng pantonlarında fokus rəngin ətrafındakı dəyişmələr yaxın ətrafda gözlə çətin seçilirsə, mərkəzlə uzaq periferiya arasında fərqi aydın hiss etmək mümkündür ki, insan bu məqamda "açıq" və "tünd" sözlərindən istifadə etməklə fikrini ifadə etməyə çalışır. Məhz buna görədir ki, dildə əsas rənglə müqayisə əsasında rəngi verballaşdırmaq olur. Belə verballaşdırma şərti və nisbi səciyyə daşıyır. Doğrudan da açıq qırmızı ilə qırmızı arasındakı dəqiq fərq bəlli deyildir. Eyni bazis rəngin kifayət qədər çox çalarları vardır və ən yaxın çalarlar da nəzərə alınmaqla fokus nöqtəsi mərkəzdə yerləşdirilərsə, ədəd oxu və ya koordinat oxu alınır ki, onun mərkəzindən sağa və sola, yaxud yuxarı və aşağı getdikdə müxtəlif rəng çalarları riyazi nöqtələr kimi qeydə alınacaqdır ki, bu da sonsuz sayda çalarım özündə birləşdirəcəkdir. Təbii ki, dildə bu qədər çaları adlandırmaq mümkün deyildir. Miqdar saylarının hər birinin adı vardır və bu ad müəyyən prinsip üzrə yaradılır. Dilin say sistemi dil vasitələri ilə bütün sayları adlandırmaq mexanizm və vasitələrini müəyyənləşdirmişdir. Lakin rənglərin çalarlarını ifadə etmək üçün dilin müəyyən mexanizmi yoxdur. Qeyd etmək lazımdır ki, tonallığın zəifləməsi və ya güclənməsi səbəbindən müəyyən nöqtələrdə rəng çalarlarının keçidi bəlirlənir. Başqa sözlə desək, rəngləri gözlə fərqləndirmək mümkünləşir. Adlandırma da məhz gözlə fərqləndirmə nöqtələrində, yaxud həmin nöqtədəki rəng çalarına əsasən aparılır. Bir zamanlar rəngli karandaş dəsti altı, yeddi ilə mədudlaşırdısa indi 24, 36 rəngli karandaş qutularına satışda rast gəlinir və onların hər birinin rəngə görə adını demək olmur. Rənglərin bir-biri ilə qarışdırılması yeni-yeni rənglərin yaranmasını gerçəkləşdirir. Rəsm əsərlərindəki rəng qammalarına daxil olan rənglərin də hamısının adları məlum deyil. Azərbaycan xalçalarındakı bütün rəngləri adlandırmada da şübhəsiz ki, çətinlik vardır.

Dilçilikdə rəngadlandırmanın ən aktual nəzəri problemlərindən biri yeni rəng adlarının yaranma mexanizmini ümumi və xüsusi cəhətlərini aydınlaşdırmaqla bağlıdır. Tədqiqatçılar bu məsələni öyrənmək üçün ayrı-ayrı dillərdə rəngi ifadə edən yeni sözlərin hansı prinsiplər əsasında formalaşdığını aydınlaşdırmağa çalışırlar. Son dövrlərdə dilçilikdə bu istiqamətdə ardıcıl tədqiqatlar aparılır. A.P.Vasilyeviç rus dilinin materialları üzrə rəngadlandırmadakı meyilləri araşdıraraq, belə bir qənaətə gəlmişdir ki, bu sahədə üç istiqamət müşahidə olunur. Birinci istiqamət predmet üçün səciyyəvi olan rəng həmin predmetin adı əsasında düzəldilir. Rus dilindəki *кофейный, молочный, асфальтовый, мокроасфалтовый, пепельный,*

кирпичный və s. rəng adları qeyd olunan prinsip üzrə əmələ gəlmişdir[11, s. 6]. Azərbaycan dilində də eyni prinsip üzrə sözdüzəltmə özünü göstərir: qəhvəyi, sumağı, narıncı, turuncu, bənövşəyi, yaseməni və s. Lakin dilimizdə -ı, -i, -u, -ü, - yı, -yi, -yu, -yü şəkilçilərinin əşya adlarına artırılmasında müəyyən məhdudiyyətlər, görünür ki, vardır. Dilimizdə eyni prinsip əsasında düzələ biləcək kərpici, ciyəri, südü, asfaltı kimi rəng adları yoxdur. Bu rənglərin adları sintaktik üsulla formalaşır: asfalt rəngli, süd rəngi, ciyər rəngi və s. Qeyd olunan şəkilçinin təsirlik hal şəkilçisi ilə omonimliyi, həmçinin norma pozulması, məna eyniliyi onun rəng adı düzəldən şəkilçi kimi imkanlarını azaldır.

A.P.Vasilyeviç rus dilində leksik-morfoloji vasitələr arsenalının genişləndirilməsi ilə, həmçinin rəng modifikatorlardan istifadə etməklə yeni rəng adlarının əmələ gəlməsini ikinci meyil kimi qiymətləndirmiş və bunun birincisinə «небесно-голубой» sözünü, ikincisinə isə «темно-красный» sözünü nümunə gətirmişdir. Onun qeyd etdiyi ümüncü yol sözün alınmasıdır [11, s.12]. Modifikatordan istifadə Azərbaycan dilinə də xas əlamətdir. Lakin leksik-morfoloji vasitə dilimizdə tətbiqini tapmır.

A.PVasilyeviç bu sahədəki işlərini davam etdirmişdir. Onun S.S.Mişenko ilə birgə qələmə aldığı tədqiqatlardan biri ayrıca bir rəng adının təkamülü prosesinə həsr olunmuşdur [12]. Müxtəlif rəng adlarının təkamülü məsələsi də hazırda rəngadlandırmanın aktual problemlərindən biri sayılır və bu problemin müxtəlif dillərin materialları üzrə müqayisəli aspektdə araşdırılması vacibdir.

V.Q.Kulpina rus və polyak dillərinin materialları əsasında oxşar tədqiqat aparmış, əsas ənənə kimi rənglərin internasional terminlərlə ifadə olunmasını, onların kataloqlaşdırılması və standartlaşdırılmasını ön plana çəkmişdir[13]. Təbii ki, rəng adlarının beynəlxalq standartlarının qəbul edilməsi və bu terminlərin dünyanın müxtəlif dillərinə keçməsi internasional rəng adlarının çoxalmasına zəmin yaradır. Bununla belə hər bir dilin özündə rəıngadlandırma mexanizminin və sisteminin təkmilləşməsi yolları linqvistik baxımdan daha çox maraq kəsb edir.

V.Moisenkonun rəng və heyvan adları arasında əlaqələri öyrənmək haqındakı tədqiqatı da məsələnin düzgün qoyuıuşunu göstərir. Doğrudan da bəzi dillərdə rəng və heyvan adları arşında qarşılıqlı əlaqələr hiss olunur. Rus dilindəki *вороный, бурый, бусый, гнедой, рябой, глинастый, голубой, железный, золотой* kimi at adlarında rəng elementləri aşkardır və bu adlardan bir çoxunda periferiya çalarlarının durması diqqəti cəlb edir[14, s.144].

Rəngadlandırma ilə bağlı bir sıra tədqiqatlar leksemlərin bərpası məsələsinə həsr olunmuşdur. Y.V.Normanskayanın bu sahədəki araşdırması

diqqəti cəlb edir. Müəllif hind-Avropa dillərinin rəngadlandırma sistemini bərpa etməyə cəhd göstərmişdir[15].

Dildə rəng sahəsinin kateqoriallaşdırılması, rəng bildirən sifətlərin söz birləşmələri tərkibində işlənməsi, baza rənglərinin təyini, əsas rənglərin diaxron və sinxron planda araşdırılması, müxtəlif dillərdə rənglərin rəmzi mənalarının, simvolikasının təyini ilə bağlı tədqiqatlar yerinə yetirilmişdir.

Rəngadlandırna məsələləri Azərbaycan dilçilərinin də diqqətindən kənarda qalmamışdır. A.Q.Cabbarovanın "Müxtəlifsistemli dillərdə rəng adlarının semantik-struktur xüsusiyyətləri" mövzusunda dissertasiyasında funksional-semantik rəng sahəsi tədqiqata cəlb olunmuşdur. Müəllif alman və Azərbaycan dillərinin materialları əsasında sahə komponentlərinin qarşılıqlı əlaqə və asılılıq münasibətlərini təhlil edir, rənglərin semantik diferensiasiyasının vəziyyətini, ümumi və fərdi cəhətlərini müəyyənləşdirməyə çalışır. İşdə əsas rəng adlarıının müvafiq mikrosistemlərin dominantlarının semantik tutumuna, məna çalarlarının aydınlaşmasına və dəqiqləşməsinə təsirlər öyrənilmişdir. Rənglər və rəng adlarının təsnifatından danışarkən, tədqiqatşı mövcud elmi ədəbiyyatdakı fikirləri şərh etmiş onlara münasibət bildirmişdir [16].

K.S.Mustafayevanın rəng adları ilə bağlı dissertasiyası diaxron planda yazılmış və müqayisəli aspektdədir. O, "Beovulf" və "Kitabi-Dədə Qorqud"un materialları əsasında rəng bildirən sözlərin bütün sistemini araşdırmağa çalışmış, abidələrdə rənglərin məcazi mənaları ilə konnotativ (üslubi) mənalarının əlaqələnmə xüsusiyyətlərini tədqiq etmiş, iki dildə rənglərin simvolikası məsələsinə baxmışdır [6]. Şübhəsiz ki, Azərbaycan dilçiliyində rəng adlarının diaxron aspektdə tədqiq olunması türk yazılı abidələrinin materiallarını, tarixi lüğətləri də nəzərə almağı tələb edir. Ümumiyyətlə türk dillərində rənglərin simvolik mənalarının ayrı-ayrı dillərin materialları üzrə tədqiqata cəlb etmək lazım gələcəkdir. Bu sahədə müxtəlif türk dilləri üzrə araşdırmalar aparılmışdır. Belə tədqiqatlar ümumiləşdirmələr üçün əsaslı material verə bilər.

Beləliklə, dilçilikdə rəng adlarına, onların simvolikasına, yeni rəng adlarının yaranma prinsip və mexanizmlərinə, rəng adlarının etimologiyasına və rənglə bağlı digər məsələlərə dair ayrı-ayrı dillərin materialları üzrə konkret tədqiqatlar aparılmış, eləcə də müxtəlif dillərdə rəng adları əsasında müqayisəli araşdırmalar yerinə yetirilmişdir. Belə tədqiqat işləri olduqca geniş bir spektri əhatə etdiyindən onlara aid xülasələrin konkret mövzular üzrə qruplaşdırılması daha məqsədəuyğundur. Rəng adları ilə bağlı müxtəliftipli və müxtəlif xarakterli ifadə elementləri müəyyən bir sistem təşkil edir. Bu baxımdan ayrı-ayrı rənglərə aid tədqiqatlar da sistemli formada sərf-nəzər olunmalıdır.

Mövcud ədəbiyyata və dil faktları göstərir ki, bütün dünya dillərində rəng adları kifayət qədər məhduddur və rəng çalarlarını ifadə etmək üçün müqayisədən istifadə edilir. Tədqiqatlardan aydın olur ki, hər bir əsas rəng ətrafında metaforik sahə yaranır, hər bir əsas rəngin rəmzləşmədə iştirakı aşkar görünür.

ƏDƏBİYYAT

1. Вежбитская А. Обозначения цвета и универсалии зрительного восприятия//Вежбитская А. Язык. Лультураю Познание. Москва, Наука, 1996, с.231-291
2. Фрумкина Р. М. Психолингвистика. Моска, Издательский центр «Академия», 2001.
3. Berlin, B., Kay, P. 1969 - Basic color terms, their universality and evolution. Berkeley; Los Angeles: U. of California Press, 1969. - 312 p.
4. Гамкрелидзе Т. В., Иванов Вяч. Вс. Индоевропейский язык и индоевропейцы. Реконструкция и историко-типологический анализ праязыка и протокультуры. Т. I. Тбилиси: Изд-во Тбил. ун-та, 1984.
5. Шелепова Н. В. Когнитивный и семантический аспекты английских цветообозначений / Шелепова Н. В. // Вопросы когнитивной лингвистики. - Тамбов: ТГУ, 2005. - №2. - С. 72-75
6. Müstafayeva K. S. “Kitabi-Dədə Qorqud” və “Beovulf” eposlarınn semantic-strukturu və rəng bildirən sözlərin simvolik mənası: Bakı, 2018, 47 s.
7. Ивашкевич И. Н. Цвет в семантике лексических единиц (на материале современного английского языка) / Ивашкевич И. Н. // Когнитивная семантика: материалы второй Международной школы - семинара по когнитивной лингвистике 11-14 сентября 2000 года в 2 частях. - Тамбов. Часть 1, 2000. - С. 44-45
8. Комова Т. А. Цветообозначение как объект категоризации (на материале русского и английского языков) / Комова Т. А. // Когнитивные аспекты языковой категоризации. - Рязань, 2000. - С. 80-81
9. Пашалешвили Т.Т. Цветообозначающая лексика в персидском языке: Автореф. дис. ... канд. филол. наук. Москва, 1991, 25 с.
10. Лысякова М. В. Психофизические свойства цвета в семантике и парадигматике прилагательных-цветообозначений / Лысякова М. В. // Когнитивная семантика: материалы второй Международной

школы - семинара по когнитивной лингвистике 11-14 сентября 2000 года в 2 частях. - Тамбов. Часть 1, 2000. - С. 58-61

11. Василевич А.П. О современных тенденциях развития лексики цветообозначения//Проблемы цвета в этнолингвистике, истории и психологии. Москва, Наука, 2004, с. 5-14
12. Василевич А.П., Мищенко С.С. Пурпур: К истории цвета и слова// Известия РАН. Серия литературы и языка. Том. 62, №1, Москва, Изд-ние РАН, 2003, с. 55-59
13. Кульпина В.Г. Лингвистика цвета: Термини цвета в польском и русском языках. Москва, Лицей, 2001, 470 с.
14. Моисеенко В.Е. О коричневом цвете в русском и других славянских языках// Исследование славянских языков и литератур в высшей школе: достижения и перспективы. Москва, Изд-ние МГУ, 2004, с.143-146
15. Норманская Ю.В. Реконструкция индоевропейской системы цветообозначений//Сравнительно-историческое исследование языков: Современные состояние и перспективы. Москва, Изд-ние МГУ, 2004, с.291-307
16. Cabbarova A.Q. Müxtəlifsistemli dillərdə rəng adlarının semantik-struktur xüsusiyyətləri (Alman və Azərbaycan dillərinin materialları əsasında): Filol. üzrə fəls. dok. ... dis. Avtoref. Bakı, 2015, 23 s.

X. Rzayeva

О некоторых вопросах история изучения цветообозначения в лингвистике

Резюме

Статья посвящена изучению цветообозначения в современной лингвистике, в частности его семантического и семиотического аспектов. Целью статьи является выявление лексико-семантических особенностей цветообозначения в определении национальной культурной специфики языковых и речевых средств. В статье проводится анализ литературы относящийся колоративной лексики, а именно цветообозначений, связанных с оттенками цвета, которые имеют описательную структуру и выступают в прямом и дополнительном значении. В частности, учитываются метафорические переосмысления периферийных цветонаименований и цветообозначений. Лексико-семантическое поле цвета обладает высокой степенью организованности. Наблюдения за цветовосприятием у людей разных культур обнаруживают зависимость

и связь между понятиями и словами в разных системах, что объясняет различия в реакциях на цвет.

X.Rzayeva

On some issues the history of the study color terms in linguistics

Summary

The article is devoted to the study of colour terms in modern linguistics, and in particular its semantic and semiotic aspects. The aim of the article is to identify the lexical-semantic features of colour terms in the definition of national cultural identity of linguistic and speech means. Special attention is paid to semantic diversity of colour symbolism, which is closely related to psychological perception and has numerous crosscultural differences in relation to the events in people's lives. The article analyzes the so-called colour vocabulary, namely, the colour -indication, describing shades of colour that have a narrative structure and are in direct and additional value. In particular, we take into account the metaphorical reconsiderations of the peripheral color-namings and color terms. The lexico-semantic field of colour has a high degree of organization. Modern researches of determining the nature of lexical-semantic field of colour terms confirm the presence of about ten pigment genes, which are individual for each person.

Rəyçi: Cəmaləddin Rəhmanov
Filologiya üzrə fəlsəfə doktoru

ГЮЛЬШАН АЛИЕВА
Азербайджанский Государственный Университет Нефти и Промышленности
gulshanaliyeva10@yahoo.com

СОВРЕМЕННЫЕ ЛИНГВИСТИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ ТЕХНИЧЕСКИХ ТЕРМИНОВ

Ключевые слова: язык,; термин; технический, слово, лексика, исследование
Key words: language, term, technical, word, lexis, research
Açar sözlər: dil, termin, texniki, söz, leksika, tədqiqat

Изучение терминов в современном мире не может ограничиться выявлением их собственных признаков - термины должны быть сопоставлены, с одной стороны, с единицами неспециальной лексики, а с другой стороны с прочими лексическим элементами, а также противопоставлены и тем и другим.

В настоящее время насчитывается более 3000 определений понятия термин, но, тем не менее, содержание данного термина не выяснено до конца. Большинство специалистов соглашаются, что необходимым условием существования термина является наличие чёткого определения в рамках данной терминосистемы.

Обычно специалисты пользуются рабочими определениями термина, которые, как правило, неполные, однако отражают его существенные свойства, например, определение Я.И. Рецкер пишет, что термин является словом, которое «точно, кратко и однозначно определяет понятие в данной отрасли науки, техники, искусства» [Рецкер 1980: 74]. Традиционно под функцией термина понимается роль, которую выполняет термин как средство обозначения общего специального понятия. Выделяются три основные точки зрения на функции термина: номинативная, дефинитивная, номинативная и дефинитивная. Некоторые лингвисты утверждают, что термин называет, обозначает, выражает и даже отражает понятие, из чего следует, что термину приписывается сигнификативная, экспрессивная и даже отражательная функция [Кузькин 1962: 136].

Многие терминоведы в качестве основного признака термина выделяют следующие: системность, однозначность, дефинитивность, внеэмоциональность и безразличие к контексту. Однако данные требования следует рассматривать не как неоспоримое, а как желательное требование к характеристике термина.

Дискуссионным в современном терминоведении остается вопрос о частеречной принадлежности термина. Многие лингвисты сходятся во мнении, что только имена существительные могут выступать в качестве терминов. Однако исследования показывают, что среди терминов встречаются глаголы (14,08%) - to reboot - перезагружать компьютер либо с клавиатуры, либо при помощи специальной кнопки; to scroll - прокручивать, перемещать, с помощью линеек прокрутки изображения в окне вверх, вниз, вправо или влево, чтобы увидеть его содержимое, находящееся вне поля зрения; to screen - демонстрировать на экране, имена прилагательные (10,34%) - offline — автономный, отключенный от сети (режим работы устройства, при котором оно не управляется со стороны компьютера); portable - портативный (класс малогабаритных компьютеров, расположенный между настольными и карманными ПК); transparent — прозрачный (процесс, выполнение которого незаметно для пользователя или программы), а также наречия (0,48%)\ automagically - необъяснимо (описывает процесс, который непонятен пользователю); digitally - в цифровой форме; on-screen - виртуально (на экране компьютера). Следует отметить, что их число незначительно по сравнению с именами существительными (75,1%) - spoofing - имитация соединения, получение доступа обманным путем; current drive - текущий диск; filing system — система подшивки и хранения документов; macro virus — макрокомандный вирус.

Числительные чаще всего входят в аббревиатуры, которые используются для облегчения онлайн-общения. Данные аббревиатуры зачастую не относятся к терминам как таковым. Например: B4 (before)- перед тем, как, F2F (face-to-face) - лицом к лицу.

Что касается служебных частей речи (предлогов, союзов, частиц), то они не являются самостоятельными терминами, а лишь входят в их состав. Примеры: query by example — запрос по примеру, plug-and-play — подключи и работай (принцип и спецификация быстрого подключения к компьютеру дополнительного оборудования и самоконфигурирования системы), hook into - подключиться; connect to - присоединять, подключать устройства.

Тенденция к отделению термина от других языковых единиц и к выделению особых закрытых систем, в которых функционируют термины, сказалась и при соотнесении понятий терминология и

терминосистема. М.Я. Блох в своих работах отмечает, что система есть упорядоченная совокупность элементов, объединенных некоторой общей функцией. Так, совокупность терминов, упорядоченные в структуру и объединенные общей функцией образуют терминосистему. Всякая система имеет внутреннюю иерархию, которая выражается в

характере связей ее компонентов, и «нет системы без структурной соотнесенности элементов, как и нет структуры без системы элементов, характер соотнесенности которых она выражает» [Блох 2004: 16-17].

Следует обращать внимание на качественное отличие лексического компонента общелитературного языка и специальной лексики: специальная лексика не имеет широкого употребления и понятна только специалистам конкретной области знания, поскольку является средством профессиональной коммуникации специалистов определенной отрасли.

Основную часть специальной и профессиональной лексики, их ядро составляет терминологическая лексика, то есть термины - основные носители наименований предметов и явлений специальной, профессиональной деятельности. Однако специалисты выделяют также компьютерные жаргонизмы, профессионализмы и сленг.

Итак, на основе определения термина В.М. Лейчиком предлагаем считать термином любую лексическую единицу определенного языка для специальных целей, обозначающую общее -конкретное или абстрактное - понятие сферы компьютерной специализации. Например: network - сеть, window - окно, header - заголовок электронного письма, screensaver - гаситель экрана, input buffering - буферизация на входе, satellite computer - переферийный компьютер.

Профессионализмы — стилистические окрашенные слова или словосочетания, относящиеся к разговорной лексике и обозначающие понятия, которые еще не нашли точного отражения в терминологическом плане. Например: finger - указующий перст (пиктограмма в виде сжатой руки с вытянутым указательным пальцем); kludge - клудж (устройство, программа или часть программы, которые теоретически не должны работать, но почему-то работают); patch -заплатка, патч (код для оперативного исправления или нейтрализации ошибки в исполняемой программе); snowflake - снежинка (метод многомерного моделирования данных).

Специальный сленг - слова и словосочетания, которые могут быть использованы людьми разных профессий и иметь широкую сферу употребления, однако не являются нормой письменной речи. Например: ad-hockery (ad-hackery) - прицеп (программная "затычка", реанимирующая систему); google - гуглить (искать информацию в сети, используя поисковую систему Google); upgraid - апгрейдиться (обновлять существующие программы или технические устройства на более современные).

Специальные жаргонизмы - стилистически сниженные синонимы существующих сленговых слов, которые могут быть использованы людьми разных профессий и иметь широкую сферу употребления.

Например: box - ящик, коробка (компьютер); spider - искалка (поисковая система); iron, heavy metal — железо (аппаратное обеспечение); to gun - вырубать (отсоединять подключение).

Профессионализмы относятся к лексической группе слов, ограниченной конкретной профессией и могут заполнять терминологические лакуны, в то время как сленг может быть использован людьми вне данной профессии и иметь более широкую сферу употребления, а жаргонизмы в большинстве случаев являются стилистически сниженными синонимами существующих сленговых слов.

Значительная часть простых и производных терминов сферы компьютерных технологий образованы путем терминологического переосмысления общелитературных слов. Представляется правильным рассматривать семантические свойства термина с точки зрения их мотивированности. С точки зрения формы, термин может быть полностью мотивированным, частично мотивированным, ложномотивированным и немотивированным [Лейчик 2009: 39].

Полностью мотивированные термины - термины, состоящие из одного элемента, выбор которого обусловлен «дотерминологичсеким» значением: coding - кодирование, compatability - совместимость, device - устройство, interaction - взаимодействие, searching - поиск.

Частично мотивированные термины - многоэлементные термины, часть элементов которых объяснена, а другая нет. В процессе проведения данного исследования ни одного частично мотивированного компьютерного термина выявлено не было.

Ложномотивированные термины - термины, для которых характерна неверная или устаревшая объясненность. Рассмотрим термин joystick (англ. joy (радость, удовольствие) + stick (палка)) - джойстик. Изначально этот термин обозначал приспособление (палочку) для игры. Игра в приставку при помощи джойстика приносила людям радость, удовольствие. Таким образом, термин joystick был полностью мотивированным. В настоящее время это значение стерлось, и термин джойстик воспринимается лишь как рычаг для управления. Термин стал ложномотивированным.

Немотивированные термины - термины, выбор формы которых вообще не может быть объяснен: bootstrap - программа самозагрузки. Термин bootstrap состоит из двух терминоэлементов - boot (ботинок) strap (ушко, петля).

Аффиксальное словообразование. При образовании технических терминов как в русском, так и в английском языках активно используются префиксы латинского происхождения, характерные для общенаучного языка: inter- (10% слов), mini — (3% слов), micro - (7% слов), multi - (2 % слов): minicomputer — миникомпьютер; multiplexer — объединитель (устройство, которое передает информацию из различных входных каналов в единственный выводной канал); interactive — интерактивный (системы, воспринимающие в диалоге ввод пользователем команд и данных.

Некоторые лингвисты называют способ образования новых слов путем сложения двух основ — чистым словосложением. Под чистым сложением понимается "объединение в составе производной основы нескольких производящих основ в полном (неусеченном) виде" [Клобуков 2002: 216]. Например: downtime - время простоя (интервал времени, в течение которого компьютерная система или сеть не используется из-за неисправности оборудования или его обслуживания), boilerplate - шаблон, стандартный текст (в системах подготовки текстов - стандартный текст (например, шаблон делового письма или коммерческого контракта) с выделенными позициями для заполнения изменяемым текстом).

Список литературы:

1. Клобуков Е.В. Современный русский язык. М.: Дрофа, 2002. - 216 с.
2. Блох М.Я. Теоретические основы грамматики: Учеб.- 4-е изд., испр. - М: Высшая школа, 2004. 239 с.
3. Лейчик В.М. О методах и принципах конструирования терминосистем // Семантика естественных и искусственных языков в специализированных системах. Л.: Изд-во ЛГУ, 1979. - 176 с.
4. Рецкер, Я.И. Теория перевода и переводческая практика. М.: Изд-во: Международные отношения, 1974. - 216 с.
5. Cambridge Advanced Learner's Dictionary & Thesaurus. URL: http://dictionary.cambridge.org/dictionary/british

Gülşən Əliyeva

Texniki terminlərin müasir linqvistik tədqiqatları

REZYUME

Bu məqalə dil inkişafının hazırkı mərhələsində və keçmiş dövrlər lüğətlərində köhnəlmiş ədədlərin təyin edilməsi baxımından texniki terminlərin hərtərəfli öyrənilməsindən bəhs edir. Tədqiqat bir dövrdə neçə komponentin daxil oluna biləcəyini müəyyən etmək üçün texniki terminlərinin struktur xüsusiyyətlərini təhlil etməkdən ibarətdir. Bundan əlavə, texniki terminologiyasının öyrənilməsi yeni texniki vasitələrin təyin

edilməsi üçün əsas təşkil edən semantik xüsusiyyətlərin müəyyənləşdirilməsinə kömək edir. Tədqiqatda müasir ingilis dilində texniki terminologiyasının inkişafı öyrənilir, ümumi ədəbi lüğətin texniki dilə təsirini təhlil edir, müasir terminologiyasının semantik xüsusiyyətlərinə, müəyyən bir bilik sahəsi ilə bağlı motivasiya anlayışına toxunur. Müasir dövrdə terminlərin öyrənilməsi, öz xüsusiyyətlərini müəyyənləşdirməklə məhdudlaşa bilməz – terminlər qeyri-xüsusi söz birləşmələri ilə müqayisə olunmalı, digər tərəfdən digər leksik elementlərlə, eləcə də hər ikisinə zidd olmalıdır. Bu baxımdan bu məqalə linqvistika sahəsində elmi tədqiqat axtarışlarında məqsədə uyğundur.

Gulshan Aliyeva

Modern linguistic researches of technical terms

Resume

This article deals with a comprehensive study of the language of technical terminology carried out both at the present stage of language development and in terms of fixing obsolete units in dictionaries of past eras. The study was due to the need to analyze the structural features of uptodate terms, to identify how many components can be included in one term. In addition, the study of computer terminology contributed to the identification of semantic features that form the basis for the nomination of new technical devices. The research examines the development of special terminology in modern English, analyzes the influence of general literary vocabulary on technical terms, touches upon semantic features of computer terminology, the concept of motivation in relation to a given field of knowledge. Special attention is paid to word-building processes in the field of English computer terminology.

The study of terms in the modern era can not be limited to identifying their own characteristics - the terms should be compared, on the one hand, with units of non-special vocabulary, and on the other hand with other lexical elements, as well as contrasted with both. In this regard, this article can be appropriately used for scientific researches in the sphere of linguistics.

Rəyçi: Rəhimə Məmmədova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

ELNURƏ ABBASOVA
AMEA Nəsimi adına Dilçilik İnstitutu
elnura_abbasova11@yahoo.com

AZƏRBAYCAN VƏ ƏRƏB DİLLƏRİNDƏ ADLIQ HALIN DİAXRONİK ASPEKTLƏRİ

Açar sözlər: adlıq hal, subyekt, diaxronik, aspekt, obyekt
Ключевые слова: именительный падеж, предмет, диахронический, аспект, объект
Key words: nominative case, subject, diachronic, aspect, object

İsmin *hal kateqoriyası* qrammatika sistemində mühüm əhəmiyyətə malik kateqoriyalardandır. Hal kateqoriyası ismin digər sözlərlə müxtəlif münasibətlərini ifadə edən qrammatik kateqoriyadır. Bu kateqoriya isimlərin başqa sözlərlə əlaqəyə girərək cümlə daxilində rəngarən məna çalarları əmələ gətirməsində və cümlənin təşəkkül tapmasında mühüm rol oynayır. İsimlər söz qrupları və cümlə daxilində digər söz növləri ilə müəyyən münasibət zamanı fərqli vəziyyətlərdə olur. Onların digər nitq hissələri ilə münasibətə girərək düşdüyü vəziyyət ismin halları adlanır. Hər bir hal fərqli münasibəti ifadə edir. Azərbaycan dilində isimlərin bu münasibətləri əksər hallarda şəkilçili, bəzən də şəkilçisiz özünü göstərir. Azərbaycan dilində şəkilçisiz hallardan biri də adlıq haldır. Adlıq hala verilən addan da məlum olduğu kimi o, şəxs, əşya və hadisənin adını bildirir. Azərbaycan dilində adlıq halın heç bir şəkli əlaməti yoxdur. Bu hal formal cəhətdən qeyri-müəyyən təsirlik hala bənzəyir (1, s.19). Lakin bu bənzərlik yalnız formal xarakter daşıyır. Adlıq halda olan sözü heç bir formal əlaməti olmayan qeyri-müəyyən təsirlik haldan fərqləndirmək, əslində, çox asandır. Bu zaman sözün məzmununa fikir verilməlidir. Muxtar Hüseynzadə "Müasir Azərbaycan dili" dərsliyində adlıq haldan danışarkən göstərir ki, bu halda işlənən isimlər cümlənin subyekti, qeyri-müəyyən təsirlik halda işlənən isimlər isə cümlənin obyekti olur. Adlıq halda işlənən isimlər *bu*, *o* işarə əvəzlikləri ilə təyin oluna bilir, qeyri-müəyyən təsirlik halı isə həmin əvəzliklərlə təyin etmək mümkün deyil (2, s.51).

Digər hallar adlıq hala sözdəyişdirici şəkilçilər artırılmaqla düzəlir. Adlıq halın şəkli əlamətinin olmaması bütün türk dilləri üçün ortaq xüsusiyyətdir. Bu haqda "Türk dillərinin müqayisəli tarixi qrammatikası" adlı kitabda qeyd olunur: "Türkoloqların fikrincə, türk dillərində adlıq halın heç vaxt xüsusi şəkilçisi olmamış, ya sözün təmiz əsası ilə, ya da sözdüzəldici affiksli əsası kimi çıxış etmişdir. Onun bu xüsusiyyəti müasir

türk dillərində saxlanır.” (3, s. 100) Göründüyü kimi bu vəziyyət bütün türk dilləri üçün ortaq cəhətlərdəndir

Dilimizdə hal kateqoriyasının diaxronik aspektlərinə nəzər saldıqda adlıq halın tarixən müxtəlif adlarla adlandırıldığının şahidi oluruq. M. Kazımbəyin “Türk tatar dilinin ümumi qrammatikası” kitabında adlıq hal “المبدأ” (əl-mubtədəu) və “الفاعل” (əl-fail) kimi verilir. Adıçəkilən kitabı tərcümə, tədqiq və şərh edən İ. Abbasov kitabın şərhlər hissəsində ərəb dilinə mənsub olan “المبدأ” (əl-mubtədəu) və “الفاعل” (əl-fail) terminlərini daha aydın izah etmək üçün ərəb dilinin ənənəvi qrammatikasına üz tutur. Müəllif yazır: “*Mübtəda* və ya *fail* anlayışlarının ifadəsi cümlənin növü ilə bilavasitə bağlıdır... Ərəb ənənəvi qrammatikləri cümlə tipini təyin etmək üçün söz sırası variantından istifadə edirdilər. Onlar başlanğıc mövqedə yerləşən sözə əsasən cümlənin iki tipini müəyyənləşdirirdilər. Belə nəticəyə gəlinmişdir ki, ad qruplu sözlə (isimlə) başlayan cümlə ismi, feillə başlayan cümlə isə feili cümlədir... Qısaca olaraq demək istəyirik ki, ərəb dilində “المبتدأ” dedikdə ismi cümlənin mübtədası, “الفاعل” dedikdə isə feili cümlənin mübtədası nəzərdə tutulur (4, s.235). Müəllif dilimizdə adlıq halın o dövrdə məhz bu terminlə ifadə olunduğunu bildirir. O həmçinin göstərir ki, A. Jober də adlıq halı “المبتدأ” termini ilə adlandırmışdır (4, s. 235).

Mirzə Məhəmməd Əfaşrın XIX əsrin II yarısında yazıldığı güman olunan “Fənni-Sərfi-Türki” əsərində də əhvali-ism bölməsində adlıq hal *mübtəda* adlandırılır (5, s. 57).

Qafur Rəşad Mirzəzadə və Məhəmməd Sadiq Axundovun birinci nəşri 1910-cu ildə olan “Rəhbəri-sərf” kitabında adlıq hal مجرد (mücərrəd) termini ilə adlandırılır. Nümunələrdən (qələm, dəftər, kitab) də aydın olur ki, mücərrəd hal dedikdə bugünkü adlıq hal nəzərdə tutulur (6, s. 11). Eyni adlandırmaya həmin kitabın ikinci nəşrində (1918) də rast gəlirik (7, s. 11)

İsmayıl Hikmət, Abdullah Şaiq və Səid Mirqasımzadənin birgə hazırladıqları (1924-cü ildə) “Türkcə sərf-nəhv” kitabında ismin halları haqda bildirilir: “Türkcədə isimlər üç halda bulunur. 1) ədatsız olaraq (mücərrəd hal); 2) feillərin mənasını tamamlayan (məful halı); 3) ismin mənasını tamamlayan (izafət halı: muzaf ileyh – muzaf).

Bunlardan birincisi ədatsız haldır (mücərrəd). Bir ismin sonuna ədat cəm edən başqa bir ədat artırılmazsa, kim? nə? nərə? suallarına cavab olarsa, mücərrədir. Məsələn: Həsən, dəftər, Şirvan kibi (8, s. 14). Göründüyü kimi “Türkcə sərf-nəhv” kitabında da adlıq hal mücərrəd termini ilə adlandırılmışdır.

M. Hüseynzadə qeyd edir ki, 1934-cü ilə qədər isimlərin heç bir hal adı olmamış və 1934-cü ildə ilk dəfə olaraq isimlərin hal adları yaranmışdır (9, s. 45). Görünür, müəllif “1934-cü ilə qədər isimlərin heç bir hal adı olmamış” ifadəsilə ismin hallarını ifadə etmək üçün doğma dilimizdə xüsusi

ifadələrin, yəni terminlərin olmamasını nəzərdə tutur. Çünki buna oxşar bir fikri M. Kazım Bəy də qeyd edir: "Farslar kimi türklər də halları adlandırmaq üçün xüsusi ifadələrə malik deyillər. Onlar bəzi hallarda düzgün olmasa da, öz dillərinin yeddi halını ərəb terminləri ilə ifadə edirlər" (4, s. 234)

Ərəb dilində adlıq haldan danışmağa başlamazdan əvvəl qeyd edək ki, Azərbaycan dilindən fərqli olaraq, müasir ərəb ədəbi dilinin hal sistemi klassik ərəb dilinin hal sistemi ilə eynilik təşkil edir. Klassik dövrdə işələnən hal adları indiki standard ərəb dilində olduğu kimi göstərilir. Bu haqda Çikaqo Universitetinin professoru Rebekka Hasselbax "Case in Semitic: Roles, Relations, and Reconstruction" (Sami dillərində hal: rollar, əlaqələr və rekonstruksiya) adlı əsərinin 23-cü səhifəsində klassik ərəb dilinin hal sistemi haqda söhbət açarır və halların morfoloji əlamətlərini cədvəl şəklində təqdim edir. Burada, o dövrün ərəb dilinin hal sistemində mövcud olan hallar və onların morfoloji əlamətləri eynilə bugünkü ərəb ədəbi dilində olduğu kimi göstərilir (10, s.23).

İstər klassik, istərsə də müasir ərəb dilində hal kateqoriyası bəhsində ənənəvi olaraq üç haldan söhbət gedir: adlıq, təsirlik, yiyəlik (11, s.19). Standart ərəb dilində adlıq hal رفع (raf') termini ilə adlandırılır. Adlıq halda olan söz təkdə مرفوع (mərfu'), cəmdə isə مرفوعات (mərfu'at) adlanır. Əgər mərfu' söz hallana bilən, yəni murab (معرب) sözdürsə, dammə (ـُ) və ya tənvin dammə (ـٌ) qəbul edir (12, s. 185). Azərbaycan dilindən fərqli olaraq ərəb dilində adlıq halın xüsusi şəkli əlaməti vardır.

Axşam oldu, heç bilmirəm neyləyim,
Bizim evdə dolu **çuval** da yoxdur (13, s. 113)
يُبَدِّلُ اللهُ سَيِّئَاتِهِمْ حسناتٍ
Allah onların pisliklərini yaxşılıqlara çevirər (Furqan, 70).

Ərəb ədəbi dilində hal kateqoriyası ***əl-irab*** (**ألْإعْرَابُ**) və ***əl-binə*** (**ألْبِنَاءُ**) bölməsində tədqiq olunur. **İrab** sözü qrammatik termin kimi *hal şəkilçiləri üzrə dəyişmə, hallanma, təsriflənmə, qrammatik təhlil, fleksiya, sintaksis* mənalarını verir və danışıq prosesində müxtəlif elementlər arasındakı münasibəti ifadə edir. **Bina** sözünün anlamına gəldikdə isə bu sözün **tikinti, bina, konstruksiya, quruluş** və s. mənaları ilə yanaşı qrammatik termin kimi **dəyişməz forma, dəyişməzlik** (14, s.248,249) mənaları da vardır. Buna görə də sözlər hallanma baxımından **murab** (**مُعْرَابٌ**) və **məbni (مَبْنِيٌّ)** olmaq üzrə iki yerə bölünür. **Murab** cümlədəki yerinə görə sonluq səkilçisi dəyişən (hallanan-*E.A.*) sözə deyilir. **Məbni** isə cümlədəki yerindən asılı olmayaraq hal əlaməti olmayan (hallanmayan-*E.A.*) sözlərə deyilir (15, s.210). Azərbaycan dilində hallana bilməyən isim yoxdur. Ərəb dilində adlıq halda olan murab və məbni isimlərə aid nümunələrə nəzər salaq:

Murab isim: طلع الهِلالُ [taləål hilǣl**u**] Ay göründü

Məbni isim: يكثر الندَى شتاء [yəksuru-n-nədə şitəən] Qışda rütubət artır

Nəticə etibarilə, görürük ki, Azərbaycan dilində adlıq hal tarixən ərəb dilindən götürülmüş sözlərdən yararlanaraq müxtəlif adlarla təqdim edilsə də, nə kemişdə, nə də müasir ərəb ədəbi dilində bu adların heç biri ərəb dilində adlıq halı adlandırmaq üçün istifadə edilmir. Müqayisə zamanı görürük ki, Azərbaycan dilində adlıq hal şəkilçisiz, ərəb dilində isə şəkilçili olaraq özünü göstərir. Bundan başqa fərq həmçinin ondan ibarətdir ki, ərəb dilində adlıq halın şəkli əlaməti olmasına baxmayaraq bəzi isimlər hallanmır. Yəni cümlədəki yerindən asılı olmayaraq hal şəkilçiləri qəbul etmir. Amma azərbaycan dilində hallanmayan isim yoxdur.

Ədəbiyyat

1. Azərbaycan dilinin qrammatikası. Morfologiya.I hissə,Azərbaycan SSR EA Nəşriyyatı Bakı-1960. Səh.19.334
2. Muxtar Hüseynzadə,MüasirAzərbaycandili (Morfologiya),Üçüncü hissə, Üçüncü nəşr,Bakı 2007,280s.
3. Screbrennikov B. A., Hacıyeva N. Türk dillərinin müqavisəli tarixi qrammatikası. Tərcüməçi: Hacıyev T. Bakı, "Səda", 2002, 381 səh.
4. M. Kazımbəy. Türk-tatar dilinin ümumi qrammatikası. Tərcümə, tədqiq və şərh: İdris Aabasov. Bakı: Zərdabi LTD MMC, 2017, 1008 səh.
5. Adilov V., Babazadə R. Mirzə Məhəmməd Əfşar "Fənni-Sərfü Nəhvi-Türki". "Elm və təhsil", Bakı-2015, 260səh.
6. Mirzəzadə Q. R., Axundov M. S. Rəhbəri-Sərf. I nəşr .1910. 64 səh.
7. Mirzəzadə Q. R., Axundov M. S. Rəhbəri-Sərf. II nəşr .1918. 64 Səh.
8. İ. Hikmət, A.Şaiq və M.Səid. "Türkcə sərf-nəhv".Azərnəşr.Bakı-1924.s.152
9. M. Hüseynzadə. Müasir Azərbaycan dili. Morfologiya III hissə. Bakı,"Şərq-Qərb",2007.280s.
10. Rebecca Hasselbach. Case in Semitic: Roles, Relations, and Reconstruction. OUP Oxford, 2013,353 pgs.
11. تأليف الشيخ مصطفى الغلاييْني،كتاب النحو - جامع الدروس العربيه،الجزْء الأول،الطبعة الثامنة والعشرون،منشورات المكتبة العصرية،بيروت،1993،902ص
12. Abbasova Elnurə. Azərbaycan və ərəb dillərində hal kateqoriyası.// Dilçilik İnstitutunun Əsərləri. Bakı, Elm və Təhsil, №1, 2016, 252 səh.
13. M. P. Vaqif. Əsərləri. Bakı, "Şərq-Qərb", 2004, 264 səh.
14. الدكتور روحي البعلبكي،المورد قاموس عربي-إنكليزي،دار العلم للملايين،21ط، بيروت-لبنان،2007،1256ص
15. Dr.Ç.Meral, Sarf-Nahiv edatlar, ifav yayınları,İstanbul,2003, s.455

Е.АББАСОВА

Диахронические аспекты именительного падежа в азербайджанском и арабском языках

Резюме

В данной статье рассматриваются диахронические аспекты именительного падежа в азербайджанском и арабском языках. Показано, что именительный падеж в азербайджанском языке исторически назывался разными терминами, которые относятся к арабскому языку. Хотя эти термины относятся к арабскому языку, арабы никогда не использовали их для обозначения именительного падежа.

Именительный падеж в арабском языке назывался *raf*, а слова, которые употребляются в именительном падеже, называются *marf'ū*, но во множественном числе они называются *marfu'āt*. В арабском языке есть существительные, которые никогда не принимают падежные знаки. Существительные такого рода называются существительными *mabni* в арабском языке. Слово *мабни* означает неизменное. В азербайджанском языке нет неизменного существительного.

E.Abbasova

The diachronic aspects of nominative case in azerbaijani and arabic languages

Summary

The present article deals with the diachronic aspects of nominative case in the Azerbaijani and Arabic languages. It has showen that the nominative case in the Azerbaijani language was historically named different terms which belong to the Arabic language.

Although those terms belong to the Arabic language, Arabs have never used them to call nominative case. The diachronic aspects of nominative case in azerbaijani and arabic languages

The nominative case in Arabic has ever named *raf'* and the words wich are in nominative case are called *marf'ū*, but in the plural they are called *marfu'āt*. There are some nouns in Arabic that they never take any case-marks. These kind of nouns are called *mabni* nouns in Arabic. The word *mabni* means unchanging. There is no any unchanging noun in the Azerbaijani language.

Rəyçi: İdris Abbasov
Filologiya elmləri doktoru, professor

KƏMALƏ ƏLİYEVA
Bakı Dövlət Universiteti
kemale655@gmail.com

TƏSİRLİLİK VƏ NÖV KATEQORİYALARININ CÜMLƏNİN STRUKTUR-SEMANTİK FORMALAŞMASINDA ROLU

Açar sözlər: feil, təsirlilik, növ kateqoriyası, şəxssiz cümlə, məchul növ, qarşılıq-birgəlik növ, icbar növ
Ключевые слова: глагол, переходность, категория залога, безличное предложение, страдательный залог, взаимно - совместный залог, понудительный залог
Keywords: verb, transitivity, category of voice, impersonal sentences, passive voice, mutually - joint voice, causative voice

Dilin qrammatik quruluşu morfoloji və sintaktik kateqoriyalarının vəhdəti şəklində təzahür edir. Morfoloji kateqoriyaların bir qismi həm söz birləşmələrinin, həm də cümlənin qurulmasında iştirak edirsə, digər qismi ya ancaq söz birləşmələrinin, ya da ancaq cümlənin formalaşmasında iştirak edir. Azərbaycan dilində təsirlilik və feilin qrammatik məna növləri bir-biri ilə qarşılıqlı əlaqədədir. "Təsir-növ qoşalığında bir tərəfdə hərəkətin obyektə təsir edib-etmədiyi, o biri tərəfdə subyektin bu işi necə icra etdiyi...durur" (6,21). Qeyd edək ki, müəyyən qrammatik məna növlərinin meydana çıxması zamanı müvafiq olaraq təsirli və ya təsirsiz olmaq mühüm əhəmiyyət daşıyır. Bu isə öz növbəsində cümlənin struktur-semantik tiplərinin formalaşmasına təsir göstərir.

Məlumdur ki, feilin qrammatik məna növləri subyekt və obyektin qarşılıqlı əlaqəsini özündə əks etdirir. Məlum növdə bu iki məntiqi kateqoriya sərbəstdir, daha doğrusu, onların cümlədə qrammatik cəhətdən təzahür etməsi feilin özünün qrammatik səciyyəsi ilə bağlı olur; feilin təsirli və ya təsirsiz olmasından asılı olmayaraq, müvafiq olaraq, subyektin mübtəda şəklində cümlədə çıxış etməsi azaddır. Bu zaman obyektin bu və ya digər şəkildə cümlədə iştirakı bilavasitə feilin təsirli və ya təsirsiz olması ilə bağlıdır. Belə ki, cümlənin xəbərinin təsirli və ya təsirsiz olmasından asılı olmayaraq, bu cümlələrdə mübtəda olur. Məsələn: 1)*Briqadir əlindəki bağlamanı yerə qoyub, sürətlə traktora qarşı yüyürdü* (M.İbrahimov); *Ərinin əsəbiləşdiyini görüb, zənbili uşağın əlindən aldı* (Ş.Cəmşidov).

Birinci cümlənin xəbəri təsirsiz (yüyürdü), ikinci cümlənin xəbəri isə (aldı) təsirlidir, lakin onların hər ikisində mübtəda vardır. Bu cümlələrdə obyektin hansı şəkildəsə ifadəsini tapması fərqli səciyyəyə malikdir. Birinci

cümlənin təsirsiz feili vasitəsiz tamamlığı—obyekti birbaşa tələb etmir və ona görə də burada onun iştirakından danışmaq olmaz. İkinci cümlədə isə təsirli feil vasitəsiz tamamlıq tələb edir, daha doğrusu, obyekt vasitəsiz tamamlıq funksiyasındadır. Verilmiş cümlədə *"zənbili"* sözü obyekt kimi çıxış edir. Təbii ki, təsirlilik-təsirsizlik kateqoriyasına aid edilən belə bir fikirlə razılaşmaq olmaz ki, "Feillərin bir qismi subyektin obyektə təsirini bildirdiyi halda, digər qismi subyektin obyekt üzərinə həmin təsirini göstərə bilmir. Subyektlə obyekt arasında olan bu münasibətin feillərdəki ifadəsinə təsirlilik və ya təsirsizlik kateqoriyası deyilir" (4,129). Təbii ki, burada nəzərdə tutulan obyekt dedikdə ancaq təsirlik halda ifadə olunan obyekt nəzərdə tutulur, halbuki obyekt digər hallarda da ifadə oluna bilir və bu zaman hətta təsir də özünü göstərə bilir (5,205).

Ə.M.Cavadov "Odda yanmaz, suda batmaz" Odda tipli cümlələri şəxssiz cümlə hesab edir, Z.Budaqova isə buna etiraz edərək göstərir ki, şəxssiz cümlənin mübtədası qrammatik cəhətdən cümlədə öz ifadəsini tapmadığı kimi, təsəvvürə də gətirmək olmur, halbuki verilən tipli nümunələrdə subyekt cavab şəklində meydana çıxa bilir (2,127). Bu fikirlə razılaşanlar da vardır. "Nəzərə alsaq ki, cavab bizə bəlli deyil, bu zaman bu cümlələr tamamilə tamamilə təktərkibli şəxssiz cümlələrə uyğun gəlir" (3,18). Qeyd etmək lazımdır ki, məlum növdə olan feillə ifadə olunmuş xəbərlər bu və ya digər şəkildə mübtəda tələb edir. Yuxarıda verilmiş nümunənin xəbəri də məlum növdədir və mübtəda tələb olunur. Ona görə də şəxssiz cümlə demək düzgün deyil.

Feilin qrammatik məna növləri obyekt və subyektin qarşılıqlı əlaqəsi zəminində meydana çıxır. Bu halda obyekt dedikdə üzərində iş icra olunan obyekt nəzərdə tutulur, lakin onu da qeyd etmək lazımdır ki, üzərində iş icra olunan obyekt olduğu kimi, məkan da ola bilər, yəni obyekt məsələsi burada şərti xarakter daşıyır. Bu isə o deməkdir ki, obyekt deyilən müvafiq cümlələrdə tamamlıq olduğu kimi, yer zərfliyi də ola bilər. Məsələn: *1)Cavad çarpayıda yatmışdı; 2)Cavad dərədə yatmışdı.*

Bu cümlələrin hər ikisində xəbər eyni feillə, hətta həmin feilin eyni qrammatik formasında ifadə olunmuşdur. Lakin birinci cümlədə iş obyekt üzərində (çarpayı) olduğu üçün vasitəli tamamlıq, ikincidə məkanda (dərədə) olduğu üçün yer zərfliyi işlədilmişdir.

Məchul növdə isə vəziyyət başqa şəkildədir; burada məntiqi subyekt qrammatik mübtəda ola bilmir, daha doğrusu, cümlənin mübtədası olur, lakin bu mübtəda məntiqi subyekt yox, məntiqi obyekt olur. Bu zaman, bir növ, məntiqi subyekt və məntiqi obyekt qrammatik funksiyalarını dəyişmiş olur. Bu fikri ona görə deyirik ki, əslində bu tip cümlələrdə tamamlıq (məntiqi obyekt) iştirak etmir, bəzi hallarda onun aşkarlanmasına ehtiyac duyulduqda "*tərəfindən"* sözünün iştirakı ilə formalaşmış tamamlıq kimi

meydana çıxır. Məsələn: *Kəndə yeni su arxı çəkilmişdi* (S.Əhmədov) cümləsində "su arxı" obyekt olduğu halda, qrammatik cəhətdən cümlənin mübtədası yerindədir və bu cümlədə subyekti "kənd camaatı tərəfindən" tipli ifadələrlə bərpa etmək olar. Lakin bu forma müasir dilimiz baxımından məqbul hesab edilmir. Xəbərin məchul növdə olması həmin formanı formalaşdırır.

Sözsüz ki, bu tip cümlələrdə digər obyektlər də iştirak edə bilir. Məsələn, *"Kağız üzərində rəngli şəkillər çəkilmişdi"* cümləsində "*şəkillər"* ilə yanaşı, "*kağız üzərində"* ifadəsi də ayrı-ayrı obyektləri bildirir. Lakin "*kağız üzərində"* vasitəsiz tamamlıq olmaq etibarilə obyekt bildirdiyi kimi, həmin mövqedə zərfliyin müxtəlif növləri, xüsusilə yer və ya zaman zərfliyi ola bilər: *Kəndin ayağında təzə bir bağ salınmışdı.(*M.İsmayılov) Bu cümlələrin hər ikisi subyekt və obyekt münasibətində, təxminən, eynidir, lakin üzərində iş icra olunan obyekt olduğu kimi, məkan da ola bilir ki, bu da daha çox qrammatik səciyyə daşıyır. Lakin hər iki cümlədə məntiqi subyektlə münasibətdə məhz təsir obyekti funksional cəhətdən fəallaşır.

Bəzi əsərlərdə hətta məchul feillərin də şəxssiz cümlənin xəbəri olması fikrinə rast gəlirik: "Bəzi məchul feillər xəbər vəzifəsində işlənərək, şəxssizlik mənası əmələ gətirir: *Məktəbdən xaric edilməsinə qərar verildi* (1,237). Digər əsərlərdə də bu cür fikirlərə rast gəlmək olur. EA-nın nəşr etdiyi "Müasir Azərbaycan dili" kitabında şəxssiz cümlələrin bir növü kimi xəbəri məchul feillərlə ifadə olunan konstruksiyalardan bəhs olunur (7,270). Müvafiq feillər isə "təsirsiz feillərin məchul növü" kimi təqdim olunur. Hər iki əsərdə verilən feillər məhz şəxssiz növdədir.

Feilin şəxssiz növünün ayrılıqda olub-olmaması haqqında dilçiliyimizdə vahid fikir yoxdur; bəziləri bunu ayrı, digərləri isə məchul növün daxili formalarından biri kimi qeyd edirlər. Şəxssiz feillərin məchul feillərlə oxşar cəhətləri vardır: eyni morfoloji əlamət, subyektin üzdə olmaması, təsirsiz feil kimi meydana çıxması. Lakin bunların bir-birindən fərqli xüsusiyyətləri də vardır: məchul növ təsirli feillərdən, şəxssiz növ təsirsiz feillərdən yaranır. Yaxud məchul növdə məntiqi obyekt qrammatik subyektin yerinə keçirsə, şəxssiz növdə feil, ümumiyyətlə, mübtəda tələb etmir. Nəhayət, məchul növ feillərin bir qismi hər üç şəxsə aid şəxs sonluğu qəbul edə bilirsə, şəxssiz növ feillər yalnız üçüncü şəxsin təkində olur. Bu isə müvafiq feil növlərinin sintaktik funksiyası ilə bilavasitə əlaqəlidir. İstər feilin şəxs şəkilçiləri ilə işlənmə imkanları, istər mübtədanı tələb edib-etməməsi bilavasitə sintaktik səviyyədə--cümlə üzvlərinin müəyyənləşməsi və cümlənin struktur-semantik tiplərinin formalaşması zəminində baş verir. Şəxssiz feillərlə bağlı əsas məsələlərdən biri onlarda nəinki subyektin itməsi, hətta obyektin olmamasıdır. Bu halda "feil...öz subyektini də itirir, subyekti əvəz edəcək obyekt olmadığından şəxssiz cümlələr əmələ gəlir" (8,331).

Feilin qrammatik məna növlərindən biri də qayıdış növdür. Forma cəhətdən məchul növə oxşayan bu növün səciyyəvi cəhəti odur ki, təsirli feildən yaranıb, təsirsiz feil kimi formalaşır və bu zaman subyektlə obyekt eyniləşir, daha doğrusu, iş subyekt tərəfindən onun öz üzərində həyata keçirilir. Lakin məchul növdən fərqli olaraq, burada subyekt mübtəda kimi cümlədə iştirak edir, obyekt isə ayrılıqda mövcud olmur. Məsələn, *Uzaqdan kəndin dağılmış evləri aydın görünürdü.* (Varis) cümləsinin xəbəri qayıdış növdə olub, ayrılıqda vasitəsiz tamamlıq tələb eləmir. Təbii ki, bunun əsas səbəbi feilin təsirsiz olmasıdır, digər tərəfdən isə, subyektlə obyekt eyni olduğundan mübtəda funksiyasında olan subyekt həm də obyekti bildirir və bu zaman obyektin ifadəsi olan vasitəsiz tamamlığın işlədilməsinə ehtiyac qalmır.

Lakin dilçilik ədəbiyyatında "*geyinmək"* və "*soyunmaq"* sözləri bütünlükdə qayıdış növ feillərin spesifikasından çıxdığı, yəni xüsusiyyətə malik olduğu qeyd edilir. Bu fikir ondan ibarətdir ki, qayıdış növ feillər təsirlidən yaranıb təsirsiz olduqları halda, bu iki feil təsirlidən yaranır və təsirli də qalır. Əslində bunun kökündə obyektin cümlədə ifadəsini tapıb-tapmaması durur. Çünki istənilən halda qayıdış növdə subyekt və obyekt birlikdə də olsa, ifadəsini tapır. Yəni *"Əsgər irəli atıldı"* cümləsində işi görən də üzərində iş icra olunan da əsgərdir. Dəqiq diqqət yetirilsə, "*geyinmək", "soyunmaq"* sözlərindəki obyekt-subyekt münasibətlərinə baxış eyni deyil. Bu fərq ondan ibarətdir ki, qayıdış növ feillərdə obyekt kimi düşünülən sözlər, bir qayda olaraq, təsirlik halda olur: *Hava açıldı (Hava havanı açdı), Duman çəkildi (Duman dumanı çəkdi)* və s. "*Geyinmək" və "soyunmaq"* feillərində isə subyektlə eyniləşən obyekt yönlük və ya çıxışlıq hallıdır: *Adil geyindi (Adil Adilə geydirdi), Adil plaşını soyundu (Adil Adildən plaşı soyundurdu)* və s. Bu fakt onu göstərir ki, "*soyunmaq"* və "*geyinmək"* sözlərində obyektə münasibət əslində eynidir, yəni subyekt və üzərində iş icra olunan obyekt eynidir, lakin burada təsirlik hallı sözlə ifadə olunan və cümlədə vasitəsiz tamamlıq kimi əks olunan obyekt də vardır. Qayıdış növə aid olan digər feillərdə belə bir obyektin varlığından danışmaq olmaz.

Burada bir maraqlı cəhətə toxunmaq istəyirik. Məlumdur ki, tarixən düzəltmə quruluşa malik olan bir sıra sözlər zaman-zaman sadə sözə çevrilir; bu zaman həmin sözlərdə tarixi aspektdə daşıdığı qrammatik-semantik xüsusiyyət bu və ya digər dərəcədə sabitləşmiş sözdə qorunur. Belə sözlərdən bir qismi də məhz tarixən məchul növdə olub hazırda sadə söz kimi dilimizdə yaşayan sözlərdir. Məsələn, "dağılmaq" feili tarixən "dağmaq" feilindən kökün itməsi nəticəsində yaranmışdır. Bu gün sadə olan bu sözdə -ıl şəkilçisi ayrılmasa da, onun qrammatik məzmunu qalmaqdadır. Belə ki, bu söz də bugünkü qayıdış növ feilləri kimi ayrılıqda subyekt və ya

obyekt tələb eləmir. Belə ki, "*dağılmaq*" feilində öz-özünə və ya hansı təsir nəticəsindəsə məhv olma, sökülmə, uçulma və s. bu kimi faktlar ifadə olunur, lakin indiki halında konkret morfoloji əlaməti olmadığından buna məchul və ya qayıdış növ demək olmur. Həmin feil cümlənin xəbəri olduqda özlüyündə təsirsiz feil olduğundan ayrıca obyekt, yəni vasitəsiz tamamlıq tələb eləmir. Lakin cümlənin mübtədası olur ki, bu da çox halda obyekt kimi alına bilən sözdür: *ev dağıldı, kitablar dağıldı* və s. Bu halda, təbii ki, həmin söz məchul növün məzmununa və funksiyasına uyğun gəlir. Belə ki, "*dağılmaq"* sözü ilə "*sökülmək"* feilləri qrammatik məna ifadə etməsi baxımdan eynidir, hətta sinonim sözlər kimi çıxış edir, buna baxmayaraq, birinci sözdə morfoloji əlamət olmadığından onu məchul növ kimi ala bilmərik.

Feilin qrammatik məna növlərindən biri qarşılıq-birgəlik növdür. Xəbəri bu feillərlə ifadə olunan cümlələrdə mübtəda, əsas etibarilə ya cəm şəklində olur, ya da həmcins üzvlərdən ibarət olur, çünki burada iş bir neçə subyekt tərəfindən ya qarşılıqlı, ya da birgəlik şəklində həyata keçirilir. Məsələn: 1)*Əsgərlərimiz torpaqlarımız uğrunda düşmənə qarşı daha inadla vuruşurdular; 2)Adil və Samir daha inadla vuruşurdular.* Bu nümunələrdə "vuruşmaq" feili qarşı-qarşıya görülən işi ifadə edir, lakin cümlələrin birincisində qarşı tərəf vasitəli tamamlıq şəklində çıxış edir (*düşmənə qarşı*), ikinci cümlədə isə bu fakt yoxdur. İkinci cümlədə obyektə münasibət hətta iki şəkildə izah oluna bilər. Birinci halda birinci cümlədəki vəziyyətlə qarşılaşırıq, yəni Adil və Samirin qarşı qüvvəyə qarşı birlikdə vuruşması faktı özünü göstərir. Bu zaman vasitəli tamamlıq işlədilə də bilər: *Adil və Samir düşmənə qarşı daha inadla vuruşurdular.* İkinci halda isə məzmun fərqi özünü göstərir; belə ki, burada Adil və Samirin bir-biri ilə qarşı-qarşıya vuruşmağı anlamına gəlir. Bu zaman düşünülə bilən *"bir-birinə qarşı"* ifadəsi cümləyə artırıla bilmir, artırılsa, məntiqsizlik özünü göstərmiş olar. Sözsüz ki, bu hal "vuruşmaq" feilinin daxili semantik-qrammatik mənası ilə deyil, subyektin feildəki işə olan münasibətinin xarakterindən asılıdır. Göründüyü kimi, qarşılıq-birgəlik növdə feilin subyektlərə olan münasibəti də fərqli səciyyə daşıyır. Bir halda subyektlər həmcins mübtədalar şəklində cümlədə fəaldır, yəni üzdə olaraq, hər ikisi fəal hərəkəti ifadə edir. Deməli, bu halda subyektlərin cümlədə qrammatik mübtəda kimi iştirak etməsi nəticəsində iki bərabərhüquqlu mübtədanın varlığı diqqətimizi cəlb edir. İkinci halda isə qarşılıq işin ikinci tərəfi qrammatik fəallığa malik deyil, yəni qrammatik subyekt—mübtəda kimi işlədilmir.

Burada bu məsələ ilə bağlı bir məsələyə də toxunmaq istəyirik. Mübtəda olan məntiqi subyekt cəm olduğu kimi, tək də ola bilər. Məsələn: *Adil inadla vuruşurdu.* Bu tip cümlələrdə feilin qarşılıq növdə olması ikinci subyektin də varlığından xəbər verir, lakin burada da ikinci subyekt

qrammatik cəhətdən ifadəsini tapmamışdır. Buna baxmayaraq, onu düşünmək mümkündür: düşmənə qarşı. Feilin qarşılıq növdə olması, daha doğrusu, bir neçə subyektin olması mübtəda və xəbərin əlaqəsində əsaslı iz buraxmır. İkinci subyektin cümlədə tamamlıq şəklində ifadə oluna bilməsi xəbərin formasına təsir etmir; bu zaman qrammatik mübtədanın xarakteri əsas olur.

Lakin bu cür formalaşmış feillərin cümlədə işlədilməsində bəzən fərqli məqamla qarşılaşırıq; belə ki, qarşılıq növdə olan feil bir neçə subyektə şamil edilmir. Məsələn*: Bahadır bir az bağda gəzişib geri qayıtdı.* Buradakı "*gəzişib"* sözü formal cəhətdən birgəlik növdədir, halbuki cümlədə iki və ya daha artıq subyektdən söhbət getmir. Bizə belə gəlir ki, bunun əsas səbəbi nitq normasının pozulmasıdır, yəni həmin cümlə şəraitində "*gəzişib"* yox, "*gəzib"* formasında ifadə olunmalıdır. Bu zaman cümlədə subyekt və obyekt münasibəti normal olar.

Onu da demək lazımdır ki, məzmunca qarşılıq-birgəlikdə olan elə feillər də vardır ki, onlarda qrammatik məna növünün xüsusi morfoloji əlamətinin olmaması müvafiq növün olmamasına işarədir. Lakin həmin feillərdə qarşılıq-birgəlik növün məzmununun olması oradakı qoşalaşmış şəkilçinin daxili komponenti ilə bağlıdır. Məsələn: *Zərifə və qardaşı tez-tez məktublaşırdılar*. Bu cümlənin xəbəri (məktublaşırdı) isimdən yaranmış feillə ifadə olunmuşdur. Burada feil düzəldən *–laş* şəkilçisi tarixən *–la* və *-ş* komponentlərinin birləşməsindən əmələ gəlmişdir; sonuncu komponent məhz qarşılıq məzmunu yaradan –ış şəkilçisinin qalığıdır, ona görə də həmin feildə müvafiq feil növünün məzmunu meydana çıxmışdır. Elə bu baxımdan həmin cümlədə subyektlər ayrı-ayrı mübtədalar kimi reallaşmışdır və xəbər şəxsə və kəmiyyətə görə mübtədalarla uzlaşmışdır. Lakin həmin məzmunun ifadəsi qarşılıq növdə olan feil-xəbər qalmaqla başqa sintaktik sxemdə də verilə bilər: *Zərifə qardaşı ilə tez-tez məktublaşırdı.* Göründüyü kimi, subyektlərin ifadə forması dəyişdikdə xəbərin özünün də qrammatik forması dəyişdi, daha doğrusu, qarşılıq növ qalsa da, xəbər cəm formasından tək formaya keçdi. Burada subyektin biri mübtəda kimi qalmışsa da, ikincisi vasitəli tamamlıq kimi işlədilmişdir. Bir subyektin mübtəda kimi qalması xəbərin də tək olmasını şərtləndirmişdir.

Bu tip feillərin sintaktik zəmində izahı zamanı, təbii ki, semantik tərəfə də xüsusi fikir vermək lazımdır; belə ki, eyni formada olmuş elə feillər də vardır ki, onların növ təyinatı fərqli olduğundan sintaktik cəhətdən müəyyənləşməsində də fərqlilik müşahidə olunur. Məlumdur ki, *"daşlaşmaq*" feili iki məna daşıyır; birinci halda məlum növdə olub, "*daş"* isminə *-laş* şəkilçisini artırmaqla düzəlmişdir və təsirsiz feildir. Məlum növ olduğundan subyekti—*iş* görəni məlum olub, qrammatik mübtəda şəklində cümlədə iştirak edir. Təsirsiz feil olduğundan birbaşa obyekt tələb eləmir.

İkinci halda isə bu söz *daş+la+ş* istiqamətində formalaşmış, yəni isimdən feil, feildən yenə feil yaranmışdır. Buradakı *–ş* qarşılıq növün morfoloji əlaməti kimi çıxış edir, ona görə də bu mənada feil qarşılıq növdədir. Qarşılıq növdə olması onun daxili semantik-qrammatik mənasına da təsir edir; burada bir neçə subyektin qarşılıqlı şəkildə fəaliyyəti—iştirakı nəzərdə tutulur. Bir neçə subyekt olduğundan cümlədə müvafiq olaraq ya həmcins subyekt-mübtədalar, ya da cəmdə olan mübtəda iştirak edir. Bu isə müvafiq olaraq həmin cümlələrdə xəbərin uzlaşmasını—cəmdə olmasını tələb edir. *Sarvan və Sərxan daşlaşdılar; Uşaqlar daşlaşdılar.*

İcbar növ feillər subyekt-predikat münasibətində başqa növlərdən fərqlənsə də, mübtədanın cümlədə ifadə olunması baxımından məlum, qayıdış və qarşılıq növdən seçilmir, daha doğrusu, bunların üçündə də məntiqi subyekt cümlənin mübtədası funksiyasında çıxış edir. Düzdür məntiqi cəhətdən əvvəlkilərdə iş birbaşa mübtəda olan məntiqi subyekt tərəfindən həyata keçirilirsə, icbar növdə bir subyektin təsiri ilə başqa subyekt tərəfindən yerinə yetirilir. Lakin bu halda da birinci subyekt unudulmur; o, cümlənin mübtədası, yaxud məntiqi cəhətdən işin təhrikedicisi kimi iştirak edir. Hətta bəzi hallarda müvafiq şəkilçini qəbul etmiş feilin subyektlə əlaqəsi o şəkildə olur ki, həqiqi işin nə olması və ya onun hansı subyekt tərəfindən yerinə yetirilməsi fikri mübahisəyə səbəb olur. Məsələn, *Səidə eşitdiklərinin hamısını təzə gələn müstəntiqə bir-bir bildirdi* (O.Zeynalov. "Çağırılmamış qonaq") cümləsində "*bildirdi"* sözü qrammatik formalaşma cəhətdən icbar növün xüsusiyyətlərinə malikdir: *-dir* şəkilçisi təsirli feilə artırılmışdır. Lakin məzmun icbar feildən tələb olunan məzmuna bərabər deyil, yəni sözdə ifadə olunan iş bir subyektin təsiri nəticəsində digər subyekt yerinə yetirmir, məhz danışanın özü tərəfindən həyata keçirilir. Burada da işin, prosesin digər şəxsə istiqamətləndiyi var; yönlük halda söz iştirak edir: müstəntiqə. Lakin icbar növdə yönəldilən şəxs işi həyata keçirən başqa bir subyektdir, "*bildirdi"* sözündə isə işin yönəldiyi subyekt yox, obyektdir, o, qeyri-fəaldır. Başqa bir hal ondan ibarətdir ki, bu fəal və ya qeyri-fəallıq obyektin özündə də təsirini göstərir; belə ki, icbar növdə obyekt üzərində iş icra olunan obyektdir. *Cəlil yeni ev tikdirdi* cümləsində "*ev"* obyektdir və bu obyekt üzərində icra var, yəni bu obyekt yaradılır. Digər halda obyekt məhv edilir (sökdürdü), forması dəyişdirilir (qazdırmaq) və s. Bu mənada "*bildirmək"* feilində icbariliyin yaratdığı semantik xüsusiyyətlər müşahidə olunmur ki, nəticədə fəal və ya qeyri-fəal obyekt onları fərqləndirir.

Ədəbiyyat:

1. Abdullayev Ə.Z., Seyidov Y.M., Həsənov A.Q. Müasir Azərbaycan dili. IV hissə. Sintaksis. Bakı, "Şərq-Qərb", 2007, 424 s.
2. Budaqova Z. Azərbaycan ədəbi dilində sadə cümlə. Bakı, EA nəşriyyatı, 1963, 364
3. Həmidova X.V. Azərbaycan və ingilis dillərində təktərkibli cümlələrin struktur-semantik xüsusiyyətləri. F.ü.f.d. avtoreferatı. Bakı, 2018, 24 s.
4. Hüseynzadə M. Müasir Azərbaycan dili. III hissə. Morfologiya. Bakı, "Şərq-Qərb ", 2007, 280 s.
5. Kazımov Q.Ş. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, "Elm və təhsil", 400 s.
6. Mirzəyev H.İ. Azərbaycan dilində feil. Bakı, "Maarif", 1986, 320 s.
7. Müasir Azərbaycan dili. III cild. Sintaksis. Bakı, "Elm", 444 s.
8. Veysəlli F.Y., Kazımov Q.Ş., Kazımov İ.B., Məmmədov A.Y. Azərbaycan dilinin funksional qrammatikası: sintaqmatika, söz birləşməsi və sadə cümlə sintaksisi. III cild. "Prestige çap evi", Bakı: 2014, 505 s.

К.Алиева

Роль категории переходности и залога в структурно-семантическом формировании предложения

Резюме

В азербайджанском языке категории переходности и залога взаимосвязаны. Переходность - отношение субъекта к совершаемому действию, залог выражает взаимосвязь объекта и субъекта. Категории переходности и залога играют определенную роль в формировании структурно-семантических типов предложения. В предложениях со сказуемым в действительном, страдальном, возвратном, взаимно-совместном и понудительном залогах требуется подлежащее. В безличном же предложении нет подлежащего. В возвратном залоге в предложении нет прямого объекта-прямого дополнения, здесь объектом, на который направлено действие является сам субъект - подлежащее. В взаимно-совместном залоге каждый из субъектов может быть подлежащее, а также один из них может быть подлежащим, другой - дополнением. При этом меняется и грамматическая форма сказуемого. В понудительном залоге второй субъект как косвенное дополнение может быть или не быть в предложении. В результате структурном отношении предложение выступает как иная конструкция.

K.Aliyeva

The role of the category of transitivity and voice in the structural-semantic role formation of a sentences

Summary

The categories of transitivity and voice are interconnected in the Azerbaijani language. Transitivity is an attitude of a subject to action; a voice expresses the interconnection between an object and subject. Categories of transitivity and voice play a certain role in formation of the structural-semantic types of sentences. The sentences with a predicate in active, passive, reflexive, mutually-joint and causative voice demand a subject. There is no subject is an impersonal sentence. There is no direct object in a sentence with the reflexive voice, the object on which action is directed is a subject itself. Each of subjects can be a subject in the mutually – joint voice and one of them can be a subject, the other one can be an object. In this case the grammatical form of the predicate chages. The second subject as an indirect object may be or not to be in the sentence in the causative voice. As a result a sentence acts as quite a different construction from the structural standpoint.

Rəyçi: Tofiq Müzəffəroğlu
Filologiya elmləri doktoru, professor

BAHAR CƏFƏROVA
Filologiya elmləir doktoru, professor
Fövqəladə Hallar Nazirliyinin Akademiyası
bahar.jafarova@fhn.gov
SAMİRƏ VƏLİYEVA
Odlar Yurdu Unversiteti
samire_velizade@mail.ru

TERMİNLƏR VƏ ONLARIN KALKA ÜSULU ILƏ YARADILMASI

Açar sözlər: termin, səs kompleksi, qeyri-müəyyən məna, anlayışlar, terminin funksiyası, söz birləşməsi, kalka, beynəlxalq termin, termin birləşməsi, kalka üsulu.
Key words:term, voice complex, indefinite meaning, idea (notion), term function, word-combination, loan translation, international term, term-combination, loan translation way.
Ключевые слова:Термин; звуковой комплекс; неопределённое значение; понятия; функция термина; словосочетание; калька; международные термины; терминоло-гическое словосочетание; способ кальки.

Termin latınca ” terminus” sözündəndir, mənası sərhəd, hədd, hüdud deməkdir. Termin müəyyən səddi (hüdudu) bildirən anlayışı ifadə edir.

Sözsüz dilin varlığını təsəvvür etmək mümkün deyildir. İnsan fikirləri də söz vasitəsilə ilə ifadə olunur. Termin də söz deməkdir. Hər bir dilə məxsus sözlər həmin dilin daxili qayda-qanunları əsasında yaranmaqla bərabər, müəyyən səs kompleksi ilə mənanın vəhdətindən ibarətdir. Deməli hər bir sözün iki cəhətə - dil işarəsinə və mənaya malik olması zəruridir.

E.M.Qalkina-Fedoruk yazmışdır: "Biz o sözü termin adlandırırıq ki, ona elm, texnika və incəsənət sahəsində tam şəkildə müəyyənləşmiş hər hansı bir anlayış müvafiq gəlir." [1. 117]
P.A.Budaqova görə "Termin – qəti surətdə müəyyənləşmiş mənay malik sözdür." [2. 23]. Lakin bu fikir bitkin deyildir. Çünki bəzi terminlər təxmini, qeyri-müəyyən mənaya malikdir. Bir sıra sözlər hələdə termin kimi qəbul olunmamışdır. K.Soxorun fikrincə, terminin rolu "elmi, yaxud əməli fəaliyyətin konkret sahəsinin leksikasına mənsub olan anlayışları adlandırmaqdır." [3. 8, 10]. Y.Horetski prinsip etibarıilə K.Soxorun fikrini müdafiə etmişdir. Termin – müəyyən bir elmi sistemdəki, yaxud istehsalat sahəsindəki anlayışın adıdır [4. 98].

Beləliklə, dil cəhətdən terminin funksiyasını adlandırma funksiyası, nominativ funksiya kimi müəyyənləşdirmək olar. Terminlər əşyaları,

prosesləri, obyektiv gerçəkliyin hadisələrini və onların haqqındakı anlayışları ifadə edir. Terminin əsas mahiyyətidə elə bundan ibarətdir [5. 9].
Termin yalnız bir sahə ilə bağlı olan bir anlayışı ifadə etməklə bərabər, təkcə bir məna daşıyır, başqa mənada işlənildikdə isə müəyyən sahənin termini olmaq hüququnu itirir. Belə vəziyyətdə həmin termin – söz ya başqa sahə üzrə termin olur, ya da adi, ümumişlək sözə çevrilir. Burada isə terminin haradan alınması, hansı əsildən olması xüsusi əhəmiyyət kəsb edir [5. 21].

Terminologiya sözü isə latınca terminus (termin) və yunanca logos (soz, elm) sözlərinin birləşməsindən əmələ gəlmişdir. Terminoloji tədqiqatların hamısında terminin anlayışla müəyyən yolla bağlı olduğu qeyd edilir. Bu, təsadüfi deyildir çünki, anlayış terminologiyada çıxış nöqtəsidir. Anlayışların dəqiq müəyyənləşdirilməsinin böyük əhəmiyyəti vardır. Belə olmazsa, ayrı-ayrı sahələr üzrə terminləri əhatə edən terminoloji lüğətlərin çərçivəsi süni surətdə genişlənər və terminoloji işlə leksikoqrafiyanın (lüğətçiliyin) aspekti qarışdırılar. Anlayışları təmsil etməyən sözlərin, o cümlədən də köməkçi sözlərin termin adlandırılması düzgün deyildir.

Terminlə anlayışın genetik cəhətdən əlaqəsi haqqında iki əsas fikir, ikinöqteyi-nəzər vardır. Tədqiqatçılardan bir qrupu terminin anlayışdan əvvəl, digər qrupu isə əksinə anlayışın termindən əvvəl meydana gəldiyini qeyd edir. Əslində termin həm anlayışın yaranması vasitəsi, həm də onun ifadə formasıdır. Terminlə anlayış eyni vaxtda, bir-biri ilə sıx qarşılıqlı əlaqə şəraitində meydana gəlir. Terminlə anlayış arasında hadisə və mahiyyət, forma və məzmun əlaqəsi mövcuddur. [5. 11]
Professor M.Ş.Qasımov terminə həm dilçilik anlayışı, həm də ümumi bir anlayış kimi aşağıdakı şəkildə tərif vermişdir.

"Termin elm və texnikanın ayrı-ayrı sahələrində məntiqi cəhətdən dəqiq formalaşmış spesifik anlayışları ifadə edən, təkmənalılığa daha çox meyl göstərən, üslubi cəhətdən neytral olan, bir neçə dildə vahid şəkildə işlənə bilən söz və ya söz birləşməsidir". Terminlər predmetləri, obyektiv gerçəkliyin hadisələrini və onlar haqqındakı anlayışları adlandırır" [5. 23].
Deyilənlərə baxmayaraq, terminoloji leksikaya məxsus sözləri ümumişlək leksikanın sözləri ilə konkret şəkildə müqayisə etmədən terminin spesifikasını aydınlaşdırmaq, onun mahiyyətini düzgün başa düşmək mümkün deyildir.

Termin yaradıcılığını söz yaradıcılığı prosesindən ayrılıqda nəzərdən keçirmək olmaz. Çünki terminlərdə mövcud sözlər və söz kökləri əsasında yaradılır. Hər bir dilin terminləri, əsasən, onun lüğət tərkibində mövcud olan sözlər üzərində qurulur. Bu prosesdə düzəltmə və mürəkkəb sözlərin, söz birləşmələrinin və abreviaturların yaradılması üsulundan istifadə edilir.

Kalka üsulu ilə terminlərin yaradılması barədə müxtəlif fikirlər meydana çıxmışdır.Onlardan bəzilərinə müraciət edə bilərik. "... Kalka sözün

hissələr üzrə tərcümə edilib, sonra həmin hissələrin mexaniki surətdə birləşdirilməsidir." [6. 117].

"...Kalkalar sozalmanın xüsusi bir növüdür. Bu müvafiq əcnəbi sözlərin quruluşu kimi formalaşan, lakin onların maddi əsasını almayan sözlərdir" [2. 88] .

"...Kalkaetmə, daha doğrusu, terminin başqa dillərdən süni surətdə tərcümə olunması nəticəsində müəyyən bir termin yaxud termin birləşməsi əvvəl dildə mövcud olmamış yeni məna kəsb edir" [7. 61] .

"...Kalkaetmə başqa bir dilin, yaxud başqa dillərin leksik-semantik və leksik-sintaktik modelinin alınması, onları nəzərdə tutulan dilin morfemləri ilə tamamlamaqla yeni sözlər yaradılması, yaxud dilə yeni sintaktik üsulların gətirilməsidir" [8. 188] .

Bu fikirlərin hamısında ümumi cəhət eynidir, yəni, kalkalar başqa bir dilə məxsus sözlərin, yaxud söz birləşmələrinin tərkib hissələrini ana dilinin müvafiq sözləri və söz birləşmələri ilə dəqiq tərcümə etmək üçün həmin sözlərin modeli üzrə qurulmuş sözlər, yaxud ifadələrdir.

Kalka sözü fransız dilinə məxsus "calque" sözündən yaranmış və yeni mənada istifadə olunmuşdur.

"Calque sözü fransız dilində çertyojlardan surət çıxarmaq üçün istifadə edilən yüksək keyfiyyətli şəffaf kağıza, yaxud şəffaflığa vermək üçün yağlar məhlulu ilə, qətranla, mumla doyuzdurulmuş nazik pambıq parçaya deyilir" [9. 272] .

Dilçilik tarixində isə həmin anlayışın mənası kalka etmək (düzəltmək) sözü kimi qəbul edilmişdir. Kalka sözünün beynəlxalq terminə çevrilməsi onun qəbul edilməsinə səbəb olmuşdur.

Dilçilərdən bəziləri kalkaları sozalmanın xüsusi növü kimi, bəziləri isə əcnəbi dilə məxsus sözlərin ana dilinə tərcümə edilməsi üsulu kimi izah edirlər.

Bu barədə B.M.Jirmunski yazır: " Əcnəbi sözün leksik cəhətdən mənimsənilməsinin daha tam formasını tərcümə üsulu ilə alınmalar (kalkalar) təşkil edir. Tərcümə üsulu ilə söz alınan zaman ana dili materiallarının köməyi ilə əcnəbi sözün mənası, sözyaratma prinsipləri, semantik quruluşu (necə deyərlər "daxili forması") mənimsənilir [10. 360] .

Əslində kalka üsulunu nə sozalma, nə də tərcümə hesab etmək olmaz. B.M.Jirmunskinin verdiyi təyinat kalkaetmə ilə sozalma arasındakı fərqləri silir. Kalka üsulu ilə yaranan terminlərlə alınma terminlərin ümumi cəhəti yalnız kalkaların "surəti çıxarılan" modellərinin onlardan kənarda, yəni başqa bir dildə olmasıdır.

Kalka üsulu ilə terminlər yaradılarkən əsas rolu sözlərin quruluşu oynayır, yəni müəyyən bir dildə sözlər başqa bir dilə məxsus sözlərin quruluşu kimi formalaşır. Hər hansı bir dildə başqa dilin nəticəsində yeni söz

əmələ gəlir. Bu üsulla meydana gələn terminlər dilin öz daxili materialı əsasında yaranır. Məsələn: beşillik (пятилетка), beşillik plan (пятилетнийплан) və s.

Kalka üsulu müxtəlif dillərdə tətbiq edilən bir üsuldur. Bu üsuldan qohum dillərin qarşılıqlı əlaqəsində də istifadə etmək mümkündür.

"Hərfi tərcümə prosesində qarşılıqlı təsirdə olan dillərin quruluşunun yaxınlıq dərəcəsi, dilin lüğət tərkibinin, kalka edilən dildəki söz yaradıcılığı priyomlarının inkişaf dərəcəsi, kalkaetmənin baş verdiyi tarixi şərait və s. amillər mühüm rol oynayır.

Lakin hansı dildə kalka olunmasına baxmayaraq kalka üsulunun özündə ümumi cəhətlər vardır ki, bunlar da onun iki əsas planda nəzərdən keçirilməsini tələb edir: a) ümumi dilçilik planında və b)müəyyən dillərin qarşılıqlı əlaqəsinə tətbiq olunması planında [5. 136] .

Kalka üsulu ilə yeni terminlər yaradılarkən tərcümə olunan söz tərcümə edilən dildə eyni mənanı verən sözlərlə yaxud söz və sözdüzəldici şəkilçilərlə ifadə edilməlidir. Buna görə də tərcümə edilən sözün tam qarşılığı verilməlidir, yoxsa, onu kalka adlandırmaq olmaz.

Kalka üsulu ilə elmin və texnikanın inkişaf etməsi ilə əlaqədar olaraq müxtəlif sahələrə aid bir çox terminlər yaradılmışdır.

"Kalka prosesində bütün anlayışlar öz dilimizə məxsus sözlərlə verilir. Bu prosesdə dilimizin qrammatik vasitələri bizə kömək edir. Məsələn, əmək qəhrəmanı, (геройтруда),üstqurum (надстройка), buzqıran (ледокол) və s. terminlər rus dilindən hərfi tərcümə zamanı dilimizdə yaradılmış terminlərdir [5. 137].

Burada həm məfhumların, həm də bu məhfumları ifadə edən terminlərin birləşməsi hadisəsi baş vermişdir.

Kalka yolu ilə yaradılan terminlər quruluşuna görə də müxtəlifdir. Kalkalar ya bir sözdən (sadə), ya da iki və daha artıq sözün birləşməsindən (mürəkkəb) ibarət ola bilər.

Sadə kalkalar morfoloji yolla yaradılır. Belə kalkalar öz sözlərimizə, həm də azərbaycanlaşmış rus, ingilis, ərəb, fars və s. sözlərinə sözdüzəldici şəkilçilərin artırılması ilə yaradılır. Məsələn: inşaatçı (строитель, builder), dərslik (учебник, text-book), soyuducu (холодилник, refrigerator, fridge), veriliş (передача, transmission (radio ilə), broadcasting (televiziya ilə)), tutum (смкость, capacity), bölmə (деление, division).

Kalka üsulu ilə yaranan terminlərin böyük bir qismi iki və daha artıq sözün birləşməsi nəticəsində əmələ gəlir. Belə terminlərdən bəziləri bitişik, bəziləri isə ayrı yazılır. Məsələn: dünyagörüşü (мировоззрение, world-wise, outlook), özfəaliyyət (самодеятельность, amateurtalent, activities, amateur), yerölçən (землемер, landsurveyor), beynəlxalq vəziyyət (международ-ноеположение, internationalsituation), orta dalğa (средняяволна,

middlewave), su kəməri (водопровод, water-piping), lüğət tərkibi (словарныйсостав, vocabulary), elmi-tədqiqat işi (научно - исследотелъкаяработа, scientific-research), ictimai hadisə (общественноеявление, socialevent), iqtisadi nəzəriyyə (економическаятеория, economictheory) və s.

Azərbaycan dilində Kalka üsulu ilə yaradılmış terminlərin bir qismini də leksikləşmiş söz birləşməsi şəklindəki terminlər təşkil edir. a) birləşmənin hər iki tərəfi rus dilində kalka edilir. Məsələn: рабочийденъ – iş günü, народныйконтроль – xalq nəzarəti, национальныйдоход – milli gəlir.
b) birləşmənin birinci tərəfi kalka edilir, ikinci tərəfi isə rus dilində olduğu kimi saxlanılır. Məsələn: tarixi materializm (историческийматериализм), yerli komitə (местныйкомитет), kitab fondu (книжныйфонд), xalq respublikası (народнаяреспублика) və s. birləşmənin birinci tərəfini təşkil edən söz rus dilindən alınır, ikinci tərəfini təşkil edən söz isə kalka edilir. Məsələn: fiziki əmək (физическийтруд), uçot faizi (учотныйпроцент), ictimai formasiya (общественнаяформация), kooperativ təsərrüfat (кооперативноехозяйтво) və s. [5. 139].

Elmin, texnikanın son nailiyyətləri əsasında yaradılan qurğuların, cihazların, aparatların və onlarla idarə olunan proseslərin özləri mürəkkəb olduğu üçün onları ifadə edən terminlər də mürəkkəb quruluşda – söz birləşmələri şəklində olur. Bu cür birləşmələr konkret leksik-terminoloji vahidlərdir. Termin – söz birləşmələrinin əksəriyyəti rus dilindən kalka olunmuşdur. Rus dilindən kalka edilərkən atributiv termin – söz birləşmələrinin komponentləri substantiv ekvivalent ilə də əvəzlənə bilər. Məsələn: воздущная атака – hava hücumu; хозяйственный расчет – təsərrüfat hesabı.

Azərbaycan dilində kalka üsulu ilə terminlər yaradılarkən rus dilinə məxsus ayrı-ayrı terminlər tərcümə olunur. Dilimizdə bir sıra terminlər də vardır ki, onlar rus dilindən tərcümə nəticəsində, lakin öz dilimizin daxili imkanlarından istifadə etmək yolu ilə yaradılmış və ədəbi dilimizin lüğət tərkibini zənginləşdirmişdir.

Beləliklə, kalkalar müvafiq əcnəbi sözlərin quruluşu kimi formalaşan, lakin onların maddi əsasını almayan sözlərdir.

Ədəbiyyat

1.Галкина-Федорик Е.М. Современный русский язык, Лекс-ка.М.,1954,ст.117
2.Р.А.Будагов.В.Ввдений в науку о языке М.,1965,ст.23
3.K.Sochor. Prirucka o ceskemodbornemnazvoslovi. Praha. 1955.səh. 8-10

4. Horezky. İrtahpojmu a terminu. Jazykovednycasopis. Rocnik XI. c.z., 1960, səh 98.
5. M.Ş.Qasımov. Azərbaycan dili terminologiyasının əsasları. Bakı. 1973. səh.9, 21, 23, 136, 139.
6.А.А.Реформатский. Ввдение в языкознание. М.,1955,ст.117
7.Н.А.Баскаков. Современное состояние терминологии в языках народов СССР. Вапросы терминологии (Материалы Всесоюзного терминологического совещания). Изд. АН, СССР, М.,1961,ст.61
8.О.С.Ахманова. Славарь лингвистических терминов, М.,1966,ст.188
9.Словарь иностронных слов. Изд. «Советская енциклопедия», М.,1964,ст.272
10.В.М.Жирминский. История немецкого языка. Изд. литературы на иностр. языках. М.,1956,ст.360.
11. B.C.Cəfərova. Terminoloji lüğətçilik məsələləri. Bakı, 1997, 85 səh.

B.Cafarova,
S.Valiyeva

Terms their meaning and formation of Calques

Summary

Absract. The article deals with generally about the investigation of terms, their use ,and the study in the field of sustainable development of a language. Terms constitutes the greatest part of every language vocabulary. Special attention has been given to the loan terms their essences, formation ways, and various scientific theories. It is also the most intensely developing part. In the enrichement process of terminological system the loan terms are playing the crucial role in word formation. The study of loan terms can give very valuable data concerning the interdependence of the history of language and the history of society.Calque is a word or phrase taken from another language but translated to corresponding English words still retaining the original meaning. Calque contributes to the richness of a target language by avoiding the direct use of foreign words. Calque is a construction, unlike a loan which is a phonetic and morphologic adaptationIn this article the construction and types of calques are analized and various linguists' opinion about the terms and the creation of the loan translation ways are also explained.

Б.ДЖафарова,
С.Валиева

Термины, их значения и образование при помощи кальки

Резюме

В статье в основном рассматриваются исследования терминов, их использование и изучение в сфере постоянного развития языка. Термины состовляют огромную часть каждого языкового словаря. Особое значение уделяется заимствованным научным теориям. Это также самая интенсивно развивающаяся часть. В процессе обогащения терминологической системы заимствованные термины играют решающую роль при словообразовании. Изучение заимствованных терминов может датъ ценные данные относително взаимосвязи истории языка и истории общества . Заимствование- это слово или фраза, взятая из другого языка, но переведённая на соотвествующее английское слово и все еще сохранившая своё первоначалъное значение .В данной статье анализируются посторение терминов и образавание способов перевода заимствованных слов, раскрывается информация о терминах и об их основной значимости, поясняются точки зрения учёных лингвистов о терминах и о способах их создания способом кальки. Помимо этого, освещаются простые и сложные способы образования калек.

Rəyçi: Səadət Abdurrahmanova
Filologiya üzrə fəlsəfə doktoru

ZEYNƏB YUSİFOVA
ADU
q.zeyneb@gmail.com

MÜASİR İNGİLİS DİLİNDƏ SÖZLƏRİN BİRLƏŞMƏ İMKANLARI

Açar sözlər: nitq, meyar, dil, söz
Key words: speech, criteria, language, word
Ключевые слова: речь, критерия, язык, слова

Sözlərin axtarışı, seçimi və onların kombinə edilməsi üçün xüsusi və məqsədyönlü əməliyyatların formalaşdırılması zəruridir. Sözlərin düzgün seçilmə və kombinə edilmə bacarıqları yalnız o zaman formalaşa bilər ki, söz assosiativ və subyektiv-ehtimallılıq xüsusiyyətlərinə malik olsun. Bizim üçün mühüm əhəmiyyət kəsb edən fakt ondan ibarətdir ki, sərbəst söz birləşmələrini nitq fəaliyyətinin yaranma mövqeyindən nəzərdən keçirən tədqiqatçılar xarici dildə sözlərin seçilməsi və kombinə olunmasına dair bacarıqların formalaşdırılması və həmin bacarıqların nitq fəaliyyətində formalaşdırılmasının kifayət etmədiyini bildirirlər. Sözləri düzgün seçmək bacarıqlarının formalaşdırılmasına tamamilə qanunauyğun yanaşma tərzi bu və ya digər sözün seçilməsini müəyyənləşdirən əsas semantik əlamətlərin üzvlənməsindən ibarətdir. Müəyyənləşdirici əlamətlər kimi ümumiləşmənin müxtəlif səviyyələrində differensial əlamətlərə malik sözlərdən ibarət leksik-semantik qruplar çıxış edə bilər. Bu, bütöv bir söz qrupunun semantizasiyasının dərk olunmasına, eləcə də, xarici dildə söz seçməyə dair bacarıqların formalaşdırılmasına imkan verir.Söz seçimi ilə bağlı olan əməliyyatların formalaşdırılması ilə yanaşı nitq fəaliyyətinin yaranması zamanı xarici dildəki sözləri bir-biri ilə birləşdirmə, kombinə etmə əməliyyatları da mühüm əhəmiyyət kəsb edir. Son vaxtlar dil vahidlərinin kombinə olunmasını kombinətemə məfhumunun psixoloji təbiəti əsasında tədqiq etmək tendensiyası müşahidə olunmaqdadır [1, 43].Bizim üçün mühüm əhəmiyyət kəsb edən fakt ondan ibarətdir ki, sözün kateqorial davranışı, onun digər sözlərlə əlaqəsi və birləşmə imkanları xarici dildə planlı və ardıcıl iş sayəsində mümkündür [3,113]. İngilis dilində sözlərin birləşmə imkanlarından danışarkən, məsələyə dair Qərbi Avropa və Amerika dilçilərinin mövqeləri ilə tanış olmağı zəruri hesab edirik. İlk növbədə, qeyd etmək lazımdır ki, Qərbi Avropa və Amerika dilçiliyində "söz birləşmələri" termini hər hansı iki sözün birləşməsinə aid edilir və "phrase" adlandırılır. Belə ki, qərb dilçiləri *old city* söz birləşməsi ilə *to the theatre* birləşməsi arasında heç bir fərq görmürlər. Baxmayaraq ki, *old city* iki əsas nitq hissəsinin (sifət+isim) birləşməsindən, *to the theatre* isə bir əsas (isim) və iki köməkçi

nitq hissəsindən (sözönü və müəyyənlik artiklı) ibarətdir, qərb dilçiləri onların hər ikisini eyni olaraq söz birləşməsi adlandırırlar.Digər mübahisəli problem – sözlərin predikativ birləşməsinin söz birləşməsi olub-olmaması məsələsidir. Azərbaycan və rus dilçilərinin böyük əksəriyyəti "söz birləşmələri" və "cümlə" adlandırılan iki məfhumun mövcudluğunu qəbul edirlər. Qərb tədqiqatçıları isə mübtəda-xəbər birləşməsi və digər birləşmələr arasında heç bir fərq görmürlər. Bəzi məsələlərə dair fikir oxşarlığının mövcudluğuna baxmayaraq, bütövlükdə Qərb dilçilərinin söz birləşməsi probleminə yanaşması Azərbaycan və rus dilçiliyində qəbul edilmiş yanaşma və mövqedən ciddi şəkildə fərqlənir.Onu da qeyd etmək lazımdır ki, amerikalı və ingilis dilçilərinin söz birləşməsinə həsr edilmiş tədqiqatlarında ənənəvi, hamı tərəfindən qəbul edilmiş terminologiya mövcud deyil. "Phrase", "cluster of words", "combination of words" və s. bu kimi terminlər geniş şəkildə istifadə edildiyi halda, hər hansı terminə üstünlük vermək olduqca çətindir, çünki onların hamısı söz birləşməsi anlayışına uyğundur və bu və ya digər terminə üstünlüyün verilməsi linqvistik təhlilə ciddi təsir göstərə bilməz. Eyni zamanda, məhz "phrase" termininin daha çox istifadə edilməsi danılmaz bir faktdır . Həmçinin qeyd etmək lazımdır ki, sözlərin birləşmə imkanlarının araşdırılmasına nitq fəaliyyətinin yaranması mövqeyindən yanaşma və kombinə etmə məfhumunun psixo-fizioloji təbiətinin açılması təkcə sözlərin düzgün şəkildə birləşdirilməsinə dair bacarıqların formalaşdırılmasına yönəlmiş çalışmaların yerinə yetirilməsini zəruri etmir, həm də, sözlərin birləşmə imkanlarının məqsədyönlü şəkildə araşdırılmasını, eləcə də, bu cür araşdırmanın mümkünlüyünü qəti şəkildə sübuta yetirir. Sözlərin birləşmə imkanlarının araşdırılmasına dair digər mövcud yanaşma sözlərin birləşmə imkanları və söz birləşməsi məfhumunun linqvistik təbiətini nəzərə alan çətinlik kateqoriyaları əsasında söz birləşmələrini araşdırmaqdan ibarətdir. L.Z.Yakuşina leksikanın mənimsənilməsi üçün əsas tələblərdən birinin sözləri kombinə etmək bacarığının olduğunu qeyd edərək sözlərin sözün semantik xüsusiyyətlərinə, digər sözlərlə məna münasibətlərinə, sözün morfoloji və sintaktik formasına əsaslanmaqla söz birləşməsi vasitəsilə cümlə tərkibinə daxil olduğundan, sözlərin leksik, morfoloji və sintaktik birləşmələrini qeyd edir. V.T.Mamiçeva söz birləşmələrinin tipologiyasını bir qədər fərqli mövqedən təqdim edir [2,14]. Sintaktik konstruksiyalarda müxtəlif pozisiyalardan şərh edilən L.Tenyerin konsepsiyasına əsaslanan müəllif, leksikanı mövqe əlamətlərinə və rus dilində isimlərin strukturu və fellər (valentliliyinə və birləşmə imkanlarında mövcud fərqlərə və uyğunluq əlamətlərinə əsasən), eləcə də, sifətlərlə birləşmə imkanlarına istinad etməklə tədqiq edir. Bu yanaşma, heç şübhəsiz, fransız dilinin tədrisi üçün maraq kəsb edir, lakin ingilis dili üçün sözlərin sintaktik konstruksiyalardakı yerləşmə mövqelərindən yanaşma heç də qanunauyğun deyil.

Bəzi tədqiqatçılar xarici dildəki söz birləşmələrini iki qrupa bölürlər:

1. Birinci qrupa qavranılması xüsusi cəhd tələb etməyən, "many books, a beautiful girl, a good picture" və s. kimi söz birləşmələri aiddir.

2. İkinci qrupa isə doğma və xarici dildə sözlərin işlənmə məqamlarının üst-üstə düşməsi ilə əlaqədar çətinlik törədən söz birləşmələri (misal üçün, to marry somebody, strong feeling, lonely business, big argument, big affair, to take to smb.) aid edilir.

Q.İ.Boqin söz birləşmələrinin daha geniş tipologiyasını vermişdir. Müəllif söz birləşmələrini söz, forma seçimi, söz əlaqələri (1-ci qrup) və nitq prosesində hazır material kimi işlədilən sözlərin işlənməsi ilə bağlı (2-ci qrup) çətinliklərdən asılı olaraq müxtəlif qruplara bölür. Hər iki qrupa semantik sıralanma (1-ci qrup üçün lazımı sözün seçilməsi, misal üçün, little-big) və ya 2-ci qrup üçün sözlərin söz birləşmələri tərkibində idiomatik işlənməsi (məsələn, for the first time, in his time) eləcə də, strukturda olan çətinliklərlə bağlı, 1-ci qrup üçün strukturun seçilməsi (my sister and I) əlaqəli olan, ekvivalenti rus dilində ayrı-ayrı sözlərlə ifadə olunan ingilis dili birləşmələrinin (məsələn, to take a look) işlənməsinə görə iki yarımqrupa bölünür.Söz birləşmələrinin tipologiyası T.N.Lyapina və E.F.İvanova tərəfindən işlənib hazırlanmışdır. Söz birləşmələrinin dildaxili və dillərarası interferensiyasını nəzərə almaqla yaradılmış tipologiyası E.F.İvanova tərəfindən həyata keçirilmişdir. Hər iki müəllif daxili interferensiyanı nəzərə almaqda sözləri və söz birləşmələrini 2 qrupa ayırırlar.Birinci qrupa istifadəsi müəyyən qaydalarla əlaqədar ingilis dilinin artıq mənimsənilmiş hadisələri ilə üst-üstə düşməyən söz və söz birləşmələri daxildir. Həmin söz birləşmələrinə mənimsənilmə çətinlikləri hərəkət bildirən müxtəlif cümlələrin (to arrive in, at; to leave for) işlənməsi ilə əlaqədar olan söz birləşmələri aiddir (1-ci qrup). Mənimsənilmə çətinlikləri dillərarası interferensiya ilə izah olunan söz birləşmələrinə isə müəllif semantik cəhətdən uyğun gəlməyən söz birləşmələrini aid edir (2-ci qrup). Burada, əsas diqqət "konstruktiv" birləşmə imkanlarına yönəldilir. Sərbəst söz birləşmələrini isə müəllif nəzərə almır. Sözlərin birləşmə imkanlarının üst-üstə düşməməsini aşağıdakı misalda göstərmək olar:İngilis dilində "comment" "on" sözönü ilə işlənən təsirsiz feldir. Rus dilində isə "комментировать" feli təsirli feldir. Azərbaycan dilinə gəldikdə, burada da "şərh etmək sözü" təsirli fellər siyahısına daxildir. B yarımqrupuna daxil olan bir çox sözlər üçün, müəllifin fikrincə, "konstruktiv" birləşmə cəhətdən çətinliklər də mövcuddur. Misal üçün "to agree to, with" birləşməsi "razılaşmaq" mənasında deyil, "kiməsə faydalı olmaq" mənasında işlənir (The climate agreed with me). Məsələn, "thick" sözünün ifadə etdiyi anlayışın əsas əlamətləri bunlardır:

1) of relativity great diametric, depth;

2) of stated depth;

3) of vapor;

4) of dense.

Beləliklə, sözlərin birləşmə imkanlarını söz birləşmələri və onların cümlənin müxtəlif səviyyələrində birləşmələri vasitəsilə söz birləşmələrinin öyrənilməsinə imkan verən bütöv cümləyə münasibətdə geniş şəkildə müzakirəsi prinsipial cəhətdən yenidir. Sərbəst söz birləşmələrinin linqvistik təbiətinin arxasında daha mürəkkəb əlaqələri və sözlərlə ifadə olunan mənalararası münasibətləri görməyə imkan verən əsas semantik yanaşma üsullarının meydana çıxarılması da mühüm əhəmiyyət kəsb edir. Sərbəst söz birləşmələrinin tədrisi məsələsi problemin psixoloji aspektlərinin araşdırılmasını tələb edir.Sözlərin sərbəst şəkildə birləşməsinin yuxarıda aparılmış linqvistik təhlili göstərdi ki, bu, dildə hazır şəkildə mövcud olmayan, lakin nitq prosesində yaranan və formalaşan dil hadisəsidir ki, həmin dil hadisəsinin əsasında da sözlərin məfhum məzmununun danışanın şüurundakı qarşılıqlı münasibəti dayanır.

Ədəbiyyat

1. Abdullayev K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Maarif, 1999, 281 s.
2. Мамичева В.Т. Обучение лексики французского языка в техническом вузе: Автореф. дис. … канд.филол.наук. М., 1969, 16 с.
3. Пиаже Ж. Речь и мышление ребенка. М.: Римис, 2008, 448 с.
4. Уфимцева А.А. Слова в лексико-семантической системе языка. М.: Наука, 1968, 272 с
5. Фоломкина С.К. К вопросу о методике работы над лексикой, подлежащей продуктивному усвоению на 1 и 2 курсах институтов иностранных языков // Учен. зап. МГПИИЯ. М., 1959, т. XXII, с. 81-110
6. Ogden C.K., Richards J.A. The meaning of meaning. London: Houghton Mifflin Harcourt P; Reissue edition, 1923, 390 p.
7. Osgood C.E. The Nature of Measurement of Meaning // Psychological Bull, 1952, N 49, p. 197-237

Z.Yusifova

The opportunities of combining words in modern English

Summary

The article deals with the word and word combinations in modern English.

The process of teaching English should be based on the communicative – functional approach to teaching languages. The whole process of teaching oral speech should be goal-oriented and systematic. It will make the process

of teaching oral speech more effective. Speaking comprehension is one of the most basic and important of the four skills in language teaching&learning.

One of the main goals of language learning is to acquire the ability to communicate effectively.The author emphasizes its role in modern Linguistics.Since its emergence these words and expressions caught the attention and new researches appeared. It is noted that this gives us more power to understand the process clearly and use the language more competently.

З.Юсифова

Возможности соединении слов на современном английском языке

Резюме

В данной статье рассматриваются к вопросу **о слов и словосочетаниях на английском языке**. Процесс английскому языку в целом и процесс обучения должен базироваться на коммуникативно – функциональном принципе. Обучением устной речи должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению еффективности данного процесса. В условиях глобализации основная цель обучения иностранным языкам и их изучения состоит в формировании у обучаемых способности использовать язык в целях коммуникации. Умение адекватно воспринимать информацию в процессе “speaking” является одним из самых важных и необходимых умений которыми должен обладать человек, изучающий язык в тех или иных целях. Одной из основных целей изучения языка является обладение умением эффективно общаться на изучаемом языке. Автор пытается раскрыть их роль. Ссылаясь на работы ученых исследовавших, а также подчеркивает ее важность. Отмечается, что эта дает воспоминать смысл текстов во время анализа еще более ясно, а также использовать язык в еще более разнообразном колорите.

Rəyçi: Nuriyyə Əliyeva
Filologiya üzrə fəlsəfə doktoru

VƏFA PİRİYEVA
ADU
v.piriyeva@adu.edu.az

MÜASİR AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ NƏZAKƏT MÜNASİBƏTLƏRİ İFADƏ EDƏN SÖZ VƏ İFADƏLƏRİN İNTONATİV XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: intonasiya, melodiya, sintaqm
Key words: intonation, melody, syntagm
Ключевые слова: интонация, мелодия, синтагма

Həm müasir Azərbaycan, həm də müasir ingilis dilində müxtəlif cavab cümlələrdən, təkrar sorğulardan, zidd məna ifadə edən və ya nəzakət münasibətləri bildirən söz və ifadələrdən istifadə olunur. Onlar öz leksik tərkiblərinə görə təsdiq bildirən "bəli", "əlbəttə", "yaxşı" və s., inkar bildirən "yox", "xeyr", "bəlkə" və s. kimi ədat və modal sözlərdən ibarət olur. Lakin bunlardan bəzilərini ara sözlərlə qarışdırmaq olmaz, çünki bizim nəzərdə tutduğumuz sözlər əvvəlcə deyilmiş fikrə cavab məqsədilə işlədilir.

Qeyd edək ki, cümlədə melodiyanın qalxıb enməsində bu sözlərin rolu böyükdür. Müasir ingilis dilində də analoji hal istisna deyildir. Burada "yes", "no" cavabı tələb edən cümlələrdə "yes" düşən tonla deyilərək bitmiş fikir, əminlik bildirir. "Yes" sözü ayrıca təsdiq, razılıq mənalarını ifadə edir[8, s.57].

-'Have you 'found your 'opera ̩glasses?

-̩Yes / I ̩have//

Lakin onu da qeyd etmək maraqlı olardı кi, əgər danışan artıq deyilmiş qəti fikrə bir qədər yumşaqlıq gətirmək istəyirsə, bu zaman fikri dəqiqləşdirmək, nəyisə əlavə etmək və ya nəsə izah etmək məqsədilə söyləmi düşən - qalxan tondan istifadə edərək, təlffüz edir. Burada söyləmin I hissəsi II hissədən davam etmə pauzası # ilə ayrılır[8, s.56].

'Are you 'sure he was ̩there?(Əminsən o orada idi ?)

He ̩was | ̩yesterday. (Burada idi, dünən.)

Müasir ingilis dilində nəzakət bildirən söz və ifadələrin intonativ xüsusiyyətləri də dilçilik məsələləri baxımından maraq doğurur.Bu cür söz və ifadələri dilçilikdə sadə cümlə fonunda cümlə əvəzləri kimi də xarakterizə edirlər [6,s.32].

Sadə cümlələr qeyd etdiyimiz kimi, bir predikativ mərkəzi olan cümlələr olub, müxtəlif struktur semantik tiplərə malikdir.

Belə ki, cümlə üzvlərinə ayrılmalarına görə onları iki qrupa: üzvlənən və üzvlənməyən sadə cümlələrə ayırırlar. Cümlə əvəzləri də üzvlənməyən sadə cümlələrə aid edilir. Digər tədqiqat əsərlərində onları cümlə əvəzləri də

adlandırırlar. E.M.Qalkina -Fedoruk, K.V.Garşkova, N.M.Şanski rus dilinin sintaksisinə aid dərslikdə cümlə əvəzlərini təktərkibli cümlələr başlığı altında deyil, cümlənin xüsusi bir növü кimi izah etmişdir [6, s.34].

A.Aslanov cümlə əvəzlərini cümlə üzvləri ilə bağlı olmayan sözlər adlandırır [2, s.319-321].

Qeyd edək ki, cümlə əvəzləri müxtəlif növlü cümlələri əvəz edir. Cümlə əvəzlərinin cümlə olmaları üçün əsas vasitə yalnız intonasiyadır. Əvəz etdiyi cümlələrin xarakterinə görə cümlə əvəzlərini məqsəd və intonasiyaca nəqli, sual, nida və əmr cümlə əvəzlərinə bölürlər.

Hər iki dildə nəqli cümlələrin yerinə işlənən cümlə əvəzləri də nəqli xarakterdə olur və nəqli intonasiya ilə tələffüz olunurlar.

Cümlə əvəzlərinin formalaşmasında kontekstin, söhbət gedən şəraitin və intonasiyanın rolu böyükdür.

Deməli, onları cümləyə çevirən kontekst və intonasiayadır.

A.Axundov qeyd edir ki, bu qəbil cümlələr fikrin daha konkret ifadəsinə xidmət edir [1, s.362].

Öz leksik tərkiblərinə görə cümlə əvəzləri təsdiq və ya inkar bildirən “bəli”, “xeyr”, “yox”, “hə”, “ədbəttə”, “şübhəsiz” və s. kimi ədat və modal sözlərdən, ya da nidalardan ibarət olub, daha çox dialoq nitqində, sual-cavab replikalarında və ya monoloq nitqində işlənir.

Müasir ingilis dilində cümlə əvəzlərinə, o cümlədən nəzakət münasibətləri ifadə edən sözlərə “yes”, “surely”, “of course”, “naturally” və s. kimi söz və ifadələrdə uyğun gəlir.

Müasir Azərbaycan dilində nəzakət bildirən təsdiq cümlə əvəzləri qalxan, inkar cümlə əvəzləri enən tonla sərhədlənir[1,s.46]. Müasir ingilis dilində isə əksinə, təsdiq hökmləri bildirənlər enən, inkar hökmləri bildirənlər isə qalxan tonla tələffüz olunurlar.Z.Budaqova söz cümlələrin işlənmə məqamlarını təsdiq, inkar, sual məqamında işlənən söz cümlələrə ayırır. Bunlardan bir qismi danışanın öz söylədiyi fikrə cavab olur, digərləri təsdiq, inkar, sual şəklində cavabı təmin edir [6, s.161].

«Bəli, elə ona görə də o, bu şəhərdən getmişdir.

Bu cümlə təsdiq məqamında işlənərək 3 sintaqmdan təşkil olunur. Xatırlama və nəzakət məna çalarlarına malikdir.

Qeyd edək ki, "yes" sözü qalxan-enən tonla tələffüz edildikdə qismən razılıq mənasını verir. "No" sözü isə qalxan-enən tonla deyilərkən fikir qətiliyini itirir

[8, s.45].

˩Yes, |˩That’s so.˩Yes, | of course it is ˩so.

-'Did 'Jane 'go to ˩school?

-˩No, | she 'went to the ˩theatre.

'More ˩tea. - ˩No, |˩thank you [3, s.243]

Buradan aydın olur ki, onu ancaq kontekstin xarakterindən aydınlaşdırmaq olur.

Qeyd etmək lazımdır ki, hansı terminlə adlandırılmasından asılı olmayaraq, bəzi sintaktik vahidlər (söz cümlə, üzvlənməyən cümlələr, cümlə əvəzləri, söyləm) məhz intonasiya vasitəsilə cümləyə çevrilirlər.Buraya nəzakət bildirən söz və ifadələr də daxil edilir. Məsələn : Buyurun

Bu sintaktik vahidlərin intonasiya quruluşu demək olar ki, daima situativ səciyyə daşıyır və danışanın məqsədindən, əhvali-ruhiyyəsindən və s. asılı olur.

Müasir Azərbaycan və ingilis dillərində geniş istifadə olunan salam, təşəkkür, xahiş və s. bildirən sözlər də təktərkibli cümlələrdən hesab olunur. Lakin onlar xüsusi qrup təşkil edirlər.

Salamat qalın. Təşəkkür edirəm.

Thank you.

Müasir Azərbaycan dilində "təşəkkür edirəm", "salamat qalın" kimi ifadələrə müvafiq müasir ingilis dilində "goodbye", "good night", "so long" və s. kimi ifadələr uyğun gəlir.

S.M.Babayev bu haqda qeyd edir: "Gündəlik işlətdiyimiz bir neçə ifadələr vardır ki, onlar kontekst daxilində məna keyfiyyətlərinə görə müxtəlif melodik variantlarda tələffüz edilirlər. Eyni ifadənin müxtəlif emotiv keyfiyyətlər ifadə etməsi məhz melodiyanın sayəsindədir"- [5,s.180].Müəllif bu ifadələrin situasiyasından və danışanın münasibətindən asılı olaraq, müxtəlif intonasiya xüsusiyyətləri kəsb etdiyini müxtəlif cümlə növlərinin timsalında geniş izah edir.

" So long"(Hələlik)

Aşağıdakı tək sintaqmlı bu cümlə qalxan tonla tələffüz olunur. Müvəqqəti ayrılıq mənasını ifadə edir.

"Good bye"(Əlvida)

Minimal sintaqmlı bu cümlədəki melodiya uzunmüddətli ayrılıq zamanı istifadə etdiyimiz melodiyadır və düşən tonla sərhədlənir. F.Zeynalov qeyd edir ki, təşəkkür, razılıq bildirən ifadələr adətən düşən tonla tələffüz olunurlar. Daha sonra tədqiqatçı buna aid nümunələr verir.

'Will you 'have a ˏdrink ? ˎThank you [3, s.243].

Onu da qeyd etmək lazımdır ki, cümlə əvəzlərini çox vaxt adlıq və yarımçıq cümlələrlə eyniləşdirirlər. Amma adlıq cümlələr müstəqil mənalı sözlərlə, yəni ismi və ismi birləşmələrlə ifadə olunur. Cümlə əvəzləri isə belə deyil. Yarımçıq cümlələr özündən əvvəlki fikirlə bağlı olur, onları kontekst vasitəsilə bərpa etmək olur [6, s.90].

Bəzən müasir ingilis dilində yarımçıq cümlələrdə nəzakət bildirən cavab cümlələr "please", "thank you" kimi sözlərlə də ifadə olunur ki, burada da nitq tempi sürətli olması ilə seçilir.

'How ̩are you? – I'm 'very 'well ̩thank you. (Necəsən?-Mən lap yaxşıyam, sağ olun.)

Bu cümlə enən-qalxan tonla tələffüz olunur. Sadə cümlələrdə sonda işlənən bu söz qalxan tonla hüdudlanır.Rus tədqiqatçılarından M.V.Davıdov yazır: "Bir çox hallarda ton bütövlükdə hansısa sözü eyni vaxtda müəyyən edərək ya cümlədə onun leksik mənasının artmasına, ya da cümlənin yalnız sadə bir fakt olmayıb, konkret situasiyada başa düşülməsi adətən çətin olan nəyəsə işarəni bildirir." Tədqiqatçı bunu "appelyasiya" funksiyası adlandırır [8, s.44].

Göründüyü kimi, ton, intonasiya dialektik surətdə bir -birini tamamlayırlar. Bu mənada nəzakət bildirən söz və ifadələr dialoq nitqində daha maraqlı səslənirlər. Cümlədəki fikir nə qədər müstəqil və tam olursa, ton enməyə meylli olur. Tonun düşməsi fikirin tamlığını göstərir. Qalxan ton natamam fikri ifadə edir. Tonun bir cümlə daxilində bir neçə dəfə qalxıb enməsi həmin cümlədəki ümumi mənanın, məntiqi yükün sintaqmlar arasında düzgün qruplaşmadığını bildirir [8, s.41].

Göründüyü kimi, melodiya sintaqmın sayı qədər təkrarlanır.

Nəzakət bildirən cavab replikalar iki səciyyədə özünü göstərir:

Bir qismi deyilmiş fikrə cavab olur.

Bir qismi danışanın öz söylədiyi fikrə münasibətini bildirir.

Müasir ingilis dilində yarımçıq cümlələrdəki nəzakət bildirən ifadələr xüsusi maraq doğurur.

-'Pass me the ̩salt please.

-'Here you ̩are.

-̩Thank you!

Burada "thank you" aşağıdan qalxan tonla tələffüz edilir [3, s.243].

Bununla bağlı müasir ingilis dilində nəzakət bildirən söz və ifadələrin olduğu dialoq nitqindəki replikalarda ton müxtəlif funksiyaları ilə nəzəri cəlb edir. Bu mənada M.V.Davıdov yazır: "Müəyyən işarələr siyahısı kimi qeyd etdiyimiz qalxan – enən tonların köməyilə mənanın bütövlüyü korlanmır, bizim fikrimizcə əsas deyimin tam başa düşülməsi üçün kifayət qədər yetərli sayılır" [8, s.45]

I 'can't ̩do it – I'm 'sure you ̂can. (Mən bunu edə bilmərəm – Mən əminəm ki, bacararsan.)

Bu zaman nitqin tempi sürətli olur, pauzaların nisbi uzunluğu nisbətən qısalır. Müasir ingilis dilində nəzakət bildirən cavab cümlələr müxtəlif кeyfiyyətlərdə özünü göstərir. Bəzi cavab cümlələrdə isə sanki danışan öz fikrini müzakirəyə qoyur və son sözü dinləyicinin ixtiyarına buraxır [8, s.54].

Lakin elə məna qrupları da vardır ki, orada cavab cümlələr nəzakətlilik fonunda qətiyyətsizlik, inamsızlıq, tərəddüd çalarları da ifadə edir və enən – qalxan tonla tələffüz olunur.

'Is it 'far from ̩here? – I ̩think ̩so.

Beləliklə, təktərkibli cümlələrdən olan nəzakət bildirən söz və ifadələrdə predikativlik bitmiş intonasiya və mətnlə də ifadə edilir. Deməli, ümumi şəxsli, qeyri -müəyyən şəxsli və şəxssiz cümlələrdə predikativlik cümlənin əsasını təşkil edən söz və ona qoşulan şəxs, zaman, şəkil əlamətləri ilə ifadə edilir, söz - cümlələrdə və adlıq cümlələrdə şəxs, zaman, şəkil əlamətləri olmur, xüsusi bitmiş intonasiya və situasiya onlara bitkinlik verir [6, s.123].

Bu baxımdan V.V.Vinoqradov yazır кi, intonasiya nəticəsində nəinki təkcə sözlərin birləşməsi, ayrıca sözlər də cümlə məzmunu kəsb edə bilər. [5,s.502]

˩Yes, | this was 'also the 'end of 'Cape ˧Town | and its 'bustling and 'exciting 'stream of ˩life. (Bəli, bu da Keyptaun və onun qaynar, həyəcanlı həyatının sonu idi .) [13, s.30]

Bu cümlədə də «also» sözü aid olduğu sözün məna tutumunu genişləndirir, onu konkretləşdirir və məntiqi predikata çevirir. Məna mərkəzi axırıncı vurğulu sözə düşür.

'Will you 'show us the ˧way? (Bizə yolu göstərə bilərsiniz?)

˩Yes, sir. (Bəli, cənab) [13, s.60]

Göründüyü kimi, dialoq nitqi intonasiyanın bütün zəngin vasitə və xüsusiyyətlərini əks etdirir, ona əsaslanır. Təhlillər göstərir ki, nitq taktları kəskin intonativ konturlar vasitəsilə seçilir [1, s.96].

Beləliklə, hər bir cümlə nitqin vəziyyəti ilə bağlı olduğundan, müəyyən məzmun ifadə edən cümlə leksik - qrammatik və fonetik ünsürlərlə şərtlənir.

Müasir ingilis dilindəкi təsdiqdə işlənmiş, nəzakət münasibəti ifadə edən cümləyə nəzər salaq.

I 'do 'feel that the 'mistake you 'made in the 'address was 'somehow…(Mən hiss edirəm ki, ünvanda etdiyin səhv necəsə?)

˧Fortuitous? (Təsadüfi ?)

˩Yes, |˩˩oh, | ˩yes. (Bəli, oh, bəli) [13, s.207]

Cavab cümlədə «yes» sözləri arasında nida sözü işlənərək, melodiyanın axınını dəyişir, vurğunu qüvvətləndirərək, əsas tonun diapazonunu genişləndirir, nitqin surətini dəyişir, ritmi pozur və səsin əsas tembrini başqalaşdırır. «Oh» sözünün vasitəsilə danışan şəxs məlumata olan nəzakət dolu münasibətini emosional intonasiya çalarlıqları ilə verir. Enən-qalxan-enən tonla səciyyələnərək, müvafiq tembr və səs rəngarəngliyi ilə formalaşır və digər replika növlərindən fərqlənir.

Deməli, emosiyanın ifadə edilməsi heç də həmişə nida cümləsi ilə əlaqədar deyildir. Beləiklə, nəzakət bildirən söz və ifadələr, eyni zamanda nida sözləri replikalar daxilində istifadə etməklə, emosiyalarımızı ifadə edə bilərik.

Qeyd etdiyimiz cümlə də təkrar replikalı olub, kontekstual - situativ xarakter daşıyır, eyni zamanda melodiya sintaqmların sayı qədər təkrarlanır. Bu da onları bir-birinə bağlayan vasitə kimi üzə çıxır.

Bununla da aydın olur ki, söz-cümlə olmasına baxmayaraq, heç də ixtisar edilən komponent informasiya mərkəzindən uzaqda qalmır, əksinə, cümlənin semantik yükündən kifayət qədər pay götürmüş olur.Bu faktlar onu deməyə əsas verir ki, müasir ingilis dilində nəzakət münasibətləri ifadə edən söz və ifadələr müxtəlif keyfiyyətlərdə özünü göstərir.

Deməli, nəzakət münasibətləri ifadə edən söz və ifadələrdə təşkiledici mərkəz onların əsasında duran sözlərdir, intonasiya isə nitqin gerçəkliyini açmaq üçün bir vasitədir.

Ədəbiyyat

1. Axundov A.A. Azərbaycan dilinin fonetikası. Bakı: Maarif, 1984, 390 s.
2. Aslanov A.A. Azərbaycan dilinin qrammatikası. Bakı, I hissə. 1960, 287 s.
3. Babayev S.M. İngilis danışıq ritminin perseptiv aspektinə dair// ADDİ ,Elmi xəbərlər, №5, 2002, s. 3-9.
4. Budaqova Z. Müasir Azərbaycan ədəbi dilində sadə cümlə. Bakı: AEA, 1963, s.23.
5. Əliyev K., Zeynalov F. Nitq mədəniyyətinin prosodik aspektinə dair // BDU-nun əsərləri. Bakı: 1994, № 1, s. 41-44.
6. Zeynalov F.H. Practical English Phonetics. Bakı, 2007, 276 səh.
7. Виноградов В.В. Понятие синтагмы в синтаксисе русского языка// Вопросы синтаксиса современного русского языка. под. ред. акад. В.В. Виноградова, М: Гос.Учпедгиз, 1950, с. 60.
8. Давыдов М.В. Пособие по интонации Английского языка. М: Высшая Школа, 1975, 102 с.
9. Зейналов Ф.Г. Некоторые результаты экспериментального анализа английского и азербайджанского фразового ударения/ Проблемы конфронтальной лингвистики. (Материалы республиканской научной конференции, 1-2 декабр 1982 года.) Баку: Изд. АПИИЯ, 1983, с. 35-36.
10. Hans K. A Phonology and Prosody of Modern English. Heidelberg: 1964, 360 p.
11. Johnson K. and Johnson H. Encyclopedic dictionary of applied linguistics. London: Black-well Publishers, 1999, 100 p.

BƏDİİ MƏNBƏLƏR

12. Çəmənzəminli Y. V. Ayrılıq axşamı, Bakı: Gənclik, 1971, 100 səh.

13. Galsworthy J. “The Forsyte Saga”. In chancery Book: II Progress, 303 p.

V.Piriyeva

The intonative characteristics of words and expressions expressing polite attitudes in Azerbaijani and English languages

Summary

The article is devoted to the intonative characteristics of words and expressions expressing politeness in Azerbaijani and English languages. While analyzing great attention was given to the facts taken from the linguistic literature. One of the most important goals of the article is to detect and find out the intonative characteristics.

The author emphasizes the role of intonation. Since its emergence these words and expressions caught the attention and new researches appeared. It is noted that this gives us more power to understand the process clearly and use the language more competently.

The analysis shows that these components are interrelated. They interact and complement each other in the process of speech continuum.

В.Пириева

Интонативные характеристики слов и выражении вежливости в Азербайджанском и английском языках

Резюме

Статья посвящена интонативной характеристике слов и выражений выражающих вежливость в Азербайджанском и английском языках. При анализе большое внимание обращено факторам, полученным из лингвистической литературы. Одно из самых важных целей статьи – выявить и найти интонативные характеристики. Автор подчеркивает роль интонации.

Важность данной проблемы интересовало многих исследователей и таким образом появились новые исследователи в данной области. Отмечается, что эта дает нам силу понять процесс ясно и использовать язык более компетентно.

Анализ показывает, что эти компоненты взаимосвязаны. Они взаимодействуют и дополняют друг друга в процессе речевого континуума.

Rəyçi: Kifayət Alırzayeva
Filologiya üzrə fəlsəfə doktoru

ƏDƏBİYYATŞÜNASLIQ

TƏRANƏ ASLANOVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
XX əsr (sovet-dövrü) Azərbaycan ədəbiyyatı şöbəsi
taranaibadova@gmail.com

AFAQ MƏSUDUN YARADICILIĞINDA QADIN OBRAZLARI

Ключевые слова: Афага Масуда; рассказа; человек; жизнъ
Key words: Afaq Masud, tale, person, life, dream, native, destiny
Açar sözlər: Afaq Məsud, hekayə, insan, həyat, ömür, yuxu, yadlar və doğmalar, talelər

Görkəmli ədəbiyyatşünas, tədqiqatçı alim və alovlu yazar Afaq Məsudun ədəbi irsi çox zəngindir. Onun ədəbi irsində mütərəqqi ədəbi mühit öz ifadəsini tapmışdır. Azərbaycan ictimai həyatındakı hadisələrlə bağlı ədəbi aləmdə yaranmış ciddi dəyişiklikləri öyrənmək cəhətdən onun ədəbi yaradıcılığı çox maraqlıdır.

XX əsr Azərbaycan ədəbiyyatı tarixi mürəkkəb ictimai hadisələrlə zəngin olan bir ədəbiyyatdır. İctimai hadisələrə münasibət cəhətdən ədəbiyyat yeni fikirlər tərənnüm etməklə bərabər, ədəbi cərəyanlarla, janrlarla zənginləşmişdir. Mövzu dairəsi genişlənmiş, obrazların xarakteri mürəkkəbləşmiş və yeni məzmun almışdır. Bədii ədəbiyyatla yanaşı dövrün tələbinə cavab verə biləcək bədii ədəbiyyatın nəzəriyyəçiləri, ədəbi simaları da yetişmişdir. Bu simalardan biri də öz qadın zərifliyi, qadın incəliyi ilə ədəbiyyatda dərin, silinməz cığır açan və getdikcə bu cığırı silinməz, özündən sonra gələnlər üçün bir "məktəb yoluna" çevirən Afaq Məsudun yaradıcılığı həmişə məni özünə heyran edib. Məğrur, qürürlu görünüşü bəzən zəhimli, bəzən qayğıkeş baxışları, bəzən də navazişli ədaları yaradıcılığı boyu canlandırdığı gadın obrazlarının timsalında öz əksini müxtəlif yanaşmalarla tərənnüm edilmişdir. Hər bir qəhrəmanında həyatın reallığını, mübarizəsini, bu mübarizədə qalib gəlmək əzmini məharətlə əks etdirə bilən müəllif yaradıcılığı boyu oxucusunu heyrətləndirməyi bacarır. Klassik sənətkarların əsərlərində olan ictimai motivləri yüksək qiymətlən-dirmiş, onlardan qidalanmış və bir sıra elmi mülahizələr söyləmişdir. Afaq Məsud dərin biliyə və geniş elmi erudisiyaya malık olan həyatın nəbzini tutmağı bacaran, oxucusunun maraq dairəsini duyan və onun istəklərinə

cavab verə biləcək əsərlər yaratmaqla onu heyrətləndirməyi bacaran yazıçılardandır. Millətinin səadət və rifahı uğrunda çalışan, elm-mədəniyyət yolunda can qoyan, hər bir acıya, qəmə köksünü verən, səbr və mətanət sahibi olan bu əzmkar qadın ədəbiyyat tarixində görkəmli bir ədəbiyatşünas və publisist kimi tanınır. Xalqının rifahı və nicatı üçün çalışan nəcib insanların qayğısı bu tip yazıçıların təkcə yaratdıqları əsərləri ilə deyil, həm də öz əzmkarılıqları və mübarizlikləri ilə də duyulur. Yalnız cəsarət və inamla yaşamaq güclü və cəsur insanın xüsusiyyətləridir. Yaradıcılığı boyu Şərq mədəniyyətini, onun fəlsəfəsini, ədəbiyyatını, incəsənətini dərindən öyrənməyə səy göstərmiş və buna nail olmuş Afaq Məsud öz elmi-nəzəri görüşlərini daha da dərinləşdirir, sənətin, bədii təfəkkürün inkişafına yönəldir. Əsərlərindən, ayrı –ayrı hekayə və oçerklərindən məlum olur ki, müəllif ən çox bədii yaradıcılığı zəngin olan, ədəbiyyata forma və məzmun yeniliyi gətirən sənətkarlardandır.

A.Məsud bədii sənət əsərlərinin məğzində bilavasitə insan və onun nicatı məsələsinin qoyuluşunu irəli sürür.

Müəllifin publisist fəaliyyəti üçün səciyyəvi olan mövzu rəngarəngliyi onun bədii yaradıcılığında öz əksini tapmışdır. Müəllif xalq məişətindən və eləcə də ictimai həyat ziddiyyətlərindən bəhs edən mövzularını həm hekayə, həm də digər iri həcimli janrlarda yazıb yaratmışdır. Məişət mövzusunda yazılmış "Dovşanın ölümü" hekayəsi həcmcə kiçik olmasına baxmayaraq, özünü zavallı, yazıq hiss edən, döğmaları arasında tənha həyat yaşayan evdar bir qadının bir günlük həyatından danışsa da bir epizodla böyük bir ömrün həyat tərzindən xəbər verir. İlk baxışda gözəl bir ailəyə malik olan bu qadın əslində hər şeydən narazı, monoton həyat tərzindən yorulmuş və öz etirazını heç kəslə bölüşməyən, susmağa üstünlük verib, hər bir şeyi öz ürəyində özüylə bölüşməyi daha əlverişli hesab edir. Əslində çox qayığıkeş, diqqətli həyat yoldaşı olan bu qadın ömrünün bu çağında başa düşmüşdü ki, sahib olduğu bu ailə, bu gün-güzaran onun arzuladığı, xəyalında qurduğu həyat tərzi deyildi. Amma həm də başa düşürdü ki, artiq gecdir, hər şey geridə qalıb, istəsə belə heç nəyi dəyişmək iqtidarında deyil. Sabah nə olacağınısa heç özü də bilmirdi.

Qeyd edək ki, müəllif bədii əsər üçün emosionallığı, hadisələr arasındakı daxili əlaqəni, dinamikliyi, müasirliyi, yeni forma və janr müxtəlifliyini yaradıcılığında xarakter cəhət sayır. Afaq Məsudun sənət əsəri üçün xarakter hesab etdiyi bu nəzəri görüşlər, onun bədii yaradıcılığında əsas amilə cevrilmişdir. O, ədəbi tənqidi görüşlərində real həyat həqiqətlərinin obyektiv təsvirini nə qədər üstün tutsa da, bədii yaradıcılığında bir növ xəyalpərvər və romanikdir. Qeyd etdiyimiz kimi "Dovşanın ölümü" hekayəsində olan baş qəhrəman həyatda özündən ətrafdakı doğmalarından nə qədər küsgündürsə, nə qədər pissimizmə qapanıb yaşam tərzindən

gileylənirsə, "Gecə" hekayəsində iştirak edən qarı obrazı sevinc dolu bir həyat yaşadığı üçün həyatından razı və məmnundur. Əsərdə bir ömürboyu birlikdə həyat sürmüş və ahıl yaşlarında hələ də həyatından doymayan cütlüyün belə demək mümkünsə həyat simfoniyasından bəhs edir. Ömürlərini sevə-sevə yaşamış, bir-birinə sıx bağlarla bağlanan, həyatın keşməkeşlərini, əziyyətlərini çiyinlərində bərabər daşımağı bacaran cütlük özünü heç nəyə baxmadan xoşbəxt sanır. Çünki onlar hər acını, sevinci birgə yaşamağı bacarmışdılar.

Və ömürlərinin sonunda belə bir –birinə can deyir, nəfəslərini acgözlüklə içlərinə çəkməyə hələ də ehtiyac duyurdular. Müəllif yaratdığı hər iki qadın obrazının iç dünyasını, duyğu və hissələrini həyatda nə üçün, kim üçün yaşadığının mahiyyətini dərk etməyi bacaran iki müxtəlif xarakterli qadın obrazını məharətlə, ustalıqla, peşəkarcasına yaratmağa nail olmuşdur. Bir tərəfdə gənc, həyatı hələ qabaqda olan küskün qadın obrazı, digər tərəfdə isə ömrünü başa vuran xəstə qoca qarı obrazı. Yaşından asılı olmayaraq həyatsevərliyi ilə həyata, dünyaya bağlı olan, yaşamağa can atan, sabaha ümüdlə baxan bu qarı obrazında müəllif bir qadına lazım olan bütün xoşbəxtliyi cəmləşdirə bilir və oxuyucuya catdırır. Bu qadının sevicinin, kədərinin, inamının, ümidinin bir ünvanı var. Ömür-gün yoldaşı Talıb kişi. Çünki onun həyat amalı, dünyaya sağlam sevgidolu baxışının məhz səbəbi və səbəbkarı Talıb kişidir. Onun həyat simvolu olan Talıb kişi.

Bu iki qadın obrazının təzadlı şəkildə qələmə alınması müəllifin məişətdə baş verən hadisələri, hiss və duyğuları, hər bir insanın ağrı-acılarını, sevinc və kədərini, istək və arzularını özününküləşdirməyi bacaran və onlara həssaslıqla yanaşıb hər birini özünə məxsus dil ilə danışdırması böyük məharət və ustalıqla qələmə almasını sübuta yetirir. Yazıçının məqsədi heç də əhvalatları nəql etməklə oxucunu əyləndirmək deyildir. Müəllif obrazların səciyyəsindən çıxış edərək, hadisələrin əsil mahiyyətini oxucuya çatdırmaq və bu yolla nöqsanları aradan qaldırmaqdır. Bəzən müəllif nəql etmək yolu ilə hadisələrə öz münasibətini bildirməkdən də çəkinmir. İstər kiçik, istər iri həcmli əsərlərində yeri gəldikcə məişət məsələlərini qabarıq şəkildə verərək onların doğurduğu fəsadları ön planda verməyi daha məqsədə uyğun hesab edir və oxucunun nəticə çıxarmasına şərait yaradır. Yaratdığı obrazların səciyyəsindəki rəngarənlikdən doğan hadisələrin ardıcıllığı əsərlərində süjet xəttinin mürəkkəb cizgilər üzrə inkişaf etməsinə səbəb olmuşdur.

Mövzu rəngarəngliyi və ictimai hadisələrin əhatə dairəsinin genişliyi, fikir dərinliyi Afaq Məsudun geniş eruditsiyaya malik olduğunu göstərir. Başqa sözlə hekayə janrına xas olan hadisələr arasındakı məntiqi əlaqə, mürəkkəb səciyyəyə malik olan insan surətləri, onların emosionnallığı bütün yaradıcılığı boyu yazıçı tərəfindən məharətlə izlənilir və qələmə alınır. Qeyd edək ki, bəhs etdiyi mövzuların aktuallığı, ideya məzmunun dərinliyi və

oxucuya etdiyi psixoloji təsir əsərlərin həvəslə oxunmasına kömək edir. Sabir yaradıcılığına xas olan istehza ilə, sakit və mənalı gülüş ilə məişət və cəmiyyətin köksündə iz salmış yaraları sağaltmağa çalışır. Müəllifin əsərlərində təsvir etdiyi həyat səhnələri reallığı əks etdirir. Bu reallıqlar təkcə Azərbaycan mühiti üçün deyil, bəlkə müsəlman şərqi üçün xarakterikdir.

Müəllifin yaradıcılığında diqqət çəkən əsərlərdən biri də "İzdiham" (roman) əsəridir. Qeyri-adi mövzu və süjet xətti ilə seçilən bu əsər əsasən yuxu qəhrəmanlarına həsr olunmuş və onların qeyri-adi tərzləri, hərəkətləri, danışıq və düşüncələri əsərin motivini təşkil etmişdir. Müəllif bu əsərdə bəzən bir-birilə heç əlaqəsi olmayan hadisələrdən, bəzən də davamlı bir-birinin ardından görünən yuxu qəhrəmanlarının haqqında söhbət açır. O, qəhrəmanlar ki, öz döğma əziz bildiyi ata, ana, baba, nənə, bir sözlə həyatında ona qiymətli olan varlıqları onu tərk etməsi ilə barışa bilmədiyi insanların o dünyadakı həyatı elə bu dünyanın davamı kimi görünür. Süjet və mövzu baxımından heç bir əsərə bənzəməyən bu əsər Afaq Məsud yaradıcılığının özünəməxsusluğunu bir daha sübuta yetirir. Müəllif əsərdə təzadları qivvətləndirmək məqsədiylə daxilən keçirdiyi istirablarını düşüncələrini bədii boyalarla canlandırmışdır. Müəllif bədii əsərlərində hadisələri ümumiləşdirilmiş şəkildə təsvir etməyi bacardığından hekayələrində də bu yoldan istifadə etmişdir.

Afaq Məsudun digər əsəri "Yasaq yuxular" adlanır. Bu əsər çox qəribə olsa da yenə yuxu məfhumunun üzərində qurulur. İki dünya arasında körpü olan yuxular nə qədər qeyri-adi olsa da yenə də insanın məhz yuxularda tam azad, sərbəst olduğu, heç bir maneə görmədən istədiyi həddə, istədiyi yerə çatdığı və sonda onun xoşbəxt olduğu durur. Bu yuxularda ruhun tam azadlığı, qəfəsdən çıxmış quş kimi qanad çalmaqdadır.

Yazıçı öz istək və arzularını, təxəyyülündə canlandırdığı azadlıq simvolunu ruhun azadlığında görür. Əsərlərində canlandırdığı obrazların çoxu məhz doğmalar içində yadlaşan insan obrazlarıdır. Əzilən, inciyən, küsən, insanlardan uzaq qaçmağı üstün tutan bu obrazlar Afaq Məsudun yaradıcılığının baş qəhrəmanlarıdır. O obrazlar ki, mənəvi azadlığı, rahatlığı, qüruru, mənliyini hər şeydən üstün tutan obrazlardır. Hər bir obrazın psixologiyasını dərindən duyan, ona fərdi yanaşan müəllif həssaslıqla iç dünyalarına daxil olmağı bacarır. Yaratdığı obrazların rəngarəngliyində, müxtəlifliyində, rəssam dili ilə desək bütün rəng çalarlarını verməyi bacaran yazıçı oxucusunun özünü onlarda tapmasına imkan yaradır ki, bu da müəllifin uğuru, müvəffəqiyyətidir.

Ədəbiyyat siyahısı

1. Nəzmiyyə Axundova: Afaq Məsud: [ədəbi portret] // Azərbaycan jurnalı, №1,2008
2. Elmin Nuruzadə: Məsud addımlarının azadlıq həvəsi// Olaylar.2011, 22 aprel, s.13
3. Nizami Cəfərov: Afaq Məsud dünyası. Bakı, 2017
4. Ramiz Rövşən: Qəddar sevgi: [Ön söz] Afaq Məsud. Yazı (roman, povest, hekayə) Bakı, 2017
5. Yazı: [roman, esse, hekayə]. Afaq Məsud// Qanun nəşriyyatı. Bakı, 2005
6. İngilis və Azərbaycan ədəbiyyatında insan konsepsiyası [Mətn]: (Vircinya Vulf və Afaq Məsudun yaradıcılığı əsasında) /F.Zülfüqarova; ön söz müəllifi İ. Əliyeva/Bakı, Elm və təhsil 2012. S. 231
7. Afaq Məsudun Seçilmiş əsərləri iki cilddə [Mətn]// Kaspi. 2012 -22-24 dekabr. S.14

Т.Асланова

Женские образы в рассказах Афага Масуда

Резюме

Данная статья посвящена теме стиля жизни женских образов в рассказах писателя-публициста Афага Масуда. Автор, обладающий глубиной нравственности образно рассказывает о реальных жизненных ситуациях, что и вызывает подлинный интерес у читателя.

Присущий каждому образу нравственный духовный мир, взгляды на общественные ценности, отражающиеся в этих рассказах с большим умением, благодаря силе пера писателя. Упомянутые в статье рассказы как "Толпа", "Запретные сны", "Смерть кролика" и "Ночь" имеют собственные сюжетную линии, свой языковой колорит, свои формы предоставления. Автор, имеющий внимательный и точных подход к своим героям профессионально трансформирует свои мысли и идеалы, свое видение, жизненный опыт персонажам своих рассказов. Каждое произведение, имеющее повествовательный характер, построено на реальных жизненных событиях и в целом отражает действительность.

T.Aslanova

The women characters in novels' of Afaq Masud

Summary

This research paper provides findings related to living styles of women caracters in novels, written bythe novelist and the storywriter Afaq Masud. Deep ethics that belonged to auhtor allowes her to create real scenes of life in figurative expressions, which contibutes to readers interest. The spritual world of each literary figure, their internal scope, their life observations were presented with great craft and the art of narratively. In her remarkable novels such as "The crowd", "Forbidden dreams", "Death of the hare" and "The night", which were examined in this article, each has its story frame, language and presentation features. Approaching each literary figure with attention, with accuracy and adeptly, the novelist artfully describes readers her thoughts and feelings, stored life impression and by this way recounts her views and hopes that were revived in her mind. Each story plot of the novel grounded on real life experience and entirely reflects reality.

Rəyçi: Nadir Məmmədli
Filologiya elmləri doktoru, professor

GÜLTƏKİN ƏLİYEVA
BSU
Filologiya üzrə fəlsəfə doktoru, dosent
filologiya_dek@mail.ru

ƏLƏKBƏR SALAHZADƏ SƏRBƏST POEZİYANIN GÖRKƏMLİ NÜMAYƏNDƏSİ KİMİ

Açar sözlər: Ə.Salahzadə, 60-cı illər, sərbəst şeir, assosiativ, poetik dərketmə
Ключевые слова: Алекбер Салахзаде, шестидесятые годы, свободных стих, асоциальный, поэтическое восприятие.
Key words: A. Salahzadeh, 60-s, free poetry, associative, poetical thought

Məlumdur ki, 60-cı illərdə Azərbaycan ədəbiyyatı yeni bir mərhələyə qədəm qoymuşdur. Bu illərdə ictimai-siyasi həyatdakı yumşalma, istər-istəməz, bədii ədəbiyyata da öz təsirini göstərmişdi. Bədii nəsrdə 50-ci illərin sonlarından başlayaraq M.Hüseyn, İ.Əfəndiyev, İ.Şıxlı, İ.Hüseynov, dramaturgiyada İ.Əfəndiyevin əsərlərindəki təsvir özünəməxsusluğu, nəsr tenologiyası, dramaturji konfliktlər yeni bir mərhələnin gəlməsindndən xəbər verirdi. Bu mənada bəlkə, poeziya digər iki janrdan öndə gəlirdi. Belə ki, poeziya bir janr olaraq digər iki janrdan daha çevik və mütəhərrikdir; hər hansı bir hadisəyə dərhal münasibət bildirə bilir, yaxud dünyada gedən ədəbi inkişaf prosesinə tez daxil olur. Bu illərdə artıq sərbəst şeir özünün R.Rza mərhələsini yaşayırdı. 40-cı illərin sonu 50-ci illərin əvvəllərində ədəbi prosesə qoşulan B.Vahabzadə, N.Xəzri, Ə.Kürçaylı, S.Əsəd, İ.Səfərlinin poeziyasında sərbəst şeir bir qədər də möhkəmlənmiş, necə deyərlər, bir vəzn kimi vətəndaşlıq hüququ qazanmışdı. Ə.Kərimin şeirləri ilə sərbəst şeir R.Rzadan sonra bütün orijinallığı ilə ortaya çıxmışdı. Sərbəst şeirin bu inkişafı poeziyaya yeni gələn gənc qüvvələri sərbəst şeirə gətirməklə, onun polifonikliyi yaranmış olurdu. Gənclik isə yalnız yeni nəfəs deyildi, həm də yeni üslub, yeni ölçü vahidi və çoxsəslilik demək idi. Sərbəst şeirin yaranmasından keçən otuz illik bir yol heç də onun ənənədən kənar olmadığını və bu vəzndə dəyərli sənət əsərlərinin yaranmasını sübut etdikcə, gənclər bu sıraya tərəddüdsüz qoşulurdu. 60-cı illərdə artıq sərbəst şeirin bir yox, iki görkəmli nümayəndəsi var idi; R.Rza və Ə.Kərim. Poeziyaya yeni gələn gənc qüvvələrin əksəriyyəti sərbəst şeirə daha çox meyil edirdilər. Bu illərdə poeziyaya gəlmiş gənclərdən Şamil Salmanov, Fikrət Qoca. Fikrət Sadıq, Arif Abdullazadə, Ələkbər Salahzadə, İsa İsmayılzadə, Nəriman Həsənzadə, Vaqif Vəkilov, Şəkər Aslanov, Tofiq Abdin və b. ilk yaradıcılıq

illərində sərbəst şeirin yolunu tutdular. Onların şeirlərindəki forma yenilikləri, poetik çoxsəslilik, qulağın öyrəşmədiyi ifadə və təsvir vasitələri poeziyada yeni bir qüvvənin gəlişindən xəbər verirdi. Doğrudur, ilk yaradıcılıq məhsulu kimi onların şeirlərində təcrübəsizlikdən irəli gələn uğursuz ifadələr, müqayisələr, mübahisəli məqamlar yox deyildi. Ancaq həqiqət olan o idi ki, bu gənclər yaradıcılığa hələ yeni başlayır, öz yollarını axtarır və ən əsası isə, ənənədən kənara çıxaraq yeni cığır açmağa səy göstərirdilər. Elə buna görə də, bütün qüsurlarına baxmayaraq R.Rza bu gəncləri müdafiə etməklə, həm də sərbəst şeirin yeni mərhələsinin keşiyində dururdu. Görkəmli şair özünün "Qayğı sözü və qayğı özü" məqaləsində gənclərin hər birinin yaradıcılığına qayğı və tələbkarlıqla yanaşaraq yazırdı: "Gənclərin yaradıcılıq inkişafını diqqət və qayğı ilə izləmək, onların səhvlərinə, büdrəmələrinə göz yummamaq, onlara ata tələbkarlığı ilə yanaşmaq, eyni zamanda onların müvəffəqiyyətlərinə sevinmək, qələmlərindən çıxan yaxşı əsərlə fərəhlənmək, gözəl misralarından, poetik tapıntılarından, sərrast ifadələrindən təbii qürur hissi ilə danışmaq bizim vətəndaşlıq borcumuzdur" (1).

R.Rzanın yaradıcılığına yüksək qiymət verdiyi və böyük ümid bəslədiyi gənclərdən biri də Ələkbər Salahzadə idi. Ə.Salahzadə poetik yaradıcılığa 60-cı illərin əvvəllərindən başlayıb və dərhal da ədəbi prosesin diqqət mərkəzində olub. Buna səbəb, hər şeydən əvvəl, gənc şairin çətin yol seçməsi və sərbəst şeirdə yeni poetik kəşflər etməsi idi. Şairin ilk şeirlərindən olan "Çörək ətirli tüstü" (1961), "Avarqollular" (1962), "Kibrit çöpləri" (1963) və s. şeirlərində sərrast, yaddaqalan poetik müşahidələr etmiş, bədii təsvir və ifadə vasitələri işlətmişdir. Bu orijinallıq gənc şairin poetik obrazlarında və dilində də özünü göstərirdi. "Avarqollular" şeirində balıqtutanların dənizdə balıq macərasını son dərəcə poetik dillə təsvir edir. Balıqtutanlar səhər evdən çıxaraq arzularının dalınca gedir. Onlar dənizə tor ataraq balıq tutmaq istəyirdilər. Lakin qayıdanbaş "kükrəyən bir sevinclə" "dənizi oyatmışlar". Kükrəyən dalğalar avarqolluların həyatına təhlükə yaradır, qayıqları çöp kimi atıb-tutur. Onlar bir-birinə sığınıb dənizlə çarpışaraq ümidlərini taleyə bağlayırlar:

Arxayındı,
onları
dalğa qolları üstə
gətirəndə sahilə.
Sərxoş bir təpəgözün
ağzından çıxdı onlar.
Bir dənizə boylanıb,
bir tora baxdı onlar
Qayıqların içində.

Tufan susub yatmışdı,
ölüm donub qamışdı
balıqların içində,
balıqların içində... (2, 36).

Kiçik bir şeirdə şair avarqolluların həyatın təbii sınağından çox çətinliklə qurtulduğunu poetik dillə çatdırır. Şeirdə hərəkətlilik, dinamika özünü göstərir. "Arzularının dalınca gedən" avarqollular təbiətlə döyüşə girir. Onların bu çarpışmasını şair "balığa tor atdılar, süfrədə deyiləcək sağlığa tor atdılar" şəklində ifadə edir. Yaxud "qayıdanbaş kükrəyən bir sevinclə dənizi oyatdılar" ifadəsi əslində təbiətə qarşı etdiklərinə işarədir. "Kişnəşən dalğalar"ı, "toqquşan dalğalar"ı "dənizin çəpiyimi?!" deyə sual edir. Dalğalar qayıqları atıb-tutur çöp kimi, onlar isə ümidlə "bir-birinin əlindən tutub" bu təhlükədən qurtulmanı gözləyirlər. Bununla şair "Evdəki uşaqların əllərindən tutdular", qorxu artdıqca "evi də unutdular" poetik qənaətinə gəlir. Əgər dövrün poetik dili və ifadə vasitələri ilə müqayisə etsək, bu ifadə vasitələrinin hər birinin yeni olduğunu görmək olar.

60-cı illər poeziyasında (eləcə də nəsrində!) İkinci Dünya müharibəsinin ağrı-acılarının təsviri geniş yer verilirdi. Şairlərin əksəriyyəti müharibə ilə bağlı şeirlər yazmışdılar. F.Qoca, C.Novruz, N.Həsənzadə, İ.İsmyılzadə və b. müharibə mövzusu özünəməxsus şəkildə poetik təsvir obyekti olmuşdur. Müharibə mövzusu Ə.Salahzadənin də 60-70-ci illər yaradıcılığında mühüm yer tutur. Lakin şair bu mövzuya ənənəvi şəkildə yanaşmamış, o ağır, fərəhsiz, qanla yoğrulmuş günlərin bədii xronikasını verməyə çalışmışdır. Onun şeirlərində müharibənin gətirdiyi maddi və mənəvi itkilər nağılvari şəkildə təsvir edilirdi. Bu cəhətdən Ə.Salahzadənin müharibə ilə bağlı yazdığı şeirlərdə pafos yox, poetik dərketmədə görümlülük başlıca yer tutur. Burada şair yalnız öz tərcümeyi-halını yazmır, bütöv bir nəslin aldığı mənəvi yaraları göstərir. Ona görə də bu şeirlər həm də 41-də və müharibə illərində doğulanların-bir neçə nəsilin etirafına çevrilir:

Doğulduq 41-də,
davayla yaşıd olduq,
Özümüz də bilmədən
dördcə il
dava havasında yaşa dolduq.
dörd yaşımızda,
nə yaxşı,
dörd yaşında qaldı dava!
...Qırx birdə doğulanlar!..
Bu bir nəslin yaş Adı.

Doğulduq dava ili,
Qaldıq dava yaşıdı!.. (4, 65).

"Beş yarpaq" (1965) şeirində isə müəllif yer kürəmizin bir zamanlar "çoxyarpaq" olduğunu xatırladır. Lakin bu yarpaqlardan biri düşərək beş yarpaq olduğunu və "beşcə yarpaq" qurumuzun olduğunu bildirir. Dünyanın xəritəsini şair poetik şəkildə belə ifadə edir:

Bir yarpaq qitəmiz-
buz yorğanda sətəlcəm;
ölü yatır kürəmizin dibində.
Diri yatır alimlərin fikrində (2, 38).

Poetik dərketməsdə Yer kürəsini- beş qitədən (beş yarpaq) ibarət olan dünyanı kiçik bir kənd boyda-"qarışqa yarımkürəsi", "qarışqa boyda" göstərilir. Şair dünyanın taleyi üçün narahatdır, çoxyarpaqlı dünyamızın getdikcə məhvə doğru getdiyini anladır. "Bir yarpaq qitəmiz-buz yorğanda sətəlcəm" deyərkən Antarktidanı nəzərdə tutur. Lakin narahatlıq bununla bitmir, raketlərin bu beş yarpaq qitəmizi böyük təhlükə altına aldığını "Dünən altı yarpaq vardı ağacımızda, bu gün-beş" misraları ilə bildirir. Başdan-başa poetik tapıntılarla dolu olan şeir şairin gələcək yolunun uğurlu olacağından xəbər verirdi. Bu tapıntıları yüksək dəyərləndirərək "poetik kəşflər" adlandıran R.Rza yazırdı: "Salahzadə və İsmayılzadənin şeirlərindəki poetik kəşflər bizi sevindirir. Onlar milli poeziyanın mütərəqqi ənənələrinə sadiq qalaraq həmin poeziyanın çərçivəsini genişləndirməyə, xalqın poetik yaradıcılığına yeni boyalar, yeni formalar gətirməyə səy edirlər" (3, 124).

Ə.Salahzadənin bu "poetik kəşfləri" getdikcə daha da möhkəmlənərək "Od heykəli" (1970), "Gözlər baxır dünyaya" (1979), "Xatirə çiçəyi" (1982), "Yerimiz bir, göyümüz bir" (1986), "Od odası" (1989) və s. kitablarında yer aldı. Onun şeirləri yalnız sərbəst şeirin deyil, ümumən milli poeziyanı poetik obraz və ifadə vasitələri ilə zənginləşdirdi. Bu şeirlərində şair son dərrəcə orijinal yolla gedərək daxili aləmini orijinallıqla ifadə edərək yeni poetik düşüncəni təmsil etmişdir. Şeirlərində və poemalarında şair dünya, həyat, yaşanmış ömür haqqında düşüncələr, doğma Azərbaycan təbiəti, insanlarının mənəvi aləmini poetik şəkildə bildirirdi. Şairin "Qara yunun ağ yumağı" poeması müharibə dövründə ərini və oğullarını itirmiş ananın faciəli həyatını təsvir edirdi.

Ə.Salahzadənin şeirləri struktur baxımından da yenidir; o sanki şeirlərini yazmır, onu göstərir, görümlü edir. Burada hərəkətliliklə yanaşı, qurmaq, inşa etmək, yaratmaq başlıca yer tutur. O, şeirlərində rəssam kimi sanki bir mənzərə çəkir. "Yurdun odlar yurdu" (1981), "Nə biləsən?" (1986),

"Dünya genişliyi" (1984), "Tükənməz göz işığı" (1983), ""Getdi, qayıtdı" (1987) və s. şeirlərində rəng və söz çalarları vəhdətdə çıxış edir. "Səttar Bəhlulzadə" (1968) şeirində isə şair son dərəcə təkrarsız rəssam Səttar Bəhlulzadənin obrazını sənətlkarlıqla yaratmağa nail olur. Şair rəssamı təbiətlə əl-ələ gəzib dolaşan əncir ağacına bənzədir; hər şeyin rəssamın "əllərindən, fırçasından" asılı qaldığını, əli fırçalı qarət etdiyini, amma əncir ağacının tükənmədiyini poetik dillə deyir. Daha sonra isə rəssamın tablosunu elə rəssam sənətkarlığı ilə sözlə boyayır:

Bir az
Məcnuna bənzər
gündoğandan günbatana...
Əllərinə yığışar
quşlar, çiçəklər;
əllərində, ürəyində, gözlərində uyuyar.
Güllər, otlar, çiçəklər
əllərindən tutub
yayılar yamac-yamac, yallı gedər çəmən-çəmən
Əllərinin budaqları yarpaqlayar
çiçək açar
Əllərindən sellər axar (4, 34).

Şair rəssam Səttar Bəhlulzadəni yaradıcılıq atmosferində təsvir etməklə, onu təbiətlə həmahəng olaraq göstərir, əncir ağacı ilə paralael şəkildə müqayisə edir. Ədəbiyyatşünas V.Yusifli şeirin polifonik mahiyyətini təhlil edərək belə bir doğru qənaətə gəlir: "Şeirdə Səttar Bəhlulzadənin təbiət mənzərələrindən alınan təəssüratlar, rəssamın yaratdığı rənglər dünyasının özünəməxsusluğu şeirin özünün poetik tablo kimi qavranılmasına imkan verir. Burda da rəsm işi var, sözlər, ifadələr sanki rənglənib. Şair rəssamın bu təbiət mənzərələrini sözdə reallaşdırmaq üçün Məcnunun qədim miniatür rəsmlərdəki əllərini xatırlayır. Beləliklə, bu şeirdə Rəng və Söz birləşir" (5, 295).

Ə.Salahzadənin poeziyası yeni poetik düşüncəni təmsil edir; baxmayaraq ki, bu yolun müdafiəçiləri ilə yanaşı, tənqidçiləri də az deyildi. Onun ənənədən kənar obrazları, təşbehləri, bədii təsvir və ifadə vasitələri hamı tərəfindən heç də düzgün başa düşülmür, onu və təmsil olunduğu nəsli "sərbəstçilər", "eksperimentçilər", "formalistlər" adlandırırdılar. Ə.Salahzadə isə əslində şeirlərindəki poetik yenilik və zənginliklə, eksperimentlərlə heç də "eksperimentçilik" etmək fikrində deyildi, yalnız özünü ifadə etməyə çalışırdı. Bu həm də yeni dövrün poetik çağırışları kimi səslənirdi. Hər bir dövr özünəməxsus ifadə üsulllarına, təsvir özünəməxsusluğuna malik olur.

Bu cəhətdən 60-cı illərin poeziyası da bu xüsusiyyətləri özündə birləşdirirdi. Görünür, buna görə çağdaş ədəbiyyatşünaslıq 60-cı illər poeziyasının inkişaf yollarını düzgün mövqedən qiymətləndirir. Ədəbiyyatşünas B.Əhmədov poeziyanın yeni inkişaf mərhələsində baş verən prosesləri doğru qiymətləndirərək onların bu yoldakı uğurları haqqında yazır: "Əlbəttə, bu bir tərəfdən poetik təcrübəsizlikdən, yaxud gənclik illərindən irəli gəlirdisə, digər tərəfdən onların öz yolunu, üslubunu axtarmasından, yeni, orijinal yolla getmək istəyindən qaynaqlanırdı. Lakin gənc şairlər fikir, ideya, məzmun ilə ilə forma harmoniyasının vacibliyini çox tez dərk edir, poetik axtarışlarında bu tandemin bərabərhüquqluğunu qorumağa çalışırdı" (6, 501-502).

Ə.Salahzadə poeziyasının başlıca xüsusiyyəti assosiativlikdir; şairin təşbehlərində, ifadə vasitələrində bənzəyənlə bənzədilən arasında bir assoaiativlik vardır. Bu da sərbəst şeirdə ən yaxşı şəkildə Ə.Salahzadə və İ.İsmayılzadə poeziyasında üzə çıxır. Onun poeziyası obrazlı təfəkkürün poetik ifadəsidir. Poetik təfəkkür və obrazlılıq onun poeziyasının əsasını təşkil edir. "Nə biləsən" (1986), "Şahmarın xatirəsi" 1988), "Dünya genişliyi" (1984), "Tükənməz göz işığı" (1983), "Getdi, qayıtdı" (1987) və s. şeirlərində predmet və həyat hadisələrinin tərəflərini orijinal şəkildə poetik müqayisəyə gətirir, necə deyərlər, predmet və hadisələri konkret detallarla poetikləşdirir. Poetik mətndə təzadlar, assosiativ fikirlər bir-birini əvəz edir və nəhayət şairin gəldiyi poetik qənaət effektiv sonluğa gətirib çıxarır. "Getdi, qayıtdı" şeirində assoaistivlik yalnız "getdi", "itdi" sözlərinin təkrarlarında deyil, həm də fikrin, ideyanın bir-birini tamamlamasındadır:

Getdi, getdi, elə getdi,
səsdən iti-
gözdən itdi!
Çox baxdılar arxasınca,
getdi, getdi, gözdən itdi.
Elə bildi izlərilə
dabanbasma gələcəklər,
çatacaqlar indi-indi...
Elə getdi-
yolu ötdü,
getdi, getdi,
gözdən itdi (7, 25).

Burada səs və məna sanki iç-içədir və birbirini tamamlayır. Bu mənada Ə.Salahzadənin şeirlərindəki "səs və məna arasındakı titrəyiş"i (Pol Valeri) aydın görmək və hiss etmək olur. "Saymazyana" (1987), "Qala

bilrsənmi" (1987), "Gəldim, getmədim" (1988), "Dənizə yaxın" (1986), "Əsr qurtarır, qoymayın" (1988), "Ana-ana" (1985), "Beşbarmaq dağı" (1973), "Ulu od" (34), "Oda atılmışın qəbri" (1987), "Külək oyunları" (1987), "Qum dastanı" (1984) və s. şeirlərində fikir, ideya və obrazlılıq bir-birini tamamlayır. Onun şeirləri mövzusundan asılı olmayaraq, hadisənin, predmetin poetik aurasını yaradır; hər şey onun şeirlərində poetikləşir. Əgər onun 90-cı illərə qədərki şeirlərində təbiət mövzusu başlıca yer tuturdusa, sonrakı dövrdə daha geniş diapazonlu olur. Doğrudur, sovet dövründə yazdığı şeirlərdə ideoloji meyil tapmaq mümkün olmur, ancaq bu şeirlərdə ictmai siqlət axtarmaq da düzgün olmazdı. Şair bu şeirlərində Prometeyin Bakıya gəlişini təsvir edir və "Od yurduna baxa-baxa, ürəyində qovrulur",- deyə ("Prometey") sətiraltı nəyi isə ifadə etməyə çalışırdı. Yaxud "Eysebio sevinci" şeirində Afrikadan gəlib Avropada top qovan Eysebionun sevinci üzərində assosiativ düşüncələrini ifadə edir. Lakin şairin "Qara qollarını atmaq istəyir Mozambikin üstünə!..", "Sevinc girib qoluna, qara sevinc çırpınır" ifadələrində şeirin məzmunundakı çalarlar dəyişir, ictimai məzmun ifadə edir:

Yiyəsini aşıb-daşır,
Yiyəsini uçurur
bir ürəyə sığışmaz sevinc, qara yataqlı sevinc.
...Çömçə ayaqları
qarışdırır buxarlanan nəhəng qazanı (2, 50).

Göründüyü kimi, şair Eysebio obrazı ilə "qol sevinci"nə bir qədər də siyasi məzmun çalarları verir. Poetik təfəkkürün ən yüksək forması olan assosiativlik şeirin ictimai siqlətini artırır. Bu cür şeirlərin yazılması şairdən yüksək zövq və istedad tələb edirdi.

Ə.Salahzadənin yaradıcılığının son mərhələsində poetik dərketmədə obrazlılıq və assoasiativlik daha da zənginləşir. "Uçan quşlar, yarpaqlar", "Qar və çiçək", "Bir kənd nağılı", "Nənəm haqqında nağıllar", "Ağac nağılı", "İşıq nağılı", "Sünbül əfsanəsi", "Ulduz əfsanəsi" və s. şeirlərində nağıllaşan obrazlara müraciət edir. Onun poetik dünyasındakı obrazlar, qəhrəmanlar dünyanın qarışıq, təlatümlü dövrünün qəhrəmanlarıdır. Bu şeirləri tənqidçi İ.Musayeva yüksək dəyərləndirərək yazır: "Ə.Salahzadənin şeir dünyasını nağıl, əfsanə, lövhə, poetik mənzərələr və poetik obrazlar silsiləsi çox dəqiq və real məntiqi əsaslarla səciyyələndirir. Bu poeziyada sevgili, aşiq, məşuq insan cildində deyil. Ancaq bu heç də onun şeirlərində hərarətini, emosionallığını azaltmır...Ancaq sevgi, məhəbbət var. Təbiətdəki və məişətdəki obrazlar vasitəsilə müəllif özünəməxsus, orijinal yanaşma üsulu ilə bu əbədi və həmişəyaşar mövzuya müraciət edib" (8, 211).

Şairin "Yeddi para kənd nağılı" silsiləsindən "Qara yunun ağ yumağı" poeması öz ritmi, intonasiyası ilə sərbəst şeirə və ümumiyyətlə poeziyamıza bir zənginlik gətirir. Poemadakı emosional nitq, poetik nitqdəki ritm və intonasiya poemanın məzmunu ilə həmahəng olur:

"Çörək!"-deyib
bir əlini Fəğan taxçaya atır.
"Bir buna bax, uzanıb ha,
gör əli hara çatır!"
İstədiyi nə idi bəs,
Böyüyə, haya çata!
"Yox, qorxuram, tez boy ata,
boyu davaya çata!.."
anır, anır dörd oğlunu,
hanı Həmid, Umud hanı?
Yanır, yanır, xatırlayır
gah Ayazı, gah Elcanı... (7, 155).

Ə.Salahzadə müharibəyə dörd oğlunu göndərmiş və gözü yolda qalmış ananın qorxusunu tamamilə təbii şəkildə ifadə edir. Əlini çörəyə uzadan oğlunun böyüdüyünün fərqinə varır, sanki bu böyüməni istəmir, ona görə ki, onu da davaya aparacaqlar... Zakir Məmməd şairin poemasındakı bu özünəməxsusluğu onun yaradıcılıq üsulunun bir cəhəti hesab edərək yazır: "Assonans, alliterasiya tək onun kiçik həcmli şeirlərinin deyil, poemalarının da bədii quruluşunun və dilinin əsasını təşkil edir. Məsələ bundadır ki, bu hal onun yaradıcılıq üsulunun bir cəhətidir. Bu assosiativlik daha çox düşüncədən, şeirin qəhrəmanının keçirdiyi hiss və həyəcanlardan, ruh və sarsıntılardan irəli gəlir. Sait və samitlərin "rəqsi" şeirdəki hiss və ovqatın daha tez duyulmasını "təşkil" edir (9). Müəllifin fikrinin təsdiqini, yəni şairin yaradıcılıq texnologiyasının "sirlərini", sənətinin keyfiyyət və orijinallıq göstəricilərini şairin bütün yaradıcılığında görmək mümkündür.

Beləliklə, Ə.Salahzadənin yaradıcılığında sərbəst şeirin mühüm yer tutduğunu görürük. Onun bu şeirləri Azərbaycan sərbəst şeir poetikasını zənginləşdirmiş və müxtəlif çalarlar gətirmişdir. Şairin ifadə vasitələri poetik təsir vasitələrini daha da artırmış, sərbəst şeirin strukturuna çoxsəslilik əlavə etmişdir. Şeirlərdəki mövzu və problematika ilə yanaşı, onun ritm və intonasiyası həmahənglik təşkil edir, yeni poetik düşüncə stereotipləri formalaşdırmış olur.

Ədəbiyyat

1. Rəsul R. Qayğı sözü və qayğı özü. "Ədəbiyyat və incəsənət" qəzeti, 1965, 15 fevral
2. Salahzadə Ə. Beş yarpaq (Şeirlər və poema). Bakı, "Gənclik", 1968, 108 s.
3. Rəsul R. Mənim fikrimcə. Bakı: "Azərnəşr", 1967, 420 s.
4. Salahzadə Ə. Od heykəli (şeirlər və poema). Bakı, Gənclik, 1970, 107 səh.
5. Yusifli V. Poeziyanın yolları və illəri (1960-2000-ci illər). Bakı: "Adiloğlu", 2009
6. Əhmədov B. XX yüzil Azərbaycan ədəbiyyatı. Mərhələlər, problemlər, istiqamətlər. Bakı: "Elm və təhsil", 2015, 576 s.
7. Salahzadə Ə. Od odası (Şeirlər və poema). Bakı, "Yazıçı", 1989, 184 s.
8. Musayeva İ. XXI əsrdən baxış; ədəbi tənqid və bədii söz. Bakı, Elm və təhsil, 2017, 724 s.
9. Zakir M. Şeirin havası. "525-ci qəzet", 2013, 8 iyun

Г.Алиева

Алекбер Салахзаде, как известный представитель свободной поэзии

Резюме

В статье исследуется свободных стих в творчестве А.Салахзаде, который появился в литературе в шестидесятые годы.

Отмечается что ослабление общественно-политической жизни в шестидесятых годах волей-неволей оказано свое влияние на художественную литературу. В эти годы свободных стих продолжил свое развитие этапом Р.Рзы.

Начинающие молодые поэты, Ш.Салманов, Ф.Годжа, Ф.Садыг, А.Абдуллазаде, И.Исламзаде, Н.Гасанзаде, В.Векилов используя своих стихах формативные изменения, поэтическую полифонию, и непривычные уху выражения и способы описания предупреждали о приходе в поэзию новой силы.

В творчестве одного этих поэтов А.Салахзаде, свободных стих занимает важное место. Его стихи обогатили и принесли разные оттенки в азербайджанскую свободную поэтику. Способы выражения поэта ещё больше увеличил поэтическое влияние и добавили многоголосие структуре свободного стиха. Наряду с тематикой и проблематикой, его ритм и интонация носят согласованность, формируют новые стереотипы поэтического мышления.

В статье, свободных стих .Салахзаде был исследован в контексте критики и литературоведческого подхода.

G.Aliyeva

Alakbar Salahzadeh as a prominent representative of free poetry
Summary

In the article it isinvestigated the free poetry of A. Salahzadeh, who came to the literature in the 60s. It has been shown that the mildness of the social-political life, has also had an impact on the literature in the sixties. In those years, the free poetry lived on the stage of R. Rza. Shamil Salmanov, Fikrat Goja, Fikrat Sadig, Arif Abdullazadeh, Alakbar Salahzade, Isa Ismailzadeh, Nariman Hasanzadeh, Vagif Vakilov, Shakar Aslanov,Tofig Abdin and others who came to poetry, in their poems innovation of forms, poetical polyphony,expression and descriptipn devices that were hardly heard, gave rise toanew force in poetry. Free poetry takes an important role in the work of A. Salahzadeh. His poems have enriched the free poetry of Azerbaijan and brought different shades. The poet's expressive means have also increased poetic effect devices and added polyphony to the structure of the free poetry. Besides the theme and problems in his poems, his rhythm and intonation are made up harmonious and give a form new poetic thought streotypes. In article, A. Salahzade's free poetry is investigated in the context of attitude of criticism and literature.

Rəyçi: Nadir Məmmədli
Filologiya elmləri doktoru, professor

NAZƏNDƏ HACIYEVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Gəncə Dövlət Universiteti
nazende.haciyeva1960@mail.ru

H.CAVİDİN DRAMLARINDA QADIN - QƏHRƏMANLIQ İDEALI KİMİ

Açar sözlər: ədəbiyyat, dramaturq, qadın azadlığı, mübarizə, cəmiyyət
Ключевые слова: литература, драматург, свобода женщин, борьба, общество
Key words: literature, poet, freedom of women, struggle, society

Azərbaycan ədəbiyyatının klassikləri əsərlərində həmişə qadına uca münasibətlərini ifadə ediblər. Bu, əslində həm də bəşəriliyin təsdiqidir. Böyük Azərbaycan şairi Hüseyn Cavidin yaradıcılığında qadına münasibət məsələsini araşdıran filologiya üzrə fəlsəfə doktoru Nizami Muradoğlu bildirir ki, o, kiçik yaşlarından qadın hüquqsuzluğunun şahidi olduğundan bütün yaradıcılığı boyu yaratdığı müsbət qadın surətlərinin dili ilə bu haqsızlığı aradan qaldırmaq üçün mübarizə aparıb. Xüsusən 1906-1909-cu illərdə İstanbul Universitetinin ədəbiyyat fakültəsində Rza Tofik kimi tanınmış filosoflardan dərs alan gənc Hüseynin mütərəqqi ideyalara sahiblənməsində o vaxtkı Türkiyənin ədəbi mühitinin çox böyük rolu olub: "Qadın azadlığı uğrunda aparılan mübarizənin fəal iştirakçılarından olan Hüseyn Cavid ilk qələm təcrübələrində azad sevgidən danışır, könül sazını məhəbbətin aliliyi üzərində kökləyərək bəşəri məzmun daşıyan məhəbbət şeirləri yazırdı.Məhz bu aspektdən çıxış edən böyük dramaturqun əsərlərinin böyük bir qisminin baş qəhrəmanları da qadınlardır. Hətta Hüseyn Cavid bəzi zamanlar əsərinin adını da qadın qəhrəmanların adı ilə adlandırmağı məqbul hesab edib. Onun "Ana", "Maral" və "Afət" dramlarını göstərə bilərik". Böyük dramaturqun qadın azadlığının təbliği ilə bağlı yazdığı əsərlərinin içərisində "Maral" (1912) dramının özünəməxsus yeri var: "Ailə-məişət zəminində yazılmış əsərin baş qəhrəmanı 16 yaşlı, istəyi nəzərə alınmadan özündən 32 yaş böyük olan, mal-mülk sahibi Turxan bəyə verilmiş Maraldır. Maral feodal Azərbaycanının əşya kimi alınıb satıla bilən minlərlə acı taleli qızlarının ümumiləşdirilmiş obrazıdır. 25 yaşlı gənc Arslan bəy Marala öz sevgisini bildirib onu bu amansız həyat girdabından qurtarmağa çalışır. Maral rəsmən Turxan bəyin qadını olsa da Arslan bəyi sevir. Arslan bəyin bu yerləri tərk edib qaçmaq təklifinə əvvəlcə razılıq versə də, sonda namus və şərəfinə ləkə düşəcəyindən ehtiyat edərək Maral acı taleyinə boyun əyib yaşamağı məqbul sayır. Ər evində özünü həbsxanadakı kimi hiss edən, var-dövlət içində öz dərdli-nisgilli taleyini

yaşayan Maralın gənc Arslan bəyə olan təmiz məhəbbəti ona səadət deyil, fəlakət gətirir. Turxan bəy Maralı Arslan bəyin yanında görərkən tapançasını çıxarıb ona atəş açır. Maral faciəvi şəkildə həlak olur. Dramaturq Maralın vəhşicəsinə öldürməsi epizodu ilə feodal cəmiyyətində azad sevgiyə, ülvi məhəbbətə, saf mənəviyyata yer olmadığı fikrini əsaslandırmağa xidmət edir. Arslan bəy də xəncərini çəkib Turxan bəyi öldürür. Əsər faciəvi bir sonluqla bitir".Araşdırmaçının fikrincə, "Maral" dramı pulun, sərvətin cəmiyyətdə törədə biləcəyi faciələri əks etdirir. Turxan bəy üçün dünyanın bütün səadəti yalnız pulla bağlıdırsa, Maral üçün bu var-dövlət o qədər də önəmli rol oynamır: "O, daha çox sevgi, məhəbbət görmək istəyir, bir an öncə pulun yaratdığı çirkinliklərdən qaçıb qurtulmaq arzusundadır.O zaman “Ana” və “Maral” Cavid yaradıcılığında müsbət bir hadisə idi. Bu əsərlərin ümumi pafosu Cavidi tənqidi realistlərlə daha yaxından bağlayırdı. Cavid romantikasının demokratizmi məhz bu əsərlərdə özünü açıq göstərdi. Dram sahəsində Cavidin ilk qələm təcrübəsi olan mənzum “Ana” pyesi gərgin dramatik xarakterlərdə yaradılmış gözəl bir ictimai tablodur. İnsanı alçaldan və eybəcərləşdirən köhnə əxlaqi normaların tənqidi bu ictimai tablonun əsas məfkurə xəttidir. H.Cavid yaradıcılığının ən yaxşı tədqiqatçısı, akademik M.Cəfərin düzgün müəyyən etdiyi kimi “Ana” dramında “müəllif də nə qədər gözəl insani sifətlər varsa, yoxsullarda, sadə adamlarda tapır; nə qədər mənfi əxlaqi keyfiyyətlər varsa, bunların çoxunu hakimlik, ağalıq, bəylik, xanlıq ehtiraslarında görürdü.” Hüseyn Cavidin baş qəhrəmanı qadın olan dram əsərlərindən biri də "Ana"dır. Əsərdə baş verən hadisələrin mərkəzində Səlma ana dayanır: "Səlma ana türk qadınının mərdlik, mübarizlik, qeyrət simgəsidir. Əsərdə təsvir olunur, Səlma ana bir ildir qürbətdə olan oğlu Qanpoladın intizarındadır, yolunu gözləyir. Əvvəllər hər onda, on beşdə məktub yazan oğlu Qanpoladdan üç aydır ki, məktub gəlmir. Ana üzünü Allaha tutub yalvarır:

İnayət qıl, yox başqa bir havadar,
Yalnız varım-yoxum tək bir oğlum var.
Ah, Qanpolad!.. Nuri-didəm, evladım!
Üç ay var ki, məktubunu almadım.
Üç ay var ki, taqət qalmamış məndə,
Gözüm yollarda, intizar içində.
Hər gecə gördüyüm qanlı röyalar
Göstərir ki, qorxulu bir xəbər var.

Səlma ana bu iztirablar içərisində çırpınarkən Qanpoladın nişanlısı İsmət əlində məktub otağa daxil olur. Məktubun Qorxmazın oğlu Müslüm vasitəsilə Qanpolad tərəfindən göndərildiyini eşidən Ana sevinc içərisində mektubu oxutmaq üçün qonşuya gedir. İsmət isə bir qədər qarmon çalıb dərdini dağıtmaq istəyir. İsmət köyün ən gözəl qızı, Qanpoladın nişanlısıdır. Qanpoladın qürbətdə olmasından dolayı bir ildir görüşə bilmirlər.

Qanpoladdan Səlma ananın adına gələn məktubda tezliklə toylarının olacağı anlaşılır. Bu zaman Orxan ilə İzzət gelir. Orxan İsmətə vurulub, onu ələ keçirmək üçün müxtəlif vasitələrə əl atır. Orxan İsmətə eşq elan edir. Onu sevdiyini, onsuz yaşaya bilməyəcəyini söyləyir. Hətta xəncəri çıxarıb İsmətə verib deyir ki, ya məni vur öldür, ya sevgimə cavab ver. Xain düşmən xanzadə Orxan var-dövlətinə güvənərək İsməti nəyin bahasına olursa olsun ələ almağa çalışır. Müxtəlif yağlı vədlərlə İsməti yola gətirə bilməyən Orxan onu təhdid etməyə başlayır. Vəfalı və eşqinə sədaqətli İsmət Orxanı rədd edir.Eşqinə sədaqətli olmaq, sevdiyinə xəyanət etməmək ümumən türk qızlarının mənəvi aləminin ən parlaq ifadəsidir. İsmət məhz namusla yaşayıb, sevgisini dünyanın bütün dəyərlərindən yüksək tutan bir türk qızıdır. Xan oğlu Orxanı rədd edərkən şərəf və ləyaqətini qoruyur, saf məhəbbətini qoruyur, adını qoruyur".Səlma ananın daha bir müsbət keyfiyyətini müəllif Səlimin dililə oxucuya çatdırmağa çalışıb: "Belə ki, İsmətin qardaşı Səlim Qanpoladın gəldiyi haqqında Səlma Anaya muştuluq verir. Sevincindən yerə-göyə sığmayan ana Səlimə bir gümüş kəmər bağışlayır.

İsməti yoldan çıxara bilməyən Orxan xəyanət yolunu tutur. Bu məqsədlə İzzət ve Muradı kullanaraq Qanpolad yolda olarkən ona pusqu qurur. Atışma zamanı Qanpolad Orxanı və İzzəti öldürür, özü ise Muradın açdığı atəşdən ağır yaralanır. Qorxuya düşən Murad qaçıb Səlma anaya pənah gətirir. Səlma ana özü də bilmədən ondan yardım istəyən Murada qərib olduğu üçün evində sığınacaq verir, onu gizlin yerdə saxlayır. Az keçmiş Qanpolad yaralı halda özünü anasına yetirir və ondan İsməti soruşur. Əsərin sonunda İsmət özünü ölüm ayağında olan sevgilisi Qanpolada yetirir, Qanpolad onun qucağında can verir. İsmət:

- Qanpolad! Sən nə tez unutdun bəni? Xayır, yalnız buraxmam əsla səni - deyərək Qanpoladın xəncərini çəkib özünü vurmaq istəyir. Lakin Səlma ana xəncəri onun əlindən alır, İsmət bayılır.

Bu əsnada böyük sarsıntı keçirən, qorxu içində çırpınan Murad vurduğu adamın Səlma ananın oğlu olduğunu bilincə qaçmaq istəyir. Səlma ana Murada deyir:

Amandasan, heç qorxma, heç sıxılma!
Çünki mən əvvəldən söz verdim sana.
Sən bir qonaqsan, qatil olsan belə,
Səlma həlak olur da, verməz elə.

"Ana" dramında Hüseyn Cavid türk qadınının mərdanə hərəkətini əks etdirməyə çalışıb. Ana evinə qəbul etdiyi qonağın oğlunun qatili olduğunu bilincə ne qədər sarsılsa da "Qonaq Allah qonağıdır", "Qonağa zaval yoxdur" düşüncəsində bulunaraq dözümlük ve mətanət göstərir;- "amandasan"- deyərək verdiyi sözün arxasında durduğunu nümayiş etdirir. Əsər faciəvi bir

sonluqla bitsə də Səlma ananın möhtəşəm obrazı milli xarakterik xüsusiyyətləri ilə yaddaşlarda dərin iz salır.İsmət özünə gəldikdə qardaşı Səlimi köməyə çağırıb qatili cəzalandırmaq istəyirsə də Səlma ananın öyüd-nəsihətlərinə qulaq asaraq onu bağışlayır. İsmətin ürəyi intiqam hissi ilə alışıb yansa da, ədəb-ərkana, el adətinə əməl etmək lazım olduğunu başa düşür". Bu əsərilə Hüseyn Cavid türk qadınının bəşəri hisslərlə yaşadığını təsvir etməklə bərabər bütün insanlığa bir nümunə göstərib. O, fikrini Hüseyn Cavidin "Peyğəmbər" əsərindən sitatla bitirir: "Cavidin qənaətincə, qadın anadır, qadın sevgili bir yardır, qadın ülvi bəşəri məxluqdur, insanlığın baş tacıdır".İnsan cəmiyyətinin yaranması qadınla bağlıdır. Zamanzaman dünyaya insan gətirən qadına çox adi münasibət olmuşdur. Əzilən, iztirab çəkən qadına işıq yolu göstərmək əsrlər boyunca müşkül işə çevrilmişdir. İslamiyyətdən əvvəl qadın kişinin şəhvətinə məhkum olunan adicə bir varlıq idi. Kəbinsiz qadınlar ən adi canlı kimi başqasının zövqünə, şəhvətinə uyğun olaraq alınıb, satılırdı. Adəm peyğəmbərin dövründən Həzrət İsanın dövrünədək qadınlar ancaq kölə hüququnda yaşamışdılar. Həzrət Məhəmmədin Məkkədən Mədinəyə /622/ hicrət etdiyi illərdə artıq qadınlarda öz varlıqlarına qarşı inam, ümid qığılcımları doğulmağa başlamışdı. Belə ki, "Qüreyş ordusu ilə bərabər gəlmiş qadınlar əllərindəki qavalları, cərgələri dolanaraq çalır, hərb nəşidləri söyləyirdilər. Bədrdə ölənlər haqqında şerlər söyləyir, bununla əsgərlərə cəsarət və qüvvət verməyə çalışırdılar".

Ədəbiyyat:

1. Mir Cəlal, Firidun Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, 1982.
5. Kamran Əliyev. Hüseyn Cavid: həyatı və yaradıcılığı. Bakı, 2008.
6. Müstəqil Ağayev. Hüseyn Cavidin dünyagörüşü. Bakı, 2005.
7. Teymur Əhmədov. Azərbaycan sovet yazıçıları. Bakı, 1987.

N.Haciyeva

Women as heroid ideal in H. Javid's drams

Summary.

In the XVIII century after the exaggerated influence of the bourgeois revolutions, the Greek philosophers' movement was launched for the first time. In the 18th and 19th centuries, the enlightenment movement in Europe and Russia was the result of the legal process of women's enlightenment. At the dawn of the 19th century, at the beginning of the twentieth century, East women began to raise their voices against slavery. At that time, women's

movements began to flourish in Syria, Egypt, and Turkey.In Azerbaijan, freedom of women compared to other peoples was long delayed. These issues only disappeared after Azerbaijan became a part of Russia. Women's level of education, education is preceded by the progress of the nation. From this point of view, the absolute role of women in the intellectual development of society is undeniable. Our grandmothers, such as Tomris, Nushaba, Mihrikan Khanum, Tuti Bika, diplomats like Sara Khatun, and Melika Könüldaş, were poets. Our women are those who preserve and develop the spirit, language and traditions of our people.

Н.Гаджуева

Женщина как идеал героизма в драмах Г.Джавида

Резюме

В XVIII веке после преувеличенного влияния буржуазных революций впервые началось движение греческих философов. В 18-м и 19-м столетиях просветительское движение в Европе и России стало результатом правового процесса просвещения женщин. На заре 19-го века, в начале двадцатого века, восточные женщины стали поднимать свой голос против рабства. В то время женские движения начали процветать в Сирии, Египте и Турции.В Азербайджане свобода женщин по сравнению с другими народами была отложена. Эти проблемы исчезли только после того, как Азербайджан стал частью России. Женскому уровню образования, образования предшествует прогресс нации. С этой точки зрения абсолютная роль женщин в интеллектуальном развитии общества неоспорима. Наши бабушки, такие как Томрис, Нушаба, Мирикан Ханум, Тути Бика, дипломаты, такие как Сара Хатун и Мелика Кёнюлдаш, были поэтами. Наши женщины - это те, кто сохраняет и развивает дух, язык и традиции нашего народа.

Rəyçi: Afaq Yusifli
filologiya üzrə fəlsəfə doktoru, dosent

ALMARA NƏBİYEVA
filologiya üzrə fəlsəfə doktoru
BDU
nebiyeva_almara@mail.ru

AZƏRBAYCANDA "KİTABI-DƏDƏ QORQUD" DASTANININ ARAŞDIRILMASI VƏ NƏŞRİ TARIXİ

Açar sözlər: "Kitabi – Dədə Qorqud", Oğuz eli, A.Musaxanlı, H.Araslı, Ə.Dəmirçizadə, M.H.Təhmasib, Ə,Sultanlı, M.Ə.Rəsulzadə, Ş. Cəmişidov.
Ключевые слова: «Китаби-Деде Горгуд», огузы, А.Мусаханлы, Г.Араслы, А.Демирчизаде, М.Г.Тахмасиб, А.Султанлы, М.Э.Расулзаде, Ш.Джамшидов.
Keywords: "Kitabi-Dede Gorgud", Oghuzes, A.Musahanly, H.Arasly, A.Demirchizadeh, M.H.Tahmasib, A.Sultanly, M.E.Rasulzadeh, S.Jamshidov.

On iki boy - on iki oğuznamədən ibarət olan "Kitabi-Dədə Qorqud" böyük oğuznamə mədəniyyətini özündə əks etdirən çoxqatlı nadir ədəbi tarixi qaynaqdır. Dastanın əlyazması üzərində yazılmış "Kitabi-Dədə Qorqud əla lisanitaifeyi Oğuzan" adı oğuznamələrin etnik mədəni mənsubiyyətini dəqiq ifadə edir. Kökləri mifoloji dünyagörüşünə gedib çıxan Dədə Qorqud dastanları b.e. XI yüzilliyində "Kitabi-Dədəm Qorqud" adı altında yazıya alınmış, əlimizdə olan nüsxələr isə XVI əsrdə üzü köçürülmüş əlyazmalardır. (20.7) Dastan döyüş-savaş səhnələrini, məhrəm insani duyğular, etnik düşüncə, vətənə, yurda bağlılıq, qəhrəmanlıq, səadət, nifrət, məhəbbət, sevgi, ayrılıq, ölüm və olum fəlsəfəsini dürüst, aydın şəkildə ifadə edən qiymətli söz abidəsidir.""Kitabi-Dədə Qorqud" qəhrəmanlıq eposudur, özü də bir cəngavər, bir igid haqqında yox, bütöv bir xalqın qəhrəmanlığını özündə cəmləşdirən bir eposdur.Onun ən böyük ideyası baş sərkərdədən tutmuş, böyükdən kiçiyə kimi bütün qəhrəmanlar doğma torpaqlarını qorumaq uğrunda canlarından keçməyə daim hazır olduqlarını göstərməkdədir."(10, 6). Azərbaycan xalqının qəhrəmanlıq dastanları mənsub olduğu türkdilli xalqların dastan yaradıcılığının qədim və zəngin ənənələrindən bəhrələnərək yaradılmışdır. Xalqımız özünün ədalətli mübarizəsini, milli xüsusiyyətlərini əsrlərdən əsrlərə, nəsillərdən nəsillərə keçirmiş və qoruyub saxlamışdır. Öz tarixi inkişafının müxtəlif dövrlərində yaratdığı "Kitabi-Dədə Qorqud" dastanı bəşər mədəniyyətinin ümumi xəzinəsini zənginləşdirmişdir.

Dünyanın ən qədim xalqlarından olan Azərbaycan xalqı dünya mədəniyyəti tarixinə "Kitabi-Dədə Qorqud" eposunu töhfə verərək özünün

yüksək mənəvi-əxlaqi dəyərlərə malik olduğunu sübut etmişdir.Azərbaycanda dastanın araşdırılması və öyrənilməsiyolunda mühüm işlər görmüş ilk tədqiqatçılardan biri yaxud da birincisi görkəmli folklorşünas alim Əmin Abid olmuşdur. Onun dastan üzərində hələ ilk araşdırmaları 1922-ci illərə təsadüf edir. Həmin ildən yazmağa başladığı "Azərbaycan türklərinin ədəbiyyatı tarixi" (1.) əsərinin birinci cildinin böyük bir qismi "Kitabi-Dədə Qorqud" dastanına həsr olunmuşdur. Kitabda "Salur Qazanın evinin yağmalandığı boy"unu "Qorqud mənbələrindən bir nümunə" adlı başlıqda tam şəklində vermişdir. Bu isə onu deməyə əsas verir ki, deməli, Ə.Abid nəinki dastan haqqında elmi-nəzəri məlumata sahibdir, hətta dastanın boylarından belə xəbərdardır.

Bu istiqamətdə araşdırmalarına davam edərək onun bir-birinin ardınca dastanla bağlı məqalələri mətbuatda işıq üzü görür. "Heca vəzninin tarixi", prof. A.Samolyoviçə həsr etdiyi "Türk el ədəbiyyatına elmi bir baxış", "Əşirət dövründəki Azərbaycan ədəbiyyatına aid vəsiqələr" məqalələrində alim dastanla bağlı bu gün də aktuallığını itirməyən dəyərli elmi mülahizələr söyləmişdir. Ə.Abid 1928-1929-cu illərdə çap etdirdiyi məqalələrində yazırdı: "Qorqud kitabındakı mənbələrin cərəyan etdiyi coğrafi yerlər əski Azərbaycan sahəsinin dəxi tamamilə daxil olduğu göstərilməkdədir" (2,165).Ə.Abidin"Kitabi-Dədə Qorqud" dastanı üzərində ən böyük işi 1928-ci ildə Xalq Maarif Komissarlığına ünvanladığı məktubdur. O həmin məktubda yazırdı: "Bu gün Azərbaycan xalqının özünün əsirətlər dövründəki ədəbiyyatını yenidən onun öz malı etmək gərəkdir. Buna görə də Maarif Komissarlığı həm ibtidai, həm də məktəbin sonrakı pillələrində "Kitabi-Dədə Qorqud"u məktəb proqramlarına daxil etməlidir. Biz həm darülfünunda, həm də kənd məktəblərində ədəbiyyatımızın tarixini Füzulidən deyil, "Dədə Qorqud" oğuznamələrindən başlamalıyıq" (2, s.16). Beləliklə, Ə.Abid tərəfindən qoyulan dastanın araşdırılması və təbliği yolunda nəzərə çarpacaq dərəcədə addımlar atıldı. 1926-cı ildə R.Əfəndizadənin "Daş üz və iç üz" məqaləsi, H.Zeynallı, A.Şaiq, A.Musaxanlı, C.Əfəndizadənin ilə birlikdə hazırladığı "Ədəbiyyatdan iş kitabı" (9) dərsliyi həmin dövrdə qorqudşünaslıq üçün çox mühüm əhəmiyyət kəsb edirdi. Həmin kitabda A.Musaxanlının "Qudaqdu bilik" və "Kitabi-Dədə Qorqud" məqaləsinin xüsusi yeri vardır ki, tədqiqatçı bu məqaləsinə "Dirsə xan oğlu Buğac xan boyunu bəyan edər, xanım, hey" boyunu da əlavə etmişdir. Bu işin məsuliyyətini layiqincə davam etdirən tədqiqatçıların fikirləri həmin dövrdə Azərbaycan qorqudşünaslığı üçün yeni bir nəfəs idi. 1928-ci ildə İ.Hikmətin nəşrə hazırladığı "Azərbaycan ədəbiyyatı tarixi"(11) ikicildliyinin birinci cildində dastana geniş yer ayıran İ.Hikmət mədəniyyət tariximiz üçün əhəmiyyətli olan başqa bir məsələ oğuzların bugünkü yaşadıqları ərazilərə gəlməsi ilə bağlı idi. İ.Hikmət,

F.Köprülüzadə və Ə.Abidə əsaslanaraq göstərirdi ki, türklər Qafqazın daha qədim sakinlərindən olub, bu ərazidə çox qədimdən yaşamışlar (11, s. 19).

İyirminci illərin sonu, otuzuncu illərin əvvəllərində dastanın tədqiqi və təbliği artıq böyük rezonansa səbəb olurdu. Müxtəlif manelələrlə onun təbliğinin qarşısını alımağa çalışırdılar. Amallarından, tutduqları yoldan bir an olsun belə dönməyən görkəmli elm xadimləri və ziyalılarımız çətinliklərə baxmayaraq, eposun tədqiqi üçün yeni işlər görürdülər. Lakin siyasi vəziyyətin getdikcə pisləşməsi, otuzuncu illərin xalqımıza, həmçinin "Kitabi-Dədə Qorqud" dastanına gətirdiyi bəlalar, yasaq və qadağalar bir çox işlərin yubanmasına, görkəmli elm xadimlərimizin, gənc qorqudşünaslarımızın həyatdan vaxtsız köçmələrinə səbəb oldu. Azərbaycan qorqudşünaslığının ilk nümayəndələri Ə.Abid, H.Zeynallı, A.Musaxanlı, B.Çobanzadə kimi tədqiqatçıların repressiyaya məruz qalması bir çox elmi yeniliklərin yaranmasının qarşısına sədd çəkdi. Otuzuncu illərin sonuna (1938-ci ildə) yaxın H.Araslı "Ədəbiyyat və incəsənət" qəzetində "Kitabi-Dədə Qorqud" adlı məqaləsi (4) ilə dövrü mətbuatda çıxış etməyə başladı. Məqalədə eposun əlyazmasının "ilk Avropa, rus və türk araşdırıcıları, boyların yarandığı coğrafi ərazi, onun tarixi əhəmiyyəti barədə müfəssəl məlumat verən müəllif, ayrı-ayrı boyların məzmunu ilə də oxucunu tanış edir. Bununla yanaşı abidənin beş boyunun yığcam məzmunu və təhlili üzərində dayanır" (19, s.9). Bəzi qüsurlarına baxmayaraq, həmin dövrün ictimai-siyasi mənzərəsini nəzərə alsaq, cəsarətlə deyə bilərik ki, H.Araslının yazdığı bu məqalə repressiya illərindən sonra Azərbaycan qorqudşünaslığı tarixində atılmış mühüm addımdır. H.Araslının ardınca isə həmin ildə Ə.Dəmirçizadə "Dədə Qorqut" dastanlarının dili" adlı məqaləsini nəşr etdirdi. Digər mühüm və o zaman üçün əhəmiyyətli vacib addım isə H.Araslının "Kitabi-Dədə Qorqud"un tam mətnini latın qrafikası ilə 1939-cu ildə çap etdirməsi idi. "Kitab"a geniş ön söz yazan alim bu uğurlu nəşri ilə bütün xalqımızı sevindirdi. Bu nəşr bir çox alim və ziyalılarımıza güc verdi.

Qırxıncı illər "Kitabi-Dədə Qorqud" dastanı üçün düşərli oldu. Mətnin nəşrindən güc, qüvvət alan Ə.Dəmirçizadə 1941-ci ildə "Dədə Qorqud" librettosunu, "Qaraca çoban" (1943) mənzum pyesini yazdı. Əsas ideya xətti yurdun düşməndən müdafiəsi olan "Dədə Qorqud" librettosu 1943-cü ildə tamaşaya qoyuldu.

1942-ci ildə H.Araslı və M.Rəfilinin orta məktəb şagirdləri üçün hazırladıqları "Qədim ədəbiyyat" (Azərbaycan və dünya ədəbiyyatı) adlı dərslikdə dastanın tədrisinə xüsusi bölmə ayrılmışdı. 1948-ci ildə isə M.Rzaquluzadənin "Dədə Qorqud" boyları üzrə yazdığı hekayələr (18) təqdirəlayiq hal idi. "Ana ürəyi-dağ çiçəyi", "El gücü", "Dəli Ozan" adlı hekayələrində yurda bağlılıq, azadlıq uğrunda mübarizə, sədaqət və fədakarlıq, el gücünə arxalanmaq kimi mənəvi və bəşəri ideyalar tərənnüm

olunurdu. Bir-birinin ardınca gələn tədqiqlər artıq barmaqla sayılacaq dərəcədə deyildi. Bu yolda uğurla irəliləyən folklorşünaslarımızdan biri də M.H.Təhmasib idi. Onun dastan üzərində ilk araşdırmaları qırxıncı illərin əvvəlinə təsadüf edir. "Azərbaycan ədəbiyyatında xalq qəhrəmanları", "Qəhrəmanlıq dastanları", "Dədə Qorqud" boyları haqqında", "Bir tarixi həqiqətin eposdakı izləri", "Əfsanəvi quşlar", "Aşıq", "Bir neçə söz", "Dastanlarımızın bir növü haqqında" adlı məqalələrində dastan, onun boyları və obrazlar sistemi haqqında ətraflı yazmışdır. O, 1972-ci ildə "Azərbaycan xalq dastanları" (orta əsrlər)" adlı doktorluq işini uğurla müdafiə edərək, digər dastanlarla yanaşı, "Kitabi-Dədə Qorqud" dastanına da geniş bölmə ayırmış və onun haqqında geniş məlumat vermişdir.Həmin illərdə, daha dəqiq desək, 1946-cı ildə dastanın ilk tədqiqatçılarından Ə.Sultanlının "Dədə Qorqud və yunan eposları" adlı yazısı işıq üzü görür. Alimin ölümündən sonra – 1999-cu ildə "Kitabi-Dədə Qorqud və qədim Yunan dastanları" adlı kitabı çap olunur. Eposu yunan dastanları "İliada" və "Odisseya" ilə müqayisəli şəkildə tədqiqata cəlb edən alim on iki boyun hər biri haqqında müxtəsər məlumat vermişdir. Alimin bir-birinin ardınca nəşr etdirdiyi "Dədə Qorqud" dastanı haqqında qeydlər" adlı silsilə məqalələri (1958, 1959) o dövr üçün əlamətdar hadisə idi.Lakin bu yüksəliş və inkişaf mərhələsinin ömrü qısa olur. Əllinci illər qorqudşünaslıq tarixində dərin izlər buraxır. Ünvanına amansız və kəskin ittihamlar söylənilən bu əvəzsiz abidəyə mürtəce, yabançı damğası vurulur, nəşr və tədqiqinə qadağa qoyularaq belə bir siyasi ittihamla üz-üzə qalır: "Eposun məzmun və ideyası Zaqafqaziya xalqları arasında əsrlərdən bəri davam edən dostluğa ziddir və sovet adamlarının dostluq, qardaşlıq ruh unda tərbiyə edilməsinə yardım göstərə bilməz" (14). Bir neçə il bu qəbulolunmaz damğa ilə yaşamağa məcbur qalan"Kitabi-Dədə Qorqud ("Kitab-i Dədəm Qorqud əla lisan-i taife-i Oğuzan")- Oğuz tayfalarının dilində Dədəm Qorqudun kitabı (12, 135). siyasi vəziyyətin dəyişilməsi ilə yeni mərhələyə qədəm qoydu. Artıq qabaqcıl elm xadimləri və ziyalılarımız hər bir vəchlə zamanı eposun xeyrinə dəyişməyə səy göstərirdilər. Bu şərəfli missiyanın ilk nümayəndələri "H.Araslı, Ə.Dəmirçizadə, M.A.Dadaşzadə və M.H.Təhmasib 1957-ci ildə "Kommunist" qəzetində" (06, 26 mart) bəraət məqaləsi ilə çıxış etdilər. Elə həmin ildə H.Araslının "Xalq ədəbiyyatının qiymətli abidəsi – Dədə Qorqudun yeni əlyazması" adlı məqaləsi "Ədəbiyyat və incəsənət" qəzetində işıq üzü gördü (09, s.32). "Kitabi-Dədə Qorqud"un tədqiqi və təbliğinin mühüm bir qolu mühacirət illərinə təsadüf edir. Həmin dövrün görkəmli qələm sahibləri rus çarizminin müstəmləkəçilik siyasətinə, sovet rejiminə etiraz əlaməti olaraq doğma vətənlərini tərk edərək xaricə getmişdilər. Tərki-vətən olan istedadlı elm fədailərimiz qardaş ölkə Türkiyə, Polşa, Fransa, İsveçrə və Almaniya kimi ölkələrdə mühacir həyatı yaşamışlar. Vətəndən

uzaq düşmələrinə baxmayaraq, onun ədəbiyyatını, o cümlədən folklor nümunələrini araşdırmağa davam etdirmiş, onlar haqqında məqalə, məruzə və müxtəlif yazılarla çıxış etmişlər. Bu baxımdan, sözsüz ki, "Kitabi-Dədə Qorqud" dastanı diqqətdən kənarda qala bilməzdi. Bu sırada ilk adı çəkiləcək tədqiqatçılardan biri Ə.Abiddir ki, onun haqqında yuxarıda ətraflı şəkildə məlumat vermişik. Daha sonra isə M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə, Ə.Cəfəroğlu, İrenMelikoff kimi alimlərin araşdırmalarınıda qeyd edə bilərik ki, onların bu işdə xidmətləri böyük, əməyi isə danılmazdır. Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu, memarı M.Ə.Rəsulzadənin mühacirət illərində qələmə aldığı "Dədə Qorqud" dastanları" (16), "Dədə Qorqud" oğuznamələri" (17) adlı məqalələri ədibin dastanla bağlı ciddi araşdırmalarının nəticəsidir. M.Ə.Rəsulzadə "Dədə Qorqud" oğuznamələri" adlı məqaləsində F.Kırzıoğlunun eyniadlı əsərini tədqiqata cəlb edərək, onun qısa şəkildə təhlilini vermişdir. O, F.Kırzıoğlunun "Quran"dan sonra ən çox oxuduğum kitab" fikrinə diqqət çəkərək alimin dastana qəlbən aşiq olduğunu yazır (17, s.96). Dastanın təbliği yolunda mühacirət ədəbiyyatşünaslığının banisi sayılan Mirzə Bala Məmmədzadənin "Dədə Qorqud" məqaləsi təqdirəlayiqdir. Ədib məqalədə Dədə Qorqudun şəxsiyyətindən, Qazan xan və Burla Xatundan geniş bəhs etmiş və dastana qoyulan qadağaya münasibət bildirmişdir. O, dastanın 1950-ci ilə qədər məktəblərdə geniş tədrisini ön plana çəkmiş, hətta Ə.Dəmirçizadənin "Dədə Qorqud" motivləri əsasında oğuz yurdunu və bəylərini idealizə edən bir pyes yazdığını xatırlatmışdır. Dastana qarşı münasibətin birmənalı olmadığını isə bu fikirlərlə əsaslandırır: "... Fəqət keçən ildən etibarən vəziyyət dəyişmişdir. 1950-ci ilin may ayında Azərbaycan Kommunist Partiyasının birinci katibi Mircəfər Bağırov "Dədə Qorqud"un kobud siyasi səhv olduğunu partiya yığıncağında rəsmi olaraq elan etdi. Bu rəsmi elanın ardınca dərhal qələmə sarılan "filologiya elmləri doktorları" "Ədəbiyyat qəzeti"ndə "Dədə Qorqud"un xanlara və bəylərə qarşı "mübarizə aparan" xalq qəhrəmanlarına əsla yer vermədiyini, feodalları idealizə etdiyini və buna görə də "xalq düşməni bir əsər" olduğunu irəli sürdülər. Fəqət bu iddia şəxsi bir inam və qənaətdən ziyadə, Moskvadan verilən bir əmrin kor-koranə icrasından başqa bir şey deyildi" (15, s.106-107) Ümumilikdə türk dastanları haqqında geniş araşdırma işi ilə məşğul olan əslən azərbaycanlı İren Melikoff da ömrünün çox hissəsini Fransada yaşamaq məcburiyyətində qalan mühacirət ədəbiyyatı nümayəndələrindəndir. İren xanımın folklorla bağlı araşdırmaları, "Kitabi-Dədə Qorqud"a həsr etdiyi məqalələri mühacirət ədəbiyyatı irsində xüsusi çəkiyə malikdir. "Gürcülər, türkmənlər və Trabzon: "Kitabi-Dədə Qorqud" üzərinə" (13) məqaləsində dastanı "div bir əsər" adlandıraraq onun digər dastanlardan üstünlüyünü vurğulayır. İren xanım Melikoffun dastanla bağlı digər araşdırması "Qazan" sözcüyü üzərinə" (13) adlı məqaləsidir. Məqalə Çikaqo

Universitetindən Robert Dankoffa cavab olaraq qələmə alınmışdır. Belə ki, R.Dankoffun "Hacı Bektaş – əfsanədən gerçəyə" ("Hadji Bektach un mythe et sesavatars" (Leiden, 1998) adlı yazısında "Qazan" sözünə verdiyi şərhi İ.Melikoff yüksək dəyərləndirərək tədqiqata cəlb etmişdir.

"Kitab"ın altmışıncı illər dövrü H.Araslının "Aşıq yaradıcılığı" (04) monoqrafiyası və "Kitabi-Dədə Qorqud"un yeni nəşri (1962) ilə başlayır. Monoqrafiyasında Azərbaycan aşıqlardan, aşıq şeirinin şəkillərindən ətraflı şəkildə bəhs edən alim dastana geniş bir bölmə ayırır. H.Araslı "Dədə Qorqud" dastanlarının Nizami yaradıcılığına təsirindən, onun XI əsrin ən qüvvətli aşıq yaradıcılığı nümunəsi olmasından bəhs edir. O, "Koroğlu", "Aşıq Qərib", "Şah İsmayıl" dastanlarındakı hadisələrin bəzisinin "Kitabi-Dədə Qorqud"dan alındığını vurğulayaraq obrazlar sistemi arasında müqayisələr aparır. Altmışıncı illər Azərbaycan qorqudşünaslığının görkəmli nümayəndələrindən biri də Ş.Cəmşidovdur. O, demək olar ki, bütün ömrünü dastanın tədqiqinə həsr etmişdir. "Kitabi-Dədə Qorqud" əlyazmalarının hansı yolla Almaniya kitabxanalarına düşməsi fikrini məntiqli şəkildə şərh edən alim, dastanla bağlı kitab, monoqrafiya və onlarla məqalə müəllifidir. Həmin illərdə tədqiqatçının "Kitabi-Dədə Qorqud" u vərəqləyərkən" (07) kitabı, "Dədə Qorqud"un qəbri", "Dədə Qorqud" boylarında təsvir vasitələri" məqalələri, 1977-ci ildə nəşr etdirdiyi "Kitabi-Dədə Qorqud" monoqrafiyası (6) müstəsna əhəmiyyətə malikdir.

Sonrakı illərdə qorqudşünaslar sırasına qoşulan Ə.Qarabağlı, E.Əlibəyzadə, T.Hacıyev, M.Seyidov, S.Əlizadə, F.Zeynalov, K.Vəliyev, K.Abdulla, A.Hacıyev, P.Xəlilov, F.Əlimirzəyeva, C.Nağıyev və s. tədqiqatçılar öz araşdırmaları ilə xeyli işlər görmüşdülər. Daha sonra dastanın tədqiqi və təbliği istiqamətində V.Vəliyev, P.Əfəndiyevin və b. ali məktəb tələbələri üçün hazırladıqlarıdərsliklərdə, həmçinin yazdıqları məqalələrdə dastanın əhəmiyyəti, tədrisi məsələləri xüsusi vurğulanır.

İstifadə olunmuş ədəbiyyat:

1. Abid Ə. Azərbaycan türklərinin ədəbiyyatı tarixi. Bakı: Elm və təhsil, 2016, I kitab, 240 səh.
2. Abid Ə. Xalq Komissarlığına məktub. Azərbaycan Respublikasının Mərkəzi Dövlət Arxivi: f. 73, s.v. 42, səh. 16.
3. Araslı H. "Kitabi-Dədə Qorqud" // Ədəbiyyat və incəsənət, 1938, № 3, səh. 61-99.
4. Araslı H. Aşıq yaradıcılığı. Bakı: Birləşmiş nəşriyyat, 1960, 136 səh.
5. BəydiliC.M. Türk mifoloji sözlüyü. Bakı: Elm, 2003, 418 səh.
6. Cəmşidov Ş. "Kitabi-Dədə Qorqud" (monoqrafiya). Bakı: 1977, 176 səh.

7. Cəmşidov Ş. “Kitabi-Dədə Qorqud”uvərəqləyərkən. Bakı: Gənclik, 1969, 96 səh.
8. Dədə Qorqud Kitabı. Ensiklopedik lüğət. Bakı: Öndər, 2004, 368 səh.
9. Ədəbiyyatdan iş kitabı. Nəşrə hazırlayanlar: H.Zeynallı, A.Şaiq, A.Musaxanlı, Əfəndizadə C. Bakı: Azərnəşr, 1928, 294 səh.
10. Əliyev İ.Ə. İnkişaf – məqsədimizdir. Bakı: Azərnəşr, 2009, 400 səh.
11. Hikmət İ. Azərbaycan ədəbiyyatı tarixi: islamiyyətin zühurundan miladın on səkkizinci əsrinə qədər. İki cilddə. Bakı: Azərnəşr, 1928, I cild, 290 səh.
12. “Kitabi-Dədə Qorqud” ensiklopediyası 2cilddə, Icild Bakı, Yeni Nəşrlər evi-2000
13. Melikoff İ. “Qazan” sözcüyü üzərinə // Mühacirətdə folklor araşdırmaları. Bakı: Elm və təhsil, 2015, I kitab, səh. 113-118.
14. Məmmədli H. “Dədə Qorqud” abidəsinin Azərbaycanda araşdırılması və nəşri tarixindən // Ulduz, № 4, B., 1990.
15. Məmmədzadə M.B. Dədə Qorqud // Mühacirətdə folklor araşdırmaları. Bakı: Elm və təhsil, 2015, I kitab, səh. 104-108.
16. Rəsulzadə M.Ə. “Dədə Qorqud” dastanları // Mühacirətdə folklor araşdırmaları. Bakı: Elm və təhsil, 2015, I kitab, səh. 92-95.
17. Rəsulzadə M.Ə. “Dədə Qorqud” oğuznamələri // Mühacirətdə folklor araşdırmaları. Bakı: Elm və təhsil, 2015, I kitab, səh. 96-98.
18. Rzaquluzadə M. El gücü (“Dədə Qorqud” boyları üzrə hekayələr). Bakı: Uşaqgəncnəşr, 1948, 77 səh.
19. Şamil Ə. Qorqudşünaslığımızın əsas qaynaqlarından biri. “Kitabi-Dədə Qorqud” – 1300 // Filoloji araşdırmalar. Bakı: BDU nəşriyyatı, 1999, IX kitab, səh. 159-176.
20. Orucova S. “Kitabi-Dədə Qorqud”un tərcümələri // “Kitabi-Dədə Qorqud” və Türk dünyası” Beynəlxalq elmi konfransının materialları. Bakı: Araz, 2015, səh. 5-7.

А.Набиева

История изучения и издания эпоса «Китаби-Деде Горгуд» в Азербайджане

Резюме

В статье прослеживается история издания и исследования в Азербайджане эпоса «Китаби-Деде Горгуд», являющегося нашей литературной сокровищницей. Интересен тот факт, что изучение этого памятника началось задолго до его издания. С этой точки зрения, заслуживают внимания статьи Амина Абида. А.Абид, опираясь на многочисленные указания в тексте дастана, выдвинул идею о его

создании на территории Азербайджана. Эпос «Китаби-Деде Горгуд», отражающий культуру, обычаи и обряды нашего народа, стал объектом изучения многих исследователей. Текст дастана содержит богатый материал по языкознанию, фольклористике, истории, этнографии, географии и другим отраслям знаний. В разное время исследованиями этого памятника занимались А.Мусаханлы, Г.Араслы, А.Демирчизаде, М.Г.Тахмасиб, А.Султанлы, М.Э.Расулзаде, Ш.Джамшидов и другие ученые. В статье также выясняются причины запрещения эпоса «Китаби-Дедед Горгуд». Исследователи подчеркивают, что этот дастан является хранителем национально-духовных ценностей нашего народа. Также высоко оценивается его роль в деле патриотического воспитания молодого поколения.

A.Nabiyeva

History of studying and the edition of the epos "Kitabi-Dede Gorgud" in Azerbaijan

Summary

The article deals with the "Kitabi-Dede Gorgud"s edition and research history in Azerbaijan as our literary treasury. It is interesting, that studying of this monument has begun long before its edition. From this point of view, draw attention of Amin Abid's articles. A.Abid, learning against numerous instructions in the epic's text, has put forward idea about its creation in territory of Azerbaijan. The "Kitabi-Dede Gorgud" reflecting culture, customs and ceremonies of our people, and became object of studying of many researchers. The epic's text contains a rich material on Linguistics, Folkloristic, History, Ethnography, Geography and other branches of knowledge. A.Musahanly, H.Arasly, A.Demirchizadeh, M.H.Tahmasib, A.Sultanly, M.E.Rasulzadeh, S.Jamshidov and other scientists at various times were engaged researchers of this monument. In the article also are found out the reasons of prohibition of the epos "Kitabi-Dede Gorgud". Researchers underline, that this epos is the keeper of national-cultural wealth our people. Also is highly estimated its role in direction of patriotic bring-up of young generation.

Rəyçi: Səhər Orucova
Filologiya elmləri doktoru, professor

SAMİRƏ RZAYEVA
Sumqayıt Dövlət Universiteti Xarici Dillər kafedrası
rsamira80@mail.ru

NAMİK KAMALIN "VƏTƏN ŞARKISI" ŞEIRINDƏ TÜRK XAQLIN ƏZMKAR OBRAZ

Açar sözlər: Namik Kamal, M.A.Sabir, nəzirə , türk xalqı, millət, vətən
Key words: Namik Kamal, M.A.Sabir, imitative poem, turkish people, nation, homeland
Ключевые слова: Namik Kamal, M.A.Sabir Намик Камал, М.А.Сабир,турецкий народ,родина,народ.

XIX əsr türk ədəbiyyatının tanınmış simalarından olan Namik Kamal bədii fikir tarixində özünə geniş yer tapmışdır. O həm istedadlı şair, dramaturq, yazıçı və eyni zamanda görkəmli siyasi xadim olmuşdur. Namik Kamal Türk ədəbiyyatına Avropasayağı şeiri, insanları mübarizəyə səsləyən dramları ilə yeni ruh gətirmiş, yeni tipli tanzimat ədəbiyyatının yaradıcısı və banisi olmuşdur. Qısa bir ömür yaşamasına baxmayaraq, Türkiyədə mədəni-siyasi fikir, ictimai azadlıq hərəkatı liderlərindən biri olmuşdur. Heç bir sürgünlər, üzüntülər onu tutduğu yoldan döndərə bilməmişdir .

Namik Kamalın Azərbaycan ədəbiyyatında Mirzə Ələkbər Sabirə böyük təsiri olmuşdur. 1908-ci il Türkiyədə baş verən inqilab Azərbaycan şairlərinin yaradıcılıq mövzusuna çevrildi. Bu inqilabda xalq kütlələrinin iştirakı çox zəif idi. Bu hərəkatın önündə gedən, hələ təzəcə yaranmış olan «gənc türklər» təşkilatına Əbdülhəmid rejimindən yorulan xalq böyük ümidlərlə baxırdı. Bu zaman «Molla Nəsrəddin»in jurnalının səhifələrində M.Ə.Sabirin N.Kamaldan təsirlənərək yazdığı şeiri çap olundu.

XIX əsr türk ədəbiyyatının tanınmış simalarından olan Namik Kamal bədii fikir tarixində özünə geniş yer tapmışdır. Namik Kamal Türk ədəbiyyatına Avropasayağı şeiri, insanları mübarizəyə səsləyən dramları ilə yeni ruh gətirmiş, yeni tipli tanzimat ədəbiyyatının yaradıcısı və banisi olmuşdur. Qısa bir ömür yaşamasına baxmayaraq, Türkiyədə mədəni-siyasi fikir, ictimai azadlıq hərəkatı liderlərindən biri olmuşdur. Heç bir sürgünlər, üzüntülər onu tutduğu yoldan döndərə bilməmişdir.

Millətinin, vətəninin, xalqının taleyinə yanan şairin poeziyasında onun dərdləri əks olunurdu. Türk şeirində görünməmiş olan «hürriyyet kavğası», «esarət zenciri», «vatan», «kalbi-millet» kimi yeni kəlmələri türk ədəbiyyatına, şeirinə gətirən Namik Kamal olmuşdur. Onun «Vaveyla», «Vatan mersiyesi», «Vatan şarkısı», «Hürriyyet qəsidəsi» bu ruhda yazılan

əsərlərdəndir. Şair «Hürriyyet-Kasidesi»nde yazır: Vücudunun mayası «hak-i vatandıir. Zalımın aqibəti «erbab-ı denaettir», «felekden intikam almaq», vətən yolunda mübarizə aparan şairin şeirlərinin ideyasını bu fikirlər təşkil edir. Şeirləri ilə türk xalqının düşüncəsində inqilab toxumu səpən Namik Kamal «Asiyanın iftixar ağlı ilə Avropanın təzə fikirlərini birləşdirmək» onun əsas amalına çevrilmişdir (1, 30). Mübarizə əzmi onu «meydan adamı», «hər halı və şanı ilə bir lider» olmasını ortaya qoyurdu (2, 44). O «komanda körpüsündə gəmisini təhlükədə görmüş bir kapitan tutumunda», millətini qurtarmaq və yüksəltmək kimi bir vəzefə üçün dünyaya gəlmiş olduğuna dərindən inanırdı (3, 99).

Namik Kamal yaradıcılığının əsas istiqamətlərini vətəndaşlıq lirikası təşkil edir. Şairin lirik qəhrəmanı vətəni sonsuz məhəbbətlə sevən, vətənin azadlığı uğrunda, xalqın acınacaqlı taleyinə ürəkdən yanan, istibdad və zülmə qarşı mübarizə aparan mətn bir türk vətəndaşıdır .

XIX əsrin sonlarında Azərbaycan ədəbiyyatına türk şairlərinin güclü təsiri olmuşdur. Bu ədəbiyyatından bəhrələnən, özlərini türk vətənpərvəri kimi təqdim edən şairlərimiz zaman-zaman təqiblərə məruz qalmış, onlara pantürkist damğası vurulmuş, hətta bu səbəbdən də vətəni tərk etmişlər. Belə ki, XX əsrin əvvəllərində Türkiyədə təhsil almış H.Cavid, Ə,Hüsyenzadə, M.Hadi, A.İldırım kimi şairlər türk təsirini bütün yaradıcılığında qoruyub saxlamışlar. Az vaxtın içində Qafqaz türklərinin dili osmanlı sözləri və istilahları ilə doldu. «işbu», «iştə», «şimdi», «söl», «əfəndim», «bakalım», «nasıl» sözləri qəzet sutunlarını bürüdü» (4, 22-23).

XX əsrin əvvəllərində Azərbaycanın tanınmış mətbu orqanları olan «Həyat», «İrşad», «İqbal» qəzetlərində və «Füyuzat» jurnalının səhifələrində tez-tez Namik Kamalın adı çəkilir və onun əsərlərindən nümunələr çap olunurdu. Şairin 4 bəndlik «Vatan» şeirində vətənpərvərlik ruhu yüksək olması, azərbaycanlı oxucuların da mübarizə əzmini artırırdı.

Namik Kamalın Azərbaycan ədəbiyyatında Mirzə Ələkbər Sabirə böyük təsiri olmuşdur. 1908-ci il Türkiyədə baş verən inqilab Azərbaycan şairlərinin yaradıcılıq mövzusuna çevrildi. Bu inqilabda xalq kütlələrinin iştirakı çox zəif idi. Bu hərəkatın önündə gedən, hələ təzəcə yaranmış olan «gənc türklər» təşkilatına Əbdülhəmid rejimindən yorulan xalq böyük ümidlərlə baxırdı. Əbdülhəmid rejimi xalqa verdiyi vədləri artıq yaddan çıxarmış, öz əsil simalarını nümayiş etdirirdilər. Bu zaman «Molla Nəs-rəddin»in səhifələrində M.Ə.Sabirin aşağıdakı misralarla başlayan şeiri çap olundu.

Osmanlılar, aldanmayın, Allahı sevərsiz!
İranlı kimi yatmayın, Allahı sevərsiz!
Şad olmayın, ey sevgili millət vükələsı,

Osmanlıda carı ola qanunı-əsası. (5, 138)

N.Hikmət yazmışdır. «Sabir yalnız Azərbaycanın deyil, Orta Asiyanın, Yaxın Şərqin ən böyük və görkəmli şairlərindən biridir. Sabiri əslindən oxuüub anlaya bildiyim üçün qəlbimdə sevinc duyuram. 1908-ci il inqilabından əvvəl və sonra Sabir Türkiyədə yalnız tərəqqipərvər ziyalılıar arasında deyil, xalq kütlələri arasında da məhəbbətlə, həyəcanla oxunan bir şair idi. Biz Türkiyənin həqiqi demokratları Sabiri sevirik, Sabiri öz ustadlarımızdan biri hesab edirik» (6, 70-71).

Dünya xalqlarının müqəddəratı Sabiri həmişə düşündürmüş, yaradıcılığında heç vaxt bu mövzudan kənarda qalmamışdır. Türkiyə və Yunanıstan məsələlrindən bəhs edən «Hərçənd, əsirani-qüyudatı-zamaniy», «Yatmayın, Allahı sevərsiz», «Kürd çaldıqca», «Mənimki belə düşdü…» və s. şeirlərini buna nümunə göstərə bilərik.

M.Ə.Sabir bir milləti iki qardaş sayır və onun yaradıcılığında bu strategiya axıra qədər özünü qoruyub saxlamışdır.

1907-ci ildə Namik Kamalın « «Vətən, yaxud silistre» və «Röya» əsəri Tiflisdə «Qeyrət» mətbəəsində çap olunmuşdur. M.Ə.Sabir bu əsəri oxumuş və hər iki əsərin əvvəlində tərcüməçinin yazdığı türk dilindən çevirmə şairi bir qədər təəccürbələndirmişdir. Çünki şair türk dilində yazılmış bir əsərin türk dilinə çevrilməsini gülünc bir tərcümə saymış, o münasibətlə aşağıdakı şeiri yaymışdır.

Osmanlıcadan tərcümə bunu bilməm,
Gercək yazıyor, Gəncəli yainki hənəkdir?
Mümkünmi iki dil bir-birinə tərcümə, amma
Osmanlıcadan tərcümə türkə nə deməkdir? (5, 290)

Bu şeir ilk dəfə 1907-ci il 3 martda Ə.Hüseynzadənin redaktoru olduğu «Fyüzat» jurnalında Bakıda çap olunmuşdur.

«Osmanlıcadan tərcümə türkə» ifadəsi bununla əlaqədar yaranmışdır. Beləliklə, Sabirin «Molla Nəsrəddin» jurnalının 10 mart 1907-ci ildə çapdan çıxan «Amalımız, əfkarımız ifnayi-vətəndir» satirası Namik Kamalın «Vatan şarkısı» şeirinə cavab alaraq yazılmışdır. Artıq 1907-ci ildə N.Kamalın «Vətən şərqisi» Azərbaycan xalqı arasında geniş yayılmışdır.

Namik Kamalın «Vatan şarkısı» şeiri vətənpərvərlik və əzimkarlıq ruhunda yazılmış bir şakıdır. Bu şarkıda qəhrəman Türk xalqının məğrurluğundan və əzmkarlığından söz açılır. Namik Kamalın şeiri ilə Sabirin şeiri arasında çox böyük bir təzad var. Hər iki şairin şeiri əruz vəzninin həcəz bəhrindədir. Namik Kamalın şeiri 4 bənd, Sabirin şeiri 5 bənddir. Hər iki şairin şeirinin son iki misraları bütün bəndlərdə təkrarlanır. Hər iki şeir 5-lik

formasında yazılmışdır, 1 bəndin 3 misrası öz aralarında həmqafiyə, 4-5 misralardakı son sözlər bir-biri ilə tam təkrarlanır.

Amalımız, əfkarımız iqbali-vətəndir,
Sərhədimizə gələ bizim xakı-bədəndir,
Osmanlılarız, ziynətimiz qanlı kəfəndir,
Qovğada şəhadətlə bütün kam alırız biz
Osmanlılarız, can veririz, kam alırız biz. (7, 70-71)

Birinci bəndin 1, 2, 3 misrasındakı vətəndir, bədəndir, kəfəndir bir-biri ilə həmqafiyədir. Son 4-5 misralar isə «kam alırız biz», «kam alırız biz» bütün şarkı boyunca N.Kamalın, Sabirin şerində isə «nam alırız biz», «nam alırıq biz» təkrarlanaraq şeirdə ritm və ahəngdarlıq yaradaraq mübarizəyə çağrış hissini daha da artırır.

Namik Kamalın «Vatan şarkısı» şeirindəki lirik qəhrmanın düşüncəsində, əqidəsində bir məqsəd, amal varsa, o da vətən uğrunda mübarizə aparıb qələbə çalmaq, vətəni azad görmək, onu düşmənlərdən azad etməkdir. Vətən yolunda öz bədənini alınmaz qalaya çevirmək lirik qəhrəmanın ən başlıca məqsədidir. Şeirdə qəhrəmanın «qanlı kəfəni» özünün ziynəti sanması, onun dəyərini, mətinliyini daha da artırır. Döyüşdə mərdliklə vuruşan lirik qəhrəman bu hünərindən kam almasını vüqarla vurğulayır. Hər bəndin sonunda «osmanlılarız» kəlməsinin təkrarlanması lirik qəhrəmanın öz soy kökü ilə fəxr etdiyini, qürur duyduğunu göstərir.

Kan ilə qılıncdır görünen bayrağımızda,
Can korkusu gecmez ovamızda dağımızda.
Her guşede bir sir yatar torpağımızda,
Gavğada şehadetle bütün kam alırız biz,
Osmanlılarız can veriziz kam alırız biz.

Şeirin II bəndinində türk bayrağının qan rəngində olmasını müəllif bu bayrağın qanlar bahasına yüksəlməsini, qılınc gücünə dalğalanmasını göstərərək, heç bir elində, obasında can qorxusunun olmadığını deyir. Lirik qəhrəman vətən torpağının hər qarışında bir şiri-nərin yatdığını deməklə, qəhrəman türk xalqının keçmişindən söz açaraq, bu torpaq uğrunda canlarını qurban vermiş igidləri xatırlayır.

Şarkının III bəndində lirik qəhrəman «osmanlı» adını deməklə, onların döyüşkən bir xalq olduğunu, bu adın qarşısında çoxları lərzəyə düşdüyünü oxucuya xatırladır, əcdadlarının elm-maariflə dünyada tanınması ilə fəxr edir. Lirik qəhrəmanın zaman keçsə də, dövran dəyişsə də, bu qanun yenə də türk Qanı olması ilə fəxr etdiyin görürük.

Namik Kamalın «Vatan şarkısı» şeirinin son bəndində artıq mübarizə aparan qəhrəmanın qələbə atəşlərini eşidirik. Lirik qəhrəmanın qələbə atəşləri ətrafa nur saçır. O, qalib gəlib. Bu qələbə düşmən üzərindədir. Amma yenə də itkilər var. Bu yolda həlak olanlar üçün «cennet qapıları açılıb». Onlar ölümdən qaçmadılar. Ölümün gözünə dik baxdılar. Və bu yolla da ad-aldılar.Türk adını tarixə qəhrəman ad kimi yazdılar.

Bu şeirə Sabirin yazdığı cavabı çox haqlı olaraq Nihad Sami Banarlı «Rəsmli türk ədəbiyyat tarixi»ndə «acı bir nəzirə» adlandırmışdır (8). İndi isə Sabirin sözü gedən nəzirəsinə nəzər salaq.

Amalımız, əfkarımız ifnayi-vətəndir,
Kinü qərəzü hirs bizə ziynəti-təndir.
Əfal yox, ancaq işimiz lafi-dəhəndir,
Dünyadə əsarətlə bütün kam alırıq biz
Qafqazlılarız, yol kəsiriz, nam alırıq biz.

Sabirin bu şeiri «Qabaqda gedən zəncirli» imzası ilə çap edilmişdir.

Namik Kamalın şarkısından fərqli olaraq, Sabirin şeiri satirik əsərlərin məzmununa uyğun olaraq tənqidi ruhda yazılmışdır. Seirdə boş-boş danışmaq, heç bir iş görməməklə ad qazanmaq, yol kəsməklə çörək qazanmaq, vətənin oyanışının mümkün olmayacağı tənqid olunur.

Şeirdə «quldur, qoçularının etdiyi zülmlərin aləmdə məlum olması», «tərəqqidən» əlamətin belə olmamasından şair acı-acı söz açır. Şair təbii ki, millətin oyanmasını, istiqbalım maarifdə, təhsildə görür. Hər bir millət maariflənməklə öz hüquqlarını dərk edə bilər, tərəqqiyə nail ola bilər.

Qəflətdə yatıb, ad batırıb, nam alırız biz,
Qafqazlılarız, yol kəsiriz, nam alırız biz (5, 66-67).

Şair dünya xalqlarının beynəlxalq arenada özünü təsdiqləməsi, hər bir millətin artıq oyanıb elmdə inqilab etməsindən, bizim isə hələ də qəflətdə yatıb, heç bir yenilikdən xəbərsiz olmamıza acı-acı gülərək, oxucunu düşündürür.

Bildiyimiz kimi bu şeir ilk dəfə 10 mart 1907-ci ildə «Molla Nəsrəddin» jurnalında çap olunmuşdur. O dövrdə bu jurnal çar senzurasının nəzarəti altında idi. Jurnalda çap olunan şeirlər əvvəlcədən senzuradan keçib, sonra çapa gedirdi. Bu satirada «qafqazlılarız» ifadəsi, əvvəlcə «azərbaycanlılarız» kimi şair tərəfindən yayılmış, senzuranın qadağasından sonra «qafqazlılarız» sözü ilə əvəz olunmuşdur.

Bütövlükdə «Amalımız, əfkarımız ifnayi-vətəndir» şeiri ümumiləşmiş vətənimizin və xalqımızın milli dirçəlişi ilə əlaqədar əsas məqsədləri özündə cəmləşdirir. Şair xalqın, vətənin – Azərbaycanın problemlərini ön mövqeyə

çəkir. Bu şeirdə Sabir sənəti özünün ən yüksək qayəsini tapmışdır. Bu şeir müasirlik baxımından da güclü təsirə malikdir

Ədəbiyyat

1.Hamide T.A. XIX asir Türk edebiyatı tarihi. İstanbul,1985
2.Kabakle A. Türk edebiyatı. 3 c., İstanbul, 1990
3.Hüseynli T. («Namik Kamal və M.Ə.Sabir. Dil və ədəbiyyat. (nəzəri, elmi, metodik jurnal) ,1999, № 4/22
4.Köçərli K. «Ana dili». «Molla Nəsrəddin» jurnalı, Bakı,1913, № 22
5.Mirzə Ələkbər S. Hopropnamə. Bakı: Yazıçı,1992.
6.Nazim H. Seçilmiş əsərləri. Dünya ədəbiyyatı kitabxanası. Bakı, Tutu nəşriyyatı, 2010
7.Kenan A. Batı tesirinde türk şiiri Antolojisi. Ankara, 1970.
8.Banarlı N. Resmli türk edebiyatı tarihi. 2 c., İstanbul,1987.

С. Рзаева

Решительный образ турецкого народа в стихе «песнь народа» Намика Камала

Резюме

Известная личность турецкой литературы XX-го века Намик Камал сумел обозначить своё место в истории художественной мысли.Он являлся талантливым поэтом,драматургом,писателем и одновременно выдающимся политическим деятелем своего времени.-Намик Камал преподнёс в турецкую литературу поэзию в европейском стиле, новое дыхание своими драматическими произведениями, созывающими народ к борьбе,он являлся создателем и основателем нового типа литературы-литературы-танзимат.

В Азербайджанской литературе Намик Камал оказал большое влияние на творчество Мирзы Алекбера Сабира.Турецкая революция 1908-го года превратилась в источник творческих идей для азербайджанских поэтов.Участие народных масс было очень слабым в этой революции.Народ уставший от режима Абдулгамида возлагал большие надежды на идущих во главе этого движения только что появившихся «молодых турков».Режим Абдулгамида уже позабыл данные народу обещания и тем самым показал своё истинное лицо.

S.Rzayeva

The resolute image of Turkish people in the poem ``Vatan sarkisi`` by Namik Kamal

Summary

One of the well-known figures of ninetenth century turkish literature Namik Kamal has a specipic place in the history of literary thought. He was a talented poet, playwright, author and prominent political figure. Namik Kamal brought a new spirit to turkish literature with his european style poems, plays calling people for fighting and became the founder of literature of Tanzimat period.

Namik Kamal had a great influence on Mirza Alakbar Sabir in azerbaijani literature. The revolution of 1908 in Turkey became the creative source for azerbaijani poets. However, the participation of people in this revolution was very passive. People who tired of the regime of Abdulhamid had great expectations from newly founded, leading movement ``Young Turks``. By displaying their real faces the regime of Abdulhamid had already forgotten their promises given to people.

Rəyçi: Məmməd Əliyev
Filologiya elmləri doktoru, professor

SURA PƏNAHLI
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Tibb Universiteti, Bakı, Azərbaycan
sara-1983@mail.ru

ƏDƏBİYYATIMIZDA MULTIKULTURALIZM ƏNƏNƏSİ

Açar sözlər: multikulturalizm, mədəniyyət, inteqrasiya, humanizm, ədəbiyyat
Keywords: multiculturalism, culture, integration, humanism, literature
Ключевые слова: мультикультурализм, культура, интеграция, гуманизм, литература

İnsan cəmiyyəti ən qədim zamanlardan qapalı şəkildə yaşamağın deyil, müxtəlif xalqlarla ünsiyyət yaratmağın zərurətini hiss etmişdir. Beləliklə, dünyada xalqların dinc yanaşı yaşaması üçün düşünülmüş addımlar atılmış, müxtəlif mədəniyyətlərin dialoqu meydana çıxmışdır. Həmin dialoq əsrlər boyu xalqların dostluq, qonşuluq və hətta qohumluq əlaqələrinə qapı açmışdır. Nəticədə ölkələr və xalqlar arasında etibarlı münasibətlər formalaşmışdır. Eyni proses ölkələrin daxilində yaşayan müxtəlif xalqların qarşılıqlı münasibətlərinin formalaşdırılması prosesi üçün də əhəmiyyətlidir. Yəni, eyni ölkəni təmsil edən ayrı-ayrı xalqların və ya etnik qrupların mədəniyyətlərinə hörmət bəsləmək və dinlərarası münasibətlərə tolerant düşüncə ilə yanaşmaq nəticə etibarilə vahid siyasi-inzibati coğrafiyanı təmsil edən tərəflərin hamısı üçün faydalıdır [4, 37-38]. Beləliklə, bəşəriyyət "multikulturalizm" sözünü icad etməsə də, hələ qədim zamanlardan multikultural həyat tərzini əhəmiyyətli sayaraq bu yola üstünlük verilməsinin zəruriliyini dərk etmişdir. Multikultural münasibətləri formalaşdıra bilməyən, cəmiyyəti tarazlaşdırmaqda yanlışlıqlara yol verən, birtərəfli münasibət bəsləyən ölkələrdə isə yerli əhali də, qonşu xalqlar da ən müxtəlif səviyyələrdə böhranlarla üzləşmiş, əzab-əziyyətlə qarşılaşmalı olmuşlar. Bütün bunlara görə multikulturalizm xalqların və ölkələrin birgəyaşayışının və davamlı inkişafının, dinc və yanaşı fəaliyyətinin hərəkətverici qüvvəsinə çevrilmişdir. Bu baxımdan ədəbiyyatlarda multikulturalizmə bir neçə formada anlayış verilir:

- ✓ **Multikulturalizm** - müxtəlif xalqların vahid cəmiyyətdə birgəyaşayışı və həmrəyliyi modelidir.
- ✓ **Multikulturalizm** - müxtəlif mədəniyyətlərin qarşılıqlı etimada əsaslanan dialoqudur.
- ✓ **Multikulturalizm** - dinlərarası münasibətlərdə tolerantlıq nümunəsi göstərmək deməkdir.

✓ **Multikulturalizm** - ölkənin siyasi-mənəvi zənginliyinin əsas göstəricilərindən biridir [6].

Azərbaycanda multikultural həyat tərzinin qədim tarixi və böyük ənənələri var.Dahi şair və böyük mütəfəkkir Nizami Gəncəvinin (1141-1209) məşhur "Yeddi gözəl" poeması multikultural ideyalar əsasında yazılmış möhtəşəm sənət nümunəsidir. Əsərdə Çin qızının, Slavyan gözəlinin, Rum qızının, Hind, Xarəzm, Məğrib (Qərb) gözəlinin dilindən deyilmiş hekayətlər də ayrı-ayrı xalqların taleyinin ən maraqlı anları, ibrətamiz hadisələri sanki Azərbaycan nağıllarında olduğu kimi təqdim olunur. Nizami Gəncəvinin "Yeddi gözəl" poeması multikultural dəyərlərin insanın və cəmiyyətin mənəvi zənginliyindəki rolunu, yerini və əhəmiyyətini parlaq şəkildə nümayiş etdirir. "Yeddi gözəl" - müxtəlif xalqların mədəniyyətlərinə hörmət və ehtiramın böyük poeziya çələngidir. Bu əsərdə milli mənsubiyyətindən və dini inancından asılı olmayaraq, ümumiyyətlə insana dərin ehtiram duyğuları ifadə olunmuşdur. İnsanı hər şeydən uca tutmaq ideyası Şərq intibah mədəniyyətinin ən mühüm çağırışıdır.

Humanizmin böyük carçısı Nizami Gəncəvi Şərq intibah ədəbiyyatının qüdrətli yaradıcılarındandır. Nizami Gəncəvi ilə yanaşı Şota Rustaveli, Əfzələddin Xaqani, Əbülqasim Firdovsi, Sədi Şirazi, Mövlana Cəlaləddin Rumi, Əmir Xosrov Dəhləvi, Əbdürrəhman Cami, Əlişir Nəvai, Əcəmi Naxçıvani, İbn Sina, Fərabi, Bəhməniyar, Əbdülqadir Marağayi və başqaları Şərqdə intibah mədəniyyətinin yaranmasında və inkişafında böyük xidmətlər göstərmiş görkəmli simalardır [Abdullayev, 2014, 6]. Orta əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi İmadəddin Nəsimi (1369-1417) sözün böyük mənasında insanı və insanlığı tərənnüm etmişdir. Həmin dövrdə Şərq ölkələrində, o cümlədən Azərbaycan ədəbiyyatında insanın mənəvi zənginliyi və kamilliyi əsasən məhəbbət motivləri üzərində qurulmuşdur. Məhəmməd Füzuli (1494-1556) məşhur "Leyli və Məcnun" poeması ilə Şərqin ən böyük məhəbbət dastanlarından birini yaratmışdır. Məhəmməd Füzuliyə görə, insanın sədaqəti və sevgisi onun mənəvi varlığının əsasını təşkil edir. Füzuli insana və zamana münasibətini "aşiqanə" dillə ifadə etmişdir. Şairin "aşiqanə" qəzəlləri geniş mənada insana məhəbbət şeirləridir. Qərb Renessans ədəbiyyatında sonet janrında yazılmış şeirlərin daşıdığı funksiyanı Şərq poeziyasında qəzəl yerinə yetirmişdir. "Leyli və Məcnun" poeması Şərqin "Romeo və Cülyetta"sı olduğu kimi, qəzəl də türk-müsəlman dünyasının sonetidir. Böyük demokrat yazıçı Cəlil Məmmədquluzadənin (1869-1932) əsərlərində ifadə olunan humanizm həmin dövrdə cəmiyyətdəki ictimai-mənəvi münasibətlərin aparıcı istiqaməti kimi qiymətləndirilməyə layiqdir. Ədibin "Kamança" pyesində humanizm yalnız qonşuluq münasibətlərinin deyil, bütövlükdə insanlığın ən vacib keyfiyyətlərindən biri səviyyəsində təqdim olunmuşdur.

Görkəmli Azərbaycan dramaturqu Cəfər Cabbarlının (1899-1934), xalq şairi Səməd Vurğunun (1906-1956), xalq yazıçısı Mirzə İbrahimovun (1911-1993) əsərlərindəki Şərq və ya Qərb kontekstindəki xalqlar dostluğu ideyası qarşılıqlı insan münasibətlərinin real bədii ifadəsidir. Yazıçıların insani münasibətlərdə dostluğu və birgəyaşayışı qorumaq və daha da möhkəmləndirmək ideyaları böyük ədəbiyyatın əsas çağırışlarından biridir [2, 2]. Təəssüf ki, dünyanın ayrı-ayrı ölkələrində multikulturalizmə münasibətdə ikili standartlar əsasında yanaşmalar mövcuddur. Bir sıra ölkələrdə müşahidə olunan dini və milli ayrı-seçkilik cəmiyyətdə qarşıdurmalara, hətta terrorizmə şərait yaratmışdır. Bundan isə təkcə həmin ölkələr yox, digər xalqlar da əziyyət çəkməli olurlar. Bir çox hallarda belə acı aqibətə malik olan hadisələrin açıq və ya örtülü şəkildə dəstəklənməsi də qəbuledilməzdir. Təəssüf ki, həmin ölkələrdə yaranan ədəbiyyatın da qarşıdurmalara və ayrı-seçkiliklərə etiraz sədaları eşidilmir. Hələ ki baş verən qanlı terror hadisələrinin, müharibələrin, qarşıdurmaların mahiyyətini açan, köklərini və səbəblərini əks etdirən, doğurduğu real faciələri insanların taleyində dərindən ifadə edən böyük ədəbiyyatın reaksiyası zəif görünür. Antimultikultural mühit ikili siyasətdə, fərqli münasibətlərdə aşkar müşahidə olursa da, ədəbiyyat və incəsənət əsərlərində bu dalğanın əks-sədası ümumdünya miqyasına çıxacaq səviyyədə deyil. Terrorizmin, əzablı yollardan keçən miqrasiya axınlarının, qarşıdurmaların hərbi-siyasi, ictimai-iqtisadi, sosioloji-kultural dərinliklərini tam mənası ilə əks etdirib ümumiləşdirən, bu böyük fəlakətdən bəşəriyyəti xilas etməyin proqnozlarını verən elmi əsərlərə də ciddi ehtiyac var. Bundan başqa, zaman multikulturalizm və tolerantlığın cəmiyyətdəki əhəmiyyətini, üstünlüklərini real şəkildə açıb göstərən elmi və bədii əsərləri də meydana çıxarmalıdır. Həmrəyliyə və dialoqa çağırış böyük ədəbiyyatın da, müasir elmin də ən mühüm vəzifələrindəndir [5, 129]. Hazırda Azərbaycan cəmiyyətində müxtəlif xalqların nümayəndələrinin vahid ailədə dinc və yanaşı yaşayıb işləmələri ölkəmizin əsas mənəvi sərvətlərindən biridir. Azərbaycandakı möhkəm multikultural əsaslara malik olan tolerant mühit müasir inkişafın əsas göstəricilərindəndir. İlk dəfə olaraq 1971-ci ildə Kanada öz daxilindəki etno-mədəni müxtəlifliyi qorumaq və uğurla idarə etmək məqsədi ilə rəsmi şəkildə alternativ bir siyasi xətt elan etdi. Kanada rəsmən "Multikulturalizm" siyasətini dövlət siyasəti elan edərək, bununla bağlı hüquqi bazanı formalaşdırmağa başladı. Daha sonralar isə digər Qərb dövlətləri də bu uğurlu siyasət modelini öz ölkələrində tətbiq etməyə başladılar.Multikulturalizm sözün hərfi mənasında "çoxmədəniyyətlilik" anlamına gəlir. Multikulturalizm siyasəti dedikdə isə bir dövlətin sərhədləri çərçivəsində müxtəlif mədəniyyətlərin qorunması, inkişafı və təbliğinə yönəlmiş humanist və demokratik dövlət siyasəti nəzərdə tutulur.

Çoxmədəniyyətli cəmiyyət dövlətin multikulturalizm siyasəti olmadan mövcud ola bilərmi? Multikulturalizm fəlsəfəsinin əsaslandığı 7 mühüm prinsip olmadan sadəcə etnik müxtəlifliyi multikulturalizm adlandırmaq mümkün deyil. Bu prinsiplər aşağıdakılardır:

- Etno-mədəni müxtəlifliyin mövcudluğu prinsipi: Bu prinsip bir dövlətin daxilində müxtəlif mədəniyyətin daşıyıcıları olan milli azlıqların və eyni zamanda müxtəlif dini konfessiyaların mövcudluğu mənasını verir. Multikulturalizm siyasətini həyata keçirən dövlətlər bu cür müxtəlifliyi özünə qarşı təhlükə kimi görmür. Əksinə, cəmiyyətin zənginliyi kimi qəbul edərək həmin xalqların öz mədəniyyətlərini qorumaları üçün dəstək göstərir.
- Mədəni indentiklik hüququ: Bu prinsip hər bir kəsin və ya qrupun öz mədəni identikliyini və ya xarakterini qoruyub saxlamaq hüququ olduğunu qeyd edir. Ancaq unutmaq lazım deyil ki, bu, vəzifə yox, sadəcə hüquqdur. Heç bir kəs məcburi şəkildə bir qrupa daxil edilə bilməz və ya hər hansısa bir mədəni qrupa üzvlüyünə görə alçaldıla bilməz.
- Mədəni bərabərlik və qarşılıqlı dözümlülük prinsipi: Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, bütün etno-mədəni qruplar bərabərdir və yalnız qarşılıqlı hörmət və dözümlülük şəraitində mövcud ola bilərlər. Etnik mənşə identikliyi vətəndaşlıq identikliyindən sonra gəlməlidir. Beləliklə, ierarxik ikili identiklik mövcud olur. Buna ən gözəl nümunə Azərbaycan və ya Kanadanı misal göstərmək olar. Bütün milli azlıqlar ilk öncə azərbaycanlıdır, daha sonra ləzgi, avar, tatdır və s.
- Etno-mədəni qruplar arası əlaqə prinsipi: Hər bir etno-mədəni və dini qrup və ya onun hər bir nümayəndəsi digər qruplarla və ya nümayəndələri ilə təhlükəsiz və sərbəst ünsiyyət qura bilməlidir. Eyni cəmiyyətdə mövcud olan hər bir kəs digər qruplara qarşı açıq fikirli olmalıdır.
- Bərabər imkanlara sahib olmaq hüququ: Azərbaycan multikulturalizminin ən mühüm özəlliklərindən biri də onun sosial-liberal ikili təbiətə malik olmaqla ikili fundamental hüququ özündə birləşdirməsidir. Liberal hüquq olan mədəni müxtəliflik hüququnun sosial hüquq olan bərabər imkanlara sahib olma hüququna əsaslanması Azərbaycan cəmiyyətindəki müxtəlifliyi qorumağa və icmalararası sosial ədalətsizliyi aradan qaldırmağa yönəlmişdir.
- Siyasi idarə prinsipinin mövcudluğu: Multikulturalizm və ya multikultural cəmiyyət özü təkbaşına inkişaf edə bilməz. Bunun üçün siyasi idarəetmə və dövlət dəstəyinin mövcudluğu mütləqdir.
- Müxtəliflikdə mövcud olan təklik prinsipi: Hər bir milli azlıq və ya etnik qrup öz mədəniyyətinin yalnız ümumi mədəniyyətə ziyan vurmayan hissəsini qoruya bilər. Bəzən bu prinsipə, mədəniyyətin selektiv qorunması deyilir [5, 131-132]. Tarixi inkişafdan keçərək formalaşmış çoxmədəniyyətli bir cəmiyyətin mövcudluğu və bu cəmiyyəti qoruyub saxlamaq üçün

dövlətin siyasi iradəsinin mövcud olması əslində multikultiralizmin mövcud olmasına əsas verir. Ancaq bu siyasəti qoruyub saxlamaq üçün qanunvericilik bazası təkmilləşdirilməli və multikulturalizm siyasətinin hüquqi bazası formalaşdırılmalıdır. Buna misal olaraq, 1988-ci ildə Kanada "Multikulturalizm qanunu"nu qəbul etdi. Azərbaycan Respublikası ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra həyata keçirdiyi siyasət nəticəsində özünün mədəni müxtəlifliyini qorumaq üçün milli azlıqlar və dini qruplarla bağlı çoxlu sayda normativ hüquqi aktlar qəbul olundu. Ümummilli lider Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğunun əsasını qoydu və apardığı islahatlarla ölkədə tarixən mövcud olan etnik-mədəni, dini müxtəlifliyin tolerant əsaslarının möhkəmlənməsini təmin etdi. 1994-cü il sentyabrın 29-da BMT Baş Məclisinin sessiyasındakı çıxışında ümummilli lider Heydər Əliyev demişdir: "Respublikamızda artıq çoxpartiyalı sistem mövcuddur, siyasi plüralizm, şəxsiyyət, söz, mətbuat, vicdan azadlıqları, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi prinsipləri möhkəm bərqərar olmuşdur. Dərisinin rəngindən, din və dil mənsubiyyətindən asılı olmayaraq, çoxmillətli Azərbaycanın bütün vətəndaşları bərabər hüquqlardan istifadə edirlər. Qarşımızda duran ən mühüm vəzifə konstitusiyanın əsas prinsiplərini dərindən mənimsəmək, respublika həyatına tətbiq etmək və onun verdiyi təminatları reallaşdırmaqdan ibarətdir" [5, 147]. Ulu öndərin rəhbərliyi ilə hazırlanan və 12 noyabr 1995-ci ildə referendum yolu ilə, demokratik tərzdə ümumxalq müzakirəsinə çıxarılmaqla qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında da multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq prinsipləri aydın şəkildə təsbit edilmişdir. Dövlət müstəqilliyi haqqında Konstitusiya aktında Azərbaycan Respublikası Ümumdünya İnsan Hüquqları Bəyannaməsini tanıdığını bəyan etdi. Azərbaycan BMT-nin qəbul etdiyi aktlara, habelə Uşaq Hüquqları Konvensiyasına qoşuldu. Heydər Əliyevin 22 fevral 1998-ci il tarixində imzaladığı "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı və 18 iyun 1998-ci il tarixli " İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" Sərəncamı insan hüquqları sahəsində ən mühüm sənədlərdəndir və bu, mütəxəssislər tərəfindən həmin sahədə ilk strateji sənəd kimi dəyərləndirilir [6, 296-297].

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev öz çıxışlarında daima vurğulayır ki, multikulturalizm Azərbaycanda həyat tərzidir, dövlət siyasətidir və alternativi yoxdur. Hər hansısa qanuni, siyasi quruluşu və ya idarəetmə formasını bir aya, bir ilə və ya bir neçə ilə dəyişmək mümkündür. Ancaq hər hansı bir xalqın mədəniyyətini yüz illər keçsə də dəyişmək mümkün deyil. "İnklüziv cəmiyyətlərdə birgəyaşama: çağırış və məqsəd devizi altında BMT-nin Sivilizasiyalar Alyansının VII

Qlobal Forumu dünya miqyasında terrorizm təhlükəsi, Avropada kəskinləşən miqrasiya böhranı və cəmiyyətlərdə dözümsüzlüyün artması mühitində keçirildi. Dünyanın 140-dan çox ölkəsinin nümayəndələri planetin müxtəlif regionlarında etnik və dini zəmində baş verən qarşıdurma və toqquşmalar kimi mürəkkəb problemlərin həllinə dair vahid fikrə gəlmək üçün geniş müzakirələr apardılar və konstruktiv dialoqun inkişafına xidmət edəcək təkliflər səsləndirdilər. Çıxışlarda qaldırılan təşəbbüslər, tövsiyələr mədəniyyətlər, sivilzasiyalar arasında əməkdaşlığa, əlaqələrin güclənməsinə, qarşılıqlı anlaşmaya öz böyük töhfəsini verdi [6, 301]. Azərbaycanın əsrlər boyu dinlər, mədəniyyətlər və sivilizasiyaların bir araya gəldiyi məkan olduğunu vurğulayan cənab İlham Əliyev bildirdi ki, Azərbaycan Şərq və Qərb arasında yalnız coğrafi körpü deyil, həm də mədəniyyət körpüsüdür: "Əsrlər boyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri Azərbaycanda sülh şəraitində və ləyaqətlə yaşayıblar. Dini dözümlülük və multikulturalizm burada hər zaman mövcud olmuşdur. "Multikulturalizm" sözü mövcud olmadığı bir zamanda belə, həmin ideyalar daim yaşayıb. Bunun nəticəsidir ki, bu gün Azərbaycan çox millətli və çoxkonfessiyalı ölkədir. Burada bütün dinlərin və etnik qrupların nümayəndələri sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Bu bizim ən böyük sərvətimizdir və biz tariximizlə fəxr edirik. Biz müxtəlif mədəniyyətləri özündə əks etdirən tarixi abidələrimizlə fəxr edirik. Dünyanın ən qədim məscidlərindən biri Azərbaycanın qədim şəhəri olan Şamaxıda 743-cü ildə inşa edilmişdir. Bununla yanaşı, ən qədim kilsələrdən biri — qədim Qafqaz Albaniyası dövrünə aid kilsə də məhz Azərbaycanda, daha bir qədim şəhər olan Şəkinin yaxınlığında yerləşir. Hökumətimiz məscidlərin, pravoslav və katolik kilsələrinin, habelə sinaqoqların inşası və təmirinə maliyyə vəsaiti ayırır. Bu, bizim siyasətimiz və həyat tərzimizdir. Əsrlər boyu Azərbaycan ölkəmizdə mövcud olan siyasi və sosial vəziyyətə baxmayaraq, bu sərvəti qoruyub saxlamışdır".Bütün bunlara görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev haqlı olaraq multikulturalizmi ölkəmizdə "normal həyat tərzi" kimi yüksək qiymətləndirir və həmin istiqamətdə inkişafa dövlət səviyyəsində böyük dəstək verir. Əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş azərbaycançılıq ideologiyası özündə ölkədəki bütün xalqların və etnik qrupların birliyini və həmrəyliyini ehtiva edir. Görkəmli dövlət xadimi Heydər Əliyevin "Hamımızın bir vətəni var. Bu, Azərbaycandır" təlimi ölkəmizdə birlik və həmrəyliyin, millətlərarası münasibətlərin əsasında dayanır. Ölkədə yaşayan bütün xalqları onların hamısının eyni dərəcədə inandığı və hörmət etdiyi vahid ideologiya - azərbaycançılıq ideologiyası ətrafında birləşdirmək müstəqil Azərbaycan dövlətinin mühüm nailiyyətidir. Bu müdrik siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən yaradıcılıqla və

ardıcıllıqla davam etdirilir. Prezident İlham Əliyevin 2016-cı ili "Multikulturalizm ili" elan etməsi və il ərzində bu istiqamətdə həyata keçirilən məqsədyönlü siyasi-ideoloji və ədəbi-mədəni tədbirlər Azərbaycan Respublikasında multikultural dəyərlərin daha da inkişaf etdirilməsinə və tolerantlıq mühitinin möhkəmləndirilməsinə xidmət edir. Müasir dövrdə Azərbaycan Respublikası dünyada mədəniyyətlər və dinlərarası münasibətlərin dialoquna və harmoniyasına ən bariz nümunədir. Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalararası Alyansının VII Qlobal Forumunun 29-30 aprel 2016-cı il tarixdə Bakı şəhərində keçirilməsi Azərbaycan Respublikasının həmin istiqamətdə dünyadakı ən örnək dövlətlərdən biri olduğunu təsdiq edir.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev K. Ulu öndər Azərbaycan multikulturalizminin siyasi banisidir /Kamal Abdullayev //Azərbaycan.- 2014.- 23 iyul.- S.7.
2. Abdullayev K. Azərbaycanda multikultural təhlükəsizlik prinsipləri /Kamal Abdullayev //Yeni Azərbaycan.- 2015.- 24 iyun.- S. 4.
3. Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları/elmi red. Abdulla Kamal; tərt.: M.Nağısoylu, F.Ələkbərli, Ə.Bağırov, İ.Quliyev; rəy. T.Kərimli, N.Qasımzadə.- Bakı: BBMM, 2016.- Kitab I.- 288 s.- (Azərbaycan multikulturalizminin qaynaqları seriyası).
4. Azərbaycanda ənənəvi din /A.Şirinov [və b]; red. N.Məmmədov; elmi red. A.Şirinov; ön söz müəl. M.Qurbanlı; Azərbaycan Respublikası Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi.- Bakı: Elm və təhsil, 2014.- 442 s.
5. Heydər Əliyev siyasəti: Tolerantlıq: çıxışlar, nitqlər, görüşlər, təbriklər [Azərb. Resp. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi]; ön söz M.Qurbanlı; burax. məsul S.Salahlı (Aran).-Bakı: Elm və təhsil, 2015.- 502 s.
6. Niftiyev N. Azərbaycanda birgəyaşayış və multikulturalizm /N.Niftiyev; ön söz E.Nəsirov; elmi red. İ.Abbasov; [Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi].- Bakı: [s. n.], 2015.- 407 s.

С.Панахлы

Традиции мультикультурализма в нашей литературе

РЕЗЮМЕ

Мультикультурализм один из аспектов толерантности, заключающийся в требовании параллельного существования культур в целях их взаимного проникновения, обогащения и развития в общечеловеческом русле массовой культуры. Идея мультикультурализма выдвигается главным образом в экономически развитых странах Запада, где наблюдается значительный приток иммигрантов. В современной Европе мультикультурализм предполагает прежде всего включение в её

культурное поле элементов культур иммигрантов из стран «третьего мира».Многовековая азербайджанская литература всегда способствовала человечеству, уважению к сосуществованию. Это основана на диалоге и солидарности с балансом в обществе. Все это, в свою очередь, укрепило человеческие критерии наряду с национальными ценностями в азербайджанской литературе. Это, в свою очередь, уравновешивало человеческие и временные отношения и создавало условия для того, чтобы многообразие народов могло жить в единстве и солидарности в одной и той же географии, жить в взаимном доверии и служить для дальнейшего развития. Поэтому одним из основных источников мультикультурализма в Азербайджане является литература. Итак, мы попытались расширить наши знания в этом вопросе и исследовали эту проблему в литературе.

S.Panakhli

Multiculturalism tradition in our literature

Summary

Multiculturalism is one of the aspects of tolerance, which consists in demanding the parallel existence of cultures for the purpose of their mutual penetration, enrichment and development in the universal human channel of mass culture. The idea of multiculturalism is put forward mainly in the economically developed countries of the West, where there is a significant influx of immigrants. In modern Europe, multiculturalism presupposes, first of all, the inclusion in its cultural field of the elements of cultures of immigrants from the countries of the "third world". Centuries-old Azerbaijani literature has always promoted humanity, respect for co-existence. It is based on dialogue and solidarity with balance in society. All this, in turn, has strengthened human criteria, along with national values in the literature of Azerbaijan. This, in its turn, balanced human and time relations and created the conditions for the diversity of peoples to live in unity and solidarity in the same geography, to live in mutual trust, and to serve for further development. Therefore, one of the main sources of multiculturalism in Azerbaijan is literature. So, we tried to enlarge our knowledge in this issue and investigated this problem in literature.

Rəyçi: Nərmin Əliyeva
filologiya elmləri doktoru, dosent

HUMAY MƏRDANLI
Sumqayıt Dövlət Universiteti
Xarici Dillər kafedrası
merdanlı77@mail.ru

ŞEYX QALİB YARADICILIĞINDA MƏNA GÖZƏLLİYİ

Açar sözlər: Füzuli, XVI əsr, XVIII əsr, Şeyx Qalib, "Leyli və Məcnun" "Hüsn və Eşq"
Key words: Fuzuli, XVI, XVIII century, Sheikh Galib, "Leyli and Mejnun", Image and Love"(Khusn ve eshg)
ключевые слова: Фузули, XVI, XVIII века, Шейхом Галибом, "Лейди и Меджнун", "Лик и Любовь"(Хусн ве Эшг),

XVIII əsr türk təsəvvüf şeirinin inkişafında özünəməxsus yeri olan sənətkarlardan biri də Şeyx Qalib (1757-1799) olmuşdur. Osmanlı dönəminin son böyük şairi olan Şeyx Qalib Azərbaycan ədəbiyyatında az tanınmış sənətkarlardan biridir. Onun haqqında ədəbiyyatımızda ilk dəfə M.Quluzadə "Füzulinin lirikası" (1965) adlı monoqrafiyasında məlumat vermiş və Şeyx Qalibin "Hüsn və Eşq" əsərini Füzulinin "Leyli və Məcnun" əsərinin təsiri ilə yazıldığını göstərmişdir.. Daha sonra bu böyük sənətkar haqqında A.Abıyev Türkiyə ədəbiyyatı tarixi (2005) kitabında məlumat vermiş, onun türk ədəbiyyatındakı təsəvvüf şairi kimi rolundan söz açmışdır. X.Hümmətova isə həm şairin "Hüsn və Eşq" məsnəvisi, həm də qəzəllərinin təhlili ilə bağlı məqalələr çap etdirmişdir.

Şeyx Qalibni söz, şeir haqqında özünəməxsus müddəaları var, o, mənaca bir-birinə bağlı olan sözləri bir araya gətirmək, onlara lirik don geydirməyi şübhəsiz ki, hünər sayır, amma belə işlərlə, yəni sözləri bir-birinin yanına düzməklə məşhür şair olmaq olmaz deyir. Sənətkar şair "Hüsn və Eşq" əsərində "Sözün varlığı haqqında ilk bəhs" bölümündə göstərir ki, əgər şeir deməyə, söz söyləməyə şairin qüdrəti varsa, bu qüdrətin sahibi də "O"dur. Sözə feyz verən də Allahdır. Şair sözün gözəlini söyləmək, onlarda məna yaratmaq, sözün dəyərini artırmaq kimi məsələlərə böyük dəyər verirdi. Sənətkarın sözə verdiyi dəyər Füzulinin söz haqqında yazdığı məşhur qəzəli ilə üst-üstə düşür.

Füzuli deyirdi:

Xəlqə ağzın sirrini hər dəm qılır izharı söz,
Ol nə sirdir kim olur, hər ləhzə yoxdan varı söz.

Artıran söz qədrini sidq ilə, qədrin artırır,
Kim nə miqdar olsa, əhlin eylə ol miqdarı söz.

Ver sözə ehya ki, ttutduqda səni xabi-əcəl,
Edə hər saət səni ol uyqudan bidaqı söz. (2, 78)
Qalib isə deyirdi:
Məqturə ki müqtədir gərəkdir,
Söyləməyə söylətir gərəkdir.

Feyyazi süxən Cənabi-Haqdır,
İnsan bu ətaya müstəhaqdır. (1, 50)

Hər iki sənətkar sözün haqq dərgahından gəldiyini, Allahın izni olmadan gözəl söz söyləməyin mümkün olmadığınnı vurğulayır. Şair bəzən bədahətdən söylənilən şeirləri, ilhamsız deyilən sözləri qəbul etmir, hamının eşidib bildiyi fikir və ifadələrlə şeir söyləməyi hünər saymır.

Nush etsə əgər budur məzakı,
Dünya fani, axirət baqi.
Olsa nə qədər xarabi mağşuş,
Yoxdur bunu eşitməmiş quş.

Çox az bir ömür sürən Şeyx Qalib bir müddət üçüncü Sultan Səlimin sarayında çalışmış, Osmanlı sarayının gözəl xanımlarından olan Beyhan Sultan ilə aralarında bir " hüsn eşq macərası " yaşamışdır. (3, 320) Şairin şeir ilhamını coşduran səbəblərdən biri də böyük bir eşq macərası yaşaması səbəb olmuşdur.

Yenə zevraki dərununim qırılıb kənara düşdü,
Dayanırmı şişədir bu rehi sengi sarə düşdü.

O zaman ki, bezmi- canda bölüşüldü kalei kam,
Bizə hissi məhəbbət dili parə-parə düşdü.

Rəhi Mövləvidə Qalib bu sifatla qaldı heyran,
Kimi tərki namü şanə, kimi etibarə düşdü.

Şeyx Qalib əruzun prinsiplərini gözəl bilmiş, ancaq heca vəznində də yazdığı şeirlər də olmuşdur. Onun xalq dilinin əzbəri olmuş bu şeiri hamı tərəfindən sevilə-sevilə oxunmaqdadır.

Hasili aləm bilir bu sirri inkar eyləməm,
Gizləsəm də , aşikar etsəm də canımsan mənim.

Və ya

Gerçi sənsən hər kəsin könlündə cövlan eyləyən,
Hanki aşiqdir sənin könlündə könlün kimdədir.

Şeyx Qalibin yaradıcılığında əsas yeri "Hüsn və Eşq " məsnəvisi tutur. O, bu əsəri yazmazdan əvvəl özündən öncə yazıb-yaratmış sənətkarların da əsərlərində bəhrələnmiş, yeri gəldikcə onların məhəbbətlə yad etmişdir. Şair məsnəvidə Nizaminin, Xaqaninin, Nəvainin və Füzulinin adını çəkərək qeyd edir ki, Füzuli Nəvaidən bəhrələnmiş, onu yaradıcılığına yaxından bələd olduğunu vurğulamışdır.

Bülmüş süxəni büləndi-namı
Firdovsiyü Xosrovu Nizami,
Ayini Nəvaidə Füzuli,
Bulmuş süxənə rəhi-vüsuli. (1,176)

Əsərin başqa bir yerində şair Mövlanı yad etdərək deyir:

Əsrarımı Məsnəvidən aldım,
Çaldımsa da mehri- malı çaldım.

Şairin bu fikirləri əsərin hansı mənbədən qaynaqlandığını göstərir. Müəllif "Hüsn və Eşq"in məhəbbətini "Leyli və Məcnun"un məhəbbəti ilə müqayisə edirək deyir: ;

Kim gövhəri Hüsnə talibəm mən,
Qovğayi tələbdə qalibam mən.

M.Füzülinin "Leyli və Məcnun" əsərində isə şairin ifadələri belədir:

Təmiri xaraba talibam mən,
İnşallah ki, qalibam mən.

Məlum bir həqiqətdir ki, ərəb dastanı olan "Leyli və Məcnun"da əhvalatlar ərəb qəbiləsində baş verdiyi kimi, "Hüsn və Eşq" məsnəvisində də bütün əhvalatlar ərəb qəbiləsində baş verir. Füzuli də dastanın süjetini olduğu kimi saxlayaraq , əsərdəki əhvalatların ərəb qəbiləsi arasında baş verməsi ilə başlayır. Nağılvarı bir başlanğıcla başlayan hər iki əsərdə demək olar ki ,əhvalatlar eynidir. Amma Füzulidən fərqli olaraq Şeyx Qalib simvolik obrazlara daha üstünlük vermiş, əsərini rəmz və simvollar üzərində qurmuşdur. Hər iki əsər əruz vəzninin həcəz bəhrində yazılmışdır. Şeyx Qalibin "Hüsn və Eşq" əsərində əhvalatların baş verdiyi qəbilənin adı Beni Məhəbbət adlanır. Məhəbbət qəbiləsinin sakinləri iztirab və qorxu içərisində yaşayır. Bu da məhəbbət əhlinin qismətinə düşən bir haldır. Məhəbbət əhli iztirabsız yaşaya bilməz. Günlərin bir günündə Beni məhəbbət diyarında bir qız və bir oğlan uşağı dünyaya gəlir. Qızın adını Hüsn, oğlanın adını isə Eşq qoyurlar. Məhəbbət diyarının sakinləri bu uşaqları bir-birinə nişanlayır.İl dolanıb, aylar keçir, uşaqlar böyüyür. Onlar məktəb yaşlarına çatırlar. Bu uşaqlar Molla Cünündan məktəbində ədəb dərsi alırlar. Süjet xəttində baş verən əhvalatlar "Leyli və Məcnun" əsərinə tam uyğun şəkildə baş verir. Müəllif öz dövründəki gerçəklikləri alleqorik obraz və simvollarla oxucusuna çatdırır.

Əsərin başqa bir yerində Hüsnün Lələsi tərəfində ona verilən öyüd- nəsihət Füzulinin "Leyli və Məcnun" əsərindəki Leylinin anasının ona verdiyi nəsihətlə sanki bərabər səslənməkdədir. "Hüsn və Eşq"də Lələ Hüsnə nəsihət verərək deyir:

Ol mərd ilə düşməz inmisarın,
Ayinəsidir cəmal yarın.
Ahu dilin etmə jenki məst,
Burhanları sərd edib tamami,
Bu oldu ki zübdeyi kəlami.
Yıxmaq bu binanı nə rəvadır,
Kim bir yüzü bundan yanadır.

M. Füzulinin "Leyli və Məcnun" əsərində anasının Leyliyə dediyi sözlərə nəzər yetirək:

Key şux!Nədir bu göftgular?
Qılmaq sənə tənə eybucular?
Nəyçün özünə ziyan edirsən?
Yaxşı adını yaman edirsən?
Nəyçün sənə tənə edə bədgu?
Namusuna layiq işmidir bu? (4,25)

Şeyx Qalibin də məsnəvisi dövrün həqiqətlərini gerçəkləşdirən bir materialın əksidir. Bu əsər haqqında Türk tədqiqatçısı yazır: "Hüsnü Eşq" də şair daxili aliəmini, öz mahiyyətini, hisslərini şəffaf menfezinden şeirə keçirir." (5, 45) Hər iki əsərdə başqa bir oxşarlığa nəzər yetirək.

"Leyli və Məcnun" məsnəvisində Məcnunu görməyən Leyli hicran əzabındn xəstələnməsi epizoduna "Hüsn və Eşq" əsərində rast gəlirik. Əsərdən məlum olur ki, Sühan həkim cilidində gəlir və Eşqi Hüsnün sarayına aparır. Sühan məhz həkim cildində görünməsinin təsəvvüf ədəbiyyatında" dərd əhli olmaq, "dərdə mübtəla olmaq" kimi ifadə və deyimlərdə ilahi eşqin həsrətindən dərd əhlinə çevrilmiş sevən aşıq obrazı nəzərdə tutulur. Dərd əhli olan aşıqın dərmana ehtiyacı var. Bu " söz-dərman" müstəqil mənasından çıxaraq, həkimin məlhəmini -"ruhi müalicəni" xatırladır. Qədim təbabət elmində əməli müalicə ilə yanaşı, ruhi müalicə olduqca geniş işlənmişdir (6, 45) .

Sözügedən əsərlərdə belə müqayisə və paralelləri daha da çox aparmaq olar. Bu müqayisələr onu göstərir ki, Füzuli təsiri, onun yaradıcılıq izi XVI əsrdən başlayaraq, yaxın və uzaq ərazilərə yayılmış, onun təsiri ilə necə-necə gözəl əsərlər ərsəyə gəlmişdir. Belə əsərlərdən biri də türk təsəvvüf şairi Şeyx Qalibin qələmə aldığı, bu gün də oxucuların və tədqiqatcıların diqqət mərkəzində olan "Hüsn və Eşq" əsəri olmuşdur.

ƏDƏBİYYAT:

1.Şeyx Qalib. Hazirlayanlar: Orxan Okay və Hüseyn Ayan. İstanbul. 2000. səh.20
2.Füzuli .Seçilmiş əsərləri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı. 1958. 350 s.
3. İslam Ansklopedisı. Ankara 1980. 950 s
4. Füzuli. Leyli və Məcnun. Bakı, Gənclik nəşriyyatı, 1977, 211 s.
5. Bilgegil Kaya M . "Hüsn ü Aşk'a Dair" Hüsn ü Aşk, hz. O. Okay, H. Ayan, Dergâh Yay., İstanbul 2006, səh. 45
6.Hümmətova. X. Yunus Əmrənin "Olur" rədifli şeirində psixoloji hal dəyişməsi. Bakı.2012. səh.236

Kh.Merdanly

Beauty of meaning in Sheikh Galibs creativity

SUMMARY

From XVI century Fuzuli influence spreaded over to nearby and far countries,under influence of his creativity was created a lot of fine works,the trace of his creativity was found in works of many of his successors.One of this kind of works is "Image and Love"(Khusn ve eshg) by Turkish poet-mystic Sheikh Galib,which is till now under attention of not only researchers but readers. In the article, figures and their semantic meaning features of "Husn and Eshg" work by well known poet and wisdom of XVIII century are studied. The work is based purely on "metphoris a bridge of truth" idea. The author reflected the reality of his time by irphan symbols and could find out the sence of conflicts between ideal and existence. Creativity subject is standing in the center of the wrok written by the poet. Either tasaffuv world view, or other world views are entering to the poem by filtering through thought of Sheykh Galib. That means, tasaffuv turns to asubjective thought materia of th e author in th ecreativity of Sheykh Galib.And so by transfering his felling to words the poet conveys his opinion to the readers.

Х. Мерданлы

Смысловая красота в творчестве Шейха Галиба

Резюме

Начиная с XVI века влияние творчества Фузули расспростронялось в близкие и дальние страны,под влиянием его творчества создавалось много прекрасных произведений,след его творчества чувствовался в произведениях разных мастеров. Один их них написанный турецким поэтом мистиком Шейхом Галибом произведение "Лик и Любовь"(Хусн ве Эшг),которое по сей день находится Фузули в поле внимания как исследователей так и читаталей. Представленная статья исследует символические образы в месневи «Хюсн-ю Ашк» выдающегося турецкого поэта и мыслителя XVIII века Шейха Галиба. Это произведение занимает особое место в суфийской поэзии тюркской литературы. Данное месневи построено на идее, считающей метафору «мостом истины». Поэт в своем месневи подробно отразил действительность своей эпохи посредством кодов и символов ирфана, он сумел раскрыть противоречия между идеалом и действительностью и их суть. В центре месневи стоит творческий субъект самого поэта. Как суфийское, так и другие мировоззрения входят в поэму Шейха Галиба, пройдя через призму его собственного творческого мышления.

Rəyçi: Məmməd Əliyev
Filologiya elmləri doktoru, professor

YADULLA ƏLƏKBƏROV
Bakı Avrasiya Universitetinin doktorantı
yadullaelekberov2@gmail.com

NAĞIL VƏ MIF MÜNASİBƏTLƏRİNİN NƏZƏRİ MƏSƏLƏLƏRİ: MİFİK TƏSƏVVÜR VƏ MİFİK MƏTN

Açar sözlər: folklor, nağıl, mif, mifologiya, əsatir, mifik şüur, folklor yaddaşı
Key words: folklore, tale, myth, mythology, mythical conscience, folklore memory
Ключевые слова: фольклор, сказка, миф, мифология, миф, мифическое сознание, фольклорная память.

Məsələnin qoyuluşu: Nağıl və mif münasibətlərinin aydınlaşdırılması ilk növbədə vacib olan məsələsi mifin iki mövcudluq (varolma) tipi arasındakı əlaqələrdir. Bunun biri, qeyd olunduğu kimi, təsəvvürdə olan mif, o birisi isə danışılaraq hekayəyə, əhvalata, əfsanəyə çevrilən mifdir.

İşin məqsədi: Tədqiqatın aparılmasında başlıca məqsəd nağıl və mif münasibətlərinin nəzəri məsələlərini (mifik təsəvvür və mifik mətn münasibətlərini) araşdırmaqdır.

Elmi ədəbiyyatlardan aydın olur ki, mifik təsəvvürlə mifik mətnin əlaqəsi mürəkkəb məsələdir. Burada məsələ bir mətnin həm yaddaşda olması, həm də sözlə danışılması qədər sadə deyildir. Ona qalsa, bütün folklor janrları həm yaddaşda mövcuddur, həm də söyləyicilər bu yaddaşda olanları nəql edirlər. Bir mətn yaddaşda olmasa, təbii ki, onu söyləmək, danışmaq, ifa etmək mümkün olmaz. Nağıllar da həm yaddaşda daşınır, həm də sözlə danışılır. Ancaq bütün bunlara baxmayaraq, biz nağılın bir tipini, mifin isə iki tipini tanıyırıq. Yəni mifi təsəvvürdə olan mif və sözlü mif olaraq iki tipə ayırdığımız halda, nağıla belə bir bölgü tətbiq etməyə ehtiyac duymuruq. Onda bu halda belə bir haqlı sual meydana çıxır ki, mifin də, nağılın da (o cümlədən əfsanənin, dastanın və sairənin) yaddaş və sözlü mətn formaları olduğu halda, alimlər nəyə görə yalnız mifləri iki formaya ayırırlar?

Burada ağlımıza gələn ilk məntiqi cavab ondan ibarətdir ki, məsələ təkcə yaddaşla bağlı deyildir. Yəni bütün folklor janrlarının, o cümlədən mif-əsatirlər, nağıllar, dastanlar və sairənin hamısı yaddaşda daşınır, ancaq miflər təkcə yaddaşda daşınmırlar, onlar həm də mifik şüur (düşüncə, ağıl) rolunda çıxış edirlər. Nağıl və digər folklor janrları yaddaşda olsalar da, onlar şüur

funksiyasını yerinə yetirmirlər, miflər isə sözlü mətn olmaqla yanaşı, həm də şüur rolunu oynayır, başqa sözlə, insanın şüurunu təşkil edirlər.

Məşhur rus mifoloqu Yeleazar Moiseyeviç Meletinski yazır ki, "mif" yunan sözü olub, hərfən "rəvayət, söyləmə" anlamını bildirir. Adətən tanrılar, ruhlar, ilahiləşdirilmiş, yaxud öz mənşəyi etibarilə tanrılarla əlaqəli olan qəhrəmanlar, ilk zamanda fəaliyyət göstərmiş, dünyanın, onun təbii və mədəni elementlərinin yaradılmasında birbaşa, yaxud dolayısı ilə iştirak etmiş ilk əcdadlar haqqında əhvalatlar nəzərdə tutulur. Mifologiya həm tanrılar və qəhrəmanlar haqqında belə əhvalatların məcmusu, həm də eyni zamanda dünya haqqında fantastik təsəvvürlərin sistemidir. Miflər haqqında elmi də mifologiya adlandırırlar (6, 634).

Bu tərifdən göründüyü kimi, burada mif **sözlü mətn**, yəni sözlə nəql olunan "rəvayət", "söyləmə", "əhvalat" kimi təqdim olunur. Yəni bu tərifdə təsəvvürdə olan mifdən söhbət getmir. Hər şey aşağıdakı kimi çox sadə şəkildə izah olunmuşdur:

a) Miflər tanrılar, ruhlar, tanrılarla əlaqəli qəhrəmanlar, ilk əcdadlar haqqında əhvalatlardır;

b) Miflər haqqında elmi də mifologiya adlandırırlar.

Bu tərifdə "mif" və "mifologiya" terminləri sadə, anlaşıqlı, kütləvi oxucunun başa düşə biləcəyi şəkildə izah olunmuşdur. Lakin Elçin İmaməliyevin (Qaliboğlu) yazdığı kimi, "bu tərifin sadə olması heç də məsələnin sadə olmasını göstərmir" (2, 27). Necə ki, professor Füzuli Bayat mif anlayışına belə bir mürəkkəb tərif vermişdir: "Mif dəyərlər paradiqmasında dünyanı dərketmə, şəkilləndirmə, simvollaşdırma, yəni həyatın və hadisələrin ümumiləşdirilmə modelidir. Mif məna paradiqmasında düşüncə tərzi, şüur, bilgi və şüur növüdür" (1, 11).

Bu tərifdə, göründüyü kimi, təsəvvürdə olan mif izah olunmuşdur. Daha doğrusu, burada sözlü mətn olan mifin hələ sözlü mətn olmazdan qabaq şüurda yerinə yetirdiyi, yəni bir təsəvvür olaraq yerinə yetirdiyi funksiya şərh edilmişdir. F.Bayatın verdiyi tərifdə diqqətimizi cəlb edən ən mühüm məqam mifin "şüur növü" adlandırılmasıdır. Mifin şüur hadisəsi kimi rolunu daha dərindən başa düşmək üçün tərifə ətraflı nəzər salaq. F.Bayata görə, mif:

a) dünyanı dərketmə modelidir;

b) dünyanı şəkilləndirmə modelidir;

c) dünyanı simvollaşdırma modelidir;

ç) həyatın və hadisələrin ümumiləşdirilmə modelidir;

d) düşüncə tərzidir;

e) şüurdur;

f) bilgidir;

g) şüur növüdür.

Belə hesab edirik ki, bu tərifdə mif anlayışının təsəvvür, şüur tərəfləri kifayət qədər aydın şəklidə izah olunmuşdur. Buradan aydın olur ki, miflər (əsatirlər), sadəcə, mifik qəhrəmanlar haqqında hekayətlər, əhvalatlar deyildir, həm də mifik şüurun özüdür. Yəni mifik şüur elə miflərdən təşkil olunur. Mifologiya dövrünün insanları bu miflər vasitəsilə fikirləşir, həyata, dünyaya, ətrafa münasibətlərini yaddaşlarında daşıdıqları mifik təsəvvürlər vasitəsilə nizamlayırdılar.

Burada bir məsələ də diqqəti cəlb edir: miflərə verilmiş təriflər niyə bir-birindən fərqlənir?

Biz bu sualın cavabını məşhur mifoloq Mirça Eliadenin "Mifin aspektləri" əsərində tapırıq. O yazır: "Mifin elə bir tərifini tapmaq mümkün deyildir ki, həm bütün alimlər tərəfindən qəbul edilsin, həm də mütəxəssis olmayanlar üçün də anlaşıqlı olsun. Bununla bərabər, bütün arxaik və ənənəvi cəmiyyətlərdəki bütün mifləri və onların bütün funksiyalarını əhatə edən universal tərifi tapmaq mümkündürmü? Mif mədəniyyətin fövqəladə dərəcədə mürəkkəb gerçəklərindən biridir. Onu ən çoxsaylı və bir-birini tamamlayan aspektlərdə öyrənmək və şərh etmək olar. Mənə elə gəlir ki, aşağıdakı tərif daha yatımlı olacaqdır. Ona görə ki, o, bizi maraqlandıran məsələni geniş şəkildə əhatə edir: mif müqəddəs tarixi bəyan edir, "bütün başlanğıcların başlanğıcı olan" yaddaşaqədərki zamanda baş vermiş hadisələr haqqında danışır. Mif nəql edir ki, reallıq hər şeyi bütünlükdə ehtiva edən dünya, kosmos şəklində, yaxud təkcə onun fraqmentləri (adalar, bitki aləmi, insan davranışı, yaxud dövlət təsisatı) şəklində olmasından asılı olmayaraq, fövqəladə varlıqların igidlikləri sayəsində öz təcəssümünü, gerçəkləşməsini necə tapmışdır. Bu, həmişə hansısa "yaradılış" haqqındakı hekayədir. Bizə xəbər verilir ki, nə necə baş verib və biz mifdə bu "nə isənin" mövcudluğunun qaynaqlarına yaxın oluruq. Mif baş verənlər haqqında həmişə həqiqəti danışır" (8, 33-34).

M.Eliadenin bu fikrindən göründüyü kimi, mifə ən müxtəlif təriflərin verilməsi mümkündür. Yəni mif elə bir mürəkkəb məna hadisəsidir ki, onu hər bir alim qavradığı, anladığı, başa düşdüyü qədər səciyyələndirə bilir. Lakin, M.Eliadeyə görə, bu təriflərin eyni zamanda birləşdirici, yəni universal cəhəti də var. Alimə görə, həmin universal cəhət miflərin "həmişə hansısa "yaradılış" haqqındakı hekayə" olmasıdır.

Rus alimi A.K.Bayburin mif anlayışının hər iki mənasını (mifik təsəvvür və mifik mətn) belə ümumiləşdirişdir. Mif:

1) sözlü təhkiyə mətni kimi;

2) dünya haqqında təsəvvürlər sistemi (dünya modeli) kimi.

"Mif" birinci halda sintaqmatik, ikinci halda paradiqmatik planda başa düşülür. "Mif" sintaqmatik vahid kimi (mədəniyyətin başqa mətnləri – ritual, sosial institutlar, maddi mədəniyyət elementləri və s. ilə bir sırada) mənaların

paradiqması olan "mif"in gerçəkləşməsinin ayrıca halı kimi çıxış edir. "Mif"in birinci və ikinci mənaları arasında olan fərq "mif" ilə "mifologiya" arasında olan fərqlə eyni deyildir. Ona görə ki, "mifologiya" adı altında mifin bir sistem olması yox, (sintaqmatik) təhkiyə vahidləri olan miflərin sistemi başa düşülür (3, 75).

Bu tərifdən göründüyü kimi, "mif" termini iki mənada işlədilir:

Birincisi, sözlə nəql edilən, danışılan mifik mətn. Bu, mifik qəhrəmanlar (tanrılar, yarımtanrılar, tanrıdan əmələ gələn insanlar, ilk əcdad və s.) haqqında rəvayətlər, əfsanələr, hekayətlər, əhvalatlar və s.-dir.

İkincisi, mifik təsəvvür, yəni mifik şüur. Bu isə birbaşa düşüncənin özüdür. Yəni mifik təsəvvür dedikdə mifik düşüncə ilə yaşayan insanın dünya haqqında təsəvvürləri nəzərdə tutulur.

Qeyd edək ki, "mif" və "mifologiya" terminlərinin bir-biri ilə bağlı olması aydın məsələdir. "Mifologiya" termini "mif" terinindən əmələ gəlmişdir. Lakin bunlar araslında müəyyən fərqlər vardır. A.K.Bayburin "mifologiya" terminin elmdə üç mənada işləndiyini göstərmişdir:

1. Bir mədəni-tarixi ənənəyə məxsus olan miflərin (söyləmələrin) toplusu.

2. Dünya qavrayışının xüsusi forması.

3. Mifləri və mifoloji sistemləri öyrənən elmi fənn (4, 80).

Göründüyü kimi, "mif" və "mifologiya" terminləri, demək olar ki, yaxın mənaları ifadə edir. Əsas fərqləri aşağıdakılardan ibarətdir:

a) Əgər bir mif mətn (əhvalat, söyləmə) kimi konkret bir mifik hadisəni nəql edirsə, mifologiya bu mətnlərin hamısı, yəni bütövüdür.

b) Əgər bir mif şüur hadisəsi kimi bir həyati situasiyanı modelləşdirirsə, mifologiya ümumən bütöv dünyanı modelləşdirir.

"Mifologiya" terminin üçüncü mənası isə tam aydındır, ona görə də şərhə ehtiyacı yoxdur.

Elmi qaynaqlardan verdiyimiz bu fikirlər, bizcə, mif və nağılların yaddaş məsələsinə aydınlıq gətirir. Mif də, nağıl da, eləcə də digər folklor janrlarının hamısı yaddaşda mövcuddur, lakin onların heç biri mif kimi dünyanı dərketmə, simvollaşdırma rolunu yerinə yetirmir. Bundan nəticə çıxarıb deyə bilərik ki, nağıl yaddaş vasitəsilə yalnız daşınır, mif isə yaddaş vasitəsilə daşınmaqla bərabər, həm də mifik çağ insanının şüuru vəzifəsini yerinə yetirir.

İndi isə qarşımıza daha bir maraqlı məsələ (sual) çıxır: mif (əsatir) də, nağıl da – hər ikisi nəql olunan hekayət olduğu halda, necə olur ki, mif həm də şüur, düşüncə funksiyasını həyata keçirir?

Bu sualın cavablarını biz mif mütəxəssislərinin əsərlərində tapırıq. Rus alimi M.İ.Steblin-Kamenski yazır: "Mif nə dərəcədə qeyri-həqiqət

olmasından asılı olmayaraq, yarandığı və yaşadığı yerdə həqiqət kimi qəbul olunan hekayədir" (7, 4).

Göründüyü kimi, mif həqiqət olduğuna inanılan hekayətdir və bu xüsusiyyət birmənalı şəkildə nağılda yoxdur. Nağıl onu söyləyən tərəfindən də, dinləyən tərəfindən də uydurma, "yalan-palan" kimi qəbul olunur. Ona görə də mif şüur vəzifəsini yerinə yetirə bilir, nağıl isə – yox. Axı nağıl onu yaddaşlarında gəzdirən insanlar tərəfindən uydurma, fantaziya kimi qəbul olunursa, təbii ki, şüur qaydası kimi qəbul oluna bilməz.

Dünyaca məşhur fransız alimi Klod Levi-Stross mifin bu tərəfini çox sərrast şəkildə belə ifadə etmişdir: "Mif nə qədər ki, mif kimi qavranılır, o, mif olaraq qalır" (5, 194).

E.İmaməliyev (Qaliboğlu) K.Levi-Strossun bu fikrinə belə bir şərh vermişdir: "Demək, hər nə qədər ki mifik hekayətin həqiqət olduğuna inanılır, o, mif hesab olunur; elə ki, o, həqiqət olmaqdan çıxdı, onda artıq mif hesab olunmur. Bu halda həmin mif əfsanəyə, rəvayətə, nağıla, dastana və s. dönür. Burada əsas olan mifin məzmunu yox, ona inam məsələsidir. Məsələn, əgər insanlar bir yaranış hekayətini həqiqi hadisə, həqiqi tarix hesab edirlərsə, bu, hekayət mifdir. Əgər insanlar həmin hekayətin məzmununa artıq inanmırlarsa, onda o, artıq maraqlı bədii məzmuna malik əfsanəyə, yaxud başqa epik janra çevrilir. Bir mətnin mif, yaxud folklor mətni hesab olunması ona inamdan asılıdır. Mifik inam olan yerdə mifik şüur var. Beləliklə, "mif" həm düşüncə, həm də hekayət formasında mifoloji şüura aid olan hadisədir. Mifoloji şüur epoxası öz yerini tarixi şüur epoxasına verdikdən sonra mif dövründə bütün həqiqi, müqəddəs, doğru hesab olunan miflər folklor janrlarına, o cümlədən əfsanələrə çevrilir (2, 31).

İşin yeniliyi və nəticəsi: Belə hesab edirik ki, bura qədər sitat verdiyimiz fikirlər və onların şərhi mifik təsəvvür və mifik mətn (əsatir) məsələsinə tam aydınlıq gətirə bilir. Sonda fikirlərimizi qısa şəkildə belə ümumiləşdirə bilərik:

a) Mifin iki mövcudluq forması vardır: yaddaşda olan mif və sözlə nəql olunan mif.

b) Yaddaşda olan mif eyni zamanda mifik düşüncə vasitəsidir. Yəni mifologiya dövründə yaşamış insan miflər vasitəsilə düşünürdü.

c) Nağıl da mif kimi yaddaşda daşınır. Ancaq o, mifdən fərqli olaraq insanın düşüncə vasitəsi rolunu yerinə yetirmir. Nağıllar əyləndirici-estetik finksiyaya malikdir.

İşin nəzəri və praktiki əhəmiyyəti: Tədqiqatın nəzəri əhəmiyyəti ondan nağılların poetikası ilə bağlı digər tədqiqatlarda nəzəri qaynaq kimi istifadə imkanları, praktiki əhəmiyyəti isə işdən ali məktəblərdə nağılların tədrisi prosesində praktiki vəsait kimi istifadə imkanları ilə müəyyənləşir.

Ədəbiyyat

1. Bayat F. Mitolojiye Giriş. Çorum: Kara M, 2005, 150 s.
2. İmaməliyev E.Q. Türk yaradiliş mifləri və Azərbaycan əfsanələri / Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2016, 153 s.
3. Байбурин А.К. Миф / Свод этнографических понятий и терминов, вып. 4. Москва: Наука, 1991, с. 75-78.
4. Байбурин А.К. Мифология / Свод этнографических понятий и терминов, вып. 4. Москва: Наука, с. 80-83
5. Леви-Строс К. Структурная антропология. Москва: Глав. Ред Вост. Лит., 1985, 536 с.
6. Мелетинский Е.М. Общее понятие мифа и мифологии / Мифологический словарь. Гл. ред. Е.М.Мелетинский. Москва: Советская энциклопедия, 1990, с. 634-640
7. Стеблин-Каменский М.И. Миф. Ленинград: Наука, 1976, 121 с.
8. Элиаде М. Аспекты мифа. Москва: Академический проект, 2001. 240 с

Y.Alakbarov

Theoretical problems of tale and myth relations
Mythical imagination and mythical text

Summary

First necessary problem of clarification of tale and myth relations is relations of myth between two types of existence. One of them, as indicated, is myth of imagination, and other one is a myth turned into story and legend by talking. Study shows that:

a. Myth has two forms of existence: myth in memory and myth transferred by word

b. Myth in the memory is simultaneously a mythical thinking means. That is human lived in the term of mythology was thinking through mythes.

c. And tales are carried in the memory as a myth. But, in comparison with myth, tales do not execute a role of thinking means. Tales have entertaining – aesthetical function.

Я. Алекберов

Теоретические вопросы взаимоотношения сказок и мифов мифическое представление и мифический текст
(РЕЗЮМЕ)

Разъяснение взаимоотношений сказок и мифов – это в первую очередь связи между двумя типами существования мифа, являющегося вопросом первоочередной важности. Один из них, как отмечено миф в представлении, другой же миф, преобразуемый в рассказ, событие, легенду. Исследование показало, что:

a) Существуют две формы существования мифа: миф по памяти и миф, пересказываемый словами.

b) Миф по памяти является в то же время средством мифической мысли. То есть человек, живший в период мифологии, мыслил посредством мыслей.

c) Сказка, как и миф, передается памятью. Однако, в отличие от мифа не исполняет роль средства мышления человека. Сказки несут развлекательно-эстетическую функцию.

Rəyçi: İslam Sadıq
Filologiya üzrə elmlər doktoru

MƏTANƏT ŞAHALİYEVA
M.Füzuli adına Əlyazmalar İnstitutu
matanat.sahaliyev.63@bk.ru

NƏBATİ YARADICILIĞINDA "VÜCUDİ-VƏHDƏT" AŞİQLİYİ

Açar sözləri: Sufizm, "Vücudi-Vəhdət", işıq, eşq, çarpaz qafiyə, təsəvvüf.
Key words: Sufism , "Body-Unity", light, love, cross rhythm, Taṣawwuf.
Ключевые слова: суфизм, «тело-единство», свет, любовь, перекрестный ритм, Taṣawwuf.

Şeirdə məna ovçusu olan Nəbatinin dilində söz adilikdən çıxıb poetik, fəlsəfi düşüncə kəsb edir. Sadə, təbii, ürəyə yatan bir dildə yazan şairin həm klassik poeziya örnəklərinin, həm də heca vəznli şeirlərinin dili axıcı, sadə xalq danışıq dilindədir. Doktor Cavad Heyət yazır: "Nəbatiyə Xacə Hafiz Şirazinin böyük təsiri olmuşdur, onun farsca şeirlərində Hafiz qəzəllərinin təxnisi xüsusi yer tutur". (1:114)

Dörd ərəb, fars, tat, kürdü, kərəmi, qarakəhri və gəraylı nərmələrinə uyğun türk dilində dolğun, ecazkar şeir nümunələri yaradan şairə münasibət bildirən tədqiqatçılar yaradıcılığını iki qola: 1) klassik şeir; 2) ozan-aşıq sənətinin ənənələri əsasında formalaşan xalq şeir üslubu.

Əslində, Nəbati onu əhatə edən maddi varlığı, aşiq olduğu "Vücudi-Vəhdəti" öyrənmək istəyi, ziddiyyətli dünyanı dərk etmədən köç etmək istəmirdi. Təbii ki, ondakı olan bu istək yaradıcılığına təsirsiz keçə bilməzdi. Deməli, yaradıcılığı iki qola yox, əslində beş qola ayrılmalıdır: 1) klassik üslub (X.Hafiz Şirazi, N.Gəncəvi, İ.Nəsimi, M.Füzuli, S.Təbrizinin təsiri); 2) xalq şeiri (heca vəznində yazdığı qoşmaq. təcnis, gəraylı və s. şeirlərin ruhu M.P.Vaqifə yaxınlığı); 3) "Vəhdəti-Vücud"a həsr etdiyi fəlsəfi didaktik şeirləri; 4) Məzhəb, təriqət haqqında baxışları əks etdirən şeirlər; 5) ictimai bərabərsizliyə aid satirik şeirlər.

Nəbati poeziyasının fərqliliyi ozan, aşıq sənətinə bağlılığı, xalq ədəbiyyatının bədii dilindən, bədii təsvir vasitələrindən dolğun istifadə etməsidir. Onun Vaqifə yaxınlığı, əslində hər ikisi xalq xəzinəsindən yaralanmışdır, amma Nəbatinin ütsünlüyü şeirlərinin mərkəzində ürfani-eşqin durmasıdır. B.Behcəti yazır: "Nəbati el ruhunda yazdığı şeirlərində hətta, fars və ərəb ədəbiyyatında işlədilən yekrəng və çeynənmiş obraz, təşbehləri tamamilə yeni struktda, yeni silsilədə, yeni işləməyə müvəffəq olur".(2:7)

Xalqının həyat tərzinə bağlı olan şairin dünyabaxışı həyat həqiqətləri üzərində köklənmişdir. A.Axundov yazır: "Poetika bitkin tam, təbii və sadə ifadəsi əlavə bəzək-düzəksizlik, poetiklik, vəzn, qafiyə və bənddən daha çox şairin istedadı və mədəniyyəti ilə bağlıdır".(3:63)

Nəbatinin klassik poeziya ənənəsi əsasında yazdığı şeirləri "Vəhdəti - Vücud"a həsr olunub deyən müəlliflər bir şeyi unudurlar ki, Nəbati hansı səpkidə yazırsa yazsın başlanğıcı və sonu eşqdir. Deməli, gördüyü işıq, eşq, Allaha olan aşiqlik onun eşqə verdiyi dəyərlə ölçülməli, insanın qəlb döyüntüləri, çırpıntıları eşq üzərində köklənməlidir. Dünyaya eşq gözü ilə baxan şair üçün eşqsiz həyat mahiyyət kəsb etmir. Bu baxımdan klassik üslubda yazəılan şeirlərini də iki qola aylırmaq daha düzgün olar. 1) dünyəvi eşq; 2) Vəhdəti -Vücuda aşiqlik. Hər iki mövzuda yazdığı şeirlərdə İlahi eşqdən güc aldığı izhar olunur. Şair təsdiq edir ki, mən qələmsiz bir heçəm. Qələmimin gücü isə İlahiyə olan eşqdən gəlir. Klassik örnəklərinə naxış vuran sənətkar Azərbaycan şairlərindən, xüsusilə N.Gəncəvi, İ.Nəsimi, M.Füzulinin sənətkarlığını yüksək qiymətləndirir, onları özünə ustad bilir:

Xosrovun əhvalını Şirin bilir,
Kim ona həmkasəvü xərka imiş,
Və yaxud:
yetsə əlim qisseyi-Şirini mən,
Nəql edərəm Xosrovə həmra imiş. (4:158)

M.Füzuliyə müraciət etməsi göstərir ki, o şairin yaratdığı "Leyli və Məcnun"dan mütəəssir olmuş, eşq üçün səhraya düşən Məcnunla özünü həmfikir tutmuşdur:

Olub Məcnun kimi sərməsti-cani-badeyi-vəhdət,
Düşüb səhralərə, vəhşilər ilə həmqəfar olmuş, (5:153)

Nəbati bir çox şeirlərində M.Füzulidən təsirlənmiş, xüsusilə şairin "Həftcani" (Saqinamə) təsiri ilə yazmış olduğu tərcibəndləri arasında M.Füzuli kimi musiqi alətlərinin iştirakı cəhətdən əlaqə diqqəti cəlb edir. Həmçinin, hər iki sənətkar eyni adda, "Oluban", "Nədir", "Ərs" qəzəlləri var. Şair Füzulinin qafiyə sisteminə riayət etsə də, lakin məzmundakı fərqlilik özünü göstərir. Məsələn, M.Füzulinin "Leyli və Məcnun" əsərində leylinin dilindən mətləli qəzəldə:

Deməzəm dəxi "Sənə aşiqəm"ey gül! Zira,
Sənə aşiqlığım izhar edəli xar oluban. (6:109)

Nəbati eyni adlı qəzəli ilə cavabında:
O günəş-arizə heyran olanı, zar oluban,
Əqlü huşum dağılıb, surəti divar oluban. (7:55)

Sələflərindən fərqli olaraq, eşq Nəbatidə çarpazlaşır, çünki mütərəqqi fikir anlayışına sahib olan şairin tərəddüd içində çırpınan ruhu harda qərar

tutacağından narahatdır. Şairin narahat ruhunu daxili iztirablarla ifadə edən şeirləri vücudi-mütləqi axtarır, tapdığı eşqsə onu sevdiyi, bağlandığı gözələ doğru aparır:

Oldu könlüm genə bir zülfi-cəlina dəlisi,
Düşdü zəncirə nə xoş yerdə bu sevda dəlisi. (8:66)

Nəbati şeirin forma, məzmun gözəlliyinə xüsusi fikir verən sənətkarlardan biri olmuş, orta əsr klassiklərin əsərlərindən aldığı bədii təsvir vasitələrinə kor-koranə deyil, ruhuna uyğun işlətməyi bacarmışdır. Şair əruz vəznini özünəməxsus orijinal şəkildə istifadə edərək, seçmə, avazlanma yaradan bəhrlər seçir, hiss və duyğularını oxucuya çatdırmaq üçün ruha yaxın elə sözlər işlədir ki, bu da insanda gözəllik duyğusu yaratmış olur:

Sənsiz ey, gül könlümün bir dəm qərarı yoxdu, yox!
Səndən özgə, neyləsin, bir qəmküsari yoxdu, yox! (9:110)

Mətlələri ilə başlanan "Olasan", "Mən", "Olsun", "Oluban", "Gözlərim", "Kimi" rədifli qəzəlləri şairin xoş avazlı şeirlərinə nümunə göstərmək olar. Prof. F.Qasımzadə yazır: "Hiss və fikirlərini daha qaarıq şəkildə ifadə etmək, onları oxucuya daha iti çatdırmaq üçün qəzəllərində bəzən qoşa qafiyə və rədif işlədir".(10:99)

Nəbati şeirlərində ruhuna uyğun qafiyədə səs uyğunluğuna xüsusi fikir verir, şeirdəki ritmi təbiiliklə duymağı öyrədirdi.

Nəbati istedadına arxayın olan, sözdən söz çəkməyi bacaran, qəlbi, ruhu eşqlə çırpınan şairlərdəndir. Nəbatinin söz axtarışında nəqqaş incəliyi hiss olunur. Onun narahat ruhu bir yerdə qərar tutmur, göydə pərvazlanır, Vəhdəti-Vücudun eşqi ilə alovlanan ruhu onu sevdiyi gözələ doğru aparır. Heç kimi təkrarlamır, dilinin şirinliyi, sözlərindəki eşqin böyüklüyü, dünyaya fərqli baxışı, özündən narazılığı, poetikası fərqlidir. Ruhunun saflığı ətrafında olan insanlar arasında kamil mürşid kimi tanınması bənzərsiz sənətkar səviyyəsinə qaldırmışdır. F.B.Köçərli yazır: "Nəbatinin kəlamı rindanə və aşiqanədir".(11:455)

Hikmət sahibi olan şair bəzən kim olduğunu, hansı təriqətə qulluq etdiyini anlamır, lakin sözə həqiqi aşiqliyini yana-yana oxucuya göstərə bilir. Eşqə bürünmüş şairin ruhu imana, Allaha olan sevgiyə dayanır. Allaha olan dərk olunmaz aşiqlik isə əsrlər boyu türk dünyasında adı ehtiramla çəkilən Yunis Əmrə arasında bağlantı yaradır. Tanrı sevgisini sözlərində yanıqlı dillə izhar edən Yunis Əmrə mənəviyyatı saflaşmış ilahi nurundan süzülüb damcı-damcı axıb qəlbə rahatlıq verən çeşməyə bənzəyir. Yunis Əmrə təsəvvüfü İlahi nurundan süzülüb gələn, gözləri qamaşdıran, qəlbi titrədən, inasana rahatlıq verən adi eşq deyil, bu eşq "Vücudi-mütləqə" aparan ruhun cisimdən ayrılıb, İlahidə özünü tapıntısıdır. Hər iki şairdə Allaha olan sevgi vücudun rahatlığı, qəlbin nura, atəşə boyanmasıdır.

Yunis Əmrədə eşq candır, canın ruhdan ayrılmasıdır:

Eşq dediyin tuyar isən, eşqə candan uyar isən,

Eşq yoluna candır fəda, ana fəda mal olmaya. (12:22)

Nəbati isə Yunis Əmrədən fərqli olaraq eşqə bələnmiş qəlbin, ruhun nə bu dünyada, nə də axirətdə qorxusu olmaz deyir:

Eşq camından içən kimsənə huşyar olmaz,

Nə bu dünyada, qiyamətdə də bidar olmaz. (15:28)

Hər iki şairdə dünya, kainat, eşq haqqında olan fəlsəfi düşüncə Allaha olan İlahi eşqlə bağlıdır. Əruz vəzninə orijinallıq gətirən şair sözsüz ki, xalq şeiri üslubunda yazarkən heç kimi təqlid etməmiş, əksinə sələflərindən, xüsusilə, M.P.Vaqif, Q.B.Zakirdən fərqliliyi qoşma, gəraylı, təcnislərində iki surətə rast gəlinmir. Vəhdəti-mütləqə olan aşiqlik, dünyəvi gözəllik, real gözələ olan, qarşılıq gözlənilməyən, həqiqi aşiqin çəkdiyi iztirablara, vüsala fərqli yanaşma özünü göstərir. Real gözəli təsvir edərkən şair mücərrədlikdən çıxır, təbii boyalarla təsvir etdiyi gözəli, onu əhatə edən bütün maddi cisimlərdən yüksək tutub işlətdiyi bədii təsvir vasitələri ilə gözəlin portretini yaratmış olur:

Gəzəsən aləmi cümlə sərtanə,

Tapılmaz bir belə sərvi-dilarə,

Dəyməz bir muyinə, həqq bilir haşa,

Hər nə bu dünyanın mülkü, malı var. (14:245)

Şairin təsvir etdiyi gözəlin hüsnü-camalı o qədər gözəldir ki, həqq belə gözələ toxunmaq istəmir. Sələflərində gözəlin təsvirində yorucu, təkrar fikir olduğu halda, şairin sözlərində mübaliğələr, təşbehlər səmimi şəkildə elə işlədilir ki, sözə sanki naxış vurmuş olur:

Bülbül kimi gül üzünü müstarəm,

Tuti quşu dilli Sənəm, ey Sənəm,

Al-əlvan yanaqlı, nərgiz baxışlı,

Bənövşə tək iyli Sənəm, ey Sənəm. (15:251)

Şairin yaratdığı gözəl sağlam həyat tərzi keçirən kənd gözəlidir, təbiət gözəllikləri onun gözəlliyinin hüsnü-yanında dəyərini itirər. bülbül gülə aşiq olduğu kimi şair də güldən gözəl olan "Sənəm"inə aşiqdir. ən maraqlı burasıdır ki, gözələ aşiq olan şair özüdür. Aşiq-şair qoşmanın bu bəndində işlətdiyi epitet. təşbehdən elə ustalıqla işlətmişdir ki, bu da onu M.P.Vaqifə yaxınlaşdırır. F.Qasımzadə yazır: "Nəbati qoşmalarını yazarkən şifahi xalq aşıq şeirinin və zəngin xalq ədəbiyyatının bədii təsvir vasitələrindən istifadə edərkən şeirlərini ədəbiyyatın inciləri ilə zənginləşdirmişdir".(16:363)

Nəbati qoşmalarının dilində yumor hissi güclüdür. Şair sevdiyi gözələ qısqanan aşiqdir. Şikayətinin, hicranının özündə də həsrət dolu bir

yumor hissi var. Aşiq-şair məhəbbəti üçün yaşayır, gözləri sevdiyini axtarır, eşqsiz dünya onun gözündə bir heçdir:

Nə müddətdir xəbərim yox, o qızdan,
Neçə ildir ayaq çəkibdir bizdən,
Bu səatdə onu istərəm sizdən,
Görün hardan gəlir, sorağı genə. (17:256)

İstər M.P.Vaqif, istərsə də Q.B.Zakir qoşmalarında aşiq məşuqənin gözəlliyindən vəcdə gələrək, sevgi etirafları və iztirablarının bədii ifadəsi obrazlı şəkildə əks olunurdusa, məsələn Molla Pənah Vaqifdə:

Oturuşun gözəl, duruşun gözəl,
Sallanışın gözəl, yerişin, gözəl
Xoşun, xulqun gözəl, hər işin gözəl.
Bəxş edib bu xubluq Xudadən sənə, (18:30)

Q.B.Zakir sevgisi dərin lirizmi ilə seçilir:

Müddətdir həsrətəm, eyləmə haşa,
Ay qabağa, xumar gözə, ay qaşa,
Durub pərvanətək dolanıb başa,
Siyah zülfün tutub, çənəndən öpüm, (19:219)

Nəbatinin qoşmaları isə oynaq əhvali-ruhiyyəli, saf və təbiidir:

Susuyubdur genə kimin qanına,
Xumar-xumar baxar hara gözlərin?
Nola bir də dolanaydım başına,
Qurban olaydım qara gözlərin! (20:145)

Qoşmalarında olduğu kimi, gəraylı, çarpalar, təcnislərində Nəbati orjinal yol tutmuş, əruz vəznində yazdığı şeirlərində qafiyə məsələsinə xüsusi əhəmiyyət verən şair, xalq şeiri üslubunda yazdığı şeirlərdə də tam qafiyələr işlətmiş, misralarda heca bölgüsünə fərqli yanaşmışdır. R.Həmzəyeva yazır: "Nəbati heca vəznində cəmi 25 şeir yazmışdır. Onlardan 21-i 11 hecalı, 4-ü səkkiz hecalıdır. 11 hecalardan bölünən 16-sə 6+5, 5-i 4+4+3-dür, 8 hecalılardan 3-ü 4+4, 5-i 5+3-dür".(21:61)

Tədqiqatçı, şairin qoşmalarının misra daxili heca bölgüsünə əhəmiyyət verməmiş, əslində şairin qoşmalarının bəzilərinin birinci bəndinin birinci misrası 4+3+3 hecaya ayrıldığı halda, digər misralar 4+4+3 heca şəklinə düşür. Şairin orijinallığı burada daha aydın hiss olunur, çünki bu bölgü şeirin ahənginə təsirini pozmayıb, əksinə ritmi avazlandırmış olur. Məsələn:

Allah, Allah bu dilmi-sinibər,
Hansı bəxtəvərin canənəsidir?
Dağıtdi başımdan əqli-huşumu,
Bu necə dəryanın dürdanəsidir? (22:149)

Nəbati sənətinə qiymət verən tədqiqatçılar, xüsusilə Ə.Hüseyni "Nəbati Seyid Əbülqasim", "Seçilmiş əsərləri" kitabına ön söz yazan Zaman Əsgərli şairin heca vəznində yazdığı şeirlərini iki istiqamətdə: 1) əsas ana xəttini real məhəbbət; 2) gözəlin tərənnümü götürmüşdür.

Əslində isə Nəbatinin heca vəznində yazdığı şeirləri dörd qismə ayırmaq daha düzgün olar:

1) Təbiət təsviri;
2) Qadın gözəlliyinin tərənnümü;
3) Sufi-panteist ruhlu şeirlər;
4) İctimai motivli şeirlər.

Sözə aşiq olan şair dünyanın gizli sirrlərini təbiətdə, Vəhdəti-Vücudda, eləcə də sevdiyi gözəlin gözlərində axtarır. Bədii ifadə vasitələrindən, xüsusilə, iztiarə, təşbehlərdən elə məharətlə istifadə edirdi ki, bu da sözə xüsusi gözəllik qatırdı. Lirik parçalarda təbiət gözəlliyi süniliyə yol verilmədən təbii duyğularla elə verilir ki, oxucuda onu bürüyən ətraf aləmin gözəlliyi dərk etməsi üçün təbiətlə baş-başa qoymuş olur:

Genə gəldi bahar fəsli,
Bülbül gəldi dadə-dadə,
Əhmən güllər açıldı,
Saqi, gətir badə-badə! (23:143)

Nəbati istər gəraylılarında, istər qoşmalarında yaratdığı gözəllər təkcə siması ilə deyil, iç dünyasının gözəlliyi, şirin danışığı, məlahətli baxışı ilə insanda nəcib, ürfani duyğular oyadır. Şair yatratdığı obraza - gözələ aşiqdir. Gözələ olan baxışın özündə də şair-qəlbə od salan, baxışları ilə yandırıb-yaxan alovlu məhəbbəti dayanır. Gözəlin vücudu şair-aşiqin qəb çırpıntılarını artırır, eşq dəlisi olan aşiqin dünyası dəyişir, "Yaradana" qarşı rəğbət duyğusu oyadır:

MaşaAllah, qadir Allah,
Gör necə dilbər yaradıb,
Gül üzündə əfşan-əfşan,
Zülfü-müənbər yaradıb. (24:136)

Həqiqi gözəlliyi duyub, duyduran şairin şeirlərində məna gözəlliyi var. O həyatdan uzaqlaşmır, əksinə hər bir söz sanki qulaqda şır-şır axan, qəlbə sərinlik verən dumduru bulaq suyunun səsini nəğmə kimi ruha yayaraq gözəllə özü arasında daxili əlaqə yaratmış olur:

Bu necə nərgizdir, bu necə gözdür?
Bu necə lalədir, bu necə üzdür?
Bu necə şəkərdir, bu necə sözdür?

Nə belə ləl olur, nə belə gövhər! (25:19)

Nəbatidə insanı duymaq, nəcib hisslər oyatmaq istəyi, qəlbdə kök salmış duyğuları bəşəri mövzu kimi qarşı tərəfə yönəltmək bacarığı yüksəkdir.

Ədəbiyyat

1. Doktor Cavad Heyət. Azərbaycan ədəbiyyatına bir baxış. B. Yazıçı
2. Nəbati Əbülqasim (toplayanı B.Behcəti) Azərnəşr, B.1935.
3. Ağamusa Axundov. Şeir sənəti və dil. Yazıçı, B.1980.
4. Seyid Əbülqasim Nəbati. Əsərləri, (tərtib. Ə.Hüseyni) B. Azərbaycan SSR Elmlər Akademiyası, 1968
5. Məhəmməd Füzuli 6 cilddə, II cild. B. Şərq Qərb 2005.
6. Ə.Hüseyni. Nəbati Seyid Əbülqasim. Seçilmiş əsərləri, Şərq-Qərb, B.2004.
7. F.S.Qasımzadə XIX əsr Azərbaycan ədəbiyyatı tarixinə dair tədqiqlər. B. APİ-nin nəşriyyatı, 1960.
8. Firudin Bəy Köçərli. Azərbaycan ədəbiyyatı, 2 cilddə, I cild. B."Avrasiya Press", 2005.
9. Yunis Əmrə. Əsərləri. B. Şərq-Qərb, 2009.
10. 1 F.Qasımzadə XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. B.Elm 1966.
11. M.P.Vaqif. Əsərləri. B.Şərq-Qərb 2004.
12. Q.B.Zakir. Əsərləri. Azərnəşr. B.1953.
13. R.Həmzəyeva. Seyid Əbülqasim Nəbati, B.Yazıçı, 1992.
14. S.Ə.Nəbati. Seçilmiş əsərləri (Tərtib F.Qasımzadə) Azərnəşr, B. 1958.

M.Shahaliyeva

“The body -unity|” lover in the creativity of Nabati

Nabati is one of the poets who trust his talent, who is able to speak about the word, fluttering his heart and soul with love.

In the search of word of Nabati mosaic fineness is felt. His uncomfortable spirit does not come down , flies in the sky, his flaming soul with the love of Body-unity takes him to his beloved. he does not repeat no one, the sweetness of his tongue, the magnitude of his words, the different view of the world, the dissatisfaction with himself, his poetics is different. His recognition as a a murshid among the people around the purity of his soul , raised him to the level of unique craftman. F. K. Kosherli writes: "The word of Nabati is honest and lovable ". The wise poet does not always

understand who he is and what religion he serves, but the real love of the word again and again to the reader.

The soul of a poet's embraced love is based on faith and love for God. Invisible love for God between creates a link among Yunus Emre, who was honored in the Turkic world for centuries. The morality of Yunus Emre who expressed the God's love with sad tongue, looks like a fountain that is drifting from the divine light and comforting the soul. Emre's Sufism came from the Divine Light, dazzled eyes, heart trembling, comforting it is not ordinary love, this love separated the soul from the body leading to the "Body-Absolute",

Yunus it is a worship of God in God. Love of Allah gives comfort to both poets, fills the soul and body with light and fire fire painting.

М.Шахалиева

«Тело-единство |» любитель творчества Набати

Набати - один из поэтов, доверяющих его таланту, который способен говорить слово, трепетав его сердце и душу любовью. В поисках слова Набати чувствуется мозаичность тонкости.Его неловкий дух не спускается, летит в небе, его пылающая душа берет на себя возлюбленную.он никого не повторяет, сладость его языка, великолепие его слов, его поэтика другая. Его признание как муршид среди людей, которые подняли ее до уровня уникального мастера. Ф. К. Кошерли пишет: «Слово Набати честное и милое». Мудрый поэт не всегда понимает, кто он и какую религию он обслуживает, но настоящую любовь слова. Душа объятия любви поэта основана на вере и любви к Богу. Юнус Эмре, которого веками чтили в тюркском мире. Мораль Юнуса Эмре, который выражал любовь бога грустным языком, похожа на фонтан, который дрейфует от божественного света и утешает душу. Суфизм Юнуса Эмре исходил от Божественного Света, ослепленных глаз, дрожания сердца, утешая его ненормальной жизнью, эта любовь отделяется от тела, приводя к Абсолюту Тела.Любовь Бога дает вам утешение обоих поэтов, наполняет душу и тело светом и огнем. огненная роспись.

Rəyçi: Aybəniz Həsənova
Filologiya üzrə fəlsəfə doktoru

ŞƏMS BƏHRAMİ
BDU
shems.dostoyevski@mail.ru

BİRİNCİ DÜNYA MÜHARİBƏSİNİN İNGİLİS ƏDƏBIYYATINA TƏSİRİ (OLDOS HAKSLININ "SARI XROM" ROMANI ƏSASINDA)

Açar sözlər: Oldos Haksli, Birinci Dünya müharibəsi, itirilmiş qəhrəman, Sarı Xrom
Key words: Aldous Huxley, First World War, The lost-hero, Chrome Yellow
Ключевые словы: Олдос Хаксли, Первая мировая война, пропавший-герой, Жёлтый Кром

İngilis ədəbiyyatının önəmli simalarından biri olan Oldos Hakslinin yaradıcılığına müharibənin təsirini araşdırmadan öncə yazıçının yaşadığı dövrün tarixi və ictimai proseslərinə nəzər salınacaq. Məqalədə "itmiş-qəhrəman" kontekstində müzakirə olunacaq xarakterlərin hansı yönlərdən ingiliz cəmiyyətinin xüsusiyyətlərini əks etdirdiklərini anlamaq üçün əsərin yazıldığı dövrün ictimai və tarixi xüsusiyyətlərinə baxmaq önəmlidir.

İngilis cəmiyyətində XIX əsrin sonlarında başlayan cəmiyyətə, dünyaya, insanlığa, dinə və ən önəmlisi gələcəyə olan inamsızlıq XX əsrin əvvəllərində ən yüksək mərhələyə çatmışdır. Başqa sözlə, Sənaye inqilabından sonra dünyanın ən güclü ölkələrində birinə çevrilən İngiltərə XX əsrin əvvəllərində T.S. Eliotun "Ulysses, Order, and Myth" ("Uliss, Nizam və Mif") (1923) adlı məqaləsində də dilə gətirdiyi kimi sanki "boşluq və anarxiyanın ucsuz-bucaqsız panoraması" idi. (1,177)

Bu vəziyyətin başlıca səbəbi o dövrdə insanların Birinci Dünya müharibəsinin pis xatirələri ilə (müharibə nəticəsində Britaniyadan təxminən bir milyon insanın həyatını itirmiş olması kimi) yaşamaqları olur. Digər bir amil isə hər an yeni bir müharibə təhlükəsi ilə üz-üzə olmaları idi. O dövrə dair bir çox tarix kitabına görə Birinci Dünya müharibəsi o dövrün mövcud sosial və siyasi düzənini yerlə bir etmişdir. Bu cür ənənəvi dəyərlərin mənasını itirməsi nəticəsində hər cür dini, ictimai və bədii məhdudiyyət aradan qalxmış, onun yerini azadlıq, lakin eyni zamanda hər şeyə qarşı duyulan bir ümidsizlik almışdır. Hər bir şeyin tamamilə müvəqqəti olması düşüncəsi qədim tabuların gülünc görünməsi nəticəsində yaranmışdır. (2, 115 -142).

T. S Eliotun da mənasızlıq, boşluq və davamlılığın olmaması şəklində təsvir etdiyi o dövrün ümumi mənzərəsi bir çox amilin bir araya

gəlməsi ilə yaranmışdır. İlk öncə bütün dünyada, xüsusilə 1920-ci illərdə sürətlə irəliləyən elm və texnologiya sayəsində davamlı inkişaf və radikal dəyişikliklər müşahidə olunmuşdur. Elm sahəsində ən mühüm məqamlardan biri XX əsrin ən mühüm nəzəri fiziki olaraq adlandırılan alman mənşəli Albert Eynşteynin Nisbilik nəzəriyyəsini inkişaf etdirməsi idi. Bir digəri isə ingilis Con Louqi Berdin ilk rəngli televizoru rəsmi olaraq 1926-ci ildə tanıtmasıdır. Həmçinin Birinci Dünya müharibəsinin, eyni zamanda 1917-ci ildə baş verən Rus İnqilabı da o dövrün mühüm tarixi hadisələrindən biridir.

1923-ci ildə Leyboristlər Partiyasının ilk dəfə hökumət qurması, 1926-ci ildə Ümumi tətilin baş verməsi, Sufrajizm hərəkatı nəticəsində qadınların 1928-ci ildə seçib-seçilmək hüququnu əldə etmələri və League of Nations Unionın (Birləşmiş Millətlər) 1920-ci illərdə qurulması o dövrün diqqətəlayiq hadisələrindən idi (3).

XX əsrin əvvəllərində biologiya, sosiologiya və psixologiya kimi sahələrdə də baş verən ani hadisələr insanın düşüncə tərzini, ən başlıcası isə özünə və kainata münasibətini tamamilə dəyişdirmişdir. Məsələn, elmin materializmi insanı fiziki olaraq yalnız bir orqanizm kimi məhdudlaşdırmışdır. Çarlz Darvinə görə insan təkcə təbiətin bir parçası idi. Eləcə də Freydin psixologiyası sevgi anlayışının yerinə libido anlayışını qoymuşdu. Marksistlərə görə isə insan hər zaman iqtisadi və sosial güclərin təsiri altında idi. 20-ci əsrin əvvəlində ingilis cəmiyyətində yayılan bu yeni fikirlər cəmiyyətdə mühüm dəyişikliyə səbəb olmuşdur. Bu dəyişikliyin nəticəsində intellektual həyatda da dəyişikliklər müşahidə olunmuşdur Bu dövrdə qədim fikirlərin yerini ya yeniləri almış, ya da yeni ideyaların işığı altında qədim fikirlər yenidən formalaşdırılmışdır. Bu baxımdan da XX əsrin əvvəllərində yaradıcılıqla məşğul olan yazıçı və şairlər o vaxta qədər görünməmiş bir prosesə şahid olublar və əsərlərində də bu prosesi əks etdirmişlər.

Daim dəyişən və yeni formalaşan fikirlərə məruz qalan o dövrün intellektuallarını isə ətraflarında baş verənlər dərindən düşündürmüşdür. Ədəbiyyat fikirlərin ifadə edilməsində daha mənalı, müəyyən bir məqsədə xidmət edən təbii bir vasitə olmuşdur. Dünyanın hər yerində hökm sürməkdə olan bu dəyişiklik və qeyri-müəyyənlik, tənqidi bir dünyagörüşünə və eyni zamanda satiranın inkişafına şərait yaratmışdır. Bunun nəticəsində də XIX əsrin burjua əxlaqına söykənən nikbin, nizamlı, mənalı dünyagörüşü artıq geridə qalmışdır. Beləliklə bu dövrdə ədəbiyyat XIX əsr realizmindən modernizmə keçid etmişdir. Cəmiyyətin və incəsənət dünyasının şahidi olduğu bu vəziyyət , abu-hava həmin dövrdə yaşayıb yaratmış yazıçıların əsərlərində öz əksini tapmışdır.

1920-ci illərdə ilk romanlarını yazmış Aldous Haksli o dövr İngiltərəsinin ictimai və tarixi xüsusiyyətlərini "itmiş-qəhrəman" obrazları

yaradaraq əks etdirməyə çalışmışdır. Müəllifin şahidi olduğu dövrün xüsusiyyətlərini əsərlərində əks etdirdiyinə dair ən bariz göstərici Birinci Dünya müharibəsi illərində qonaq kimi qaldığı Garsington Malikanəsi ilə "Sarı Xrom" romanında təsvir olunan Xrom Malikanəsi arasında olan oxşarlıqdır.

Oldos Hakslinin karyerasının dönüş nöqtələrindən biri heç şübhəsiz, kübar cəmiyyətin rəngli siması Ledi Ottolayn Morrellin evi olan Garsington Malikanəsində keçirdiyi zaman ilə başladı. Bədii və intellektual dairələri himayəsinə alması ilə tanınan Ledi Ottolayn Morrell xüsusilə Bloomsbury qrupunun üzvlərini illərlə öz malikanəsində qonaq etmişdir. Garsington Malikanəsi müharibə illərində Morrell ailəsinin D. H. Lourens, Ziqfrid Sassoon, Litton Streyçi, Mark Qertler və Bertran Rassel kimi sənətkar və ya intellektual yoldaşları üçün sığınacaq idi. Hətta 1916-ci ildə Kilyo Bell və Bloomsbury qrupunun digər üzvləri vicdanı və dini inanclarına zidd olduğunu səbəb gətirərək müharibəyə qoşulmaq istəməyəndə, cəza almalarının qarşısını almaq məqsədilə Morell ailəsi onları fermada işləmələri üçün dəvət edirlər. Müharibə müddətində Garsington Malikanəsinə dəvət edilən intellektuallar arasında Aldous Haksli də var idi. Haksli burada Virciniya Vulf, Bertrand Rassel, T.S. Eliot və D.H. Lourens kimi görkəmli simalarla dostluqlar qurmuşdur. Haksli Garsingtondaki təcrübələrindən istifadə edərək o dövrün ziyalılarının bir parodiyası olan ilk romanı "Sarı Xrom"u yazmağa başladı. Hər nə qədər bu roman Hakslinin Garsingtondaki tanışlarını incitsə də, onun diqqətəlayiq bir yazıçı olduğunu təsdiqləyib və onu ədəbiyyat sahəsində irəliləməyə cəsarətləndirdi. Adı keçən romanda qısacası Xrom Malikanəsində bir yerə toplaşan bir qrup qonağın müxtəlif məsələlər ətrafında söhbətlərindən bəhs olunur. Bu qonaqlar vaxtlarının çoxunu yemək yeyərək, içib və öz şəxsi intellektual düşüncələri üzərində ətraflı müzakirələr apararaq keçirirlər. Beləliklə bunun nəticəsində həm obrazların xarakterik xüsusiyyətləri söhbətləri əsnasında bəlli olur, həm də yazıçı müxtəlif mövzularda öz düşüncələrini də oxucuya çatdırmış olur. Haksli üçün bu tərzdə yazılmış roman yaşadığı dövrün özəlliklərini olduğu kimi əks etdirməsi baxımından ən uyğun üsul idi.

Yazıçı "itmiş-qəhrəman" obrazları yaradaraq şahidi olduğu dövrə və o dövrün ictimai və tarixi hadisələrinə istinad etmişdir. Həmçinin müəllifin yaşadığı dövrün mühüm məsələlərinə dair şəxsi düşüncələrini bildirdiyi başqa bir mənbə də yazdığı çoxsaylı məqalələrdir. Məsələn, 1922-ci ildə yazmış olduğu "The Modern Spirit and a Family Party" adlı məqaləsində müəllifin Birinci Dünya müharibəsindən sonra yaranmış şəraitə etiraz olaraq ortaya çıxan Dadaizmə qarşı münasibətini öyrənmək mümkündür: "Bu gün sosial və əxlaqi baxımından məhv olmuş bir dünyada yaşayırıq. Müharibə və yaranmış yeni psixologiya keçmişdə inandığımız ənənə, inanc və dini

dəyərlərin çoxunu yerlə bir etdi. Dadaizm isə, incəsənətin bizə bəxş etdiyi dəyərlərin məhv olmasını təmsil edir. Dada hər şeyi rədd edir. Ruh, əxlaq, vətənpərvərlik, dini dəyərlər yox olmuşkən hamımızın çarəsizcə ayaqda tutmağa çalışdığı son ideal- incəsənət də Dada tərəfindən təcavüzə məruz qalmış və parça-parça olmuşdu" (4, 33). Göründüyü kimi, Haksli yaşadığı dövrün ictimai və tarixi hadisələrinə həssas bir yazıçı kimi laqeyd qala bilməmiş, Dadaizm cərəyanına öz etirazını bildirmişdir.

Dadaizm Birinci Dünya müharibəsinin vəhşiliyinə, eləcə də burjua ədəbiyyatı və incəsənətinə etiraz olaraq yaranmışdır. Məntiqsizlik və alogizm Dadanın ana xətti idi.

Əsrlər boyu bütün dünyada mütləq güc kimi görünən İngiltərənin bu mövqeyi Birinci Dünya müharibəsi ilə sona çatmışdır. XX əsrin əvvəllərində ingilis cəmiyyəti müharibə sonrası mənasızlıq, çarəsizlik, çatışmazlıq və ümidsizliyin hakim olduğu abu-hava ilə üzləşmişdir. Müharibə sonrası yaranmış bu vəziyyətin ədəbiyyatda əks olunması da qaçınılmaz idi. Belə ki, müxtəlif yazıçı və şairlər yaranmış bu şəraiti fərqli şəkillərdə əks etdirməyi seçərkən Aldous Haksli ilk romanlarında "İtmiş-qəhrəman" obrazları yaradaraq yaşadığı dövrün problemlərinə güzgü tutmağa üstünlük verir. Ədəbi əsərlərin hər zaman cəmiyyətin güzgüsü olduğu ideyasına əsaslansaq və cəmiyyətin də fərdlərdən ibarət olduğunu nəzərə alsaq, XX əsrin əvvəlində İngilis cəmiyyəti və mədəniyyətini anlamaq üçün adı keçən romandakı xarakterləri təhlil etmək vacibdir.

O. Haksli "Ədəbiyyat və müasir həyat (1961)" adlı məqaləsində ilk romanlarında "həqiqəti olduğu kimi göstərdiyini" qeyd edir (5,335). Müəllifin "Sarı Xrom"da "həqiqətləri olduğu kimi göstərdiyini" nəzərə aldığımızda, xarakterlərin o dövrün ictimai və tarixi prosesləri əks etdirən bir vasitə olduqları qənaətinə gələ bilərik. Bu eyni zamanda müəllifin Birinci Dünya müharibəsindən sonra İngilis cəmiyyətinin yaşadığı vəziyyəti əks etdirməkdə özünə üsul kimi "qüsurlu" digər bir ifadə ilə desək "itmiş-qəhrəman" olan obrazlar yaratmağı seçdiyini bir daha sübut edir. "Sarı Xrom"dakı xarakterlər bir baxımdan Tomas Eliotun "Bəhrəsiz torpaq" poemasındakı obrazları xatırladır. "Sarı Xrom"un xarakterləri də Eliotun obrazları kimi, müasir həyatın boşluğunu, ümidsizliyini və məna əksikliyini təmsil edirlər. Bu baxımdan sosial və ya psixoloji olaraq paramparçadırlar.

"Müasir siyasət haqqında nə bilirəm? Heç bir şey. Dörd bir yanımda gördüyüm insanlar haqqında nə bilirəm? Heç. Haqqımda, ya da yer üzündəki hər hansı bir şey haqqında nə düşündükləri, beş dəqiqə sonra nə edəcəkləri barədə heçbir fikrim yoxdur. Bütün bildiklərimə baxmayaraq, qəflətən ayağa sıçrayıb bir anda məni öldürməyə çalışa bilərsən".

Göründüyü kimi, Cənab Wimbushun bu sözləri müəllifin Birinci Dünya müharibəsindən sonra ingilis cəmiyyətində müşahidə etdiyi

psixologiyaya istinad etdiyini göstərir. O illərdə insanlar gələcəyə "ümidlə" baxmazlar. Çünki ertəsi gün nə olacağı belə məlum deyil. Bu qeyri-müəyyənlik içində yaşayan insanların düşüncəsinə görə hər an yeni bir savaşın başlama ehtimalı var. Müəllifin düşüncələrinə görə, o dövrdə fərdlər insani dəyərlərə maraqlarını itirmiş, texnoloji inkişafa - sanki mexanikləşməyə - yönəlmişlər. Cənab Vimbuş, "bütün insani təmaslardan xilas olsaq, həyatın nə qədər sevincli və əyləncəli" olacağını düşünür. Çünki ona görə sevgi və dostluq kimi insanı münasibətlərin verdiyi həzzlər şişirdilmişdir. Hətta həzz axtaran insanlar sürülər şəklində toplanıb hay-küy çıxarma həvəsindədirlər. Wimbushun dediyi bu fikirlər o dövrün tarixi və ictimai hadisələrini əks etdirilməsi baxımından əhəmiyyətlidir. Belə ki, XX əsrin əvvəllərində Garsington malikanəsində də tez-tez təşkil olunan "izdihamlı, fərqli şənliklər" geniş yayılmışdır. Bu cür şənliklərin geniş təşkil olunmasının səbəbi sanki o dövr cəmiyyətinin dörd il davam edən Birinci Dünya müharibəsi və bu müharibənin gətirdiyi acı nəticələrini unutma səyləri idi.

Cənab Scogan obrazı isə əsasən "ağlı" təmsil etdiyi və insani hisslərdən məhrum olduğu üçün qüsurludur. Digər bir sözlə, Birinci Dünya müharibəsindən sonra İngiltərədəki ictimai və tarixi prosesləri əks etdirən digər bir "itmiş-qəhrəman" - dır. Yazıçı məntiq adamı Cənab Scogan vasitəsilə, içində yaşadığı cəmiyyətə, dövrə və hətta bütün dünyaya işıq tutan bir çox fərqli məsələ ilə bağlı fikirlərini çatdırır. Bu baxımdan Cənab Scogan digər obrazlardan fərqli olaraq, müəllifin müxtəlif mövzularda fikirlərini ötürdüyü "spikeri" dir.

Hakslinin Cənab Scogan vasitəsi ilə oxucularına çatdırmaq istədiyi məsələlərdən biri daha sonralar bir çox məqaləsində bəhs etdiyi "Nəsil inkişafı elmi"dir. Məsələn, Cənab Scogan "Ailə sistemi ortadan qalxacaq; Öz təməlindən məhrum olan cəmiyyət yeni əsaslar tapmaq məcburiyyətində qalacaq" şəklindəki sözləri ilə müəllifin gələcəkdə elmi proseslərin bəşər övladına yetirəcəklərinə dair düşüncələrini ötürür. Haksli də 1927-ci ildə yazdığı "The Future of the Past" ("Keçmişin Gələcəyi") adlı məqaləsində "Nəsil inkişafı" elminin bəşəriyyətin gələcəyini müsbət istiqamətdə necə dəyişəcəyini belə izah edir: "Gələcəkdə, insan istehsalını inkişaf etdirmək üçün "Nəsil inkişafı" elmi tətbiq olunacağını və instinktlərin vicdansızca yatırılmaq əvəzinə cəmiyyət tərəfindən qəbul edildiyini gözümüzün önünə gətirək. Təhsil hər bir fərd üçün eyni olmayacaq. Fərqli xarakterdəki uşaqlar fərqli təhsil alacaqlar. Cəmiyyət zehni keyfiyyətlərə əsaslanan bir iyerarxiya sisteminə görə təşkil ediləcək və hökumətin quruluşu isə sözün əsl mənasında əsli-nəcabətli olacaq - yəni ən yaxşı olan idarə edəcək" (6,88).

Cənab Scoganın "dünyanı təsadüfiliyin idarəsinə daha buraxa bilmərik" şəklindəki sözləri ilə isə o dövrün tarixi hadisələrinə işarə edir (7,

240). Bu sözlər yazıçının çağına, dünyaya və xüsusilə də Birinci Dünya müharibəsinə istinad etdiyini göstərir.

Cənab Scoganın gələcəkdə "zəka sahibi adamlar birləşməli və əlbir şəkildə çalışmalıdır. Hazırda rəhbər mövqeyindəki axmaqların və dəlilərin əlindən güc alınmalı və "Ağıl Dövləti" qurulmalıdır" şəklindəki sözləri diqqətə layiqdir. (7,141). Cənab Scoganın dilə gətirdiyi bu sözlər vasitəsi ilə, Haksli dövrünün siyasətçilərinə və idarəetmə sisteminə tənqidi baxışının ortaya qoyur. Yazıçının "Sarı Xrom"da təklif etdiyi ağıl dövləti fikrini, məşhur antiutopiya kimi qiymətləndirilən, Brave New World (Cəsur Yeni Dünya) adlı romanında formalaşdırdığını söyləmək mümkündür. Belə ki, Haksli Herbert Uellsin "Men Like God's" (Tanrı Kimi insanlar) adlı utopik əsərini oxumuş və "Cəsur Yeni Dünya"nı Uellsin gələcəyə nikbin baxışını əks etdirən utopiyasının parodiyası kimi yazmışdır.

Cənab Scoganın "ağıllı bir dünyada böyük bir adam olardım yəqin ki, dünya beləykən, bu qəribə yerdə heç bir şey deyiləm" şəklindəki sözləri isə müəllifin dünyagörüşünü əks etdirməsi baxımından əhəmiyyətlidir. Bu sözlərdən də aydın olduğu kimi, Birinci Dünya Müharibəsi və bu müharibənin pis nəticələrinə şahid olan Haksli "dünyanın" "ağıllı" olmadığını düşünür.

Göründüyü kimi, yazıçı yaşadığı dövrə və o dövrün gətirdiklərinə Cənab Scogan vasitəsi ilə fikir bildirir. Həmçinin, bu sözlərdən müəllifin Birinci Dünya müharibəsinin eynilə bir çox digər müharibə kimi məntiqdən, ağıldan uzaq bir iş olduğunu düşündüyü məlum olur. Hakslinin müharibə mövzusundakı oxşar fikirlərinə "Living Through History" (Tarixi Yaşamaq) adlı məqaləsində də rast gəlmək mümkündür. Müəllif adı çəkilən məqaləsində müharibə sonrası dövrdə fərdlərin müharibənin pis nəticələrinə qarşı mövqeyini açıqlayır: “Bizi təəccübləndirən öz laqeydliyimizdir. Milyonlarla insan müharibənin ilk illərini bir növ səssiz məmnuniyyət içində yaşadı. Nəzəri olaraq, tarixdə ən qanlı savaşlardan birinin öz olduqları yerdən o qədər də uzaqda olmadığını bilirdilər, ancaq bu vəziyyət özlərinə birbaşa təsir etmədiyinə görə, məsələ haqqındakı məlumatları tamamilə mücərrəd qaldı. Praktik olaraq, vəziyyətin təhlükəli olduğunu ancaq ərzaq qıtlığı baş verəndə məlum oldu” (8,358)

Cənab Scoganın çadırını ziyarət edən yaşlı bir qadın ilə söhbəti əsərin maraqlı hissələrindəndir.Yaşlı qadının "başqa bir müharibə də baş verəcəkmi ?" sualına, Cənab Scoganın "çox yaxında" şəklində cavab verməsi Hakslinin hələ 1921-ci ildə, "Crome Yellow" adlı ilk romanında gələcəkdə daha bir müharibənin- İkinci Dünya müharibəsinnin baş verəcəyinə dair proqnozunu təsdiq edir. (7, 283-285).

Hakslinin dünyagörüşünə görə Birinci Dünya müharibəsindən sonra ümidsizlik İngiltərənin hər yerində hökm sürürdü. Belə bir cəmiyyətdə

yaşayan insanlar üçün həyat bomboş idi, çünki o vaxtlar bir çox tarix kitabının da dediyi kimi bütün ideallar məhv edilmişdir. Romanın yarımçıqlıq və çatışmazlıq duyğusu ilə sona çatması yazıçının bu fikirlərini dəstəkləyir. Belə ki, baş obraz Denisin romanın sonunda onu Xromdan Londona aparacaq olan maşını cənazə arabasına bənzətməsi də Birinci Dünya müharibəsidən sonra hökm sürən ölüm havasını ağlımıza gətirir. Denisin ingilis şairi Uolter Sevidj Lendorun yetmiş beş illik həyatını dörd sətirə sığışdırdığı "75-ci ad günü üzərinə" adlı şeirinin son misrasından sitat gətirməsi də bu fikri dəstəkləməsi baxımından önəmlidir. “Tabutuna uzanmağının vaxtı gəlmişdi. Maşın qapıdaydı. Cənazə maşını. "Diksindirir və mən ayrılmağa hazıram" dedi, qüsursuz bir uyğunluqla Lendordan istinad edərək. Tələsik ətrafındakı üzlərin birindən digərinə gəzdirdi baxışlarını. Heç kim sitatın fərqinə varmamışdı. Cənazə maşınına mindi. (7,325)

Nəticə olaraq, Aldous Haksli Crome Yellow adlı ilk romanında iki fərqli xarakterlər qrupu yaratmışdır. Birinci qrup obrazlar "təkcə ağıl" ilə hərəkət etdiklərinə görə duyğu və fəaliyyətdən məhrumdurlar. İkinci qrup obrazlar isə "təkcə duyğu" ları ilə hərəkət etdiklərinə görə həzz arxasınca qaçan xarakterlərdir. Fərqli qruplara aid "itmiş-qəhrəman" obrazları yaradaraq müəllif XX əsrin əvvəlində baş verən o vaxta qədər misli görünməmiş tarixi, ictimai və psixoloji hadisələrə güzgü tutmuşdur. Müəllif "Accidie" adlı ("Laqeydlik") məqaləsində o dövrün içində olduğu bu psixologiyanı "bir növ səmərəsizlik, qəm-qüssə və ümidsizlik" şəklində xarakterizə edir (4, 351).

"Fiction and Fact" ("Uydurma və Həqiqət") (1933) adlı məqaləsində isə 20-ci əsrin gətirdiyi bütün yeni təcrübələrin öyrənilməsi, təhlil edilməsi, adlandırılması və ədəbiyyatda əks olunmasının vacib olduğunu qeyd edir. Müasir həyatın təsir etdiyi müasir ədəbiyyatın bir növ vəzifəsi cəmiyyətdə müşahidə olunan narahatlıq, boşluq, çarəsizlik, tənhalıq kimi anlayışları "olduğu kimi" ötürməkdir (5,339). Belə ki, müəllifin özü də Crome Yellowda "itmiş-qəhrəman" obrazları yaradaraq XX əsrin fərdi və ictimai faciəsini ortaya qoymuşdur.

Ədəbiyyat siyahısı

1. Eliot, T. S., (1923), Selected Prose of T. S. Eliot, Frank Kermode (ed.)New York: Farrar, Straus and Giroux

(http://people.virginia.edu/~jdk3t/eliotulysses.htm)

2. Morgan, Kenneth, (1987), History of Britain: 1789-1983, Britain: Oxford Uni. Press

3. A short history of England in the 20th century by Tim Lambert, 2014 http://www.localhistories.org/20thengland
4. Aldous Huxley, Complete Essays, Volume I: 1920-1925, Ed. Robert S. Baker ve James Sexton Chicago: Ivan R. Dee, 2000-ci il
5. Aldous Huxley ,Complete Essays, Volume 6: 1956-1963, Eds. Robert S. Baker James Sexton, Chicago: Ivan R. Dee
6. Aldous Huxley ,Complete Essays, Volume 2: 1926-1929, Ed. Robert S. Baker ve James Sexton Chicago: Ivan R. Dee
7. Aldous Huxley, Crome Yellow, London: Chatto&Windus ,1949-cu il
8. Aldous Huxley ,Complete Essays, Volume 3: 1920-1925, Ed. Robert S. Baker ve James Sexton, Chicago: Ivan R. Dee

Sh.Bahrami

"Impact of the First World War on English Literature.
Based on Aldous Huckley's " Chrome yellow" novel"

Summary

This article, entitled "Impact of the First World War on English Literature.
Based on Aldous Huckley's " Chrome yellow" novel", investigates anti-hero type characters in the aforementioned novel, in each case from two different perspectives. Crome Yellow - Aldous Huxley First novel by Aldous Huxley, published in 1921. The book is a social satire of the British literati in the period following World War I. The book contains a brief pre-figuring of Huxley's later novel, *Brave New World*. Mr. Scogan, one of the characters, describes an "impersonal generation" of the future that will "take the place of Nature's hideous system. In vast state incubators, rows upon rows of gravid bottles will supply the world with the population it requires. The family system will disappear; society, sapped at its very base, will have to find new foundations; and Eros, beautifully and irresponsibly free, will flit like a gay butterfly from flower to flower through a sunlit world." *Crome Yellow* is in the tradition of the English country house novel, as practised by Thomas Love Peacock, in which a diverse group of characters descend upon an estate to leech off the host. They spend most of their time eating, drinking, and holding forth on their personal intellectual conceits. There is little plot development. Before investigating the effects of the war on the Aldous Huxley's works, we will pay attention to history and social processes in these years.

Ш.Бахрами

«Влияние Первой мировой войны на английскую литературу. Основанный на романе «Желтый Кром » Олдоса Хаккли "

Резюме

Перед тем как исследовать влияние войны на творчество одного из важных представителей английской литературы Олдоса Хакслина, будут рассмотрены история и общественные процессы периода жизни писателя. Творческий путь Олдоса Хаксли начинается в духовной атмосфере 20-х годов. Когда буржуазная интеллигенция почувствовала себя растерянной в связи с тем, что первая мировая война нанесла тяжелый удар позиции либерализма, сокрушила веру в буржуазный прогресс. В какой-то мере Хаксли испытывал воздействие идей фабианского социализма и антивоенных настроений «потерянного поколения», однако наиболее характерным для его мировоззренческой позиции стало неприятие научно-технического развития современного общества. Хаксли скептически относится к цивилизации XX в.

В первом романе «Желтый Кром» (Crome Yellow, 1921) писатель противопоставляет «высоколобым» интеллигентам, ведущим бесконечные и бесплодные дискуссии в неспокойной обстановке XX в., счастливую жизнь XVIII в. Герой романа Уимбуш, владелец усадьбы «Желтый Кром», читает своим гостям летопись, охватывающую трехсотлетний период. Таким образом, сцены современной жизни чередуются в романе со сценами из прошлого. Главная идея романа в том, что с ходом истории люди все больше утрачивают связь с природой, устойчивое положение в обществе и оказываются перед лицом катастрофы.

Важно рассмотреть общественные и исторические особенности эпохи, когда было написано произведение, чтобы понять в каких направлениях отражаются особенности английского общества, характеры которых будут обсуждаться в статье в контексте «пропавший-герой».

Rəyçi: Ülfət Bədəlbəyli
Filologiya elmləri doktoru, professor

SƏMƏNİ ABBASOVA
BDU
samani_abbasova@hotmail.com

SƏİD FAİQ ƏBASIYANIĞIN TƏNQİDİ GÖRÜŞLƏRİ

Açar sözlər: Səid Faiq Əbasıyanıq, tənqidi fikirlər, tənqidi məqalələr, türk ədəbiyyatı, türk ədəbiyyatının aktual problemləri.
Key words: Said Faik Abasiyanik, the critical views, critical articles, turkish literature, actual problems of turkish literature
Ключевые словы: Саит Фаик Абасыянык , критические встречи, турецкая литература, критическая статья, актуальные проблемы турецкой литературы.

Səid Faiq Əbasıyanıq ədəbiyyata, bədii yaradıcılığa olan bağlılığını "Xəritədə bir nöqtə" adlı hekayəsindəki "yazmasaydım dəli olacaqdım" ifadəsi ilə bəyan etmişdir.(4,74) Bildiyimiz kimi, Səid Faiqin yaradıcılığı çoxşaxəli olmuş, bütün ədəbi növlərdə öz qələmini sınamışdır. S.Faiqin ədəbiyyatın bütün sahələrində təsiri o qədər böyükdür ki, bəzi yazarlar onun ölümünün ədəbiyyata və şeirə fasilə gətirdiyi qənaətindədirlər. Onun yaradıcılığında tənqidi görüşlərini əks etdirən məqalələri, müsahibələri, reportajları da xüsusi yer tutur. Yazıçının ədəbi axtarışlarının nəticəsidir ki, bu məqalələrdə o ədəbiyyat, tənqid, şeir, hekayə, ədəbiyyatda senzura, mətbuat və ədəbiyyat ilə bağlı bir sıra fikirlərini çatdırmışdır.

"Yazıçılığın iyirminci ilində" başlıqlı məqaləsində Səid Faiq yazar və oxucu münasibətlərinə toxunmuş, yaşadığı dövrdə yazıçı olmağın çətinliklərini vurğulamışdır. Yazıçının əsl qayəsinin oxucunu bəyəndirmək olmadığını dilə gətirən yazar, "əsl yazıçının qələmi nə dövlətə, nə rəhbərə, nə millətə mənsubdur" deyərək, qələmini satanları tənqid edir. Eyni zamanda yazıçılığın bir peşə olaraq görülməməsini, yazıçıya dəyər verilmədiyindən və yazıçı olmağın çətinliklərini dilə gətirir. "Bu günün yazıçısının üstünə böyük bir məsuliyyət qoyulub. Bu problem yalnız və yalnız həqiqəti görüb, həqiqəti yazmaqdan ibarətdir."(1,160) Səid Faiqin yaşamı heç də asan olmamış, həyatında üzləşdiyi çətinliklər onun yaradıcılığına da təsirsiz ötüşməmişdir. Bu çətinlik günümüzdə yazıçı olaraq yaşamağın çətinliyi idi. Yaradıcılığına qarşı bu münasibət yazıçının bir müddət qələminə fasilə verməsinə, ədəbiyyatdan uzaqlaşmasına səbəb olmuşdur.

Ədəbiyyatın inkişafına işıq tutanlar arasında tənqidçilərin xüsusi yeri vardır. Səid Faiq də bu fikirlə yola çıxdığı üçün tənqidçilərin ədəbiyyata lazımi dəstəyini görməməsi onu narahat edir, bu məsələyə bir yazar

həssaslığı ilə yanaşır, biganə qala bilmir. “Amma deyil mi?” məqaləsində müasir tənqidin səviyyəsindən narazılıq edərək bildirir ki, hal-hazırda bəzi tənqidçilər tənqid etmək xatirinə tənqid edir. Həmin tənqidçinin hər hansı bir kitab, yaxud bir yazarla bağlı yazdığı tənqidi yazısına nəzər yetirəndə görmək olar ki, həmin kitab haqqında ən çox dörd, beş cümlə yazılıb. Məqalənin bütünü başqa yazarların tənqidindən ibarətdir. Daha sonra yazıçı Orxan Kamalla Oqtay Ağbalın yaradıcılıqlarını müqayisə edərək, fikirlərini davam etdirir. “Ədəbiyyatda mövzu limiti yoxdur, hər cür mövzuya yer vardır”- qənaətində olan Səid Faiq hər iki yazıçının qələmini bəyəndiyini, hər bir sənətkarın istədiyi mövzuda yazma azadlığının olduğunu və buna görə başqa bir yazarı tənqid etmənin yanlış olduğunu da dilə gətirir.(1,164) Orxan Kamal yaradıcılığında həyat və sosial problemlərlə bağlı mövzulara üstünlük veribsə, bu, insan hisslərinin ifadəsinə daha çox yer verən Oqtay Ağbalın hekayələrinin bəyənilməməsi, oxunulmaması anlamına gəlmir. Və yaxud bu düşüncə ilə yola çıxmış olarsaq, niyə Orxan Kamalın gözəl hekayələrinə, Oqtay Ağbalın günün reallıqlarını əks etdirən hekayələrini fəda etməliyik? Orxan Kamal həyatdan yazırsa, Oqtay da həyatdan yazır. Orxan Kamal duyduğu, sevdiyi və yaşadıqlarını yazdığı üçün, Oqtal Aqbal da duyduğu, gördüyü və yaşadıqlarını yazdığı üçün gözəldirlər. (1,164-165) Səid Faiq bir sıra başqa qəzet məqalələrində və ya müsahibələrində sənət və ədəbiyyatın azad olması fikrini dəstəkləmiş, yazıçıya hər hansı mövzu məhdudluğunun qoyulmasına qarşı çıxmışdır. Yazıçının yaşadığı dönəmdə bu kimi çətinliklərlə qarşılaşması, bəzi qəzet və məcmuələrlə əməkdaşlıq etməməsinin səbəblərindən biri də ədəbiyyatın azad olması fikrini sonuna qədər müdafiə etməsi ilə bağlı idi.

“İki tənqidçi tipi” məqaləsi də yazarın tənqidçi və yazar görüşlərini əks etdirməsi baxımından önəmlidir. Səid Faiqə görə üç cür tənqidçi vardır. Bunların bir qismi: “bu yazı bu səbəbə görə pisdir, bu yazıçı bu mövqedə olduğu üçün yaxşı yazıçı hesab edilə bilməz”- deyən tənqidçilərdir.(1,178) İkinci tip tənqidçilər yeni meydana çıxıb. Yazıçı burda öz başına gələn bir hadisədən yola çıxaraq fikirlərini çatdırır. Vaxtilə onun hekayələrini bəyənən bir dostunun bir ispan hekayəsini oxuduqdan sonra türk hekayələrini ondan aşağı səviyyədə görməsi, həmin yazıçını türk hekayə yazarlarından üstün hesab etməsi, türk hekayəçiliyinin zəif olduğuna dair fikirləri yazıçının diqqətindən yayınmamışdır. Səid Faiqə görə bir hekayə ilə bir yazıçı haqqında fikir bildirmək düzgün deyil. Bir hekayə heç vaxt bir məmləkətin xarakterik xüsusiyyətlərini verə bilməz, versə belə bunu anlamaq üçün həmin dili bilmək lazımdır. Bu zaman həmin hekayəçi ilə bizim yazarlarımızı qarşılaşdırmaq, həmin yazarın üstün cəhətlərini bizim yazıçılarımızın qüsurlarını dostanə bir üsulla, bizim yazarları alçaltmadan, bir müddət əvvəl də həmin yazıçılarımızı sevdiyini unutmadan qeyd edə

bilər. Daha sonra o, Orxan Kamal, Bəkir Sıtqı, Tarıq Buğra, Haldun Tanər, Yaşar Kamal kimi yazıçı dostlarının hekayələrini bir ispan hekayəsindən daha üstün tuttuğunu da bu məqalədə qeyd edir.

Səid Faiq bu tip tənqidçilərə də öz iradını bildirir və bu fikirlərlə öz düşüncələrinə yekun vurur: "Bu hekayədə bir şey var, yoxsa yoxdur? Həqiqətən pisdir mi? Nə üçün pisdir? Bu suallara cavab verməyə çalışın. O zaman biz-yazıçılar da, oxucular da sizi anlayacağıq. Hekayəçi öz yazısını görə bilməz. Hətta adi oxucu da bunu görə bilməz. Bizə bizi göstərin ki, anlayaq. Bəlkə də yaxşılıq etmiş olacaqsınız. Və biz yazmaq sevdasından imtina edəcəyik." (1,182) Ədəbiyyatın, dəyərli əsərlərin yaşaması, tarixin tozlu rəflərinə qarışmasının qarşının alınmasında tənqidçilərin rolu əvəzsizdir. Əlbəttə, Səid Faiq bu fikirləri yazıçının şəxsi mənafesi üçün yox, sənət və ədəbiyyatın yaşaması üçün söyləmişdir. Ona görə də tənqidçiləri sənət və sənətkara dəstək olmağa səsləyir. "Lotreamon haqqında" məqaləsində yazıçı yenə tənqidçiliklə bağlı fikirlərini dilə gətirir və onun asan olmamasından bəhs edir. Tənqidçi hekayəni, şeiri oxumalı, yeri gəldikcə bəzi müqayisələr aparmalıdır. Tənqidçinin qayəsi pisləmək, həcv etmək deyil, kəşf etmək olmalıdır. (3,115) Tənqid hər zaman ədəbiyyatın bir qolu olmuşdur. Müasir ədəbi proses tənqidlə birbaşa surətdə bağlıdır. Tənqid bədii yaradıcılığın daha da inkişaf etməsinə təkan verir. Səid Faiq də bütün bunları qəbul edir, lakin həmin dövrdə yazıçıların bir çox tənqidçilər tərəfindən əsassız bəhanələrlə tənqid edilməsinə, həcv edilməsinə qarşı çıxır və sənət yoldaşlarının müdafiəçisi kimi də çıxış edir. Hər hansı bir bədii mətn tənqidçini qane etmirsə, yazıçını tənqid etmək əvəzinə, əsərdəki nöqsanları, mənfi cəhətləri göstərmək daha məqsədəuyğundur.

Səid Faiq yaşadığı dönəmin mətbuat orqanlarında kifayət qədər yer verilməyən böyük sənətkarlarından biri idi. Yazarın dövrün aktual məsələlərindən sayılan mətbuat və ədəbiyyat problemi ilə bağlı fikirləri "Varlıq" jurnalında dərc etdirdiyi "Hekayəçinin taleyi" məqaləsində öz əksini tapmışdır. Bu məqalə yazıçı və müxbir kimi fəaliyyət göstərən, əsl peşəsi hüquqşünas olan İlhan Tarusa cavab olaraq yazılmışdır. Qəzetlərin ədəbiyyata üz döndərməsindən qaynaqlanan səbəblərdən dolayı bir çox tanınmış yazıçılarımız qəzetlərlə əməkdaşlıq etmirlər. Dərc olunan hekayələrin qəzetin son səhifələrində olması, məişət mövzularına daha çox yer verilməsi, hekayələrə lazımı dəyərin verilmədiyini və "hekayənin yeri qəzetin ya son səhifəsi, ya da ondan bir əvvəlki səhifədir"-deyərək öz tənqidi fikirlərini qələmə almışdır.(1,174) Səid Faiqin fikrincə ədəbiyyatın inkişafında qəzet, məcmuə və ədəbi jurnalların təsiri böyükdür. Lakin öz dövründə qəzet və məcmuələr ədəbiyyata nəinki dəstək olmuş, əksinə çətinliklərin daha çox olmasını öz məqalələrində vurğulamışdır.

S.Faiq hər şeydən öncə bir ədəbiyyat inqilabçısıdır. (6,4) O, Türkiyə ədəbiyyatında modern hekayəçiliyin əsas simalarından olmuş, ənənəvi hekayə qəliblərini qırmış və türk hekayəçiliyinə yeni bir nəfəs gətirmişdir. Lakin Səid Faiq şeirdə də öz qələmini sınamış, az sayda şeirlər də yazmışdır. Yazdığı hekayələrin bir çoxunda şeirsəl ifadə tərzini görməmək mümkün deyil. Bütün bunlar onun şeirə çox yüksək qiymət verməsindən xəbər verir. "Ölüm heç də pis deyil" məqaləsində şeiri sevən və üstün tutan S.F.Əbasıyanıq fikirlərini belə ifadə edir: "Şeir olmayan yerdə insan sevgisi də olmaz. İnsanı insana ancaq şeir sevdirir. Müharibələr şeirsizlikdən yaranır. Cinayətlər şeirin oxunmadığı yerlərdə baş verir. Qüvvətli insan şeir sevmədiyi üçün zəyif insanı döyür.."(1,195) Əslində S.Faiq şeiri bütün sosial mübarizələrin hegemonyasından qurtarmaq istəyir. Digər tərəfdən şeirin savaşların qarşısını alacağı inancıyla utopik bir davranış nümayiş etdirir. (6,9) Yazar yeri gəldikcə gənc şairləri yenilik axtarışlarını dəstəkləyir və onların istifadə etdiyi sadə dili şeirdə daha təsirli hesab edir. Bu şairlərdən Orxan Vəlinin şeiriyyətini və şeirlərində işlətdiyi yad ünsürlərdən arınmış türkçəni bəyəndiyini qeyd etmiş, lakin onun şeirlərinin məktəb dərsliklərinə salınmamasına da öz etirazını bildirmişdir. Yazıçının şeirlə bağlı düşüncələrini əks etdirən məqalələrindən biri də "Bir məcmuə haqqında" adlı məqalədir. Burada S.Faiq "Sərvəti-fünun" məcmuəsində çıxış edən İ.Berk, S.Aksal, H.Fəxrinin şeirləri ilə bağlı dəyərləndirmələr aparmış, şeirdə nəsri xatırladan uzun cümlələrin işlənməsini tənqid etmişdir. Yazarın fikirlərindən bunu anlamaq olar ki, o şeirdə formanı da mühüm hesab etmiş və onun pozulmasını şeirə nöqsan gətirən cəhətlərdən biri kimi görmüşdür. Səid Faiq nə Tənzimat, nə də Sərvəti-fünun nəslini bəyənir. Ona görə M.Füzuli Ə.Hamiddən böyük sənətkardır. Onun sənəti bu dövrün sənətçiləriylə müqayisə edilməyəcək dərəcədə irəlidədir. Məqalələrində əks etdirdiyi tənqidi görüşlərində Səid Faiqin cümhuriyyet öncəsi mədəniyyət və sənət həyatına rəddedici münasibəti aydın görünür. Yazıçının bu baxış bucağı yaşadığı dövrün sənət və ədəbiyyat anlayışıdır. (6, 7)

Səid Faiqin ədəbiyyat, günümüz romanıyla bağlı düşüncələrini əks etdirən: "Bizə Xalid Ziyanı tövsiyə etməyin, bizə Prustu önə sürün. Biz zövq əvəzinə fayda gözləyirik!",- başlıqlı yazısı xüsusi maraq doğurur. Bu məqalədə o, günümüz romanının müasir vəziyyəti, bir çox yazarlarla bağlı fikirlərini bəyan etmişdir. Səid Faiq modern romanın başlanğıcını qoyan Xalid Ziyanı qüvvətli bir roman ustası hesab edir. Peyami Safanın romanları ilə eyni dərəcə modern olan bu romanlarda Avropanın təsiri açıq-aşkar özünü biruzə verir. Lakin biz bu gün hər hansı bir əsəri lüğətlə bərabər oxuyuruqsa, niyə bu lüğətlə Prust oxumayaq?! Xalid Ziyanın yazılarını bugünkü dilimizə uyğunlaşdırması təqdirəlayiqdir. Lakin biz faydalanmaq istəyiriksə, mütləq Prustlara, Dostoyevskilərə müraciət etməliyik. Əgər yerli

bir yazıçı tövsiyə edirsinizsə, bu, niyə Peyami Safa olmasın? Hər iki yazarın əsərlərinin dilini müqayisə etdikdə, Peyami Safanın türkcəsi daha anlaşıqlıdır və lüğətə ehtiyac yoxdur. Ömər Seyfəddin və Yaqub Qədri yaradıcılığına da münasibət bildirən S.F.Abasıyanığın fikrincə onları oxumaq da yerində saymaqdan başqa bir şey deyildir. "Bu əsərlər mənə zövqdən başqa heç nə verə bilmir. Buna görə də zövqdən, hissdən başqa şeylər axtarıram. Bunlar nədir? Fikir, ruh, psixologiya, fəlsəfə , sözün qısası, həyat problemidir. Oxuduqlarım buna cavab verir mi? Sənət bir araşdırmadır. Yoxsa bir həqiqət, bir tapıntı, bir icad deyildir.."(2,113) Yazıçı həmin dövr yazılan romanlarla bağlı mənfi-müsbət fikirlərini söyləməklə yanaşı, Prust, Dostoyevski, Gide, Bodler, Edgar Po, Höte, Şiller, Şekspir kimi dünya ədəbiyyatında iz buraxan yazıçıların əsərlərinin oxunmasının labüdlüyünü vurğulayır.

Səid Faiqlə aparılan müsahibələr də onun ədəbi-nəzəri görüşlərinin təhlili baxımından zəruridir. 1936-cı ildə dərc olunan "Hecaçılar yox!" başlıqlı yazıda "hecaçılar" adlandırılan ədəbi nəsli qəbul etmədiyini bildirir. Qeyd edək ki, "Beş hecaçılar" adlı ədəbi qrup I Məşrutə inqilabından sonra heca vəzniylə, xalq diliylə şeir yazan beş şairin türk ədəbiyyatında yaratdığı qrupun adı idi. Bu şairlər Orxan Seyfi, Enis Behiç, Xalid Fəxri, Yusif Ziya və Faruk Nafizdır.(7,127) Səid Faiq belə bir ədəbi qrup adının olmasına etirazını bildirir və buna arqumentlər gətirərək öz fikrini isbat etməyə çalışır. Əgər "hecaçılar" dedikdə heca vəznində şeir yazanlar nəzərdə tutulursa, bu nə F.Nafız, nə O.Seyfi, nə də Y.Ziyadır. Heca vəznini xalq təbəqəsindən çıxarıb elit təbəqəyə gətirən isimlər Məhməd Emin, Ziya Göyalp və Rza Tofiq olublar. O, yeni nəsil türk şeirində Cahid Sıtqı, Ziya Osman, Ömər Bədrəddin, Behçət Kamal, Şövkət Hıfzı və Cövdət Qüdrətin adın çəkirsə, yeni nəslin ən yaxşı hekayəçiləri sırasında isə Səbahəddin Əli, Səməd Ağaoğlu, Kənan Hulusini qeyd etmişdir və onları modern nəsilin öncülləri hesab etmişdir.

"Nə üçün yazıçı yaranmır?" adlı müsahibələrinin birində Səid Faiq yazıçı olaraq üzləşdiyi çətinliklərdən bəhs açmış, ədəbiyyatda senzura məsələsinə toxunmuşdur. Səid Faiq özü də senzura ilə qarşılaşmış, "Şahmərdan" kitabına daxil olan "Çelme" hekayəsinə görə hərbi məhkəməyə cəlb edilmişdir. Məhkəmədə bəraət qazansa da, bu hadisənin özündə və anasında dərin izlər buraxdığını müsahibələrində də qeyd etmişdir. 1944-cü ildə nəşr olunan "Medar-ı Maişet Motoru" romanının səbəbsiz toplanması yazıçını yaradıcılığa küsdürür. O günlərdə qarşılaşdığı Ömər Faruk Topraka bu sözləri söyləyir: "Yazmayacam artıq. Əmək verib yazırsan, öz pulunla nəşr etdirirsən, toplayıb bir kənara atırlar. Yazmayacam."(5,45-46) Bu səbəbə görə yazıçı məqalələrinin bir çoxunda bu problemə toxunmaqla senzuraya qarşı çıxır, bir çox hallarda səbəbi araşdırılmadan əsərlərin

toplanmasından şikayət edir. Eyni zamanda, yazıçı qəzet və məcmuə sahiblərinin qəzetlərində tərcümələrə daha çox önəm verdiyini də tənqid etmişdir.

Səid Faiqin dil inqilabı ilə bağlı fikirləri də maraqlıdır. Dil dəyişməsinin vacibliyini vurğulayan yazara görə, yeni fikirlər yeni qəliblər içində anladılmalıdır. Yeni ədəbiyyat üçün dil inqilabı böyük bir şans və qazancdır. Yazara görə dilin məhdudluğundan şikayət edən sənətkar həqiqi sənətkar deyil. Əsl sənətkar bu məhdudluqdan sənət yaratmağı bacarmalıdır. Şopen özünü necə musiqi sədalarına buraxırsa, ədəbiyyatçı da özünü kəlimələrə buraxmalıdır.

"Məhməd Fuad üçün" məqaləsində mətbuat və ədəbiyyatla bağlı fikirləri öz əksini tapır. Qəzetlərin ədəbiyyata laqeyd münasibəti, ədəbiyyatçılara üz çevirməsini, indiki qəzetlərdə daha çox idman, cinayət, məişət məsələlərinə daha çox yer verilməsindən şikayət edir. Yazıçıya görə, qəzetlər özləri şair, hekayəçi, tənqidçilərlə daim əlaqə saxlamalı və onlardan yazı almalıdır. Çünki bu qəzetlərin özü də bir ədəbi mənbədir, ədəbiyyat tarixinin özüdür. Daha sonra Məhməd Fuadın Səid Faiqin dilinin çətinliyinə işarət edərək söylədiyi "səni universitet tələbəsi belə başa düşə bilməz" və bir sıra tənqidi fikirlərinə cavab verir.(3,120) Səid Faiq bir yazıçı kimi mənəvi dəyər, hörmət görmədiyini də bildirir. Özünü Rafiq Xaliddən, Esat Mahmud bəydən üstün görmədiyini, lakin bütün əziyyətinin qarşılığında bir yazıçı olaraq özünü sevdirə bilməməsindən də şikayət edir.

"Sivaslı ağac"a adlı müsahibəsində İlhan Tarusun ədəbiyyatla bağlı bəzi fikirlərinə cavab vermişdir. İ.Tarusa görə elmsiz ədəbiyyat olmaz və ədəbiyyatla məşğul olan insanların akademik bilik almaları vacibdir. Bildiyimiz kimi, Səid Faiq təhsil aldığı İstanbul Universitetinin ədəbiyyat fakültəsində təhsilinə yalnız iki il davam edə bilir, Türk dili və ədəbiyyatı şöbəsinin dil və ədəbiyyat sahəsində elmi incələmələrlə məşğul olduğunu görüncə buradan uzaqlaşmağa qərar verir. (5,39). Yazıçıya görə ədəbiyyatçının akademik təhsil alması önəmlidir, lakin bu yaranan əsərlər nə qədər mükəmməl olsa da, hər zaman əksik cəhətləri mövcud olur. Bu əksiklik nə formada, nə üslubdadır. Bu əsərlərdə "sənət parıltısı" yoxdur.(3,130) Nəzərə almaq lazımdır ki, indiyə kimi yaşamış sənətkarların bir çoxunun akademik təhsili olmayıb, lakin onlar ədəbiyyatda qalmağı bacarıblar. Səid Faiqə görə sənət azad olmalıdır və yazıçı bu azadlığı çirkini, yalanı, pisi əks etdirmək üçün istifadə etməlidir. Sənət həyatın içində olan hər cür həqiqəti göstərməlidir.

Araşdırdığımız məqalələrdən, müsahibələrdən bu nəticəyə gəlmək olar ki, ədəbiyyat, bədii yaradıcılıq yazar üçün hər zaman ön planda olmuş, ədəbiyyatın hobbi olaraq qəbul edilməsinə qarşı çıxmışdır. O, humanizmi,

insan sevgisini sənət fəlsəfəsinin ağırlıq mərkəzi olaraq qəbul etmiş və yaradıcılığında da əks etdirmişdir.

Ədəbiyyat

1.Abasıyanık S.F. Balıkçının ölümü.Yaşasın edebiyyat. Ankara: Bilgi Yayınevi, 1993.
2.Abasıyanık S.F. Açık hava oteli. Ankara: Bilgi Yayınevi, 1992.
3.Abasıyanık S.F. Sevgiliye mektup. Ankara: Bilgi Yayınevi, 1993.
4.Abasıyanık S.F. Son kuşlar. İstanbul: Türkiye İş Bankası Kültür Yayınları, 2012.
5.Kavaz İ. Sait Faik Abasıyanık. İstanbul: Şule yayınları, 2005.
6.Korkmaz F. Sait Faik`in poetik görüşleri.
http://www.yasambilimleridergisi.com
7.Kuş D. "Beş hececiler"de bir değer olarak "Milli romantik duyuş tarzı".
http://sbe.balikesir.edu.tr

S.Abbasova

The Critical Views of Said Faik Abasiyanik

Summary

Said Faik Abasiyanik was one of the greatest Turkish writers of short stories and poetry. He was considered an important literary figure of the 1940s. He created a brand new style in Turkish literature. Said Faik Abasiyanik brought new life to Turkish short story writing with his harsh but humanistic portrayals of labourers, fishermen, children, the unemployed, and the poor. His stories focused on the urban lifestyle and he portrayed the denizens of the darker places in Istanbul. He also explored the "...torments of the human soul and the agony of love and betrayal. Although Said Faig is well known for his stories in the Turkish literature, his critical views also have a special place among his works. In this regard, it is important to examine his articles and interviews published in newspapers. In these articles, Said Faig highlighted some of the current issues of his period and shared his views on the well-known figures of the Turkish literature. At the same time, his views on the genres of poem, story, and novel and critical views on the censorship in literature, as well as issues in press and literature have been met with interest.

С. Аббасова

Критические встречи Саида Фаика Абасыяныга

Резюме

Абасыянык сыграл большую роль в становлении современной турецкой прозы, особенно жанра рассказа, дав ему новую жизнь своим резким, но гуманистическим изображением чернорабочих, детей, безработных, бедняков. Писатель выдвинул на первый план сложный внутренний мир «маленького человека», достигнув высокого мастерства в его изображении. Его произведения лиричны и имеют несколько импрессионистскую окраску. Местом их действия являются Стамбул или ближайшие острова. Море всегда было важнейшей темой его творчества. Его реалистические рассказы, базирующиеся на субъективных наблюдениях, часто отражающих неожиданные аспекты событий, оказали заметное влияние на современную турецкую прозу. В деятельности С.Ф.Абасыянык критические встречи занимают особое место. Поэтому важно исследовать статьи, которые напечатаны в газетах. В этих статьях писатель затронул некоторые актуальные проблемы своего времены. Так же писатель в этих статьях высказал свои мнения о знаменитых тюркских писателях. Наряду с этим его мысли о стихах, рассказах и романах, о литературной цензуре, критические встречи, которые связаны с вопросами литературы, вызывают особый интерес.

Rəyçi: Firuzə Ağayeva
Filıologiya elmləri doktoru, professor

RUZANƏ SÜLEYMANOVA
Gəncə Dövlət Universiteti
ruzana@mail.ru

YUNUS ƏMRƏ İRSİNİN DÜNYA ƏDƏBİYYATŞÜNASLIĞINDA ÖYRƏNİLMƏSİ

Açar sözlər: Yunus Əmrə, şair, tərcüməçi, poeziya,tədqiqat
Key words: Yunus Emre, poet, translator, poetry, investigation
Ключевые слова: Юнус Эмре, поэт, переводчик, поэзия, исследование

XIII əsr türk təsəvvüf şairi Yunus Əmrə sözünün sehri həm öz zamanında, həm də ölümündən sonra insanlarda maraq doğuraraq diqqət mərkəzində olmuşdur. Şairin şeirlərinə olan maraq bütün əsrlərdə insanları özünə cəlb etmiş, onun sehrindən qurtara bilməmişlər. Türkiyədə şairin divanı dəfələrlə müxtəlif araşdırıcılar tərəfindən toplanaraq nəşr edilib yayılmışdır. Bundan sonra da şairin şeirləri dünya dillərinə tərcümə olunmağa başlamışdır.

1971-ci ildə Polşada "Ossolineum" nəşriyyatında "Dünya ədəbiyyatı topluları" silsiləsində çap olunmuş "Türk ədəbiyyatı tarixi"nə təsadüf olunur. Bu kitab Stanislava Plyaskovitska, Münəvvər Bojetska və M. Labentska-Kexer tərəfindən tərtib olunmuşdur. Polşada 1976-1977-ci illərdə Yan Syopinskinin tərcümə və şərh etdiyi "Yunus Əmrənin məsləhətləri" traktatı nəşr edilmişdir. Şairin divanından götürülmüş şeirlərin ilk tərcümələri 1980-ci ildə üç aydan bir çıxan "Pşeqlyond Orientalistiçni" toplusunda dərc olunmuşdur. Şeirlərin tərcüməsi Andjey Ananiçə məxsusdur. O, tərcüməsində 1976-cı ildə professor Əbdülbağı Gölpinarlı tərəfindən Ankarada nəşr olunmuş "Yunus Əmrə. Həyatı və bütün şeirləri" kitabından istifadə etmişdir. Topluda şairin aşağıda adları qeyd olunan şeiriləri çap olunmuşdur. "Eşidin, ey yarenler, eve dervişlər geldi", "Sana derim, ey vəli, dur ertə namazına", "Sənsən Kərim, sənsən Rahim, Allah, sənə sundum əlim", "İstərdim Allahı, buldum isə nə oldum", "Canlar canını buldum, bu canım yağma olsun". (1)

M.Labentska-Kexer öz məqaləsində yazır: "Ananiçin tərcümələrinin nəşrindən üç il sonra "Pşeqlond Orientalistiçni" jurnalında "Yunus Əmrə və onun rolu" sərlövhəsi altında bir məqalə çap etdirdim. Məqalədə qısa şəkildə əsl elmə (irfana) aparan Vahid Yol, Məqsədə və Fənaya qovuşmaq mərhələləri barəsində sufi təlimini şərh etdim" (1,25). 1985-ci ildə dünya poeziyası klassikləri silsiləsindən Yunus Əmrənin "Yol" adlı şeirlər kitabı nəşr olundu. Kitaba şairin əlli əsəri daxil edilmişdir. Şeirləri seçib ayırmaq, kitabı nəşrə hazırlamaq, geniş ön sözü və annotasiya yazmaq da mənim

öhdəmə düşdü. Tərcümə üçün seçilən Yunus Əmrənin bir çox şeirləri həm insana, həm də Allaha mistik məhəbbət himnləri təsiri bağışlayır. Bu, tərcüməçini bəzi qaranlıq məqamları aşkarlamaq zəruriyyəti ilə üzləşdirir. Türk dilindəki mətn müxtəlif şəkildə anlaşıla bilər, tərcümə variantı isə buna imkan vermir. Polyak dilində cümlələrin semantik funksiyası dəqiq məna tələb edir.

Lakin polşalı şeir həvəskarları Yunus Əmrə yaradıcılığı ilə yalnız bu kitabın köməyi ilə tanış olmamışlar. "Yol"un nəşrindən bir qədər sonra Polşa radiosu polyak və xarici şairlərə həsr olunmuş verlişlər silsiləsində Yunus Əmrənin şeirlərini səsləndirmişdir. Elə həmin il Marek T.Novakovski tərəfindən təşkil olunmuş yarımsaatlıq verilişdə türk şairinin on doqquz əsəri polyak səhnəsinin ən görkəmli aktyorları tərəfindən ifa olunmuşdur. Polşa-Türkiyə cəmiyyəti tərəfindən iki poeziya gecəsi – birincisi "Yol"un nəşrindən əvvəl, ikincisi isə keçən il Türkiyə Respublikasının milli bayramı münasibətilə təşkil olunmuşdu. Qısa rəsmi hissədən sonra iki aktyor dinləyicilər tərəfindən dərin rəğbətlə qarşılananYunusun şeirləri oxundu. Əlbəttə bütün bunlar türk mütəsəvvüf şairinə və onun yaradıcılığına olan məhəbbətdən irəli gəlirdi.

Rus ədəbiyyatşünaslığında Yunus Əmrə yaradıcılığının nə zamandan öyrənilməyə başlanması bizim üçün də maraqlıdır. Rus ədəbiyyatşünaslığında Yunus Əmrə yaradıcılığına yanaşma tərzi heç də bir mənalı olmamışdır. "Istoriya vsemirnoy literature", "Sovetskiy ençiklopediçeskiy slovar","Bolşaya sovetskaya ençiklopediya", "Kratkaya literaturnaya ençiklopediya" və digər bir çox sözlük, sorğu kitabları , təməl kitablar , jurnallar , dövrü mətbuatda Yunus Əmrə və onun yaradıcılıq dairəsi haqqında məlumatlar çox zəifdir.

Rus türkoloqları XX əsrin 60-cı illərindən başlayaraq Yunus Əmrə haqqında oxuculara bir sıra məlumatlar verməyə çalışmışlar. Əsrin 70-ci illərindən Moskovadaki "Xudojestvennaya literatura" nəşriyyatı "İz staroy tureçkoy poezii" adlı kitapda Yunus Əmrə, Əhməd Paşa, Mahmud Abdul Bakı, Yusuf Nabi, Əhməd Nəbinin yaradıcılığına aid olarak S.Lipkin, V.Tixomirov, N. Qrebnev, A.Şarapova, J.Ryaşentseva tərəfindən nümunələr təqdim edilmişdir. Kitabda xüsusilə Yunus Əmrə yaradıcılığına heç bir yöndən münasibət bildirilməyərək, bir necə şeirinin tərcüməsi verilib.

Yunus Əmrənin bir sıra şeirləri "İnostrannaya literatura" jurnalında "Ədəbi miras" rublikasında özünə yer alır. Onları rus dilinə çevirən S. Lipkin həm də təqdim etdiyi nümunələrə "İnsan qəlbinə yol" adı altında kitaba ön söz də yazmışdır. S. Lipkin yazır: "Yunus Əmrə şeirləri ilə tanış olmaq mənə poeziyanın yeni materikini kəşf imkanını verdi Dünyanın sufi, panteist dərki ilə zəngin farsdilli ədəbiyyatla mən çoxdan məşğulam. Yunus

Əmrənin mənimçün cəlbedici olmasə heç də ona görə deyil ki, o, şeirlərini Türkiyə türkcəsində qoşan sufi-şairlərdən ən məhşurudur" (2, 188).

Rus ədəbiyyaında Yunus Əmrə haqqında ilk fundamental əsər yazan V.Kudelin olmuşdur. Onun "Yunus Əmrə poeziyası" (Yunus Əmrənin Şeiri) adlı monoqrafiyası Moskovada 1980-ci ildə çap olmuşdur. V. Kudelin Yunus Əmrəni ilk Türk sufi şeyxi kimi, onun karamətləri ilə əlaqədar nümunələr verməklə onu həm də bir vəli kimi rus oxucusuna təqdim etmişdir. Bundan başqa Kudelin Yunus Əmrənin təsir dairəsindən danışarkən "İbrahim Gülşəni öz şeirlerini Yunus Əmrənin təsiri ilə yazmışdır" (10, 161) deyə, qeyd edir və fikrini hər iki şairin şeirlərindən nümunələr gətirməklə əsaslandırır.

V. Kudelin göstərir ki, Yunus Əmrə ilə bağlı tədqiqatların əsasını məşhur Avstriya alimi Hammer-Purqstalın qoyduğunu söyləməklə, bu alim Türkiyə poeziyası haqqında yazdığı fundamental əsərdə Yunus Əmrəni səhvən XVI əsr şairlərinə aid edir. Yunus Əmrə yaradıcılığı ilə bağlı bolqar ədəbiyyatşünas alimi R. Mollov da bəzi məlumatlar vemişdir (3,188-189).

Gürcü ədəbiyyatşünaslığında şair haqqında ətraflı məlumat verən və onun şeirlərindən müqayisələr aparan türkoloqlardan biri də şərqşünas alim E. Cavalidze olmuşdur. Onun "Türk ədəbiyyatının qaynaqları" adlı əsəri iki hissədən ibarətdir. Əsərin birinci hissəsi "Cəlaləddin Rumi" adlanır. Bu bölüm 1979 -ci ildə Tbilisidə rus dilində çap olmuşdur. Biz burada Türk mütəsəvvüf şairi Ruminin dövrü, həyatı, Məsnəvidən verilən nümunələri, onun sələfləri haqqında məlumatlarla tanış oluruq.

E.Cavalidzenin kitabının ikinci bölümü "Yunus Əmrə" adlanır. Müəllif kitabın bu bölümündə Yunus Əmrənin mürşidi Tapdıq Əmrə olduğunu , Yunus Əmrənin onun dərgahında oturub bir mürid kimi onu dinləyərək irfan elminin sirlərini öyrənməsindən söz açır. Haqqında söz açdığımız hər iki əsər rus oxucusuna ilk dəfə olaraq ətralı şəkildə Turk mutəsəvvüfü Yunus Əmrə haqqında ətraflı məlumat verir. Onun səyahət etdiyi ölkələrin coğrafiyası, dəfn olunduğu yer və s. haqqında əhəmiyyətli məlumatları oxuculara çatdırmaqla yanaşı, həm də bəzi müəlliflərin bir sıra irəli sürdüyü müddəaların və orta əsrlər mədəniyyətinin indiyə qədər sinkretik əlamət və xüsusiyyətlərindən istifadədə şair haqqında yaranan rəvayət, bu janrın xüsusiyyətlərinin nəzərə alınmamasını, daha doğrusu, şair-müqəddəsin obrazının bölünməzliyi, ayrılmazlığı ilə bağlı məqamları diqqət mərkəzinə çəkir (4, 120) ,

Türkiyə poeziyasının bu qədər tanınmış simalarından olan Yunus Əmrə yaradıcılığının uzun zaman kəsiyində rus türkoloqlarına və şərqşünaslarına tanış olmadığını təəssüf hissi ilə qeyd edən V. B. Kudelin görkəmli rus türkoloqu V. D. Smirnovun XIX əsrin sonlarında Sankt-Peterburqda nəşr etdirdiyi "Türkiyə ədəbiyyatı tarixi oçerkləri" kitabında

Cəlaləddin Rumi, onun oğlu Sultan Vələd, Aşıq Paşanın adlarını çəksə də, Yunus Əmrə haqqında bir kəlmə belə fikir söyləmədiyini, akad. A. J. Krımskinin isə Yunus Əmrə yaradıcılığının heç bir orijinallıq kəsb etmədiyini və əsərlərinin məzmununu onun kor-koranə şəkildə Cəlaləddin Rumidən əxz etdiyini söylədiyinin də həqiqətdən uzaq olduğunu göstərir.

1978-ci ildə Moskvadakı "Xudojestvennaya literatura" nəşriyyatı " İz staroy tureteskoy poezii" adlı kitabda Yunus Əmrə, Əhməd-Paşa, Mahmud Abdul Bakı, Yusif Nəbi, Əhməd Nəbinin yaradıcılığına ardıcıl olaraq S. Lipkin, V.Tixomirov, N.Qrebnev, A.Şarapova, J.Ryaşentseva tərəfindən nümunələr rus oxucularına təqdim edilmişdir. Kitabda əsasənYunus Əmrənin yaradıcılığına baxış yox, şeirlərindən tərcümələr yer tutur (5, 9-76). Bundan başqa Yunus Əmrənin bir sıra şeirləri "İnostrannaya literatura" jurnalında "Ədəbi irs" rublikasında özünə yer alır. Onları rus dilinə çevirən S.Lipkin həm də təqdim olunmuş nümunələrə "İnsan qəlbinə daxilolma..." başlıqlı ön söz də yazmışdır (6, 188-195). S. Lipkin nəinki Türkiyə, həm də Azərbaycan, özbək, türkmən, qazax, qaraqalpaq, bir sözlə, türk xalqları və şərq ədəbiyyatının bilicisi və təbliğatçısıdır. Onun klassik Azərbaycan ədəbiyyatından rus dilinə çevirmələri tərcümə ədəbiyyatının yaxşı nümunələrindəndir.

Moskvada nəşr olunan "İz staroy turetskoy poezii" kitabına "Beş şair" adlı ön söz yazan qazax yazıçısı O.Süleymanov yazır: "Rus oxucusu fars lirikasını, ərəb nağıllarını, qədim hind dastanlarını, Uzaq Şərqin qədim miniatürlərini yaxşı bilsə də, XIII-XVIII yüzilliklərdə yaşamış türk şairlərinin əsərlərindən xəbərsiz olduğunu və onun tərcümələrinin rus oxucularına ilk dəfə təqdim edildiyindən danışır" (7, 5-8).

Yenə də Moskvada "Xudojestvennaya literatura" nəşriyyatında 1983-cü ildə çapdan çıxmış "Turetskaya aşukskaya poeziya" kitabına doqquz şairin yaradıcılığından nümunələr daxil edilmişdir ki, bu sıra Yunus Əmrədən başlayraq Qayğısız Abdal, Pir Sultan Abdal, Qaracaoğlan, Aşıq Ömər, Dərdli, Ərzurumlu Əmrah, Rüxsəti və Aşıq Veysəlin əsərlərini çevrələyir (8,3-14).

Kitaba türk xalqları ədəbiyyatı üzrə tanınmış mütəxəssis prof. X.Koroğlunun yazdığı "Peredslovie" hissəsində qeyd olunur ki, Türkiyə poeziyasının nüfuzu, nəğməkarı, təbliğatçısı və onun səlahiyyətli nümayəndəsi olan Nazim Hikmət yaradıcılığından başqa, qədim Türkiyə ədəbiyyatı, təəssüf ki, bizim ölkəmizdə geniş məlum olmadığını diqqət mərkəzinə çəkməklə, burada "Xudojestvennaya literatura" nəşriyyatının oxucuları qədim Türkiyə ədəbiyyatı nümunələri ilə, əvvəl folklor səpkili "Ceyran ağlayışı. Türkiyə xalq poeziyası" (1966), sonra " Qədim Türkiyə poeziyasından" (1983) kitablarının adlarını çəkir (9, 5).

Yunus Əmərə yaradıcılığının dünya ədəbyyatşünaslığında öyrənilməsi və onun ilahilərinin dünya dillərinə tərcümə olunması günümüzün vacib məsələlərindən biridir. Bu türk övliyasının ilahilərinin dünya dillərinə tərcümə olunaraq yayılması insanlar arasında dostluğun, qardaşlığın, humanizmin yayılmasından xəbər verir. Bu tərcümələr bir də onu göstərir ki, türk övliyasının yazdığı ilahilər Allah sevgisini insanlar arasında yayır və yaşadmağa xidmət edir.

Ədəbiyyat

1. M. Labentska-Kexer. Yunus Əmrə poeziyasının Polşada dərki. Türkologiya jur.1995 № 5.
2. Липкин С. Войти в людское сердце…// «Иностр. лит-ра», 1978, №9.
3. Моллов Р. М. Юнус Эмре. «Краткие сообщения Института народов Азии». М., 1962, № 60
4. Джавалидзе Э.Д. У истоков турецкой литературы. II Юнус Эмре.Тбилиси, 1985.
5. Из старой турецкой поэзии. М., Худож. лит., 1978
6. Юнус Эмре. Пер. с турец. и вступ. сл. С Липкина. // «Иностр. лит-ра», 1978, №9
7. Куделин В. Б. Философские и морально-этические проблемы в поэме Юнуса Эмре. // «Рисалят-аль-Нусхия». Литература и время. М., 1973.
8. Турецкая ашыкская поэзия. Пер. с турец., М., Худож. лит., 1983.
9.Короглы Х. Предисловие. // Турецкая ашыкская поэзия. М., Худож. лит. 1983.
10.Hümmətova X. Yunus Əmrənin lirikası. Bakı, “Ruemi”, 2006.

R.Suleymanova

Studying of Yunus Emre’s heritage in the literary criticism of the world

Summary

The article deals with the investigation of the literary activities of the great mystical poet of the 13th century Yunus Emre. Here is noted that the poems of the poet in Polish language published in 1971.

The translator was Andrey Ananich. He has choose all these poems for translation from the book “Yunus Emre. Life and his poems” published in Ankara in 1976 by the professor Abdulbagi Golpinarli. Some poems of Yunus Emre translated in the journal “Inostrannaya literatura” by the

Russian translator S.Lipkin. But the first fundamental work has been written about Yunus Emre by Kudelin. In the article also are given the information about the translation of Yunus Emre's poems in Georgian language.

R.Suleymanova

Изучение наследия Юнуса Эмре в литературной критике мира

Резюме

Статья посвящена исследованию литературной деятельности великого мистического поэта 13-го века Юнуса Эмре. В ней отмечается, что стихи поэта на польском языке опубликованы в 1971 году. Переводчиком был Андрей Ананич.

Эти стихи были выбраны для перевода из книги «Юнус Эмре. Жизнь и его стихи», опубликованной в Анкаре в 1976 году профессором Абдулбаги Голпнарли. Переводы некоторых стихов Юнуса Эмре были напечатаны в журнале «Иностранная литература» русским переводчиком С.Липкиным.

Но первая фундаментальная работа о Юнусе Эмре была написана В. Куделиным. В статье также дается информация о переводе стихов Юнуса Эмре на грузинский язык.

Rəyçi: Leyli Əliyeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent

NƏRGİZ KƏRİMOVA
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,
nergizkerimova622@gmail.com

AZƏRBAYCAN BƏDİİ ƏDƏBİYYATI ÇİN DİLİNDƏ

Açar sözlər: Azərbaycan, ədəbiyyat, ədəbi əlaqələr, Çin dili, tərcümə
Key words: Azerbaijan, literature, literary relation, Chinese language, translate
Ключевые слова: Азербайджан, литература, литературные отношения, Китайский язык, перевод

Azərbaycan-Çin mədəni əlaqələrinin tarixinə nəzər saldıqda məlum olur ki, Sovet dövründə bu əlaqələr xüsusi bir ardıcıllıqla həyata keçirilmişdir. Bu, ilk olaraq onunla əlaqədar idi ki, əvvəlki tarixi dövrlərdən fərqli olaraq, Çinlə mədəni əlaqələrin genişlənməsi Sovet dövlətinin xüsusi siyasəti idi. Sözügedən münasibətlər ikitərəfli əməkdaşlıq kontekstində reallaşdırılırdı. Azərbaycan da SSRİ-nin tərkib hissəsi kimi ümumdövlət siyasətindən çıxış edərək Çinlə əməkdaşlıq edirdi.

Azərbaycan və Çin arasında ədəbi əlaqələr də Sovet dövründə daha yüksək templə inkişaf etmişdir. Azərbaycanın bir çox görkəmli yazıçılarının, şairlərinin əsərləri Çində çin dilində nəşr olunmuş, eyni zamanda, Azərbaycanda Çin ədəbiyyatının görkəmli nümayəndələrinin əsərləri dilimizə tərcümə olunaraq yayınlanmışdır. Digər tərəfdən, müxtəlif qarşılıqlı səfərlər, ezamiyyətlər ədəbi əlaqlərin inkişafına töhfə vermişdir.

Ədəbi əlaqələrin genişlənməsində bədii tərcümə müstəsna rol oynamışdır. Bədii tərcümə sadəcə hər hansı bir əsərin bir dildən başqa dilə çevrilməsi deyil, eyni zamanda, əsərin bir milli mədəniyyətdən digərinə köçürülməsi, forma, məzmun və ideyası ilə transformasiyasıdır. Tərcümə zamanı iki milli mədəniyyət və ədəbiyyat üz-üzə dayanır. Əsgər Rəsulov yazır: "Tərcümə işi müasir dövrdə sosial-mədəni inkişafın, milli mədəniyyətlərin qarşılıqlı təsirinin, xalqların bir-birinə yaxınlaşması və elmi-iqtisadi inteqrasiyasının, bir-birini milli və ümumbəşəri dəyərlərlə zənginləşdirməsinin ən mühüm vasitələrindən biridir" (7, 14). Dünya ədəbiyyatının qarşılıqlı zənginləşmə istiqamətindəki inkişafı tərcümə vasitəsilə formalaşmışdır. Tərcümə əsərləri bir ədəbi irs kimi ədəbiyyatların zənginləşməsində nüfuzlu vasitəçilərdən biridir. "Tərcümə ədəbiyyatı xalqlar arasındakı mədəni əlaqələrin sıxlaşmasına səbəb olur, xalqlar arasındakı dostluğu və əməkdaşlığı daha da möhkəmləndirir. Onlar bir-birlərinin tarixi, mədəniyyəti, həyat və məişəti, adət və ənənələri, mənəvi varlığı ilə tanış olurlar." (11, s.270)

Azərbaycanda tərcümə sənətinin tarixi ərəb və fars dilindən edilən tərcümələrin ənənəsi ilə bağlıdır. Sovet dövründə isə tərcümələr əsasən rus dilindən və əksinə edilirdi. Dünya ədəbiyyatı nümunələri də dilimizə rus dili vasitəsilə çevrilirdi. Çin ədəbiyyatının tədqiqi zamanı da daha çox rusdilli mənbələrdən istifadə olunmuşdur. Müasir dövrümüzdə tədqiqatların orijinal mənbələr əsasında öyrənilməsi, araşdırmaya cəlb olunması və müqayisəli şəkildə tədqiq edilməsi əsas prinsiplərdən sayılır. Dilin mükəmməl öyrənilməsi xalqların əlaqələrinin möhkəmlənməsinə rəvac verir. Çin dilindən Azərbaycan dilinə bir çox bədii nümunələr, eləcə də, Azərbaycan ədəbiyyatından çin dilinə müxtəlif əsərlər Sovet dövründən başlayaraq tərcümə edilmişdir. Bədii ədəbiyyat örnəklərindən "Kitabi-Dədə Qorqud" dastanı, Nizami Gəncəvinin "Leyli və Məcnun" poeması, Mirzə İbrahimovun "Gələcək gün" romanı, Mehdi Hüseynin "Abşeron" romanı, Səməd Vurğunun seçilmiş şeirləri, Ələviyyə Babayevanın "Adamlar və talelər" romanı, Hamlet İsaxanlının şeirləri çin dilinə tərcümə olunmuşdur.Kitabi-Dədə Qorqud dastanı Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsi olub, XI-XII əsrlərə aiddir. Dastan Azərbaycanda baş vermiş hadisələrlə səsləşir. Eposun bizə gəlib çatmış əlyazma nüsxələrinin köçürülməsi XVI əsr müəyyən olunur. Bəzi tədqiqatçıların fikrincə, "Kitabi-Dədə Qorqud"da vaxtilə bəzi digər qədim türk dastanları kimi başdan-başa şeirlə yaradılmış, sonra isə yaddaşlarda yalnız əsas motivləri qaldığından, yazıya köçürülərkən nəsrlə bərpa edilmişdir. İlk dəfə abidə haqqında məlumatı alman alimi F.Dits vermiş və "Təpəgöz" boyunu alman dilinə tərcüməsi ilə dərc etdirmişdir. V.V.Bartold eposun 4 boyunu rus dilinə çevirərək çap etdirmişdir. O, 1922 -ci ildə dastanın tam tərcüməsini başa çatdıra bilmişdir. Həmin tərcümə H.Araslı və M.Təhmasibin redaktəsi ilə 1950-ci ildə Bakıda, 1962-ci ildə isə Moskvada nəşr olunmuşdur. "1952-ci ildə E.Rossi Vatikan kitabxanasında əsərin yeni bir nüsxəsini tapıb italyanca tərcüməsi ilə birlikdə nəşr etdirmişdir. "Kitabi-Dədə Qorqud" dastanının ilk Azərbaycanlı tədqiqatçısı Əmin Abid olmuşdur. "Kitabi-Dədə Qorqud" Türkiyədə ilk dəfə 1916-cı ildə Kilisli Müəllim Rifət, Azərbaycanda isə 1939-cu ildə akademik H.Araslı tərəfindən nəşr olunmuşdur. Sonralar əsər ingilis, alman və fars dillərinə tərcümə edilmiş, İngiltərədə, İsveçrədə, Amerika Birləşmiş Ştatlarında və İranda çapdan çıxmışdır" (10). Eyni zamanda, Azərbaycan, türk, rus, ingilis, alman, fransız, fars və ərəb dillərində «Kitabi-Dədə Qorqud» dastanı haqqında elmi-kütləvi kitabçanı Bəkir Nəbiyev və Yaşar Qarayev nəşr etdirmişdir."Kitabi-Dədə Qorqud" dastanı ayrı-ayrı türkdilli ölkələrdə son yüzillikdə dəfələrlə nəşr olunmuşdur. Kitabi-Dədə Qorqud dastanı, göründüyü kimi, tərcümə vasitəsilə dünyanın hər yerində sevilərək oxunmuş və tədqiq edilmişdir. Çinli tədqiqatçı Liu Cao Azərbaycan ədəbiyyatının incisi sayılan "Kitabi-Dədə Qorqud" dastanını çin dilinə tərcümə etmişdir. Çində dastanın çin dilində nəşrinin təqdimatı da keçirilmişdir. Tərcümənin ön sözündə

yazıçı Anar yazır:"Gerçəkdən də iki qədim dünyanı - Orxan-Yenisey dünyasını və Kitabi-Dədəm Qorqud dünyasını yaxınlaşdıran həm bədii ənənələr, həm də idealların uyğunluğudur." (4)

Dastanın nəşri hər iki ölkənin ədəbi əlaqələrinin inkişafında mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın dahi şairi Nizami Gəncəvinin bədii irsi ümumbəşəri mahiyyət daşıyır, dahi şair öz yaradıcılığı və elmi-fəlsəfi fikirləri ilə Şərq bədii təfəkkürünü zənginləşdirmişdir. Nizami Gəncəvinin əsərləri dünyanın bir çox dillərinə tərcümə edilmişdir. Eyni zamanda, "Leyli və Məcnun" əsərinin çin dilinə də çevrilməsi həyata keçirilmişdir. Şairin "Leyli və Məcnun" əsəri "Xəmsə"yə daxil olan üçüncü poemasıdır. Əsər 1188-ci ildə fars dilində yazılmışdır. Poemadan ilk tərcümə ingilis dilinə Ceyms Atkinson tərəfindən edilmişdir. Azərbaycan dilinə isə tam bədii tərcüməni Səməd Vurğun həyata keçirmişdir. Belə ki, dahi şair və mütəfəkkir Nizami Gəncəvinin "Leyli və Məcnun" poeması ilk dəfə 1984-cü ildə çin dilinə tərcümə olunmuşdur. Tərcüməçi Can Xonniyən (Zhang Hongnian) "Xəmsə"yə daxil olan bu poemanı orijinaldan tərcümə etmişdir. Qeyd edək ki, kitabın ön sözündə şair haqqında məlumat verilərkən onun fars şairi olduğu qeyd olunmuşdur. Tərcüməçi ön sözdə "Leyli və Məcnun" poemasında şairin insanın mənəvi əsarətinə və məhəbbətin faciəsinə səbəb olan ictimai-dini ziddiyyətləri tənqid etdiyini vurğulamışdır. Məlumdur ki, "tərcüməçi müraciət etdiyi əsərin mənsub olduğu xalqın tarixinə, ənənələrinə, düşüncə tərzinə bələd olmalı, həmin xalqın yetirdiyi sənətkarın fərdi yaradıcılıq "xüsusiyyətlərini yaxşı bilməlidir"(8, 53). Çində Nizami və onun yaradıcılığına xüsusi rəğbət bəslənmişdir. Belə ki, Nizami Gəncəvinin 2012-ci ildə Çin Xalq Respublikasının Pekin şəhərinin ən böyük parklarından biri olan Çaoyan parkında büstü qoyulmuşdur (6). Nizami Gəncəvinin büstünün müəllifi Cintay İncəsənət Mərkəzinin direktoru, professor Yüen Sikundur. Parkda, eyni zamanda, müxtəlif xalqların dahi şəxsiyyətlərinin də büstü vardır. Nizami Gəncəvinin Pekində büstünün qoyulması xalqlarımız arasında tarixən mövcud olan mədəni əlaqələrin dərinləşməsində xüsusi əhəmiyyət kəsb edir. Nizami Gəncəvinin "Leyli və Məcnun" poeması və seçilmiş şeirləri yenidən 2017-ci ildə farsşünas alim Can Honnyen tərəfindən çin dilinə tərcümə olunaraq kitab halında çap olunmuşdur. Tərcüməçi ön sözdə yazır: "Nizami Gəncəvinin əsərləri farsdilli ədəbiyyatın zirvəsində durur, onun Azərbaycan şairi olması danılmaz tarixi faktdır. Nizami ölməz əsərləri ilə bütün bəşəriyyətə məxsusdur"(5). Eyni bir əsərin müxtəlif vaxtlarda, müxtəlif tərcüməçilər tərəfindən bir neçə dəfə tərcümə olunmasına səbəb isə mütərcimin tərcümənin hansısa cəhətləri ilə razılaşmaması və əsəri yenidən tərcümə etmək ehtiyacı hiss etməsidir.

Azərbaycanın görkəmli yazıçısı, ictimai xadimi Mirzə İbrahimovun yaradıcılığı dünyanın müxtəlif ölkələrində tanınmış və təbliğ olunmuşdur.

Onun əsərləri Azərbaycanın hüdudlarını aşıb xarici ölkə mətbuatında geniş yayılmışdır. Ədibin bədii nümunələri bolqar, polyak, alman, fransız, ispan, macar, rumın, çin, uyqur dillərinə tərcümə olunmuşdur. M.İbrahimovun çoxşaxəli ədəbi yaradıcılığı və əməli fəaliyyəti ilə sülh, demokratiya və xalqlar dostluğu ideyalarını təbliğ etməsi, xalqlar arasında sıx əməkdaşlıq tellərinin möhkəmlənməsinə çalışması onu görkəmli ictimai xadim kimi səciyyələndirmişdir. İctimai-tərbiyəvi əhəmiyyətə malik olan "Gələcək gün" romanı müasir Şərqin milli demokratik hərəkatı mövzusunda yazılmış dəyərli əsərlərdən biridir. Məhz bu səbəbdən əsər çin dilinə tərcümə edilmiş və Çində geniş oxucu kütləsinə təqdim edilmişdir. Bununla yanaşı, ədəbiyyatın mübarizə və amalını, xalqların sülh və dostluq ideyasını möhkəmləndirmişdir. Əsər M.İbrahimovun bədii irsinin bir sıra əsas xüsusiyyətlərini ehtiva etməklə yanaşı, ona dünya şöhrəti qazandırmışdır. "Gələcək gün" qısa müddət ərzində Azərbaycanın sərhədlərini aşaraq bütün dünya xalqlarının dillərinə tərcümə edilmiş, M.İbrahimovu dünya miqyasında tanıtmışdır. "Gələcək gün"də irəli sürülən müasir ictimai-siyasi problemlər beynəlxalq hadisələrlə səsləşdiyinə görə, dünya ədəbi fikrinin nəzərini cəlb etmişdir. Dünya şöhrətli azərbaycanlı yazıçı, nasir, tərcüməçi, publisist, əməkdar mədəniyyət işçisi Ələviyyə Babayeva hekayə, povest, roman yazmaqla yanaşı, onlarla xarici ölkə ədəbiyyatı nümunələrindən tərcümələr etmiş, əsərləri dünyanın müxtəlif dillərinə ən çox tərcümə olunan azərbaycanlı yazıçı qadın kimi tarixə düşmüşdür. Onun əsərləri rus, alman, ingilis, fransız, gürcü, latış, ispan, italyan, çex və hətta çin dilinə tərcümə olunmuşdur. Yazıçı Sadıq Elcanlı yazırdı: "Adamlar və talelər" romanı Çində, "Hardasan dost, harda" romanı İranda fars dilində, "Küləyin tərkində" romanı Fransada, "Bəlkə sabah olmadı" romanı isə İsraildə nəşr olunmuşdu. Hələ Rusiyada, Türkiyədə nəşr olunan əsərləri demirəm. Elə buna görə də o, Ələviyyə Babayevanı "Azərbaycan ədəbiyyatının xarici ölkələrdə "səfiri " adlandırırdı (9).Yazıçının "Adamlar və talelər" romanı çin dilinə tərcümə edilərək Çində nəşr olunmuşdur. "2000-ci illərdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Çin Xalq Respublikasında səfərdə olarkən Ələviyyə Babayevanın çin dilinə tərcümə olunmuş "Adamlar və talelər" əsərini ona təqdim edərək böyük iftixarla demişlər: "Biz Azərbaycan yazıçısı Ələviyyə Babayevanın əsərini çin dilinə tərcümə etmişik. Bu kitab ölkədə çox populyar olub"(9). Çində ulu öndərin 90 illik yubiley tədbirləri çərçivəsində yazıçı Hüseynbala Mirələmovun "Görkəmli adamların həyatı" seriyasından "Heydər Əliyev" kitabı Çin dilinə tərcümə olunaraq nəşr edilmişdir (1). Eyni zamanda, Ulu öndərin 90 illik yubiley tədbirlərinin materialları kitab şəklində nəşr olunmuşdur (3). Azərbaycan Dillər Universitetinin Çin Mədəniyyət Mərkəzi tərəfindən 2014-cü ildə "Çin dili"

dərs vəsaiti Azərbaycan dilində işıq üzü görmüş, Hamlet İsaxanlının Çində şeirlər kitabı çin dilinə tərcümə edilərək çapdan çıxmışdır (2).

Müstəqillik illərində Azərbaycan-Çin ədəbi əlaqələri yeni müstəvidə başlamış və bu əlaqələr bu gün də davam etməkdədir. Hal-hazırda Azərbaycan-Çin ədəbi əməkdaşlığının səmərəli bir dövrü yaşanmaqdadır. Ən yüksək səviyyədə aparılan dövlətlərarası danışıqlar, qarşılıqlı səfərlər, görüşlər ədəbi əlaqələrimizin bu günkü inkişafından və gələcək perespektivlərindən xəbər verir. Azərbaycan-Çin elmi əlaqələrinin yeni istiqamət kimi böyük elmi perspektivləri vardır.

Ədəbiyyat

1. Görkəmli adamların həyatı" seriyasından "Heydər Əliyev" kitabı Çin dilində çapdan çıxmışdır. "Azərbaycan" qəzeti, 2013, 7 noyabr, səh.3
2. Hamlet İsaxanlının Çində şeirlər kitabı çıxıb. "525-ci" qəzet, 2009, 10 iyun, səh.7
Hamlet İsaxanlı. Şeirlər. Çin dilində. Central Compilaton&Translation Press, 2009
3. "Azərbaycan" qəzeti, 2014, 4 fevral, səh.9
4. 先祖阔你库特书研究(Research on the book of Dede Korkut). 中国民族大学出版社. (China Minzu University Press). 2017
5.https://azertag.az/xeber/Nizami_Gencevinin_eserleri_CHin_dilinde_nesr_olunub-1127412
6. Pekində dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin büstü qoyulmuşdur. "Azərbaycan" qəzeti. 7 dekabr 2012ci il, s.6
7. Əsgər Rəsulov. Tərcümə nəzəriyyəsi və təcrübəsi. Bakı, "Elm və təhsil", 2015, s.159
8. Lyudmila Səmədova. Tərcümə mətninin redaktəsi. Bakı, "Sabah", 2016, s.124
9. http://baki-xeber.com/medeniyyet/26743.html
10. http://az.wikipedia.org/wiki/Kitabi-Dədə_Qorqud
11. C.Əzimov. Tərcümə prinsipləri. Bakı, Azərnəşr, 1955

Н. Керимова

Азербайджанская художественная литература на китайском языке

Резюме

В советские времена литературные отношения между Азербайджаном и Китаем выросли более высокими темпами. Произведения

многих известных писателей и поэтов Азербайджана опубликованы на китайском языке в Китае, и в то же время были переведены работы видных представителей китайской литературы на азербайджанский язык. Художественный перевод сыграл исключительную роль в расширении литературных отношений. Художественный перевод - это не просто перевод какой-либо работы с одного языка на другой, но и преобразование произведения из одной национальной культуры в другую форму, содержание и идею.

Из примеров азербайджанской художественной литературы« Китаби-Деде Горгуд », « Лейли и Маджнун » поета Низами Гянджеви, роман Мирзы Ибрагимова« Будущий день », роман « Абшерон» МехдиГусейна, избранные стихи СамедаВургуна, роман« Люди судьбы» Алевии Бабаевой, стихи Гамлета Исаксанли в разное времена были переведены на китайский язык. Висследование были изучены образцы художественной литературы переведенные на китайский язык.

NKarimova

Azerbaijan art literature in chinese language

Summary

Literary relations between Azerbaijan and China have also grown at a higher pace in the Soviet period. Works of many prominent writers and poets of Azerbaijan have been published in Chinese language in China and at the same time works of prominent representatives of Chinese literature in Azerbaijan have been translated into our language. Literary translation had played an exceptional role in expanding literary relationships. The literary translation is not merely the translation of any work from one language into another, but it is also transformation ofform, content and ideafrom one national culture to another. Azerbaijani literary samples such as "Kitabi-Dede Gorgud" epos, Nizami Ganjavi's epic poem "Leyli and Majnun", Mirza Ibrahimov's novel "Future day", Mahdi Huseyn's "Absheron" novel, Samed Vurghun's selected poems, " People and tragedies" novel by Aleviyya Babayeva, Hamlet Isaxanli's poems have been translated into Chinese within a long time. Samples of literary literature translated into Chinese have been studied and investigated.

Rəyçi: İsa Həbibbəyli
Akademik

SƏLİQƏ İBRAHİMOVA
Bakı Dövlət Universiteti
madinaibraqimova@mail.ru

1950-70-Cİ İLLƏR İNGİLİS ƏDƏBİYYATINDA YENİ NƏSR

Açar sözlər: ədəbiyyat, insan, nəsr, roman, ingilis, II Dünya Müharibəsi, "Qəzəbli gənclər"
Ключевые слова: литература, человек, проза, роман, английская, II Мировой Война, "Рассерженные молодые люди"
Keywords: literatury, human, prose, novel, English, II World War, "Angry young men"

XX əsrdə baş verən ən böyük hadisə - insanlıq tarixinə, ictimai həyata ən çox təsir edən, hətta xalqların yox olmasına, yeni dövlətlərin yaranmasına səbəb olan İkinci Böyük Dünya Müharibəsidir. Bu müharibədən təsirlənən ölkələrdən biri də İngiltərə olmuşdur. Müharibə yeni bir dünya nizamının qurulmasına və ictimai həyatda köklü dəyişikliklərə səbəb olmuşdur.Bu dövr Qərb ədəbiyyatında, eləcə də İngilis nəsrində birbaşa döyüş səhnələrinə deyil, daha artıq dərəcədə müharibədən qayıtmış insanların sonrakı həyatının yeknəsəqliyinə, tənhalığına, sosial problemlərinə həsr edilmiş əsərlər üstünlük təşkil edirdi.

XX əsr yazıçıları əsərlərini adi insanın müxtəlif obrazları ilə dəyişdirirdi. Bu insanlar çox böyük bir məhəbbətlə, xüsusi, fərqləndirici üsullarla təsvir edilirdi. Qeyd edə bilərik ki, yazıçı dövrünə laqeyd qala bilməz, onlar həyatda baş verənlərə əsərlərində fikir bildirməli, münasibətlərini əks etdirməlidir. XX əsr ingilis yazıçıları da yaşadıqları cəmiyyətin əxlaqi problemlərinə toxunurdular, mənəvi durğunluqdan bəhs edirdilər. Ümumiyyətlə, əsər yazıçının laqeydliyinin, yaxud zorkılığının məhsulu ola bilməz. Həyatda bir çox yaxşı və pis şeylər görmüş yazıçı daha çox insan həyatına və azadlığına dəyər verməyi bilməlidir.

İngilis ədəbiyyatında modernizmin ən mühüm atributlarından olan psixoloji təsvir üsulu daha əvvəlki əsrdən təşəkkül tapmağa başlamışdı. II Dünya müharibəsindən sonra Böyük Britaniyada modernist əsərlər geniş yayılmağa başladı. İnsan tənhalığa məhkum olunmuş qurban kimi təsvir edən əsərlər ümidsizlik motivləri ilə doldu. Müxtəlif modernist yazıçıların yaratdıqları obrazlarla ifadə etdikləri ideyalara münasibət müxtəlif cür dərk edən Ayris Merdok (Iris Murdoch, 1919-1999) və Uilyam Qoldinq (William Golding, 1911-1993) kimi yazıçıların fəlsəfi, estetik axtarışları eyni istiqamətə yönəlmişdi. Bu yazıçılar dövrün ən geniş vüsət almış

cərəyanlarından olan ekzistensializm fəlsəfi cərəyanının təsirini yaxından hiss etmişlər **(1).**

Yuxarıda adlarını qeyd etdiyimiz yazıçılar ədəbiyyatın əsas vəzifəsini insana daha artıq diqqət və maraq göstərməkdə, onun əməyindən, fəaliyyətindən çox şəxsiyyətini, mənəviyyatını açmaq, təhlil və əks etdirməkdə görürdülər. Onlar sözün əsl həqiqi mənasında həyat gerçəkliklərini tərənnüm və vəsf etmir, onu ciddi bədii mühakimənin mövzusunun predmetinə çevirə bilirdilər. XX əsrin əvvəllərində meydana gələn, realizmi inkar edən, ekspressionizmi, dadaizm, konstruktivizm, simvolizm, imajizm, sürrealizm və s. məktəblərdən ibarət olan modernizm abstrakt təfəkkürə əsaslanır, insanı cəmiyyətdən ayırır, dünyanı narahat, həmişə dəyişikliyə, yeniliyə can atan fərdin şüur və şüuraltı komplekslərinə əsaslanaraq soyuq və sərt rənglərlə, müxtəlif konstruksiya və simvollardan istifadə etməklə əks etdirir **(1).**

İngilis yeni nəsrinin tədqiqində diqqətimizi daha çox cəlb edən məsələlərdən biri də onun zəngin üslublara malik olmasıdır. Yeni nəsrin qəhrəmanları, ənənəvi ədəbiyyatdan fərqli olaraq adi adamlardır. Hər biri mürəkkəb psixologiyaya malik olan bu adamların təsvir etmə missiyasını isə əvvəlki nəsr yerinə yetirə bilməzdi, çünki o dövr realizmi canlı, real insanlardan daha çox müxtəlif hadisə və epoxal dəyişmələri qələmə alırdı. Bununla demək olmaz ki, yeni nəsr həmin stereotip və çərçivələrdən birdən-birə çıxdı.Sadəcə olaraq, zahiri möhtəşəmlikdən qəti imtina edərək, qəhrəmanın daxili aləminə yönələn diqqət bunu tələb edirdi.

XX əsr ingilis ədəbiyyatında müxtəlif, qismən də olsa qarşıduran cərəyanların çoxluğu yeni dünya və insan konsepsiyasının əsrlərin hüdudunda insan fəaliyyətinin xarakterinin dəyişməsinin nəticəsi kimi dərk etməyin vacibliyi ilə izah edilir. Əsasən, İkinci Dünya Müharibəsindən sonra Uilyam Qoldinq, Qrem Qrin (Graham Greene, 1904-1991), Ayris Merdok və b. ingilis nəsr yazıçıları öz orijinal yaradıcılıq üslubları ilə dünya ədəbi fikrində yeni yol açaraq ədəbiyyat tarixinə düşdülər. Mükəmməl sənət nümunələri yaradan bu yazıçıların əsərlərinə dünyanın əksər ədəbiyyatçıları və oxucuları tərəfindən göstərilən böyük maraq həmin ədəbi nümunələrin müxtəlif dillərə çevrilməsinə səbəb oldu. Dünya ədəbiyyatı tarixində mühüm ədəbi hadisə olan Böyük Britaniya nəsri bir çox yaradıcı meyillərin yaranmasında, özündən sonrakı ədəbiyyatların inkişaf perspektivlərin müəyyənləşməsində mühüm rol oynadı **(3).**

Ayris Merdok iyirminci əsrin ən yaxşı roman yazarlarından biri kimi, eyni zamanda müasir ədəbiyyatın tanınmış klassiki kimi tanınır. Onun ilk romanı "Tor altında" (Under the net, 1954) əsəridir. Bundan başqa yazıçının "Sehrbazın əlindən qaçış" (The flight form the Enchanter, 1956), "Zəng"

(The bell, 1958), "İtaliyalı qız" (The italian girl, 1964) və s. kimi bir çox məşhur əsərləri vardır.

XX əsrin məşhur ingilis yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatına layiq görülən Uilyam Qoldinq yaşadığı müddətdə on iki roman və ona bütün dünyada məşhurluq gətirən "Milçəklər kralı" (Lord of the flies, 1954) əsərini yazmışdır. Uilyam Qoldinq "Milçəklər kralı" əsərində insanı dünyanın ən dəhşətli canlısı kimi qələmə almışdır.

Həm Ayris Merdokun, həm də Uilyam Qoldinqin əsərlərində günün tələbləri, insani münasibətlərdə baş verən böhran və bəşəri dəyərlər arasında ziddiyyət, onların əsərlərində qəribə və son dərəcə orijinal ədəbi vasitələr müstəvisində açılır. Beləliklə, ədəbiyyatda süjet, kompozisiya və bədii təhkiyənin yeni, indiyə qədər sınanılmamış üsulları meydana gəlmişdir.

İnsanın sosial fəaliyyətinin bədii inikası, əslində kompleks şəkildə öyrənilməli olan problemdir və bu məsələlərin ədəbiyyat kontekstində dərindən öyrənilməsi, fikrimizcə, bədii obrazın spesifikası ilə bağlıdır, çünki ədəbi mətnlərdə, xüsusən də bədii nəsr mətnlərində insanın sosal fəaliyyəti bədii obraz vasitəsi ilə açıqlanır. Bədii nəsr mətnlərində insan konspesiyası bədii obraz müstəvisində spesifik şəkildə açıqlanmasından başqa, həm də yazıçının dünyaya baxışının müxtəlif konseptual tərəflərini ortaya qoyur. Bədii obraz, məlum olduğu kimi, gerçəkliyin əks etdirilməsi üsuluna xas olan, onun estetik ideal mövqeyindən, bilavasitə konkret hissi qavrayış formasında ümumiləşdirilməsidir. Ədəbiyyatçı bir sənətkar kimi insanı öyrənir, yaxud öyrənib əxz etdiklərini müvafiq insan obrazında təcəssüm etdirir.

“Müharibə” və “ədəbiyyat”- bu iki anlayış ayrı-ayrı dəyərləndirildikdə aralarında bir münasibət olmadığı deyilə bilər. Lakin bunların yan-yana gəlməsiylə ortaya çıxan “müharibə ədəbiyyatı” anlayışı yaddaşlarda bəzi izlər buraxmışdır. Soyuq müharibə zamanı cəmiyyət, hadisənin maddi və mənəvi təsirlərinə məruz qalır. Bu təsirlərin müharibə illərində olduğu kimi sonrakı illərdə də yaranan sənət əsərlərinə bilavasitə təsir gücü danılmazdır.

Geniş mənada ədəbiyyat bir millətin yazıya keçsin və ya keçməsin, dilə əsaslanmış bütün mədəni nümunələrini əhatə edir. Dar mənada isə forma və məzmun yönündən böyük ustalıqla yazılmış, öz daxilində müəyyən qaydalara sahib olan dil formalarıdır **(5, 12-18).**

XX əsrdə kapitalist münasibətlərinin təşəkkülü və inkişafı ilə əlaqədar olaraq cəmiyyətin təbəqələşərək bölünməsi ingilis nəsr ədəbiyyatında da öz əksini tapan əsas bədii problemlərdəndir. Bu dövrün sadə, sıradan adam anlayışı ənənəvi “müsbət” və “mənfi” qəhrəman anlayışlarını əvəz etmir, bu anlayış sadəcə olaraq, həyatımızda çoxluq təşkil

edən və xaricdən sadə görünməsinə baxmayaraq, mürəkkəb psxilogiyaya malik adamları ehtiva edir.

Müharibədən sonra bir çox ölkələrdə olduğu kimi İngiltərədə də həm siyasi, həm iqtisadi və həm də mədəni dəyişikliklər yaşanmışdır. Bu dəyişikliklərin gerçəkləşdiyi bu zaman tarixində ədəbiyyat da özündən əvvəlki dövrlə müqayisədə özünəməxsus bir yöndə inkişaf etməyi yenidən bacarmışdır. 1950-ci illərdən sonrakı xəyal qırıqlığı, ümidlərin puç olması ədəbiyyatda da öz təsirini göstərərək ədəbiyyat nümunələrində yeni xarakterlərin yaranmasına səbəb olmuşdur. Belə ki, 1950-ci ildən sonra bir qrup gənc bir yerə toplaşaraq "Qəzəbli gənclər" hərəkatını yaratdılar. Xüsusən, 1950-1960-cı illər ingilis nəsri "Qəzəbli gənclər"in (Angry young men) yazdığı əsərlərlə yeni bir axınla ədəbiyyata qədəm qoymuşdur. Bu dövrün ədəbiyyatında daha çox işçi sinfinin, aşağı təbəqənin nümayəndələri əsas obrazlar olaraq özündən əvvəlki ədəbiyyat nümunələrindən fərqlənmişdir. Müharibə sonrasındakı siyasi, iqtisadi və mədəni dəyişikliklər ingilis nəsrində də yeniliklərin qapısını aralamağa müvəffəq olmuşdur. "Qəzəbli gənclər"in sırasında Kingsley Amis, John Wain, John Braine, John Osborne və Colin Wilson kimi dövrün reallığı ilə barışa bilməyən yazıçılar vardı **(4, 10-14).**

İngilis ədəbiyyatında "Qəzəbli gənclər"dən biri olaraq tanınan və mövcud cəmiyyətə qarşı çıxan Kinqsley Eymis (Kingsley Amis), xüsusən "Şanslı Jim" (Lucky Cim, 1954) əsəri ilə əvvəlki dövrün dəyərlərinə qarşı tənqidi cəhətdən çıxış etmişdir. Kinqsley Eymis, 1954 cü ildə nəşr etdirdiyi ilk romanı "Şanslı Jim"lə qısa bir vaxt ərzində İngiltərənin ictimai yumor sahəsində qabaqcıl yazıçılarından birinə çevrildi. K.Eymis daha sonrakı romanlarında da ingilis cəmiyyətində köhnə köklü siniflərdə çox sayda rast olunan riyakarlığı və ikiüzlülüyü şiddətlə tənqid edirdi. Onun ikinci romanı "O naməlum duyğu" (That uncertain feeling, 1955) 1962ci ildə "Yalnızca iki nəfər oynaya bilər" (Only two can play) adıyla filmə alındı. "Gombul bir ingilis" (One fat englishman, 1963) adlı romanında isə Amerikada dərs dediyi illərdəki təcrübələrini qələmə aldı **(4, 224).**

İngilis nəsrində "Qəzəbli gənclər" olaraq bilinən və bu hərəkat adı altında bir araya gəlmiş yazıçılardan biri də Ceyms Oldric (James Aldridge) olmuşdur.Onun roman və kiçik hekayələrində müharibə və sülh məsələləri, milli hərəkatlar və beynəlxalq münasibətlər diqqətəlayiq dürüstlük və cəsarətlə təsvir olunmuşdur.

Müharibədən dərhal sonra ədəbiyyat sahəsində üzə çıxan İngiltərə yazıçılarından biri də Angus Wilson olmuşdur. Humanist ənənələr Angus Wilson tərəfindən də qəbul olunmuşdur. O, əsərlərində müharibədən sonra yaranmış iqtisadi, sosial və ictimai vəziyyəti həm qısa hekayələrində, həm də romanlarında ironiya və istehza ilə ifşa edirdi. Angus Wilsonun ilk hekayələr

külliyatı "Belə əziz Dodos" (Such dearling Dodos, 1950), "Xəritədən bir parça" (A bit of the map, 1957) kitablarında cəmləşmişdir ki, burada İkinci Dünya müharibəsindən sonra İngiltərədə orta təbəqənin çəkdiyi əziyyətləri, çətinlikləri, sosial, iqtisadi vəziyyətlərini rəngarəng bədii çalarlarla, özünəməxsus ədəbi üslubda əks etdirməyi ustalıqla bacarmışdır **(4,166).**

"Qəzəbli gənclər"in yazıçıları ilə birlikdə işçi sinfini, aşağı təbəqənin insanlarının haqqlarını qoruyan, mövcud hakimiyyətə qarşı protesto elan edən yazıçılardan biri də John Braine (1922-1986) olmuşdur. O, 1957-ci ildə nəşr etdirdiyi "Yuxarıdakı yol" (Room at the top) əsəri ilə ədəbiyyata yeni bir nəfəs gətirmişdi. Onun "Acımasız oyun" (The crying game, 1968), "Səhərə qədər mənimlə qal" (Stay with me till morning,1970) kimi məşhur əsərləri vardır **(4, 230).**

Ümumiyyətlə, iyirminci əsrin ikinci yarısından sonra ingilis ədəbiyyatında yeni bir nəsil ədəbiyyatı yarandı. Məlumdur ki, iyirminci əsrin əvvəllərindən etibarən bədii yaradıcılıqda dünyanı əks etdirmənin alternativ yolları axtarılır, bədii əksetdirmənin tipologiyası kəskin şəkildə dəyişirdi. Bu proses müəyyən mənada dövrün özünün spesifikası, o zamanbaş verən hadisələrin dinamikası və digər mühüm məsələlərlə bağlı idi. Hansı problemlərdən bəhs etdiklərinə, nədən və necə yiyələndiklərinə baxmayaraq bu nəsrin yaradıcıları əsərlərində bir şeydən, psixologizmdən geniş istifadə edilməsində birləşdilər. Bu, xüsusi bir məqsəd deyildi, sadəcə olaraq, zahiri möhtəşəmlikdən qəti imtina edərək, qəhrəmanın daxili aləminə yönələn diqqət bunu tələb edirdi. 1950-70-cı illərin nəsrnində isə psixologizm tək-tək yazıçıların əsərlərində deyil, bütöv ədəbi nəslin yaradıcılığında üslubi əlamət kimi bu və ya digər çəkildə özünü göstərirdi.

İyirminci əsrdə Böyük Britaniyada ədəbiyyat sürətlə inkişaf edərək dünya ədəbiyyatında əsaslı mövqe qazandı. Bu mənada Con Faulz (John Fowles, 1926-2005), Doris Lessinq (Doris Lessing, 1919-2013) kimi ingilis yazıçılarının yaradıcılıqları dünya ədəbiyyatında xüsusi hadisə kimi qarşılandı.

"Kolleksiyaçı" (The Collector, 1963) adlı romanı ilə ədəbiyyata səs salmağı bacaran Con Faulz, bundan sonra məktəbdə müəllimliyinə son qoymuş, bütün həyatını tamamilə ədəbiyyata həsr etmişdir. Postmodern roman yazıçılarının qabaqcıllarından biri kimi qəbul edilən Con Faulzun "Cadugar" (The magus, 1965), "Fransız leytenantının qadını" (The French lieutenant's woman, 1969) kimi əsərləri yazıçının ən önəmli əsərləri qalaraq qəbul edilir. "Fransız leytenantının qadını" romanı Harold Pinterin yazdığı ssenari ilə filmə də çəkilmişdir **(3).**

1950-1970-ci illər çox sayda nəsr əsərlərin yarandığı bir dövrdür. Bu dövrdə yaşayıb-yaratmış yazıçıların adlarını qeyd edərkən Doris Lessinqin adını qeyd etməmək olmaz. Məşhur ingilis qadın yazıçısı Doris Mey Lessinq

ədəbiyyat sahəsində "Nobel mükafatı"na layiq görülən on birinci qadındır. Digər tərəfən mükafatı həyatının ən ahıl çağında – 87 yaşında alması ilə də özünəməxsus rekord sahibi olmuşdur. Yazmağa 1930-cu illərin sonlarında başlasa da "Otlar oxuyur" adlı ilk romanı yalnız 1950-ci ildə çap edilmişdir. Daha sonra yazıçı "Zorakılıq övladları" adlandırdığı beş romandan ibarət silsiləsini tamamlamışdı. Silsiləyə "Marta Kvest" (1952), "Sərfəli nikah" (1954), "Tufandan sonra sürüşmə" (1958), "Qurunun əhatəsində" (1966) və "Dörd qapılı şəhər" (1969) romanları daxil idi. Yazıçıya şöhrəti qazandıran isə ilk əsəri "Qızıl gündəlik" (1962) romanı olmuşdu. D.Lessinq özünün gənlik xatirələrini "Evə gedərkən" (1957) və "İngilis axtarışında" (1960) kitablarında toplamışdır **(3).**

Dünyanın digər nəhəng ölkələri kimi İngiltərə də çox uzun dövrlər Avropanın ictimai-siyasi, həm də ədəbi-bədii və mədəni həyatında çox önəmli rol oynayıb. Hətta elə zamanlar olub ki, öz iradəsini bütün qitəyə hökm edə bilib. Elə bu səbəbdən də son yüzilliklər boyu dünyanın bir sıra istedad sahibləri, dahiləri bu ölkəni ziyarət etməyə, burada yaşamağa, yazıb-yaratmağa can atmışlar.

Ədəbiyyat siyahısı

1. А.Д.Непров В.Д. Идеи времени и формы времени // Л., 1980, ст.385-431
2. Зарубежная литература XX века, Под ред. Л.Г.Андреева, М.,1996, с. 560
3.Steven Connor. The English novel in history, 1950 to the present // London, Routledge, 1995
4. Амелина, Татьяна Анатольевна. An Anthology of English literature XX c. Москва "Просвещение" 1985
5. Tarlan; Ali Nihat. Edebiyyat tarihi hakkında // Türk dili ve edebiyyatı, c.XIII , İstanbul; İÜ edebiyyat fakültesi.

С.Ибрагимова

Новая проза в английской литературе в 1950-х и 1970-х годах

Резюме

В этой статье будут изучены социальные изменения социокультурной среды и последствия этих изменений для общества в Англии после Второй мировой войны в период 1950-70 гг. В этом исследовании социальное и культурное состояние периода собрано из разных источников.

В середине пятидесятых годов послевоенное разочарование, расхождение между надеждами и реальностью определило характер художественной литературы, созданной группой писателей, которые пришли коллективно, чтобы их называли «сердитыми юношами». Среди них были Кингсли Амис, Джон Уэйн, Джон Брейн, Джон Осборн и Колин Уилсон. Писатели второй половины XX в. были Уильям Голдинг, Джон Фоулз, Айрис Мердок, Дорис Лессинг.

XX в. фикция не вписывалась в четкие, четкие категории. Он качался между романтизмом и реализмом, между фантазией и разочарованием. Иногда он рассматривал человеческий разум, анализировал мысли и стремления изолированных людей. Иногда он перемещался по обширной истории, отражаясь как на человеческих достижениях, так и на людях.

S.Ibrahimova

A new prose in english literature in the 1950s and 1970s

Summary

In this article, the socioncultural environment social change and the effects of this change on the society in England after World War II in the period 1950-70 will be studied. In this study the social and cultural condition of the period is gathered from various sources.

In the mid-fifties, post-war disillusionment, divergence between hopes and reality determined the character of fiction created by a group of writers who came collectively to be known as the “Angry young men”. Among them were Kingsley Amis, John Wain, John Braine, John Osborne and Colin Wilson. The novelists of the second half of the XX c. there were William Golding, John Fowles, Iris Murdoch, Doris Lessing.

XX c. fiction didn’t fit into neat, clear categories. It swung between romanticism and realism, between fantasy and disillusionment. Sometimes it examined the human mind, analysed the thoughts and yearnings of isolated individuals. Sometimes it moved across the vastness of history, reflected on both human achievement and human anguish.

Rəyçi: Cəlil Nağıyev
filologiya elmləri doktoru, professor

TƏRANƏ MƏMMƏDOVA
Azərbaycan dili və ədəbiyyat müəllimi
tarana.83@bk.ru

CƏLİL MƏMMƏDQULUZADƏNİN HƏYAT VƏ YARADICILIĞINDA "MOLLA HƏSRƏDDİN" JURNALININ YERİ

Açar sözlər: ədib, əsər, tənqidi realizm, Molla Nəsrəddin, jurnal
Ключевые слова: литератор, произведение, критический реализм, Молла Насреддин, журнал
Key words: the writer, work , critical realism, Molla Nasraddin, the magazine

Azərbaycan ədəbiyyatının qədim dövr humanizminin mahiyyət və xarakterini öyrənmək üçün Nizami poeziyası, orta əsrlər şeiri və məhəbbət lirikasının ictimai keyfiyyətlərini bilmək üçün Füzuli yaradıcılığı, XX əsrin romantizminin mürəkkəb xüsusiyyətlərini araşdırmaq üçün Hüseyn Cavid dramaturgiyası nə qədər zəngin məlumatlarlar verirdisə, yeni ədəbiyyatın ən qüdrətli məktəbi olan realizm üslubunun şəkil və məzmun xüsusiyyətlərini dürüst müəyyən etmək üçün də Cəlil Məmmədquluzadənin əsərləri əvəzsiz və tükənməz mənbədir. Ədibin çoxcəhətli fəaliyyəti ilə Azərbaycan ədəbiyyatında tənqidi realizm yeni, qüdrətli, satirik istiqamətli bir mərhələyə qaldırıldı, azad-demokratik fikirlərə yer açan "Molla Həsrəddin" ədəbi məktəbi yaradıldı.

Milli şüurun oyanmasına dərin təsir göstərən bir sıra ictimai amillərin cəsarətlə mətbuata gətirilməsində əsas yeri Cəlil Məmmədquluzadə tutur. Ədəbiyyatımızda, jurnalistika tariximizdə fleyton janrının ən müasir ustası kimi tanınan ədib siyasi uzaqgörənliyi, müasirliyi ilə fərqlənirdi.

Görkəmli ictimai xadim, maarifçi-pedaqoq, tənqidi realizm ədəbi cərəyanın bayraqdarı, ilk mənzum alleqorik dram əsərinin müəllifi, məşhur "Molla Nəsrəddin" ədəbi məktəbinin banisi və ideya rəhbəri, qüdrətli dramaturq və publisist, böyük ədib Cəlil Məmmədqulu oğlu Məmmədquluzadə 1869-cu il fevral ayının 22-də Azərbaycanın qədim diyarı olan Naxçıvan şəhərində anadan olmuşdur. (2, səh.6)

İlk təhsilinə yeddi yaşında ikən Molla Əli Hüseynzadənin yanında başlayan Cəlil, 1879-cu ildə Naxçıvanda üçsinifli şəhər məktəbinə düzəlir və 1882-ci ildə ilin avqustunda atası Məşədi Məmmədqulu onun sənədlərini hazırlayaraq Qoriyə, müəllimlər seminariyasına göndərir. Həmin il Cəlil

imtahandan müvəffəqiyyətlə keçərək "Zaqafqaziya müəllimlər seminariyasına" daxil olur.

1887-ci ildə müəllimlər seminariyasını bitirən Mirzə Cəlil, həmin ilin avqustunda İrəvan yaxınlığındakı Uluxanlı kənd məktəbinə müəllim təyin olununur. Bundan sonra o, Baş Noraşen məktəbinə müəllim, 1890-ci ilin yanvarından isə ikisinifli Nehrəm məktəbinə nəzarətçi kimi göndərilir. (2, səh.8)

Mirzə Cəlil 1897-ci ildə öz ərizəsinə əsasən Nehrəm kənd məktəbi nəzarətçisi vəzifəsindən azad edilir və Naxçıvana köçür. Ədib öz tərcümeyi halında yazır :

"Bununla bərabər, mən müəllimlikdə on ildən artıq davam gətirə bilmədim və 1898-ci ildə, Naxçıvandan köçüb gəldim İrəvan şəhərinə ki qeyri bir işlə məşğul olam."

Bu vaxtlar ədibin öz dili ilə desək, naçalnik divanxanasında mürtəcim vəzifəsindən tutmuş polis məmuru kimi işlərdə çalışımış, hətta dava vəkili (advokat) olmaq üçün hüquqi kitablar və qanunlarla da maraqlanmışdır. Ədib yazır:

" Gördüm bu işlər də mənlik deyil. Məni xarab edən iş o idi ki, hər nə işə gedirəmsə, gərək bir yekə kağız əlimə alıb hekayədən, nağıladan cızmaqaralayaydım."

Beləliklə Mirzə Cəlil yenidən Naxçıvana qayıdır və 1899-1901-ci illərdə şəhər pristavı köməkçisi vəzifəsinə çalışır. (5, səh.17)

Cəlil Məmmədquluzadənin keçdiyi həyat yoluna nəzər salsaq, görərik ki o hələ gənc yaşlarından daima axtarışda olmuşdur, həmişə gördüklərini, müşahidə etdiklərini qələmə almaq istəmişdir. Beləliklə bu istəklərin nəticəsi olaraq, hələ 1889-cu ildə Baş Noraşen məktəbində müəllim işləyərkən, özünün ilk əsəri olan "Çay dəsgahı" adlı alleqorik pyesini yazmışdır.

Ədib "Çay dəsgahı" əsəri ilə başladığı yaradıcılıq həyatını, sonradan "Kişmiş oyunu" (1892-ci il) və onun ilk nəsr əsəri olan "Danabaş kəndinin əhvalatları" (1894-cü il) povesti ilə zənginləşdirir. Mirzə Cəlilin əsərləri öz ictimai məzmunu və realistliyi ilə seçilirdi. Onun ilk mətbu hekayəsi olan "Poçt qutusu" (1903-cü il) əsəri son dərəcə sadə, həyati bir hadisə üzərində qurulmasına baxmayaraq, öz fikir dərinliyi, yığcamlılıq və əhatəliliyi ilə diqqəti cəlb edirdi. Eyni zamanda "Poçt qutusu" hekayəsi gənc yazıçının ədəbi həyatında xüsusi əhəmiyyətə malık olmuş, onun gələcək yolunu müəyyənləşdirmişdir. Təsadüfi deyil ki, yazıçı sonralar bu əsər barədə danışarkən deyirdi: (5, səh.20)

"... bu hekayəm mənim ədəbi həyatımda bir əhəmiyyətli rol oynayıbdır. Bu da odur ki, bəlkə bu hekayəmin səbəbindən .... dəxi İrəvana qayıdıb gəlmədim və Tiflisdə qalıb sonra da həmişəlik Tiflisli oldum."

Belə ki, 1903-cü ilin payızında Mirzə Cəlil müvəqqəti gəldiyi Tiflis şəhərində "Şərqi-rus" qəzetinin sahibi, Məhəmməd ağa Şahtaxtlı ilə tanış olması və Tiflisdə qalaraq "Şərqi-rus" qəzetində fəaliyyətə başlaması, onun həyatının yeni mərhələsinə qədəm qoyması ilə nəticələnir. Çünki, gənc yazıçının görkəmli mühərrir və ictimai xadim kimi yetişməsində, XX əsrin əvvəllərində Azərbaycan demokratik mətbuatının ilk nümunəsi olan "Şərqi-rus" qəzeti və onun redaktoru mühüm rol oynamışdır. Bu dövrdə Mirzə Cəlil Məhəmməd ağa Şaxtaxtlı, F. Köçərli, M.Ə.Sabir, A.Səhhət, M.S.Ordubadi, Ömər Faiq kimi öz dövrünün görkəmli ictimai xadimləri, mütərəqqi alim və yazıcılarla tanış olmuşdur.

Beləliklə, "Çay dəsgahı"ndan başlamış, "Kişmiş oyunu" və "Poçt qutusu" əsərlərinə qədərki mərhələni ədibin yaradıcılığının birinci dövrü kimi qiymətləndirilir və bu dövr bir çox çətinliklərlə bərabər, axtarış və təkmilləşmə dövrü kimi səciyyələnərək, 1903-cü ilə qədər davam etmişdir.

1905-ci ildə, maddi böhran və başqa səbəblər nəticəsində "Şərqi-rus" qəzetinin öz nəşrini dayandırması, Mirzə Cəlil və dostu Ömər Faiqlə birlikdə tacir Məşədi Ələsgər Bağırzadənin maddi yardımı ilə bu mətbəəni alması Tiflisdə yeni "Qeyrət" adlı müsəlman mətbəəsinin açılması ilə nəticələnir. "Qeyrət" mətbəəsinin ən birinci məqsədi, türkcə, farsca, ərəbcə kitablar çap və nəşr etmək olmuşdur. Eyni zamanda "Qeyrət" mətbəəsinin bir çox şair və yazıçılarımızın əsərlərini çap edərək yayması ilə, Zaqafqaziyada Azərbaycan ədəbiyyatının tanınması sahəsindəki xidmətləri çox olmuşdur.

"Qeyrət" mətbəəsinin fəaliyyətə başlamasından bir il sonra, 1906-cı ildə C.Məmmədquluzadə Tiflisin general-qubernatorundan "Qeyrət" mətbəəsində Azərbaycan dilində çap ediləcək həftəlik satirik-yumoristik "Molla Nəsrəddin " adlı jurnalın buraxılması üçün icazəni almaqla, Azərbaycanın ictimai fikir tarixində yeni dövrün başlanğıcının əsasını qoyur.

Jurnalın birinci nömrəsi, 1906-cı ilin aprelində 1000 nüsxə tirajla çapdan çıxaraq xalq arasında böyük maraqla qarşılandı. Jurnalın proqram səciyyəvi baş məqaləsində Molla Nəsrəddin üzünü doğma xalqına tutub söyləyirdi: (3, səh.4)

"Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım o kəsləri deyib gəlmişəm ki, söhbətimi xoşlamayıb bəzi bəhanələr ilə məndən qaçıb gedirlər, məsələn, fala baxdırmaga, it boğuşdurmağa, dərviş nağılına qulaq asmağa, hamamda yatmağa və qeyri bu növ vacib əməllərə. Çünki hükəmalar buyurublar: sözünü o kəslərə de ki, sənə qulaq vermirlər.

Ey mənim müsəlman qardaşlarım. Zəmanə ki, məndən bir gülməli söz eşidib ağzınızı göyə açıb gözlərinizi yumub o qədər xa-xa edib güldünüz ki, az qala bağırsaqlarınız yırtılsın və dəsmal əvəzinə

ətəklərinizə ilə üz-gözünüzü silib "lənət şeytana" dediniz, o vaxt elə güman etməyin ki, Molla Nəsrəddinə gülürsünüz. Ey mənim müsəlman qardaşlarım! Əgər bilmək istəsəniz ki, kimin üstünə gülürsünüz, o vaxt qoyunuz qabağınıza aynanı və diqqət ilə baxın camalınıza."

Molla Nəsrəddinçilər məqalələrini " ana dilində", sadə danışıq tərzində, xalqın anlayacağı, başa düşəcəyi dildə yazdılar. C.Məmmədquluzadənin öz dili ilə desək "Molla Nəsrəddin"i təbiət özü yaratdı, zəmanə özü yaratdı"

Azərbaycan ictimai fikir tarixində demokratik "Əkinçi" qəzeti ilə başlanan mütərəqqi ənənəni "Molla Nəsrəddin" özünəməxsus bir üsulla inkişaf etdirdi. Jurnalın ideya xəttini impearilistlərlə, despotlarla mübarizədən tutmuş, mövhumatçılığa qarşı və qadın azadlığı uğrunda mübarizəyə qədər geniş və zəngin fəaliyyət istiqamətləri təşkil edirdi. Jurnal xalqın dözülməz həyatı, müstəmləkəçi siyasəti, beynəlxalq irtica, millət, din, dil, qadın azadlığı, maarif, məktəb və s. kimi mühüm məsələlərdən yazırdı.

"Molla Nəsrəddin" yalnız Azərbaycan xalqının yox, əksər Şərq xalqlarının ictimai-mədəni həyatında mühüm rol oynayırdı. Jurnalın müəlliflərini "yalnız Azərbaycana aid problemlər deyil, bütün müstəmləkə və yarımmüstəmləkə vəziyyətində olan Şərq ölkələrinin həyatı maraqlandırırdı. C.Məmmədquluzadə özü bu haqda yazırdı :

" Bizim birinci işimiz, birinci vəzifəmiz gözümüzün qabağında dərin yuxuda olan islam milləti idi... Bizim qabağımızda dağ kimi duran istibdad Şərq istibdadı və Şərq qaranlığı idi..."

XX əsrin əvvələrində nəinki Zaqafqaziyada, hətta müsəlman Şərqində "Molla Nəsrəddin " kimi xalqa bağlı onun gündəlik sosial-iqtisadi həyatını, əks edirən başqa bir satirik jurnal yox idi. Bu jurnalı yaratmaqla, C.Məmmədquluzadə böyük bir ədəbi məktəbin başçısı, realist-satirik jurnalın redaktoru və naşiri kimi Zaqafqaziyanın, eləcə də müsəlman Şərqinin mədəni həyatında baş verən hər cür mühüm ədəbi hadisələrə öz münasibətini bildirirdi. Ədibin yaradıcılığının bu qızğın dövrü, ikinci dövr kimi qiymətləndirilir və inkişaf dövrü kimi səciyyələnir ki, bu dövr , Sovet hakimiyyətinin qurulmasına qədər olan müddəti davam etmişdir.

"Molla Nəsrəddin" jurnalının yaranması ilə C.Məmmədquluzadənin yaradıcılığının ikinci dövrü kimi qiymətləndirilən bu dövr eyni zamanda ədib və onun yaradıcılığı üçün bir çox çətinliklərlə də yadda qalmışdır. Belə ki, jurnalın tənqid hədəfləri - daxili dini, ictimai-siyasi problemlərdən tutmuş, Rus çarizmi, Yaxın Şərqdəki hadisələr, hətta ABŞ-İngiltərə kimi imperialist ölkələri əhatə etməklə çox geniş olduğundan, daima həmin qüvvələrin jurnala qarşı ciddi narazılıq və müqavimətləri ilə nəticələnirdi. Bu və digər səbəblərdən jurnal fəaliyyəti dövründə bir neçə dəfə bağlanılmış, dəfələrlə jurnalın mətbəəsində axtarışlar aparılmış, bəzi nüsxələri müsadirə

olunmuş, jurnalın redaktoru və işçi heyəti dəfələrlə məhkəməyə verilmişdir. Lakin bütün bunlara baxmayaraq, "Molla Nəsrəddin" öz ideyasından dönməmiş və C.Məmmədquluzadənin mübarizəsi və səyləri nəticəsində jurnal öz fəaliyyətini bərpa etmişdir. Eyni zamanda bu işdə Azərbaycanın müxtəlif bölgələrindən olan ziyalıları "Molla Nəsrəddin" jurnalını daima müdafiə etmişdilər. Onlar dövlət qurumlarına yazdıqları məktublarla, dövri mətbuat vasitəsi ilə jurnalın müdafiəsinə qalxaraq həmişə onun ideya xəttini dəstəkləmişlər.

1920-ci ildə, Azərbaycanda Sovet hakimiyyətinin qurulması C.Məmmədquluzadə yaradıcılığının üçüncü dövrü kimi xarakterizə olunur. Bu dövr həm ədibin həyat və yaradıcılığına, həm də "Molla Nəsrəddin" jurnalına öz mənfi təsirlərini göstərmişdir.

1920-ci il Azərbaycan Xalq Cümhuriyyətinin Sovet Ordusu tərəfindən işğalından sonra, o dövrün bir çox dövlət adamları, ziyalıları bolşeviklər tərəfindən həbs edilərək təqib olunmağa başladılar. Yeni yaradılan Şura hökuməti tərəfindən xan və bəy nəslindən olanlara divan tutulmağa başlanıldı. Məhz belə özbaşınalıq və hərcmərclik dövründə C.Məmmədquluzadə, həyat yoldaşı Həmidə xanımın xan nəslindən olduğunun əsas gətirərək, 1920-ci ilin iyul ayında, ailəsi ilə birlikdə Təbriz şəhərinə köçür.

Qeyd etmək lazımdır ki, düşdüyü maddi-mənəvi vəziyyətdən və baş verən siyasi- iqtisadi proseslərdən asılı olmayaraq, C.Məmmədquluzadə əsas diqqətini "Molla Nəsrəddin" jurnalına və onun yaşamasına verirdi. Çünki ədib "Molla Nəsrəddin" jurnalını öz həyatının bir hissəsi kimi qəbul edirdi. Məhz buna görə də C.Məmmədquluzadə Təbrizdə yerləşən kimi, qardaşı Mirzə Ələkbərin vasitəçiliyi ilə o vaxt yenicə hakimiyyətə gəlmiş, Təbriz milli-azadlıq hökumətinin başçısı Şeyx Məhəmməd Xiyabani ilə görüşərək, jurnalın nəşri üçün ondan koməklik istəmişdir. Lakin tezliklə Şah qoşunlarının Təbrizi yenidən ələ keçirərərək, Xiyabaninin öldürülməsi və qardaşı Mirzə Ələkbərin həbsi jurnalın nəşri məsələsini təxirə saldı. Lakin bütün bunlara baxmayaraq, C.Məmmədquluzadə Şahın nümayəndəsi olan, Təbrizin yeni valisi Məmmədqulu xanla dörd aylıq gərgin görüşlər və danışıqlardan sonra "Molla Nəsrəddin" jurnalının Təbrizdə Azərbaycan dilində çap edilməsinə icazə ala bilir.

Beləliklə, 1921-ci ilin fevral ayında "Molla Nəsrəddin" jurnalının Təbrizdə ilk nömrəsi çapdan çıxır. "Molla Nəsrəddin" jurnalınnı Təbrizdə çıxan nömrələrinin hamısında karikaturalar, rəsmlər, fleytonlar, satirik şer və yazılar xüsusi yer tuturdu ki, burada əhalinin acınacaqlı vəziyyəti, aclıq və işsizlik, ictimai pozğunluq, missionerlik və s. məsələlərdən söhbət açılırdı. Burada da İmperialistlərin törətdikləri faciələr, dini-xurafatların və nadanların tənqidi kimi məsələlər işıqlandırılırdı. Məhz reallığı əks edirən bu

məqalələr elə ilk nömrəsindən "Molla Həsrəddin" jurnalını Təbrizin sevimlisinə çevirdi. Şah rejiminin də bir çox təzyiqləri və müsadirələrinə baxmayaraq, Təbrizdə olduğu dönəmdə C.Məmməqduluzadə jurnalın səkkiz nömrəsini çap etdirə bilir.

1921-cii ldə Sovet hökumətinin təşəbbüsü və dəvətii lə C.Məmmədquluzadə ailəsi ilə yenidən Bakıya qayıdır. C.Məmmədquluzadə ilə danışıqlar aparanlar burada ona jurnalın sərbəst çapına dair bütün şəraitin yaradılacağına inandırırlar. Lakin ədib Bakıya qayıtdıqda vəziyyətin təmamilə dəyişdiyini, verilən vədlərin doğru olmadığına görür. Sonradan Azərbaycan Yazıçılar İttiqaqının üzvü , Qulam Məmmədli "Molla Nəsrəddin"in sovet dövrünü öz müsahibəsində belə təsvir edir:

"Mirzə Cəlillə Mərkəzi Komitə arasında mübahisə başladı: "Jurnal necə çıxacaq və nədən yazacaq?" M.Cəlil deyirdi: "Sizdə mətbuat partiya orqanıdır, şəxsi adamlara qəzet çıxarmağa icazə verilmir. Mən isə "Molla Nəsrəddin"i özüm yaratmışam, özüm satmışam, özüm də nə istəmişəm, onu yazmışam. Buna icazə verəcəksizmi?"

Jurnalın nəşrinə müvəffəq ola bilməyən ədib 1921-ci ilin dekabrında Qarabağa, Kəhrizliyə gedir və burada mədəni-maarif işlərininin yeni şəraitə uyğun şəkildə inkişaf etdirilməsi ilə məşğul olur. O burada Sovet hakimiyyəti qurulandan sonra bağlanan "Molla Nəsrəddin" kitabxanasının yenidən bərpasına nail olur. Lakin bütün bu işlərlə yanaşı ədib yaratdığı jurnalın bağlı qalması ilə barışa bilmir və o yenidən Bakıya qayıdaraq, uzun sürən mübarizədən sonra, 1922-ci ilin noyabrında "Molla Nəsrəddin" jurnalının Sovet hakimiyyəti dövründə ilk nömrəsinin çapdan çıxmasına nail olur. Lakin jurnalın ideya xətti Sovet rejiminin ideolojiyasına uyğun gəlmədiyindən, elə ilk nömrə çıxdıqdan sonra oradakı "Bakı nefti" adlı şer və karikaturaya görə ədibi sorğu sual olundu. Ümumiyyətlə jurnalın ideya-siyasi istiqamətləri barəsində Mərkəzi Komitənin səlahiyyət sahibləri ilə Mirzə Cəlil arasında çox dialoqlar, "tərbiyəvi söhbətlər" aparılsa da, o öz fikrindən dönmədi. Belə bir vəziyyətdə məcmuənin nəşrinin M.S.Ordubadinin nəzarəti altında həyata keçirilməsi qərarlaşdırıldı. M.Cəlilin xəbəri olmadan istəmədiyi, yaxın buraxmadığı məqsədləri, ideyaları "Molla Nəsrəddin"də həyata keçirməyə başladılar və buraxılan saylarda baş redaktor kimi yenə də onun adı yazılırdı. Bunu qəbul etməyən Mirzə Cəlil 1925-ci ildə M.S.Ordubadiyə yazırdı: (4, səh.351)

" ..... Amma bunu yenə deyirəm ki, bu gündən sonra mənim imzam məcmuədə görünsə, o vədə şikayətçi olsam, gərək heç kim məndən inciməsin"

Nəticədə 1925-ci ildən jurnal daha C.Məmmədquluzadə deyil, "Heyəti təhriyyə" imzası ilə çıxarılır və sonradan "Molla Nəsrəddin" jurnalını "Azərbaycan Allahsızlar cəmiyyəti"nin orqanına çevrilir. Bunu görən

görkəmli ədib onun jurnalının "Allahsız " adlandırılmasına qəti etirazını bildirərək bu mövqe ilə razılaşmırdı. Bu illərdə yazıçıya olan qeyri obyektiv münasibət və yanaşmalr onu çox narahat edirdi. Belə ki böyük ədib xırda burjua yazıçısı kimi qələmə verilir və onun geniş ədəbi-bədii, jurnalistik fəaliyyətinin əhəmiyyəti lazımi səviyyədə qiymətləndirilmirdi. Təbii ki belə münasibət yazıcının təkcə yaradıcılıq fəaliyyətinə deyil, həmçinin onun səhhətinə birbaşa təsir göstərirdi.

Sonralar, Qulam Məmmədli öz xatirə müsahibəsində qeyd edirdi:

"1922-ci ildən sonra "Molla Nəsrəddin" tamamilə simasını itirdi. Mirzə Cəlil ağır-mənəvi və sözün əsl mənasında maddi çətinliklər içərisində qaldı. Nəhayət, 1930-cu ildə xəstələndi. 1931-ci ilin sonunda ağır vəziyyətə düşdü. 1932-ci ilin yanvarın 4-də o, dünyanı tərk elədi."

Cəlil Məmmədquluzadənin bütün həyatını həsr etdiyi "Molla Nəsrəddin" jurnalının sonuncu nömrəsi (onun iradəsindən kənar) 1931-ci ildə buraxılmışdı. Müəyyən fasilələrlə 25 il ərzində ümumilikdə 748 nömrə ilə çıxan bu jurnal Azərbaycanda ilk dəfə olaraq realistik-satirik jurnalistika məktəbini yaratdı. Cəlil Məmmədquluzadənin zəngin bədii irsi olan "Molla Nəsrəddin" jurnalının hüdudları təkcə Azərbaycanla kifayətlənməyərək, bütün Zaqafqaziya, Yaxın və Orta Şərq, Orta Asiya, hətta Hindistanadək uzanaraq, həmin ölkələrdə ədəbi-ictimai fikrin, maarifçi-demokratik hərəkatın inkişafına təsir göstərmişdir. Üzərindən uzun müddət keçməsinə baxmayaraq, hətta bu gün də jurnalın ideyalarının davamçıları vardır. Müxtəlif veb-saytlarda və sosial şəbəkələrdə "Molla Nəsrəddin" səhifələri yaradılır, müxtəlif dərgilərdə jurnalın müxtəlif saylarındakı məqalələr və karikaturalar çap edilərək oxucularla paylaşılır. Bu jurnal istər fəaliyyəti dövründə, istərsə də sonralar dünyanın bir sıra görkəmli şərqşünas alimləri tərəfindən oxunaraq tədqiq və təqdir edilmişdir.

Ədəbiyyat:

1) C.Məmmədquluzadə. Əsərləri. Dörd cilddə. I cild. Bakı: Öndər 2004, 664 səh
2) C.Məmmədquluzadə. Əsərləri. Dörd cilddə. II cild. Bakı: Öndər 2004, 584 səh
3) C.Məmmədquluzadə. Əsərləri. Dörd cilddə. IV cild. Bakı: Öndər 2004, 472 səh
4) C.Məmmədquluzadənin həyat və yaradıcılığı. Az. SSR. Elmlər Akademiyası, Nizami adına Ədəbiyyat institutu; red. K.Məmmədov. Bakı: Elm 1974, 316 səh
5) Mir Cəlal Paşayev. Klassiklər və müasirlər. Bakı: Azərnəşr 1973, 296 səh

6) Mir Cəlal Paşayev, Hüseynov F. XX əsr Azərbaycan Ədəbiyyatı. Bakı: Maarif 1974, 390 səh

Т.Мамедова

Место занимаемое журналом "Молла Насреддин" в жизни и творчестве Джалила Мамедкулизаде

Резюме

В статье автор обратил внимание на творческий жизненный путь, выдающегося общественного деятеля, великого литератора Джалила Мамедкулизаде, начиная с начального раннего образования и всю профессиональную творческую деятельность. В тоже время автор в отдельности указал 3 периода творческой деятельности литератора и осветил согласно каждому периоду деятельность литератора, его творчество и оставленный след в мнении общественности. Одновременно автор указал на положительное и отрицательное отношение в жизненной и творческой деятельности литератора в выше указанные периоды.В статье уделяется особое внимание на создания журнала « Молла Насреддин» и на его особое влияния на общественное мнение народов Азербайджана и всего Востока. Здесь также указывается отношение к журналу общества и государства и борьба Джалила Мамедкулизаде который ценой собственной жизни, сохранил идею журнала до и после создания Советского государства на территории Азербайджана.

T.Mammadova

Place of “ Molla Nasraddin” journal in life and creation of Calil Mammadguluzadeh

Summary

In this article the author has had a look the first educational time till the creative period of the life time of the prominent public fiqure great writer Jalil Mammadguluzadeh. This time showing the writer’s creativity in three period separately the author has illuminated the writer s activities, his creativity and traces in public mind history in every period. At the same time the author has showed the positive and negative relation to the writer’s life and creativity in this time.In the article the arise of the magazine of “Molla Nasraddin” and its effect to Azerbaijan and all of the Eastern countries peoples social idea has been showed. Here has been showed the attitudes to the magazine till and after the setting up of the Soviet empire and Jalil Mammadguluzadeh’s struggle on the way of the protection at its ideological line for the sake of his life in different ways.

Rəyçi: Teymur Əhmədov
Filoloiya elmləri doktoru, professor

GÜLAĞA İSMAYILOV
AMEA-nın Məhəmməd Füzuli adına
Əlyazmalar İnstitutu
ismayilov.gulaga@mail.ru

ƏL-BAĞAVİNİN "MƏSABİH ƏS-SÜNNƏ" ƏSƏRİ

Açar sözlər: Hədis, Bağavi, "Kitabul-məsabih", hədis əlyazmaları, İslam, "Məsabih-əs-sünnə"
Ключевые слова: Хадис, Багави, "Китаб Аль-Масабих", "Масабих ас-Сунна", хадисские рукописи, Ислам
Keywords: Hadith, Baghawi, "Kitabul-masabih", "Masabih al-Sunnah", hadith manuscripts, manuscript, İslam

Məlumdur ki, Allah-Təala insanları doğru və düzgün yola yönəltmək, onların bütün fərdi və ictimai problemlərini həll etmək üçün "Qurani-Kərim"i göndərdi. Peyğəmbər (s) də Allah tərəfindən göndərilən bu müqəddəs kitabı təkcə insanlara çatdırmaqla kifayətlənməyib, eyni zamanda orada yer alan ayələri insanlara açıqlayıb izah edirdi. Bütün müsəlmanlar "Qurani-Kərim"in kamil bir ilahi kitab olması və orada heç bir dəyişikliyin olmaması haqqında müttəfiq fikirdədirlər. Lakin burada yer alan ayələr hər hansı bir anlayışı ümumi şəkildə bəyan edir, orada yer alan hökmlərin bütün təfərrüatlarını izah etmir. Deməli, belə olan halda müsəlmanların qarşısında "Qurani-Kərim"in ayələrini doğru-düzgün şəkildə başa düşmək və burada göndərilən hökmlərə necə əməl etmək problemi dayanır. Belə olduqda isə "müsəlmanların vəzifəsi nədir?" sualı ortaya çıxır. Bildiyimiz kimi "Qurani-Kərim" biz müsəlmanlara belə problemlərlə qarşılaşan zaman Peyğəmbərin (s) hədislərinə əməl və istinad etməyi əmr edir. Buna görə də müsəlman alimləri səhih hədislərin bütün müsəlmanlara höccət (dəlil) olduğu qənaətinə gəlmiş, möminlərə Peyğəmbərin sünnəsinə (s) boyun əyib, onun hökmünə tabe olmağı vacib buyurmuşlar. Allah "Qurani-Kərim"də Peyğəmbərə (s) və onun dediklərinə itaət etməyin vacibliyi haqqında kifayət qədər ayələr nazil etmişdir. Hədislərin bir qisminin "Qurani-Kərim"in hökmlərinə bərabər olması və onu izləməsi, həmçinin, şəriətin bir qisminin "Qurani-Kərim"in hökmlərindən, digər bir qisminin isə Peyğəmbərin (s) qoymuş olduğu sünnədən ibarət olduğu inkaredilməz bir həqiqətdir. Əbəs deyildir ki, hədislər "Qurani-Kərim"i izah etdiyi üçün İslam alimləri ona "vəhyi-qeyri-mətluv" (oxunmayan vəhy – G.İ.), Qurana isə "vəhyi-mətluv" (oxunan vəhy – G.İ.) demişlər (1, 15-16).

Bütün bunlardan belə nəticəyə gəlmək olur ki, sünnənin (hədisin) "Qurani-Kərim" qarşısında üç vəzifəsi vardır:

1) Təkid: "Hədis (sünnə) hər hansı bir hökmə Quran kimi dəlalət edir, yəni hər yönü ilə Quranın hökmünə uyğun bəyanat verir".

2) Təfsir və bəyan: "Hədis Quranda keçən hər hansı bir hökmü hər hansı bir yöndən açıqlayır, yəni orada olan mücməl (mənası gizli – G.İ.) və müşkül (mənası dərkedilməz – G.İ.) mənaları izah edir".

3) Təşri: "Quranın hər hansı bir mövzuda hökm gətirmədiyi halda hədis (sünnə) bir hökm ortaya qoyur" (2, 509).

İslamın ilk illərində hələ Səhabələr arasında hədis və sünnənin dəyəri çox tez anlaşılmışdır. Səhabə, Həzrəti Peyğəmbərdən (s) eşitdikləri hər hansı bir sözü və ya görmüş olduqları hər hansı bir əməli öz aralarında daima müzakirə etmiş və gündəlik həyatlarını, bu söz və əməlin ifadə etdiyi mənaya uyğunlaşdırmağa çalışmışlar. Onların sünnə və hədisə qarşı göstərdikləri bu münasibət "Qurani-Kərim"lə yanaşı, hədis və rəvayətlərdən ibarət böyük bir külliyatın yaranmasına səbəb olmuşdur.

Məlumdur ki, Rəsulallahdan (s) hədis eşidən səhabələr bu hədisləri eşitməyənlərə çatdırar, gündəlik həyatlarını, ibadətlərini hədislərə görə nizamlayar, aralarında olan münaqişələri hədis vasitəsi ilə həll edərdilər. Bu səhabələrdən xüsusi olaraq İbn Abbasın, Əbazərin, Abdullah ibn Ömərin, Ənəs ibn Malikin, Cabir ibn Abdullahın, Əbu Səid əl-Xudrinin, Salman Farsinin adlarını xüsusi qeyd edə bilərik. Belə ki, hədislər artıq bir əhkam, qanun, kodeks halına gəlmişdi və İslam cəmiyyətində sosial, hüquqi bərabərliyin qorunmasında xüsusi rol oynayırdı. Bütün bunları nəzərə alaraq Məhəmməd Peyğəmbərin (s) vəfatından sonra bu qanun toplusunu, əxlaq kodeksinin yalandan uydurulmuş hədislərdən qorumaq, haqqı batildən ayırd etmək və yalanı doğrudan seçmək üçün xüsusi qaydalar qoyuldu. Bu qaydalar vasitəsi ilə orijinal hədisləri uydurma hədislərdən fərqləndirməyə imkan yarandı. Eyni zamanda hədislərin unudulmaması və ortadan itməməmsindən ötrü onların xüsusi kitablarda cəm edilərək bablar və mövzular şəklində tərtib edilməsinə başlanıldı və hədisşünaslıq bir elm kimi formalaşmağa başladı.

Hədis kitabları arasında çox dəyərli əsərlərdən biri də İmam əl-Bağavinin (m.1122) mötəbər hədis mənbələrindən topladığı "Məsabih-əs-sünnə" əsəridir.

İmam Bağavi Xorasanda yetişən böyük hədis alimlərindəndir. Adı Hüseyn bin Məsud bin Muhəmməddir. Künyəsi isə Əbu Muhəmməddir. Ləqəbi Muhyissunnə və Ruknuddindir. Kürk hazırlayıb satmaqla məşğul olardı. Bu sənətlə məşğul olduğu üçün əl-Fərra kimi tanınırdı. Rəvayətlərə görə atası da bu sənətlə məşğul olduğu üçün ibnul-Fərra kimi də tanınardı. Şafei məzhəbi alimlərindəndir. h.436-cı (1044) ildə Xorasanda Herat ilə

Mərva şəhərləri arasında yerləşən Bağ kəndində anadan olmuşdur. Bağavi h.516-cı ilin şəvval (m.1117) Mərvdə vəfat etmiş, ustadı Qadi Hüseynin yanında dəfn olunmuşdur.

Həməvinin vermiş olduğu məlumatlar, ən qədim məlumatlar olmaqla bərabər, digər qaynaqların verdiyi məlumatlarla da ziddiyyət təşkil etməməkdədir. Bağavinin 80 ili aşan bir ömür sürdüyünü və h.516 (m.1122) tarixində vəfat etdiyi də düşünülürsə Həməvinin vermiş olduğu doğum və ölüm tarixləri arasında keçən müddət 80 ildən çoxdur.

Əlyazma əsərləri tarixi və mənəvi baxımdan böyük əhəmiyyətə malikdir. Çünki bu gün sahib olduğumuz İslam mədəniyyətinin təməl dinamikası bu cür əsərlərdən istifadə edilərək bizlərə təqdim edilmişdir.

"Şərhu əs-sünnə", "Məsabih əs-sünnə", "ət-Təhzib", "Məalimut-tənzil" kimi hədis, fiqh, təfsir sahələrinə dair əsərləri də olan Bağavinin ən əhəmiyyətli əsərlərindən biri heç şübhəsiz etibarlı hədis qaynaqlarından sənədləri çıxararaq seçdiyi hədislərdən ibarət "Məsabih-əs-sünnə" əsəridir (3, 136).

Bu əsərin elm dünyasında çox böyük əhəmiyyəti vardır ki, Brockelman, Bağavinin islam dünyasındakı şöhrətini "Məsabih əs-sünnə" adlı əsərinə borclu olduğunu ifadə etməkdədir (4).

Bağavi, müxtəlif qaynaqlardan toplamış olduğu hədisləri bir araya gətirməklə yazmış olduğu bu əsərin bənzərlərini hədis tarixində İbnul-Əsir əl-Cəzərinin (h.606 /m.1209) "Camiul-üsul", Nəvəvinin (h.676/m.1277) "Riyazüs-salihin" adlı əsərlərində də görürük. Katib Çələbi (h.1067/m.1677) "Yığma mahiyyətində yazılan əsərlərin ən gözəli Bağavinin "Məsabih" adlı əsəridir demişdir. Çünki onun tərtibi çox gözəldir. Hədislər yerli yerində yığılmışdır. Bir başqası hər hansı bir babın yerini dəyişdirməyə çalışsa Bağavidən daha uyğun bir yerə qoymazdı deyərək əsəri tərifləyir (5, 1701,1702).

Bağavi "Məsabih əs-sünnə" əsərinə yazmış olduğu müqəddiməsində əsərini Allaha itaət edənlərə kömək etmək üçün yazdığını bildirməklə, hədislərin sənədlərini (sənəd kəlməsi lüğətdə dirək, dayaq və s. mənaları ifadə edir. İstilahi mənada isə hədisin mətnini gətirib çıxaran ravilərin silsiləsinə "sənəd" deyilir – G.İ.) uzatmaqdan qoruduğu və hədis imamlarının rəvayətlərinə istinad etdiyi üçün hədislərin ilk ravilərini belə yazmadığını bildirir. Əsərində zəif hədislərə işarə etdiyini və əsərinə "mövdu" (uydurma), münkər (etibarsız ravinin etibarlı raviyə müxalif olaraq rəvayət etdiyi hədis "münkər" (qəbul edilməyən, inkar edilən – G.İ.) hədisləri yazmadığını bildirir (6, 110).

Bağavi əsərini bab sisteminə görə tərtib etmiş və üsulunu şəxsən özü çox qısa qəbul edilə biləcək müqəddiməsində ortaya qoymuşdur. Müqəddimədə bildirdiyi kimi əsərini bablar əsasında tərtib etmiş və hər

babın mövzusu ilə bağlı olan hədisləri "Sihah" və "Hisan" olmaq üzrə iki ana kateqoriyada yazmışdır. Buxari (h.256 /m. 870) və Müslimin (h.261/m.875) birlikdə rəvayət etdikləri, ya da birinin rəvayət etdiyi bir hədisi əsərinə yazıbsa bu hədisləri "Sihah" başlığı altında, Tirmizi (h.279 /m.892), Əbu Davud (h.275/m.888) və digər hədis imamlarından nəql etdiyi hədisləri də "Hisan" adı altında bir araya gətirdiyini ifadə etmişdir (5, 1698).

"Sihah" səhih kəlməsinin cəm formasıdır. Bu kəlmə lüğətdə müxtəlif mənalarda istifadə olunur. Məsələn: sağlam, möhkəm, qıvraq, gümrah və s. İstilahi mənada isə – səhih hədis, isnadının əvvəlindən axırına qədər dəqiq olan insaflı ravinin aramsız, sapdırmadan və qüsursuz olaraq özü kimisindən xəbər verdiyi hədisdir. "Hisan" isə "həsən" kəlməsinin cəmidir. Bu kəlmə lüğətdə yaxşı, çox gözəl, və s. mənaları ifadə edir. İstilahi mənada İbn Həcərin tərifinə əsaslanıb belə demək olar: "Həsən hədis, isnadının əvvəlindən axırına qədər (mühafizə, yaxud yazdıqlarını qorumaq baxımından) dəqiqliyi az olan insaflı ravinin aramsız, sapdırmadan və qüsursuz olaraq özü kimisindən xəbər verdiyi hədisdir".

Bağavinin əsəri tədqiq edildikdə hər babdan mütləq "Sihah" və "Hisan" olmaq üzrə iki fəsil açmadığını bəzən bab başlığının dərhal altında yalnız "Sihah" hissəsinə yer verdiyini, bundan dərhal sonra "Hisan" hissəsinin olmadığını görürük. Bəzən bab başlığının qoyulmadığı da müşahidə edilməkdədir (6, 277, 408, 455, 501).

Katib Çələbi "Məsabih əs-sünnə"də toplam 4719 hədisin olduğunu, bunların 875-nin Müslimdən, 325-nin Buxaridən rəvayət edildiyini, 1051 ədəd hədisin isə Buxari və Müslümün ortaq rəvayət etdiyi hədislər olduğunu, digər hədislərində başqa qaynaqlardan nəql edildiyini yazır (5, 1698).

"Məsabih əs-sünnə"nin başda Süleymaniyyə kitabxanası olmaq üzrə dünyanın bir çox yerlərində yazılı nüsxələrinin olduğu aydındır. Bununla belə əsər bir neçə dəfə çap olunmuşdur. "Məsabih əs-sünnə" 1877-ci ildə Misirin Bulak şəhərində, 1900 və 1935-ci illərdə Qahirədə çap olunmuşdur. Ən sonuncu nüsxə 1987-ci ildə Beyrutda Yusif Abdurrahman əl-Maraşlı, Məhəmməd Səlim İbrahim Sərara və Camal Həmdi əz- Zəhəbi üçlüyü tərəfindən tədqiq edilərək dörd cilddə çap olunmuşdur. Son cildində ətraflı məlumatı olan mündəricat var. "Məsabih əs-sünnə" Osmanlı dövlətinin dövründə türk dilinə tərcümə edilmişdir. Süleymaniyyə kitabxanası, Çələbi Abdullah Əfəndi bölümündə 44 nömrədə qeydiyyatda olan 13b-298a səhifələri arasından tapılan və tərcüməçisi bəlli olmayan bir "Məsabih" tərcüməsi vardır. İstanbulda Nuruosmaniyə kitabxanasında 1107, 1108 nömrələri ilə qeydiyyatda olan, Camal Əfəndi tərəfindən osmanlı türkçəsinə tərcümə edilən iki cildli "Məsabih" nüsxəsinin olduğu bilinməkdədir. Həmçinin başqa bir "Məsabihi" Sinan Əfəndi adlı bir tərcüməçinin də tərcümə etdiyindən bəhs edilir. Bu tərcümənin Muğla kitabxanasında

saxlandığı qeyd edilməkdədir (7, 184). Eyni zamanda "Məsabih əs-sünnə" üzərində ixtisar, tədqiq və şərh kimi çox çeşidli çalışmalar aparılmışdır (5, 1698-1702).

Əsərə "Məsabih" adının verilməsi ilə bağlı fərqli fikirlər mövcuddur. "Məsabih", "Məsabih əs-sünnə", "Məsabih fil-hədis", "əl-Məsabih fis-sihah vəl-hisan", "Məsabih əs-sünən" kimi fərqli adlar bu məzmunda əsərin adı olaraq çəkilməkdədir (6, 54).

Tədqiqatçı alim Yusif Abdurrahman əl-Maraşlı müəllifin yəni Bağavinin əsərinə müəyyən bir ad qoymadığını və "Məsabih" adının Brockelmanın ifadə etdiyi kimi müəllifin əsərin müqəddiməsində istifadə etdiyi "مصابيح الدجى" "Məsəbih əd-ducə" tərkibindən aldığını ifadə etsədə, müəllifə ən yaxın olan əlimizdəki nüsxədə birbaşa "Kitabul-məsabih" adının istifadə olunması, bu əsərin adının müəllif tərəfindən təyin edildiyi nəzəriyyəsini gücləndirməkdədir (8, 235).

Araşdırmalara əsasən "Kutubu-sittə" və digər təməl hədis qaynaqlarını əsas götürərək hədis kitabı yazan ilk alim Bağavi ləqəbi ilə tanınan Hüseyn bin Məsud (h.516/m.1122) olmuşdur. O, "Məsabih əs-sünnə" adlı əsərini başda "Kutubu-sittə" olmaqla Dariminin "əs-Sünən", Malikinin "əl-Muvatta", Şafeinin "əl-Musnəd", Dariqutninin "əs-Sünən" və Beyhəqinin "Şuabul-iman" adlı əsərlərindən toplamışdır (9, 1698).

"Məsabih əs-sünnə" hədislərin isnadında yalnız səhabəni zikr edib digər ravilərin tərk edildiyi ilk əsərdir. Bağavi Buxari və Müslümün "səhih" adlı əsərlərindən birində və ya hər ikisində olan hədisləri "Sihah", Əbu Davud, Tirmizi və digər hədis kitablarından topladığı hədisləri isə "Həsən" olaraq qeyd etmişdir. Az sayda zəif hədislərin durumuna işarə edilmişdir. Lakin Bağavinin bu şəkildə bölümü müsbət qarşılanmamışdır. "Sünən" müəlliflərinin əsərlərində həsən hədislə yanaşı (səhih hədisdən bir qədər aşağı dərəcədə duran hədisə "həsən" (yaxşı) hədis deyilir – G.İ.), səhih və zəif hədislərin də olduğunu əsas gətirərək Bağaviyə tənqidlər edilmişdir. Əsərdə "Səhiheyndən" (Buxari və Müslüm) 2434, digər hədis kitablarından isə 2050 hədis mövcuddur.

"Məsabih əs-sünnə" İslam dünyasında böyük şöhrət qazanmış və barəsində qırxdan artıq şərh yazılmışdır. Bunlar arasında ən məşhuru Xətib ət-Təbrizi kimi tanınan məhşur azərbaycanlı alim Məhəmməd bin Abdullahın (h.737/m.1336) "Mişqatul-məsabih" əsəridir. Birinci bölüm Bağavinin "Sihah" (Səhihlər) adlandırdığı hədisləri əhatə edir. Bunlar Buxari və Müslümün hər ikisinin kitablarında olan və ya ayrı-ayrılıqda öz kitablarında gətirdikləri hədislərdir. İkinci bölüm Bağavinin "Hisan" dediyi həsən hədislərdən təşkil olunmuşdur. Üçüncü bölüm isə Bağavinin "Məsabihdə" gətirmədiyi, Xətib ət-Təbrizinin etdiyi əlavələrdən ibarətdir.

Müəllif Bağavinin qapalı buraxdığı yerləri açıqlamış və hədislərin ravilərini qeyd etmişdir. Xətib ət-Təbrizinin əsərin hər üç bölümünə əlavə etdiyi hədislərin sayı 1511-dir. Xətib ət-Təbrizinin əsərinə də çoxlu şərhlər yazılmışdır. Onlardan ən məşhuru Əli əl-Qarinin "Mirqatul-məfatih" adlı əsəridir (10).

Xətib Təbrizinin "Mişqətul-məsabih" əsərinə ilk şərh, Tibi tərəfindən "əl-Kaşif an haqaiqis-sünən" (Şərhut-tibi alə mişkətil-məsabih) adıyla yazılmışdır. Məhəmməd Rifat Zencir, Tibinin şərhinə müstəqil araşdırma aparmışdır. "Mişqatul-məsabih" haqqında ən önəmli araşdırma isə Ali əl-Qarinin "Mirqatul-məfatih" adlı əsəridir.

"Mişqatul-məsabih" müxtəlif dillərə tərcümə edilmişdir. Bunlardan "A.N Mattehwin mischat al-masabih" (I-II, Calcutta 1809-1810), Mövlanə Fazlulkərimin "al-Hadis an english translation and commentary of mishkat ul-masabih" (Calcutta 1938-1939) adlı ingiliscə tərcüməsini, Muhamməd Kutub Xan əd-Dihləvinin hindcə tərcüməsini göstərmək olar.

Brockelmanın Bağavinin əsərində gətirdiyi hədisləri səhih, həsən, zəif və ğərib olmaqla üç qismə ayırdığını söyləməsi (İA, II, 449) yekdilliklə qəbul edilməmişdir. Bağavi başqa mənbələrdə olmayan "Səhiheyn"dən (Buxari və Müslüm) seçdiyi hədislər üçün "sihah" (2434 hədis), digər hədis kitablarından seçdiyi hədislər üçün isə "hisan" (2050 hədis) termini işlətmişdir. Bağavinin öz əsərində "Səhiheyndən" (Buxari və Müslüm) başqa "Kutubu sittə" ilə Dariminin "əs-Ssnən", Malikinin "əl-Müvətta", Şafeinin "əl-Müsnəd", Dariqutnunun "əs-Sunən", Beyhəqinin "Şuabul-iman" və Əndəlüslü hədisçi Rəzi bin Müaviyə əs-Sarakustinin "ət-Təcrid lis-sihah vəs-sunən" əsərlərindən gətirmişdir. Islam aləmində böyük şöhrət qazanan və üzərinə qırxdan artıq şərh yazılan "Məsabih əs-sünnə"də 4931 hədisin olmasıda qeyd edilmişdir (6, 57).

"Məsabih əs-sünnədəki" hədislərin sənədləri səhabə və ya nadir hallarda tabein ravisi xaricində ilk dəfə olaraq hədis elmində bu əsərdə tərk edilmişdir (11, 34). "Səhiheyn" hədisləri xaricində bütün rəvayətləri "həsən" hesab etməsinə görə Bağaviyə ciddi etirazlar olmuşdur (9,156). Nəvəvi, sünən müəlliflərinin əsərlərində həsən rəvayətlərin xaricində səhih və zəif hədislərin də ola biləcəyini söyləmişdir. İbni Həcər əl-Əsqalani, Suyuti və Zeynuddin əl-İraqi kimi muhəddislər də Bağaviyə tənqidlər etmişlər.

Lakin Muhyiddin əl-Kafiyeci kimi bəzi hənəfi alimləri bu ifadənin bir termin olması səbəbiylə etirazın doğru olmadığını söyləmişlər**.** Digər tərəfdən Əbu Hafs Siracuddin Ömər bin Ali əl-Qəzvini əsərdə keçən hədislərdən bəzilərinin "movdu" (uydurma) olduğunu iddia etmiş, bu iddiaya Alai "ən-Nəqdus-sahih limə uturida aleyhi min ahadisil-məsabih" adlı əsərində (nşr. Mahmud Said Məmduh, Beyrut 1990), İbni Həcər əl-Əsqəlani

də "əl-Əcvibə an əhadis vaqaat fi məsabih əs-sünnə və vusifət bil-vad"adlı yazdığı bir risalədə cavab vermişdir.

Hər iki çalışma İbni Həcərin "Hidayətur-ruvat ilə təxrici əhadisil-məsabih vəl-mişkat" adlı əsəri ilə birlikdə yayımlanmışdır. Ayrıca "Məsabih əs-sünnə"də mövdu (uydurma) olaraq bildirilən hədislərin əslində mövdu deyil, böyük ehtimalla ricalının (hədisi rəvayət edənlərin) dabt (hifz) qüsuru olması səbəbi ilə zəif olması və bunların başqa yollarla dəstəklənib həsən dərəcəsinə çata biləcəyi deyilmişdir (12). "Məsabih əs-sünnə" Bulaqda (1294) və Qahirədə (1318) "Mişkat" ilə birlikdə, ayrıca Yusuf Abdurrahman əl-Maraşlı, Muhəmməd Səlim İbrahim Camal Həmdi əz-Zəhəbi tərəfindən hədislərin təxric olunması üzrə dörd cild halında (Beyrut h.1407/m.1987) çap edilmişdir.

İbni Həcər Əl-Əsqəlaninin ustadı Sədrəddin Muhəmməd bin İbrahim bin İshaq əs-Suləmi əl-Munavi "Kəşful-mənahic vət-tənakih fi təxricil-əhadisil-məsabih" əsərində kitabdakı hədisləri təxric etmişdir. İbni Həcər bu əsərdən faydalanaraq "Hidayətur-ruvat" kitabında həm hər iki əsərin hədislərini seçmiş, həm də bu əsərlərdə keçən hədislərlə bağlı önəmli şərhlər və açıqlamalar vermişdir (13).

Məlumdur ki, əsər müxtəlif dillərə tərcümə edilmişdir. Bunlardan 1699-cu (h. 1080) ildə türkcəyə tərcümə edilən "Tərcümətu məsabih əs-sünnə" Sinanəddin Yusuf bin Husaməddin əl-Amasinin "Muntəhbəti məsabih" tərcüməsini qeyd edə bilərik (14).

İmam Bağavi "Məsabih əs-sünnə" əsərinin müqəddiməsində Allaha həmd və səna etdikdən sonra bu əzəmətli əsərini qələmə alıb ərsəyə gətirməsinin səbəblərini qeyd etmişdir. İmam Bağavi çox bəlağətli ifadələrlə hədisləri və o hədislərin qaynağı olan həzrəti Məhəmməd (s) peyğəmbəri mədh edərək yazır "Bunlar nübüvvət sinəsindən çıxmış sözlər, risalət mədənindən peyğəmbərlərin seyyidi və sonuncusu tərəfindən gələn hədislərdir. Onlar təqva qəndilindən saçan parlaq çıraqdır. Hədis imamlarının öz əsərlərində göstərdiklərini özünü ibadətə həsr edənlər üçün Quranla yanaşı hədislərdən ibarət bir zəxirə (Vaxtı çatanda istifadə edilmək üçün tədarük edilib anbarda saxlanılan ərzaq, əşya – G.İ.) olsun deyə bir yerə cəm etdim. Oxucuları yormamaq üçün hədisşünasların əsərlərində nəql etdikləri sənədlərlə kifayətlənərək öz əsərimdə həmən sənədləri tərk etdim. Bəzən ehtiyac olduqda Peyğəmbərdən (s) rəvayət edən səhabələri qeyd etdim. Hər babın altında yerləşən hədisləri "Sihah" və "Hisan" olaraq iki qismə böldüm. "Sihah" dedikdə Buxari və Müslimin və ya hər hansı birinin səhih adlı əsərindən, "Hisan" dedikdə isə Əbu Davudun, Tirmizinin və digər hədis imamlarının əsərlərindən topladığım hədisləri nəzərdə tutmuşam. Zəif və qərib hədislərə işarə etmiş, mövdu (uydurma) və münkər (etibarsız

ravinin etibarlı raviyə müxalif olaraq rəvayət etdiyi hədis "münkər" adlanır – G.İ.) hədislərə isə yer verməmişəm (15, 17).

Sonda onu da qeyd edək ki, orta əsr mədrəsələrində, İslam dinin təlim olunduğu yerlərdə Bağavinin bu əsəri xüsusilə hədis sahəsində güvənilən, etibar edilən bir mənbə olmuşdur. Təsadüfi deyil ki, adıçəkilən əsər müasir dövür hədisşünaslıq sahəsində də öz əhəmiyyətini qoruyub saxlamaqdadır.

İstifadə olunmuş ədəbiyyat

1.Yəhya bin Şərəf Nəvəvi "Riyazüs-salehin" Diməşq-Beyrut c. I,
2.Əllamə Muhəmməd Baqir Məclisi İsbahani "Biharül-ənvar", c. II,
3."Vafayat əl-ayan" (Müəllif: əl-Qadi bin Xalkan, 608-681 h.q. Nəşr Beyrut, cild 8, səh 855)
4.www.tdvia.org/dia/ayrmetin.
5.Katip Çelebi, "Keşfuz-zunun", MEB Yayınları, İstanbul,1971, c. 2,
6. "Məsabih əs-sünnə", thq. Yusuf Abdurrahman əl-Maraşli, Darul-Marif, Beyrut, 1987.
7. "Osmanlı Müəllifləri" Bursalı Məhmət Tahir Əfəndi. İstanbul, 1344/1425, c.1)
8. "Tarixul-ədəbil-arabi" Carl Brockelmann, c.6
9. "Kəşfüz-zünun", Hacı Xəlifə , "Daru ehyai turas əl-arabiy", c.II, s.1023)
10. Türkiye Diyanet Vakfı, İslam Ansiklopedisi, 2004, Cilt:29.
11. "Ulumul-hadis", İbnus-Salah, "Darul-fikr", 1986, səh.519
12. Zofar, XXXIII/3 [1989], s. 190-192 (Türkcə-elektron-versiya)
13. Süleymaniye Ktp., Fatih, nr. 1133; Millət Ktp., Feyzullah Efendi, nr. 286; Bursa Ulucami Ktp., nr. 734
14. Hasan Hüsnü Paşa, Süleymaniye Ktp, nr. 239
15. Əl-Hüseyn bin Məhəmməd bin Həsən əz-Zeydani əl-Məzhəri əl-kufiy "Məfatih fi şərhi əl-Məsabih", nəşr "Vizaratul-əvqaf və şuunul-islamiyyə" 1433/2012, c.1.

G.İsmayılov

Al-Bağavin's Messenger's Sunny

Summary

This article explores the style, sources and methods of the work of "Masabih-as-Sunnah" by the great Khorasan researcher of hadiths Bagavi. And also attention was drawn to the numerous interpretations written to this work. In addition, a brief review of handwritten copies of works available in world libraries was provided also.

At the concluding remarks it is said that Baghawi is a medieval worker in Islam where he taught Islam, as well as a trustworthy and trustworthy hadith. Whether or not this work will continue to preserve its relevance in the current literary criticism.

Also in the article have been given the investigations about the research on translators and on written translation copies of the work mentioned above. The structure of the work of "Masabih al-Sunna" is also considered here:

The collection is divided into chapters, which are further divided into two separate sections, the first is called "Sahih", and the second section is called "Hasan".

Г.Исмаилов

Солнце Аль-Бахавина

Резюме

В данной статье исследован стиль, источники и методика произведения "Масабих ас-Сунна" великого Хорасанского исследователя хадисов Багави. А также было обращено внимание на многочисленные толкования к этому произведению. Кроме того был предоставлен краткий обзор рукописных копий произведения имеющихся в мировых библиотеках. В конце следует отметить, что работа Багхави в средневековых медресе, где преподавали ислам, была источником доверия и доверия к хадису. Не случайно эта работа продолжает сохранять свое значение в области современной литературной критики.

В статье также даны исследования о переводчиках и об образцах письменного перевода работы, упомянутой выше. Здесь также рассматривается структура работы "Масабих аль-Сунна": Сборник разделен на главы, которые далее делятся на две отдельные секции, первая называется "Сахих", а вторая секция называется "Хасан".

Rəyçi: Kamandar Şərifov
Filologiya elmləri doktoru, professor

DİLÇİLİK

KƏMALƏ İSLAMZADƏ
MƏRASİMLƏRİN VƏ EPİK JANRLARIN TƏRKİBİNDƏ YASAQLAR 3
SƏİDƏ RÜSTƏMOVA
M.MÜŞFİQİN ŞEİRLƏRİNDƏ MORFOLOJİ TƏKRARLAR 15
СЕВИНДЖ ГУСЕЙНОВА
ЛИНГВОСТРАНОВЕДЧЕСКИЙ ПОДХОД В ОБУЧЕНИИ ИНОСТРАННОМУ ЯЗЫКУ 22
MƏLAHƏT MUSTAFAYEVA
ŞİFAHİ TƏRCÜMƏNİN MÜASİR VƏ AKTUAL PROBLEMLƏRİ 29
АИДА СОБОР
ВЗАИМНОЕ ВЛИЯНИЕ ЯЗЫКОВ 35
ELNARƏ MƏMMƏDOVA
M.KAŞĞARİNİN "DİVANÜ LÜĞAT-İT TÜRK" ƏSƏRİNDƏ FEİLİN TƏSİRLİLİK KATEQORİYASI 44
ƏSMƏR VEYISOVA
MƏCAZ NÖVLƏRİ VƏ ONLARIN TƏSNİFATI (İngilis dilinin materialları əsasında) 50
СЕВИНДЖ ДЖАБРАИЛОВА
РАЗВИТИЕ ГРАММАТИЧЕСКИХ НАВЫКОВ ИНОЯЗЫЧНОГО ОБЩЕНИЯ 60
ŞƏKƏR MƏMMƏDOVA
FRAZEOLOJİ VAHİDLƏR ƏDƏBİ DİL VƏ NAXÇIVAN DİALEKT VƏ ŞİVƏLƏRİNDƏ 67
TÜRKAN ABBASOVA
TƏNQİDİ DÜŞÜNMƏ BACARIĞININ TƏRİFİNƏ DAİR MÜLAHİZƏLƏR 77
OFELİYA ŞÜKÜROVA
ZÜMRÜD MAHMUDOVA
MULTİCULTURALISM AND LANGUAGE 84
GÖVHƏR BAĞIROVA
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN DİLİ 89
HƏLİMƏ AĞAYEVA
NİTQ MƏDƏNİYYƏTİ VƏ ÜNSİYYƏT BACARIĞI 94
SƏFA ABADOVA
MÜASİR AZƏRBAYCAN DİLİNİN SİNTAKSİSİNİN BƏZİ PROBLEMLƏRİ HAQQINDA 99
KÖNÜL QOCAYEVA
İNGİLİS DİLİNDƏN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏ PROSESİNDƏ ANTROPONİM VƏ TOPONİMLƏRİN TRANSLİTERASİYASİ 104

ARİFƏ YUSİFOVA
CƏLİL MƏMMƏDQULUZADƏNİN YARADICILIĞINDA ARXAİK SÖZLƏR VƏ TARİXİZMLƏR 109
İRADƏ ABDULLAYEVA
ƏKSMƏNALI SÖZLƏRİN İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ LEKSSİK-SEMANTİK VƏ MORFOLOJİ XÜSUSİYYƏTLƏRİ 117
MÜZƏFFƏR İBRAHIMOV
TYPOLOGICAL DIFFERENCE BETWEEN THE CONCEPTIONS "TEXT AS THE OBJECT OF GENERAL TRANSLATION THEORY" AND "THE TEXT OF THE ARTISTIC WORK AS THE OBJECT OF ARTISTIC TRANSLATION THEORY" 122
ƏFSANƏ HƏZİYEVA
"SİYASİ KORREKTƏLIK" – KALKA ÜSULU İLƏ YARANAN "YENI NƏSİL" TERMİNLƏRIN ANLAYIŞ MƏNİMSƏNİLMƏSİNİ ŞƏRTLƏNDİRƏN ƏSAS FAKTORLARDAN BİRİ KİMİ (PROBLEMİN NƏZƏRİ ASPEKTLƏRİNƏ DAİR) 127
YEGANE MƏMMƏDOVA
ОБУЧЕНИЕ РАЗГОВОРНОЙ РУССКОЙ РЕЧИ СТУДЕНТОВ-ИНОСТРАНЦЕВ 136
İLHAMƏ MƏMMƏD
İNGİLİS DİLİNİN İNKİŞAF MƏRHƏLƏLƏRİDƏ ALINMA SÖZLƏRİN ÖZÜNƏMƏXSUSLUĞU 142
MURAD ƏMƏNOV
MƏHƏMMƏDHÜSEYN ŞƏHRİYARIN DİLİNDƏ ONOMASTİK... VAHİDLƏR 150
FİRUZƏ SADIQOVA
"QUTADĞU BİLİG" ƏSƏRİNDƏ FEİLLƏRİN QRAMMATİK VƏ SEMANTİK XÜSUSİYYƏTLƏRİ 156
HÜSEYN SADIQOV
ATATÜRKÜN SAĞLIĞINDA KEÇİRİLƏN TÜRK DİLİ QURULTAYLARI*(İkinci məqalə)* *163*
XƏYALƏ RZAYEVA
DİLÇİLİKDƏ RƏNG ADLARININ TƏDQIQININ BƏZİ MƏSƏLƏLƏRİ HAQQINDA 173
ГЮЛЬШАН АЛИЕВА
СОВРЕМЕННЫЕ ЛИНГВИСТИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ ТЕХНИЧЕСКИХ ТЕРМИНОВ 183
ELNURƏ ABBASOVA
AZƏRBAYCAN VƏ ƏRƏB DİLLƏRİNDƏ ADLIQ HALIN DİAXRONİK ASPEKTLƏRİ 189
KƏMALƏ ƏLİYEVA
TƏSİRLİLİK VƏ NÖV KATEQORİYALARININ CÜMLƏNİN STRUKTUR-SEMANTİK FORMALAŞMASINDA ROLU 194

BAHAR CƏFƏROVA
SAMİRƏ VƏLİYEVA
TERMİNLƏR VƏ ONLARIN KALKA ÜSULU ILƏ
YARADILMASI 203
ZEYNƏB YUSİFOVA
MÜASİR İNGİLİS DİLİNDƏ SÖZLƏRİN BİRLƏŞMƏ
İMKANLARI 210
VƏFA PİRİYEVA
MÜASİR AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ
NƏZAKƏT MÜNASİBƏTLƏRİ İFADƏ EDƏN SÖZ VƏ
İFADƏLƏRİN İNTONATİV XÜSUSİYYƏTLƏRİ 251

ƏDƏBİYYATŞÜNASLIQ

TƏRANƏ ASLANOVA
AFAQ MƏSUDUN YARADICILIĞINDA QADIN OBRAZLARI 222
GÜLTƏKİN ƏLİYEVA
ƏLƏKBƏR SALAHZADƏ SƏRBƏST POEZİYANIN GÖRKƏMLİ
NÜMAYƏNDƏSİ KİMİ 228
NAZƏNDƏ HACIYEVA
H.CAVİDİN DRAMLARINDA QADIN - QƏHRƏMANLIQ
İDEALI KİMİ238
ALMARA NƏBİYEVA
AZƏRBAYCANDA “KİTABI-DƏDƏ QORQUD” DASTANININ
ARAŞDIRILMASI VƏ NƏŞRİ TARIXİ 243
SAMİRƏ RZAYEVA
NAMİK KAMALIN “VƏTƏN ŞARKISI” ŞEIRINDƏ
TÜRK XAQLIN ƏZMKAR OBRAZ 251
SURA PƏNAHLI
ƏDƏBİYYATIMIZDA MULTIKULTURALIZM ƏNƏNƏSİ..... 258
HUMAY MƏRDANLI
ŞEYX QALİB YARADICILIĞINDA MƏNA GÖZƏLLİYİ..... 266
YADULLA ƏLƏKBƏROV
NAĞIL VƏ MIF MÜNASİBƏTLƏRİNİN NƏZƏRİ
MƏSƏLƏLƏRİ: MİFİK TƏSƏVVÜR VƏ MİFİK MƏTN 272
MƏTANƏT ŞAHALİYEVA
NƏBATİ YARADICILIĞINDA "VÜCUDİ-VƏHDƏT" AŞİQLİYİ.... 279
ŞƏMS BƏHRAMİ
BİRİNCİ DÜNYA MÜHARİBƏSİNİN İNGİLİS ƏDƏBIYYATINA
TƏSİRİ (OLDOS HAKSLININ “SARI XROM”
ROMANI ƏSASINDA) 287
SƏMƏNİ ABBASOVA
SƏİD FAİQ ƏBASIYANIĞIN TƏNQİDİ GÖRÜŞLƏRİ 296
RUZANƏ SÜLEYMANOVA
YUNUS ƏMRƏ İRSİNİN DÜNYA
ƏDƏBİYYATŞÜNASLIĞINDA ÖYRƏNİLMƏSİ..... 304

NƏRGİZ KƏRİMOVA
AZƏRBAYCAN BƏDİİ ƏDƏBİYYATI ÇİN DİLİNDƏ.....310
SƏLİQƏ İBRAHİMOVA
1950-70-Cİ İLLƏR İNGİLİS ƏDƏBİYYATINDA YENİ NƏSR 316
TƏRANƏ MƏMMƏDOVA
CƏLİL MƏMMƏDQULUZADƏNİN HƏYAT VƏ
YARADICILIĞINDA "MOLLA HƏSRƏDDİN"
JURNALININ YERİ.....323
GÜLAĞA İSMAYILOV
ƏL-BAĞAVİNİN "MƏSABİH ƏS-SÜNNƏ" ƏSƏRİ.....331

***«Elm və təhsil»* nəşriyyatının direktoru:**
***professor* Nadir MƏMMƏDLİ**

Dizayn: **Zahid Məmmədov**
Texniki redaktor: **Yadigar Bagırova**

Çapa imzalanmış 25.11.2018.
Şərti çap vərəqi 21,5 Sifariş № 19.
Kağız formatı 70x100 1/16. Tiraj 300.

---

*Jjurnal **"Elm və təhsil"** nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
E-mail: elm. ve. tehsil@mail. ru
Tel: 497-16-32; 055 426 -72-27
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.